AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
M. FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

FİLOLOGİYA MƏSƏLƏLƏRİ

№ 5

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır (Filologiya elmləri bölməsi, №13).
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Mətbu nəşrlərin reyestrinə daxil edilmişdir. Reyestr №3222.

«Elm və təhsil»
Bakı – 2023

REDAKSİYA HEYƏTİ: akademik İsa Həbibbəyli, akademik Teymur Kərimli, akademik Möhsün Nağısoylu, akademik Nizami Cəfərov, akademik Rafael Hüseynov, AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, prof. Əbülfəz Quliyev, filologiya elmləri doktoru, prof. Nadir Məmmədli, filologiya elmləri doktoru, prof. Rüfət Rüstəmov, filologiya elmləri doktoru, prof. Fəxrəddin Veysəlli, filologiya elmləri doktoru, prof. Qəzənfər Kazımov, filologiya elmləri doktoru, prof. Əsgər Rəsulov, filologiya elmləri doktoru, prof. Məsud Mahmudov, filologiya elmləri doktoru, prof. Əbülfəz Rəcəbli, filologiya elmləri doktoru, prof. Cəlil Nağıyev, filologiya elmləri doktoru, prof. İsmayıl Məmmədli, filologiya elmləri doktoru, prof. Həbib Zərbəliyev, filologiya elmləri doktoru, prof. İlham Tahirov, filologiya elmləri doktoru, prof. Tofiq Hacıyev, filologiya elmləri doktoru, prof. Mübariz Yusifov, filologiya elmləri doktoru, prof. Qəzənfər Paşayev, filologiya elmləri doktoru, prof. Kamilə Vəliyeva, filologiya elmləri doktoru Kamil Bəşirov, filologiya elmləri doktoru, prof. Azadə Musayeva, filologiya elmləri doktoru Paşa Kərimov, filologiya üzrə fəlsəfə doktoru, dos. Nəzakət Məmmədli

Redaktor: akademik Teymur Kərimli
Buraxılışa məsul: filologiya elmləri doktoru, professor Nadir Məmmədli

Filologiya məsələləri. Bakı, 2023, №5

ISSN 2224-9257

© ”Elm və təhsil” nəşriyyatı, 2023

www. filologiyameseleleri.com

HEYDƏR ƏLİYEV – 100

ƏDİBƏ İSMAYILOVA
Azərbaycan Milli Kitabxanasının Elmi işlər və Kitabxana-informasiya xidməti üzrə direktor müavini, tarix üzrə fəlsəfə doktoru
aismayilova@anl.az

AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞUNUN HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ

Xülasə

Məqalədə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mədəniyyətə, kitaba, kitabxanaya və mütaliəyə münasibəti əks olunmuşdur. Heydər Əliyevin bir neçə dəfə M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına gəlişi, kitabxana haqqında söylədiyi fikirlər, öz şəxsi kitabxanasından Milli Kitabxanaya qiymətli kitab kolleksiyası hədiyyə etməsi xüsusi vurğulanmışdır. Ulu Öndər Azərbaycana rəhbərliyinin birinci dövründə Azərbaycanda kitabxana quruculuğunun inkişafına təkan verən səmərəli fəaliyyəti ilə mədəniyyət tariximizdə yeni bir inkişaf mərhələsi yaratmışdır ki, burada rayon və şəhərlərdə kitabxana binalarının tikilməsi, mərkəzləşdirilmiş kitabxana sistemlərinin yaradılması və bitkin kitabxanalar şəbəkəsinin formalaşması istiqamətində atılan addımlar öz əksini tapmışdır.

Məqalədə həmçinin Ulu Öndərin Azərbaycana rəhbərliyinin ikinci dövründə Müstəqil Azərbaycanda kitabxana quruculuğunun əsasını təşkil edən normativ hüquqi bazanın formalaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərdən, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun işlənib hazırlanması barədə göstərişindən, həmin qanunun icrası ilə əlaqədar verdiyi tarixi Fərmandan bəhs olunur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyini bərpasının ilk illərində kitabxana quruculuğu sahəsində təməlini qoyduğu yeni ənənələrdən və bu ənənələrin onun siyasətinin fəal davamçısı olan hörmətli cənab Prezidentimiz İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsindən geniş bəhs olunur. Mədəniyyət sahəsində Ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Kitabxanaya və orada oxucular üçün yaradılan şəraitin yaxşılaşdırılmasına diqqət və qayğısı öz əksini tapır.

Açar sözlər: Ulu Öndər, Milli Kitabxana, şəxsi kolleksiya, Heydər Əliyev guşəsi, Avropa Milli Kitabxanaları Konfransı təşkilatı,"Nadir kitablar" kolleksiyası

Xalqımızın bəşər tarixinə bəxş etdiyi ümummilli lider Heydər Əliyev müasir dünya tarixində parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi olmuşdur. İllər ötsə də, onun Azərbaycan xalqının inkişafı istiqamətində göstərdiyi dahiyanə xidmətlər heç vaxt unudulmayacaq, öz əhəmiyyətini və dəyərini itirməyəcək, hər zaman böyük minnətdarlıq hissi ilə xatırlanacaqdır. Azərbaycan xalqının öz müstəqilliyini bərpa etməyə çalışdığı ilk illərdə Tanrı Ulu Öndəri xilaskar, xalqının taleyini həll edəcək, ona doğru yol göstərəcək, onu zülmət içərisindən çıxarıb işıqlı gələcəyə doğru istiqamətləndirəcək bir qüvvə kimi köməyə göndərdi. Bu xilaskarlıq missiyasının dəyəri, əhəmiyyəti və əvəzolunmazlığı isə zaman keçdikcə daha artıq, daha dərin mahiyyət qazanır. Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin həm birinci, həm də ikinci dövründə ölkəmizi və xalqımızı çox böyük sınaqlardan uğurla çıxara bildi. Müstəqilliyimizin bərpasından sonra xalqımızın tələbi ilə onun ikinci dəfə ölkəmizə rəhbərlik etməyə başladığı illərdə ilk addımlarını atan müstəqil Azərbaycan məhz Ulu Öndərin sayəsində bir çox böyük fəlakətlərdən, vətəndaş müharibəsindən, hətta parçalanmaq və dünya xəritəsindən silinmək təhlükəsindən xilas edildi. Məhz buna görə də qədirbilən Azərbaycan xalqı və gələcək nəsillər Ulu Öndərin bu xidmətlərini heç vaxt unutmayacaq.

Heydər Əliyevin dahi bir şəxsiyyət kimi Azərbaycan tarixində oynadığı rol təkcə ictimai-siyasi əhəmiyyət daşımır. Onun hakimiyyəti illərində milli-mənəvi dəyərlərimizin mühafizəsi və təbliği, mədəniyyətimizin inkişafı və dünya səviyyəsində tanıdılması, həmçinin bu sahədə çalışan mütəxəssislərin fəaliyyətinin və istedadının dəyərləndirilməsi istiqamətində də böyük işlər görülmüşdür. Məhz onun qayğısı və diqqəti sayəsində mədəniyyətin qorunması, zənginləşməsi və inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra – 1993-cü ildə xalqımızın tələbi ilə ikinci dəfə ölkəyə rəhbərlik etməyə başlamış Ümummilli Lider çox çətin olan o illərdə ölkəmizin siyasi, iqtisadi və sosial problemlərin cəngində boğulmasına baxmayaraq, çətinlikləri aradan qaldırmaqla bərabər, quruculuq fəaliyyətini də uğurla davam etdirməyə nail olmuşdur. Mədəniyyətimizin, milli mənəvi dəyərlərimizin, həmçinin hələ 1970-1980-ci illərdə özünün qurub-yaratdığı mədəniyyət müəssisələri şəbəkəsinin yenidən inkişafına dəstək olmuşdur. Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin ikinci dövründə – 1995-1997-ci illərdə 4 dəfə Milli Kitabxanada olmuş və müxtəlif tədbirlərdə iştirak etmişdir. Bu tədbirlərdə şəxsən iştirak etməklə, kitaba, kitabın qorunduğu ocağa, həm də təqdimatı keçirilən əsərə və müəllifə hörməti, sayğını ifadə etmiş olurdu. İndiyə kimi mövcud olan tarixi sənədlərdə və dünyanın ən görkəmli şəxsiyyətlərinin çıxışlarında, elm, mədəniyyət və dövlət xadimlərinin məşhur deyimlərində kitabxana haqqında çox dəyərli fikirlərin söyləndiyi məlumdur. Lakin bu kəlamlar içərisində Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin kitab və kitabxana haqqında söylədiyi *"Kitabxana xalq üçün, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka*

mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir!" fikirləri öz elmi əsaslılığı, dərin məzmunu və bədii yükü baxımından çox yüksəkdə dayanır. Zənnimizcə, əbədiyaşar mənəvi sərvətlərin, xalqların tarixi yaddaşlarının nəsillərdən-nəsillərə daşıyıcısı olan kitabxanalar haqqında bundan gözəl, bundan mənalı bir fikir söyləmək, çətin ki, mümkün olsun! Kitabxananın mənəviyyat mənbəyi, müqəddəs bir məkan, elmə, biliyə, zəkaya yetişmək üçün hamının üz tuta biləcəyi ocaq – elm, bilik, zəka ocağı kimi dəyərləndirilməsi yalnız dahiyanə düşüncə tərzinə malik böyük şəxsiyyətlərə məxsusdur! Yalnız xalqının taleyüklü məsələlərinə böyük hörmətlə yanaşan, onun işıqlı gələcəyini düşünən və bu yolda canını fəda etməyə hazır olan bir şəxsiyyət kitabxanaları xalqın mədəni səviyyəsini nümayiş etdirən müqəddəs məkan kimi qiymətləndirə bilərdi! Xalqımızın böyük oğlu Heydər Əliyevin kitaba və kitabxanaya verdiyi dəyərin əsas göstəricilərindən biri də onun müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri zamanı öz şəxsi kitabxanasından seçilmiş 300 nüsxə qiymətli kitab kolleksiyasını kitabxanaya hədiyyə etməsi idi. Respublika "Kitab" Cəmiyyətinin təşkil etdiyi miniatür kitab kolleksiyasından ibarət sərgi zamanı Heydər Əliyev yalnız tədbirə gəlişi, çıxışı ilə deyil, dəyərli kitab kolleksiyası hədiyyə etməsi ilə də həm sadə insanlara, həm də cəmiyyətin müxtəlif üzvlərinə mesaj vermiş, nümunə göstərmiş oldu. O, həmin tədbir zamanı demişdir: *"Mən indi kitabxanaya xeyli kitab bağışladım. Güman edirəm ki, bunlar fondda öz yerini tutacaqdır. Bunlar cəmiyyətimiz üçün çox gərəkli olan, ayrı-ayrı mövzulara həsr edilmiş kitablardır. Bunlar mənim özümün deyil, müxtəlif müəlliflərin kitablarıdır və kitabxananın böyük xəzinəsində öz yerini tutacaqdır. Zənnimcə, bu təşəbbüs də davam edə bilər. Elə imkanı olan adamlar kitabxanamızı zənginləşdirmək üçün, yəqin ki, ona kitablar bağışlayacaqlar".*

Ulu Öndərin Milli Kitabxanaya bağışladığı hədiyyələr arasında özü üçün də çox dəyərli olan "Qurani-Kərim" də var idi. O, diqqətləri bu kitaba yönəldərək demişdir*: "Bağışladığım kitabları nümayiş etdirmək istəmirəm. Ancaq bizim üçün müqəddəs olan bir kitabı da bağışlamaq istəyirəm. Bilirsiniz ki, mən Səudiyyə Ərəbistanına rəsmi səfərə getmişdim. Səfər zamanı biz islam aləminin müqəddəs yerlərini ziyarət etdik və bundan çox məmnun olduq. Orada – islam dininin mərkəzi olan Məkkədə mənə "Quran"ın nüsxələrini bağışlamışlar. Çox nəfis şəkildə buraxılmış bu nüsxələrdən birini də Dövlət Kitabxanasına verirəm".*

Heydər Əliyev "Quran"ı Dövlət Kitabxanasına təqdim etməklə, bu məkana nə dərəcədə böyük əhəmiyyət verdiyini ictimaiyyət nümayəndələrinin diqqətinə çatdırmış oldu. Digər tərəfdən isə böyük şəxsiyyət bu kitabxananı elm və mənəviyyat məbədi hesab edirdi. Mənəviyyatımızın və inancımızın istinad nöqtəsi olan "Qurani-Kərim"in Ulu Öndər tərəfindən məhz elm məbədinə hədiyyə olunması böyük mənəvi və ictimai əhəmiyyət kəsb edirdi, böyük məna daşıyan bir addım idi. Çünki Heydər Əliyev kitabxananı ilahi qüvvəyə malik, toxunulmaz, pak, təmiz bir məkan hesab edirdi. Bu gün Milli Kitabxana dahi şəxsiyyətin bağışladığı "Qurani-Kərim"i Ulu

Öndərin xatirəsinə hörmət əlaməti olaraq kitabxananın foyesində təşkil olunan "Heydər Əliyev guşəsi"ndə nümayiş etdirir.

Dünya kitabxanalarının tarixində ayrı-ayrı alimlər, ziyalılar, görkəmli şəxsiyyətlər, hökumət və dövlət başçıları tərəfindən kitabxanalara kitab hədiyyə etmək ənənəsi həmişə olmuş və bu, mədəniyyətin, elmin inkişafına dəstək kimi qiymətləndirilmişdir. Ancaq Ulu öndər Heydər Əliyev tərəfindən bu ümumbəşəri ənənənin bizim zəmanəmizdə davam etdirilməsi onun çox böyük uğurla vüsət almasına yol açdı və bu böyük şəxsiyyətin çağırışına qoşulan neçə-neçə görkəmli yazıçı, ziyalı, alim və sənətkar Milli Kitabxanaya öz şəxsi kitabxanalarından qiymətli kitablar bağışladılar. Həmin proses bu gün də böyük uğurla davam etdirilməkdədir.

İlk olaraq, Ulu Öndərin bu çağırışına qoşulan və öz şəxsi kitabxanasından Dövlət Kitabxanasına kitab bağışlayan akademik Budaq Budaqov oldu. Bundan sonra Xalq yazıçısı Elçin Əfəndiyev, akademik Ziya Bünyadov, professor Cavad Heyət, professor Ədalət Vəliyev və digər ziyalılarımız da öz şəxsi kitabxanalarından dəyərli nümunələri kitabxanaya ərməğan etdilər.

Milli Kitabxana böyük şəxsiyyət Heydər Əliyevin bu kolleksiyasını kitaba və kitabxanaya verilən böyük dəyərin əyani nümunəsi kimi oxucular, xüsusilə gənclər, tələbələr və məktəblilər arasında geniş təbliğ edir. İndiyədək bu kolleksiya Ulu Öndərin doğum və anım günlərində, Milli Dirçəliş Günündə və Milli Qurtuluş Günündə Bakıda, eləcə də respublikamızın bölgələrində, akademiyada, universitetlərdə, liseylərdə, ümumtəhsil məktəblərində gənclər, tələbələr və şagirdlər qarşısında dəfələrlə nümayiş etdirilmişdir. Ulu Öndərin Milli Kitabxanada mühafizə olunan kolleksiyası Bakı Dövlət Universitetində, Daxili İşlər Nazirliyinin Polis Akademiyasında, Dövlət Gömrük Komitəsinin Gömrük Akademiyasında, Akademik Zərifə Əliyeva adına Liseydə, Quba rayonundakı Gənclər Mərkəzində, Xaçmazdakı Mədəniyyət Mərkəzində, Tərtərdəki Gənclər Mərkəzində, Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki Pedaqoji Kollecdə və digər mədəniyyət ocaqlarında gənclər qarşısında böyük uğurla təqdim olunmuşdur.

İllər keçsə də bu dəyərli kolleksiyadakı kitablarla tanış olan nəsillər, sözün əsl mənasında, böyük mütaliəçi və dahi şəxsiyyət Ulu öndər Heydər Əliyevdən kitabla dost olmaq nümunəsini həvəslə öyrənəcək, onun dahi şəxsiyyət kimi formalaşmasında kitabların, mütaliənin böyük rolunu aydın dərk edəcəklər.

Ulu öndər Heydər Əliyevin müstəqillik illərində Milli Kitabxanaya ilk səfəri qədirbilən xalqımızın yaddaşında əsrlər boyu ona görə yaşayacaqdır ki, onun bu səfər zamanı söylədiyi fikirlər bugünkü kimi sabah da aktual olacaq. Ümummilli lider Heydər Əliyev Milli Kitabxanaya bu tarixi səfəri zamanı Dövlət Kitabxanasında (Milli Kitabxanada) çalışan insanları, onların əməyini də çox yüksək qiymətləndirmiş, kitabxanaçıları "fədakar insanlar" adlandırmışdır. Bir neçə aspektdən yanaşdıqda çox böyük tarixi əhəmiyyət daşıyan bu ilk səfərdə Ulu Öndər M.F.Axundov adına Dövlət Kitabxanasından (Milli Kitabxanadan) danışarkən demişdir: *"Mən vaxtilə bu kitabxanaya dəfələrlə gəlmişəm. Amma bu gün*

kitabxananın astanasından keçərkən çox böyük hörmət və ehtiram hissi duyuram. Bu kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm".

Yalnız kitabı, mütaliəni, kitabxananı ürəkdən sevən, onlardan kifayət qədər uğurla bəhrələnən və nəhayət, sadə peşə adamlarının fədakar əməyinə yüksək qiymət verən böyük şəxsiyyət belə fikirlər söyləyə, kitabxanaçıların əməyini qiymətləndirə bilərdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqı və müstəqil Azərbaycan dövləti qarşısında ən böyük xidmətlərindən biri də ömrünün son günlərində özü qədər inandığı və etibar etdiyi, Azərbaycanı işıqlı gələcəyə aparmağa qadir olan yeganə şəxsiyyəti – dahi Heydər Əliyevin həyat, siyasət və rəhbərlik məktəbini keçmiş, yeganə davamçısı kimi gördüyü oğlu İlham Əliyevi növbəti prezident seçkilərində doğma xalqına tövsiyə etməsi olmuşdur. Heydər Əliyevin "həyat məktəbi"ni uğurla keçmiş cənab İlham Əliyev öz atası, dahi siyasətçi Heydər Əliyevin tövsiyəsi ilə xalqın böyük əksəriyyətinin səsverməsi nəticəsində ölkə Prezidenti seçildikdən sonra çox qısa zaman kəsiyində bütün xalqın Prezidenti olacağına hamını inandırmağı bacardı və sübut edə bildi ki, dahi Heydər Əliyevin siyasi və dövlətçilik kursu müvəffəqiyyətlə davam etdirilir. Digər sahələrdə olduğu kimi, mədəniyyət sahəsində də Ulu Öndərin kursunu böyük uğurla davam etdirən cənab Prezidentimizin həyata keçirdiyi səmərəli tədbirlər sırasında ölkəmizin aparıcı mədəniyyət ocaqlarının binalarının əsaslı şəkildə yenidən qurulması və onların müasir tipli avadanlıqlarla təchiz olunması həyata keçirildi. Bu sırada Azərbaycanın əsas elm və mədəniyyət məbədi hesab olunan M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası da var idi. 2003-cü ilin dekabrında Dövlət Kitabxanasının binasında əsaslı yenidənqurma işləri başa çatdırıldıqdan dərhal sonra bu elm məbədinə 2004-cü ildə Azərbaycan Respublikasının Prezidentinin göstərişi əsasında Nazirlər Kabinetinin 15 aprel 2004-cü il tarixli qərarı ilə 1998-ci ildə Ulu öndər Heydər Əliyevin imzaladığı "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinə əsasən, "Milli kitabxana" statusu verildi. Dövlət Kitabxanasına Milli Kitabxana statusunun verilməsi bu elm və mənəviyyat məbədinin fəaliyyətinin daha da genişləndirilməsinə, statusunun və yerinə yetirdiyi missiyanın təkmilləşdirilməsinə güclü təkan vermiş oldu. Bundan sonra Milli Kitabxananın beynəlxalq əlaqələri əhəmiyyətli dərəcədə genişləndi və beynəlxalq professional kitabxana təşkilatlarında uğurla təmsil olunmağa başladı. Tezliklə Azərbaycan Milli Kitabxanası Müstəqil Dövlətlər Birliyinin milli kitabxanalarını özündə birləşdirən Avrasiya Kitabxanalar Assambleyasının (BAE) beş təsisçisindən biri kimi çıxış edərək bu gün də keçmiş Sovetlər Birliyinin əhatə miqyasında yeganə olan professional kitabxana təşkilatının yaradıcılarından oldu. 2005-ci ildə Azərbaycan Milli Kitabxanası dünyada çox nüfuzlu kitabxana təşkilatı olan Avropa Milli Kitabxanaları Konfransı (CENL) təşkilatına üzvlüyə qəbul olundu. Bu nüfuzlu təşkilatın Lüksemburqda keçirilən illik iclasında ilk dəfə Azərbaycan Milli Kitabxanası təmsil edildi və 43 ölkənin yekdil qərarı ilə həmin təşkilatın üzvlüyünə

qəbul olundu. 2009-cu ilin avqustunda Azərbaycan Milli Kitabxanası ən nüfuzlu beynəlxalq kitabxana təşkilatı olan Beynəlxalq Kitabxana Təşkilatları və Assosiasiyaları Federasiyasına üzvlüyə qəbul edildi və ilk dəfə həmin ilin avqustunda İFLA-nın Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində keçirilən illik iclasında iştirak etdi. Bu zaman İFLA-nın prezidenti tərəfindən Azərbaycan Milli Kitabxanasına İFLA-nın üzvlüyü sertifikatı təqdim edildi.

Ölkədə mədəniyyət və təhsilin inkişafı istiqamətində həyata keçiriləcək tədbirlər kontekstində qarşıda duran əsas vəzifələrdən ən vacibi hələ ötən əsrin 90-cı illərinin sonunda müdrik şəxsiyyət Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş Müstəqil Azərbaycanın yeni Konstitusiyasından və həmin konstitusiyaya müvafiq olaraq ölkə ərazisində fəaliyyət göstərən təhsil və mədəniyyət müəssisələrində tədrisin və bütün işlərin, yazışmaların yeni latın qrafikalı Azərbaycan əlifbası ilə aparılmasına tam keçilməsi ilə əlaqədar qərardan irəli gələn vəzifələrin icrasından ibarət idi.

Heç təsadüfi deyildir ki, Azərbaycan Prezidenti seçildikdən dərhal sonra Heydər Əliyevin uzaqgörənliklə qəbul etdiyi mühüm qərarları uğurla yerinə yetirməyə başlayan cənab Prezident İlham Əliyevin bu sahədə atdığı ilk addımlardan biri də ölkə ərazisindəki latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunmuş kitabların, dərslik və dərs vəsaitlərinin, demək olar ki, heç olmaması probleminin təxirəsalınmadan aradan qaldırılması istiqamətində tədbirlərin həyata keçirilməsi olmuşdur. Bu yöndə 2004-cü ildə hörmətli cənab Prezidentin 3 mühüm sərəncam imzalaması də həmin məsələnin çox vacib və təxirəsalınmaz olması ilə əlaqədar idi.

Mədəniyyət sahəsində Ulu öndər Heydər Əliyevin kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Kitabxanaya və orada oxucular üçün yaradılan şəraitin yaxşılaşdırılmasına diqqət və qayğısını Azərbaycana rəhbərliyinin ilk illərində Milli Kitabxanaya ayrılan büdcə vəsaitinin xeyli artırılması ilə də əlaqələndirmək olar. Belə ki, Cənab Prezidentin tapşırığı əsasında 2006-cı ilin noyabrında Milli Məclisə tövsiyə olunan 2007-ci ilin Dövlət büdcəsi haqqında Qanun layihəsində M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının xərcləri Dövlət büdcəsinin icmal layihəsində ayrıca maddədə nəzərdə tutuldu və bir neçə dəfə artımla göstərildi.

Azərbaycana rəhbərliyinin ilk illərindən başlayaraq, cənab Prezident İlham Əliyev Milli Kitabxananın maddi-texniki bazasının möhkəmləndirilməsi, oxucular üçün lazımi şəraitin yaradılması, kitabxananın müasir tipli kompüter texnologiyaları və avadanlıqlarla təchiz olunması və kitab fondlarının daima yenilənməsi məqsədilə lazımi vəsaitlərin ayrılmasına böyük diqqətlə yanaşdı. Bu diqqətin bariz nümunəsini Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli 3072 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"ndan daha aydın görmək olar. Azərbaycan Respublikasında Kitabxana-informasiya sahəsinin inkişafında və yenidən qurulmasında mühüm mərhələ təşkil edən bu Proqram sənədi

bütövlükdə ölkəmizdə kitabxanaların, o cümlədən Milli Kitabxananın fəaliyyətinin günün tələbləri səviyyəsində təşkil olunmasında, kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılmasında, oxuculara kitabxana-biblioqrafiya xidmətlərinin təkmilləşdirilməsində əhəmiyyətli rol oynamışdır. Bu mühüm Proqram sənədində M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasına ayrıca müstəqil bölmənin ayrılması da bu kitabxanaya dövlət başçısının qayğısından irəli gəlirdi. Çünki bu Dövlət Proqramının uğurla yerinə yetirilməsi Azərbaycan Milli Kitabxanasının aparıcı dünya ölkələrinin milli kitabxanaları sırasında öncül yerlərdən birinə çıxmasına və Cənubi Qafqazın ən modern kitabxanası səviyyəsinə yüksəlməsinə səbəb olmuşdur. Bu fikri 2013-cü ildə Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi tədbirlərində və bu münasibətlə Bakıda keçirilən Avropa Milli Kitabxanaları Konfransı təşkilatının (CENL) növbəti 27-ci illik toplantısında iştirak etmək üçün paytaxtımıza gələn həmin təşkilatın prezidenti, Fransa Milli Kitabxanasının direktoru Bruno Rassini söyləmişdir.

2008-ci ildə Azərbaycan Milli Kitabxanasının 85 illik yubileyi günlərində hörmətli cənab Prezidentin Milli Kitabxananın kollektivinə və Bakıda keçirilən Avrasiya Kitabxanalar Assambleyasının illik toplantısının iştirakçılarına təbrik məktubu göndərərək onları və kollektivin bütün üzvlərini yubiley münasibətilə təbrik etməsini də bu diqqətin yüksək nümunəsi hesab etmək olar.

2008-ci il noyabr ayının 17-də Azərbaycan Respublikası Prezidenti "M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adının verilməsi haqqında" müvafiq sərəncam imzalamışdır. Həmin sərəncamla Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə Milli Kitabxanasının direktoruna və 5 nəfər əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir. Eyni zamanda digər bir sərəncamla Milli Kitabxananın 4 nəfər əməkdaşı Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsində xidmətlərinə görə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

2013-cü ildə Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyi kitabxananın tarixində ilk dəfə dövlət səviyyəsində keçirilmişdir. Belə ki, yubiley tədbirləri Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Milli Kitabxanasının 90 illik yubileyinin keçirilməsi haqqında" 24 iyun 2013-cü il tarixli Sərəncamına müvafiq olaraq dövlət səviyyəsində geniş şəkildə qeyd olunmuşdur. Milli Kitabxananın 90 illik yubiley tədbirləri çərçivəsində Bakı şəhərində Avropa Milli Kitabxanaları Konfransı beynəlxalq təşkilatının (CENL) 27-ci illik iclası, Avrasiya Kitabxanalar Assambleyasının (BAE) 16-cı illik toplantısı, Türkdilli Ölkələrin Milli Kitabxanaları Şurasının 2-ci iclası və İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv Ölkələrin Milli Kitabxana və arxiv təşkilatları Birliyinin 2-ci toplantısı keçirilmişdir.

"Azərbaycan Milli Kitabxanasının əməkdaşlarına "Əməkdar Mədəniyyət İşçisi" fəxri adının verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 sentyabr tarixli Sərəncamı ilə Azərbaycanda kitabxana işinin

inkişafında xidmətlərinə görə Azərbaycan Milli Kitabxanasının 7 əməkdaşına "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adı verildi. Həmin gündə cənab Prezidentin imzaladığı "Azərbaycan Milli Kitabxanası əməkdaşlarının təltif edilməsi haqqında" digər sərəncamla ölkəmizdə kitabxana işinin inkişafında xidmətlərinə görə Milli Kitabxananın direktoruna 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, Milli Kitabxananın 6 nəfər əməkdaşı isə "Tərəqqi" medalı ilə təltif olundu. Biz bütün bunları Azərbaycan Milli Kitabxanasının və onun əməkdaşlarının fədakar əməyinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən verilən yüksək qiymətin bariz nümunəsi hesab edirik.

Ulu öndər Heydər Əliyevin XX əsrin 90-cı illərinin sonlarında Azərbaycan Milli Kitabxanasına səfərləri zamanı əsasını qoyduğu ənənələrin XXI əsrin əvvəllərində onun siyasi və iqtisadi kursunu böyük uğurla davam etdirən hörmətli cənab Prezidentimiz İlham Əliyev tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər sayəsində Milli Kitabxanamız öz inkişafının ən yüksək mərhələsinə qalxmış, Azərbaycan mədəniyyətinə dəyərli töhfələr verərək dünya milli kitabxanaları sırasında ön cərgədə qərarlaşmışdır. Milli mənəvi dəyərlərimizin mühafizəsi və təbliği istiqamətində Milli Kitabxananın həyata keçirdiyi uğurlu layihələr və əldə etdiyi nəticələr xüsusilə qürurvericidir.

İlk növbədə, Azərbaycan kitabının retrospektiv repertuarının yaradılması sahəsində – ötən əsrin 80–90-cı illərində Azərbaycan Dövlət Kitab Palatasının ləğv olunması ilə əlaqədar yarımçıq qalmış bu işin yüksək səviyyədə davam etdirilməsi sayəsində "Yeni kitablar" informasiya bülleteninin, "Birillik Azərbaycan Kitabiyyatı"nın və nəhayət, "Azərbaycan kitabı" adlı 10 cildlik retrospektiv fundamental biblioqrafiyanın 5 cildinin nəşr olunaraq mütəxəssislərə təqdim olunması layihəsini xüsusilə qeyd etmək lazımdır.

Klassik və müasir Azərbaycan ədəbiyyatının, elminin və mədəniyyətinin görkəmli xadimlərinin ölkəmizin, eləcə də dünyanın zəngin kitabxanalarında mühafizə olunan ədəbi, elmi və mədəni irsinin araşdırılması, toplanması və fundamental biblioqrafiyalar şəklində "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından nəşr olunması layihəsinin uğurla icrası böyük əhəmiyyət kəsb edir, ədəbiyyatımızın, elmimizin və mədəniyyətimizin nailiyyətlərinin nümayişi baxımından da çox dəyərlidir. 2006-cı ildən bu günədək həmin layihə əsasında 100-ə qədər fundamental biblioqrafiya nəşr olunmuşdur ki, bunlardan görkəmli Azərbaycan ədibləri Nizami Gəncəviyə, Məhəmməd Füzuliyə, İmadəddin Nəsimiyə, Mirzə Ələkbər Sabirə, Cəlil Məmmədquluzadəyə, Hüseyn Cavidə, Mirzə Fətəli Axundzadəyə, Səməd Vurğuna, Bəxtiyar Vahabzadəyə, Yusif Vəzir Çəmənzəminliyə, tanınmış bəstəkarlarımız Üzeyir Hacıbəyliyə, Qara Qarayevə, Fikrət Əmirova, Cahangir Cahangirova, maestro Niyaziyə, Ulu öndər Heydər Əliyevə, görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevaya, elm və mədəniyyət xadimlərimiz Mir Cəlal Paşayevə, Aida İmanquliyevaya, akademiklər Mirzə İbrahimova, Arif Paşayevə, İsa Həbibbəyliyə, Nizami Cəfərova və digərlərinə həsr

olunmuş biblioqrafiyaları qeyd etmək olar. Milli Kitabxananın son illərdə Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin iştirakıyla həyata keçirdiyi "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində gördüyü işlər xüsusilə diqqətəlayiqdir. Bu layihənin əsas məqsədi dünyanın ən zəngin kitabxanalarında və muzeylərində saxlanılan klassik şairlərimizin əlyazmalarının müəyyən olunması və onların digital (elektron) nüsxələrinin ölkəmizə gətirilərək Azərbaycan Milli Kitabxanasının Elektron bazasına, həmçinin 1 nüsxədə çap olunaraq kitabxanamızın "Nadir kitablar" kolleksiyasına daxil edilməsindən ibarətdir.

Bu gün Azərbaycan Milli Kitabxanası beynəlxalq əlaqələrini genişləndirərək 80-dən artıq ölkənin milli və universitet kitabxanası ilə qarşılıqlı əlaqələr qurmuş və onlarla beynəlxalq kitab mübadiləsi həyata keçirir. Qarşılıqlı memorandumlar əsasında dünya kitabxanalarının və muzeylərinin kataloqları və nadir kitab fondları tədqiq olunarkən bu kitabxanalarda klassik Azərbaycan şairlərindən Xaqani Şirvaninin, Mücirəddin Beyləqaninin, Nizami Gəncəvinin, Nəsirəddin Tusinin, Məhəmməd Füzulinin, Şah İsmayıl Xətainin və digərlərinin qiymətli əlyazmalarının mühafizə olunduğu aşkar edilmişdir. Həmin kitabxana və muzeylərin rəhbərləri ilə aparılmış danışıqlar nəticəsində "Milli mənəvi dəyərlərimizin Vətənə qayıdışı" layihəsi çərçivəsində görkəmli şəxsiyyətlərimizin 200-dən artıq əlyazmasının digital (elektron) nüsxələrinin Azərbaycana gətirilməsinə nail olunmuşdur. Bu gün onların içərisindən 50 ədəd yazılma tarixi və bədii tərtibat baxımından ən nadir qiymətliləri seçilərək 1 nüsxə nəfis şəkildə çap edilərək Milli Kitabxananın "Nadir kitablar və kitabxana muzeyi" şöbəsinin kolleksiyasının tərkibinə daxil olunmuş və tədqiqatçıların istifadəsinə verilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə böyük Azərbaycan şairi Nizami Gəncəvinin 880 illik yubileyi münasibətilə 2021-ci ilin Azərbaycanda "Nizami Gəncəvi ili" elan olunması ilə əlaqədar təkcə 2021-ci ildə Milli Kitabxana tərəfindən dahi şairimizin dünyanın ən zəngin kitab fondlarına malik olan kitabxana və muzeylərində mühafizə edilən 150 qiymətli əlyazmasının elektron nüsxəsinin Azərbaycana gətirilərək Milli Kitabxananın Elektron bazasına daxil edilməsi təmin olunmuşdur. Eyni zamanda bu günədək Nizami Gəncəvi ilə yanaşı, İmadəddin Nəsiminin 10-dan artıq nadir əlyazmasının, Xaqani Şirvaninin, Mücirəddin Beyləqaninin, Şah İsmayıl Xətainin, Nəsirəddin Tusinin, Müznibin və digər kiassiklərimizin dünya kitabxanalarında mühafizə olunan əlyazmalarının çoxlu sayda elektron nüsxələri də əldə olunaraq Azərbaycana gətirilmiş və Milli Kitabxananın Elektron bazasına daxil edilmişdir. Bu istiqamətdə işlərimizi bu gün də uğurla davam etdiririk.

Milli Kitabxanada həyata keçirilən "Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının qızıl fondundan)" layihəsi çərçivəsində ötən əsrin 50-70-ci illərində çap edilmiş Azərbaycan bəstəkarlarının əsərlərindən ibarət not məcmuələrinin 100-dən çoxu artıq yenidən çap olunaraq yerlərdəki kitabxanalara,

musiqi və incəsənət məktəblərinə göndərilmişdir. Bütün bunları Ulu öndər Heydər Əliyevin XX əsrin 70-90-cı illərində Azərbaycan Milli Kitabxanasına göstərdiyi diqqət və qayğının, onun mədəniyyət sahəsindəki ənənələrini uğurla davam etdirən və ən böyük vəsiyyətini yerinə yetirərək müqəddəs torpaqlarımızın düşmən tapdağından azad olunmasını təmin edən hörmətli cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin son 20 il ərzində Azərbaycan Milli Kitabxanasına, onun fəaliyyətinə verdiyi yüksək dəyərin, kitabxananın kollektivinə göstərdiyi qayğının və etimadın bariz nəticəsi hesab etmək olar.

Milli Kitabxana və onun kollektivi mədəniyyətimizə, milli mənəvi dəyərlərimizə, kitaba, kitabxanaya böyük dəyər verən mərhum Prezidentimiz Heydər Əliyevin xatirəsini böyük qədirbilənlik hissi ilə xatırlayır və həmişə də xatırlayacaqdır

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Xələfov, A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi / A.Xələfov. – Bakı, – 2006. – 312 s.
2. Tahirov, K.M. Heydər Əliyev və Milli Kitabxana/ K.Tahirov.–Bakı, –2022. – 180s.
3. Tahirov, K.M. Milli Kitabxananın inkişafının Heydər Əliyev mərhələsi//Xalq qəzeti. – 2013, – 9 may.- S. 6.
4. Tahirov, K.M. Kitaba və mütaliəyə münasibətdə Heydər Əliyev nümunəsi//Kitabşünaslıq və redaktor sənəti. Elmi-nəzəri və təcrübi-metodik jurnal,–2016.-№2(3), - S.41-45.

Adiba Ismayilova

Heydar Aliyev stage of library establishment in Azerbaijan

Summary

The attitude of Heydar Aliyev, the national leader of the Azerbaijani people, to culture, books, libraries and reading is reflected in the article. Heydar Aliyev's visit to the National Library of Azerbaijan named after M.F. Akhundov several times, his opinions about the library, and his gift of a valuable collection of books from his personal library to the National Library were specially emphasized. The Great Leader created a new stage of development in our cultural history with his effective activity that spurred the development of library construction in Azerbaijan in the first stage of his administration to Azerbaijan, where the steps taken towards the construction of library buildings in districts and cities, the creation of centralized library systems and the formation of a network of exhausted libraries were reflected. The article also talks about the measures implemented by the Great Leader in the second stage of his leadership to Azerbaijan in the direction of forming the normative legal framework that forms the basis of library construction in Independent Azerbaijan, the instruction on the development of the Law of the Republic of

Azerbaijan "On Library Work", and the historical Decree issued in connection with the implementation of that law.

The great leader Heydar Aliyev in the first years of restoration of Azerbaijan's independence laid the foundations of the new traditions in the field of library construction and the continuation of these traditions by the honorable President Ilham Aliyev, who is an active follower of his policy, is widely discussed. The attention and care of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, who successfully continued the course of the great leader Heydar Aliyev in the field of culture, is reflected in the National Library and the improvement of the conditions created there for readers.

Key words: Great Leader, National Library, private collection, Heydar Aliyev Corner, European National Libraries Conference organization, "Rare books" collection

Адиба Исмайлова

Этап Гейдара Алиева в создании библиотеки в Азербайджане

Резюме

В статье отражено отношение Общенационального Лидера Гейдара Алиева к культуре, книгам, библиотекам и чтению. Особо подчеркнуты неоднократное посещение Гейдаром Алиевым Национальной библиотеки Азербайджана имени М.Ф.Ахундова, его высказывания о библиотеке. Отмечено также, что Великий Лидер при визите в Национальную библиотеку, передал в дар ценную коллекцию книг из своей личной библиотеки. Великий Лидер еще на первом этапе своего правления, плодотворной деятельностью создал новый этап развития в истории национальной культуры, способствовавший развитию библиотечного дела в Азербайджане. Были предприняты важные шаги в направлении строительства библиотечных зданий в районах и городах, создании централизованных библиотечных систем, формировании сети полноценных библиотек. В статье также рассказывается о политике, осуществленной на втором этапе его правления, а именно – о мерах, осуществленных Общенациональным Лидером в направлении формирования нормативно-правовой базы, лежащей в основе библиотечного строительства в Независимом Азербайджане, об инструкции по разработке Закона Азербайджанской Республики «О библиотечной деятельности» и историческом Указе, изданным в связи с реализацией данного закона.

Широко обсуждаются новые традиции, заложенные Общенациональным Лидером Гейдаром Алиевым в первые годы восстановления независимости Азербайджана в области библиотечного строительства, а также успешное продолжение этих традиций достойным последователем его политического

курса – Президентом Ильхамом Алиевым. В статье также подчеркнуты внимание и забота Президента Азербайджанской Республики господина Ильхама Алиева, оказываемая Национальной библиотеке и улучшению созданных там условий для читателей.

Ключевые слова: Общенациональный Лидер, Национальная Библиотека, личная коллекция, Уголок, посвященный Общенациональному Лидеру, Организация конференции европейских национальных библиотек, коллекция "Редких книг"

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: prof. Kərim Tahirov
tərəfindən çapa tövsiyə olunmuşdur

Fil.ü.f.d., b/m. MƏMMƏDOVA ELNARƏ Adil q.
Azərbaycan Tibb Universiteti
Azərbaycan dili kafedrası
m**ememmedova69@mail.ru**

HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ

Açar sözlər: *ümummilli lider, ana dili, azərbaycançılıq, dilimizin gözəlliyi, dövlət dili, türkdilli xalqlar*

" *Hər bir xalqın milliliyini, onun mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Azərbaycan dili çox zəngin və ahəngdar dildir. Şəxsən mən öz ana dilimi sevir və bu dildə danışmağımla fəxr edirəm*".

Ümummilli lider Heydər Əliyev

Aqillər deyib ki, xalqın, millətin nəyini əlindən alırsansa al, o, yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, yox olar. Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil - millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur!

Ölkəsinin başı üzərində qara buludların dolaşdığı, xalqının ölüm-qalım sualıyla qarşılaşdığı, torpaqlarının düşmən tapdağı altında qaldığı bir zamanda bir Simurq quşu kimi qanadlarını açaraq Vətəninin səmasında görünən Heydər Əliyev, ona doğru uzanan milyonlarla Azərbaycanlının ümidsiz əllərini öz qüdrətli əllәriylə tutdu, onu çağıran, onu səsləyən milyonlarla azərbaycanlının həyəcanlı səsinə öz güclü səsiylə səs verdi. Qarşısındakı bütün sədləri, maneələri öz dərin zəkasıyla, iti ağlıyla, ancaq nadir şəxsiyyətlərə xas olan parlaq istedadıyla, ən əsası isə xalqına və Vətəninə bəslədiyi tükənməz sevgisiylə, doğulub böyüdüyü torpağa sədaqəti və bağlılığıyla aşaraq, müstəqil Azərbaycanı yaratdı.

O, bir peyğəmbər müdrikliyi ilə anlamışdı ki, bir gün gələcək, ölkəsi və xalqı müstəqilliyə qovuşacaqdır, rus işğalından azad bir dünya qurulacaqdır. Və elə həmin dövrlərdə gələcəyə olan böyük inamıyla sovetlər məkanında mümkünsüz olan bir addımı atdı. 1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Heydər Əliyev, cəmi bir-neçə aydan sonra o vaxtkı Azərbaycan Döviət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söylədi! Həmin tarixi günü Heydər Əliyev tam 25 ildən sonra, BDU-nun 75 illiyinə həsr edilən iclasda artıq müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi belə xatırlayırdı: "*Xatırımdədir, universitetin 50 illik yubileyində çıxış edərkən, şübhəsiz ki, ana dilimdə, Azərbaycan dilində danışdım. Bu böyük sensasiya kimi qarşılandı. Nə cür olur ki, respublikanın rəhbəri, Azərbaycan dilində çıxış edir və bu dildə heç də pis danışmır. Bəziləri məni bu hadisə münasibəti ilə təbrik etdilər. Minnətdarlıqlarını bildirdilər. Dilini sevən, milli ruhla yaşayan insanlar doğrudan da bunu böyük bir hadisə kimi qəbul etdilər. Mən isə onlara dedim ki, burada bir qeyri-adilik yoxdur, nahaq təəccüb edirsiniz, bu, mənim ana*

dilimdir və ana dilində çıxış etmək elə böyük bir qəhrəmanlıq da deyildir. Ana dilini bilməmək isə, ana dilini qiymətləndirməmək isə, şübhəsiz ki, xalq qarşısında qəbahətdir".

Böyük öndər yenə həmin dövrdə ölkədə keçirilən bütün tədbirlərdə doğma dilində danışmaqdan çəkinmirdi. Uzun illər boyu sıxışdırılan dilimizin sabahına işıq saçır, cəsarəti, şəxsi nümunəsi ilə milyonlarla insanın ürəyindən keçənlərin ifadəçisinə çevrilir, haqq sözünü deyir, dilimizin ən ali mərtəbəyə layiq olduğunu bəyan edirdi.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini xalqın mənəvi varlığı kimi sevməyi, dilin zəngin söz xəzinəsindən bacarıqla istifadə etməyi, dilin qayğısına qalmağı, onun saflığını qorumağı, onunla fəxr etməyi, onu dərindən bilməyi, mükəmməl mənimsəməyi, ana dilimizin gözəlliyini duymağı, bu gözəlliyi hər zaman hər yerdə təbliğ etməyi, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi. Göründüyü kimi, Heydər Əliyev, qurub-yaratdığı Azərbaycanda xalqının mədəni, intellektual, milli-mənəvi inkişafının təməllərindən biri kimi milli dil siyasətinə böyük əhəmiyyət verirdi, bu yolda bir əsgər kimi mübarizə aparırdı. Ulu Öndərin 18 iyun 2001- ci il tarixində imzaladığı "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərman da həmin mübarizənin davamı idi.

Onun bu mövzudakı çoxsaylı fikirlərindən birini xatırlayaq: "Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidır. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azərbaycançılıq məsələsidir".

Hamımıza məlumdur ki, 2004-cü ildə ölkə Prezidenti İlham Əliyev "Azərbaycan dilində Latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında", 2007-cı ildə isə "Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərlərinin Azərbaycan dilində nəşr edilməsi haqqında" sərəncamlar imzaladı. Bu sərəncamlar, ulu öndərimizin ana dilinə qayğısının və sevgisinin nümunəsi, öz vətəndaşlarını daha savadlı, daha məlumatlı görmək arzusu idi.

Bu sərəncamlar xalqın özünə qayıdışına, xüsusilə gənc nəslin, böyüməkdə olan uşaqlarımızın milli dəyərlərimizə, milli mənəviyyatımıza sahib çıxmasına ölkə rəhbərinin göstərdiyi qayğı idi. Prezidentin həmin sərəncamlarıyla illər boyu evlərimizin bəzəyi olan kitablar yenidən çap olunmağa başladı. Çap olundu ki, bizdən sonrakılar da oxusunlar. Çap olundu ki, dillərini, səlis Azərbaycan dilini unutmasınlar, əksinə daha dərindən öyrənsinlər.

Ana dilimizin inkişafı və qorunması əsasən Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider H.Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən Azərbaycan dilinin qorunması, tətbiqi və inkişafı ilə bağlı bir çox işlər görmüşdür. O, dilə münasibətdə hər kəsə örnək olmuş və hələ hakimiyyətə gəldiyi ilk illərdə bir çox ziyalının cəsarət etmədiyi halda rəsmi və qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməmiş, ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərmiş, başqalarına nümunə olmuşdur.

Heydər Əliyev ana dilini bilməyən, bu qədim və zəngin dildə rəvan danışa bilməyən dövlət məmurlarından müəllim tutub dilimizi öyrənməyi tələb edirdi: "*Oturun, müəllim tutun, bu dili öyrənin... məgər dünyadan bu dili bilməyə-bilməyə çıxıb gedəcəksiniz? Axı belə şey olmaz..*". Ulu öndər gənclərə klassikləri - Nizamini, Füzulini, Nəsimini, Vaqifi, Sabiri, Mirzə Cəlili oxumağı tövsiyə edirdi. Deyirdi ki, gənclər ana dilimizi yaradan və yaşadan bu söz dühalarını, sənət korifeylərini oxumasa, oxuya bilməsə "tariximizi bilməyəcək, bizim mədəniyyətimizi bilməyəcək... Milli-mədəni ənənələrimizi bilməyəcək". Bütün bunları bilməyənin isə vətənpərvər olmağı mümkün deyil. Müəllif belə qənaətə gəlir ki, dilimizə böyük sevgi ilə yanaşan Heydər Əliyev onun taleyi ilə bağlı nikbin olmuşdur. "*Öz dilimizi Azərbaycanda hakim dil etməliyik!*" - ulu öndərin dil strategiyası, onun dil nəzəriyyəsində prioritet istiqamət belə idi. Kitabda onun mahiyyəti və mədəni-tarixi əhəmiyyəti dəqiq faktlarla izah olunur.

Ulu öndərin nitqinin izahedici xarakteri bunda idi ki, o, ən qədim problemlərlr haqqında danışanda belə, dinləyiciyə sual yeri qoymur, təfsilatları məntiqlə kütləyə çatdırırdı. Bunun üçün o, müxtəlif ifadə tərzlərindən istifadə edirdi. Müəllifə görə bunlardan ən çox işlənən böyük natiqin sual qoyub cavab verməsi, digəri "*bilirsiniz*" müraciətidir. "*Bilirsiniz*" modal sözü ilə böyük natiq məsələnin hamıya məlum olduğuna, lakin hələ də bir qisim şəxslərin öz fikirlərində qaldığına işarə edirdi. Heydər Əliyev nitqinin izahedici xüsusiyyətlərindən biri də onun anlayışlara verdiyi özünəməxsus izahları idi. Nitqin sual və cavab, başqa sözlə özü ilə dialoq formasından burada da uğurla istifadə edirdi. "*Diplomat*" deyəndə adamın gözünün qabağına nə gəlir? "*Ən yüksək savadlı, ən yüksək mədəniyyətli, ən gözəl görünüşlü, yaxşı geyimli, yaxşı tərbiyəsi ilə, cəmiyyətdə özünü aparması ilə fərqlənən insanlardır...*". Bu sətirləri adi nitq yox, sözlə çəkilmiş portret hesab etmək olar. Bu isə Heydər Əliyev nitqinin başqa bir cəhətini - haqqında danışdığı məsələyə, problemə görüntü vermək, onu real şəkildə əyaniləşdirmək imkanını əks etdirir.

1978-ci ildə Ulu öndər daha bir tarixi uğura imza atdı. Onun təklifi ilə elə həmin ildə Azərbaycan SSR-in Konstitusiyasına 73-cü maddə daxil edildi və mərkəzin etirazlarına baxmayaraq ilk dəfə olaraq rus dili ilə yanaşı, Azərbaycan dili də rəsmi dil statusu əldə etdi. Həmin dövrdə Azərbaycan dili Konstitusiya qanunu səviyyəsində dövlət dili statusu almış üç keçmiş sovet respublikasından biri və yeganə türk müsəlman respublikası idi. Lakin bu dövrdə Azərbaycan dili dövlət dili

elan olunsa da, onun tətbiqində müəyyən məhdudiyyətlər, gizli qadağalar qoyulmuşdu. Belə ki, Azərbaycan dili elm və mədəniyyət dili kimi istifadə olunsa da, rəsmi sənədləşmələrdə, rəsmi dövlət tədbirlərində rus dilindən istifadə edilməsinin məcburiliyi tələbi gizli şəkildə qoyulmuşdu.

Müstəqilliyimiz qazanıldıqdan sonra 1992-ci ilin 27 dekabrında verilən fərmanla Azərbaycan Respublikasının dövlət dili "Türk dili" adlandırıldı.

1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlməsindən sonra Azərbaycanın dövlət dilinin adı məsələsi müzakirə obyektinə çevrildi. Dövlət dilinə həsr edilmiş bütün iclaslarda demokratik şərait yaradıldığından müxtəlif fikirlər özünü göstərirdi: "*Azərbaycan dili*", "*Türk dili*", "*Azərbaycan türk dili*", "*Azərbaycan türkcəsi*", "*Türk dilləri ailəsinə daxil olan Azərbaycan dili*".

Heydər Əliyev isə öz çıxışlarında məsələyə belə münasibət göstərirdi: *"Gəlin türkdilli xalqlara baxaq. Bəli, biz türkdilli xalqlardan biriyik və türk mənşəli xalqıq. Kökümüz birdir. Özbək dili var, qazax dili var, qırğız dili var, tatar dili var, başqırd dili var, türkmən dili var, kumık dili var. Demək, bu türkdilli xalqların da hər birinin dilinin öz adı var. Türkdilli xalqlarda tatar dili də var, o biri qrup dillər var, onların da hər biri bu qrupa daxildir, amma hər birinin öz adı var… Axı nə təhər Azərbaycan türkcəsi? Millətimiz nədir? Azərbaycan türkü. Nə təhər bu millətin iki adı olsun? Bəs niyə özbək özünə demir ki, Özbəkistan türkü, tatar niyə demir ki, Tatarıstan türküyəm?"*

Yenə həmin iclasda dövlət başçısı qeyd edirdi: "*... taleyimiz belə gətirib ki, məsələn bizə tatar deyiblər. Amma biz tatar deyilik axı. Neçə illər bizə tatar deyiblər. Elə Həsən bəy Zərdabi də özünə tatar deyibdir, o birisilər də özlərinə tatar deyiblər. Bakıda, Azərbaycanda bir belə azərbaycanlı ziyalı olduğu halda –* "*russko-tatarskaya şkola*" *adlı məktəblər açılmışdı. Mən bununla sadəcə demək istəyirəm ki, bizim taleyimiz belə olubdur. Rusiyada da bizə tatar deyiblər. Ondan sonra 1918-ci ildən 1936-cı ilə qədər türk deyilib. 60 ildir biz "Azərbaycan dili", "azərbaycanlı" deyirik. İndi bəs nəedək? Bunlara cavab olmalıdır ki, bir qərar qəbul edək*".

Beləliklə, 1995-ci ildə Milli Məclisdə Komissiya yaradıldı. Komissiya dövlət dilinin türk dili adlandırılmasının mümkün olmaması qənaətinə gəldi və 1995-ci il noyabrın 12-də Azərbaycanda ümumxalq referendumu yolu ilə Konstitusiya qəbul edildi. Konstitusiyanın 21-ci maddəsində Azərbaycan Respublikasının dövlət dilinin Azərbaycan dili olması öz əksini tapdı. Bundan sonra ana dilimizin inkişafı və qorunması işi daha da gücləndi və bir-birinin ardınca fərman və sərəncamlar imzalandı.

2002-ci il sentyabrın 30-da 3 fəsil, 20 maddədən ibarət "Dövlət dili haqqında" Qanun qəbul edildi. Qanunda bir sıra məsələlər öz əksini tapdı. Onlardan bəzilərini nəzərdən keçirək:

1.Respublikada keçirilən bütün rəsmi tədbirlər Azərbaycan dilində aparılmalıdır.

2. Respublikada təhsil dövlət dilində aparılmalıdır.

3. Bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənməlidir.

4. Respublikada bütün kütləvi informasiya vasitələri (mətbuat, televiziya, radio və s.) Azərbaycan dilinin normalarına riayət olunmasını təmin etməlidir.

5. Azərbaycanda beş ildən bir yazı normalarını müəyyən edən orfoqrafiya lüğəti nəşr olunmalı və bütün vətəndaşlar ona əməl etməlidirlər.

Azərbaycan dilinin hərtərəfli inkişafı, dövlət dilinə çevrilməsi, diplomatiya aləminə yol açması, dünyanın ən mötəbər tribunalarından eşidilməsi Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dil siyasəti ilə bağlıdır.

Bütün bu fərman və sərəncamların verilməsi milli qeyrət, mənəvi saflıq, dövlətə, xalqa, onun dilinə sədaqət, həmçinin dərin bllik tələb edir. Şübhəsiz, dövlət tərəfindən göstərilən qayğı dilimizin daha da inkişaf etməsinə xidmət edir.

Ə D Ə B İ Y Y A T

1. Z.Əsgərov. H.Əliyevin xarici siyasət stragesiyası. Xalq qəzeti, 2010, 10 aprel;
2. M.Əliyev. H.Əliyev "Elm, təhsil və mədəniyyəti himayədarı idi".
Xalq qəzeti 16 may, 2010;
3. İ. Hüseynova. "Müstəqil Azərbaycan dövlətinin qurucusu". Bakı, 2004;
4. N.Zamanov. "Heydər Əliyev və Azərbaycan nitq mədəniyyəti". "Elm və təhsil", Bakı, 2020;
5. N.Məmmədov. H.Əliyev və Azərbaycan modeli. Bakı, 1990.

Elnarə Məmmədova

Heydər Əliyev və ana dilimiz

X Ü L A S Ə

Ümummilli liderimiz Heydər Əliyev ana dilimizə həmişə böyük dəyər verib və onu sevib. O, Azərbaycan Respublikasına rəhbərlik etdiyi müddətdə xalqın ictimai təfəkküründə milli düşüncənin formalaşmasına xüsusi bir diqqət yetirmişdir.

Heydər Əliyevin dövlət quruculuğunda əhəmiyyətli bir yerdə duran dil siyasəti və onu inkişaf etdirməyin yolları haqqında söylədiyi fikirlər bizə Azərbaycan dilini, ana dilimizin gözəlliyini duymağı, bu dildə düzgün danışmaqla hamıya nümunə olmağı öyrətdi.

O, ana dilini bilməyən dövlət məmurlarına dilimizi öyrənməyi tələb edirdi. Ulu öndərin dil strategiyası belə idi: "Öz dilimizi Azərbaycanda hakim dil etməliyik!". O, nitqlərində həm sual verib, həm də cavabını verirdi. "Bilirsiniz" modal sözü ilə məsələnin hamıya məlum olduğuna, lakin hələ də bir qism şəxslərin öz fikirlərində qaldığına işarə edirdi.

H.Əliyevin nitqinin başqa bir cəhəti də müraciət etdiyi, haqqında danışdığı bir məsələyə və ya şəxsiyyətə adi nitq yox, sözlə çəkilmiş bir portret yaratması idi.

Heydər Əliyev peşəkar natiq, böyük ictimai-siyasi təfəkkür sahibi, öz güclü

fəaliyyəti ilə seçilən, davranış və üslub sahibidir. O, Azərbaycan nitq mədəniyyətinin hazır imkanlarından istifadə etməklə kifayətlənməmiş, ana dilimizin, şifahi dilimizin hüdudlarını maksimum dərəcədə genişləndirmişdir.

Elnara Mammadova

Heydar Aliyev and our first language

S U M M A R Y

Key words: *national leader, first language, Azerbaijaniness, beauty of our language, state language, Turkic-speaking peoples*

Our national leader Heydar Aliyev has always valued and loved our first language. During his leadership of the Republic of Azerbaijan, he paid special attention to the formation of national thought in the public thinking of the people.
Heydar Aliyev's thoughts about the language policy, which is an important part of state building, and ways to develop it, taught us to appreciate the beauty of the Azerbaijani language, our first language, and to be an example to everyone by speaking it correctly.

Although they live in different geography and lead different lifestyles, there are many typological similarities in naming people by the ancestors of Azerbaijanis and Englishmen. In the English (Anglo-Saxon) and Azerbaijani (Turkic-Oghuz) epic tradition, the names of heroes largely have semantics related to the historical heroic era of the peoples. Moreover, there are some general principles and motives for naming a person in the folklore tradition. In this article, the names of the heroes in epic monuments such as "Beowulf", "King Horn", "King Arthur", "Kitabi-Dade Gorgud", "Oguz Kagan", "Koroglu" are analyzed in relation to the aesthetic taste, belief system, mythology, lifestyle and art of the peoples who created these works. It is suggested that most of the names of epic heroes in Azerbaijani and English folklore are related to ensuring or protecting a person's success according to the ancient worldview of these peoples. It is emphasized that the reason why the heroes bear names like Lion, Taurus, Fairy, Beowulf, Wulf and others is the association of the hero with the object directly expressed by these words. Meanwhile, it is shown that the names related to rituals, especially sacrifices, to soften nature and supernatural forces in human-nature and human-gods world relations, and to "quench their anger" are included in the epics. In Azerbaijani and English folklore, as well as in the myths and tales of other nations, in archaic epics, gods killing their own children, rulings ordering the killing of newborn boys so as not to lose their throne, are analyzed in connection with the primary forms of sacrifice. In the article, the unimaginable actions of the chief god Odin in Scandinavian-Germanic mythology, including his self-sacrifice (hanging from a tree) in order to achieve enlightenment, the birth of Koroglu in the gor (grave) in the Oghuz epic, are related to both worlds of the god or man who is dead or considered mad are evidences of belief in the existence of folklore characters. In addition to these, the manifestation of the influence of Islam and Christianity on the epic creativity of the Turkish and Germanic peoples at the name level is also investigated in relation to the regularities of folklore.

Key words: Azerbaijani epics, Anglo-Saxon epic, semantics of epic names, mythology, "Kitabi-Dada Gorgud", "Beowulf".

ФОЛЬКЛОРНАЯ СЕМАНТИКА ИМЕН ГЕРОЕВ В АНГЛИЙСКОМ И АЗЕРБАЙДЖАНСКОМ ЭПОСАХ
КРАТКОЕ СОДЕРЖАНИЕ

Хотя они живут в разной географии и ведут разный образ жизни, в наименовании людей предками азербайджанцев и англичан существует много типологических сходств. В английской (англо-саксонской) и азербайджанской (тюрко-огузской) эпической традиции имена героев во многом имеют семантику, связанную с исторической героической эпохой народов. Кроме того, существуют некоторые общие принципы и мотивы именования человека в фольклорной традиции. В данной статье имена героев эпических памятников, таких как «Беовульф», «Король Горн», «Король Артур», «Китаби-Даде Горгуд», «Огуз каган», «Кероглу» представляют собой систему верований, мифологию, образ жизни и искусство народов, создавших эти произведения - анализируется в отношении к эстетическому вкусу. Высказано предположение, что большинство имен эпических героев в азербайджанском и английском фольклоре связаны с обеспечением или защитой успеха человека согласно древнему мировоззрению этих народов. Подчеркивается, что причиной того, что герои носят такие имена, как Лев, Телец, Фея, Беовульф, Вульф и др., является ассоциация героя с объектом, непосредственно выраженным этими словами. Также показано, что в эпосы включены названия, связанные с обрядами, особенно с жертвоприношениями, для смягчения природы и сверхъестественных сил в мироотношениях человека и природы и человека и бога, а также для «утоления их гнева». В азербайджанском и английском фольклоре, а также в мифах и сказках других народов, в архаических эпосах боги, убивающие собственных детей, постановления, предписывающие умерщвлять новорожденных мальчиков, чтобы не потерять свой престол, анализируются в связи с первичным формы жертвоприношения. В статье рассматриваются невообразимые действия главного бога Одина в скандинавско-германской мифологии, в том числе его самопожертвование (повешение на дереве) для достижения просветления, рождение Кёроглу в горе (могиле) в огузском эпосе, относятся к обоим мирам бога или человека, умершего или считающегося сумасшедшим, считаются свидетельством веры в существование фольклорных персонажей. Кроме них, в связи с закономерностями фольклора исследуется и проявление влияния ислама и христианства на эпическое творчество тюркских и германских народов на именном уровне.

Ключевые слова: азербайджанские эпосы, англо-саксонский эпос, семантика эпических названий, мифология, «Китаби-Дада Горгуд», «Беовульф».

Məsələnin qoyuluşu. Epik qəhrəmanın və ümumiyyətlə folklor obrazının adı obrazın tipologiyası ilə sıx bağlıdır. Toplumun qəhrəmanlıq barədə xəyallarını əks etdirən epos qəhrəmanının adı xalqların tarixində xüsusi mərhələ təşkil edən qəhrəmanlıq dövrü ilə əlaqəli semantikaya malikdir. İstər türk, istər german xalqlarının tarixində hərbi-demokratiya dövrü yüzillikləri əhatə etdiyindən, bu xalqlarda epik qəhrəman adlarının hərblə bağlı semantikası xüsusi diqqət çəkir. Hərbi mahiyyətlə yanaşı, istər Azərbaycan (oğuz-türk), istər ingilis (anqlo-saks) epik adlarında magik semantikanı da nəzərdən qaçırmaq olmaz. Çox vaxt hərbi və ya digər mövzulu adların verilməsi həmin adın müstəqim mənada ifadə etdiyi obyektin mistik qüvvəsinə inamla bağlı olurdu.

İşin məqsədi. Bu adların mif və folklor semantikasına nəzər yetirdikdə, azərbaycanlıların və ingilslərin əjdadlarında insana ad verməsində çoxsaylı tipoloji bənzərlikləri aşkara çıxarmaq olar. İşin məqsədini də bu bənzərliklərin incələnməsi təşkil edir.

İşin məzmunu. Azərbaycan (oğuz-türk) və ingilis (anglo-saks, eləcə də kelt) epik ənənəsində adın magik funksiyasına inam ümumi baxdıqda aşağıdakı şəkillərdə özünü göstərir:

1. Qəhrəman adını daşıdığı obyektlə assosiasiya olunur, yəni adı qəhrəmana verilmiş ismin müəyyən keyfiyyəti magik yolla qəhrəmanda təzahür etmiş olur. Bunları iki qismə bölmək olar:

a) yırtıcı və ya savaşcıl heyvan adı və ya əlaməti ilə bağlı olanlar. Məsələn, "Oğuz kağan"da Oğuz, "Kitabli-Dədə Qorqud"da Buğac, "Kral Atrur"da Artur, "Beovulf"da Beovulf, "Kral Horn"da Horn və b. Anglo-saks adları arasında tez-tez rastlanan Vulf (Wulf) da döyüşkənliklə assosiasiya olunan heyvanı – qurdu ifadə edir;

b) fövqəlqüvvələrlə bağlı olanlar. Bu adlar daşıyan obrazlar ən azı fövqəl-qüvvənin müəyyən cəhətlərini (rəngini, görünüşünü, gözəlliyini, qüdrətini və s.) təcəssüm etdirirlər. Məsələn, nağıl və dastanlarımızdakı Pəri adı və "Kral Artur"da „ağ pəri" mənasını verən Qvinevra (Guinevere) kimi.

2. Adın məzmunu qəhrəmanın bir növ uğurunu təmin edir və ya onu qoruyur. Bunların da əsas hissəsini iki qrupa bölmək olar:

a) Hərblə, silah adları ilə bağlı olanlar. Ümumiyyətlə götürdükdə qədim german və Skandinav ənənəsində hərbi tematikalı adlar (əsasən kişi adları) ağırlıq təşkil edir. Məsələn, əgər "Beovulf"la bağlı tədqiqatlara baxsaq, oradakı antroponimlərin ən azı yarısının obrazın qəhrəman xarakteri və sosial statusu ilə bağlı olduğunu alimlərin xüsusi vurğuladığını görə bilərik. Ümumilikdə bu dastandakı antroponimləri belə bölürlər:

1. Qohumluq bildirənlər;
2. Qəhrəmanı xarakterizə edənlər (bura xüsusən onun ləqəbləri aiddir);
3. Obrazın sosial statusunu bildirənlər;

4. Aid olduğu tayfanı bildirənlər (3, s.58-59).

Bu bölgü böyük ölçüdə qəbul edilsə də, onun müəyyən dəqiqləşmələrə ehtiyacı var. Belə ki, çox halda qohumluq, sosial status, döyüşçü xarakterinə bağlı sözlər əsasən qəhrəmanın "əsl" adı yox, epitetləri və ya ləqəbləridir. Məsələn,

"Geat" – Beovulfun ləğəbi; gaut tayfasından olmasına işarədir.

"Gamela Scylding" – "Qoca skildinq"; Hrodqarın ləqəbi, skildinqlər tayfasına mənsub olduğunu bildirir.

"Beovulf" dastanında danların ölkəsinin (Daniya, Danimarka) kralı Heremodun adı da hərbi tematika ilə bağlı adlar sırasına daxil edilir. Here (qədim ingiliscə "ordu") və mod (qədim germanca „math" – "güc" və ya qədim ingiliscə „mod" – "əhval-ruhiyyə") kəlmələrindən ibarət olan, məcazi mənada "Döyüş ruhu" kimi interpretasiya edilən (3, s.59) belə adlar orta əsrlərdə german tayfaları üçün səciyyəvi hal idi. Amma bu adın ifadə etdiyi qəhrəmanlığı, döyüşkən ruh anlamını təkcə hərblə bağlamaq düzgün olmazdı. Obrazın daha qədim Skandinav paradiqması onun həm də yeraltı ruhlarla döyüşən igid kimi başa düşülməsinə imkan verir. Təsadüfi deyil ki, "Beovulf"da kral Heremod məhz Qrendel qarşısında aciz qalmışdır. Halbuki adından da göründüyü kimi, bu personaj funksional semantikası baxımından qaranlıq, ölüm gətirən qüvvələrə qarşı qəhrəmanlıq ruhunu əks etdirməli idi. Bu da onun arxaik praobrazını şaman arxetipinə yaxınlaşdırır. Şamanizmə xarakter təsəvvürlərə görə, şəri və ya yeraltı aləmi təmsil edən qüvvələr insanın ruhunu oğurlayıb aparır və bu səbəbdən ruhu oğurlanmış insan tezliklə bəlaya, xəstəliyə düçar olub ölür. Xəstəni, yaralını xilas etmək üçün şaman yeraltı dünyaya enir, ruhu oğurlayan bəd qüvvəni aldadaraq və ya döyüşdə yenərək ruhu yenidən işıqlı dünyaya qaytarırdı. Bəzən bu xilasetmə sual-cavab, şərt kəsmə ilə də ola bilərdi. Adətən yuxarı dünyaya qalxan şamanların qartal, qu quşu, durna, uçan maral şəklində, aşağı dünyaya yollanarkən at, ayı, canavar, balıq və s. heyvan şəklində yardımçıları olurdu (4, s.31-32).

Skandinavların "Kiçik Edda" epos silsiləsindən „Gylfaginning"də Here-mod/Hermod Odinin ona verdiyi Sleypnir adlı atla ölülər dünyası – Helə enir və öz qardaşı Baldrı oradan xilas etməyə çalışır. Burada Hel onunla şərt kəsir: Əgər bütün aslar, bütün dünya Baldrın ölümünə kədərlənərsə, yas saxlarsa o, Baldırı azad etməyə hazırdır (7, s.75). Amma "Beovulf"da bu cür qahrəmanlar, çox güman ki, yeni dinə - xristianlığa, ölümdən qurtarmaq işinin artıq insan işi olmadığı və ölümün Allahın buyruğu ilə gercəkləşdiyi barədə dini inamlara uyğun gəlmədiyindən mənfi xarakterizə edilirlər.

Epik qəhrəmanlıq və hərb kontekstində izahını tapan anglo-sakson epik antroponimlərdən biri də Viqlaf adıdır. Bu ad qədim ingiliscədə "müharibədən sağ çıxan" kimi izah olunur və məcazi mənada "axırıncı döyüşçü" anlamı kəsb edir (3, s.58). "Beovulf" dastanında Vaqmundinqlər nəslinin nümayəndəsi Viqlaf əsas qəhrəman Beovulf ölənədək onu tərk etmir. Əjdaha ilə döyüşdə əjdahanın ağzından püskürdüyü dəhşətli alovdan qurtulmaq üçün Beovulfun bütün silahdaşları meşəyə

qaçanda, yalnız Viqlaf qorxmadan Beovulfun yardımına atılır və yoldaşlarını köməyə çağırır. Dastanda Viqlaf öz adına uyğun olaraq, hər ağır döyüşdən sağ-salamat qurtulan epik obrazdır. Sonda Beovulf ölərkən öz üzüyünü və dəbilqəsini də Beovulfa verir. Beləliklə, burada Viqlaf adı həm epik məzmun planında, həm də qoruyucu-magik planda öz funksionallığını qoruyub saxlayır.

b) Teoforik adlar. Məsələn, Abdulla („Abdulla və Cahan“), "Beovulf"da Beov, Şif və b. Qeyd edək ki, Beovulf adı ancaq dastanda rast gəlinmiş çox nadir adlardan hesab olunur. M.P.Baeva yazır ki, anqlo-sakson mənbələrində yalnız bir yerdə Beovulfa oxşar "Biuulf" adına rastlanılır (3, s.60). Anqlo-sakson epik ənənəsində Skild oğlu Beav (Beowa) və ya Beov haqqında məlumatlar vardır (6, s.105). Bundan çıxış edən alimlər hesab edirlər ki, dastanın ilkin mətnində Beovulf yerinə Beov yazılmış, lakin sonra dastanın üzü köçürülərkən katib hər yerdə Beovu "Beovulf"la əvəz etmişdir (6, s.105). Onlara görə, Beov qədim germanların tərəyiş tanrısı İnqa və skandinav tanrısı Frey ilə əlaqəli obrazdır (3, s.61). Anqlo-sakson eposunun tədqiqatçılarından bir qrupu Beovulf (Beowulf) adının ilk variantı kimi Beov (Beow\Beavv) adını qəbul edir, onu əkmək, becərmək mənasında olan qədim german dilində "bhu" kəlməsinə bağlayır və beləliklə də Beov/Beovulfu qədim Skandinav-german mifologiyasında təbiət tanrısı İnq və ya Freyr (Frey) ilə eyniləşdirilə biləcəyini önə sürürlər (9, s.50-65). Bu fərziyədən çıxış etsək, Beovulfa yağışla, bətəkətlə, yaşıllıqla bağlanılan və ikonoqrafik təsvirlərdə əjdahanı yenən qəhrəman kimi qrşımıza çıxan xristian müqəddəsi Müqəddəs Georginin müəyyən cizgilərinin əlavə olunması da qanunauyğunluq kimi görünə bilər.

Amma bu epik qəhrəmanın adının iki variantının (Beov və Beovulf) fərqli kultlarla bağlı olub, anglo-saksların və keltlərin xristianlaşması nəticəsində öz populyarlığını itirib tədricən unudulmaq səbəbindən bir obrazda birləşməsi də mümkündür. Bu hal yəqin ki, eposu yazıya alanları da çaşdırmışdır. Adların oxşar olması, burada əsas səbəb kimi görünsə də, onların hər ikisinin əski təsəvvürlərdə şərə qarşı duran mifik obrazlar olması (bu baxımdan kosmosu, nizamı təmsil etmələri), funksional yaxınlığı da eyniləşdirmədə müəyyən rol oynaməşdır.

c) Alqış-dua məzmunlu, "Quran" kəlmələrindən ibarət və ya Allahın 99 epitetini əks etdirən adlar, dini müqəddəslərin adları, digər sakral mövzulu adlar ("Kitabi-Dədə Qorqud"da Qazan, "Koroğlu"da Alı kişi, "Şah İsmayıl"da İsmayıl və b.). Təbii ki, "Quran" kəlmələri, Allahın 99 epitetini əks olanan adlar Azərbaycan eposuna xasdır. Bu tipli adlar təkcə orta əsr dastanlarımız üçün deyil, müasir Azərbaycan antroponimikası üçün də çox səciyyəvidir. Kişilərə qoyulan peyğəmbər adları ilə yanaşı, Azərbaycan əhalisinin böyük qismi şiələrin 12 imamının adına xüsusi ününlük verir: Əli, Həsən, Hüseyn, Ələsgər, Rza, Cəfər və s. Təbii ki, İslamın qəbulundan sonra yüzilliklər ərzində ənənəvi epik qəhrəman tipi də dəyişmiş, İslam dəyərləri Azərbaycan epik qəhrəmanının uğrunda mübarizə apardığı əsas dəyərlərə çevrilmişdi. Əgər "Kitabi-Dədə Qorqud"da İslam ehkamları

hələ kafirlərlə və ya düşmənlə savaşın səbəbi deyilsə, boylardakı savaşlar qəhrəmanın ailə üzvlərini (atasını, qardaşını, anasını, oğlunu və s.) xilas etməsi və ya oz sevgilisinə qovuşması üçündürsə, Anadolu türklərinin "Battal Qazi" dastanında bu savaşlar sırf dini yaymaq, Bizansı – Rumu islamlaşdırmaq məqsədi daşıyır. Hətta "Koroğlu" dastanında belə (dastanın xüsusən Cənubi Azərbaycan variantlarında) Koroğlu dini (şiə) qəhrəman kimi cizgilər daşıyır. Bu variantlarda, Koroğlunun həqiqi adı Rövşən Əli kimi verilir ki, bu da şiələrin birinci imam hesab etdikləri Həzrət Əliyə işarə edir. Məsələn, dastanın Təbriz variantında deyilir ki, atası Koroğlu doğulanda dəbdəbəli "ad gecəsi" keçirir. Məslisdə olanlar uşağı görəndə onun simasındakı əzəmətdən onları vahimə basır. Məclis əhli uşağın böyüyəndə böyük şəxsiyyət olacağını, bütün xalqın ona itaət edəcəyini deyir və buna görə adını Rövşən Əli qoyur (12, s. 438-439).

Adın insanın gələcəyini müəyyənləşdurdiyinə inam dastanlarımızda aydın şəkildə ifadə edilir. Məsələn, "Alı xan" dastanında deyilir: "Uç gün sonra uşaqlara ad qoymağa başladılar. Bütün qarıları yığdılar. Qarılar cürbəcür olur: Pərcahan, Hürcahan, Zorcahan, Napak qarı, İpək qarı, Köpək qarı …

Pərcahan qarı dedi:

- Oğlanın adını mən qoyacam. Bax, bunun adını qoyuram Sicimqulu. Ömrü də sicim kimi uzun olsun.

Bu qarını eşiyə çıxatdılar ki, səndən ad qoyan olmaz. Bu səfər Hürcahan qarı gəldi, dedi:

- Oğlanın adını Örkəmqulu qoyacam. Həm evlənsin, həm uzunsın.

Buna da acıqları tutub, eşiyə çıxartdılar. Sonra Zorcahan qarı gəldi, dedi:

- Oğlanın adını qoyacağam Çatırqulu.

Bunu da qovdular. İndi də gəldi Napak qarı:

- Oğlanın adını qoyacam Poladqulu ki, heç olməsin.

Köpək qarı bunları eşidəndə irəli gəlib dedi:

- Oğlanlardan birinin adını Dəmirqulu, birinin də Poladqulu qoyacam ki, adları kimi möhkəm olsunlar.

Bunu da çölə çıxardıb, İpək qarını çağırdılar. İpək qarı dedi:

- O qarılar qələt eləyir. Mən oğlanın adını qoyuram Məhəmməd, qızın adını Pəri, o tapılan oğlanın adını da qoyuram Tapdıq" (1, s.204).

Tapdıq adı nə qədər qəribə görünsə də, sakral tematikaya aid adlar sırasına aid edilə bilər. Tapmaq insan taleyi, qismət anlayışına bağlı olduğundan onun ilahidən nəzərdə tutilmuş bir iş üçün baş verdiyinə inanılırdı. Tapılan əşyanın və ya insanın Allahdan müəyyən olunmuş missiyası vardı. "Kitabi-Dədə Qorqud"da yalnız meşədən tapılan qəhrəman Basat Təpəgözü (yeri gəlmişkən onu da Aruz tapıb evə gətirir) öldürüb, Oğuz elini qurtarır. "Oğuz kağan" dastanında bütün oğuz tayfaları Oğuzun tapdığı qadınlardan törəyir. "Boz qurd" dastanında Boz qurdun tapıb böyütdüyü uşaq türklərin əcdadı olur. Beləliklə, tapılma xilasolmanın bir variantı kimi, tanrı buyruğu, hökmü sayılır. "Tapdıq" adlı Azərbaycan xalq

nağılında deyilir ki, oğul övladı olmayan Süleyman tacir şəhərdə gəzərkən yubanır, gecə yarısı evə dönmək istəyir. Bu vaxt birdən bərk hənirti eşidir və o istiqamətdə baxanda görür ki, göydən qaranlığı yara-yara yerə bir işiq düşdü. Bu işiğa tərəf gələn Süleyman tacir işıq düşən yerdə bir körpə uşaq tapır və öz-özünə "Xudaya sənə çox şükür. Yəqin rəhmin gəlib, göydən bu uşağı mənə saldın" – deyir (2, s.126).

Dini rəvayətlərdə məşhur tapılmış uşaq motivi Musa peygəmbələ əlaqədardır. Musa Misir əsarətində qul kimi istifadə edilən yəhudi ailəsində doğulur. Gələcəkdə yəhudi övladından ona xətər toxunacağından qorxan firon bütün yeni doğulan yəhudi oğlan uşaqlarını öldürməyi əmr edir. Anası körpə Musanı ölümdən xilas etmək üçün qundaqda Nil çayına buraxır. Çaya atılmış uşağı Misir fironun qızı tapır və saraya gətirir. Musa böyüyəndən sonra ilahi vəhy və Allahın möcüzəsi sayəsində (dənizin suyu çəkilib yəhudilərə yol verir) yəhudiləri Misir əsarətindən xilas edir.

Maraqlıdır ki, analoji halı biz ingilis dastanlarında da görürük. Məsələn, "Beovulf"da Skild Skevingi də "Tapılmış" adlandırırlar, cünki Dat krallığının əsasını qoymuş bu əfsanəvi şəxsiyyət danlar arasında yurd-yuvası olmayan, atılmış bir uşaq kimi peyda olmuşdu.

"Robin Qudun doğulması" balladasında ata evdən qaçmış qızını meşənin dərinliyində yeni doğduğu körpəylə - Robin Hudla birgə tapır (14, s.36). Yəqin ki, daha arxaik modeldə Robin Hud meşədən tapılıb gətirilən sirli, naməlum uşaq arxetipinə aiddir. Azərbaycan nağılı "Əmiraslan"da tacir Əhmədin meşədən tapdığı hamilə qadın Əmiraslanı dünyaya gətirir.

"Qurbani" dastanının qəhrəmanın adı sakral tematika ilə əlaqəli antroponimikaya ən bariz nümunədir. Qurban mifologiyada və bütün dinlərdə insanla Allah arasında əhdin, ilahiyə tam inamın təzahürüdür. Qurban kəlməsinin ərəbcədə "yaxın olmaq" (yəni Allaha yaxın olmaq) kimi ilkin mənası da bunu təsdiqləyir. Bütün mədəniyyətlərdə qurban sakral mahiyyətlidir və təsadüfi deyil ki, bu qurban bəzən tanrının öz oğlu (xristianlıqda İsa Məsih), peyğəmbər oğlu (İslamda İbrahim peyğəmbərin oğlu İsmayıl) olur.

Mif və nağıllarda, arxaik eposlarda tanrıların öz övladlarını öldürməsi, padşahların "taxt-tacı əldən getməsin deyə" yeni doğulan oğlan uşaqlarının qətlinə fərman verməsi, yəqin ki, qurbanvermənin ilkin formaları ilə əlaqələnə bilər.

Yayğın rəvayətə görə, İbrahin peygəmbər Allahdan bir övlad istəmiş və bu övladını müəyyən yaşa yetdikdə Allaha qurban kəsəcəyinə and içmişdi. Allah-taala onun sözünü eşitmiş, İbrahimə oğlu İsmayılı nəsib etmişdi. İsmayıl öz vədini yerinə yetirib, oğlunu qurban vermək istədikdə, Allah göydən bir qoç endirmiş və İbrahimə oğlunun yerinə bu qoçu qurban edilməsini hökm etmişdir. İslamda İsmayıl qurbanı İbrahimin sınağı kimi başa düşülür. Bu səbəbdən, qurban Həcc ziyarətinin mühüm hissəsini təşkil edir.

Dini-fəlsəfi baxışa görə İsa Məsih insanlıq naminə özünü qurban vermişdir. Bu baxımdan Qurbani adının semantikası İslam mistisizminə, sufizmə bağlıdır. "Qurbani" dastanının süjetində bu ilahi qurban ideyası, yəni eşq yolunda "candan-başdan keçmək" az izlənirsə də, dastan şerilərində, əksinə, həddən artıq qabarıqdır:

Yatmışdım üsümə gəldi ərənlər,
Qafil nə yatmısan, oyan dedilər.
Oyandım qəflətdən açdım gözümü,
Al, abi-kövsərdən iç, qan dedilər.

Oyandım qəflətdən, açdım gözümü,
Ərənlər payinə sürtdüm üzümü.
Dindirdilər, haq söylədim sözümü,
Doxsan min kəlməmə Bəyan dedilər.

Qurbani, batıbsan qəm dəryasına,
Ovçunun məskəni dağ arxasına.
Bir siyqəl versənə könül pasına,
Aşıqi məşuqa qurban dedilər (1, s.26-27).

Dastanda "Qurbani" adının verilməsi folklor ənənəsinə tam uyğun şəkildədir: "Sabahı Mirzalı xan nəzir-niyaz, bir dənə də karlı qurbanlıq götürüb getdi ocağa. Nəzir payladı, qurbanı da kəsdi. Allah-taala bunların qurbanını qəbul elədi. Belə ki, bu işdən bir müddət sonra Mirzalı xanın bir oğlu oldu ki, on dörd gecəlik ay kimi. Mirzalı xana müjdə getdi. Mirzalı xan ac qarınları doyurdu, cıplaq əyinləri geydirdi. Sonra uşağa ad qoymaq istədilərş Bir ağıllı qoca kişi gəlib dedi:

– Oğlanın adını mən qoydum Qurbani. Çünki bunu qurbanla tapıbsınız (1, s.21).

Azərbaycan folklorunda övladı olmaq üçün qurban vermə çox geniş yayılmış motivdir. "Kitabi-Dədə Qorqud"da bəzi qəhrəmanlar Tanrıya edilən qurban səbəbindən dünyaya gəlmişlər. Orada "Duxa Qoca oğlu Dəli Domrul boyu"nda "can əvəzinə can vermə" motivi də qurbanvermənin folklorda yayğın təzahürlərindən biridir (10, 79-84). Domrulla bağlı rəvayət bəzi alimlərə (T.Hacıyev, A.Acalov və b.) görə oğuz dastan silsiləsində yer almış daha qədim əfsanədən qaynaqlanır və hətta onun tarixi şumerlərə qədər uzanır. Şumerlərin, sonra da akkadların ölüb-dirilən təbiət tanrısı Dumuzi ilə bağlanan bu obrazın adı barədə qorqudşünas alim Tofiq Hacıyev yazırdı ki, "Domrul və Tomris antroponimləri bir kökdən gəlir: sözün kökü törəmə, doğuş, toxum, nəsil mə'naları verən dum/dam/tum sözündəndir - müasir türk dillərində doğ/toğ/tu/tum sözlərində bu gün də görünür. Həmin antroponimlərin mifoloji məzmununda, həqiqətən, törəmə mənası olmuşdur" (8, s.8). Dumuzi və onun həyat yoldaşı ilahə İnanna ilə bağlı mi-

fə görə, İnanna ölümdən qurtulmaq üçün öz əvəzinə Dumuzini qaranlıq dünyaya göndərmişdi.

Altay miflərinə görə, yealtı dünyanın hakimi zəhmli Erlik xanı ancaq qurbanvermə ilə sakitləşdirmək, rəhmə gətirmək mümkün idi. "Kitabi-Dədə Qorqud"da oğuzların Təpəgözün ölkəni məhv etməsin deyə, onun yeməsi üçün verdikləri insanlar da qurbanlıq idilər. "Ağ atlı oğlan" Azərbaycan xalq nağılında padşah digər oğullarını sehrbaz dərvişdən qorumaq üçün Nərbalanı qurban verir. Dərvişin Nərbalanı apardığı dərə, oradakı quru kəllələr, qaranlıq otaqlar, insanların atılıb yandırıldığı təndir aşağı dünyanı simvolizə edir. Bu da Nərbalanın yeraltı ruhlara qurban verilən məsumlar kateqoriyasına aid obrazlar sırasına qoymağa imkan verir.

İnsan-təbiət münasibətlərində təbiəti yumşaltmaq, onun insana qarşı rəhmli davranmasına nail olmaq məqsədli qurbanvermə daha əski forma idi. Ovçu tayfalar ov ətinin müəyyən hissəsini qurbanlıq kimi ocağa atır, heyvanın sümüklərini sındırmadan torpağa bastırırdılar. Lakin bəzən təbiət insanlara qarşı uzun müddət sərt davrananda (quraqlıqlarda, zəlzələlərdə, ov olmadıqda, yağıntılar kəsməyəndə və s.) təbiət tanrılarına insan qurbanı da verilirdi.

Skandinav-germanların mifologiyasında kosmosun yaranması qurbanvermə ilə bağlanılır. İlk canlı sayılan azman İmirin nəvəsi Byörün övladları – aslar (Odin, Vili, Ve) İmiri qurban verərək, onun bədəninin hissələrindən dünyanı xəlq edirlər. Qədim german mifologiyasında hətta tanrıların özünü qurban verməsi motivi vardı. Baş tanrı Odin müdüklüyə çatmaq üçün özü özünü qurban vermişdi. Bu da müəyyən qədər ölmüş insanın hər iki dünyanın sirrinə vaqif olması kimi inamlara söykənə bilərdi. Beləliklə, özünü tanrıya qurban etmiş adam mistik qüvvələrlə bağlanılırdı və bəzən ona magik bacarıqlar da şamil edilirdi. German berserkləri özlərini tanrıya (Odinə) qurban etmiş döyüşçü tipi idilər. "Koroğlu" dastanında Koroğlunun bir şeirində də "doğulan gün öldüyünün" vurğulanması da bu konteksdə izah qazana bilər:

Koroğlu der: bu dünyaya gəlmişəm,
Keçən günün mən qədrini bilmişəm,
Mən anadan olan günü ölmüşəm,
Bir atdu, bir qılınc qardaşım, dağlar (11, s.194).

Oğuz eposunda estetik-mənəvi məzmunlu adlar da çoxdur, lakin bu tip adlar adətən qadın adlarıdır – Məhbub xanım, Nigar xanım, Əsli, Diləfruz, Gülzar, Güləndam və b. "Kitabi-Dədə Qorqud"da, "Koroğlu"da, Azərbaycan məhəbbət dastanlarında qadınlar, aktiv və ya passiv olmalarına baxmayaraq, demək olar ki, hamısı müsbət personajlardır. Onlar bəzi hallarda düşmən qızları (Sarı donlu Selcan xatun, Nigar xanım, Məhbub xanım və b.) olsalar belə, qəhrəman qütbündə qərar tuturlar. German xalqlarının qədim epik yaradıcılığındakı, o cümlədən anqlo-

saks eposunda qadınlar bu baxımdan fərqlənirlər. Onların böyük qismi bu epik mətnlərdə cadugər, ərlərinə xəyanət edən, məkrli, intiqam almağa meyilli xarakterə sahibdirlər. Bu keyfiyyətlər anqlo-sakson eposunda ad səviyyəsində də təzahür edə bilir.

Nəticə. Aydın olur ki, ayrı-ayrı çoğrafiyalarda məskun olsalar da xalqların keçdiyi bənzər tarixi yol, cəngavərlik, mərdlik və igidlik haqqında bənzər düşüncələr, arxaik düşüncəyə xarakterik olan inanclar, sonralar vahid Allah ideyası azərbaycanlıların və ingilislərin advermə sistemində müəyyən oxşarlıqlara səbəb olmuşdur ki, bu da onların epik yaradıcılığında da paralel əks olunmuşdur. Tədqiqat göstərir ki, qədim ingilislərin əcdadları olan german tayfalarının ənənəsində kişilər əsasən hərbi tematikalı adlar daşıyır və bu, epik mətnlərdə aydın görünür. Bu sıradan anqlo-saks epik ənənəsində silahla bağlı adlara geniş rast gəlinir ki, bu hala Oğuz (Azərbaycan) epik ənənəsində az-az rastlanılır. Belə ki, qədim türk dastanlarında qəhrəman adları güc-qüvvət, hakimiyyət simvolu və ya totem sayılan heyvanlarla əlaqələnir. Sonrakı dövr Azərbaycan dastanlarında (əsasən məhəbbət dastanlarında) isə dini adlar əsas yeri tutur.

ƏDƏBİYYAT

1. Azərbaycan dastanları, 5 cilddə. I cild. Toplayıb tərtib edənlər: Ə.Axundov, M.Təhmasib. Bakı: Çıraq, 2005, 424 s.

2. Azərbaycan nağılları, 5 cilddə, III cild. Toplayanlar: Ə.Axundov, M.Təhmasib, N.Seyidov. Bakı: Çıraq, 2004, 352 s.

3. Баева М.П. Этимология и особенности перевода антропонимов и топонимов англосаксонской поэмы «Беовульф» // Вестник Московского Государственного Областного Университета. Серия: Лингвистика, 2017 / № 2, с. 56-66.

4. Басилов В.Н. Избранники духов. Москва: Политиздат, 1984, 208 с.

5. Beowulf (modern English translation). Translated by F.B.Grummere – https://www.poetryfoundation.org/poems/50114/beowulf-modern-english-translation (giriş tarixi: 16.09.2020).

6. Grant T. Beow in Scandinavia // Jour. “Anglo-Saxon England”, Vol. 48, December 2019, Cambridge University Press, pp. 105-120.

7. Gylfaginning – https://www.sacred-texts.com/neu/pre/pre04.htm

8. Hacıyev T. “Dədə Qorqud” dünənimizin keçmişidir. Dördüncü söhbət // “Dədə Qorqud” jur., 2010, № 2, s.3-9.

9. Кернер В.Ф. Медведь в обрядах перехода / Образы и сакральное пространство древних эпох. Екатеринбург: Аква-Пресс, 2003, с. 49-66.

10. Kitabi-Dədə Qorqud. Çapa hazırlayanlar F.Zeynalov, S.Əlizadə. Bakı: Yazıçı, 1988, 255 s.

11. Koroğlu. Paris nüsxəsi (çapa hazırlayan, ön söz qeyd və şərhlərin müəllifi İ.Abbaslı). Bakı: Ozan, 1997, 208 s.

12. Koroğlu. Təbriz variantı. Tərtib edən: E.Tofiqqızı. Bakı: Səda, 2005, 452 s.

13. Мелетинский Е.М. Эдда и ранные формы епоса. http://svr-lit.ru/svr-lit/meletinskij-edda/ukrashayuschie-epitety.htm

14. Три баллады о Робин Гуде / Маршак С. Собрание сочинений в 8 томах, т. 4. М.: Художественная литература, 1969, с. 36-45.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: AMEA Folklor İnistutu fil.f.d., dos Rza Xəlilov tərəfindən çapa tövsiyə olunmuşdur

LAILA SAHIB GADIMOVA
Azerbaijan University of Languages,
Lexicology and stylistics of the English language 2,
PH.D.

TEXT AND SEMANTICS OF CONVERSION

K.Abdullayev explains how intra-textual connections, which he calls cohesion, are realized [Abdullayev 2016, p.289]. He writes that practically any level of language provides something for cohesion, and among these means it is necessary to distinguish two most general groups of means. One of them is the meaning relationship of components, and the other one is the structural relationship of components [Abdullayev 2016, p.289]. Based on his (K.Abdullayev's) opinion, it is possible to take into account the syntactic nature of both types of connections and combine them under this name [Abdullayev 2016, p.289]. As it can be seen, K.Abdullayev also mentions the superiority of cohesion in intratextual relations.

2) The next indicator contained in the text is called connection, compatibility, that is, coherence. Coherence describes the relationships of meaning expressed within a text.

As it is known, the text has internal and external structure. The elements that form the internal structure are considered to be concepts. A.Abdullayev writes that concepts are organized in "small particles of meaning" [Abdullayev 2011, p.178]. Particles that define concepts must be compatible with each other, that is, there must be semantic relations within the text.

3) The next indicator of the text is the presence of criteria of purposefulness, that is, intentionality within the text.

Every text that is sent, forwarded to someone is based on intent. The primary goal of any text sender is to convey their intent clearly and consciously. Its purpose is to influence the listener through the speech (of the sender of the text). The main goal in this process is for the listener to get more interesting information, to change the situation (positively or negatively) as a result of the information he receives because as a result of any obtained information, the addressee has to take certain steps and make decisions.

4) The next indicator of the text is appropriateness, acceptability, or conditions for preparing the listener (addressee) for communicative communication.

This indicator contains the meaning that the person to whom the text is transmitted is ready to receive that information or not. It is considered to be important that the owner of that address is ready for communication. The main goal here is the presupposition of the communicative significance of the sequence of sounds or writings received by the listener.

5) The context and situational relationship is defined as the next indicator of the text. It includes the connection between the communicative situations in the text. Note that the text is related to the communicative situation in a certain sense. That is, the text is related to the creation and acceptance of the communicative situation. The text can be placed in any relevant situational context and its communicativeness can be revealed in that situation. In a situational context, the text either loses its meaning in a certain sense, or becomes incomprehensible, or can be fully understood. The context is one of the important conditions for the understanding, acceptance and correct understanding of the text. F. Veysalli calls the situational context "constitution" [Veysalli 2013, p. 349].

6) Informativeness (informativity) is considered to be the next indicator of the text. Any text should contain new information and information. If the information is new for the person receiving the information, it means that the informativity indicator is high.

7) The next indicator of the text is intertextual relations, i.e. intertextuality.

There is usually a correspondence between the texts. Citations are used to create coherence between texts.

Texts with different contents are suitable in terms of genre characteristics [Abdullayev 2011, p.179].

A.Abdullayev writes that it took some time to study and discover the criteria that determined the definition of the text and were important in the definition. Cohesion has been accepted as the only tool in text linguistics for a long time [Abdullayev 2011, p.179].

Various tools are used to construct any text or to create connections between the sentences included in the text.

Parts of speech are considered the most important and the most used of these tools. The main, auxiliary and independent parts of speech are referred to as parts of speech.

As is known, parts of speech in modern English are divided into three groups: main (Notional), auxiliary (structural, or functional) and independent (free) [Huseynov 2015, p.9].

The first group includes nouns, adjectives, verbs, etc. (7 in total), the second group includes articles, adverbs, prepositions, conjunctions, and the third group includes modal words and exclamations.

It is noteworthy to highlight that conversion can be considered to be a means of language saving. That is, conversion allows expressing what is expressed and what is said in one word in order to save some places in the speech as well as in the writing.

To save some places in the language (language saving or language economy), linguists often use the notions of "the language cancels something", "the language eliminates something", "the language tries to get rid of something", "the language

tries to avoid heavy speech structures", etc. The system of signs, like language itself, does not have its own will and purpose in the language. Observing the principles of economy in language can be observed in every field of it. This situation is reported to be noticed especially in the language used by the speakers (such as politicians, etc.) in their speeches.

It is so as speakers try to save language as much as possible and also to be effective. It is the speakers who consciously try to reduce some of the words and expressions used in communication to a certain extent - and thereby save the pronunciation-speech effort and speech energy; they can get the time needed to transmit certain information. The law of saving speech time, especially in conversational style, has situational and social limitations.

Currently, language saving is considered to be a controversial issue. Indeed, according to this law, many languages have "extra" grammatical categories and forms.

It is important to highlight that the principle of language economy is universal as language economy acts as one of the main causes of changes in all languages, and it finds its expression at all levels of the language system. The means of implementing this principle at each level have their own characteristics and are examined separately.

Economy (in language) in the structure of the language system is one of the linguistic laws on which all languages work. The differences between them are expressed in one way or another though. Such a universal law cannot be considered without any reasons one of the most general linguistic universals that can be applied to any language, as well as to any aspect of it. Word formation methods and tools have different functions. Currently, conversion is considered to be the most active way in creating/forming new words.

Conversion based on homonymy can be observed not only between lexemes, but also between morphemes. In English, the inflection /-en/ can act as a prefix as well as a suffix. Here are the dictionary entries that define its semantics:

en- *prefix* [in verbs] such as *to enlarge; to endanger; to enrich; to encircle,* etc.
-en *suffix* such as *a golden crown; wooden seats; to darken* [Longman 2001, p. 469].

It becomes clear that the /en-/ prefix differs in its semantics from the suffix /-en/. This difference is observed primarily in the formation of new words.

The suffix /-en/, when attached to adjectives, strengthens the semantics of materiality in the adjective, and thereby develops a homonymous meaning with respect to the prefix /en-/. It is necessary to highlight that they also differ etymologically: the prefix /en-/ is known to have been borrowed from the French language and for the first time in English written monuments that was said to have been recorded from 1785 till 95. The suffix /-en/ is known to be a legacy of Old High German [7]. However, in parallel with homonymy, both morphemes can also be

synonyms. So, when forming verbs, they give the verb the semantics of the quality of action.

According to the investigations, in the English language some conversives were recorded in which, when the function changes, the semantics is not rethought. In other words, the meaning of converses is not metaphorized, but, depending on the function, changes its meaning, which depends on the function of the sign in speech. Therefore, we sorted out the type of conversives in a separate group, and in them notes have been defined through the semantic transfer of the function. For example:

1) The word *airbrush* in English can be both a noun and a verb. In this case, it can mean the following:

Airbrush as a noun which means a piece of equipment that uses air to put paint onto a picture smoothly; ***airbrush*** as a verb uses an airbrush to make a picture more attractive, to cover certain parts of it etc. [Longman 2001, p. 31]

As can be seen from the above definitions, the meaning of the word *airbrush* in different functions does not change, but it is more concretized.

We can observe the same thing in the word ***affront:***

Affront as a noun which remarks or action that offends or insults someone. For example: The comments were an affront to his pride.

Affront as a verb that means to offend or insult someone, especially by not showing respect [Longman 2001, p. 24].

Again, one affront sign performs different functions in English, but the semantics changes only in that the subject meaning changes to a specific action.

The other example:

Though the two most nominated films – The Favourite and Roma – are acclaimed and generally well-liked, there were plenty of divisive choices on the list, not to mention the inevitable slew of disappointing snubs (Harper's BAZAAR, 22 January 2019). – TikTok is a fast-growing streaming video company that relies on the company has received acclaim for generating a big audience for influencers but also has drawn scrutiny over that may not be favorable to the Chinese government (Los Angeles Times, 22 January 2020).

From the above examples, it can be observed that the noun and the verb acclaim, differing in the functions performed in the sentence, differ semantically only by virtue of indicating an object or action. This is confirmed by the dictionary data of the word:

Acclaim as a noun describes praise for a person or their achievements;
Acclaim as a verb means to praise someone or something publicly [Longman 2001, p. 8].

Thus, the semantic component of conversion is observed in three types of value transfers: metaphorical, homonymous, and transfer by function. At the same time, the development of these meanings can be observed both in homogeneous units and in heterogeneous ones, since all types of transfers that we noted above are most

often found in the English language in a mixed form. Moreover, conversion reveals such linguistic universals as polysemy, synonymy and antonymy.

The phenomenon of polysemy of words in the English language, according to F.A. Litvin, "is a very interesting linguistic moment <...>, because it demonstrates all the richness, abundance and complexity of the English language in the best possible way, and also shows us the history of its development and formation" [Litvin 2005, p. 90]. In the theory of linguistics, two types of polysemy are distinguished - chain and radial.

The chain path of development of polysemy involves the development of each meaning of the word from the previous one, i.e. along the chain. For example, the noun ***brain***:

1. The organ inside your head that controls how you think, feel, and move. Example: *The doctors have found a tumor in his **brain.***
2. The ability to think clearly and learn quickly. Example: *If you had any **brains** at all, you wouldn't ask such a stupid question;*
3. Someone who is intelligent, with good ideas and useful skills. Example: Some of the best ***brains*** in the country are here tonight [Longman 2001, p. 156].

Each meaning of the noun is derived from the other one: the name of the organ that controls the entire vitality of a person, on the basis of a metaphorical transfer, begins to indicate the ability of a person to think clearly. With the development of a meaning, this word begins to denote the person - smart and intelligent one. Consequently, the development of the meanings of the word ***brain*** is built along the chain organ → ability → person, and is a polysemantic word.

However, the brain can also develop its meaning under the influence of a conversion. So, in English, in addition to the function of a noun, ***brain*** is also used as a verb. Let us look through the given example:

The yawning space between is echoed by an endless lateral runway that makes every entrance and exit seem like a trek and requires the actors to duck their heads to avoid getting brained on the way out (The Hollywood Reporter, 16 October 2019).

As a verb, brain means "to smash the head": "to hit someone very hard on the head" [Longman 2001, p. 156], which arose from the first meaning of the noun ***brain***, also on the basis of a motivated metaphor.

Now it'd be better consider the next example that may describe the polysemy of a word.

For this purpose we prefer to take the noun ***step*** as an example. In English the mentioned noun has, as a rule, 5 main meanings:

1. The movement you make when you put one foot in front of the other when walking. Example:

*Sal quieckened his **steps** toward the hotel.*

2. One of a series of things that you do in order to deal with a problem or produce a particular result. Example:
*Backer said his next **step** will be to demand a new trial.*
3. A flat narrow piece of wood or stone, especially one in a series, that you put your foot on when you are going up or down, especially outside a building. Example:
*Ellen ran up the **steps** and banged on the door.*
4. A stage in a process, or a position on a scale. Example:
*Completing your degree would move you up a **step** on the salary scale.*
5. A movement of your feet in dancing. Example:
I can't remember all the ***steps*** [Longman 2001, p. 1426].

As can be seen from the above definitions, all the meanings of the noun ***step*** are derived from the first meaning of ***step***, which expresses the semantics of movement. In other words, "the initial meaning is central, and secondary, derived meanings depart from it like rays" [Gurova 2015, p. 59].

Note that in English there is also a multi-valued verb ***step,*** expressing:
1. To raise one foot and put it down in front of the other one to move along. Exampe:
*Please **step** this way.*
2. To bring your foot down on something. Example: What did you ***step*** in?
[Longman 2001, p. 1426].

There is a chain connection between the meanings of the verb: the verb ***step*** in the meaning of "step" that was formed from the meaning of "step".

There is also a connection between the noun ***step*** and the verb ***step***. In relation to each other, they act as conversives, forming a polysemy of the word ***step*** in English. But at the same time, they differ from each other in their part-speech affiliation and the functions they perform in the sentence.

So, polysemy as a universal linguistic phenomenon, and the polysemy of a word that arose under the influence of conversion may include two different processes.

If the first one develops in a word due to historical reasons, but at the same time does not change its syntactic and morphological functions, then with the polysemy that appears under the influence of conversion, the word, while maintaining the form and partly the content, changes its function.

Consider other examples of ambiguity that are formed under the influence of conversion.

As it is known synonymy is known to be based on the ability of the language system to have several signifiers for one signified which helps to reflect the various properties of the objective world in the language using a minimum of language means. Just a reminder we consider it necessary to mention that synonymy is manifested at all levels of the language, therefore, there are phraseological, grammatical, word-formative and lexical synonymy [10]. The combination of synonyms on a single basis is called *a synonymic series*, which helps to convey

gradation in the expression of thoughts, feelings, in the characteristics of objects and phenomena. In other words, the synonyms included in the synonymic series correspond with the same concept, differing only in aspects of their view of it.

Unlike synonymy as a universal phenomenon, synonymy resulting from the action of conversion manifests itself somewhat differently. So, in English, the lexeme braid can act as a noun as well as a verb.

Antonyms are words that are different in pronunciation and opposite in meaning: *wise- stupid, sweet – bitter, dark – light,* etc. As a rule, antonyms belong to the same part of speech and perform the same function in a sentence. Antonyms-conversives manifest themselves differently in the language. The lexeme ***amount*** in English can be a noun and a verb. Both words are multi-valued. In one of its meanings, the noun ***amount*** means "used to say that something has no effect" [Longman 2001, p. 43]. The given example may illustrate our point of view:

According to the agency's website, aspiring astronauts should be United States citizens who hold a master's degree in a science, technology, engineering or mathematics (STEM) field, or have completed an equivalent amount of course work and training (Smithsonian Magazine, 3 March 2020).

The meaning of the noun ***amount*** is opposed by one of the meanings of the verb amount: "to have the same result or effect". Example:

She may not have killed him herself, but helping Dave to do it ***amounts*** *to the same thing* [Longman 2001, p. 43].

Thus, the lexemes ***amount*** are not observed to be only conversives, but in some of their meanings they are antonymous to each other.

Conversion is necessary to state may affect the semantics of linguistic units as well as they can cause such semantic phenomena as *polysemy, synonymy, homonymy, antonymy* as well.

REFERENCES

1. Mammadov, A.Y., Mammadov, M. (2010). Cognitive perspectives of discourse analysis. Baku: Chashioghlu, 96 p.
2. Abdullayev, A.A. (2011). Actual linking and text. Bakı: Khazar University publishing house, 189 p.
3. Abdullayev, K.M. (2011). Theoretical problems of Azerbaijani language syntax. Baku: Maarif, 359 p.
4. Veysalli, F.Y. (2013). Fundamentals of Linguistics. Baku: Mutarjim, 420 p.
5. Huseynov, A.R. (2015). A collection of lectures on the theoretical grammar of the English language. Baku: Mutarjim, 376 p.
6. Longman. (2001). Advanced American Dictionary. Edinburg: Edinburg University Press, 1746 p.
7. Dictionary.com: [Электронный ресурс]. URL: https://www.dictionary.com.
8. Litvin, F.A. (2005). Polysemy of the Word in Language and Speech. Moscow: M.: ComBook, 120 p.

9. Gurova, Yu.I. (2015). The phenomenon of polysemy in the English language and the ways of its development // Philological Sciences. Questions of theory and practice, – Vol. 1. № 8(50), – pp. 58-60.
10. Eliseeva, V.V. Lexicology of the English language: [Electronic resource]. URL: http://www.classes.ru/grammar.
11. Budagov R. A. (1977). What is the development and improvement of the language? Moscow: Publishing House “Science.”

Gadimova L.

TEXT AND SEMANTICS OF CONVERSION

Summary

Text is a linguistic unit studied within the framework of linguistic and psycholinguistic studies. A text can exist within any context, that is, it cannot be a text without a context. Text analysis is usually done in two ways. They are: 1) propositional method; 2) communicative method.

In the propositional method, the already known defined features of the sentences in the text are studied.

The communicative method stipulates the precise differentiation of any feature of the text as a whole object, and at the same time includes the study of the text, its separation without resorting to other syntactic structures.

Text plays a crucial role in any linguistic study. There are certain indicators that the text must contain.

Cohesion. Cohesion is considered to be a set of grammatical formal relations in text linguistics. Cohesion includes relationships between words, word combinations, not only within the sentence, but also outside the sentence. This means that it (cohesion) involves the lexical and grammatical agreement of the elements that form the relationships between words and phrases.

Key words: *conversion, text, meaning, polysemantic, verb, context, method*

Гадимова Л.

ТЕКСТ И СЕМАНТИКА КОНВЕРСИИ

Резюме

Текст – это языковая единица, изучаемая в рамках лингвистических и психолингвистических исследований. Текст может существовать в любом контексте, то есть он не может быть текстом без контекста. Анализ текста обычно проводится двумя способами. Это: 1) пропозициональный метод; 2) коммуникативный метод.

В пропозициональном методе изучаются уже известные определенные признаки предложений в тексте.

Коммуникативный метод предусматривает четкое выделение какого-либо признака текста как целого объекта и в то же время включает в себя

изучение текста, его выделение без обращения к другим синтаксическим конструкциям.

Текст играет решающую роль в любом лингвистическом исследовании. В тексте есть определенные указания.

Сплоченность. Сплоченность рассматривается как совокупность грамматических формальных отношений в лингвистике текста. Связность включает отношения между словами, словосочетаниями не только внутри предложения, но и вне предложения. Это означает, что оно (связность) предполагает лексическое и грамматическое согласование элементов, образующих отношения между словами и словосочетаниями.

Ключевые слова: *конверсия, текст, значение, многозначность, глагол, контекст, способ*

Mətnin semantik təhlili

Xülasə

Mətn dilçilik və psixolinqvistik tədqiqatlar çərçivəsində öyrənilən dil vahididir. Mətn istənilən kontekstdə mövcud ola bilər, yəni kontekstsiz mətn ola bilməz. Mətn təhlili adətən iki şəkildə aparılır. Onlar: 1) prpozisional üsulu; 2) kommunikativ üsul.

Propozisiya metodunda mətndəki cümlələrin artıq məlum olan müəyyən edilmiş xüsusiyyətləri öyrənilir.

В данном способе изучения английского языка за основу берется не классическая модель. В конце XX века за английским окончательно закрепился статус языка мирового значения. В большинстве школ мира его изучение стало обязательным. А методология преподавания начала развиваться семимильными шагами. Не все могли позволить себе посещение курсов, что спровоцировало появление первой методики самостоятельного изучения. Впоследствии многие авторы предпринимали создать программу эффективного изучения английского языка. Как учитель иностранного языка, вы можете преподавать как взрослым, так и детям. Так как у этих людей нет никакого понятия о языке, вы можете использовать язык жестикуляции и мимики как первоначальный этап общения. Прежде, чем говорить о том, какие бывают методики изучения английского языка самостоятельно. Один из самых популярных во всем мире способов, предпочтение которому отдают большинство людей. Новый метод и способ изучения английского языка – из личных особенностей. Лучший вариант – это попробовать несколько разных методик и понять какой из них подходит именно студентам. В этой статье мы говорим о том, какие бывают методики английского языка и какая из них подойдет именно изучению студентов. В этой статье говориться о необходимости в обучении, видеоматериалы на английском языке.

Abıyeva V.G., Safixanova A.H., İbrahimova İ.

XARİCİ DİLLƏRDƏ İNNOVATİV METODLARDAN İSTİFADƏ VƏ ONLARIN AZƏRBAYCAN SİLİNDƏ EKVİVALENTİ

XÜLASƏ

İngilis dilinin öyrənməyin əsas yolları və Azərbaycan dilində qarşılığı.

Açar sözlər: ingilis dili, tədris metodları, kommunikasiya, kompetensiya.

Qloballaşma dövründə ingilis dilinin xüsusi rolunu nəzərə alaraq xarici dillərin öyrənilməsinə çox böyük maraq vardır. İngilis dilinin öyrənilməsində yeni ideyaların və innovativ metodların olduqca böyük rolu vardır. Qloblaşma dünyada hər bir ölkənin inkişaf burada mövcud olan təhsil sisteminin keyfiyyətindən

bilavasitə asılıdır. Məlum olduğu kimi, Azərbaycanın təhsil sistemi Avropa təhsil sisteminə inteqrasiya prosesindədir. Bu isə Avropa təhsil məkanında mövcud olan standartlara, qəbul edilmiş qayda və normalara riayət etməyi qarşısında duran prioritet istiqamətinə çevrilməsini tələb edir. Bu istiqamətdə müəyyən islahatların aparılmasını və müəyyən müsbət nəticələrinin əldə edilməsini qeyd etməklə, eyni zamanda bu metodlardan yüksək səviyyədə yararlanmaq lazımdır. Müasir tədris sisteminin qarşısında əsas vəzifələrdən biri ingilis dilinin öyrədilməsi və öyrənilməsidir. Bu gün ölkəmizin ali təhsil müəssisələri qarşısında duran bu tələb təhsilin səviyyəsini artırmaqdır. İngilis dilinin öyrədilməsi və öyrənilməsinin səmərəliliyini artırmaq ibarətdir. İnnovativ metodların və üsulların dillərin tədrisinə tətbiqi çox vacibdir. Müasir informasiya – kommunikasiya texnologiyalarından audio – video vasitələrdən səmərəli şəkildə istifadə etmək lazımdır. Müasir tələblərə uyğun olaraq ali məktəblərdə tədrisi müasir tələblərə uyğun olmalıdır. Tədrisdə olan yeni videomateriallardan istifadə yüksək səviyyədə qeyd olunur. Bu da ixtisası ingilis və qeyri-ingilis dili fakultələrdə yüksək səviyyədə tətbiq edilir.

ƏDƏBİYYAT

5. Abbert “Promoting innovation in developing countries”. 2005.
6. Basit T.N. “Ethincs reflexivity and access in educational research”. London, 2012.
7. Craft “Childhood, possiblity thiching” 2 vise, London, 2015.
8. Bloin R.Ruffer, W.Robinton “Curricular change summit supplement”. London, 2009.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: prof. Məmmədova Z.Ş.
tərəfindən çapa tövsiyə olunmuşdur

AĞAYEVA NƏRGIZ
Odlar Yurdu Universiteti, Koroğlu Rəhimov küç,
13 AZ1072, magistrant
agayevanergiz33@gmail.com
ORCHID NO: 0000-0002-2980-0082

MÜRƏKKƏB SÖZLƏR VƏ QOŞA SÖZLƏR

Açar sözlər: *mürəkkəb sözlər, qoşa sözlər, təkrarlar, sinonim sözlərdən yaranan qoşa sözlər, antonim sözlərdən yaranan qoşa sözlər*

Keywords: compound words, double words, repetitions, double words from synonyms, double words from antonyms

Ключевые слова: сложные слова, двойные слова, повторы, двойные слова от синонимов, двойные слова от антонимов

Mürəkkəb sözlərin tabesizlik əsasında, yaxud tabelilik əsasında formalaşması şərtidir və bu cür bölgü əsasında formalaşan mürəkkəb sözləri bir-birindən fərqləndirmək, ayırmaq yerinə görə çətinlik yaratdığı kimi həmçinin vurğulamaq lazımdır ki, bu bölgülərə aid edilən mürəkkəb sözlər də hər zaman tam həmin bölgüyə aid olmur. Tabesizlik bölgüsünə aid edilən, eyni sözün təkrarından yaranan mürəkkəb sözlərin tərkib hissəsini formalaşdıran sözlər arasında tabesizlik, yaxud tabelilik əlaqələrindən heç biri mövcud deyil, ancaq bu cür sözlərin bəzi ortaq cəhətlərinə görə, yəni vurğu məsələsi, həmçinin defislə yazılmaqları kimi ümumi xüsusiyyətlərə görə onlar tabesizlik əlaqəsi əsasında düzəldilmiş mürəkkəb sözlərə aid edilmişdir.

Ümumiyyətlə, tabesizlik bölgüsünə aid edilmiş sözlərə "qoşa sözlər" də deyilir və bu sözlərə aid müxtəlif fikirlər, rəngarəng münasibətlər mövcuddur.

Türk dillərində olan qoşa sözlər haqqında ilk məqaləni K.Foy tərtib etmişdir və qoşa sözlərin yaranmasında müəyyən bir qanunauyğunluğun olduğunu bildirmişdir, N.K.Dmitriyev bu iddialarla razılaşmış və başqırd dilində də belə olduğunu bildirmişdir, eyni zamanda F.Koyun müddəalarından irəli gələn nəticələr Azərbaycan dilinə də aid edilə bilər.

Məsələn, a) qoşalaşan sözlərdə az hecalı sözün çox hecalı sözdən əvvəldə gəlməsi: məs, qab-qaşıq, qol-budaq, çul-çuxa, boy-buxun, dam-dairə, gül-çiçək, əsər-əlamət, ah-nalə, künc-bucaq, öyüd-nəsihət, şər-böhtan, hal-əhval, od-alov, saf-çürük, dost-tanış və s.

b)eyni hecalı qoşalaşmış sözlərdə saitlə başlayan söz samitlə başlayan sözdən əvvəl gəlir: məs, ata-baba, üst-baş, ölüm-dirim, ala-tala, ögey-doğma, əlil-zəlil, ana-bala, iş-güc, elə-belə, əndər-öndər və s. [4, səh 79].

c)qoşa sözləri təşkil edən sözlərdən ikisi də samitlə başlayarsa, o zaman cingiltili samitlə başlayan söz kar samitlə başlayan sözdən əvvəl gələr: məs, vur-tut, varlı-hallı, dərə-təpə və s.

N.P.Direnkova oyrot dilinə aid olan qoşa sözlərin "sintaktik sözyaratma üsulu" ilə yarandığını bildirmişdir.

N.A.Baskakov isə qoşa sözləri mürəkkəb söz hesab etmiş, tabelilik üzrə formalaşan sözləri isə "tərkibi" sözlər kimi qeyd etmişdir.

Qoşa sözlərin yaranma yolları müxtəlifdir, əsasən, qoşa sözlərin yaranmasını üç yerə ayırmaq olar:

1)Cümlədəki həmcins üzv olan sözlərin bir-birinə yanaşmasından yaranan qoşa sözlər

2)Eyni sözün təkrarlanmasından yaranan qoşa sözlər

3)Cümlə üzvlərindən hər hansısa birinə aid olan sözlə həmin sözün əlavəsinin yanaşması nəticəsində yaranan qoşa sözlər.

"Türk dillərinin qrammatikası" adlı kitabında A.N.Kononov bütün təkrarları mürəkkəb söz hesab edir, bir çox dilçi alim bu fikri dəstəkləyir.

M.Adilov demişdir ki, hər cür təkrarın mürəkkəb sözlərlə eyni tutulması, mürəkkəb söz hesab edilməsi "təkrar" anlayışına təktərəfli yanaşmağın nəticəsidir. [4, səh 101].

S.E.Malov ən qədim türk dillərinin yazılı abidələrində eyni sözlərin təkrarlanmasından istofadə edildiyini yazır.

"Divani-lüğəti-it-türk" kitabında Mahmud Kaşğari 42 qoşa söz birləşməsindən istifadə etmişdir. Artur Devids "Urammaire turkue" kitabında ilk dəfə kapkara, kitab-mitap formalı birləşmələri mürəkkəb söz kimi qəbul etmişdir.

Prof. Kazım bəy gömgöy, qıpqırmızı kimi yarımçıq təkrarları mürəkkıb söz yox, sifətin çoxaltma dərəcəsində olan söz hesab etmişdir, lakin J.Deni isə bu tip çoxaltma dərəcəsində olan sözlərdə əvvələ gələn hissəciyə prefiks kimi yanaşmışdır. M.Adilov isə bu hissəciklərin prefiks olması ilə razılaşmamış, hər bir sözün önünə özünə uyğun hissəcik gəlməsi arqumentinə əsaslanaraq prefiksin sözün xüsusiyyətini nəzərə almadan artırıldığını demiş və bu cür sözləri mürəkkəb söz hesab edən dilçilərin əksinə olaraq həmin tip sözlərə sadə sözləri müəyyən forması hesab etmişdir. N.A.Baskakov da bu cür yanaşmanın tərəfdarı olmuşdur.

Türk dillərində işlənən qoşa sözlər barəsində italyan alim L.Bonelli, alman alim K.Foy da müəyyən fikirlər söyləmiş, araşdırmalar aparmışlar. F.Koy türk dillərində olan mürəkkəb sözlərə ayrıca bir əsər yazmış, hətta bu sözləri iki qrupa bölmüşdür.

Türk dillərindəki qoşa sözlər haqqında A.Y. Krımski, N.Durnova, Mirzə Cəfər, N.K.Dmitriyev, Y.İ.Ubryatova, T.Kovalski, F.Y.Korş və s. dilçilər də müəyyən araşdırmalar aparıb fikirlər söyləmişdirlər. [4, səh 87].

Yarımçıq təkrarları bir sıra alimlər mürəkkəb söz hesab etsə də, bir sıra alimlər də mürəkkəb olmadığını iddia edirlər.Bir qrup təkrarlanan sözlər var ki, onları tam yox, qismən təkrar hesab etmək olar. Bu cür sözlər daha çox sifətlərdə, isimlərdə görünür: məsələn, qıpqırmızı, yamyaşıl, yapyalnız, yumyumru, lümlüt, zirzibil, çərçəngəl və s.

Bu cür formalaşmada sifətlərdən fərqli olaraq isimlərdə bir məqam var ki, isimlərdə sözün əvvəlində 2 səs yox, çox zaman 3 səs götürülür: məsələn, yar-yaraşıq, çır-çırpı və s.

Bir qisim qoşa sözlərdə isə fonetik dublet hissəsi yuxarıda qeyd etdilən kimi bir hecadan ibarət olmur, əsas söz neçə hecadan ibarətdirsə, təkrarlanan hissə də o qədər hecadan ibarət olur və, digərindən fərqli olaraq sözün sol yox, sağ tərəfində yazılır: məsələn, ayaq-mayaq, yalan-palan, axar-baxar, şey-mey,ələk-vələk, dava-şava, şitil-mitil, riya-miya,palçıq-malçıq, iclas-miclas, uşaq-muşaq, çürük-mürük, üzük-müzük, kosa-mosa, qayğı-mayğı, plov-mlov, xalat-malat, adyal-madyal və s. [4, səh 100].

Bir qisim qoşa sözləri isə dilçilər “flektiv təkrarlar” adlandırırlar, transformasiyalaşmış təkrarlar kimi bu cür təkrarlarda da fonetik dubletlər əsas sözdən sağda dayanır, bu cür qoşa sözlərdə digərlərindən fərqli olaraq samitlər ön planda durmur, saitlər önəmli olur və bu qoşa sözlərdə fonetik dublet hissəsi əsas sözdən ilk səsinə görə deyil, daxilindəki səslərinə görə fərqlənir, yəni əsas hesab edilən sözün ilk saiti başqa saitə dəyişərək fonetik dublet yaradır: məsələn, qara-qura, əyri-üyrü, kasıb-kusub, kağız-kuğuz, yama-yumaq, cayıl-cuyul, qara-qura, nağıl-nuğul, sarsaq-sursaq, tay-tuş, dəmir-dümür, şələ-şülə, şəltə-şültə, arıq-uruq, şəlpə-şülpə, cana-cuna, açar-uçar və s.

Bundan əlavə elə qoşa sözlər vardır ki, komponentlərinin heç biri dilimizdə ayrıca işlənə bilmir, çünki bu cür sözlər əslində qeyri-müəyyənlik bildirən səs komplekslərindən ibarətdir və dildə çox az sayda mövcuddur. Bu cür sözlərin yaranmasında cinas sözlər, ahəngdarlıq və s. önəmli yer tutur.

Qoşa sözlərin bəziləri isə heç bir fonetik dəyişikliyə uğramadan sözlərin təkrarlanmasından yaranır, burada sadə, yaxud da düzəltmə sözlər təkrarlana bilər. Bu cür sözlər əsasən defislə yazılır və birinci tərəfin vurğusu sözün son hecasına düşür, bu əsas vurğu hesab edilir, ikinci vurğu isə ikinci tərəfdə gələn sözün son hecasına düşür. Əgər dilin inkişafı nəticəsində qoşa sözlərin tərəflərindən biri vurğusunu tamamilə itirərsə, bu halda onların defislə yazılması şərt deyildir.

Təkrarlar sadəcə sözyaratma üsulu deyildir, onun geniş forma düzəltmə funksiyasını gözardı etmək olmaz, dilimizdə təkrarlar nəticəsində həm yeni sözlər yaranır, həm də çeşidli qrammatik kateroqiyalar özünü göstərir. Əgər feili bağlamada qoşa sözlər tərz mənası yaradırsa, sifətlərdə çoxaltma dərəcəsini bildirir. N. Hacıyevin fikrinə görə” sözün iki dəfə təkrar olunması keyfiyyəti dəyişmir, keyfiyyət keyfiyyətliliyini qoruyur, lakin kəmiyyət artıqlığına xidmət edir”. Məsələn: gözəl çiçək-gözəl-gözəl çiçəklər.

Qoşa sözlər yaranma formasına görə müxtəlif olur, bəzi təkrarlanan sözlərdə onları birləşdirən ünsür, hissəcik olur, bəzilərində isə olmur. Təxminən əsas nitq hissələrinin hər birində sözlərin təkrarlanması nəticəsində mürəkkəb sözlərin yaranmasını görə bilərik.

Məsələn, ismin təkrarlanmasının nəticələrinə nümunə göstərmək olar:

a)ismin təkrarlanması nəticəsində mürəkkəb sifət əmələ gəlir: məs, cərgə-cərgə, köynək-köynək və s.

b)ismin təkrarlanması zamanı ismin özünə aid qoşa sözlər yaranır: məs, top-top, xan-xan, qarın-qarın, üzük-üzük və s.

c) ismin təkrarlanması əsasında mürəkkəb zərflər yaranır: məs, dəstə-dəstə, qarış-qarış, ölkə-ölkə və s. [6, səh 183].

Sifətin təkrarlanması nəticəsində yaranan mürəkkəb sözlərə nümunə olaraq bunları qeyd etmək olar:

a)sifətlərin təkrarlanması nəticəsində mürəkkəb zərflər yarana bilir: məs, həzin-həzin, şirin-şirin, nazlı-nazlı, yaxşı-yaxşı və s.

b)sifətlərin təkrarlanmasından sifətin özünə aid qoşa sözlər da yarana bilir: məs, gözəl-gözəl, qalın-qalın və s.

Həmçinin müəyyən hissə düzəltmə sifətlərin də təkrarlanmasından yeni mürəkkəb sözlərin yarandığını görmək olar: məs, ölgün-ölgün, yorğun-yorğun, küskün-küskün, çürük-çürük, əzik-əzik, kəsik-kəsik, qorxaq-qorxaq, eşmə-eşmə, kəsmə-kəsmə, oğrun-oğrun, fikirli-fikirli, dadlı-dadlı, ləziz-ləziz, səssiz-səssiz, yağsız-yağsız, vitaminsiz-vitaminsiz, duzsuz-duzsuz və s.

Elə qoşa sözlər var ki, təkrarlanan sözlərin arasında hər hansısa bir bitişdirici ünsürə rast gəlinir, bu ünsürlərdən "ha","ba, bə", "a, ə" hissəciklərini nümunə göstərmək olar: məs, nəsilbənəsil, cürbəcür, rəngbərəng, yanbayan, üzbəüz, günbəgün, ağızbaağız, sözbəsöz, üzbəüz və s.

Bu ünsür yaxınmənalı, yaxud əksmənalı sözlərlə də işlənib yeni mürəkkəb söz əmələ gətirə bilir: məs, gecəbəgündüz, əlbəyaxa, üzbəgöz və s.

Digər ünsürlərə nümunələr: məs, qaçaqaç, içəiç, qurtarhaqurtar, vurhavur, çalhaçal, dehade, qırhaqır, şaraqhaşaraq,cırhacır, cızhacız, yehaye və s.

Həmcins üzvlərin birləşməsindən yaranan qoşa sözlərin ümumi mənasına mürəkkəb sözün tərkibində olan sözlər təsir edir, çünki bu formayla yaranan mürəkkəb sözlərdə komponentlər öz mənasını itirmir, hətta cümlənin həmcins sözlərinə oxşayırlar, lakin onlara həmcins üzv kimi baxmaq doğru olmaz, çünki həmin sözlər artıq vahid bir söz kimi formalaşmışdır. Əlavə etmək lazımdır ki, həmcins üzvlər vergüllə yazıldığı halda formayla yaranan qoşa sözlər ya defislə, ya da bitişik yazılır. [4, səh 92].

Cümlələrdəki həmcins üzvlərin birləşməsi nəticəsində yaranan qoşa sözlərin özlərinəməxsus xüsusiyyəti bundan ibarətdir ki, ümumi mənanın ortaya çıxması üçün həmin sözlər tabesizlik prinsipiylə birləşirlər, sözlərin hər biri bərabərhüquqlu

olur və bu cür düzələn qoşa sözlər dilimizdə xüsusi önəm daşıyır, mühüm rola sahib olur. Ən mühüm semantik əlamət budur ki, tərkib hissədəki sözlər ümumi məzmuna bərabər semantik məna, anlayışa malik olur.

Qoşalaşan sözlərdə alliterasiya hadisəsi özünü göstərə bilər: məsələn, üz-göz, daş-qaş, qərə-təpə, əkin-biçin, çaş-baş, ürək-direk, cik-bik, ocaq-bucaq, hərbə-zorba, iz-toz, xoş-beş, ölüm-itim, yurd-yuva, ölüm-dirim, dağ-daş, qohum-qardaş, qovun-qarpız və s. [6, səh 177].

Tərkibindəki sözlərin qarşılıqlı münasibətinə, həmçinin semantik xüsusiyyətlərinə görə qoşalaşmış sözləri 3 cür qruplaşdırmaq mümkündür:

a)yaxınmənalı sözlərin birləşməyindən yaranan qoşa sözlər

b)əksmənalı sözlər əsasında yaranan qoşa sözlər

c)nə yaxınmənalı, nə də əksmənalı olan sözlərin birləşməsindən yaranan qoşa sözlər

Antonim sözlər bir mürəkkəb söz kimi birləşib qoşa söz yarada bilər, bu cür mürəkkəb sözlərdə qoşa sözün hissələrini təşkil edən hər iki söz yeni mürəkkəb sözün mənasına müəyyən qədər təsir edir, lakin nəticəsə bir ümumi mənalı yeni mürəkkəb söz yaranır.

Əksmənalı sözlərdən yaranan qoşa sözlərdə hər hansısa anlayışlar arasında olan zidd əlaqələr öz əksini tapmış olur və mürəkkəb sözün komponentləri bu sözü yaratmaqda eyni dərəcədə rola sahib olurlar: məs, yer-göy, soyuq-isti, gecə-gündüz, get-gəl, al-ver, götür-qoy, bərk-boş, yaz-poz, var-yox, yaxşı-pis, sağ-sol, ölmək-qalmaq, apar-gətir, al-sat, irili-xırdalı, yaxşı-yaman, doğma-ögey, saf-çürük və s. [3, səh 130].

A.A.Potebnya yazır: “Bir-birinə zidd olan hissələrin işlədilməsi ümumiləşdirmə üsuludur”, “hissələr mənaca çeşidlidir, ancaq tamam bir-birinə əks deyil və şüurda biri digərini rədd etmir”.

Əksmənalı sözlərdən yaranan qoşa sözlərdə məna ümumiləşir, bu cür mürəkkəb sözlər tərkib hissələrinin keyfiyyətindən tamam fərqlənən yeni keyfiyyətə, yeni mənaya sahib olur.

Bir-birinə sinonim və yaxud antonim olmayan sözlərin birləşməsindən yaranan qoşa sözlər sə semantikasına görə topluluq xüsusiyyətinə malik olur: məs, toz-torpaq, süd-qatıq, yağ-pendir, sel-su, əl-ayaq, əl-üz, keyf-damaq, dədə-nənə, baba-nəvə, baba-nənə, ata-bala, toy-bayram, qol-qanad, qol-budaq, dil-ağız, dil-boğaz, qan-tər, dumanlı-çiskinli, evli-eşikli, vur-tut, ərli-arvadlı, arvadlı-uşaqlı, tər-su və s.

V.İ.Altırev demişdir: “ Ayrı-ayrı anlayış bildirən iki söz sintaktik həmcinslik üzrə bağlanmış olsa da, bir mürəkkəb sözün tərkibində birləşir, ya ümumilik, ya cəmlik bildirir”.

Ümumiləşdirmə bildirən qoşa sözlərdən sonra yekun bildirən qoşa sözlər yaranmış və onların sayəsində inkişaf etmişdir, lakin bu ikisini bir-birindən fərqləndirmək çətindir, çünki hər iksində ümumiləşdirmə ünsürü vardır. Yekun

bildirən qoşalaşmış sözlər söz birləşmələrinə də daha çox bənzəyir:məs, qız-gəlin, qaz-ördək, get-gəl, at-ulaq , at-eşşək və s. [5, səh 63].

Qoşa sözlərin formalaşmasından əlavə məna məsələsində də incə məqamlar var, bu sözlər bir neçə mənaya sahib ola bilərlər, yəni həqiqi, yaxud da məcazi mənalar nəzərdə tutulur: məsələn, baş-ayaq sözünün mənalarına nəzər saldıqda görünür ki, "baş-ayaq bişirmək" dedikdə bu söz həqiqi mənada işlənir, lakin "baş-ayağı məlum deyil", "baş-ayaq vurur", "başından-ayağından qulağıma gəlib" və s. tipli ifadələrdə isə bu qoşa söz məcazi mənada işlənmişdir. Buradan belə bir nəticə çıxartmaq olar ki, əsasən, insanın bədən üzvlərindən yaranan qoşa sözlər çoxmənalı olur və məcazi mənada işlənə bilir, həmçinin dilimizdə bu cür qoşa sözlərin işlənmə dairəsinin geniş olduğu da vurğulanmalıdır:məs, başlı-gözlü yerə batmaq, əl-ayağını yığmaq, ağız-burun turşutmaq, dili-ağzı qurumaq və s. tipli nümunələrdə qoşa sözlər məcazi mənada işlənmişdir.

Dil hər zaman inkişaf etdikcə həm yeni sözlər, ifadələr, həm də bununla yanaşı yeni sözdüzəltmə yolları ilə də genişlənir və zənginləşir. Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra dilimizə yeni sözlər, fərqli anlayışlar daxil olmuşdur. Dilin leksikası "mühəndis-texnik" formasında yaranan yeni qoşa sözlərlə daha da zənginləşməyə doğru getmiş, həmçinin bu cür qoşa sözlərin yaranma üsulu olan cümlə üzvüylə ona aid olan əlavə sözün birləşməsinin sayəsində qoşa sözlərin yaranması yolu da dildə möhkəmlənmişdir.

Xülasə

NƏRGİZ AĞAYEV

Mürəkkəb sözlərin tabesizlik əsasında, yaxud tabelilik əsasında formalaşmasını görə bilərik və bu cür bölgü əsasında formalaşan mürəkkəb sözləri bir-birindən fərqləndirmək üçün müxtəlif yollar və fikirlər vardır, qoşa sözlərin yaranma yollarına görə onları qruplaşdırmaq və ümumi xüsusiyyətlərini vurğulamaq olur.

Qoşa sözlər haqqında deyilən fikirlər, gəlinən qənaətlər çoxdur, hər zaman alimlərin diqqət mərkəzində olmuşdur, qoşa sözlərin yaranma yollarına baxdıqda və analiz etdikdə görmək olar ki, bu sözlər arasında əlaqə tabesizlik əlaqəsidir, çünki tərəflər eyni hüquqa malikdir, ya eyni söz təkrarlanır, ya bir-birinə yaxın mənaları olan, ya mənasına görə bir-birinin əksi olan sözlərin köməyiylə qoşa sözlərin formalaşdığını görə bilərik.

Eyni sözün təkrarından yaranan mürəkkəb sözlərin tərkib hissəsini formalaşdıran sözlər arasında tabesizlik, yaxud tabelilik əlaqələrindən heç biri mövcud deyil, ancaq bu cür sözlərin bəzi ortaq cəhətlərinə görə, yəni vurğu məsələsi, həmçinin defislə yazılmaqları kimi ümumi xüsusiyyətlərə görə onlar tabesizlik əlaqəsi əsasında düzəldilmiş mürəkkəb sözlərə aid edilmişdir.

Qoşa sözlərin dil üçün önəmi böyükdür, yaranma yolları və formaları müxtəlif olduğu üçün dilin leksikasına, lüğət tərkibinə qatqısı danılmazdır.

РЕЗЮМЕ

АГАЕВА НАРГИЗ

Мы можем видеть образование сложных слов на основе соподчинения или на основе соподчинения, и существуют разные способы и идеи для выделения сложных слов, образованных на основе такого деления, группируя их по способам образования двойных слов. слов и подчеркивая их общие черты.

О двусмысленных словах существует множество мнений и выводов, они всегда были в центре внимания ученых.Если посмотреть и проанализировать способы образования двусмысленных слов, то можно увидеть, что отношения между этими словами являются отношениями подчинения , так как стороны имеют одинаковое право, повторяется либо одно и то же слово, либо одно - мы видим, что двойные слова образуются с помощью слов, имеющих сходные значения или противоположных друг другу по смыслу.

Между словами, входящими в состав составных слов, образованных от повторения одного и того же слова, нет соподчинения или подчинённости, но это обусловлено некоторыми общими чертами таких слов, т. Дело в том, что они пишутся через дефис, их относят к сложным словам, образованным по принципу соподчинения.

Значение двойных слов для языка велико, так как способы и формы их образования различны, их вклад в лексику и словарь языка неоспорим.

SUMMARY

AGAYEVA NARGIS

We can see the formation of compound words on the basis of subordination or on the basis of subordination, and there are different ways and ideas for isolating compound words formed on the basis of such a division, grouping them according to the ways of forming double words. words and emphasizing their common features.

There are many opinions and conclusions about ambiguous words, they have always been the focus of scientists. If you look and analyze the ways in which ambiguous words are formed, you can see that the relationship between these words is subordination relations, since the parties have the same right, either the same word is repeated, or one thing - we see that double words are formed using words having similar meanings or opposite to each other in meaning.

There is no subordination or subordination between the words that make up compound words formed from the repetition of the same word, but this is due to some common features of such words, i.e. The fact is that they are written with a hyphen, they are classified as compound words, formed on the principle of subordination.

The significance of double words for the language is great, since the ways and forms of their formation are different, their contribution to the vocabulary and vocabulary of the language is undeniable.

ƏDƏBİYYAT SİYAHISI:

1.B. Xəlilov- Müasir Azərbaycan dilinin leksikologiyası, Bakı: Nurlan, 442 səh
2.Ə.Abdullayev, Y.Seyidov, Ağamalı Həsənov- Müasir Azərbaycan dili (Sintaksis), Bakı: Şərq-Qərb, 422 səh
3.H.Həsənov- Müasir Azərbaycan dilinin leksikası, Bakı: Nurlan, 451 səh
4.M.Adilov- Əsərləri I, Bakı: Elm və təhsil, 308 səh
5.Q.Kazımov-Müasir Azərbaycan dili-Morfologiya,Bakı: Elm və təhsil, 446 səh
6.S.Cəfərov-Müasir Azərbaycan dili (Leksika)- Bakı: Şərq-Qərb, 191 səh

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: fil.f.d. Sofiyeva Gülçin
tərəfindən çapa tövsiyə olunmuşdur

İLKNUR ƏSGƏROVA
ilknurasgerova@mail.ru
Xəzər universiteti, magistr
11 Məhsəti Gəncəvi , Bakı

KLASSİK AZƏRBAYCAN POEZİYASINDA SAY SİMVOLİZMİ
(onluq say sistemi)

Xülasə:

Klassik ədəbiyyatda mətn içində çeşidli simvollar istifadə etmək geniş yayılmışdır. Zaman-zaman nöqtə, xal, saç, hərflər və bu qəbildən başqa predmetlər fərqli mənalar ifadə etmək məqsədilə kontekstə daxil edilirdi. Məqalənin adından da göründüyü kimi biz say simvolikasını araşdırmağa çalışacağıq. Mövzuyla bağlı olaraq, yeri gəldikcə Azərbaycan poeziyasının klassik incilərinə, Qurani- Kərimə, mifologiyaya, və s. toxunacağıq. Antik yunan filosofları Pifaqor, Aristotel və Platon riyazi hesablamalarla yanaşı rəqəmlərə mistik-ezoterik anlamlar da yükləmişlər. Məsələn, Aristotel üçün bir sayı xüsusi mahiyyət daşıyırdı. Pifaqor Qərbdə numerologiya elminin əsasını qoymuşdur. Azərbaycan ədəbiyyatında bir çox şair rəqəmlərin sakral anlamlarını öz düşüncələrinə məcazi don geyindirmək, fikri üstüörtülü şəkildə ifadə etmək məqsədilə bu üsuldan istifadə etmişlər. Sakrallıq hər düşüncə sisteminin bir parçasıdır. Mifoloji mətnlərə diqqət yetirdikdə görürük ki, hər hansı hadisələr təkrarlanan saylarla ifadə olunur. Mifoloji kontekstdəki informasiya ilə dini mənbələrdəki məlumatların üst-üstə düşməsi sayəsində mətn daxilində kolorit yaranır və biz bu fikrin hardan qaynaqlanması barədə düşünürük. Məqalədə bu cür məsələləri araşdırmağa çalışmışıq. Yazıda həm klassik Azərbaycan poeziyası, həm də türk yaradılış dastanları tədqiqata cəlb olunub.

Açar sözlər: mifologiya, rəqəmlər, antik dövr Yunan filosofları, Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi, Altay yaradılış dastanı, "Kitabi-Dədə Qorqud", saylar fikir ifadə etmə vasitəsi kimi, yeddi, doqquz

Giriş.

Simvollardan istifadə etmək təsəvvüf ədəbiyyatının başlıca fikir ifadə etmə vasitələrindəndir. Bu simvollar vasitəsilə fikir kodlaşdırılırdı, müəllifin vermək istədiyi ideya alt qatda şərh edilməyi gözləyirdi. Saylar həm sufi ədəbiyyatda, həm mifologiyada, müxtəlif dinlərdə, elmdə xüsusi əhəmiyyətə malikdir. Antik dövr yunan filosoflarının yazılarından da bu məsələ aydın görünməkdədir. Numeralogiya elminin əsasını qoyan Pifaqor hesab edirdi ki, kainat rəqəmlər üzərində qurulmuş bir sistemdir, yəni kainatı rəqəmlərin vasitəsilə anlaya bilərik. Platonda da Pifaqorun təsirini görürük. Platon rəqəmlərə həm hesabi, həm də ezoterik baxımdan yanaşırdı. "Səma cismlərindən yaxşılıq, pisliyə qədər çeşidli şeylərin varlığı ilə rəqəmlər arasında əlaqə yaradılıb. Məsələn, "Timeus 53b" də Tanrının rəqəmlər və formalardan xaosdan kosmos yaratmaq məqsədilə istifadə etdiyi deyilir". (15, 55)

Aristotel isə bir rəqəminə xüsusi önəm verirdi. Natural ədədlərin hər birinə (1-9-a qədər) sakral məna yüklənmişdi. Diqqət etdikdə, görürük ki, tək antik çağ filosofları bu fikirdə olmayıb, bir çox xalqın mifologiyasında, dinlərdə, okkultizmdə, şifahi və yazılı ədəbiyyat nümunələrində bu cür yanaşma mövcuddur.

Türk yaradılış dastanlarında say simvolikası.Ən qədim zamanlardan bəri insanlar yaradılış barədə düşünüblər. Bu səbəbdən dünya və insanın necə mövcud olması barədə müxtəlif versiyalar yaranıb. Altay yaradılış dastanına nəzər salaq (Verbitskiyin tərtibatı) :

Dünya yaratılışı, altı günde olmuştu,
Yedinci günde ise, Bay-Ülgen uyumuştu.
Bir gün yattıktan sonra, Bay Ülgen kalktı yine,
Etrafına bakındı, neler yarattım diye. (4, 471)

Türk dastanlarında yaradılış barədə süjetlər əksərən üst-üstə düşür. Burda maraqlı cəhət ondadır ki, eyni zamanda İslami mənbələrdəki məlumatlarla da paralellik görürük. Tanrı Erlikdən fayda gəlmədiyini görüb Mandı- Şireni yaradır. Daha sonra sümükləri qamışdan, ətləri torpaqdan olan yeddi insan yaradır və bu insanlara ağıl və ruh üfləyir. Radlovun tərtib etdiyi "Altay yaradılış dastanı"nda doqquz budaq kökündən doqquz nəfər törəyir və doqquz qəbilə yaranır. (B.Ögəl)

Divan ədəbiyyatında rəqəmlərin ezoterik anlamı. Divan ədəbiyyatında bir çox mənbələrdə dünyanın 6, insanınn 40 günə yaradılması ilə bağlı məlumatlara rast gəlirik.

Nəsimidə:

"Kaf ilə nundan yaratdı aləmi,
Ərbəin gündə yoğurmuş adəmi"
Dəm bu dəmdir, dəm bu dəm, bil bu dəmi
Adəmə vurdu bu dəmdən həq dəmi".(7, 303)

Ərbəin gün, yəni qırx gün. Dini rəvayətə görə bütün mövcudat Tanrının "Ol" deməsiylə yaranıb. ("Kun və yəkun") Bu məqam Altay yaradılış dastanında belədir: Ak-Ene Tanrı Ülgenə deyir ki: "Əgər sən də bir şeylər yaratmaq istəyirsənsə, yaradıcı olaraq bu müqəddəs sözü öyrən. De ki:"Elədim, oldu".(4, 470) Məhəmməd Füzuli yaradılışdan ən ətraflı şəkildə "Hədiqətüs-süəda"da bəhs edir. Allah dünyanı altı günə yaradır, sonra Cəbrailə əmr edir ki, yer üzünün hər tərəfindən bir ovuc torpaq götürsün, Bətni-Nüman deyilən yerə tökülsün, buluda yağış yağmasını əmr edir. Otuz doqquz gün qəm çeşməsindən, bir gün Qüzəh dənizindən toplanmış damlaları bir yerə cəm edir, nəhayət, Adəm yaranır. Və hətta bunu onunla əlaqələndirir ki, insanın qəmli günlərinin çox, şən günlərinin az olması məhz 39 gün qəm çeşməsindən su alma ilə bağlıdır.

Bir rəqəmi antik dövrdən bəri hər zaman önəmini qorumuşdur. Aristotelə görə, "bir" hər şeyi əmələ gətirəndir, yaradıcıdır. Bütün rəqəmlər birdən əmələ gəlir. "... rəqəmin də birdən yarandığını, bütün göyün isə, deyildiyi kimi rəqəmlər olduğunu söyləyirlər". (3, 33) "Bir" sayı Allaha işarə edir - həm onun yaratma

aktına, həm də birliyinə, təkliyinə. Bir olmasa, yüzün də mahiyyəti qalmır. Yəni, özül birdir. "Tanrının bir, tək vahid olması inamı, bütün mövcudatın memarı, yaradıcısı olması inamı türk təfəkküründə, türkçülükdə əbədi danılmazlıq, dəyişilməzlik təşkil etmişdir". (2, 6)

Iki sayı dualist səciyyə daşıyır. Xeyir-şər, dünya-axirət, maddə-ruh, zülmət-işıq və s. kimi əksliklər özündə ehtiva edir.

Çıxdı iki beşikdən- qovuşdu cism ilə can,
Iki cövhər məğzini mənimsədi ilk insan. (12, 48)

Cism maddi bədənimizdir, can dedikdə ruh nəzərdə tutulur. Islami inanca görə Allah- Təala torpağı insan şəklinə gətirərək, ona ruh üfürür, canlandırır. Cismimiz maddi mənşəli- torpaqdan , ruhumuz ilahi mənşəlidir. Iki məkan dedikdə də dünya-ilahi aləm nəzərdə tutulur. Ümumiyyətlə, divan ədəbiyyatında iki cahan mövzusuna kifayət qədər rast gəlmək mümkündür.

Məndə sığar iki cahan, mən bu cahanə sığmazam,
Gövhəri-laməkan mənəm, kövnü məkanı sığmazam. (7, 7)

Və ya Saib Təbriziyə nəzər salaq:

Kam almasa da hər iki dünyada bu aşiq,
Qəlbi açılır yarı görüb heyran olanda. (13, 32)

Bəzən sənətkarlar dünyanı dörd və altı rəqəmləri ilə ifadə ediblər. Dörd sayı, yəni üfüqün dörd yönü, altı sayı isə altı cəhət nəzərə alınmaqla işlənib.

Altı cəhəti üz yeddi kökündən,
O doqquz fələyi çarmıxa çək sən. (12, 433)

Bu beyt Nizami Gəncəvinin "Yeddi gözəl" məsnəvisinin "Peyğəmbərin meracı" hissəsindəndir. Dini rəvayətə görə Peyğəmbər(s.a.s) Büraq adlı ata minərək Məkkədən Qüdsdəki Məscidül-Əqsaya gedir və ordan da meraca yüksəlir. Bu zaman dünyamızdan fərqli bir aləmə, başqa fazaya keçid edir. Bu hadisə İsra da adlanır, Qurani-Kərimdə təsdiqini tapmışdır: "Ayələrimizdən bir qismini göstərmək üçün bəndəsini bir gecə Məscidi-haramdan ətrafını mübarək etdiyimiz Məscidi-əqsaya aparan Allah pak və müqəddəsdir! O, həqiqətən, hər şeyi eşidəndir, görəndir". (İsra 1) Beytdəki altı cəhət- yuxarı, aşağı, sağ, sol, ön, arxa tərəflərdir, altı cəhətin yeddi kökü dedikdə isə, yerin atmosferinin yeddi qatı nəzərdə tutulub: 1) İonosfer, 2) magnetosfer, 3)ekzosfer, 4)termosfer, 5)mezosfer, 6)stratosfer, 7)troposfer. Mülk surəsi 3- cü ayə: "Yeddi göyü bir-birinin üstündə qat-qat yaradan da Odur". Yəni, şair altı və yeddi rəqəminin kombinasiyasından istifadə edərək dünyanın modelini cızır. Fələklərin sayının bəzilərində yeddi, bəzilərində doqquz olduğunun şahidi oluruq. N.Gəncəvi, əsasən, onların sayını doqquz verir.

Çünki dörd balışda görmədim səbat,
Dörd divar içində keçirdim həyat.(12, 587)

Burda da dünyanı dörd vasitəsilə ifadə edib. Dörd balışla, güman ki, dörd cəhət nəzərdə tutulur, dörd divarla isə yenə şair dünyaya eyham edir. Novruz ərəfəsində 4 çərşənbə qeyd olunur ki, bunların da adı yaradılışı əmələ gətirən 4 ünsürlə eynidir: od, su, yel, torpaq. Bəhlul Abdulla qeyd edir ki, dünyanın dərk olunmasında dörd həqiqət mövcuddur: məkan, zaman, dərketmə, hərəkət. (2, 75)

Yeddi sayı və onun xüsusi mahiyyəti. Yeddi sayı və onun mərtəbələri istər dünyəvi, səmavi dinlərdə, istərsə də mifoloji düşüncədə xüsusi mahiyyət daşıyır. Məsələn, Koroğlunun dəlilərinin sayı 7777 ədəd idi, Qoşabulaq 7 ildən bir köpüklənirdi, Qazan bəyin qardaşı Qaragünə bığını qulağı ardında yeddi dəfə dolayardı, Bamsı Beyrəyin 7 bacısı var idi, oğuz igidləri 7 gün yatardılar və s. Yeddinin sakrallığı, mahiyyəti lokal xarakterli deyil, yeddi bəşəri saydır. Bir həftədəki günlərin sayı 7-dir, Qurani- Kərim 7 ləhcədə nazil olub, insan üzündə 7 cərgə tük var, namaz qılarkən 7 bədən üzvü yerə dəyir(2 əl, 2 ayağın baş barmaqları, alın, 2 diz), və s, Quranın açar surəsi- Fatihə 7 ayədir və s. nümunələri genişlətmək mümkündür. Demək olar ki, bu saya hər millətin düşüncə sistemində rast gəlinir. Bu mövzu türk, hind, ket, çin, şumer və s. xalqların mifologiyasında ətraflı şəkildə işlənmişdir. "Qədim şumerlərdə 7 sayını bildirən işarə, eyni zamanda kainatın da işarəsi imiş. Belə ki, onların ucaltdıqları 7 pilləli qüllə, sən demə, əslində 7 səyyarənin, həftənin 7 gününün, 7 Böyük Tanrının, 7 küləyin, yeraltı dünyanın 7 qapısının simvolu imiş. Hind kahinləri bildirirlər ki, ruhlar aləmi və materiya 7 qütbdən ibarətdir. Kainat 7 çevrəyə bölünür, insanda yeddi fəaliyyət başlanğıcı var, ruh uşağın canına onun 7 yaşı tamam olduğu vaxtdan hamilik etməyə başlayır, insanın bədənindəki əzalarda hər 7 ildən bir dəyişmə prosesi gedir". (2, 86) Altay yaradılış dastanına görə Tanrı Ülgen altı günə dünyanı yaradıb, 7-ci gündə dincəlir, yeddi nəfər insan yaradır. İ.Nəsimi 7 sayına xüsusi önəm verir. Kainatın sirrinin 7 rəqəmində olduğu fikrindəydi.

Ey qaşınla kirpigin, zülfün yedi,
Ol yedi kim, şeytan anı bilmədi.
Həq bu sirri Əhmədə kəşf eylədi
Anın üçün adını ümmi dedi. (7, 299)

"Deməli, insanın üzündə anadangəlmə yeddi cərgə tükün olması, yəni müqəddəs 28 rəqəminin bir rübünün insan simasında əks olunması Adəm oğullarının öz-özlüyündən ilahi varlığı əks etdirməsinə dəlalət edir. Şeytan isə insan simasındakı bu müqəddəs rəqəmi görə bilmədiyinə görə ona səcdə etməmişdir. Burada Allah-Təalanın həmin sirri Məhəmməd peyğəmbərə (s.a.s.) açıb onun adını "ümmi"(Əraf) 157 qoyması fikri də maraq doğurur. "Əllərindəki Tövratda və İncildə (əlamətlərinin) yazıldığını gördükləri ümmi peyğəmbər olan rəsula tabe olanlara o peyğəmbər yaxşılığı əmr edər, pis işləri qadağan edər, təmiz nemətləri halal edər, murdar şeyləri isə haram edər. Onların ağır yükünü və üstlərindəki qandalları

götürər. O kəslər ki, Peyğəmbərə iman gətirər, ona hörmət göstərər, yardım edər və onunla birlikdə endirilən nura (Qurana) tabe olarlar, onlar əsil nicat tapanlardır! (Əraf 157)(14) Şair varlığın bütün mənasını, ən gizli sirlərini bu rəqəmdə- 7 rəqəmində görür. Peyğəmbərə vəhy nazil olanadək bu sirlərdən xəbərsiz olması onun "ümmi" – savadsız olmasına dəlalət edir. Yəni burada "ümmi" sözünü sadəcə yazıb-oxumağı bilmək kimi başa düşmək səhv olardı. Yazıb-oxumağı bacarmaq heç də hər şeydən xəbərdar olmaq deyil. Məhəmməd peyğəmbər vəhyə qədər qeybə aid bir çox biliklərdən xəbərsiz olduğundan "ümmi" adlanmışdır". (10, 117) 7 sayının sirri peyğəmbəri heyrətləndirir.

Ey ləbin vəsli həyati-sərmədi,
Xəttü xalındır camalın əbcədi,
Kirpik ilə zülfü qaşındır yedi,
Ol yedi kim, Əhmədi məst eylədi. (7, 302)

Və ya :

Yeddi yerdir, yeddi göydür, yeddi dərya, yeddi xət,
Yeddi müshəf, yeddi ayət yədi-bəyzası nədir? (7, 151)

Bildiyimiz kimi, yerin və göyün 7 qatı, yeddi dərya, insan üzündə 7 cərgə tük var. Yeddi müshəf və 7 ayət deməklə, Quranın 7 ləhcədə nazil olmasına işarə edir. Aida Qaımovaya görə Nəsimi "Yədi-bəyza" deməklə Musa peyğəmbərin yeddi möcüzə göstərməsini nəzərdə tutub.

Kirpiyi qaşınla zülfündür yedi
Yer yedivü göy yedi, sən də yedi.
Nə səbəbdən həftənin adı yedi,
Bunda hikmət vardır müshəf yedi. (7, 304)

"Laməkan taxtında gizlidir yedi" deyən Nəsimi "Sən də yedi" ifadəsini işlətməklə güman edilə bilər ki, insan bədənindəki 7 enerji mərkəzinə (çakra) eyham edir. Kundalini sanskritcə (kundala) "dairəvi", "spiralvari" mənalarını verir. Təxminən onurğanın dibində yerləşir(əslində bu enerji mərkəzləri fiziki bədənimizdəki orqanlarla uyğun gəlmir). Buna həyat enerjisi də demək olar. Hər kəsin daxilində yatmış vəziyyətdə kundalini enerjisi mövcuddur. Meditasiya vasitəsilə bu kosmik enerjini oyadıb çakraları işlək vəziyyətə salmaq mümkün haldır. Enerji onurğa sütunu boyunca yüksələrək (çox vaxt bunu yuxarı istiqamətlənmiş ilan kimi simvolizə edirlər) ən pik nöqtəyə çatır. Bunun nəticəsində fərd kainatı və özünü daha təkmil şəkildə, proffessional dərk edə bilir. 7 enerji mərkəzi var: Muladxara, Svadxistana, Manipura, Anaxata, Vişudxa, Acna, Saxasrara.

Türk mifoloji düşüncəsində doqquz sayının özünəməxsus yeri var. Qədim türklərə görə göyün doqquz qatı vardı. Altay yaradılış dastanında (V.Radlovun tərtibatı) Tanrı 9 nəfər yaradır.

Soylar türesin diye, şöylece emir verdi:
"Dokuz kişi kılınsın, dokuz dalın kökündən,
Dokuz oymak türesin, dokuz kişi özünden".(4, 492)

Tanrı bu doqquz budaqlı ağacın dörd budağından yeməyi qadağan etmiş, beşinə icazə vermişdir. Türk-Məmlük yaradılış əfsanəsinə görə ilk insanın yaranması müddəti 9 ay çəkmişdir. 9 ay müddətincə sərin küləklər əsərək dörd ünsürün iştirakı ilə "Ay Atam" adlı ilk insan yaranır. Bəhlul Abdulla qeyd edir ki, Altay şaman ayinləri icra edərkən 9 sayı xüsusi mahiyyət təşkil edirdi. Ayin üçün hündür ağac basdırırarmışlar və gövdəsinə 9 oyuq qazırmışlar. "Bu ağac əslində Tanrının ilkin olaraq ucaltdığı, indicə dediyimiz, şam ağacının simvoludur. Elə şaman təbillərinə də bu 9 budaqlı ağacın rəsmi çəkilir. Şamanlar 9 oyuqlu ağacla yuxarı qalxarkən çiyinlərinə yay və 9 ox da asırlar. Bu 9 ox 9 qat göyə qalxarkən qarşılaşa biləcəkləri şər ruhlarla vuruş simvolu sayılırmış". (2, 113) Dəli Domrul doğulanda atası onun üçün 9 buğra kəsir: "Doğulanda doqquz buğra öldürdüyüm aslan oğul!" Adətən, qurban etmə mərasimlərində 7 ədəd heyvan kəsilir. Dəli Domrul boyunun digər boylardan qədim olduğunu düşünsək, burda 9 ədəd buğra kəsilməsi təəccüblü deyil. Yeddi sayı, İslamdan sonra işləklik arealını artırmışdır. Lakin türk xalqlarında 9 ta qədimdən müqəddəs sayılırdı.

Nəticə

Gördüyümüz kimi saylar müxtəlif mənalarda, fərqli fikirləri ifadə etmək üçün istifadə edilmişdir. Yeddi və doqquz sayı onluq say sistemində daha böyük önəm kəsb edir. Lakin bu o demək deyil ki, digər sayların işlənmə tezliyi zıifdir. İmadəddin Nəsimi yaradıcılığında xüsusilə, iki, yeddi, səkkiz daha intensiv işlənir. "Şeş cəhət" ifadəsinə də tez-tez rast gəlmək olar. Sayların numeroloji, sakral, kosmoqonik məna yükündən istifadə etmək şeirdə kolorit yaratmağın bir vasitəsi idi.

İstifadə olunmuş ədəbiyyat:

1.Abdullayeva M. "Klassik ədəbiyyat: ezoterik xəzinə": Bakı:"Bakı Universiteti" nəşriyyatı, 2009, 328 s.

2.Abdulla B. "Folklorda say simvolikası": Bakı: "Elm" nəşriyyatı, 2006, 148 s.

3.Aristotel "Metafizik": İstanbul: "Pinhan yayıncılık", 2015, 475 s.

4.Bahaeddin Ö. "Türk mitolojisi" I cilt: Ankara:"Altınordu yayınları", 2020, 741 s.

5. Bahaeddin Ö. "Türk mitolojisi" II cilt: Ankara:"Altınordu yayınları", 2020, 776 s.

6.İ. Nəsimi Seçilmiş əsərləri I cild: Bakı, "Lider nəşriyyat", 2004, 336 səh

7.İ. Nəsimi Seçilmiş əsərləri II cild: Bakı, "Lider nəşriyyat", 2004, 376 səh

8. "Kitabi- Dədə Qorqud" dastanı (Drezden nüsxəsi): İstanbul: TEAS Press nəşriyyat evi, 2016, 402 s

9. “Kitabi- Dədə Qorqud” dastanı (Vatikan nüsxəsi) : Bakı, “Xan” nəşriyyatı, 2018, 288 səh

10.Qasımova A. “XIV-XVI əsrlər Azərbaycan ədəbiyyatı və Quran qissələri (Qazi Bürhanəddin, Nəsimi, Xətai və Füzulinin ana dilində olan əsərləri əsasında)” : Bakı, 1998, Bakı Universiteti nəşriyyatı, 434 s.

11.M. Füzuli Seçilmiş əsərləri 6-cı cild: Bakı, “Şərq-Qərb”,2005, 384 səh.

12. N.Gəncəvi “Xəmsə” : Türkiyə: TEAS Press nəşriyyat evi, 2022, 912 s.

13.Saib Təbrizi Seçilmiş əsərləri: Bakı: “Öndər nəşriyyatı”, 2004, 256 səh.

İnternet resursları:

14. https://quran.az/

15.Şıxıyeva S. “OTUZ İKİ” sayının bədii-fəlsəfi məna tutumu (Nəsimi şeiri əsasında): academia.edu

16. https://dergipark.org.tr/tr/download/article-file/697162

17.https://listelist.com/kundalini-enerjisi-nedir/

İLKNUR ASGAROVA

Number symbolism in classical Azerbaijani poetry
(decimal number system)

Summary:

The use of different symbols within the text in classical literature is a widespread phenomenon. From now and then, point, mole, hair, letters expressed different meanings. Indeed, as the title suggests, we will focus on the number symbols. We will touch to the classic pearls of Azerbaijani poetry, the Quran, mythology, the laws of physics, metaphysics, numerology and cosmology in relation to the topic. Pythagoras, Aristotle and Plato attributed mystical-esoteric meanings to numbers and mathematical calculations. For example, for Aristotle, a number had a special meaning. Pythagoras laid the foundation of numerology in the West. In Azerbaijani literature, many poets have used the sacral meanings of numbers to express their thoughts in a underhand way. Sacredness is a part of every thought system. When we pay attention to mythological texts, we see that any events are expressed by repeated numbers. Due to the juxtaposition of the information in the mythological context with the information in the religious sources, color is created within the text, and we think about where this idea originates. We have tried to investigate such issues in the article. In the article, both classical Azerbaijani poetry and Turkish creation epics were involved in the research.

Keywords: Mythology, Numbers, Ancient Greek philosophers, Nizami Ganjavi, Muhammad Fuzuli, Imadaddin Nasimi, Altai epic of creation, "Kitabi-Dada Gorgud", numbers as a means of expressing ideas, seven, nine.

Илкнур Аскерова

Числовая символика в классической азербайджанской поэзии (десятичная система счисления)

Резюме:

В классической литературе принято использовать в тексте различные символы. Время от времени точки, точки, волосы, буквы и другие подобные объекты включались в контекст для выражения различных значений. Как следует из названия статьи, мы попытаемся исследовать символику чисел. В связи с темой, по мере необходимости, классические жемчужины азербайджанской поэзии, Священный Коран, мифология и т.д. мы коснемся. Древнегреческие философы Пифагор, Аристотель и Платон придавали числам наряду с математическими расчетами мистическо-эзотерическое значение. Например, для Аристотеля число имело особое значение. Пифагор основал науку нумерологию на Западе. В азербайджанской литературе многие поэты использовали этот прием, чтобы скрыть в своих мыслях сакральные значения чисел и выразить мысль имплицитно. Святость является частью любой системы мышления. Когда мы обращаем внимание на мифологические тексты, мы видим, что любые события выражаются повторяющимися числами. Благодаря сопоставлению информации в мифологическом контексте с информацией в религиозных источниках внутри текста создается цвет, и мы задумываемся над тем, откуда берется эта идея. Мы попытались исследовать такие вопросы в статье. В статье к исследованию были привлечены как классическая азербайджанская поэзия, так и турецкий творческий эпос.

Ключевые слова: мифология, числа, древнегреческие философы, Низами Гянджеви, Мухаммад Физули, Имададдин Насими, алтайский эпос творения, «Китаби-Даде Горгуд», числа как средство выражения мысли, семь, девять

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Dos. Dilbər Zeynalova
tərəfindən çapa tövsiyə olunmuşdur

SƏBINƏ ƏHMƏD QIZI MUXTAROVA
Bakı Dövlət Universiteti
Zahid Xəlilov küçəsi - 33

Ə.ABDULLAYEV YARADICILIĞINDA ƏLİFBA MƏSƏLƏSİ

Ə.Abdullayev əlifba barədə yazırdı: "Əlifba—insan zəkasının ən böyük möcüzələrindən biridir".(1 : 25) Əlifba hərflərin müəyyən ardıcıllıqla düzülüşü olsa da, insan həyatında, insan fikirlərinin təqdimində əhəmiyyətli dərəcədə mühüm rola malikdir. Ümumiyyətlə yazı bəşəriyyətin tərəqqisində irəliyə atılmış mühüm addımlardan biridir. Yazı üç komponentdən ibarətdir: əlifba, qrafika, orfoqrafiya. Bu komponentlər bior-biri ilə sıx bağlı olub, biri digərini şərtləndirir. Belə ki, "qrafikanın qaydaları əlifbadan törəyir, orfoqrafiya qaydaları isə əlifba və qrafika ilə əlaqəlidir. Yazının bünövrəsi əlifba üzərində qurulur". (2 : 412) Lakin demək lazımdır ki, yazının tarixi daha qədim və müxtəlif olsa da, əlifbanın meydana çıxması yazının məhz dördüncü—sonuncu olan fonoqrafik dövründə meydana çıxmışdır. Belə ki, dildə olan səslərin (fonemlərin) hərfi işarələrinin müəyyən ardıcıllıqla düzülmüş məcmusu alifba adlanır.

İlk həqiqi əlifba e.ə.II minilliyin birinci yarısında semit xalqları tərəfindən yaranmış və sonrakı əlifbalar da bu əsasda formalaşmışdır. İlk hərfi yazının formalaşması yazıyaqədərki yazıdan istifadə edilməklə yaranmışdır. "Qədim yazıyaqədərki hər bir işarə, yəni hərf təbiətdə mövcud olan canlı, yaxud cansız əşyalara bənzədilərək yaradılmış və həmin əşyaların adı ilə adlandırılmışdır". (9 : 138) Sonralar yunan və latın, ərəb əlifbaları geniş yayılmışdır. Bəzi məlumatlara görə latın əlifbasının tarixi kökləri bilavasitə türklərlə bağlıdır. Belə ki, bu əlifbanı etnik cəhətdən türk olan etrusklar yaratmış, müharibədə qələbə qazanan latius tayfaları (latınlar) etruskların digər mədəni nailiyyətləri ilə yanaşı, əlifbalarını da mnimsəyib özünküləşdirmişlər (2 : 421) Tarixdə şübhəsiz olaraq türklərin əlifbası kimi təsdiq edilən Orxon-Yenisey abidələri üzərində olan və runik yazılardır.

Əlifba məsələsi xalqın tarixi, mədəniyyəti, təkamül istiqamətlərini izləmək üçün əhəmiyyətlidir. Təsadüfi deyildir ki, böyük şəxsiyyətlər, nurlu simalar xalqın, bütünlükdə isə bəşəriyyətin inkişafı üçün əlifbanın dəyərini dərk edərək, onun formalaşması, təkmilləşməsi yolunda çalışmış, mücadilələr etmişdir. Azərbaycan xalqının da görkəmli şəxsiyyətləri bu yolda ciddi işlər görmüşdür. Əlifba dilçilərin elmi araşdırmaların obyekti olduğu kimi, digər sahələrin nümayəndələri də bu sahədə öz xidmətlərini göstərmişlər.

Qeyd edək ki, "Türkdilli xalqlar rəngarəng ictimai-siyasi quruluş. Sitayiş etdikləri müxtəlif dinlərlə və eləcə də təmasda olduqları xalqlarla, onların mədəniyyətləri ilə əlaqədar olaraq bir neçə əlifbadan istifadə etmişlər".(12 : 343). Türkoloqlar qədim türk əlifbaları və yazı sisteminə aşağıdakıları daxil edirlər: soqd əlifbası, manixey əlifbası, Passe-pa yazısı, Çin yazısı, Tibet əlifbası və Suriya

əlifbası.(7 : 4) Təbii ki, Azərbaycanda bunların hamısından istifadə edilmədiyi kimi, sonrakar başqa əlifbalardan da istifadə edilmişdir. Bu barədə biz Ə.Abdullayevin bir yazısında məlumat alırıq.

Professor Ə.Z.Abdullayev tanınmış, görkəmli dilçi-türkoloq olduğu kimi, ən əsası, bir vətənpərvər idi; o, elmi araşdırmalarında dilimizin mühüm problemlərini tədqiqat obyektinə çevirdiyi kimi, bir vətənpərvər olaraq, dilimizin hər hansı problemini məhz milli problem kimi qaldıraraq həll etməyə çalışmışdır. Bu mühüm problemlərdən biri əlifbadır. Ona görə də digər məsələlərlə bərabər alim bu problemin də aydınlığına işıq salmağa çalışmış və dəyərli fikirlər söyləmişdir.

Alimin "Azərbaycan əlifbasının tarixindən" adlı məqaləsi (1 : 25-68) həm həcmi, həm də elmi siqləti baxımdan böyük dəyər kəsb edir. Qeyd edək ki, bu mövzuda müəllifin Türkiyədə nəşr olunan kitabında da yazıları verilmişdir. (10 : 1996) Müəllifin əvvəlki yazısı yalnız əlifba deyil, türkdilli xalqların tarixi birliyi, təkamül istiqamətləri, inkişaf tendensiyasında özünü göstərən spesifika və s. məsələlər barədə dəyərli bir məxəzdir. Digər tərəfdən, bu məqalə türklərin qədim mədəniyyətə malik olduğunu inkar edənlərə uğurlu cavabdır. Müəllif məqalənin əvvəllərində türk xalqlarının tarixən bir neçə əlifbadan istifadə etdiyini göstərərək qeyd edir ki, "Bu o deməkdir ki, ta qədim zamanlardan başlayaraq, türk dillərinin yazı ənənəsi olmuşdur".(s. 25)

Ə.Abdullayev belə bir fikri ilk olaraq nəzərə çarpdırır və sübut edir ki, türkdilli xalqlar tarix boyu bir neçə əlifbadan istifadə etsə də, bunların içərisində özlərinin yaratdığı əlifba həm uzunömürlü, həm də geniş ərazidə yayılmış Orxon-Yenisey əlifbasıdır. Bu yazı Monqolustan, Çin, Sibir və Orta Asiya ərazilərində geniş yayılmışdı. Artıq Orxon-Yenisey abidələri və bu abidənin dili, əlifbası barədə elmi aləm ciddi məlumata malikdir. Ə.Abdullayev bu əlifbanın araşdırıcılarının (məsələn, Nemetin) fikirlərinə dayanaraq, Göytürklərə aid olan Orxon-Yenisey yazılarının ayrı-ayrı Avropa ölkələrində də müşahidə edilir, yəni Avropalılar da bu yazıdan istifadə etmişlər. Alim Azərbaycanın Şamaxı və Naxçıvan regionlarında da xüsusi işarə və damğalar şəklində mövcud olduğuna diqqəti yönəldir. Elmimizdə bu faktın ətraflı araşdırılmasına rast gəlməsək də, Ə.Abdullayevin verdiyi məlumat ehtimal etməyə əsas verir ki, bizim ərazimizdə olan türklərlə göytürklər arasında hansısa əlaqə olmuşdur. Bu isə Azərbaycan ərazisində türk əlifbasının tətbiq edildiyi fikrinə gəlməyə əsas verir. Bu fakt kiçik bir informasiya şəklində verilsə də, xalqımızın, torpağımızın tarixi haqqında dərin düşünməyə yol açır. Müəllif belə bir məlumata da diqqəti cəlb edir ki, bəzi alimlərin fikrinə görə, Orxon-Yenisey abidələri və təbii ki, oradakı yazılar da V-VIII əsrlərə aid olsa da, əslində onlar daha əvvəllərə, hətta eradan əvvəl gedib çıxır. Macar türkoloqu Nemet Macarıstanda tapılmış qızıl qablar üzərində runik əlifbası ilə olan yazıların X əsrə aid olduğunu qeyd edir. (3 : 33) Ona görə də bəzi rürkoloqlar türk runik əlifbasının X əsrə qədər işlək olduğu fikrini irəli sürürlər.

Orxon-Yenisey əlifbasının mənşəyi haqqında müxtəlif fikirlər vardır; bəziləri onun aramey, finikiya əlifbası əsasında, digərləri isə türk damğaları əsasında yarandığını qeyd edirlər. Ə.Abdullayev Orta Asiyada, Altayda, Sibirdə və Azərbaycanın Qobustan, Gəmiqaya, Soyuqbulaq və s. yerlərində tapılan qayaüstü şəkil yazıları, piktoqramları, habelə daha sonralar damğaların tapıldığına əsaslanaraq, Orxon-Yenisey əlifbasının ikinci fikri müdafiə edir. E.D.Polivanovdan, M.Ergindən gətirdiyi faktlar əsasında fərziyyə kimi belə bir fikri irəli sürür ki, Orxon-Yenisey əlifbası türklərin orijinal əlifbasıdır və digər əlifbalardan daha qədimdir. Digər tərəfdən, Yenisey yazıları Orxon yazılarına nisbətən qədimdir; belə ki, Yenisey yazısında 150-dən artıq işarə olduğu halda, Orxon yazısında cəmi 38 işarədən istifadə edilmişdir ki, bu da həmin yazının daha təkmil olduğunu göstərir. Onu da qeyd edək ki, burada bəzi hərflərin variantları olduğundan hərflərin sayı səslərdən daha çoxdur.

Müəllif Orxon-Yenisey yazısının xüsusiyyətlərini, onların yazılması spesifikasını, sait və samit sisteminin ifadə imkanlarını lakonik şəkildə izah edir. Burada sait və samit səslərin ahəngin yaranmasında müştərək rolunun olması hələ qədim dövrlərdən bu qanunun türk dillərində mühüm əhəmiyyətə malik olduğunu göstərir. Lakin Ə.Abdullayev ahəng qanunu haqqında irəli sürülmüş fikirləri sadəcə sadalamır, bu fikirlərdə çatışmayan, yaxud səhv mülahizələrə münasibətini də bildirir, həm praktik materiallarla, həm də elmi-nəzəri əsaslarla öz mövqeyini müdafiə edir. Samitlərin arasında ahəngin olması məsələsini qeyd etmək olar; müəllif bu fikirdədir ki, qədim abidələrdə saitlərlə samitlərin də ahəngi vardır.

Ə.Abdullayev Orxon yazılarının Oğuz əlifbası olması fikrinə gəlir. O, A.Sokolovun türk oğuzlar və orxonluları eyni mənada işlətdiyinə əsaslanır. Belə ki, A.Sokolov VI-VIII əsrlərdə oğuzların birinci tarixi türk dövləti yaratdığını qeyd edir ki, bu səbəbdən Ə.Abdullayev həmin ərazidə həmin zamana aid olan Orxon yazılarının məhz oğuz əlifbası ilə olduğu fikrini müdafiə edir. Tarixi faktlara söykənən alim həmin dövrdə türk-oğuz çarlığının olduğu, çinlilərlə mübarizə zəminində məğlub olub yenidən möhkəmləndiyi və s. məlumatlar əsasında Orxon-Yenisey yazılarının bu çarlığın sahibləri haqqında yazıldığını, deməli, bu yazıların da türk-oğuz yazısı olduğunu qəbul edir. Müəllif bu fikrini əsaslandırmaq üçün tarixə ekskurs edir. Rus türkoloqu A.N.Sokolovun, habelə S.Y.Malovun, türk alimi Faruq Sümərin türk tarixi və yazısı ilə bağlı açıqlamasına əsaslanaraq, Oğuz-türk çarlığı dövründə bu çarlığın əsas özəyini ümumtürk milli dövləti uğrunda ümumi mübarizə orbitinə başqa türk tayfalarını, o cümlədən oğuzları, karlukları və digərlərini cəlb edən teles və torqut tayfalarının olduğunu qeyd edir. Türklər və çinlilər arasında uzun çəkən və gah müstəqil, gah asılı, gah mövcud olan, gah parçalanıb yox olaraq yenidən mövcud olan Orxon-oğuz çarlığının tarixini çox qısa şəkildə xatırladan müəllif bu çarlığın haqqında əsas məlumatın əsas qaynağının məhz Şərqi Monqolustanda—Yenisey və Orxon çaylarının sahillərində qəbir daşlarına yazılan

yazılar olduğunu qeyd edir. Bu isə həmin yazıların, deməli, bu abidənin yazıldığı əlifbanın türk tarixini araşdırmaq üçün nə qədər əhəmiyyətli olduğunu göstərir.

Faruq Sümər "oğuz" adına ilk dəfə Yenisey kitabələrində (VII əsr) rast gəlindiyini göstərir. (s. 29) "Yukuk abidəsindən məlum olur ki, türk Bilgə xaqan birləşmiş türk xalqını (burada oğuz, tabğaç, qırğız, xitayların adı çəkilir.) yaxşı idarə edir, "türk" və "oğuz" xalqları, bəyləri ayrı-ayrılıqda verilir. Abidələrdə üç oğuz, altı oğuz, doqquz oğuz adlarından istifadə edilsə də, əksərən oğuz sözü işlədilir. Tədqiqatçılar Orxon-Yenisey əlifbasını Göy türk dövləti zamanına aid olduğunu qeyd edərək, onun ilk türk milli əlifbası olduğunu və türk dilinə aid əski milli qaynaqların da məhz bu dövrə aid olduğunu göstərirlər. (1 : 29)

Ə.Abdullayev L.Ligetinin Orxon-Yenisey abidələri və onların dili və yazıldığı əlifba barədə dediklərinə toxunur, onun türk tarixini və əzəmətini əks etdirən mühüm bir mənbə olduğu fikrini göstərməklə yanaşı, bu yazıların Şərqi göytürklərə aid olması fikrinə əlavə edir ki, o zaman Şərqi və Qərbi bir imperiya daxilində idilər və buna görə də bu yazı onların hər ikisinə aiddir. Müəllif türklərin tarixi yürüşlərinə qısa ekskurs edərək həm tarıxı, həm dil materialı əsasında belə bir fikri əsaslandırmağa çalışır ki, Orxon-Yenisey yazıları həm də oğuzlara aiddir.

Ə.Abdullayevin məlumat haqqında bəhs etdiyi ikinci əlifba alban əlifbasıdır. Məlumdur ki, Azərbaycan ərazisində qədimdən çox tayfalar, xalqlar yaşamışdır və onlar əlifba yaratmışlar. (4 : 36-37) Azərbaycan Sovet Ensiklopediyasında verilən məlumata söykənən müəllif Azərbaycan ərazisində bu əlifbadan eramızın V əsrinin I rübündən VIII əsrə qədər istifadə edildiyini qeyd edir. Q.Kazımov isə Alban yazısının V əsrə deyil, daha əvvələ aid olduğunu göstərir. (Q.Kazımov. Azərbaycan dilinin tarixi.(ən qədim dövrlərdənXIII əsrə qədər). "Təhsil", Bakı: 2003, 584 s. : 377) Bu əlifba haqqında ilk məlumat keçən əsrin 30-cu illərində əldə edilmişdir. T.M.Məmmədov bu əlifbanın təşəkkülü, tarixi və s. haqqında ətraflı məlumat verir. (11 : 100-115) Lakin Ə.Abdullayev ondan əvvəl bu barədə məlumat vermişdir. Mənbələrə əsaslanan alim bu əlifbanın 52 hərfdən (10-sait, 42-samit) olmuş, bu ərazidə geniş yayılmış, hətta məktəblərdə tədris edilmiş, bu əlifba ilə dini, elmi və bədii əsərlər yaranmış, təqvim tərtib olunmuşdur. Bəzi mənbələrdə bu əlifba ilə yazılmış və XV əsrə aid olan bir dərsliyin Eçmiadzində olması barədə məlumat verilir.

Ə.Abdullayev o alimlərdəndir ki, hansı mövzunu tədqiqat sahəsi kimi alırsa, o sahədə olan bütün mənbələri araşdırır, dəqiqləri, ehtimalları, mülahizələri analiz edir, mühüm elmi nəticələrə gəlib sonra qələmə alır. Bu mövzuda da belədir. Alim alban əlifbası ilə bağlı tarixi, coğrafi, etnoqrafik və digər araşdırmalara da müraciət edir, fikirlərini faktlarla əsaslandırır. Bu yazıda da müəllifin mühüm mənbələrə müraciət etdiyini görürük. Belə bir qeyd də diqqətimizi cəlb edir ki, 1948-52-ci illərdə Mingəçevir ərazisində aparılan qazıntı zamanı alban kitabələri tapılmışdır və bu həmin ərazilərdə alban yazısından--əlifbasından istifadə edildiyini göstərən mühüm mənbə hesab edilə bilər. Yaxud Dağıstan MSSR-in Yuxarı Labko kəndində 1970-ci

ildə tapılan və alban əlifbası haqqında ciddi məlumat verən bir daş haqqında məlumat elmi dəyəri ilə diqqəti cəlb edir. Maraqlıdır ki, bu daşın bir tərəfində 25, digər tərəfində isə 19 hərf olduğu qeyd olunur. Bu fikir Azərbaycan alimi V.L.Qukasyan tərəfindən qeydə alınmışdır. (8 : 130-135)

Qeyd edək ki, tədqiqatçılar Matenadaranda IX əsr Azərbaycan-alban dilində--əlifbasında yazılan əsərin tapılması haqqında məlumat verirlər. (6 : 61) 300-ə qədər dialoq peplikasından ibarət olan bu əsər o dövr alban dili və əlifbası barədə müəyyən məlumat verir.

Azərbaycanda uzun müddətdə tətbiq edilən, istifadə edilən ərəb əlifbasıdır. Məlumdur ki, bu əlifbadan Azərbaycanda ərəb işğalından (VII əsrdən) başlayıb XX əsrin əvvəllərinə qədər (1929-cu ilə qədər) istifadə edilmişdir. Azərbaycan dili qanunauyğunluqları ilə səsləşməyən bu əlifbaya qarşı böyük şəxsiyyətlərimiz zaman-zaman mübarizə aparmışlar. Bu baxımdan Ə.Abdullayevi məqaləsi maraq kəsb edir. Ə.Abdullayev ərəb əlifbasının yaranması və spesifik xüsusiyyətləri haqqında məlumat verərək, qeyd edir ki, sonralar farslar və türklər bu əlifbanı qəbul etsə də, ona müvafiq dillərə uyğun dəyişikliklər etmişdir. Belə ki, bəzi hərfləri bu əlifbaya daxil etmişdir, habelə Şəmsəddin Sami öz lüğətlərində bəzi diaqratik işarələrdən istifadə etmişdir. Buna baxmayaraq, Ə.Abdullayev göstərir ki, nə qədər dəyişiklik edilsə də, bu əlifbanın çətin olduğunu qeyd edir. Müəllif bunun səbəblərini də aydın şəkildə verib şərh edir, tarixən məşhur şəxsiyyətlərin bununla bağlı şikayətlənmələrini diqqət mərkəzinə çəkir. Müəllif bu əlifbanın geniş arealda yayıldığını və daha çox xalqlar tərəfindən (geniş adlar və məkanların adını çəkməklə) istifadə edildiyini göstərir.

Ə.Abdullayev ərəb qrafikası əsasında olan Azərbaycan əlifbasından daha ətraflı bəhs edir, ərdəb əlifbasının Azərbaycan dilinə tətbiqi baxımından nöqsanlı olduğunu qeyd edir və bunun səbəbini ərəb əlifbasının fonetik əlifba olmamasında görür. Elə byuna görədir ki, bu əlifba Azərbaycan yazısına yaramır. Müəllif ərəb əlifbasında Azərbaycan əlifbasına uyğun olmayan və nöqsan kimi qiymətləndirdiyi əsas xüsusiyyətləri sadalayıb, onları geniş şəkildə şərh edir. Bunlardan birincisi bir işarənin bir neçə səsi ifadə etməsi, yaxud, əksinə, bir səsin bir neçə işarə ilə verilməsi göstərilir. Bu hal abidələrdə sözlərin düzgün anlaşılmasına, bütünlükdə isə mətnin dəqiq dərkinə mane olur. Ə.Abdullayev fikrini əsaslandırmaq üçün mütəxəssislərin, tanınmış şəxslərin fikirlərinə də müraciət edir. Bu sırada S.Əlizadənın, Ö.F.Nemanzadənin, N.Nərimanovun, V.Xuluflinin bu məsələ ilə bağlı fikirlərini bölüşür. N.Nərimanov hətta bu yazının nöqsanı üzündən bəzən sözün tam əksinə başa düşüldüyünü də nəzərə çarpdırır.

Ə.Abdullayevin ərəb əlifbasında qeyd etdiyi nöqsənlardan biri kimi çox nöqtələrdən istifadə edilməsidir. Bu baxımdan M.F.Axundzadənin fəaliyyətindən xüsusi olaraq bəhs edir. Məlumdur ki, M.F.Axundov ərəb əlifbasının nöqsanlarından dəfələrlə bəhs etmiş, hətta islah edilmiş və yeni tipli əlifba hazırlamışdı və bunu Türkiyə naziri Fuad paşaya təqdim etmişdi. Dramaturğun göstərdiyi nöqsanlar

içərisində nöqtələrə xüsusi etiraz var idi; o, nöqtələrin tamamilə götürülməsini tələb edirdi. Alimin M.Füzulidən verdiyi şeir parçası bu məsələyə daha böyük aydınlıq gətirir:

Qələm olsun əli ol katibi-bəd təhririn,
Ki fəsadi-rəqəmi sözümüzü şur eylər.
Gah bir hərf süqutilə qılır nadiri nar,
Gah bir nüqtə qüsurilə gözü kur eylər.

Bu şeir parçasındakı fikir ərəb əlifbasındakı nöqtələrin qüsurunu göstərməklə yanaşı, böyük şairin buna qarşı kəskin etirazını da özündə ehtiva edir.

Bir hərfin sözün əvvəlində və sonunda fərqli yazılışı, sait səslərin ifadə olunduğu hərflərin azlığı və çox vaxt onların hətta yazılmamasını da müəllif əsas qüsurlardan hesab edir. Hər iki halda oxunun çətinləşməsi qəbuledilməzdi. Yan Deni, Ə.Haqverdiyev, habelə V.V.Radlov, V.Bartold, N.A.Aşmarin və başqaları ərəb əlifbasının türk dilləri üçün qüsurlu olduğunu söyləmişlər. Bu məsələlər Ə.Abdullayevin bu mövzu ilə bağlı yazısında şərh olunur.

Ə.Abdullayev əlifba ilə bağlı mücadilə etmiş qabaqcıl ziyalılarımızın bu sahədəki fəaliyyəti barədə müfəssəl məlumat verir və bu fikirləri elmi cəhətdən təhlil süzgəcindən keçirir. Bu sırada M.F.Axundovun, M.Şaxtaxtlının görüşlərindən ətraflı bəhs edir. Müxtəlif mənbələrə müraciət edən professor Ə.Haqverdiyevin verdiyi məlumata əsaslanaraq, adı çəkilən şəxsiyyətlərdən başqa, Mirzə Melkum xanın, Mirzə Rza xanın, Abdulla bəy Əfəndizadənin, osmanlı ədiblərinin çoxunun ərəb əlifbasının dəyişdirilməsi uğrunda çalışmışdıqlarını qeyd edir. Tədqiqatçı alim tanınmış ədəbi tənqidçi Ə.Mirəhmədovun "Yazımız dünən və bugün" adlı məqaləsindən çıxış edərək göstərir ki, ərəb əlifbasının çatışmazlığı barədə ilk elmi mülahizələr XVII-XVIII əsrlərdə məşhur fransız şərqşünası K.Volneyin əsərlərində irəli sürülmüşdür. Ondan başqa, B.Dorn, V.Radlov və başqa şərqşünas almlər, Azərbaycan ədiblərindən C.Məmmədquluzadə, S.Ağamalıoğlu, F.Ağazadə və digərləri bu mövzu ilə bağlı fikirlər söyləmişlər.

Ə.Abdullayev M.F.Axundzadənin həm əlifbanı islah etməsi , həm də bu islahatı həyata keçirmək üçün göstərdiyi çabaları, bunun üçün hətta Türkiyəyə getməsini, məsul şəxslərə müraciət etməsinimüfəssəl şəkildə qələmə alır. Ümumiyyətlə, M.F.Axundzadənin əlifba ilə bağlı fəaliyyətində iki mərhələ qeyd olunur; birinci mərhələdə ərəb əlifbasının islah edilməsini nəzərdə tutan ədib ikinci mərhələdə, ümumiyyətlə, ərəb əlifbasından imtina etmiş olur. Artıq onu soldan sağa yazılan, nöqtələrsiz, bütün səslərin söz daxilində ifadəsini tapdığı əlifba maraqlandırırdı. Bir növ, ədib müasir əlifbadan istifadəyə üstünlük verir. Onun hazırladığı əlifbada 42 hərf var idi ki, bunlardan 10-u sait və 32-si samit idi.

Ə.Abdullayevin bu məqaləsində M.F.Axundovun Avropa şərqşünaslarının, xüsusən K.Volneyin ərəb əlifbası haqqında fikirlərindən, bu əlifbanın islah olunması ilə bağlı göstərdiyi fəaliyyətdən bəhrələnməsi barədə də məlumat verilir.

Məqalədə M.Şahtaxtlının bu sahədəki fəaliyyəti barədə də məlumat verilmişdir. Göstərilir ki, M.Şaxtaxtlının ərəb əlifbası üzərində apardığı islahat ondan ibarətdir ki, saitləri ərəb dilindəki rəqəmlərlə işarə etmişdir. Bu isə o dövrün görkəmli şəxsiyyətləri—tərəqqipərvər ziyalıları olan Əhməd bəy Ağayev ismayıl bəy Qaspirincki və başqaları tərəfindən tənqidə məruz qalmışdır. M.Şaxtxtlı bu layihəsini Azərbaycan Demokratik Cümhuriyyətinin maarif nəzarətinə təqdim etmiş, amma qəbul edilməmişdir. Ədib sonralar, yəni sovet hakimiyyəti dövründə də bu sahədə fəaliyyətini davam etdirmiş, "Latın əlifbası işığını müsəlman şərqinə" adlı əsər də yazmışdır. Burada M.Şaxtaxtlı Esperanto əlifbasından bəhrələnmiş, K.Volney, M.F.Axundov layihələri ilə tanış olmuş, hətta onlara öz münasibətini bildirmişdir. Maraqlıdır ki, o, Sorbonna Universitetində olan Asiya fonetika cəmiyyətinin üzvü seçilmişdir.

Ə.Abdullayev Azərbaycan əlifbası tarixini ciddi və ətraflı şəkildə izləmişdir. Bu baxımdan təbii olaraq latın qrafikası əsasında olan əlifbanın araşdırılmasına daha çox yer vermişdir. Onu demək lazımdır ki, bu sahədə olan gərgin fəaliyyətin mahiyyətindən çıxış edərək, məqalənin bu hissəsini "Latın əlifbası hərəkatı" adlandırmışdır. Bu fəaliyyəti alim 1918-ci ildən—Azərbaycan Demokratık Cümhuriyyət dövründən başlayır. 1919-cu ildə Abdulla bəy Əfəndizadənin çap olunan "Son türk əlifbası" məqaləsinə müraciıət edən alim Göstərili ki, A.Əfəndizadənin hazırladığı əlifba yeni, ərəb və morze əlifbası ilə verilmişdir. Bu əlifbanın dəyərindən bəhs edən Ə.Abdullayev nöqsan hesab etdiyi məsələləri də işıqlandırır; bunlar ы hərfinin w ilə, ş sh hərf birləşməsi ilə verilməsidir. Bu hərflərin iştirakı ilə olan "tapshwrwlmwshdw" sözünü misal gətirərək, bunun uzun və yöndəmsiz olmasını məhz həmin hərflərlə bağlayır.

Ə.Abdullayev sovet hakimiyyətinin əvvəlində əlifba ilə bağlı, demək olar ki, bütün fəaliyyəti təhil edir. K.Məlikaslanovun rəhbərlik etdiyi komissiyanın hazırladığı layihəsinin Azərbaycan Parlamentində müzakirəsinin yarımşıq qalması, 1921-ci ildən mətbuatda gedən müzakirələrdən bəhs edilir. N.Nərimanovun müzakirələrə son verərək latın qrafikasına keçmək barədə qəti qərar verdikdən sonra bununla bağlı fəaliyyət sürətlənir və nəhayətdə I Türkoloji Qurultayın latın qrafikalı əlifbaya keçilməsi barədə qərarın verilməsi ilə nəticələndi. İndi artıq I Türkoloji Qurultayın fəaliyyətini tam əks etdirə iri həcmli əsər çap olunmuşdur, lakin Ə.Abdullayevin məqaləsinin çap olunduğu dövr üçün bu məqaləni önəmi böyük idi. Məqalədə müəllif habelə yeni əlifbanın unifikasiyasından da bəhs edir.

Məqalənin sonunda rus qrafikası əsasında ola əlifbamızdan bəhs olunur. Müəllifin də qeyd etdiyi kimi, guya "latın əlifbası rus dili ilə əlaqəni zəiflədir". Bu zaman sozial-iqtisadi amillər də arqument kimi irəli sürülür və 1939-cu ildə Azərbaycan SSR-in qərarı ilə 1940-cı il yanvarın birindən ölkəmizdə rus əlifbasına keçildi. Lakin sonralar bu əlifbada olan nöqsanlar, çatışmazlıqlar düzəldildi. Bu sahədə gedən müzakirələrin təşkili və gedişində AMEA-nın vitse-prezidenti SşVurğunun xüsusi əməyi xüsusilə qeyd edilir. Məqalə müəllifi sonda tam

təkmilləşdirilmiş əlifbamızın digər xalqlarla müqayisədə ən mükəmməli hesab edir. Bunu əyani şəkildə göstərmək üçün Azərbaycan əlifbası ilə digər türk xalqlarında olan əlifbalardakı vəziyyəti əks etdirən cədvəl də verir. Ə.Abdullayev əlifbadakı bu dəyişikliklərin türkdilli xalqların bir-birini anlamaqda, bir-birinə yaxınlaşmaqda əsas maneələrdən hesab edirdi və bunun şəxsiyyətə pərəstiş dövrünün acı nəticəsi adlandırırdı.

Alim qeyd edirdi ki, bu tədbir, əslində düşünülmüş, məqsədyönlü idi, qohum, yaxın millətlərin (qohumların) bir-birindən ayırmaq məqsədi güdürdü. Əks halda, gürcü və erməni əlifbaları da dəyişdirilərdi. Ona görə də müəllif bunu SSRİ-nin başında oturan Stalin, Beriya və Mikoyanın digər millətlərə ögey münasibətinin məhsulu hesab edirdi. Daha sonra alim rus qrafikası ilə olan əlifbamızdakı nöqsanlardan bəhs edir.

Nəhayət, Ə.Abdullayev son dövrlər üçün ən aktual bir məsələdən—ümumtürk əlifbasından bəhs edir və bunu "sonuncu mərhələ" adlandırır. Belə ki, 1991-ci il noyabrın 18-20-də İstanbulda Mərmərə Universitetinin Türkiyyat Araşdırmaları İnstitutunda keçirilən simpoziumda qəti qərara gəlinməsə də, 34 hərfdən ibarət bir əlifbanı hər türkdilli xalqın nəzərdən keçirilməsi tövsiyə edildi. Alim bunu türkdilli xalqlar üçün əhatəli və faydalı hesab etdiyini də bildirir.

Ə.Abdullayev bu böyük məqaləsində əlifba ilə bağlı tarixi prosesləri təsvir etməklə kifayətlənmir, onların türkdilli xalqların, xüsusən də Azərbaycan xalqının həyatında oynadığı rolu açıqlayır. Əlifbanın Azərbaycan xalqının tarixi taleyindəki yeri geniş şəkildə şərh edilir, həm də onun elmi-nəzəri aspektləri diqqət önünə çəkilir. Bu isə alimin elmi məsuliyyətini və xalqını sevən, türklüyə böyük önəm verən bir şəxsiyyət olduğunu bir daha göstərir.

İstifadə olunmuş ədəbiyyat

1.Abdullayev Ə.Z. Azərbaycan dili məsələləri. BU nəşriyyatı, Bakı, 1992, 329 s.

2.A.Bəylərova. Yazı. Əlifba. Qrafika.—Müasir Azərbaycan dili, I, Fonetika və fonologiya. "Elm" nəşriyyatı, Bakı, 2019, s. 412—457

3.Dəmirçizadə Ə. Azərbaycan ədəbi dilinin tarixi. I hissə. "Maarif", Bakı: 1979, 268 s.

4.Kalankatuklu M. Albaniya tarixi. "Avrasiya pres", Bakı: 2006, 296 s.

5.Q.Kazımov. Azərbaycan dilinin tarixi.(ən qədim dövrlərdənXIII əsrə qədər). "Təhsil", Bakı: 2003, 584 s.

6.Kazımov Q. Dil, tarix, poeziya (ikinci kitab). "Elm və təhsil", Bakı: 2020, 760 s.

7.Qıpçaq M.Türk yazısının tarixi (oçerklər). Ləman nəşriyyat poliqrafiya. Bakı: 2017, 112 s.

8.Гукасян В.Л. О новонайденном списке албанского алфавита.—«Советская тюркология», № 2, Баку: 1971, с.130-135

9.Qurbanov A.M. Müasir Azərbaycan ədəbi dili: 2 cilddə, I c., "Nurlan", Bakı, 2003, 408 s.

10. Prof. Dr. Elövset Zakiroğlu ABDULLAYEV. Türk Dillerinin Tarihsel Gelişme Sorunları. (Azerbaycan Bilgininin Görüşleri). Ankara: 1996, 176 s.

11.Мамедов Т.М. Кафказская Албания. «Маариф», Баку: 1993, 216 с.

12.Zeynalov F. Türkologiyanın əsasları. "Maarif", Bakı: 1981, 348 s.

X Ü L A S Ə

Professor Ə. Abdullayev geniş erudisiyalı, hərtərəfli yaradıcılıq imkanlarına malik alim olduğunu əsərləri ilə bir daha göstərmişdir. Onun yaradıcılığında dilin və dilçiliyin ən müxtəli sahələrinə dair maraqlı, zəngin və əhatəli əsərlərə rast gəlmək mümkündür. Alimin əlifba barədəki "Azərbaycan əlifbasının tarixindən" adlı böyük məqaləsi onun yalnız bu sahədəki bilik və təcrübəsini göstərmir, habelə xalqını sevən, onun taleyi ilə yaşayan bir insan olduğunu göstərir.

Müəllif, hər şeydən əvvəl, türklərin öz milli əlifbasının olduğunu böyük qürurla qeyd edir və bu yazının təkcə Orxon-Yenisey sahəsində deyil, digər ərazilərdə, o cümlədən Avropa ölkələrində, habelə Azərbaycanın Naxçıvan, Şamaxı zonalarında da rast gəlindiyini qeyd edir. Bu yazıların tədqiqi və xüsusiyyətləri haqqında müfəssəl məlumat verilir. M.Erginə əsaslanan müəllif bu yazıların hətta eradan əvvəl Orta Asiyada olduğunu qeyd edir. Bu əlifbadan istifadə məsələsindən bəhs edən müəllif türk xalqlarının, xüsusən oğuzların tarixinə də qısa ekskurs edir.

Əsərdə Azərbaycan ərazisində V-VIII əsrlərdə fəaliyyət göstərmiş alban əlifbasından da bəhs edilir. 52 hərfdən ibarət bu əlifbanın hətta məktəbdə tədris edildiyi göstərilir. Müəllif habelə Gürcüstanda XV əsrə aid alban əlifbasilə yazılmış kitabələrin tapıldığını, Dağıstan ərazisində yastı bir daşın üzərində alban hərflərinin siyahısı olduğu məlumatını da verir.

Məqalədə, təbii olaraq, ən geniş yer ərəb və rus (kiril) qrafikalı əlifbalara verilmişdir. Ən üzun dövrü əhatə edən (VIII-1928) ərəb əlifbası ilə bağlı görkəmli şəxslərin fikirləri, apardıqları mücadilələrə də müəyyən yer verən müəllif bu əlifbanın nöqsanlarını konkret faktlarla diqqətə çatdırır.

Rus əlifbasının qəbul edilməsi, bu yolda rus hökumətinin məqsədi, bu əlifbada zaman-zaman tədqiclə edilən dəyişmələr və orada dilimiz üçün uyğun olmayan cəhətlər də sadalanır.

Nəhayət, müəllifin ümumtürk əlifbasının yaradılması barədə fikirlərini vermişdir. Bu məqalədə biz Ə.Abdullayevi yalnız ciddi, geniş erudisiyalı alim kimi deyil, habelə milli mənsubiyyətini uca tutan, əlifbanın məhz milliliyə xidmət etdiyini əsaslandıran vətəndaş kimi görürük.

Açar sözlər: əlifba, Orxon-Yenisey, ərəb, rus, qrafika, türk

СабинаМухтарова

Проблема алфавита в трудах Аловсата Абдуллаева

Ключевые слова: алфавит, Орхон-Енисей, арабский, русский, графика, тюркский

Резюме

Профессор А.Абдуллаев своими научными трудами еще раз продемонстрировал, что является широко эрудированным ученым, обладающим всесторонними творческими возможностями. Его научное творчество включает интересные монументальные работы, посвященные различным областям языкознания. Большая статья ученого " Из истории азербайджанского алфавита" показывает не только его знания и опыт в данной области, но и его любовь к своему народу, искреннее переживание за судьбу народа

Прежде всего А.Абдуллаев с гордостью подчеркивает существование своего национального алфавита у древнетюркских народов и отмечает, что эта письменность встречается не только в долине рек Орхон и Енисей, но и на других территориях, в том числе и в европейских странах, а также в Нахчыванской, Шемахинской зонах Азербайджана. Автор дает подробные сведения об исследовании орхоно-енисейских надписей и их особенностях. Опираясь на М.Эргина, ученый отмечает, что эти надписи существовали еще до нашей эры. Говоря об использовании этого алфавита, А.Абдуллаев делает краткий экскурс в историю тюркских народов, в частности, огузов.

В статье говорится и об албанском алфавите, функционировавшем на территории Азербайджана в V- VIII веках. Отмечается даже обучение этому алфавиту, состоящему из 52 букв, в школах. Автор также сообщает о том, что в Грузии были найдены книги , написанные албанским алфавитом и относящиеся к XV веку; кроме того, на каменной плите, найденной в Дагестане, имеется список албанских букв.

В статье, естественно, широкое место отводится арабскому и русскому алфавиту (кириллице).Автор дает сведения о взглядах выдающихся личностей на арабский алфавит, охватывающий самый длительный период, об их борьбе и указывает на недостатки этого алфавита на основе конкретных фактов.

В статье также говорится о принятии русского алфавита, о цели русского правительства в связи с этим, о постепенных изменениях в этом алфавите, о его особенностях, не соответствующих азербайджанскому языку.

Наконец, автор излагает свои идеи о создании общетюркского алфавита. Таким образом, в статье " Из истории азербайджанского алфавита"

А.Абдуллаев предстает перед нами не только как серьезный исследователь широкой эрудиции, но и как гражданин, для которого национальная принадлежность превыше всего, и как ученый, обосновавший служение алфавита национальной идентичности.

The problem of the alphabet in the works of Alovsat Abdullayev

Sabina Mukhtarova

Keywords: alphabet, Orkhon-Yenisei, Arabic, Russian, graphics, Turkic

Summary

Professor A. Abdullaev with his scientific works once again demonstrated that he is a widely erudite scientist with all-round creative abilities. His scientific creativity includes interesting monumental works dedicated to various areas of linguistics. The scientist's big article "From the history of the Azerbaijani alphabet" shows not only his knowledge and experience in this area but also his love for his people, his sincere concern for the fate of the people. First of all, A. Abdullayev proudly emphasizes the existence of the national alphabet among the ancient Turkic peoples and notes that this writing is found not only in the valley of the Orkhon and Yenisei but also in other territories, including European countries, as well as in the Nakhchivan, Shamakhi zones of Azerbaijan. The author gives detailed information about the study of the Orkhon-Yenisei inscriptions and their features. Based on M. Ergin the scientist notes that these inscriptions existed before our era. Speaking about usage of this alphabet A. Abdullayev makes a brief excursus into the history of the Turkic peoples, particularly the Oghuz.

The article also deals with the Albanian alphabet which functioned on the territory of Azerbaijan in the V-VIII centuries.It is even noted that this alphabet consisting of 52 letters was taught at school.The author also informs that books written in the Albanian alphabet and dating back to the XV century were found in Georgia; moreover, there is a list of Albanian letters on a stone slab found in Dagestan.

In the article, of course, a wide place is given to the Arabic and Russian alphabets (Cyrillic).The author gives information about the

prominent persons' views of the Arabic alphabet which covers the longest period, about their struggle and points out the shortcomings of this alphabet based on the specific facts.

The article also refers to the adoption of the Russian alphabet, the purpose of Russian government in this regard, about gradual changes in this alphabet, about its features that do not to the Azerbaijani language.

Finally, the author presents his ideas on the creation of a common Turkic alphabet.

Thus, in the article "From the history of the Azerbaijani alphabet" A. Abdullayev appears before us not only as a serious researcher of wide erudition but also as a citizen for whom the national belonging is above all, and as a scientist who justified the service of the alphabet precisely to national identity.

.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Filologiya elmləri doktoru, profesor Tofiq Hacıyev tərəfindən çapa tövsiyə olunmuşdur

SAMİRƏ ADƏM QIZI ƏMRAHOVA
Cəlilabad rayonu, Göytəpə şəhər V.Mürsəlov adına 1 orta tam orta məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi
e-mail: samire.amrahova@gmail.com

NƏSİRƏDDİN TUSİ ANTROPONİMİ HAQQINDA

XÜLASƏ

Həyatda hər bir əşyanın özünəməxsus fərqləndirici əlaməti, onu başqalarından ayıran adı vardır. Bu adların bir qismi ümumi səciyyə daşıyıb eynicinsli canlı və cansız varlıqlara verilir. Bir sıra canlılara, eləcə də bəzi cansız əşyalara isə onları başqa canlı və cansız varlıqlardan fərqləndirən konkret adlar verilir ki, bu adlar xüsusi adlar hesab olunur.

Müasir Azərbaycan dilçiliyində onomastik vahidlər kimi qəbul edilən xüsusi adlar yalnız adlandırdığı konkret əşyaya verilir və həmişə böyük hərflə yazılır. Belə xüsusi adlardan dilçilikdə antroponimlər - ayrı-ayrı şəxslərə verilən adlar, toponimlər – yer-yurd adları, hidronimlər – su obyektlərinin adları və s. kimi öyrənilir. Bu məqalədə Azərbaycanın görkəmli şəxsiyyətlərindən olan böyük alim və astronom Nəsirəddin Tusi haqqında danışılır, bu antroponimin etimoloji kökü açiqlanır.

Açar sözlər: onomastik vahid, xüsusi ad, antroponim, toponim, hidronim, təxəllüs, etimologiya

Cəmiyyətdə, iqtisadiyyatda, ölkəmizin ictimai-siyasi həyatında innovativ proseslərin güclü inkişaf etdiyi bir zamanda kreativ şəxsiyyətin inkişafı və formalaşmasına tələbat yaranır. Kreativliyin inkişafı özlüyündə şəxsiyyətin inkişafının əsasını təşkil edir ki, bu da insana fərdiliyini və unikallığını göstərməyə imkan verir. Müasir pedaqoji prosesin, təlim üsullarının başlıca məqsədləri şagirdlərin təlim-tərbiyəsində cəmiyyətyönümlü keyfiyyətlərin inkişaf etdirilməsi, uşaqların intellektual, yaradıcı inkişafını, məntiqi və mücərrəd təfəkkürünün formalaşmasını, araşdırma, təhliletmə, ümumiləşdirmə aparma bacarığı və vərdişlərinin yaranmasını təmin etməkdir.

Cəmiyyətin həyatında fəal iştirak etmək, özünü şəxsiyyət kimi təsdiq etmək üçün şagirdi aşağı siniflərdən daim tədqiqatçılığa cəlb etmək, yaradıcı fəallığını artırmaq, onun fərdi bacarıqlarını inkişaf etdirmək lazımdır. Müasir təlimin əsas qayəsi həm də ondan ibarətdir ki, şagirdə biliyi hazır şəkildə deyil, onu araşdıraraq, tədqiqat apararaq özü əldə etməlidir. Müəllim elə bir şərait, elə bir vəziyyət yaratmalıdır ki, hər bir şagird biliyin əldə edilməsi yolunda fəal iştirak etsin. Həmçinin onlar bilik əldə edilməsi fəaliyyətini istiqamətləndirməyi də bacarsınlar. Çünki təfəkkürün fəallığı təlim materialının dərk edilməsi prosesini sürətləndirir, mənimsənilməni xeyli asanlaşdırır. Bu yolla əldə edilən biliklər möhkəm olur və uzun müddət yadda qalır.

Tədqiqatçılıq yeni biliklər almaq, onları ümumiləşdirmək, qazanılmış bilikləri tətbiq etmək məqsədilə aparılır. Bu zaman tədris prosesinə elmi tədqiqat elementləri də daxil olur. Bəzən müstəqil iş kimi aparılan geniş tədqiqatlar o qədər maraqlı prosesdə cərəyan edir, şagirdi düşündürən faktlar ortaya çıxarır ki, belə tədqiqatlara kiçik elmi iş də demək mümkündür. Məsələn, Azərbaycan dili fənnindən keçirilən xüsusi isimlər mövzusunda dərsdənkənar müstəqil iş apararaq ədəiyyatdan və ya tarixdən götürülmüş hər hansı bir obraz, ədəbi qəhrəman və ya görkəmli şəxsiyyət adı- antroponim (insan adı) haqqında araşdırma aparılır və sonda olduqca bir-birindən maraqli faktlar ortaya çıxır. Aparılan araşdırmalardan birinə nümunə olaraq aşağıdakı maraqlı faktları qeyd etmək istəyirəm.

Hər bir xalqın fəxarət mənbəyi, güvənc yeri onun yetişdirdiyi tarixi şəxsiyyətlər – el qəhrəmanları, görkəmli alimlər, şair və yazıçılardır. Azərbaycan xalqının da belə tarixi şəxsiyyətlərindən biri ensiklopedik alim, dövlət xadimi Nəsirəddin Tusidir. Bu böyük alimin adı müxtəlif məxəzlərdə o qədər müxtəlif şəkil və formalarda verilmişdir ki, bu adlardan hansının onun şəxsi adı, hansının atasının adı olduğunu ayırmaq üçün daha dərin mənbələrə üz tutmaq lazım gəlir.

Azərbaycan Sovet Ensiklopediyasında alimin adı Nəsirəddin Tusi Məhəmməd ibn Həsən kimi verilmişdir. (1,s.231.) İlk baxışda buradan belə nəticə çıxır ki, onun adı Məhəmməd, atasının adı isə Həsəndir. Halbuki Həsən onun atasının yox, babasının adıdır. Əslində Nəsirəddin Tusinin özünün də, atasının da adı Məhəmməd olmuş və mənbələrdə onun bütöv adı daha çox Nəsirəddin Tusi Məhəmməd ibn Məhəmməd ibn Həsən kimi verilmişdir (2,s.46.) Bəzi mənbələrdə bu adın əvvəlinə Əbu Cəfər, sonuna isə Əbu Bəkr sözləri də əlavə edilərək alimin adı Əbu Cəfər Nəsirəddin Tusi Məhəmməd ibn Məhəmməd ibn Həsən Əbu Bəkr şəklində verilir. (3,s.4.) Bəzi mənbələrdə isə bütöv adın əvvəlinə hətta Xacə sözü artırılmışdır. (3.s.4.) Bütün göstərilən faktlardan bir şey tam aydın olur ki, Nəsirəddin Tusi kimi tanıdığımız alimin özünün də, atasının da əsl adları Məhəmməddir. Atanın öz oğul övladına özünün adını verməsi ənənəsinin xalqımızda qədimdən mövcudluğunu əsas götürsək, burada qeyri-adi heç nə yoxdur. Məhəmməd adının etimologiyasına gəldikdə isə, islam təriqətinin başçısı, böyük peyğəmbərimiz Məhəmməd Peyğəmbərin də daşıdığı bu ad Azərbaycan antroponimik sistemində çox işlənən şəxs adlarından biridir. Ərəbcədən Muhamməd adının ixtisar və təhrif olunmuş forması olan bu xüsusi adın hərfi mənası «bəyənilən, şərəfli, mədh olunan, həmd olunan, hamının tərif etdiyi, şanlı» deməkdir. (4,s.143-144.) Dilimizdə Məhəmməd xüsusi adı ilə bağlı və onunla bir kökdən olan Əhməd, Mahmud, Həmid adları, eləcə də Məhəmmədin ixtisar forması olan Məmməd, Məmi və s. kimi şəxs adları vardır ki, bunların hamısı islam dininin banisi Məhəmməd ibn Abdullanın adı ilə bağlıdır. (5,s.82.)

Nəsirəddin böyük alimin ləqəbi, Tusi isə nisbəsidir. Onomalogiyanın tədqiqat mənbələrindən birini ləqəblər təşkil edir. Ləqəblər cəmiyyət üzvlərinin birini

digərindən fərqləndirmək üçün xalq tərəfindən verilən qeyri-rəsmi adlardır. Təxəllüsdən fərqli olaraq, ləqəblər ayrı-ayrı adamlara onların zahiri görünüşü, xarakteri, peşəsi, fiziki kamilliyi, dini əqidəsi, mənşəyi və s. ilə əlaqədar onları əhatə edən insanlar tərəfindən verilir.

Bəzi mənbələrdə Nəsirəddin ləqəbi sadəcə Nəsir şəklində qeyd olunur. Bir çox Azərbaycan yazıçı və tarixçiləri, o cümlədən Mirzə Fətəli Axundzadə, Molla Vəli Vidadi və başqaları onu Nəsir Tusi adlandırmışlar. (2,s.45-54.) Maraqlıdır ki, Tusinin özü də "Əxlaqi-Nasiri" kitabının titul səhifəsində və müqəddiməsində özünü Nəsirəddin Tusi deyil, Nəsir Tusi adlandırır. (3,s.4.)

O.Mirzəyev göstərir ki, "Ərəb dilində üç cür s olduğundan, həmin s-ların tələffüzündən asılı olaraq "nəsr" sözünün üç mənası var: 1) qartal, 2) kömək, qələbə, 3) nəsr – təhkiyə üsulunda yazı". (6,s.167.) "Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti"ndə də nəsr sözü "kömək, yardım" və "vəzni, qafiyəsi və rədifi olmayan bədii əsər" kimi qeyd edilir. (7,s.171.) Nəsir sözü ərəbcə həm də Nasır kimi səslənir və "müdafiəçi, köməkçi, havadar" mənalarını bildirir. Nəsir sözünə əlavə edilən əddin komponentindən aydındır ki, Nəsirəddin ləqəbinin məzmun kökündə nəsir sözünün "kömək, yardım" və "müdafiəçi, köməkçi, havadar" mənaları dayanır. Əddin komponenti bir çox antroponimlərdə (Ruhəddin, Ələddin, Fəxrəddin və s.) tərkib hissə kimi şıxış edərək dinə aidlik məzmunu yaradır. Bu əsasda Nəsirəddin antroponimini də "dinin köməyi, dinin dayağı" və "dinin müdafiəçisi, dinin havadarı" mənalarında izah etmək olar.

Qeyd etmək lazımdır ki, XIX əsr Azərbaycan ədəbiyyatında Nasir təxəllüsü ilə yazıb-yaradan Abbasağa Nasir və Mustafa ağa Qiyasbəyli Nasir adlı şairvə yazıçılarımız olmuşdur (8,s.80.) ki, buradakı Nasir təxəllüsü, çox güman ki, "vəzni, qafiyəsi və rədifi olmayan bədii əsər" mənasındakı nəsr sözü ilə bağlıdır. Çünki nəsr sözü nasir sözü ilə eyni kökdən olub, nasir "nəsrlə əsər yazan sənətkar" mənasındadır.

Tusi nisbəsinə gəldikdə isə, müasir İran ədəbiyyatşünaslarından Cəlaləddin Hümai 1969-cu ildə nəşr etdirdiyi "Xacə Nəsirəddinin əməli hikmətə baxışı" kitabında göstərir ki, Nəsirəddin Tusi Tus şəhərində anadan olmuş, ona görə də özünə Tusi nisbəsini götürmüıdür. (3,s.3.) Məşhur tarixçi Rəşidəddinin məlumatına görə isə Nəsirəddin İranın qərbində yerləşən Həmədan şəhərində anadan olmuş, sonralar Tusa getdiyi üçün öz şəxsiyyət ünvanına Tusi nisbəsini əlavə etmişdir. Tus Xorasanda Məşhəd şəhərinin yaxınlığında qədim bir şəhər olmuşdur. İndi xarabalıqları qalan bu şəhər məşhur "Şahnamə" müəllifi Əbülqasim Firdovsinin və başqa görkəmli şəxslərin vətəni hesab olunur. (9,s.374.) Adın etimologiyasına gəldikdə isə, ərəb dilində "tusə" sözü "qızılağac" mənasını ifadə edir (7,s.222.) və Tus şəhərinin adının da bu mənadan törədiyini ehtimal etmək olar.

Şagirdlər bu cür tədqiqatlar apararkən bir çox ədəbiyyatlara, məxəz və mənbələrə müraciət etmiş olurlar. Həmçinin bir sıra fənlərlə inteqrasiya aparılır. Fənlərarası əlaqənin təşkili də tədris keyfiyyətinin artırılmasında, biliklərin

qavranılması, mənimsənilməsi və yadda saxlanılmasında mühüm rola malikdir. Bu nöqteyi-nəzərdən müasir təlim metodlarının uğurla həyata keçirilməsi onun effektivliyini bir daha təsdiq etmiş olur.

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası. VII cild. Bakı, 1983
2. H.Məmmədbəyli. Nəsirəddin Tusi. Bakı, Uşaqgəncnəşr, 1957
3. Xacə Nəsirəddin Tusi. Əxlaqi-Nasiri. Bakı, "Elm" nəşriyyatı, 1989
4. Azərbaycan klassik ədəbiyyatında işlədilən adların və terminlərin şərhi. Bakı, 1993
5. İslam (qısa məlumat kitabı). Bakı, 1989
6. O.Mirzəyev. Adlarımız. Bakı, Azərnəşr, 1986
7. Azərbaycan klassik ədəbiyyatında işlədilən ərəb və fars sözləri lüğəti. Bakı, "Maarif" nəşriyyatı, 1981
8. M.Çobanov. Familiya, təxəllüs. Tbilisi, 1987
9. A.Paşayev. "Xəmsə"də işlənən xüsusi adların izahlı lüğəti. Bakı, "Nurlan" nəşriyyatı, 2013

Самира Амрахова

Об антропоними Насреддин Туси

Резюме

Каждый объект имеет свою собственную идентичность, имя в жизни, которые отделяют его от других. Некоторая часть этих имен, которые носят общий характер, дается однополым живым и неживым существам. Ряд живых, а также некоторых неодушевленных существ , приведены конкретные имена, которые отличает их от других живых и неживых существ, эти имена считаются конкретные имена. В современном азербайджанском языке, считаются принятые как ономастические единицы специальных имен которые даются только конкретным предметам и всегда пишется с большой буквой. Такие специальные имена изучаются в лингвистике как антропонимы - имена выданные отдельным лицам, топонимы- Названия местоположения страны, гидронимы- название водных объектов и т.д. В этой статье говорится о выдающемся личности Азербайджана великий ученый и астроном Насреддин Туси, раскрывается этимологический корень специального имени.

Ключевые слова: ономастической единицы, личные имена, антропоним, топоним, гидроним, псевдоним, этимология

Samira Amrahova

About anthroponymy Nasiraddin Tusi

Summary

Each object has its own identity, name in life, which separate it from the others. Some of the names were similar nature and are granted animate and inanimate beings. A number of animate as well as some inanimate beings are given specific names that distinguishes them from other animate and inanimate beings, these names are considered specific names. In modern Azerbaijani language specific names which considered onomastic units is given only specific items and always written with a capital letter. A special name from the names, place names, names of objects being studied as hidronimlər water and shelter - individuals - anthroponomy in linguistics. So specific names are studied in linguistics as anthroponymy- names given to individuals, toponyms- place names, hidronims - names of water objects.

In this article are spoken about Nasiraddin Tusi one of the outstanding personalities of Azerbaijan, the great scientist and astronomer, etymological root of this special name is disclosed.

Key words: onomastic units, specific names, anthroponymy, toponym, hidronim, pseudonym, etymology.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: filologiya elmləri doktoru, professor Kamran Kazımov tərəfindən çapa tövsiyə olunmuşdur

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
ATU-nun müəllimi
alizadetamara@yahoo.com

BƏNZƏRSİZ DİL ABİDƏMİZ

Açar sözlər: Dədə Qorqud, dastan, qəhrəmanlıq, türk xalqı, onomastika, toponim.

Ключевые слова: Деде Горгуд, эпос, героизм, тюркский народ, ономастика, топоним.

Key words: Dede Gorgud, epic, heroism, Turkish people, onomastics, toponym.

Türk xalqlarının ədəbiyyat tarixində xüsusi yeri olan "Kitabi-Dədə Qorqud "dastanı xalqımızın soykökünü özündə əks etdirir. Bu dastan dilimizi, ədəbiyyatımızı, mədəniyyətimizi öyrənmək baxımından təkrarsız sənət əsəridir. "Dastan", demək olar ki, dünya səviyyəsində araşdırılmağa cəlb edilmişdir. Drezden nüsxəsi kimi qəbul edilən 12 boyu XVI əsrdə yazıya alınmışdır. 1952-ci ildə italyan alimi Etorre Rossi tərəfindən 6 boydan ibarət Vatikan nüsxəsi tapılmışdır. Dastan" ilk dəfə Bakıda Həmid Araslı və Məmmədhüseyn Təhmasib tərəfindən nəşr etdirilmişdir. 1975-ci ildə xalq yazıçısı Anarın ssenarisi əsasında "Dədə Qorqud" bədii filmi çəkildi. Araşdırmalara əsasən deyə bilərik ki, Dədə Qorqud Məhəmməd peyğəmbər (ə.s.) zamanında yaşamışdır. Bir çox alimlərin qənaətinə görə, dastan təmiz türkcədə yazılsa da, oraya islam elementləri əlavə edilmişdir. "Kitabi-Dədə Qorqud" dünyanın nəhəng eposları ilə - Bilqamıs, İliada, Manas, Mahabharata, Alpamış və s. ilə yanaşı dura bilən nadir incilərdəndir. Manas dastanında Dədə Qorqudun müdrik kəlamlarından misal gətirilir. Boylarda qəhrəmanlıq, qadına hörmət, vətən, yurd sevgisi təbliğ edilir. Abidənin əsas ruhunu qəhrəmanlıq təşkil edir. İgidlər yalnız qəhrəmanlıq göstərməklə ad-san qazanırlar. Qəhrəmanlıq göstərməyənlərə ad verilmir. "Qəhrəmanlıq dastanları xalqın tarixində yadellilərlə mübarizə salnaməsinin bütün fəsillərinə uyğun gəlir; qəhrəmanlıq dastanı bir yadelli ilə mübarizə nəticəsində yaranır, başqa yadellilərlə mübarizədə dirçəlir, fəallaşır" (1, 127). "Kitabi-Dədə Qorqud" eposu Azərbaycan türklərinin etnik mənlik şüuruna malik etnos olaraq ilkin formalaşma mərhələsini özündə ehtiva edən, etnos olaraq tarix səhnəsinə gəlməsini əks etdirən tarixin möhürü ilə təsdiqlənmiş tarixi sənəddir (3, 129). Özündə tarixin bir neçə qatını birləşdirən bu dəyərli abidə yalnız Azərbaycan xalqının deyil, bütün türk xalqlarının tarixini öyrənmək üçün qiymətli xəzinədir. "Dastan" Azərbaycan türklərinin dünya mədəniyyətinə bəxş etdiyi ən qüdrətli əsərlərdən biridir. Burada türklərin adət-ənənələri, əxlaqı, ailə münasibətləri, məişəti, mərasimləri, dini və fəlsəfi dünyagörüşü, qəhrəmanlığı, dövlət quruculuğu və s. öz əksini tapmışdır. X.Xəlilli yazır: "Dədə Qorqud" oğuznamələrinin etnoloq tədqiqatçısı olaraq 1991-ci ildən başlayan Azərbaycanın yeni müstəqilliyi dövründə

“Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi qədər tarixi, milli-mənəvi dəyərlərə qovuşma istiqamətində təsiredici ikinci bir tədbir, hadisə görmürəm. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında 20 aprel 1997-ci il tarixdən 8 aprel 2000-ci il yubiley təntənəsi gününə qədər hazırlıq müddətində dastanın dəyərləndirilməsinə, xalqa kütləvi təqdim olunmasına böyük yazar qüvvəsi səfərbər oldu (3, 124). “Dədə Qorqud” dastanının 1300 illiyi qeyd edilərkən Ümummilli lider Heydər Əliyev deyirdi: “Biz onu da qiymətləndirməliyik ki, bir çox alimlərimiz, yazıçılarımız bu mövzuya xüsusi fikir vermiş, əsərlər yaratmışlar və “Kitabi-Dədə Qorqud” dastanı Azərbaycanın həyatında, ədəbiyyatında yaşamış və inkişaf etmişdir. Bu nəşrlər içərisində “Kitabi-Dədə Qorqud”un 1988-ci ildə Fərhad Zeynalov və Samət Əlizadənin rəhbərliyi altında həyata keçirilmiş sanballı nəşrini xüsusi qeyd etmək olar (2).

“Oğuznamə” forması türkdilli xalqlar arasında ən qədim iri xalq yaradıcılığı nümunəsidir. “Kitabi-Dədə Qorqud” azərbaycanlılar tərəfindən yazılan “Oğuznamə”dir. Əsərin milli müəyyənliyi, hadisələrin coğrafi koordinatları ilə bağlı məsələlər mübahisələri daha da kəskinləşdirmiş və bu mübahisələr heç zaman əsəri unudulmağa qoymamışdır. “Kitabi-Dədə Qorqud” haqqında müxtəlif ölkələrdə az yazılmamış, ancaq yenə bir sıra məsələlər mübahisəlilik dairəsindən çıxmamışdır: boyların yaranma dövrü, hadisələrin coğrafi və ictimai mühiti, yazıya köçürülmə mənbəyi və şəraiti və s. (6, 3). “Kitabi-Dədə Qorqud” boylarında adı keçən tarixi-coğrafi toponimləri məna baxımından aşağıdakı səpkidə qruplaşdırmaq olar:

1. Tayfa , el-oba adları: Oğuz eli // oğuzlar, Rum eli, Qarun eli, alpanlar, abxazlar, qan Abxaz eli, Ağsaqa, pasinlər, İç Oğuz, Taş Oğuz və s.
2. Dağ, dərə, dəniz, çay, yer, yurd, orman adları: Ağlağan, Ala dağ, Qara dağ, qara dağlar. Gökcə dağ, Ağ orman, Talı sazı, Ağ saz, Ağ qaya, Arı gölü, Ayqırgözlər suyu, Qanlı su, Amid suyu, Quru çay, Umman dənizi, Qara dəniz, Gökcə dəniz və s.
3. Dövlət, şəhər, qala, qəsr şəxs adları: Türküstan, Gürcüstan, İstanbul, Trabuzan, Bayburd, Gəncə, Bərdə, Dərbənd, Kərbəla, Məkkə, Mədinə Ərafat, Sürməli, Tumanın qalası, Düzmürd qalası, Əlincə qalası və s. (4, 306).

“Dastan” milli, mənəvi sərvətimiz olmaqla yanaşı, Qafqazda qədimdən oğuz tayfalarının məskunlaşdığını fakt olaraq ortaya qoyan əvəzsiz tarixi mənbə kimi dəyərlidir. “Dastan”da daha çox işlənən toponimlərdən biri Ala dağdır. Şivələrimizdə deyimlərdə işlənməkdə davam edir: “Biri gedib oturub Ala dağda, biri Qara dağda”. Hər iki söz “iri, böyük” anlamını verir. “Dastan”da bu sözün işlənmə məqamlarına diqqət edək:

Yerindən uru durğıl!
Ala çadırın yer üzünə dikdirgil! (35)
Dürrtişərkən ala göndərin ufanmasun!(41)
Ala yüzlü, ala gözlü gəlinlər gedərsə, bənim gedər (40).
Ala sayvan göyüzinə aşanmışdı (52).

Altundağı alaca atun nə ögərsən?
Ala başlu keçimcə gəlməz mana (43).
Ala yılan sökəməz anun ormanı olur (106).
Canavərlər sərvəri qavan aslan qıran
Ala köpək itinə kəndözin taladarmı ? (110)

"Boylarda cərəyan edən hadisələrin hüduları olduqca genişdir. Müasir bölgüdə türklərin ana yurdu Sibirdən, Altaydan başlamış (qədim Türküstan Orta Asiyanı da içərisinə almaqla) bütövlükdə Qafqaz, Qara dəniz sahilləri və bugünkü Türkiyəni əhatə edir. Boylarda adı keçən toponimlər həm də tarixi qaynaqların, ictimai-siyasi formasiyaların daşıyıcısıdır. Yer adları müxtəlif zamanlarda hakim dövlət quruluşunun, onun başçılarının ad-san sahibi, yenilməz qəhrəmanların, sərkərdələrin adları ilə, mühüm coğrafi əlamətlərlə, tayfa-xalq adları ilə bağlıdır (4, 306). "Dastan"da cərəyan edən hadisələr coğrafi koordinatlar baxımından Azərbaycana uyğundur. İşlənən toponimik vahidlərlə o zamankı Azərbaycanın sərhədlərini müəyyən etmək mümkündür.

Bəllidir ki, onomastika xalqın tarixi haqqında məlumatı ötürən vacib faktlardandır. Dastan"dakı antroponamik vahidlər qədim türk onomastikasının təsvirini verir: Qorqud, Bayandur, Ulaş oğlu Salur Qazan, Uruz, Səlcuq oğlu Dəli Dondar, Qaragünə oğlu Qarabudaq, Aruz Qoca, Qazılıq Qoca, Bayburd, Bamsı Beyrək, Yeynək Duru, Qoca oğlu Sarı Qulmaş, Qaracıq Çoban, Qabangüc, Dəmirgüc, Əmən, Elin Qoca oğlu Alp, Ərən, Duxa Qoca oğlu Dəli Domrul, Basat, Uşun Qoca oğlu Qanturalı, Dirsə xan, Buğac, Qapıqqan, Qoğan Aslan, Qıyan Bəkil, Əgrəg və s. Bu adlar "Dastan"ın onomastik sisteminin VII-IX əsrlərdən əvvələ getməsindən xəbər verir.

Dilçilik araşdırmaları aparılarkən leksikologiya sahəsi xüsusilə diqqətdə olur. "Dastan"da leksik tərkib əsasən, türk leksik layıdır. Leksikanın əksəriyyət sözləri Azərbaycan türklərinin peşə-sənət növlərini, hərb sahəsini əks etdirən sözləri ifadə edir. Etnoqrafik leksika dövrün adət-ənənələrini, dini görüşlərini, mərasimlərini əhatə edir. Arif Rəhimoğlu "Kitabi-Dədə Qorqud" dastanlarında və M.Kaşğari "Divan"ında işlənmiş bəzi sözlər haqqında" məqaləsində yazır: "Dünya folklor xəzinəsinin nadir incilərindən biri olan "Kitabi-Dədə Qorqud" dastanları Azərbaycan dilinin tarixi leksikologiya məsələlərini araşdırmaqda böyük elmi əhəmiyyətə malikdir. Dastanların dilinin tədqiqi müasir Azərbaycan dilinin inkişaf prosesini izləmək üçün çox zəngin materiallar verir. İndiyədək dastanların dili üzərində bir sıra tədqiqatlar aparılmış, lakin çox təəssüflər ki, hələ də dastanların lüğəti hazırlanmamışdır. KDQ-də işlənmiş bütün sözləri ehtiva edəcək belə bir lüğətin yaradılması birinci növbədə oradakı sözlərin mənaca dəqiqləşdirilməsindən, etimoloji izahından və s. asılıdır. Bu yöndə müəyyən işlər görülsə də, hələ toxunulmamış məsələlər az deyil. Xüsusən, dastanlarda bir sıra ayrı-ayrı sözlər var ki, indiyədək mənası ya izah edilməmiş, ya da tam dəqiq aydınlaşdırılmamışdır.

Belə sözlərin izahında Mahmud Kaşğarinin "Divanü lüğat-it-Türk" əsəri (XI əsr) çox qiymətli bir qaynaqdır. Özünün dediyi kimi, Türk ellərini, obalarını, oymaqlarını qarış-qarış gəzərək eşitdiyi sözləri yazıya köçürtmüş M.Kaşğari "Dədə Qorqud"da işlədilən sözlərin böyük əksəriyyətini "Divan"da tam dəqiqliyi ilə izah etmişdir" (5, 173).

"Kitabi-Dədə Qorqud" Azərbaycan dilinin lüğət fondunun, qrammatik quruluşunun qədimliyini sübuta yetirə bilən dəyərli mənbədir. Burada vaxtilə türk dillərinin çoxu ilə ortaq olan ən qədim və müasir türk dillərində indi də norma səviyyəsində işlənən sözləri müşahidə edirik. Bu səbəbdən də türk dillərinin tarixini öyrənmək, dil tarixinin, tarixi leksikologiya, dialektologiyanın bir sıra problemlərini həllində qədim türk yazılı abidələrinin rolu əvəzsizdir. "Dastan"ın dilinin qədimliyini bildirən faktlardan biri də kök dillərə məxsus faktların mövcudluğudur: "*Əski pambuq bez olmaz, qarı düşmən dost olmaz"* cümləsində qrammatik vasitənin söz sırası olması aydın müşahidə edilir.

"Batı (Oğuz) Türklərinə aid KDQ-nin coğrafi baxımdan Azərbaycan və onun yaxın çevrəsi ilə, dil baxımından isə Azərbaycan Türkcəsi ilə daha çox bağlılığı bəlli məsələdir. Batı (Oğuz) Türkcəsində yazılan və təkrarları nəzərə almasaq, iki mindən artıq leksik vahid işlənən KDQ-dəki sözlərin çox böyük əksəriyyəti çağdaş Azərbaycan Türkcəsində eynilə, yaxud azacıq fono-morfoloji və ya semantik dəyişikliklə qorunmaqdadır. Təxminən üç yüzdən bir qədər artıq söz isə çağdaş Azərbaycan Türkcəsi üçün arxaikləşmişdir ki, onların da bir qismi tam unudulmuş, mühüm bir qismi isə dialekt və şivələrdə qalmışdır. KDQ-nin oxunuşunda və sözlərin dəqiq mənalarının verilməsində ən çox ağırlıq törədən məsələ məhz bu üç yüzdən bir qədər artıq leksik vahidlə bağlıdır. Digər yazılı abidələrin, özəlliklə, DLT-nin nəzərə alınmaması həmin sözlərlə bağlı müəyyən yanlışlıqlara yol açmaqdadır" (5).

"Dədə Qorqud"dan faydalanaraq türk dilinin sirlərini açmaq hər bir tədqiqatçının borcudur. Ulu Öndərimiz Heydər Əliyev söyləyirdi ki, biz təsadüfdən təsadüfə, ancaq yubileydən yubileyə yox, müntəzəm olaraq "Kitabi-Dədə Qorqud"u tədqiq etməli, öyrənməliyik. Qədim adət-ənənələrimizi, maddi və mənəvi mədəniyyətimizin tarixi köklərini, şeir və nəsr dili ənənələrimiziin tədqiqi üçün hələ uzun illər "Dədə Qorqud" dastanı üzərində araşdırmalar aparılacaqdır.

Ədəbiyyat

1. Cavadova R.T. "Kitabi-Dədə Qorqud" dastanı ədəbiyyatımızın qəhrəmanlıq debütü", "Dədə Qorqud dünyası", Elmi-nəzəri jurnal, Bakı, 2021, 168 s, 127
2. Əliyev H. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik yubileyində nitq, 9 aprel 2000
3. Xəlilli X. Türk mənəviyyatı tarixində "Oğuz xaqan" və "Kitabi-Dədə Qorqud dastanları. Bakı, "Elm və təhsil", 2015, 232 s.

4. “Kitabi- Dədə Qorqud” ensiklopediyası. II cild, Bakı, “Yeni nəşrlər” 2000, 567
5. Rəhimoğlu A. “Dilimiz və Tariximiz”. Məqalələr. Bakı, “Elm və təhsil”, 2022, 328 s.
6. Seyidov M. “Dədə Qorqud” boylarının mənşəyinə dair. “Azərbaycan” jurnalı, 1968, VI., 3

Xülasə

“Kitabi-Dədə Qorqud” azərbaycanlılar tərəfindən yazılan “Oğuznamə”dir. Əsərin milli müəyyənliyi, hadisələrin coğrafi koordinatları ilə bağlı məsələlər mübahisələri daha da kəskinləşdirmiş və bu mübahisələr heç zaman əsəri unudulmağa qoymamışdır. Bəllidir ki, onomastika xalqın tarixi haqqında məlumatı ötürən vacib faktlardandır. “Dastan”da müşahidə edilən antroponamik vahidlər qədim türk onomastikasının təsvirini verir.

“Dastan”da cərəyan edən hadisələr coğrafi koordinatlar baxımından Azərbaycana uyğundur. İşlənən toponimik vahidlərlə o zamankı Azərbaycanın sərhədlərini müəyyən etmək mümkündür.

“Dədə Qorqud”dan faydalanaraq türk dilinin sirlərini açmaq hər bir tədqiqatçının borcudur. Qədim adət-ənənələrimizi, maddi və mənəvi mədəniyyətimizin tarixi köklərini, şeir və nəsr dili ənənələrimizin tədqiqi üçün hələ uzun illər “Dədə Qorqud” dastanı üzərində araşdırmalar aparılacaqdır.

Alizadeh T.

Our unique language monument

Summary

"Kitabi-Dede Gorgud" is "Oguzname" written by Azerbaijanis. Issues related to the national identification of the work and the geographical coordinates of the events made the debates even more acute, and these debates never let the work be forgotten. It is clear that onomastics is one of the important facts that convey information about the history of the people. Anthroponomic units observed in "Dastan" give a description of ancient Turkish onomastics.

The events unfolding in "Dastan" correspond to Azerbaijan in terms of geographical coordinates. It is possible to determine the borders of Azerbaijan at that time with the toponymic units used.

Kurikulum, təhsil alanların öyrənmə səviyyələri və qabiliyyətinin müxtəlif miqyasını əhatə edən effektiv öyrənmə çətinliyini həll etmək üçün kəşf edilmişdir. Bu məqalənin məqsədi kurrikulumun məzmun xəttləri haqqında danışmaq və onun öyrənənlər və ümumilikdə cəmiyyət üçün mənalı və təsirli olmağı üçün necə effektiv şəkildə həyata keçirilə biləcəyini təsvir etməkdir.

İngilis dili bu gün çox vacibdir. Getdikcə daha çox insanın universitetlərdə və kolleclərdə oxumaq üçün ingilis dilinə ehtiyacı var, çünki indi bizim xaricdə ali təhsil almaq imkanımız var. Elmdə və tibbdə yeni ideyalar o qədər tez baş verir ki, hər şeyi müxtəlif dillərə tərcümə etmək mümkün deyil. Məqalələrin əksəriyyəti ingilis dilində dərc olunur. İngilis dili həyatın bir çox sahələrində beynəlxalq ünsiyyət dilidir: ticarət, hava və dəniz nəqliyyatı, turizm və idman. Dünyanın müxtəlif xalqları bir-biri ilə daha sıx iqtisadi, siyasi, elmi və mədəni əlaqələr qurur. Beynəlxalq əlaqələr elmi, texniki və mədəni informasiya mübadiləsi yolu ilə genişləndirilir və möhkəmlənir. Bu vəziyyətdə xarici dillərin tədrisi dövlət əhəmiyyətli məsələdir.

Tarixə nəzər salsaq , 20-ci əsrin ilk illərində kurrikulumun ənənəvi konsepsiyası tələbələrin öyrənməsi üçün müəllimlər tərəfindən hazırlanmış fənlər və ya mövzular məcmusundan ibarətdir. Bu, təhsil kursunun və tədris planının sinonimi idi. Con Franklin Bobbit 1918-ci ildə nəşr olunan ilk kitabın "Kurikulum" adlandırdı . Bobbitə görə kurikulum uşaqların cəmiyyətdə uğur əldə etmək üçün lazım olan əməllər və təcrübələrdir. Digər tərəfdən öyrənmə tələbənin yeni təcrübələri mövcud məna ilə əlaqələndirdiyi və yeni ideyaları uyğunlaşdıra və birləşdirə biləcəyi iş prosesi deməkdir.

Açar sözlər: kurikulum, beynəlxalq dil, effektiv öyrənmə, təbrübə, struktur .

Kurikulum tələbələrin öyrənmələrini asanlaşdırmaq və zənginləşdirmək məqsədi daşıyan bir proses və məhsul kimi müəyyən edilə bilər. Kurikulum tələbələrin öyrənmələrini asanlaşdırmaq və zənginləşdirmək məqsədi daşıyan bir proses və məhsul kimi müəyyən edilə bilər. Çünki müxtəlif cəmiyyətlərin kurrikulumun məzmununu müəyyən edən öz dəyər və inancları var.

Öyrənmə ardıcıllığı öyrənənlərin inkişaf prosesində irəliləyişini dəstəkləmək məqsədi ilə məlum olandan naməlum olana doğru irəliləməlidir. Effektiv kurikulum əhatə dairəsinin yaxşı kökləndiyinə və kurrikulumun bir proses vasitəsilə yoxlanılan

və çoxsaylı öyrənmə təcrübələrində öyrənənlərin marağını cəlb etmək və saxlamaq üçün qurulmuş nəzəriyyələr əsasında işlənib hazırlanmasını təmin edir.

Bir çox tədqiqatçının qeyd etdiyi kimi, dilin öyrədilməsi və öyrənilməsi çox mürəkkəbdir ki, hər hansı bir fərdi metod uzun müddət istifadə edilə bilməz. Tədris prosesləri haqqında məlumatlı olan, tələbə ehtiyaclarından xəbərdar olan, onlara həssas olan və təlim prosesinə rəhbərlik etmək və kömək etmək üçün müxtəlif tədris bacarıqlarından istifadə edən müəllim şagirdin uğuru üçün daha mühümdür.

Tədris təcrübələri effektiv öyrənmə üçün əsasdır. Kurrikulumun həyata keçirilməsi sinif və ya məktəb mühitində kurikulum üzrə mütəxəssis tərəfindən hazırlanmış plan və təkliflərdən istifadə etmək üçün görülən fəaliyyət deməkdir. Bütün resurslar, xüsusən də insan gücü resursları istifadə edilməlidir, çünki bütün işçilər təlim prosesinə töhfə verə bilərlər. Səmərəli şəkildə həyata keçirmək üçün vaxt çox önəmlidir.

Kurikulum çox vaxt təhsil sahəsində əsas narahatlıqlardan biridir.Pedaqoqlar və müəllimlər tədrisin məzmunu və metodları ilə bağlı hansı seçimlərin ediləcəyindən narahatdırlar. Valideynlər isə uşaqlarının nə öyrənəcəyini bilmək istəyirlər.

Məktəb kurikulumu müəllimlərə hər bir sinif səviyyəsində hansı bacarıqların öyrədilməsi lazım olduğuna dair təlimat verir ki, nəticədə uğurlu tələbələri ali təhsilə yüksəlməyə və ya sonra işə düzəlsinlər. Müəllimlər öyrənmə məqsədini öz kurikulumları ilə əlaqələndirirlər. Kurikulumsuz işləmək xəritəsiz təyyarədə uçmağa bənzəyir. Müəllimlər tələbələrin növbəti səviyyədə öyrənməni dəstəkləmək üçün möhkəm təməl qurub-yaratmadıqlarını bilməyəcəklər. Kurikulum gözlənilən təlim nəticəsinin aydın mənzərəsini verir və bu, müəllimə lazım olan resurs haqqında məlumat verir.

“Kurikulum” müəllimlərin nə öyrədəcəyi və öyrənənlərin nə öyrənəcəyi ilə əlaqəlidir. “Kurikulum” termini ilə bağlı müxtəlif təriflər verilir. Kurikulumun planlaşdırılması, həyata keçirilməsi, qiymətləndirilməsi və empirik tədqiqatlar kimi kurikulumla əlaqəli səylər idarəçilər, müəllimlər, tədqiqatçılar və qiymətləndiricilər tərəfindən həyata keçirilir.

İngilis dili ümumtəhsil kurikulumunda 3-12-ci siniflər üçün məcburi fəndir. Instrumental fənlərdən biri kimi ingilis dili təkcə tələbələrə ingilis dilində kommunikativ bacarıqlarını formalaşdırmağa və inkişaf etdirməyə imkan vermir, həm də daha səmərəli yaşamaq və işləmək, başqalarını öyrənmək üçün ümumi səlahiyyətlərin formalaşmasına və inkişafına kömək edir.

İngilis dili tələbələrə mühüm beynəlxalq ünsiyyət vasitəsi təqdim edir, onlara məlumat mübadiləsi, qabaqcıl elmi və texniki biliklər, mədəniyyətləri araşdırmaq, bununla da mədəniyyətlərarası anlaşmaya gətirib çıxarır.

Ümumi təhsil kurikulumunda icbari fənn kimi İngilis dili də bir çox başqa fənlərlə missal olaraq, Təbiət və Sosial Elmlər, Tarix və Coğrafiya, İncəsənət, Fizika kimi fənlərlə birbaşa əlaqəlidir.

Ümumi təhsil üzrə ingilis dili kurikulumunun əsas məqsədi tələbələrin formalaşmasına və inkişaf etdirilməsinə şərait yaratmaq və dinləmə, danışma, oxuma, yazma və linqvistik bilikləri məşq etməklə onların kommunikativ səriştələrini inkişaf etdirməkdən ibarətdir.

Kommunikativ səriştələr və linqvistik biliklər konkretlik əsasında qurulur. Kommunikativ səriştələrin vahidləri, tələbələrin ehtiyac və bacarıqlarına uyğun mövzularda və mövzularda onlara cavab vermək üçündür.

Ümumi təhsil üzrə İngilis dili kurikulumu ümumi təhsildə müəyyən edilmiş məqsədlər, tələblər,təhsil planları və təhsilin məzmunu, tədris metodologiyası, təlimin qiymətləndirilməsi və şərtləri üzrə təlimatlar kurrikulumun uğurla həyata keçirilməsi kimi müddəalara uyğundur. Ümumtəhsil ingilis dili kurikulumu kommunikativ səriştələrin olması baxımından qurulur . Tədris prosesinin hədəfləri linqvistik biliklər vasitəsilə kommunikativ bacarıqları formalaşdırmaq və inkişaf etdirmək vasitəsidir.

Kurikulum tarixi bir hadisədir. O, aydın məqsədlərə nail olmaq üçün qəsdən hazırlanmamışdır. Əksinə, o, təhsillə bağlı qərarların qəbul edilməsinin artan mürəkkəbliyinə cavab olaraq inkişaf etmişdir .Barrow və Milburn (1990) və Beauchamp (1977) qeyd edirlər ki, bəzi hallarda "kurikulum" termininin çox böyük məhdud kontekstlər, lakin digər hallarda çox genişdir.

Kurrikuluma konkret təhsil məqsəd və vəzifələrinə nail olmaq vasitəsi kimi baxmaq olar. Bu mənada bir kurikulum arzu olunan nəticələrin yoxlama siyahısı kimi qəbul edilə bilər. Kurrikulumun hazırlanması prosesində, ümumiyyətlə, desək məqsədləri davranış və müşahidə oluna bilən şərtlərdə aydın və konkretdir. Bu mənada diqqət məhsullara və ya sonlara yönəldilir və eyni zamanda müəllim yönümlü və ya inzibati yönümlüdür. Kurikulum müəllimlərlə məsləhətləşmədən siyasətçilər və çox az sayda müəllimlər tərəfindən müəyyən edilir.Müəllimlər öyrətməyə məcbur olduqları materiala görə hər hansı "sahiblik" hissi keçirirlər.

Kurikulumun məqsədləri

Ümumi təhsil üzrə ingilis dili kurikulumu tələbələrə insanlar haqqında, bəzi ingilisdilli ölkələrin və dünyanın digər ölkələrinin mədəniyyətlərinə qarşı yaxşı münasibət barəsində ümumi məlumat əldə etməyə imkan yaradır. Ümumi təhsil ingilis dili kurikulumu həmçinin tələbələrə məşğulluq üçün zəruri olan keyfiyyət və bacarıqları formalaşdırmağa və inkişaf etdirməyə imkan verir.

İbtidai təhsil üzrə ingilis dili kurikulumunu uğurla başa vurduqdan sonra tələbələr aşağıdakıları edə biləcəklər:

- Dinləmə, danışma, oxuma və yazma kimi dörd dil bacarıqları vasitəsilə sadə ingilis dilində ünsiyyət quracaqlar
- Tələffüz, lüğət və qrammatika daxil olmaqla ingilis dili haqqında əsas və minimum biliyə malik olacaqlar
-İngilis dili, İngilis dilli ölkələrin landşaftı, mədəniyyəti və xalqı haqqında əsas biliklərə yiyələnəcəklər

- İngilis dilinin öyrənilməsinə müsbət münasibət formalaşdırmaq; öz mədəniyyətləri ilə fəxr edir və onları qiymətləndirirlər

- Effektiv İngilis dili öyrənmə strategiyaları hazırlayın ki, bu da onların nəhayət başqalarını öyrənməyə keçmək qabiliyyətini dəstəkləyəcək

dillər.

-İngilis dilində kommunikativ bacarıqları inkişaf etdirmək üçün müxtəlif öyrənmə metodları və strategiyalarını formalaşdırmaq və tətbiq etmək, sinif daxilində və xaricində, öyrənmə vaxtını idarə edilməsi və öz-özünə öyrənmə vərdişlərini inkişaf etdirəcəklər.

Ümumi keyfiyyətlər və bacarıqlar baxımından,Ümumi təhsil üzrə ingilis dili kurikulumu əsas keyfiyyətlərin (vətənpərvərlik, şəfqət, çalışqanlıq, dürüstlük, məsuliyyət) və ümumi kompetensiyaların (muxtariyyət və öz-özünə öyrənmə,ünsiyyət və əməkdaşlıq, problemlərin həlli və yaradıcılıq) formalaşmasına və inkişafına kömək edir.

İngilis dili vasitəsilə tələbələr ingilis dilində danışan insanların mədəniyyəti haqqında əsas anlayışa sahib olacaqlar. Onlar ingilis dilinin öyrənilməsinə müsbət münasibət bəsləmək, qürur duymaq və öz mədəniyyətinə və dilinə qiymət vermək, sevgi, özünə hörmət, dostlara, ailəyə hörmət, o cümlədən keyfiyyətləri inkişaf etdirmək;

Bu gün pedaqoji prosesdə müəllimin rolu əhəmiyyətli dərəcədə dəyişir ki, bu da onunla bağlıdır ki, innovativ texnologiyaların inkişaf edir, yeganə bilik mənbəyi kimi inhisarını dəyişir. Buna baxmayaraq, funksional kontekstdə universitet tələbələri üçün xarici dil hazırlığının təşkili müəllimlərin bu və ya digər şəkildə prosesə töhfə verən müəyyən funksiyaları yerinə yetirməsini nəzərdə tutur.

Bu gün metodologiya elmi xarici dildə ünsiyyət üçün əlavə linqvistik şəraitə, öyrənənlərin intellektual səviyyəsinə və dünya haqqında biliklərinə maraq göstərir. Bu, müxtəlif dil birliklərindən olan şəxslərin nitq fəaliyyətinin normalarına uyğun gələn zəruri leksik və qrammatik strukturları həyata keçirən linqvistik şəxsiyyəti öz obyekti kimi seçən xarici dillərin müasir tədris metodlarının mədəni və intellektual yönümünü müəyyən edir.

Kurikulum şagirdin təcrübələrində çox mühüm rol oynayır. Bir fənni mənimsəmək və sertifikat qazanmaq üçün uğurla başa çatdırılmalı olan kursların və tapşırıqların ardıcıllığını təsvir edir. Tələbələr kurrikulumda müəyyən mövzuların niyə tədris olunduğunu başa düşsələr, öyrənməyə daha həvəsli ola bilərlər. Kurikulum tələbələrə və valideynlərə məqsədlərinə çatmaq və həmin təlim mərhələsi üçün arzu olunan bacarıqları əldə etmək üçün düzgün yolda olduqlarına zəmanət verir. Kurikulum strukturlaşdırılmış ardıcıllıqla öyrənənləri məlumdan naməluma doğru istiqamətləndirir, buna görə də verilən müddət ərzində öyrənmə səyahəti boyunca öyrənənlərin marağını qoruyur.

Şagirdlərin biliklərinin ümumi mədəni səviyyəsinin yüksəldilməsini nəzərə alaraq belə bir nəticəyə gəldik ki, xarici dilin tədrisi prosesi gəncin dilçi şəxsiyyət

kimi formalaşması çərçivəsində onun fərdi inkişafı prosesidir. Müasir tədqiqatçılar, dil şəxsiyyəti anlayışını həm mövzu, həm də prosessual aspektlərin öz əksini tapdığı daim inkişaf edən bir kateqoriya kimi hesab edirlər.

Deməli, əgər söhbət xarici dilin tədrisi prosesinin şəxsi inkişaf qabiliyyətlərindən gedirsə, deməli, şəxsiyyətin bütövlükdə həm mədəni (linqvistik) aspektləri, həm də ilk növbədə özünü göstərən intellektual (idrak) aspektlərinin inkişafı nəzərdə tutulur. Buna görə də, tələbələri mədəniyyətlərarası ünsiyyətin effektiv iştirakçısı olmağa qadir edən dil şəxsiyyətinin xüsusiyyətlərinin (dil qabiliyyətləri, bacarıqları, nitq hərəkətlərinə hazırlığı) inkişafı biliyin təşkili forması kimi tələbələrə xarici dilin öyrədilməsinin strateji məqsədidir.

Təlimin yekun nəticəsi təkcə tələbənin müvafiq xarici dil "texnikalarından" istifadə etmək bacarığını inkişaf etdirmək deyil, həm də tələbəni mədəniyyətlərarası ünsiyyətdə adekvat ünsiyyət və qarşılıqlı anlaşma üçün zəruri olan geniş dildənkənar informasiya ilə "təchizatlandırmaq" ehtiyacı ilə bağlıdır.

Tələbələrə xarici dilin onların biliklərinin təşkili forması kimi öyrədilməsi probleminin tədqiqi aşkar etdi ki, dillərin tədrisi başqa dil cəmiyyətinin nümayəndələrinin nüfuzu əsasında öyrənilən dilin ölkəsinin sosial-mədəni portretinin dərk edilməsi proseslərini stimullaşdırır. Eyni zamanda, xarici dilin öyrənilməsi bilikləri müstəqil axtarmaq bacarığının formalaşmasında, zehni fəaliyyətin alqoritmlərindən aktiv istifadə etməkdə, təxəyyül və intuisiyanın inkişafı diqqət və yaddaşın inkişafına kömək edir.

Beləliklə, müasir təhsil birbaşa tələbənin rəqabət qabiliyyəti ilə bağlıdır ki, bu da onun öyrənmək qabiliyyətindən, yəni müstəqil bilik əldə etmək və onunla işləmək bacarığından asılıdır. Aydındır ki, tələbələrin həyat boyu öz-özünə təhsil almağa hazır olması problemi ali təhsil müəssisələrində müstəqil təlim fəaliyyəti bacarıqlarının inkişafından asılıdır. Bununda əsasında kurikulumun dayandığı məlumdur. Ona görə də, İngilis dilinin tədrisində kurikulumdan istifadə etmək təhsil alanlar üçün faydalıdır.

Ədəbiyyat

1. G.Karakus 2015 "A Literary Review on Curriculum Implementation Problems"
2. English Language Curriculum of Azerbaijan Republic - Ministry of Education of Azerbaijan Republic 2012
3. Chaney, A.L., and T.L. Burk. 1998. Teaching Oral Communication in Grades K-8. Boston: Allyn&Bacon.
4. Bakhtina, O. V. (2007). Pedagogical conditions of development of intelligence of students in educational process of pedagogical high school. (Doctoral dissertation, Voronezh State University, Voronezh, Russia). Retrieved from https://www.dissercat.com/content/pedagogical-conditions-ofdevelopment
5. Harmer, J. 2013. The Practice of English Language Teaching. London: Longman.

6. İbadova B. Müasir dərs necə olmalıdır?, Kurikulum, №4, 2009.
7. Brown, J. D. (1995). The elements of language curriculum: A systematic approach to program development. Boston, MA: Heinle & Heinle Publishers.
8. Goodson, I. F. (1994). Studying curriculum. New York: Teachers College Press.
9. Hyles, B. S., Truatman, M. L., & Schelvan, R. L. (2004). The hidden curriculum: Practical solutions for understanding unstated rules in social situations. USA: Autism Asperger Publishing Co.
10. Aynur Rüstəmova, İlkin Həsənov, Nigar Babayeva "Kurikulm, Metodika,Pedaqogika 2021 "
11. Nunan, D. (1988). The learner-centered curriculum. Cambridge: Cambridge University Press.
12. Richards, J. C. (2001). Curriculum development in language teaching. Cambridge: Cambridge University Press.

Maharramova Aysel Habil

The role of curriculum programs in foreign language learning.

Summary

The curriculum is created to tackle the issue of effective learning that accommodates a wide range of skills and learning levels in students. This article's goal is to discuss curricular subject lines and explain how it may be applied effectively to benefit both students and society at large. Today, English is highly significant. Because we now have the option to study abroad, more and more individuals need English in order to enroll in universities and colleges. It is hard to translate all of the latest developments in science and health into multiple languages since they occur so fast. In English, the majority of the articles are published.For international communication in a number of situations, such as business, air and sea travel, tourism, and sports, English is the chosen language. The numerous peoples of the world establish closer economic, political, scientific, and cultural relations. International relations are advanced and improved by the interchange of information in the sectors of science, technology, and culture. İn this case, the instructing of outside dialects may be a matter of state significance. Historically, the conventional concept of educational modules within the early a long time of the 20th century comprised of a set of subjects or points created by instructors for understudies to memorize. It was synonymous with course of ponder and syllabus. John Franklin Bobbitt's to begin with book, distributed in 1918, was called Educational modules. Concurring to Bobbitt, educational programs is the activities and experiences children got to succeed in society. Learning, on the other hand, alludes to the method by which the learner relates unused encounters to existing meaning and can adjust and coordinated unused thoughts.

Key words: curriculum, international language, effective learning, practice, structure.

Maharramova Aysel Habil

Роль учебных программ в изучении иностранного языка.

Резюме

«курикулум» создана для решения проблемы эффективного обучения, учитывающего широкий спектр навыков и уровней обучения учащихся. Цель этой статьи — обсудить темы учебных программ и объяснить, как их можно эффективно применять на благо как учащихся, так и общества в целом.

Сегодня английский язык имеет большое значение. Поскольку теперь у нас есть возможность учиться за границей, все больше и больше людей нуждаются в английском языке для поступления в университеты и колледжи. Трудно перевести все последние достижения в области науки и здравоохранения на несколько языков, поскольку они происходят очень быстро. На английском языке публикуется большинство статей.

Для международного общения в ряде ситуаций, таких как бизнес, воздушные и морские путешествия, туризм и спорт, выбран английский язык. Между многочисленными народами мира устанавливаются более тесные экономические, политические, научные и культурные связи. Международные отношения развиваются и улучшаются благодаря обмену информацией в областях науки, техники и культуры.

В этом случае обучение иностранным диалектам может иметь государственное значение. Исторически традиционная концепция образовательных модулей в начале 20-го века состояла из набора предметов или пунктов, созданных преподавателями для запоминания дублерами. Это было синонимом курса размышлений и программы. Книга Джона Франклина Боббита, выпущенная в 1918 году, называлась «Образовательные модули». Соглашаясь с Боббиттом, образовательные программы — это деятельность и опыт, которые дети получают, чтобы добиться успеха в обществе. Обучение, с другой стороны, намекает на метод, с помощью которого учащийся связывает неиспользованные встречи с существующим значением и может корректировать и координировать неиспользованные мысли.

Ключевые слова: курикулум, международный язык, эффективное обучение, практика, структура .

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Dos. Zenfira Abbasova Çoban qızı tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYNOVA AYSU QƏNBƏR QIZI
Bakı Dövlət Universiteti
aysuhuseynova45@gmail.com

DİL UNİVERSALİLƏRİNİN NÖVLƏRI

Açar sözlər: mütləq, statik, diaxronik, sinxronik, sadə, implikasiyalı
Keywords: absolute, static, diachronic, synchronic, simple, implicational
Ключевые слова: абсолютный, статический, диахронический, синхронический, простой, импликационный.

Dil universaliləri dildə olan ümumiqanunauyğunluqlardır və onlar müxtəlif növlərə görə təsnif edilir. Bu növlərin hər birinin özünəməxsus xüsusiyyətləri vardır. Lakin ilk dəfə universaliləri tədqiq edən C.Qrinberq "Dil universaliləri haqqında memorandum" əsərində bu növlərdən geniş şəkildə bəhs edir. C.Qrinberq yazır: "Bütün dillərdə X hərfi şəklində olan məhdudiyyətsiz universalilər çox azdır və mövcud olanlar o qədər də maraqlı deyil" [8, s.819]. Deməli, C.Qrinberq məhdudiyyətsiz universalilərin mövcudluğunu qeyd edir və onların məhdud sayda olduğunu göstərir.

Universalilərin ən məşhur növləri mütləq və statik universalilərdir. V.A.Zvegintsev "Nəzəri və tətbiqi dilçilik" kitabında yazır: "Birinci kateqoriya istisnaları bilmir, ikincisi isə ayrı-ayrı istisna hallarını qəbul edir, lakin bu, onların dillərdə olmasının yüksək statistik ehtimalını pozmur. Mütləq universalilərə yalnız bütün dillərdə saitlərin olması ilə bağlı açıq ifadələr deyil, həm də bütün dillərdə ən azı 10 və ən çox 70 fonem olması kimi ədədi məhdudiyyətlər daxildir" [7, s.304]. Dilçi birinci kateqoriya dedikdə mütləq, yəni tam universaliləri nəzərdə tutaraq onların istisnaları olmadığını qeyd edir. İkinci kateqoriya da isə statik, yəni natamam universalilərdən danışılır.

M.Adilov yazır: " Mütləq universalilərdə istisna olmur. Statik universalilərdə tək-tək istisnalar özünü göstərsə də, bunlar müəyyən edilmiş əlaqələrin yüksək statistik ehtimallığını xələldar etmir. Tək-tək istisnalar olsa belə, onlar səciyyəvi hesab edilməyə bilər, bir sabit sistemin digərinə keçid prosesində meydana çıxan təsadüflər sayıla bilər. Yüksək statistik ehtimallığı olan əlaqələr isə, məsələn, ümumi kod kimi səciyyələndirilə bilər". [1, s. 340]

Statik universalilər yarımçıq və natamam universalilər adlandırılır. Afad Qurbanov qeyd edir: "Bu növ universalilərə yarımçıq və ya natamam universali də deyilir. Bunlar da əksər dillərə aid edilir. Lakin burada müəyyən müstəsnalığa yol verilir. Deyək ki, bütün dillərdə sait fonemlər vardır. Bəs bunların miqdarı? Müxtəlif sistemli bir neçə dili nəzərdən keçirmək lazımdır" [2, s.312] .

Universalilərin digər növü diaxronik və sinxronik universalilərdir. Məlumdur ki, diaxroniya və sinxroniya anlayışları dilçiliyə F.de.Sössür tərəfindən

gətirilmişdir. Ə.Rəcəbli “Struktur dilçilik” kitabında yazır: “Sinxronik dilçilik dili indiki zamanda olduğu kimi təsvir edir, onun keçmiş fazalarını nəzərə almır. Diaxronik dilçilik dili zaman kəsiyində, yəni bir və ya bir neçə dövr boyu inkişafda öyrənir”[3, s..119].

C.Qrinberq diaxronik və sinxronik universalilərin fərqli cəhətlərini qeyd edir və nümunələrlə hər iki növün izahını göstərir. M.Adilov yazır: “Bu universalilərə məşhur "Memorandum"da belə tərif verilir ki, sinxronik universali bu cür ifadə kimi səciyyələndirilməlidir. "Bütün və ya mütləq çoxluq təşkil edən X-lərdə, X-dil (sinxronik vəziyyətdə) hesab olunduqda, belə bir vəziyyət özünü göstərir ki...". Diaxronik universali isə belə bir ifadə kimi səciyyələndirilməlidir: "Bütün və ya mütləq çoxluq təşkil edən X və U-lərdə, X-daha qədim, U-daha sonrakı dil hesab olunduqda, belə bir vəziyyət özünü göstərir ki..” şəklində yanaşılır”. [1, s. 341]. Beləliklə, diaxronik universalilərdə iki dilin müqayisəsi əsas götürülür. Yəni qədim vəziyyətlə indiki vəziyyət müqayisə olunaraq universali aşkarlanır.

R.Yakobson da bu növlər haqqında maraqlı yanaşmalarla çıxış edir. Sinxronik universalilər haqqında dilçinin fikirləri V.A.Zvegintsevin “Nəzəri və tətbiqi dilçilik” kitabında qeyd olunur: “R. Yakobson onlara, məsələn, diferensial xüsusiyyətlərinə görə müxalifətləri aid edir: sait-saitsiz, samit-samitsiz, yığcam-diffuz və.s. Az öyrənilmiş diaxronik universallar arasında səssiz samitin vokal mövqedə səsləndirilməsi daxildir” [7, s.303]

Universalilər, həmçinin sadə və mürəkkəb adlı növlərə bölünür. B.A.Uspenski qeyd edir. “Sadə universalilər hər hansı bir fenomenin və ya hadisələrin müəyyən əlaqəsinin hər bir dildə mövcudluğu və ya olmamasının hadisəsidir. Eyni zamanda, mürəkkəb universallar müxtəlif dillərin hadisələri arasında müəyyən bir asılılığı təsdiqləyir” [6, s. 181]

A.Qurbanov sadə və mürəkkəb universalilərə fərqli formada yanaşır. Dilçi “Ümumi dilçilik” kitabında yazır: “Sinxronik xarakterli universalilər sadə universali adlanır. Dilçilik elmində indiyə kimi kəşf olunmuş universalilərin müəyyən hissəsini sadə universalilər təşkil edir. Diaxronik səciyyəli universalilər mürəkkəb universali adlanır” [2, s.312].

Deməli, dilçi sadə universaliləri sinxronik hesab edir. Lakin bu fikirlə Ə.Rəcəbli razılaşmır və bu növlərin eyniləşdirilməsinin doğru olmadığını qeyd edir. Hər bir növün ayrıca tərifini verən Ə.Rəcəbli yazır: “Əgər sadə və sinxronik, mürəkkəb və diaxronik universalilər mahiyyətcə eynilik, identiklik təşkil edirsə, onları fərqləndirmək nəyə lazımdır və onlar necə universalilərin ayrı- ayrı şəkilləri ola bilər?” [4, s. 81]

Bizcə də bu universaliləri eyniləşdirmək doğru olmaz. Hər bir növün özünəməxsus xüsusiyyətləri göstərilir. Mürəkkəb universalilərdə iki dil arasında asılılıq müşahidə olunur. Asılılıq universalilərin digər növlərində də nəzərə çarpır. Sadə və mürəkkəb növlərdən başqa dilçilikdə universalilərin sadə və implikasiyalı adlı təsnifi də maraqlıdır.

B.A.Uspenski yazır: "İmplikativ universallar və ya universal təsirlər sadə ola bilər. Yəni "Əgər dildə A varsa, B da var". Universal təsirlər, öz növbəsində, qarşılıqlı, yəni A varsa, B var və A yalnız və yalnız B olduqda mövcuddur. Qarşılıqlı ümumbəşəri təsirlər bu hadisələrin qarşılıqlı şərtlənməsini və ya onların bir-birini istisna etdiyini göstərə bilər, yəni "A yalnız və yalnız B olmadıqda mövcuddur" şəklində ola bilər. [6, s.180]

Deməli, implikasiyalı universalilər sadə və qarşılıqlı olur. Əgər dildə C varsa, Ç da mövcuddur. Bu cür implikasiyalı universali sadə aldandırılır. Əgər dildə C varsa, Ç da var və Ç mövcud deyilsə, deməli, C da yoxdur. Bu qarşılıqlı implikasiyalı universali olacaqdır. Qeyd edək ki, burada C və Ç dil kimi düşünülərək göstərilir. İmplikasiyalı universaliləri izah etmək üçün dilçilər bu şəkildə nümunələrdən istifadə edirlər.

R.Yakobson bu universalilər haqqında yazır: "Universalilər dilin iki fərqli əlaqə xüsusiyyəti arasında məcburi əlaqəni təyin edən implikativ qaydalardan ibarətdir. Beləliklə, fonemikada xeyli sayda universal implikasiya qaydaları müəyyən edilir. Məsələn, nazallığın səs xüsusiyyəti ilə üst-üstə düşməsi onun konsonant xüsusiyyəti ilə üst-üstə düşməsini nəzərdə tutur. Yığcam burun samiti (p və ya r) biri kəskin (n) və digəri ağır (m) olmaqla iki diffuz samitin mövcudluğunu nəzərdə tutur" [10, s.265].

Dilçilikdə universalilərin digər bölgüsü deduktiv və induktiv adlandırlır. Rus dilçiləri bu universalilər haqqında geniş tədqiqat aparmışdırlar. B.A.Uspenskinin deduktiv və induktiv universalilərə yanaşması belədir: "Deduktiv universalilərdə verilmiş ifadənin və ya münasibətin universallığı bəzi aprior faktlardan, yəni əlaqəli vahidlərin tərifindən və ya dil haqqında ilkin fərziyyələrdən aydın görünür. Əks halda, universali induktivdir" [6, s.179]

Beləliklə, deduktiv dedikdə tərifl ər, fərziyyələr əsas götürülür. Lakin induktiv universalilər fərqli şəkildə özünü göstərir. Bu universalilər emprik də adlandırırlar.

İnduktiv universalilər haqqında B.A.Uspenski yazır: "Aydındır ki, mütləq xarakter daşıyan induktiv qanunauyğunluqlar, yəni həmişə baş verən, lakin universallığı heç bir şeydən irəli gəlməyən hadisələr müvafiq hadisələrin mahiyyəti haqqında biliklərimizi dərinləşdirir. [5, s.19]. Lakin dilçi bu universaliləri fərziyyə adlandırır. İnduktiv universalilər yaranarkən məhdud sayda dil nəzərdən keçirilir. B.A.Uspenski yazır: "Qeyd etmək lazımdır ki, bu cür qanunauyğunluqlar mahiyyət etibarilə həmişə fərziyyə xarakteri daşıyır, çünki onlar qurulan zaman istər-istəməz məhdud sayda dillərin nəzərdən keçirilməsindən irəli gəlir və ziddiyyətli hal həmişə potensial olaraq mümkündür" [5, s.19].

Digər bir bölgü isə ekstralinqvistik və düzgün linqvistik universalilər hesab edilir. M.Adilov yazır: "Ç.Hokket təbii dilləri heyvanların kommunikasiya sistemləri ilə qarşılaşdırmaqla universali qanunauyğunluqlarını müəyyənləşdirir. O, insan dilini heyvanların kommunikasiya sistemləri ilə müqayisə edərək 16 universal əlamət

müəyyən edir ki, bunların hər biri hər hansı dildə (deməli, bütün dillərdə) özünü göstərir, lakin heyvanların kommunikasiya sistemlərinin heç olmasa, birində özünü göstərmir" [1, s..343].

Ç.Hokketin bu növ haqqında araşdırmaları maraqlıdır. Dilçi ekstralinqvistik universaliləri izah edərkən insan dili ilə heyvanların kommunikasiyasının müqayisəsini aparır.

Ekstralinqvistik universalilərdən bəhs edən B.A.Uspenski yazır: "Ekstralinqvistik universalilər dillərin qeyri-dillərlə müqayisəsi əsasında irəli sürülür və müvafiq olaraq həm bütün dilləri, həm də onlarla müqayisədə qeyri-dil sistemini təsvir etmək üçün lazım olan terminlərlə tərtib edilir" [6, s.181].

Düzgün linqvistik universalilər isə yalnız dillər arasında özünü göstərir və bu növ ekstralinqvistik universalilərdən fərqli olaraq qeyri-dillərlə əlaqəli olmur.

M. Adilov yazır: "Bilavasitə dilləri bir-biri ilə qarşılaşdırmaq əsasında, yəni yalnız linqvistik terminlər üzrə (müəyyən A dili hər hansı bir B dili ilə müqayisə üçün zəruri və kifayətləndirici olan terminlər üzrə) dil universaliləri müəyyənləşdirmək mümkündür. Məhz bu halda əsl mənada dilçilik tipologiyasından bəhs açmaq olar [1, s. 343].

Rus dilçilərindən B.A.Uspenski dügün linqvistik universaliləri bu cür izah edir: "Düzgün linqvistik universallar dillərin bir-biri ilə birbaşa müqayisəsi və forması əsasında müəyyən edilir" [6, s.181]

M.Adilov dil və nitq adlı universalilər bölgüsü də göstərir. Nitq universalilərini dilçi xüsusi qeyd edərək yazır: "Prinsipcə hər bir dildə pozulma təmayülü ola bilər, bu pozulma da bütün dillərə xas olduğundan universali səciyyəsi kəsb edə bilər. Deməli, bu halda dil universalilərinə qarşı qoyulan nitq universalilərindən bəhs oluna bilər. Demək lazımdır ki, müəyyən qanunauyğunluq bütünlükdə dilə məxsusdursa, deməli, o, canlı nitqdə də, yəni həmin dilin realizə olunduğu bütün hallarda da təzahür edir" [1, s.342].

Deməli, dil universaliləri sinxronik, nitq universaliləri ilə diaxronik növə əsaslanır.

Ə.Rəcəbli miqdari və qeyri-miqdari adlı universalilərdən danışır. Bu növü B.A.Uspenski də qeyd edir. Kəmiyyət və qeyri-kəmiyyət universalilərini izah edərkən dilçi yazır: "Kəmiyyət universallarına müəyyən bir kəmiyyət nümunəsini irəli sürən universallar deyilir, məsələn bütün dillərdə fonemlərin sayı 81-dən çox deyil. Bütün digər universallar qeyri-kəmiyyət adlanır"[6, s.181].

Beləliklə, dil universaliləri qeyd olunan növlərə bölünür və hər bir növün özünəməxsus xüsusiyyətləri vardır. Eyni zamanda bu növlərin əksəriyyəti qarşılıqlı əlaqədə öyrənilir.

Ədəbiyyat

1. Adilov M., Ağayeva F., Verdiyeva Z. Dilçilik problemləri. Bakı: Elm, 2019, s.404.
2. Qurbanov A. Ümumi Dilçilik. II c., Bakı: Elm,2011, s.532.
3. Rəcəbli Ə. Struktur Dilçilik. Bakı: Nurlan, 2004, s.530.
4. Rəcəbli Ə. Universalilər dilçiliyi. Bakı: Elm və təhsil, 2011, s.272.
5. Успенский Б.А. Новое в лингвистике, Москва: Издательство «Прогресс», 1970, с.301.
6. Успенский Б.А. Структурная типология языков, Москва: Издательство «Наука», 1965, с. 287.
7. Звегинцев В. А. Теоретическая и прикладная лингвистика. М., «Просвещение», 1967. 338 с.
8. https://www.jstor.org/stable/3086849
9. https://www.acsu.buffalo.edu/~jcgood/jcgood-Introduction.pdf
10. https://www.fulcrum.org/concern/monographs/8p58pd316?locale=en

HÜSEYNOVA AYSU

XÜLASƏ
BU MƏQALƏDƏ DIL UNIVERSALILƏRININ NÖVLƏRINDƏN BƏHS OLUNUR

Bu məqalədə dil universalilərin növlərindən və onların xüsusiyyətlərindən bəhs olunur. Dil universalilərin mütləq və statik, sinxronik və diaxronik adlı növləri haqqında geniş məlumat verilir. Bu növlərin bir-biri ilə qarşılıqlı əlaqəsi, oxşar və fərqli cəhətləri qeyd olunur.

Eyni zamanda universalilərin əsas tədqiqatçısı olan C.Qrinberqin "Dil universaliləri haqqında memorandum" əsərində qeyd olunan növlər haqqında danışılır. Sadə və mürəkkəb, sadə və implikasiyalı, ekstralinqvistik və düzgün linqvistik, kəmiyyət və qeyri-kəmiyyət adlı növlərdən də danışılır. Məqalənin yazılmasının əsas məqsədi universalilərin növlərini izah etməklə bu dil hadisəsinin mahiyyəti haqqında daha aydın təsəvvür yaratmaqdır.

Huseynova Aysu

SUMMARY
THESE ARTICLES DISCUSS THE TYPES OF LANGUAGE UNIVERSALS.

This article discusses the types of language universals and their properties. There is extensive information about the absolute and static, synchronic and diachronic types of language universals. The interaction of these species with each other, similarities and differences are noted.

At the same time, J. Greenberg, who is the main researcher of universals, talks about the types mentioned in the work "Memorandum on Language Universals".

The types called simple and complex, simple and implicative, extralinguistic and properly linguistic, quantitative and non-quantitative are also discussed. The main purpose of writing the article is to create a clearer picture of the essence of this language phenomenon by explaining the types of universals.

Гусейнова Айсу

РЕЗЮМЕ
В ДАННОЙ СТАТЬЕ РАССМАТРИВАЮТСЯ ВИДЫ ЯЗЫКОВЫХ УНИВЕРСАЛИЙ

В данной статье рассматриваются виды языковых универсалий и их свойства. Имеются обширные сведения об абсолютных и статических, синхронических и диахронических типах языковых универсалий.

Отмечается взаимодействие этих видов между собой, сходства и различия. В то же время Дж. Гринберг, являющийся основным исследователем универсалий, говорит о типах, упомянутых в работе «Меморандум о языковых универсалиях». Обсуждаются также типы, называемые простыми и сложными, простыми и импликативными, экстралингвистическими и собственно лингвистическими, количественными и неколичественными. О. Основной целью написания статьи является создание более четкого представления о сущности данного языкового явления путем объяснения типов универсалий.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: dos. Cavanşir Muradov
tərəfindən çapa tövsiyə olunmuşdur

MAHMUDAĞA SARIBALA OĞLU QASIMOV
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Cəlilabad filialının baş müəllimi
E-mail: mahmudağa@mail.ru

CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ SAİT SƏS ARTIMI

Açar sözlər: dialekt, şivə, ləhcə, dilçilik, orfoepik, dealektologiya, tədqiqat, sait, samit, səsartımı, səsdüşümü.

Ключевые слова: диалект, акцэнт, говор, языкознание, орфоэпика, дилектология, исследование, гласный, согласный, саундтрэк, согланый звук.

Key words: dialect, accent, dialect, linguistics, orthoepic, dealictology, reseach, vowels, consonant, sound increase, sound drop.

XÜLASƏ

Azərbaycanın müxtəlif ərazilərində yerləşən yaşayış məntəqələrində sözlərin tələffüzündə fərqli danışıq xüsusiyyətlərinə rast gəlinir. Dialekt və şivələrimizdə təzahür edən belə hadisələr ümumiləşmiş halda **fonetik hadisələr** adlanır. (2, 99) Buna baxmayaraq, biz yazı prosesində ədəbi dil normalarına əməl etməli, "Azərbaycan dilinin orfoqrafiya lüğəti"nin tələblərini əsas tutmalıyıq. Çünki lüğətimiz sözlərin düzgün yazılışını özündə ehtiva edən, hər bir vətəndaşın istinad və istifadə edə biləcəyi bir mənbədir.(1, 6) Bu mənada yaşadığım Cəlilabad rayonu ərazisindəki şivələrdə fərqli tələffüz xüsusiyyətləri özünü göstərir. Buna səbəb rayon ərazisinə müxtəlif yerlərdən daimi yaşamağa gəlmiş şəxslərin danışığındakı tələffüz fərqləridir.(3, 70) Odur ki, **Cəlilabad rayon şivələrində** tədqiq etdiyimiz sözlərdəki sait səs artımının müxtəlif formalarını görmək olur. Bu hala sözün əvvəlində və ortasında çox, axırında isə az təsadüf edilir. Söz əvvəlində saitlərin artımı əsasən alınma sözlərə aid olub, iki vəziyyətdə **st, sk, sp, şp, şt, şk** və **r,** bəzən də **l** səslərindən əvvəl özünü göstərir. (5, 64)

Söz əvvəlində saitlərin artımı (proteza)

1. İ səsinin söz əvvəlinə artımı özünü şivəmizdə **s, r**, **ş** hərfləri ilə başlayan bəzi sözlərin əvvəlində göstərir. Odur ki, onları ayrı-ayrılıqda aşağıdakı formada verməyi məqsədəmüvafiq bilirik.

a) **s samiti ilə başlayan bəzi sözlərdə i səsinin söz əvvəlinə artımı**: spirt-ispirt, spiral-ispiral, stəkan-istəkan//iskan, studiya-istudiya, staj-istaj, stasionar-istasionar, start-istart, standart-istandart, stabil-istabil, stansiya-istansiya, starşina-istarşina, stress-istress, stol-istol, stul- istul, skamya-iskamya və s.

b) **ş samiti ilə başlayan bəzi sözlərdə i səsinin söz əvvəlinə artımı :** şpal-işpal, şpaler-işpaler, şpris-işpiris, ştab-ištab, ştamp-ištamp, ştanq-ištanq, ştat-ištat, şkaf-işkaf, şpion-işpiyon, ştrix-ištirix və s.

c) **r samiti ilə başlayan bəzi sözlərdə i səsinin söz əvvəlinə artımı :** reyhan-ireyhan, rəng-irəng//irəy, rast-irast, Rza-İrza, Rzalı-İrzalı, Rəna-İrəna, rəğbət-irəğbət, rəğbətli-irəğbətli, rəftar-irəftar//irəfdar, razı –irazı, Ramiz-İramiz, Rəhim-İrəhim, Rəşid-İrəşid, Rəc-İrəc, Rəhmət-İrəhmət, Rəcəb-İrəcəb, rəf-irəf, rəd-irəd (iz mənasında), rəy-irəy, rəyçi-irəyçi, rezin-irezin, radio-iradio//iradiyo, rahat-irahat, rahatçılıq-irahatçılığ, Rahib-İrahib, Rəfiqə-İrəfiqə, rəis-irəyis, Rəsul-İrəsul, rəva-irəva, Rizvan-İrizvan, reyka-ireyka, Ramazan-İramazan, rişğənd-irişğənd, Rəşxəndə-İrəşxəndə, Rəstə-İrəstə, rəndə-irəndə, rəsm-irəsm, rəhbər-irəhbər, rayon-irayon, raykom-irəykom, roza-iroza (dini söhbət), Rəmiş-İrəmiş, Rəfi-İrəfi, Rəzdə-İrəzdə, rabitə-irabitə, radiator-iradiator, radist-iradist, rasional-irasional, rasta-irasta, rels-irels, repçi-irepçi və s. (4, 25)

2. U, ü və **o səsinin sözün əvvəlinə artımı**: rus-urus//orus, rusu-orusu, rusca-orusca, ruslaşma-oruslaşma, ruslaşmaq-oruslaşmaq//orusdaşmağ, rusvay-urusvay//ürüsvay, rusvayçı-urusvayçı//ürüsvayçı, rüsxət-ürüsxət, rüşvət-ürüşvət, rüşvətçi- ürüşvətçi, rüşvətxor-ürüşvətxor, rüşvətverən-ürüşvətverən, Ruğiyə-Urğiyə// Orğiyə// Ürğiyə, Ruşan–Urşan//Ürşən//Orşan, Rufulla-Orfulla//Urfulla, Rubaba-Urbaba//Orbaba, şturman-uşturman, stul-ustul, stullu-ustullu və s. (4, 25)

Söz ortasında saitlərin artımı (epenteza)

Şivəmizdə çox vaxt alınma sözlərdə iki samit arasında sait artımı özünü göstərir.Bu hadisə kar və ya cingiltili samitlərlə **sonor samitlər** arasında olur. Söz ortasında saitlərin artımı əsasən **qapalı**, qismən də **açıq saitlərlə** bağlıdır.

1. İ səsinin söz ortasına artımı: hərf-hərif, şərf-şərif, əmr-əmir, fəhm-fəhim, qəsr-qəsir, qeyb-qeyib, qeyd-qeyid, qətl-qətil, kanistr-kanistir, padşah-padişah, psix-pisix, ritm-ritim, rüşeym-rüşeyim, qrip-qirip, qrim-qirim, aktrisa-aktirisa, sentyabr-sentiyabır, əmredən-əmiredən, əmretmə-əmiretmə, qəbz-qəbiz, oktyabr-oktiyabır//oxtiyabır, irihəcmli-irihəcimli, irikalibrli-irikalibirli, rəhm-rəhim, rəhmdil-rəhimdil, rəhmli-rəhimli, nəbz-nəbiz, elm-elim, metr-metir, rəsm-rəsim, mətn-mətin, səhm-səhim, səhmdar-səhimdar, zəhm-zəhim, zəhmli-zəhimli, sehr-sehir, sehrkar-sehirkar, sehrbaz-sehirbaz sehrli-sehirli, litr-litir//letir, briqadir-biriqadir//birqadir, seyr-seyir, sədheyf-sədheyif, sədrlik-sədirlik, sxem-sixem, sədr-sədir,silindr-silindir, surpriz- surpiriz, əcr-əcir, əcrli-əcirli, karyer-kariyer, ksel-kisel, ksero-kisero, Knyaz-Kinyaz, kanistr-kanistir, klip-kilip, klipçəkən-kilipçəkən, elmli-elimli, kuryer-kuriyer, ədl-ədil, brifinq-birifinq, intriqa-intiriqa, intriqabaz-intiriqabaz, intriqaçı-intiriqaçı, inspektor-inispektor, institut-inistitut//instut, aktyor-aktiyor, suflyor-sufliyor//suflior və s. (4, 26)

2. Ü səsinin söz ortasına artımı: ötrü-ötürü, hökm-höküm, hökmran-hökümran, hökmdar-hökümdar, hökmlü-hökümlü, zülm-zülüm, zülmkar-zülümkar,

zülmetmə-zülümetmə, zülmvermə-zülümvermə, zülmlə-zülümlə, zülmsüz-zülümsüz, zümrüd-zümürüd//zümrüt, Gülsüm-Gülüsüm, küfr-küfür, üzvlük-üzvülük//üzvülüy, üzvlükhaqqı-üzvülüyhaqqı, üzr-üzür, üzrxah-üzürxah, üzrlü-üzürlü, üzrsüz-üzürsüz, küslü-küsülü, qütb-qütüb, mücrü-mücürü//mücri və s. (4, 26)

3. I səsinin söz ortasına artımı: plan-pılan, qram-qıram, qrov-qırov, dram-dıram, kran-kıran, krem-kırem, kvota-kıvota, ekstra-ekstıra, infrasəs-infırasəs, infraqırmızı-infıraqırmızı, infrastruktur-infırastruktur, plaş-pılaş, plantaj-pılantaj, plakat-pılakat, altmış-altımış, teatr-teatır//tiyatır, traktor-tıraxdor//tıraxdır, plov-pılov//pılo, şıdırğı-şıdırığı, şlanq-şılanq, sentyabr-sentiyabır, oktyabr-oktiyabır, noyabr-noyabır, dekabr-dekabır, sxem-sıxem, sxematik-sıxematik, abstrakt-abıstırakt, kadr-kadır, jmıx-jımıx və s. (4, 27)

4. U səsinin söz ortasına artımı: klub-kulub//qulub, yumru-yumuru, ultra-ultura, ultrasəs-ulturasəs, ultrabənövşəyi-ulturabənöşəyi, ultrageyim-ulturageyim, ultrasəsli-ulturasəsli, yumruq-yumuruğ, yumşaq-yumuşağ, buyruq-buyuruq// buyuruğ, buynuz-buyunuz, buynuzlu-buyunuzlu, qrunt-qurunt, qrup-qurup, qruntlu-quruntlu//quruntdu, qruplaşma-quruplaşma, marşrut-marşurut, qüsl-qusul və s. (4, 27)

Söz sonunda saitlərin artımı

Cəlilabad şivələrində söz sonunda saitlərin artımı da mövcuddur. Bu hadisəyə **sonor** (burun samitləri) **səslərdən sonra** az hallarda təsadüf edilir.

Lakin bu hadisəyə sonor səslərdən sonar az hallarda olsa da təsadüf edilir.

Məsələn: bekar-bekara, həm-həmi, cəm-cəmi, qom-qoma, metr-metrə, qanqren-qanqrena, teleqram-teleqrama//teleqramma, hədər-hədərə və s. (4, 27)

Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada Cəlilabad rayonunun müxtəlif yaşayış ərazisindəki mövcud şivə və ləhcələrdə işlənən bəzi sözlərdə sait səs artımının nümunələr əsasında toplanılıb ilk dəfə oxucu kütləsinin ixtiyarına verilməsidir.

Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycanın dialekt və şivələrinin öyrənilməsində bu növ araşdırma işlərindən müəllim, tələbə və tədqiqatçıların səmərəli şəkildə istifadə etməsinə lazımi istiqamət verilməsi və müxtəlif dialekt və şivələrdə işlənən sözlərin bir-birilə müqaysə edilməsinə elmi baxımdan təsir göstərməsidir.

Məqalənin aktuallığı ondan ibarətdir ki, o, öz tədqiqi, məna çalarlığı və bədii dəyəri ilə dilçiliyimizə, onun orfoepiyasının zənginliyinin üzə çıxarılmasına elmi cəhətdən yeni töhfələr verməsidir.

İstifadə olunan ədəbiyyat

1. Azərbaycan dilinin orfoqrafiya lüğəti, 6-cı nəşr, Bakı:"Şərq-Qərb", 2013, 839 səh.

2. Dəmirçizadə Ə. Müasir Azərbaycan dili, I hissə, Bakı: "Şərq-Qərb", 2007, 253 səh.

3. Qasımov M. Filologiya məsələləri. Cəlilabad rayonu şivələrində sait əvəzlənmələri, Bakı: “Elm və təhsil” 2022, N:6, 70-77 səh.

4. Qasımov M. Cəlilabad rayonunun bəzi şivə xüsusiyyətləri, Bakı: “Elm və təhsil”, 2021, 115 səh.

5. Şirəliyev M. Azərbaycan dialektologiyasının əsasları, Bakı: “ Şərq Qərb”, 2008, 416 səh.

Xülasə

Cəlilabad rayon şivələrində bəzi sözlərdə sait səs artımı

Məqalədə hər bir dialekt və şivənin özünəməxsus spesifik cəhətləri, orfoepik formaları olduğu göstərilir. Odur ki, bu məsələlər daim tədqiqatçıların, xüsusən dilçi alimlərin diqqətini özünə cəlb edir. Onların öyrənilib tədqiq edilməsinə və şərhinə qayğı göstərilir. Araşdırma nəticəsində dil sahəsində yeniliklər əldə edilir. Bu mənada yaşadığım Cəlilabad rayonu ərazisindəki bəzi toponimik adlarda , yaşayış oykonimlərində və danışıq zamanı şivə və ləhcələrdə mövcud olan bir sıra fonetik, leksik, morfoloji və sintaktik xüsusiyyətlər özünü göstərir. Onların öyrənilib şərh edilməsi dilçilik baxımından çox vacibdir. Bu kimi faktları nəzərə alaraq onları ayrı-ayrılıqda dilmizin qrammatik quruluşuna uyğun olaraq nümunələr əsasında verməyi zəruri hesab edirik. Rayonun bəzi şivə və ləhcələrində söz əvvəlində saitlərin artımı (**proteza**), söz ortasında saitlərin artımı (**epenteza**), söz sonunda saitlərin artımı, saitlərin düşümü (**eleziya**), heca düşümü (**qaplologiya**) və s. mövcuddur. Eləcə də bəzi sözlərdə samitlərin artımı və düşümü, onların işlənmə məqamları da maraqlıdır. Bunları elmi baxımdan öyrənib Azərbaycan dilçiliyinə, onun dialektologiyasının tələblərinə uyğun olaraq vermək çox vacibdir. Odur ki, bu məsələləri ayrı-ayrılıqda öyrənməyi qarşıya məqsəd qoymuşuq. Bu baxımdan rayon ərazisindəki şivə və ləhcələrdə müəyyən etdiyimiz bəzi söz və ifadələrdəki sait səs artımını aşağıdakı kimi verməyi məqsədəuyğun sayırıq.

М.Гасымов

Резюме

Увеличение гласных в некоторых словах в говорах Джалилабадского района

В статье показано, что каждый диалект и говор имеет свои специфические черты и орфоэпические формы. Поэтому эти вопросы постоянно привлекают внимание исследователей, особенно лингвистов. Особое внимание уделяется их изучению и интерпретации. В результате исследований получаются инновации в области языка. В этом смысле проявляется ряд фонетических, лексических, морфологических и синтаксических особенностей, присутствующих в некоторых топонимических названиях, жилых ойконимах, диалектах и говорах района Джалилабадского района, где я живу. Их изучение и интерпретация очень важны с точки зрения языкознания. Учитывая такие факты, считаем необходимым привести их отдельно на примерах согласно грамматическому строю нашего языка. В некоторых говорах и говорах региона

повышены гласные в начале слова (**протезис**), повышены гласные в середине слова (**эпентезис**), повышены гласные в конце слова, опущены гласные (**elesia**), выпадение слогов (**гаплология**) и др. доступен. Также интересен подъем и опускание согласных в некоторых словах и точки их обработки. Очень важно изучить их с научной точки зрения и дать в соответствии с требованиями азербайджанского языкознания и диалектологии. Поэтому мы стремимся изучить эти вопросы отдельно. С этой точки зрения считаем целесообразным придать усиление гласного звука в некоторых словах и словосочетаниях, выявленных нами в говорах и говорах региона, следующим образом.

M. Gasymov

Summary

Vowel sound increase in some words in Jalilabad district dialects

The article shows that each dialect and dialect has its own specific features and orthoepic forms. Therefore, these issues constantly attract the attention of researchers, especially linguists. Care is taken to study and interpret them. As a result of research, innovations in the field of language are obtained. In this sense, a number of phonetic, lexical, morphological and syntactic features present in some toponymic names, residential oikonyms, dialects and dialects in the area of Jalilabad region where I live are manifested. Studying and interpreting them is very important from the point of view of linguistics. Considering such facts, we consider it necessary to give them separately based on examples according to the grammatical structure of our language. In some dialects and dialects of the region, the increase of vowels at the beginning of the word (**prothesis**), increase of vowels in the middle of the word (**epenthesis**), increase of vowels at the end of the word, drop of vowels (**elesia**), drop of syllables (**haplology**), etc. is available. Also, the rise and fall of consonants in some words and their processing points are also interesting. It is very important to study them from a scientific point of view and give them in accordance with the requirements of Azerbaijani linguistics and dialectology. Therefore, we aim to study these issues separately. From this point of view, we consider it appropriate to give the increase in vowel sound in some words and phrases that we have identified in the dialects and dialects of the region as follows.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: filol.ü.fəls.dok.Y.Dadaşlı
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN NATİQ QIZI ATAŞOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: narmin.ava.2017@mail.ru

İNGİLİS DİLİNDƏ DANIŞIQ BACARIĞININ İNKİŞAFINDA DİGƏR DİL BACARIQLARININ ROLU

Xülasə

Effektiv kommunikasiya üçün danışıq bacarığı əvəzolunmaz rol oynayır. Həm ana dildə, həm də xarici dildə fikri düzgün və səlis ifadə edə bilmək bacarığı çox mühümdür. Danışıq bacarığının formalaşdırılması və inkişaf etdirilməsi xarici dil öyrənməyin ən vacib aspektidir. Bu prosesdə əldə edilən uğur həmin dildə yüksək səviyyədə danışıq aparmaq, ünsiyyət qura bilmək bacarığı ilə ölçülür. Danışıq bacarığının inkişafına bir sıra amillər təsir edir. Məqalədə həmin təsirlər araşdırılır və dilçi alimlərin fikirləri əks etdirilir .Müasir media və kütləvi kommunikasiya dünyası da insanlardan ingilis dilini səlis şəkildə danışa bilmək bacarıqlarını inkişaf etdirməyi tələb edir. Dinləmə, danışıq, oxu və yazı kimi dörd əsas bacarığın inkişafı yeni bir dil öyrənmək üçün əvəzolunmazdır. Danışıq bacarığının təkmilləşdirilməsinə digər dil bacarıqları ilə inteqrasiyası da kömək edir. Bu məqalədə həmin bacarıqların mühümlüyü və danışıq bacarığının inkişafında rollarından bəhs edilir. Bununla yanaşı, mövzu barədə aparılan tədqiqatlar haqqında məlumat verilir və yekun nəticələr müzakirə olunur.

Açar sözlər: danışıq bacarığı, ünsiyyət, dinləmə, oxu, yazı.

Narmin Atashova

The role of other language skills in the development of English speaking skills.

Summary

Communication skills play an indispensable role in effective communication. It is very important to be able to express thoughts correctly and fluently in both native and foreign languages. The formation and development of speaking skills are the most important aspects of learning a foreign language. Success in this process is measured by the ability to speak and communicate at a high level in that language. A number of factors influence the development of speaking skills. The article discusses these effects and reflects the views of linguists. The modern world of mass media and mass communications also requires people to develop the ability to speak English fluently. The development of the four basic skills of listening, speaking, reading and writing is essential to learning a new language. Integration with other language skills also helps to develop the speaking skills. This article discusses the importance of these skills and their role in the development of speaking skills. In addition, information is provided on the research carried out on the topic and the final results are discussed.

Key words: speaking skills, communication, listening, reading, writing.

Нармин Аташова

Роль других языковых навыков в развитии навыков разговорной речи на английском языке.

Резюме

İntonasiya dediklərimizi deyil, nəyi necə söyləməyimizlə bağlıdır. İntonasiya olmadan sözlərlə gedən ifadələri və fikirləri başa düşmək mümkün deyil. Sözlərə əhəmiyyət vermədən kiminsə danışdığını dinləmək - eşitdiyiniz "melodiya" intonasiyadır. İntonasiya situasiyalardan və ünsiyyət növündən asılı olaraq tonun istifadəsi və onun dəyişməsidir. İfadələr və suallar eyni səslənmir və bu, fərqli intonasiyaların bu iki çox fərqli məqsəd üçün istifadə edilməsidir.

Nitqdə səsin və ya tonun yüksəlməsi və azalması intonasiyadır. İntonasiya hər dildə mövcuddur, ona görə də təqdim etdiyimiz konsepsiya eyni deyil deyil. Bununla belə, intonasiya söz seçimi qədər vacib ola bilər - biz həmişə intonasiyanın nə qədər fərq etdiyini dərk etmirik:

İntonasiya məlumatlılığı ünsiyyətə kömək edir.Yanlış intonasiya anlaşılmazlıqlara, natiqlərin marağının itirilməsinə və ya hətta inciməyə səbəb ola bilər! İntonasiyanın düzgün istifadəsi ilə danışmaq və dinləmək daha təsirli və qüsursuz nitqə malik olmaqdır. İntonasiya xüsusi təcrübə tələb etmir, lakin istənilən dildə səlis danışmağı öyrənmək avtomatik dəqiqliyə malik olmaq anlamına gətirir.

Açar sözlər: intonasiya,variasiya,komponentlər

ƏSAS HİSSƏ

İnsanlar ən sadə sözləri danışmağa başlayan kimi tələffüzünüzün yaxşı və ya pis olduğunu görəcəklər. Pis tələffüz və yanlış intonasiya ilk pis və xoşagəlməz təəssürat yaradır və o, həm də sizin güvənimizlə oynaya bilər ki, bu da ünsiyyət qurmağımızı daha da çətinləşdirir.Böyük söz ehtiyatına malik olmaq yaxşı olsa da, gündəlik danışıq ümumi ifadələrin mənimsənilməsini tələb edir. Böyük lüğətə sahib ola bilərsiniz, amma sözləri pis tələffüz etsəniz, yaxşı ünsiyyət qura bilməyəcəksiniz. Digər tərəfdən, əgər söz ehtiyatınız azdırsa, lakin sözləri yaxşı tələffüz edirsinizsə, o zaman daha yaxşı ünsiyyət qurursunuz.

Tələffüz bir sözü danışma hərəkəti və ya tərzidir. Müxtəlif səbəblərdən ingilis dilində bir çox sözlər yazıldığı kimi tələffüz edilmir və bəzi səslər birdən çox hərf kombinasiyası ilə təmsil oluna bilər.

Diqqət yetirməli olduğunuz tələffüzün 3 əsas aspekti var:

fonetika: bir dildə fərdi səslər.

söz vurğusu: sözdəki hecalar və əsas vurğunun və ya vurğunun harada yerləşdirilməsi.

cümlə vurğusu: sözləri bir cümlədə birləşdirəndə necə tələffüz edirik.Butun bu aspektlər isə intonasiya ilə sıx əlaqəlidir.

İntonasiya- dilçilikdə danışıq ritminin dəyişməsidir, danışanın münasibətini və emosiyalarını göstərmək, ifadələr və suallar və müxtəlif sual növləri arasında fərqi bildirmək, diqqəti danışıq mesajının mühüm elementlərinə yönəltmək və həmçinin danışıq prosesini tənzimləməyə kömək etmək kimi bir sıra funksiyalar üçün istifadə olunur. İntonasiya ilk növbədə səs tonunun dəyişməsi məsələsi olsa da, nəzərə almaq lazımdır ki, intonasiyaya aid edilən funksiyalar, məsələn, münasibət və emosiyaların ifadəsi, yaxud qrammatik quruluşun aspektlərini vurğulamaq, demək olar ki, həmişə digər prosodik xüsusiyyətlərdə müşayiət olunan variasiyanı ehtiva edir.

İngilis intonasiyasının İngilis təsvirləri 16-cı əsrə aid edilə bilər. 20-ci əsrin əvvəllərində ingilis və fransız intonasiyasının təsvirində rast gəlinən dominant yanaşma intonasiya vahidləri ilə əlaqəli olan "melodiyalar"a əsaslanırdı. Palmer belə vahidlərin intonasiyasını daha kiçik komponentlərə bölmüşdür ki, bunlardan ən mühümü intonasiya vahidinin əsas vurğulu hecasına uyğun gələn nüvədir, ona adətən intonasiya vahidinin sonuncu leksik sözündə rast gəlmək olur . Hər bir nüvə az sayda nüvə tonlarından birini daşıyır, adətən düşən, qalxan- düşən, qalxan və s. Bu yanaşma, terminologiyada xeyli dəyişikliyə baxmayaraq, Halliday və O'Connor və Arnold tərəfindən daha da inkişaf etdirilmişdir. Bu "Standart İngilis" intonasiyasının müasir formada tətbiqi Wells tərəfindən ətraflı şəkildə və Roach tərəfindən sadələşdirilmiş versiyada izah olunmuşdur. Hallidey intonasiya funksiyalarının üç əsas dəyişən seçimlərdən ibarət olduğunu iddia edirdi:

1) Tonallıq (nitqin intonasiya vahidlərinə bölünməsi), 2)Toniklik (tonik hecanın və ya nüvənin yerləşdirilməsi)

3)Ton (nüvə tonu seçimi)

Intonasiya və onun prosodic xüsusiyyətləri

Kristal isə öz tədqiqatlarında orijinal, yazısız nitqə əsaslanan intonasiya haqqında ümumiləşdirmələrin aparılmasının vacibliyini və adətən intonasiyaya aid edilən kommunikativ funksiyalarda temp, səs diapazonu, yüksəklik və ritmiklik kimi prosodik xüsusiyyətlərin oynadığı rolları vurğulayırdı.(s 14,2)

Belə yanaşmalarda intonasiyanın transkripsiyası adətən mətn xəttinə daxil edilir. Tipik bir nümunəni nəzərdən kecirək:

Biz səmaya baxdıq | və ˈ buludları gördüm.

We looked at the sky and saw clouds.

İngilis intonasiya tədqiqatlarında təsirli bir inkişaf, ilk dəfə David Braziliya tərəfindən irəli sürülmüş və Diskurs Analizinin bir qolu olan Diskurs İntonasiyası kimi tanınmışdır. Bu yanaşma intonasiyanın kommunikativ və məlumat xarakterli istifadəsinə əsaslanır, o,əsasən yeni məlumatın təqdim edilməsini və köhnə, paylaşılan məlumatın fərqləndirilməsini təmin edir, həmçinin söhbət iştirakçılarının (məsələn, müəllim-şagird, və ya həkim-xəstə) danışıq tərzlərini tənzimləməyə kömək edir. İntonasiya dediklərimizi deyil, nəyi necə söyləməyimizlə bağlıdır. İntonasiya

olmadan sözlərlə gedən ifadələri və fikirləri başa düşmək mümkün deyil. Dillər də səs diapazonuna uyğun olaraq fərqlənir. İngilis dili xüsusilə geniş səs diapazonuna malikdir. ton dəyişikliyi nümunələri ifadənin mənası üçün vacibdir. İntonasiyanın dəyişdirilməsi mənasını tamamilə dəyişə bilər.Bu zaman vurğunun əsas rol oynadığının şahidi oluruq.

İ would like to go to the theatre with you.(İ)

İ would like to go to the theatre with you.(to go)

İ would like to go to the theatre with you.(with you)

İntonasiya hər dildə mövcuddur, ona görə də təqdim etdiyimiz konsepsiya eyni deyil deyil. Bununla belə, intonasiya söz seçimi qədər vacib ola bilər - biz həmişə intonasiyanın nə qədər fərq etdiyini dərk etmirik:

İntonasiya məlumatlılığı ünsiyyətə kömək edir.

Yanlış intonasiya anlaşılmazlıqlara, natiqlərin marağının itirilməsinə və ya hətta inciməyə səbəb ola bilər!

Tələbələrimizin doğma dil səviyyəsində tələffüzə ehtiyac duyması çətin olsa da, onların danışıq və dinləmələrini asanlaşdırmaq üçün onlara intonasiya haqqında daha çox məlumat vermək vacibdir.(s12,2)

Öz intonasiyamızı eşitmək çətindir. Diqqətlə dinləmək üçün birinin nitqini seçmək lazımdır: dinləyərkən melodiyanı beynimizdə təsəvvür edirik, sonra onun ton vahidlərinə necə bölündüyünü görürük. Növbəti dəfə müəllim sinifdə nitq fəaliyyətini yerinə yetirərkən, tələbələrin intonasiyasına diqqət yetirir:

- Dili “düzgün” olan, amma nəsə düz olmayan tələbələr varmı?
- Onlar darıxdırıcı və ya qeyri-səmimi görünürlər?

Ola bilər ki, onların danışıq diapazonu kifayət qədər müxtəlif deyil. Bu zaman tələbələrə kömək etmək üçün intonasiya ilə bağlı qaydalara əməl etmək lazımdır.Tələbələrin intonasiya haqqında məlumatlılığını artırmaq üçün faydalı hesab etdiyimiz bəzi üsullara nəzər yetirək:

- Öyrənənləri modellərlə təmin etək - intonasiyanızı şişirtməkdən qorxmamaq.
- Şagirdlərə eyni ifadənin iki nümunəsini müqayisə etməyə icazə vermək, məsələn: varied/flat intonation. - - Şagirdlərdən “robotlar” kimi cüt-cüt 2 dəqiqəlik söhbət etmələrini xahiş etmək (lazım olduqda, şəkildən istifadə edərək sözü ifadə edə bilərlər), yəni heç bir intonasiya olmadan. Daha sonra "normal" danışmağa qayıdanda, fərqli intonasiya ilə olduğunu qeyd etmək .
- Tələbələri mənim intonasiyamı təqlid etməyə məcbur etmək, lakin sözlər olmadan, sadəcə zümzümə etmək.

İntonasiya ayrılıqda mövcud deyil.

İntonasiya və qrammatikanı əlaqələndirən nümunələrin də fərqləndirici xüsusiyyətlərini tələbələrə vurğulamaq lazimdır. Bəzi nümunələr bunlardır:

- Wh-söz sualları: düşən intonasiya
- Bəli/Xeyr suallar: yüksəlir
- Bəyanatlar: düşmə

- Sual-Teqlər: 'chat' - düşmə; "yoxlamaq" - yüksələn
- Siyahılar: yüksələn, yüksələn, yüksələn, enən

Bu konstruksiyaları tətbiq edərkən, xüsusilə intonasiyaya fəaliyyətlərinə istinad edilməsi məqsədəuyğundur.(s24,5)

Məsələn, Question-Tags: Qruplardakı tələbələrə bir-birlərinə mimikasiya etmək üçün tapşırıqlar verilir. Şagirdlər hər bir insanın işinin nə olduğunu düşündükləri barədə qeydlər aparırlar. Daha sonra onlar işləri başa düşdüklərini yoxlamalıdırlar: Tələbələr nə dərəcədə əmin olduqlarından asılı olaraq yüksələn/düşən intonasiya sual etiketlərindən istifadə edirlər: Sən pilotsan, elə deyilmi? (You are a pilot,aren't you?)

Sonda tələbələr işlərini təsdiq edirlər.Burada qaydaları təmin etmək çətin olsa belə, tələbələrin intonasiya və münasibət arasında güclü əlaqədən xəbərdar olması vacibdir.

İntonation and its role

SUMMARY

Intonation is about how we say what, not what we say. Without intonation, it is impossible to understand the expressions and thoughts that go with the words. Listening to someone speak without paying attention to the words - the "melody" you hear is intonation. Intonation is the use of tone and its changes depending on the situations and type of communication. Statements and questions do not sound the same, and this is because different intonations are used for these two very different purposes.

Intonation is the rise and fall of a voice or tone in speech. Intonation exists in every language, so the concept we present is not the same. However, intonation can be just as important as word choice - we don't always realize how much difference it makes:

Intonation awareness helps communication. Incorrect intonation can lead to misunderstandings, loss of interest, or even offense to speakers! Speaking and listening with the correct use of intonation means having a more effective and flawless speech. Intonation does not require special practice, but learning to speak fluently in any language means having automatic accuracy.

Key words:intonation,variation,components

Интонация и ее значение

РЕЗЮМЕ

Интонация зависит от того, как мы говорим, а не от того, что мы говорим. Без интонации невозможно понять выражения и мысли, сопровождающие слова. Слушая, как кто-то говорит, не обращая внимания на слова — «мелодия», которую вы слышите, — это интонация. Интонация – это

использование тона и его изменение в зависимости от ситуации и типа общения. Утверждения и вопросы звучат неодинаково, и это потому, что для этих двух очень разных целей используются разные интонации.

Интонация – это повышение и понижение голоса или тона речи. Интонация существует в каждом языке, поэтому понятие, которое мы представляем, не одно и то же. Однако интонация может быть столь же важна, как и выбор слов — мы не всегда осознаем, насколько она значима:

Понимание интонации помогает общению, неправильная интонация может привести к недопониманию, потере интереса или даже оскорблению говорящего! Говорить и слушать с правильным использованием интонации означает иметь более эффектную и безупречную речь. Интонация не требует специальной практики, но научиться бегло говорить на любом языке означает иметь автоматическую точность.

Ключевые слова: интонация, вариация, компоненты.

List of literature

1.Resena de libro: Brazil, D.; Coulthard, M.; Johns, M. Discourse Intonation and Language Teaching. Londres. Longman. 1980

2. Resena de libro: Brazil,Intonation and Its Parts. Melody in Spoken English (1985)

3. Resena de libro: Brazil,Discourse Intonation and Language Teaching

4 F.Zeynalov.İntroduction to English Practical Phonetics. 2001

5.P.Roach.English Phonetics and Phonology.Cambridge 2000

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: dosent Ülviyyə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

YUSUBOVA GÜLNAR VIDADI QIZI
Bakı dövlət Universiteti
Bakı akademik Zahid Xəlilov küçəsi-33
gulnaryusubova07@gmail.com

FRAZEOLOGIYAYA DAR VƏ GENIŞ MƏNADA BAXIŞ

Açar sözlər: qovuşma, birikmə, bitişmə
Ключевые слова: встреча, объединение, смежность.
Key words: reunion, joining, contiguous

Dilçiliyin tez-tez tədqiqata cəlb olunan, praktik tətbiqinə görə əhəmiyyətli sahələrindən biri də Frazeologiyadır. Bir çox dilçi-tədqiqatçılar tərəfindən tədqiq olunmağına baxmayaraq onunla bağlı mübahisəli məsələlər hələ də qalmaqdadır. Frazeologizmlər haqqında vahid fikrin olmaması onun tədqiqat obyekti kimi mürəkkəbliyindən irəli gəlir. Tədqiqatçılar hər dəfə bu problemə müraciət edərkən, sahənin mübahisəli məsələlərini diqqət mərkəzinə çəkirlər. Bu cəhət dünya dillərinin, eyni zamanda Azərbaycan frazeoloji sisteminə münasibətdə özünü göstərir. Frazeologiyanın dəfələrlə həm diaxron, həm də sinxron planda tadqiqat obyektinə çevrilməsinə, bu sahədə yeni fikirlərin əmələ gəlməsinə, tədqiqata cəlb olunmasına baxmayaraq, hələ də bir çox məsələlər mübahisəli qalmış və bu günə kimi həllini tapa bilməmişdir. Hələ də həlli tapılmayan məsələlər tədqiqatçıların diqqət mərkəzindədir. İ.A.Boduen de Kurtenenin bir fikri ilə bu məsələyə istinad edə bilərik:"Elm əşyanın genezisini, onun əvvəlini, inkişafını və sonunu öyrənmək istəyir".[6, s.139] Həqiqətən də haqlı və gözəl mülahizədir, yəni tədqiq olmuş məsələ bundan sonra da araşdırılmalı, intensiv şəkildə öyrənilməlidir. Əks halda elm yerində sayar, inkişaf edə bilməz.

Frazeologiyanın tədqiqi, onun haqqında yazılanlar, müzakirə və mübahisələr onun nə qədər bir zəngin dilçilik bölməsi olduğunun sübutudur. Frazeologiyada hələ də həllini tapmamış məsələlərdən biri tədqiqatçıların sabit söz birləşmələrinə iki müxtəlif istiqamətdə yanaşmasıdır. Buna səbəb atalar sözü və zərb məsəllərin frazelogiyaya aid edilib-edilməməsidir. Müxtəlif xalqların maarifçi nümayəndələri xalq dilində, onun şifahi ədəbiyyatında işlənən hikmətli sözləri, zərb məsəlləri, idiomatik ifadələri, nəhayət, atalar sözlərini toplamış, onların mənasını izah etməyə çalışmışlar. Dilçiliyə dair müxtəlif, izahlı və frazeoloji lüğətlərdə atalar sözləri və digər frazeoloji vahidlərin izahları verilmiş, ikidilli frazeoloji lüğətlər tərtib olunmuşdur. Yazıçı və şairlərin dilində, ümumiyyətlə, bədii əsərlərdə xalq dilindən gələn hikmətli sözlərə geniş yer verilmişdir. Şair və yazıçıların əsərlərində hikmətli sözlərdən, atalar sözlərindən, zərb-məsəllərdən istifadə etməsi, şübhəsiz ki, bədii yaradıcılıqdan doğan bir məsələdir. Lakin dilçilik baxımından atalar sözləri və zərb məsəlləri sabit birləşmə kimi qəbul edib onu frazeologiyaya aid edənlər və etməyən dilçilər vardır. Bu məsələyə H.Bayramov belə münasibət bildirmişdir:"1)

ümumiyyətlə hər hansı bir dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını frazeologiya hesab edənlər; 2) dildə hazır şəkildə olan söz birləşmələrinin hamısını deyil, onlardan nitq və ya dil vahidlərinə ekvivalent olub, komponentləri məna və quruluşca parçalanmayan qismini frazeologiya adlandıranlar."[1, s.5]

Uzun müddət dilçilikdə bu bölgünün birinci qrupunu "geniş mənada frazeologiya", ikinci qrupu isə "dar mənada frazeologiya" adlandırırlar.[11,s.38] deyə S.İ.O. Ojeqov yazaraq münasibət bildirmişdir. İki istiqəmətdə fikir yürüdərək araşdırma aparan alimlər ortaq fikrə gələ bilmir, hər biri ayrı-ayrılıqda özlüyündə dəyərli tədqiqat işi yazırlar. Dildə hazır şəkildə işlədilən söz birləşmələrinin hamısını frazeologiya hesab edənlər, yəni geniş mənada yanaşanlardan L.A.Bulaxovskidir. Tədqiqatçı bu məsələyə fikir yürütmüş və belə tərif vermişdir. "Frazeologiya, adətən, dildə məna cəhətdən parçalanmayan, lakin işlək sitat materialı kimi möhkəmlənən atalar sözü, məsəllər, yazıçıların "qanadlı sözlər" şəklinə düşmüş ifadələri və b . buna görə də müəyyən bütövlük təşkil edən söz birləşmələridir."[8, s.33]

Dünya dilçililəri arasında bu problemə , əsasən , rus dilçiləri geniş yer ayırmışdır. Dildəki bütün sabit birləşmələri frazeloji birləşmə hesab edən A.İ.Yefimov bir az da irəli gedərək idarə ştampları, istehsal-texniki ifadələri də buraya daxil edir.[9, s.68]. A.İ.Yefimovun fikri doğurdan da frazeologiyanın əhatə dairəsini daha da genişləndir. Müəllif sərbəst birləşmələrdən az və ya çox fərqlənən bütün birləşmələri frazrologiyaya aid edir. Bir çox mütəxəssislər, folklorşünaslar, leksikoqraflar, qrammatiklər və üslubiyyatçılar bu kimi fərqli və maraqlı fikirlər irəli sürmüşlər.

A.A.Reformatski deyilənlərə əlavə olaraq, dildəki "spesifik sözləri" frazeoloji vahid, əhalinin müəyyən qrupu üçün xas olan spesifik sözləri və söz birləşmələrini də "frazeologiya" adlandırır. Bu fikri irəli sürən müəllif bir neçə il sonra kitabın yeni nəşrində frazeologiyaya fərqli tərif verir. O belə yazır: "Əhalinin sinfi mənsubiyyətinə və ya ixtisasının əlamətinə, ədəbi cərəyanlara və ya ayrı-ayrı müəlliflərə məxsus spesifik söz və söz birləşmələrini frazeologiya adlandırmaq olar" [12, s.96] Reformatskinin "spesifik sözləri"ni ondan başqa heç bir tədqiqatçı frazeoloji vahid kimi hesab etmir. Hətta bir sıra rus dili lüğətlərində də frazeologiyaya geniş mənada izahat verilib. Onlardan birində belə yazılır: " ....dildəki sabit birləşmələrin və ifadələrin məcmusu ilə yanaşı, ədəbi cərəyanlara, müəyyən dövrdəki ictimai təbəqələrə və ya qruplara məxsus üslubi ifadələr də frazeoloji vahid sayılır.[13, s.798]

Maraqlı məsələlərdən bir də budur ki bəzi tədqiqatçılar, dilçi alimlər hər iki qrupun nümayəmdəsi kimi, yəni həm dar, həm də geniş mənada frazeologiyaya yanaşır. Ə.Ə.Rəcəbli belə yazır: "Mən frazeoloji birləşmə terminini öz əvvəlki mənasında saxlayıram və qeyri-predikativ frazeoloji birləşmələri söz bir- ləşməsi tipli frazeoloji birləşmələr, predikativ frazeoloji birləşmələri isə cümlə tipli frazeoloji

birləşmələr adlandıracağam.”[4, s.127] Cümlə tipli frazeoloji birləşmələr, əsasən, atalar sözləridir ki bunlar da nitq zamanı dildə hazır şəkildə götürüb işlənilir.

Frazeologiyanın bir elm kimi formalaşması məşhur rus dilçisi, akademik V.V.Vinoqradovun adı ilə bağlıdır. V.V.Vinoqradov frazeologiya sahəsini geniş götürür, nitqə hazır şəkildə daxil edilən bütün birləşmələri frazeoloji birləşmələrə aid edir. V.V.Vinogradovun Ş. Balliden 40 il sonra frazeologiyanı leksikologiyadan ayırıb müstəqil bir şöbə kimi qəbul etməsi dilçilikdə ən önəmli bir hadisədir. Beləliklə, V.Vinogradovdan sonra frazeologiya dilçilik elmində ayrıca bir sahə kimi tədqiq olunmağa başladı.

Rus dilçiliyində atalar sözləri və məsəlləri müxtəlif dərəcədə bağlılığı olan frazeoloji söz birləşmələri hesab edən müəlliflərdən biri B.A. Larindir Rus dilinin frazeologiyasının inkişaf tarixinə nəzər salarkən atalar sözləri və zərbi-məsəllərə faktlar kimi yanaşan müəllif göstərir ki, həmin dil vahidlərinin tərkibində bağlılığı müxtəlif dərəcədə olan frazeoloji söz birləşmələri mövcuddur və bu bağlılığı, onun mənasını, şərhini tarixi-müqayisəli üsulla müəyyənləşdirmək mümkündür. B.A.Larin belə yazır. «P.Simoni tərəfindən nəşr edilən XVII əsr əlyazması məcmuəsində rus frazeologiyası tarixi ücün zəngin material tapırıq. Atalar sözlərinin əksəriyyətində frazeoloji söz birləşmələrinin müxtəlif dərəcəli bağlılığı mövcuddur... Məcmuədəki atalar sözlərinin xeyli hissəsi öz işləkliyini itirmişdir. Buna görə də onların frazeoloji səciyyəsi tarixi-müqayisəli təhlil zamanı aydınlaşır» [10, s.128].

B.A. Larin son olaraq belə ümumiləşdirici fikrə gəlir: «Burada xətti həd yoxdur, ona görə də frazeoloji söz birləşmələri tam cümlə də ola bilər» [10, s.128]. Belə qənaətə gəlirik ki, B.A.Larin bir tərəfdən atalar sözlərinin tərkibində müxtəlif bağlılıq dərəcəsi olan frazeoloji vahidlərin mövcudluğu, o biri tərəfdən isə bütün cümlənin donmuş sintaktik konstruksiyaya çevrilməsi və funksional mənası ilə kəskin şəkildə dəyişib bütöv əmələ gətirdiyi üçün cümləyə ekvivalent olması fikrini irəli sürür. Alimin fikrincə, bir neçə sözün sıx şəkildə birləşərək bütöv cümlə təsəvvürü yaratması sabit söz birləşmələrini xarakterizə edir.

Dildə hazır şəkildə işlədilərək komponentləri məna və quruluşca parçalanmayan söz birləşmələrini frazeologiya hesab edən tədqiqatçılar isə kiçik fərqlər olmaqla ortaq fikirdə olmuş, yalnız sabit söz birləşməsi, idiom və birikmələri frazeologiyaya aid edirlər. Bu isə qrupun 2-ci qolu olan frazeologiyaya dar mənada baxış ifadə edən dilçilərin yanaşmadısıdır. Geniş mənada yanaşan tədqiqatçıların bir qismi və onların fikirləri ilə tanış olduq. Lazımı qədər nümunələrlə aydın olsa da, bu məsələyə fərqli baxış sərgiləyən dilçilərlə də tanış olaq. Bir sıra tanınmış, tədqiqatçı alimlər frazeologiyanın əhatə dairəsini biraz daha dar formada təqdim edirlər.

F de Sössürün fikri ilə tanış olaq:” Biz hər şeydən əvvəl,külli miqdarda ifadələrə rast gəlirik ki,bunları dilə aid etmək lazımdır. Bunlar dildə elə hazır nitq parçalarıdır ki, adətən, daxilindəki aytı-ayrı mənalara malik olan sözləri dəyişmək mümkün olduğu halda, bu, məqbul sayılmır.....belə ifadələr düzəldilmir,bunlardan dildə hazır şəkildə istifadə edilir.[14, s.122]

Ş. Balli də frazeologiyanı ənənəyə görə işlədir,onları 1)frazeoloji ifadə 2)frazeoloji qrup 3)frazeoloji bitişmə adlandırır.[7, s.80]. Ballidən sonra V.V.Vinoqradov onun bölgüsünə yaxın bölgünü qeyd edir, lakin N.N.Amosova bu bölgüdəki natamamlığı, bəzi məsələlərin nəzərə alınmadığını yazır. N.N.Amosova atalar sözü və məsəlləri frazeologizm hesab etmir[5, s.142]

S.Cəfərov hikmətli söz və atalar sözlərinin haqqında frazeologiya bölməsində bəhs etsə də belə deyir: ”Hikmətli söz və atalar sözlərini sabit söz birləşmələrinə şərti olaraq daxil etmək olar”[2, s.102] Yəni, dilçi frazeologiyanı dar mənada qəbul etsə də atalar sözünü ora şərti olaraq daxil edir. Yeri gəlmişkən göstərək ki, V.F Rudoy, S.Q.Qayrin, P.Vovçok. M.M.Vasilyev, A.K.Koçetkoy, Q.Y.Dementyey kimi rus dilçiləri isə bu fikirdədirlər ki, frazeologiyaya birtərəfli münasibət bəsləməklə, daha doğrurusu, onu üslubi cəhətdən, yaxud xalis semantik və ya qrammatik mövqedən tədqiq etmək doğru olmazdı. Bu problemin öyrənilməsində nəzəri ümumiləşdirmədən çıxış edərək frazeologizmlərin həm semantik strukturunu, həm də elə üslubi ifadə imkanlarını, bir sözlə, struktur və funksional nitq xüsusiyyətlərini əsas götürərək onları şərh etmək və dar mənada müəyyənləşdirmək olar. Bu alimlər frazeologiya anlayışının hər cəhətdən, sözün geniş mənasında başa düşülməsi mülahizəsinə tərəfdar çıxırlar və xüsusilə atalar sözlərini, zərbi-məsəlləri, qanadlı sözləri, termin səciyyəli söz birləşmələrini də frazeoloji vahidlər kimi qəbul edirlər.

Azərbaycan dilçiliyində də XX əsrin 80-90-cı illərində frazeologiya sahəsinin tədqiqat obyekti kimi öyrənilməli olan dil vahidlərinin müəyyənləşdirilməsi üstündə geniş və intensiv mübahisələr aparılmışdır. B.H.Tahirbəyov atalar sözləri və zərbi-məsəllərə həsr etdiyi araşdırmasında frazeologiyanın obyektini izah edərkən belə fikir söyləyir: “ onun obyektini dəqiqləşdirmək tam mümkün olmadığı kimi, hər bir dilin frazeoloji tərkibi amorf vəziyyətdə deyildir.....onun obyekti haqqında yekdil fikrə gəlib çıxılmamışlar” [36, s. 157]

Z.Ə.Əlizadə də öz növbəsində atalar sözlərinin yaranması, təkamülü və dil xüsusiyyətlərinə həsr etdiyi araşdırmasında frazeologiyanın obyektinin dəqiqləşdirilməsi barədə olan bütün mübahisəli məsələlərdə ən çox nəzərə çarpan cəhətin atalar sözləri və zərbi-məsəllərin frazeologiyanın tədqiqat sahəsinə daxil edilib-edilməməsi olmasını qeyd etmişdir.

Bu məsələnin mahiyyəti haqqında maraqlı fikirləri olan M.M.Mirzəliyevanın mülahizələri daha çox diqqəti çəkir. Dilçilikdə, eləcə də türkologiyada həllinə ehtiyac duyulan ən mübahisəli məsələ cümlə quruluşlu frazeoloji vahidlərin mövcud olub-olmamasıdır. Belə frazeoloji birləşmələrə atalar sözləri, zərb-məsəllər, hikmətli sözlər, aforizmləri (bir sözlə, paremiyalar) daxil edən tədqiqatçı frazeologiyanı geniş mənada düşünən və tədqiq edən tədqiqatçılardandır.

Ədəbiyyat

1. Bayramov.H.A. Azərbaycan dili frazeologiyasının əsasları.Bakı,Maarif,1978, 174s
2. Cəfərov S. MüasirAzərbaycan dili II hissə. Leksika,Bakı,"Şərq-Qərb" 2007,192s
3. Hüseynov F.H. "Rus frazeologiyası" monaqrafiyası, 1977.
4. Rəcəbli Ə.Ə. Frazeologiya. Bakı, "Elm və təhsil",2021,272s.
5. Амосова Н.Н. Основы английской фразеологии. Л.,1963, 208с
6. Бодуэн де Куртенэ И.А. Избранные труды по общему языкознанию. М.,1963, 370с.
7. Балли Ш. Французская стилистика. М., 1961, 394с.
8. Булаховский Л.А. Курс русского литературного языка. М.,1954, 340с.
9. Ефимов А.И. Об изучении языка художественных произведений. М.,1952, 269с.
10. Ларин Б.А. Очерки по фразеологии. Л., 1956, 280с.
11. Ожегов С.И. О структуре фразеологии//Лексикографический сборник. Вып. II,М.,1974, 352с
12. Реформатский А.А. Введение в языкознание. М., 1955, 360с.
13. Словарь русскова языка, т, М.,1961, 798с
14. Соссюр Ф.Курс общей лингвистики. М.,1933, 336с

Yusubova Gülnar

Xülasə

Bu məqalə frazeologiyanın tədqiq edən tədqiqatçıların ona dar, yaxud da geniş mənada yanaşmasından bəhs olunur.

Frazeologiya dilçiliyin ən şıltaq, rəngarəng bölməsidir. Bu məqalədən də aydın olur ki, frazeologiya haqqında nə qədər tədqiqat işi aparılsa, yazılsa da yekdil bir fikir ərsəyə gəlmir. Araşdırma, tədqiqat işi davam etdikcə yeni fikirlər ortaya çıxır. Bir çox dilçilər yalnız qovuşma, birikmə, birləşmə, bir qismi bütün sabit birləşmələri frazelogiyaya aid etdi. Atalar sözü, məsəllər, hikmətli sözlər ilk baxışda özünü frazeologiya kimi göstərir, sabitdir, başqa dilə hərfən tərcümə oluna bilmir və s. kimi fikirlər. Atalar sözü, məsəllər və hikmətli sözlər konkret olaraq bir sözün ekvalenti ola bilərmi? Və yaxud da, frazeologiya kimi zəngin bir dilçilik şöbəsi sadəcə iki və ya daha çox söz birləşməsi ilə məhdudlaşdırılaraq dar mənadan ibarət ola bilərmi? Belə düşündükdə yenə fikirlər qarışır və yekun nəticəyə gəlmək olmur.

Hər iki cəbhənin nümayəndələri öz mövqeyində haqlıdır. Sadəcə, dar mövqedən yanaşdıqda frazeologiya daha kiçik, az əhatəli, tədqiqata geniş ehtiyacı olmayan bir məsələ kimi fikir formalaşdırır. Geniş mənada tədqiq olunduqda isə bir qədər frazeologizm anlayışının sərhədlərini aşmış olur. Atalar sözünü bir sözə ekvalent kimi düşünmək mümkün deyil. Çünki, atalar sözü fikri daha ifadəli izah etməyə xidmət etdiyi təqdirdə, frazeoloji birləşmələr bir sözün əvəzi kimi nitqdə

hazır şəkildə olur. Bu baxımdan, frazeologiyanın daha dərindən araşdırılmağa ehtiyacı vardır.

Bu məqalədə ortaya qoyulan problemin həlli yolundan yox, onun haqqında aparılan tədqiqat işlərindən və tədqiqatçıların gəldiyi nisbi nəticələrindən , eyni zamanda bu məsələnin hələ də aktiv problem olaraq qalmasından bəhs olunmuşdur.

Yusubova Gulnar

Summary

This article focuses on the researchers who study phraseology the approach in a broad sense is discussed.

Phraseology is the most capricious, colorful branch of linguistics. It is also clear from this article that no matter how much research is done and written about phraseology, no unanimous opinion is formed. As research continues, new ideas emerge. Many linguists attributed only conjunction, combination, combination, and some all fixed combinations to phraseology. Proverbs, parables, wise sayings at first glance seem like phraseology, they are stable, cannot be literally translated into another language, etc. thoughts like Can proverbs, proverbs, and sayings of wisdom be the equivalent of a specific word? Or, a rich branch of linguistics, such as phraseology, simply combines two or more words can it be limited to narrow mean? When you think like that, your thoughts get mixed up and you can't come to a final conclusion. Representatives of both fronts are right in their position. Simply, when approached from a narrow perspective, phraseology forms an opinion as a smaller, less comprehensive, and less researched issue. When studied in a broad sense, it somewhat exceeds the boundaries of the concept of phraseologism. It is impossible to think of a proverb as equivalent to a word. Because, if the proverb serves to explain the idea more expressively, phraseological combinations are readily available in speech as a substitute for a word. So, there is a need for a deeper study of phraseology.

In this article, it is not about the way to solve the problem, but about the research conducted on it and the relative results of the researchers, and the fact that this issue is still an active problem.

Юсубова Гюльнар

Резюме

Данная статья посвящена исследователям, изучающим фразеологию обсуждается подход в широком смысле.

Фразеология – самая капризная, красочная отрасль языкознания. Из этой статьи также видно, что сколько бы исследований ни проводилось и ни писалось о фразеологии, единого мнения не формируется. По мере продолжения исследований появляются новые идеи. Многие языковеды относили к фразеологии только союз, сочетание, сочетание, а некоторые и все устойчивые сочетания. Пословицы, притчи, мудрые изречения на первый

взгляд кажутся фразеологией, они устойчивы, не могут быть дословно переведены на другой язык и т. д. мысли как Могут ли пословицы, пословицы и мудрые поговорки быть эквивалентом определенного слова? Или богатая отрасль языкознания, такая как фразеология, просто объединяет два или более слов это может быть ограничено узкой маной?

Когда вы так думаете, ваши мысли путаются, и вы не можете прийти к окончательному выводу. Представители обоих фронтов правы в своей позиции. Просто, если подходить с узкой точки зрения, фразеология формирует мнение как меньший, менее всеобъемлющий и менее исследованный вопрос. При изучении в широком смысле он несколько выходит за границы понятия фразеологизма. Невозможно думать о пословице как о эквиваленте слова. Потому что, если пословица служит для более выразительного объяснения мысли, фразеологические сочетания легко доступны в речи в качестве заменителя слова. С точки зрения, существует необходимость более глубокого изучения фразеологии.

В данной статье речь идет не о способе решения проблемы, а о проведенных по ней исследованиях и относительных результатах исследователей, и о том, что этот вопрос до сих пор является активной проблемой.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: prof.Əbülfəz Rəcəbli
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏZİZƏ ZÜLFÜQAROVA
Azərbaycan Dövlət İqtisad Universiteti
Xarici Dillər kafedrasının müəllimi
İstiqlaliyyət küç.,6
kh.aziza@yahoo.com

İNGİLİS DİLİNİN TARİXİ VƏ ONUN DİGƏR DİLLƏRƏ TƏSİRİ

XÜLASƏ

Dil insan ünsiyyətinin çox mühüm vasitəsidir. Dünya dilləri öz quruluşu, lüğət tərkibi və digər cəhətlərinə görə fərqlənirlər.

İngilis dili german dilləri qrupuna aiddir, müvafiq olaraq müasir ingilis dili bu qrupun dilləri ilə çoxlu oxşarlıqlara malikdir. Lüğət sahəsində ingilis və alman dilləri arasında müəyyən bənzərliklər var.

İngilis dili beynəlxalq ünsiyyət dili hesab olunur. Bütün dünyayda elm, texnologiya, tibb və digər sahələrin sürətli inkişasfı buna əsas səbəbdir. İngilis dili uzun inkişaf yolu keçmişdir. Birləşmiş Millətlər Təşkilatının (BMT) rəsmi dili olmaqla yanaşı bir sıra ölkələrin - Böyük Britaniya, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiya da daxil olmaqla bir çox ölkələrin rəsmi dilidir. Dünyada təxminən 1,5 milyard insan bu dilin istifadəçisi sayılır.

Geniş istifadə olunmasına baxmayaraq, ingilis dilində bəzən müəyyən çətinliklərə rast gəlinir. Bu çətinliklər bir çox başqa dillərdən olan alınma sözlər, həmin sözlərin tələffüzü və yaxud da yazılışı ilə əlaqədardır. İngilis dilinin çoxlu müxtəlif dialektləri olduğu üçün fərqli bölgələrdən olan birini başa düşmək problemlər yarada bilir. Alınma sözlər dilin təkcə lüğət tərkibinə deyil həm də qrammatik quruluşuna da müəyyən təsirlər göstərdi. Müasir dünyada hətta ingilis dilinin doğma istifadəçiləri belə qədim dövrə xas olan sözləri anlamaya bilirlər. Bu hal isə inkişafla əlaqədardır.

Ümumilikdə, ingilis dili sürətlə dəyişən dünyanın ehtiyaclarına uyğunlaşan zəngin və çevik bir dildir. Bu dil həqiqətən qlobal və eyni zamanda dominant bir dildir və heç bir yavaşlama əlamətlərinə rast gəlinmir.

İngilis dilinin tarixi 3 əsas dövrə bölünür:

I dövr – Qədim ingilis dili (Old English) 5-11ci əsrləri əhatə edir. German qəbilələrinin Böyük Britaniyanı fəth etməsi nəticəsində yaranmışdır. Pensilvaniya Universitetinin görkəmli ingilis professoru Albert Baugh nəşr etdiyi əsərlərində qədim ingilis dilinin təxminən 85%-inin artıq istifadə olunmadığını qeyd edir, lakin, bəzi elementlər bu gün müasir ingilis dilinin əsasını təşkil edir. Qədim ingilis dilini anlamaq çox çətindir.

II dövr - On birinci əsrdə başlayan təkamül forması isə Orta ingilis dili (Middle English) kimi tanınır. 1100-1500-cü illəri əhatə edir. 1066-cı ildə

Normandiya hersoqu Fateh Vilyam öz qoşunları ilə İngiltərəni işğal etdi və bundan sona fransız dili hakim təbəqənin dili oldu. Fransız dili hakimiyyət, məhkəmə və mədəniyyət sahələrində istifadə olunmağa başladı. Latın dili daha çox yazılı dil üçün, xüsusən də kilsədə istifadə olunurdu.

III dövr – Müasir ingilis dili (Modern English). 1476-cı ildə ingilis taciri, diplomatı və yazıçısı William Caxton Vestminsterin The Almonry bölgəsində İngiltərənin ilk mətbu orqanının əsasını qoydu. Orada çap olunduğu bilinən ilk kitab C.Çauserin "The Canterbury Tales" əsəri idi. Caxton çap kitablarının ilk ingilis pərakəndə satışçısı oldu. O dövrdə İncil və bir sıra digər qiymətli əlyazmalar çap olunurdu. Çap maşınının ixtirası kitabların daha çox insan üçün əlçatan olmasına şərait yaratdı. Nəticədə kitablar ucuzlaşdı və daha çox insan mütaliə etməyə başladı.

V.Şekspir yaradıcılığı isə erkən müasir ingilis dili olan dövrü əhatə etmişdir. Bu dövr ərzində Şekspir ingilis dilində 1700-dən çox söz yaratdı. Bunlara nümunə olaraq sübh, ay işığı, dirsək, yaşıl gözlü (dawn, moonbeam, elbow, green-eyed, etc.) kimi sözləri göstərmək olar.

Açar sözlər: alınma sözlər, texnologiya, ünsiyyət, dil ailəsi, neologizm

Digər dillərdə istifadə olunan ingiliscə alınma sözlər anqlisizmlər adlanır. Anqlisizmlər ingilis dilinə xas olan söz, söz birləşməsi və ya idiomdur. Əksər sözlərə kompüter texnologiyaları sahəsində o cümlədən, texnologiyanın digər inkişaf etmiş sahələrində rast gəlinir. Bu sahələrin sürətli inkişafı nəticəsində əksər ölkələr terminləri ingilis dilində qəbul edir və gündəlik həyatlarında istifadə edirlər. Buna səbəb yeni terminin doğma dildə uyğun sözlə əvəzlənməsinin bir qədər cətinlik yaratmasıdır. Bəzən isə onları doğma dilə tərcümə belə etmək mümkün olmur.

İspan dilinə nəzər salsaq, bir çox sözlərin ingilis dilindən alındığının şahidi oluruq. Nümunə olaraq downloader (to download) və updater (to update) kimi sözləri göstərmək olar. Bir çox dillərdə kompüter sözünü əvəz edə biləcək söz olduğu halda digər dil istifadəçiləri ingilis dilində olan sözdən istifadə etməyə üstünlük verirlər.

Alman dilində də bəzi ingilis dilində olan sözlərə rast gəlmək mümkündür. Computer, scanner, adapter, airline kimi sözlər buna nümunə ola bilər. Qeyd edək ki, bu siyahı daha genişdir. Bu terminlərdən bəzilərinin məsələn, skaner və ya adapter kimi sözlərin alman ekvivalenti yoxdur. Qeyd olunan əşyalar Almaniyada geniş yayıldıqdan sonra ingilis adları ilə birgə işlənməyə başlayıb. Lakin bəzi terminlərin alman dilində konkret olaraq tərcümələri mövcuddur.

Məsələn. Aftershave (ingilis dilində) - Rasierwasser (alman dilində)

Airline (ingilis dilində) - Fluggesellschaft (alman dilində)

Almanlar bu sözləri, eləcə də istifadə etdikləri terminləri ingilis dilindən alınma sözlər kimi qəbul edir və onları neologizmlər adlandırırlar. Bəzi neologizmlər isə əsas dildən tamamilə fərqli məna ifadə edir.

Azərbaycan dilində də ingilis dilindən çoxlu alınma sözlər var. Bu sözlər əsasən qida (pudding, ketchup), valyuta (dollar, cent), müraciət formaları (Mr, Miss),

ölçü vahidləri (mile, pound) və digər sahələri əhatə edir. Kompüter texnologiyalarının da inkişafı ilə əlaqədar olaraq dilimizə bəzi sözlər daxil olmuşdur (monitor, display, mouse).

Alınma sözlər dildə işləndikcə artıq ümumişlək sözlərə çevrilirlər.

Onu da qeyd etmək lazımdir ki, ingilis dili digər dillərə təsir etdiyi kimi ingilis dilində də alınma sözlər var. Alman alimləri Tomas Finkenstaedt və Dieter Wolf tərəfindən Oksford lüğətinin təhlilinə əsasən etimoloji baxımdan ingilis dili lüğəti aşağıdakı qruplara bölünür:

fransız dilindən alınma sözlər – 28.3%
latın dilindən alınma sözlər – 28.24%
alman dillərindən alınma sözlər – 25%
yunan mənşəli sözlər – 5.32%
etimologiyası göstərilməyən sözlər – 4.04%
xüsusi adlardan yaranan sözlər – 3.28%
digər dillərdən alınan sözlər isə - 1%

İndi isə ingilis dilində olan bəzi alınma sözlərə nəzər salaq.

Fransız dilindən alınma sözlər əsasən siyasət və hüquq sahələrini əhatə edir. Bu siyahıya qida və yemək ilə da bağlı sözləri (mutton, beef), onların hazırlanma metodları (stew, broil, roast) və bəzi titulları (marquess, baron, prince) da əlavə etmək olar.

Latın mənşəli sözlərə elm, texnologiya, tibb və hüquq sahələrinin söz və terminlər daxildir (flexibility, abdomen).

İspan dilindən alınma sözlərə isə hərb, elm və mədəniyyətə dair terminlər xarakterikdir (guerrilla, flotilla).

İtalyan alınma sözləri isə musiqi alətləri və italyan mədəniyyəti ilə bağlıdır (umbrella, pizza,piazza).

Göstərilən nümunələr bir daha onu göstərir ki, hər dilin lüğət tərkibi müxtəlifdir. Buna səbəb isə müxtəlif tarixi hadisələr, daim inkişafda olan elm və texnologiyadır.

Hal-hazırda ingilis dili istifadəçilərinin sayı nəzərəçarpacaq dərəcədə artmaqdadır. Əsas elmi və tibbi araşdırmalar məhz bu dildə aparılır.

İstifadə edilmiş ədəbiyyat:

1. Baugh, Albert (1951). A History of the English Language. London: Routledge & Kegan Paul. pp. 60–83; 110–130 (Scandinavian influence).

2. Aarsleff, Hans. The Study of Language in England, 1780–1860. Minneapolis:University of Minnesota Press, 1983.

3. Durkin P. Does English still borrow words from other languages? URL: http://www.bbc.com/news/ magazine-26014925

4. The Cambridge History of the English Language. Vol. 6: English in North America. Cambridge:Cambridge University Press, 2001.
5. http://www.encyclopedia.com/humanities/encyclopedias-almanacs-transcripts-and-maps/chancery-standard

AZIZA ZULFUGAROVA

HISTORY OF THE ENGLISH LANGUAGE AND ITS INFLUENCE ON OTHER LANGUAGES

SUMMARY

Language is a very important means of human communication. World languages differ in their structure, vocabulary and other aspects.

English belongs to the Germanic language group, so modern English has many similarities with the languages of this group. There are some similarities between English and German in terms of vocabulary.

English is considered the language of international communication. The main reason for this is the rapid development of science, technology, medicine and other fields all over the world. English has come a long way. In addition to being the official language of the United Nations (UN), it is the official language of many countries, including the United Kingdom, the United States, Canada, Australia, and New Zealand. About 1.5 billion people in the world are considered to be users of this language.

Despite its widespread use, the English language sometimes has certain difficulties. These difficulties are related to borrowed words from many other languages, pronunciation or spelling of those words. Because there are so many different dialects of English, even understanding someone from a different region can be a challenge. Borrowed words had certain effects not only on the vocabulary but also on the grammatical structure of the language. In today's world, even native speakers of English can't understand words from the ancient era. This situation is related to development.

Generally, English is a rich and flexible language that adapts to the needs of a rapidly changing world. It is a truly global and dominant language and shows no signs of slowing down.

Keywords: borrowed words, technology, communication, language family, neologism

АЗИЗА ЗУЛЬФУГАРОВА

ИСТОРИЯ АНГЛИЙСКОГО ЯЗЫКА И ЕГО ВЛИЯНИЕ НА ДРУГИЕ ЯЗЫКИ

РЕЗЮМЕ

Язык является очень важным средством человеческого общения. Мировые языки различаются по своему строению, лексике и другим аспектам**.**

Английский язык относится к германской языковой группе, поэтому современный английский язык имеет много общего с языками этой группы. Есть некоторое сходство между английским и немецким языком с точки зрения лексики.

Английский считается языком международного общения. Основной причиной этого является стремительное развитие науки, техники, медицины и других областей во всем мире. Английский прошел долгий путь. Помимо того, что он является официальным языком Организации Объединенных Наций (ООН), он еще является официальным языком многих стран, включая Великобританию, США, Канаду, Австралию и Новую Зеландию. Пользователями этого языка считаются около 1,5 миллиарда человек в мире.

Несмотря на широкое распространение, английский язык иногда имеет определенные трудности. Эти трудности связаны с заимствованием слов из многих других языков, произношением или написанием этих слов. Поскольку существует так много разных диалектов английского языка, понимание человека из другого региона может быть проблемой. Заимствованные слова оказали определенное влияние не только на словарный запас, но и на грамматический строй языка. В современном мире даже носители английского языка не могут понять слова древней эпохи. Эта ситуация связана с развитием.

В целом, английский язык — это богатый и гибкий язык, который адаптируется к потребностям быстро меняющегося мира. Это действительно глобальный и доминирующий язык, и он не проявляет никаких признаков замедления.

Ключевые слова: заимствованные слова, технология, коммуникация, языковая семья, неологизм

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: ped.ü.f.d Nigar Mirzəliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

ABBASLI ELMİR ELŞƏN
Bakı Dövlət Universiteti, Şərqşünaslıq fakültəsi,
Uzaq Şərq dilləri və ədəbiyyatı kafedrası
a.elmir2000@gmail.com

ƏCNƏBİLƏRİN YAPON DİLİ ÖYRƏNƏRKƏN QARŞILAŞDIQLARI ƏSAS PROBLEMLƏR

Giriş

Müasir dövrdə siyasi, iqtisadi, elmi, turistik, mədəni və başqa maqsədlərlər yapon dilinin öyrənilməsi bir sıra dünya ölkələrində genişləndirilir. Bir çox dövlətlərin universitetlərində - o cümlədən, Bakı Dövlət Universitetində şərqşünaslığın Uzaq Şərq ölkələri üzrə genişləndirilməsində yapon dili mühüm rol oynayır. Uzun və keşməkeşli tarixi proseslərdən keçmiş yapon xalqı, öz dilinin orjinallığını qorumağa nail olmuşdu. Lakin əcnəbi insanlar yapon dilini öyrənməkdə çətinlik çəkirdilər. Elə ötən əsrdən başlayan yapon dilinin "ənənəviliyi pozmadan dilin müasirləşdirilməsi" və eləcə də digər dillərlə qarşılıqlı əlaqədə olması üçün dil mütəxəssislərinin araşdırmaları bugünə qədər davam edir. Günümüzdə bir sıra ali təhsil müəssisələrinin – eləcə də universitetimizin Şərqşünaslıq fakültəsində yapon dili institunun qoyuluşu mövcuddur. Bu məktəb və institutlar yapon dilinin dil qaydalarını pozmadan dilin müasir və tarixi problemlərini araşdırır və həll yolları axtarır. Hər nə qədər əcnəbilər üçün turistik, məişət danışığı üçün - "yapon dilini üzdən öyrənmək üçün" dərs vəsaitləri tərtib olunsa da, dilin müasir problemləri təkcə əcnəbilərin deyil, müəyyən məqamda yapondilli insanların da qarşısına çıxır. Bu məqalədə yapon dili öyrənərkən yaranan əsas problemləri göstərməyə çalışacağam.

Əsas hissə

1. Yapon dilinin ümumi quruluşu və Azərbaycan dili ilə müqayisəsi

Azərbaycan dilinin nitq hissələrini bir-biriləri ilə müqayisə etdikdə, feillər quruluşca və mənaca növləri, qrammatik zənginlikləri, leksik şəkilçilərlə istifadə müxtəlifllikləri və xüsusilə leksik yolla ümumilikdə yeni söz yaratmaq xüsusiyyətinə görə digər nitq hissələrindən bir qədər öndə gəlir. Tarix boyu bir çox dillər ilə qarşılıqlı əlaqə və təsirdə olan Azərbaycan dilinə həmin dillərdən müxtəlif sözlər keçsə də, feillər bütünlükdə, kök etibarilə türk mənşəli – yəni milli sözlərdir. İltisaqi dil olan Azərbaycan dilində feilin rolu olduqca genişdir.

Azərbaycan dili kimi iltisaqi dil olan və hətta dilçilərin Altay dil ailəsinə aid olub-olmadığı barədə hələ də bir qərara gələ bilmədiyi dil olan yapon dilində də feillərin rolu geniş, istifadəsi isə zəngindir. Yapon dilinin Azərbaycan dili ilə digər oxşar cəhəti də odur ki, kökü feil olan bütün sözlər milli mənşəli sözlərdir. Yapon dilinin lüğəti feillərdən düzələn sözlərlə zəngindir.

1.1 Yapon dilini öyrənmək üçün əlverişli dilçilik metodu

Hər bir dili öyrənərkən geniş istifadə olunan müqayisəli dilçilik, öyrənilən dilin spesifikliklərini öyrənərkən qənaətbəxş olmur və bu zaman dil problemi yaranır ki, bu problemə tərcümə zamanı da çox rast gəlinir. Yapon dilini öyrənərkən yaranan ən aktual və ən böyük problem zaman problemidir. Əvvəla bir şeyi qeyd etmək lazımdır ki, yapon dilində feilin işlənmə məqamına görə ümumi iki anlayışı var: mövcüd situasiyanı ifadə etməsi və hərəkət bildirməsi. Hərəkət anlayışının özü də iki yerə bölünür: yerinə yetirilmiş hərəkət və yerinə yetirilməmiş hərəkət. Hərəkət anlayışı zaman anlayışının formalaşmasına təsir edib ki, yapon dilində hər dildə olduğu kimi zaman üç yerə (keçmiş, indiki, gələcək) bölünsə də indiki zaman və gələcək zaman eyni xəbər sonluqları ilə düzəlir. Bunun əsas səbəbi həm indiki zamanın, həm də gələcək zamanın yerinə yetirilməmiş hərəkət kateqoriyasına daxil olmasıdır. Nə indiki zamanın, nə də gələcək zamanın özünün xüsusi bir şəkilçisi yoxdur. Bu məsələnin nəinki yapon dilini öyrənən əcnəbilərə, hətta yaponların özlərinə də çətinlik yaratdığı məqamlar olur.

2. Yapon dilində zaman anlayışının qısa izahı

İndiki və gələcək zamana aid olan cümlələr bir-birindən ya zaman zərflərinin köməkliyi ilə ya da ümumi kontekstin verdiyi mənaya görə ayırd edilir. Birinci ayırd etmə üsulu hər hansı bir mətn, hekayə və ya başqa bir yazı toplusuna tətbiq olunur, ancaq tək cümlə olsa ancaq zaman zərfinin köməkliyi ilə ayırd edilə bilər. Məsələn:

1) 私は大学に行きます／行く 。Vataşi-va daiqaku-ni ikimiasu/iku — Mən universitetə gedirəm/gedəcəm.

2) 私が今日は大学に行きます／行く 。Vataşi-qa kyō-va daiqaku-ni ikimasu/iku — Mən bugün universitetə gedirəm.

3) 私が明日は大学に行きます／行く 。Vataşi-qa aşita-va daigaku-ni ikimasu/iku — Mən sabah universitetə gedəcəm.

2.1 Yapon dilində zamanlar və tamamlayıcı cümlələr

Yapon dilində iki tərəfli zaman fərqi var: indiki və keçmiş. (İndiki zaman bəzən “keçmiş olmayan” zaman adlanır.) Dil predikatındakı indiki zaman forması təsvir olunan hadisənin vaxtının ondan sonra olduğunu və ya özündən sonra olduğunu göstərir. Nitq vaxtı (hadisə vaxtı > nitq vaxtı və ya hadisə vaxtı ⊇ nitq vaxtı; “daxiletmə” şərhi yalnız statik predikatla mümkündür). Keçmiş zaman forması bir matris predikatın üzərində isə, təsvir olunan hadisə nitq vaxtından əvvəldir (hadisə vaxtı < nitq vaxtı).

(1) Tanakasan va aşita Sakaşitasan-ni au. 田中さんは明日坂下さんに会う 。
Tanaka sabah Sakaşita ilə görüşəcək
(2)Tanakasan va kinō Sakaşitasan-ni atta. 田中さんは昨日坂下さんに会った。
Tanaka dünən Sakaşita ilə görüşdü.

T.Ogihara öz məqaləsində (1996) yapon zamanlarının mahiyyət etibarilə indeksli olmadığı fikrini müdafiə edir. Onun fikrincə təhlil zamanı zaman forması iki müvəqqəti arqument təqdim edir ki, onları qeyri-rəsmi olaraq "istinad vaxtı" arqumenti və "hadisə vaxtı" arqumenti adlandırmaq olar.

Matris mühitində zaman forması meydana gəldikdə, istinad vaxtı arqumenti semantik şərh qaydası (həqiqət) ilə xarici "indi" ilə əvəz olunur. Bu tərif bütün cümlənin məntiqi tərcüməsi haqqında; hadisə vaxtı arqumenti isə ekzistensial olaraq eyni qayda ilə bağlıdır.

Oqihara (səh. 64-66) tərəfindən təklif olunan müvafiq sintaktik və semantik qaydalarla sadə zaman cümlənin semantik törəmə prosesini təsvir edir.

2.2 Yasuhiro Şirai və Atsuko Kurononun əcnəbi tələbələr üzərindəki təcrübi tədqiqatı

Tədqiqatçılar ikinci dilin mənimsənilməsində zaman aspekti morfologiyasının inkişaf ardıcıllığının universal bir modelə (Aspekt Hipotezi; məsələn, Robison, 1995) uyğun olduğunu iddia etməyə başladılar. Belə bir metod tipoloji cəhətdən oxşar dillərin (İngilis, Fransız və İspan) öyrənilməsi zamanı uğurlu olsa da, ayrı-ayrı dil ailələrinə mənsub olan, quruluşca fərqli olan dillərdə sınaqdan keçirilməmişdi. Bu araşdırma, yapon dilini xarici dil olaraq öyrənən tələbələr üzərində müvafiq metodloji məlumatlardan istifadə edərək Aspekt Hipoteziyasını sınaqdan keçirdi. 1-ci təcrübə göstərdi ki, şifahi nitq zamanı ingilisdilli 3 tələbə yapondilli insanlara nisbətən bacarıq (-rare/〜られ) felləri və keçmiş zaman (-ta/〜た) və davamedici zaman forması (-te -iru/〜ている) yaxşı qavrayaraq yaxşı göstərici nümayiş etdirdilər. 2-ci təcrübə göstərdi ki, zaman aspekt formalarının məqbul mühakimə testində, ingilisdilli 17 şagirdi xəbər şəkilçili fellər ilə müqayisədə bacarıq şəkilçili fellər ilə davamedici zamanda olan feillərin (-te i-) təhlil edərək çalışmaları həll etməkdə daha çox çətinlik çəkdilər. Nəticədə Aspekt Hipotezinin qeyri-Hind-Avropa dilinə tətbiqini genişləndirməklə məhsuldar nəticənin əldə ediləbiləcəyini sübut etdilər.

3. Kyoto Universitetində yeni dərslik müzakirələri

Bu məqalə 2004-cü ildə Kyoto Universitetinin müəllim və elmi işçiləri tərəfindən təqdim edilmiş essenin 2008-ci ildə olan yenidən işlənmiş versiyasıdır. Bu kitab yapon dilinin vəziyyət cədvəlinin ümumi mənzərəsini, ümumi dilçilik nöqteyi-nəzərindən sistematik şəkildə qavramağa çalışır və dil pedaqogikasında şərt cədvəlinin ifadəsi üzrə tədqiqatın nəticələrini nümunə kimi istifadə edir.

Digər tərəfdən, ayrı-ayrı quruluşa malik olan dillərin müqayisəli öyrənilməsindən dilçiliyə dair məlumatların yayılmasına güclü münasibət var. Bununla bağlı 1985-ci ildə və 2007-ci ildə nəşr olundu ki, bu da çoxlu təsviri araşdırmalara malik olan yapon dilinin hazırkı tədqiqat kitablarında da fərqlənir. Şigeru Sakahara 1985 - "Gündəlik Dillər Nəzəriyyəsi"ndən heç də geri qalmayacağı gözlənilir. Bu kitab

məzmununun dərinliyinə və mürəkkəbliyinə əsaslanır. Yaponiyanın ali təhsil müəssisələrinə filoloji baxımdan yeni yanaşmalar gətirən bu dərslik haqqında öz yanaşmamı bildirmək istəyirəm.

3.1 Setsuko Aritanın "Yapon şərti cümlə və zaman moderasiyası" adı altında təqdim etdiyi dərsliyin əsas məqsədi

Əvvəla bu kitabın mündəricat quruluşunu təqdim etmək istərdim.

1. 2. Bu kitabın təşkili

Bu kitabın strukturu aşağıdakı kimidir

Fəsil 1 - Giriş
Fəsil 2 - Müvəqqətilik və modallıq
Fəsil 3 - Yapon dilində zərf cümlələri və mükəmməl zaman cümlələri
Fəsil 4 – Yapon dilində mükəmməl zaman cümlələri və müəyyənlik
Fəsil 5 - Məntiqi cümlələrin sistemliliyi
Fəsil 6 - Şərti ifadələrin mənası və
İki növ qeyri-müəyyənlik
Fəsil 7 - Yapon dilində şərti cümlələr
Fəsil 8 - Yapon proqnozlaşdırıcı şərtli cümlələr
Fəsil 9 - Yapon dilində koqnitiv şərtli cümlələr
Fəsil 10 - Yapon dilində əks faktual şərti cümlələr
Fəsil 11 - Antesedentin əvvəlcədən təyin oluna bilməsi və nəticənin modallığı
Fəsil 12 – "Te ha" cümlələrinin mənalarının sintezi
Fəsil 13 – Ümumiləşdirmə

Əvvəla onu qeyd etməliyəm ki, məqalənin mövzusundan uzaqlaşmamaq üçün, müəyyən fəsillərə toxunacağam. Şərti ifadələrin təhlili 5-ci Fəsildən (xüsusilə, Fəsil 6) başlayır. Biz "müvəqqətilik" və "determinizm"i cümlələrin təhlili üçün zəruri olan anlayışlar kimi müəyyən edirik. Bunlar şərti ifadələrdir və münasibətdən öyrənilməsi lazım olan bir məqam var ki, müstəqil müəyyən etmək lazımdır. Savadlılığın sistemləşdirilməsi, dəyər və qiymətləndirmə zərflərinin təhlili ilə bağlı da maraqlı mülahizələr irəli sürülür.

3.2 Müvəqqəti müddəalar və əvvəlcədən müəyyən edilmiş cinslər - B sinfindən asılı maddələrin yenidən təsnifatı

İndi bu kitabda ortaya çıxan müxtəlif arqumentlər və məsələlərdən bəzilərini müzakirə edəcəyəm. Birincisi kitabın adıdır Həmçinin bu kitabda ``müvəqqəti bənd" və ən böyük açar söz olan ``Scttledness" var. Kitab şərti cümlələrin təhlilinə keçməzdən əvvəl kitabda əvvəlcə modallıqlar sistemi müzakirə edilir və Pahmer (2001) Buna görə də, Yapon modallıqları aşağıdakı kimi başa düşülür.

Təklif Modallığı	Koqnitiv	だろう・はずだ・にちがいない等
	Təsdiq	ようだ・らしい・そうだ等
Vəziyyət Modallığı	Məcbur	べきだ・なければならない・てもいい等
	Dinamik	う・よう・ことができる等

Təklif modallığı modallıq formasının qarşısında zamanların fərqləndirilməsinə malikdir

Digər tərəfdən, vəziyyət modallığında heç bir fərq yoxdur. Və zamanların fərqinə varın

Mən təklif edirəm ki, zaman tərkibli cümlələri `` mükəmməl zaman cümlələri", zamansız cümlələri isə " qüsursuz zaman cümlələri" adlandıraq. Onu tabeli cümlədə də araşdıraraq maraqlı təhlil təqdim olunub. Fujio Minami (1974) tabeli cümlələri üç kateqoriyaya, A, B və C siniflərinə təsnif etdi. A sinfi fil gi halına malik olduğu və felin inkar formasının da göründüyü formaya malik olduğu üçün ikiyə bölünür. Bununla belə, bu kitab B sinfini ikiyə bölməyi təklif edir. Yəni zaman formasının fərqi olmadıqda

Onlar zamanlar (məsələn, ba-tara-to-te-ha) və fərqləndirici mükəmməl zamanlardır (nara-no-nara kimi).

Cənub təsnifatı	Takubo təsnifatı	Arita təsnifatı
A sinfi	A 類1 ＝様態・頻度の副詞＋動詞	非時制節
	A 類2； 頻度の 副詞＋対象ヵ格＋動詞	
B sinfi	A 類2； 頻度の 副詞＋対象ヵ格＋動詞	不完全時制節
		完全時制節

B sinfinin ikiyə bölünməsinin göstəricisi qrammatikanın bütün sahələrinə təsir edən əhəmiyyətli bir göstərici olacaq.

İstifadə olunmuş ədəbiyyat

1. **Məqalə:** D.Y. Oshima – Yapon dilində perspektivlik, loqoforiklik və zaman anlayışı 20 səh.
2. **Kitab:** F.Minami – Müasir yapon dilinin strukturu 95. səh
3. **Məqalə:** P.Robinson – Aspekt Hipotezi 23 səh.
4. **Məqalə:** T.Oqihara – Zaman kateqoriyasının əhatəsi və nəzəri təyinatı 1996, 84 səh.
5. **Kitab:** Y.Şirai və A.Kurono – Yapon dilində zaman aspekti və yapon dilinin ikinci dil kimi öyrənilməsi 60 səh.

Xülasə

Məqalə yapon dilini öyrənilən zaman yaranan, xüsusilə də ana dili yapon dili olmayan əcnəbilərin qarşılaşdıqları problemlərlə və qismən də bu problemlərin həll üsulları ilə bağlıdır. Yapon dili ilə Azərbaycan dilinin hər ikisinin iltisaqi, hətta bəzi linqvistlərin mövqeyincə hər ikisinin Altay dil ailəsinə mənsub olmasına baxmayaraq, aktual problemləri həddindən artıq fərqlidir. Yapon dilinin beynəlxalq səviyyədə öyrənilməsi, ötən əsrdən başlamış, bugünkü gündə də genişləndirilməkdədir. Bu dilin öyrənilməsi, əsasən akademik zəmində baş tutur. Dünya universitetlərində, o cümlədən, Azərbaycan universitetlərində, ələlxüsus Bakı Dövlət Universitetində, yapon dilinin müasir problemləri və onun həll yolları zəminində elmi tədqiqatlar aparılır. Ancaq təbii olaraq, bu problemlərin ən geniş miqyasda araşdırılması da, yapon ali təhsil ocaqları və dilçiləri tərəfindən aparılır. Bunlarlar yanaşı yapon dilinin daha asan və sadə şəkildə öyrənilməsi üçün dərsliklər tərtib olunur və gündən-günə inkişaf ettirilir. Lakin bütün bunlar baş verərkən linqvistlərin arasında fikir uyuşmazlıqlarını da müşahidə etmək olur. Nəticə etibarilə, yapon dilində dil problemlərinin həllində geniş miqyasda uğurlar əldə edilsə də, hələ də böyük dil problemləri davam etməkdədir.

Açar sözlər: dilçilik, dil problemləri, linqvistik araşdırmalar, yapon dilinin öyrənilməsi

Summary

The article is related to the problems that arise when learning the Japanese language, especially for foreigners whose native language is not Japanese, and partly to the methods of solving these problems. The actual problems of the relationship between the Japanese language and the Azerbaijani language, even though both belong to the Altai language family according to some linguists, are extremely

different. The study of the Japanese language at the international level began in the last century and is being expanded today. The study of this language takes place mainly on an academic basis. World universities, including Azerbaijani universities, especially Baku State University, conduct scientific research on the modern problems of the Japanese language and its solutions. But, of course, the most extensive research of these problems is carried out by Japanese higher education institutions and linguists. In addition to these, textbooks are designed and developed day by day for easier and simpler learning of the Japanese language. However, while all this is happening, disagreements between linguists can also be observed. As a result, although there have been large-scale successes in solving language problems in Japanese, major language problems still persist.

Keywords: linguistics, language problems, linguistic research, study of Japanese language

Резюме

Статья связана с проблемами, возникающими при изучении японского языка, особенно у иностранцев, для которых японский язык не является родным, и отчасти с методами решения этих проблем. Фактические проблемы взаимоотношений между японским языком и азербайджанским языком, хотя оба они принадлежат к алтайской языковой семье, по мнению некоторых лингвистов, крайне различны. Изучение японского языка на международном уровне началось в прошлом веке и расширяется сегодня. Изучение этого языка происходит в основном на академической основе. Мировые университеты, в том числе азербайджанские университеты, особенно Бакинский государственный университет, проводят научные исследования по современным проблемам японского языка и их решениям. Но, безусловно, наиболее широкое исследование этих проблем проводят японские вузы и лингвисты. В дополнение к этому учебники разрабатываются и разрабатываются день за днем для более легкого и простого изучения японского языка.

Ключевые слова: лингвистика, языковые проблемы, лингвитческие исследования, изучение японского языка

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: f.e.d. O.B.Cəlilbəyli
tərəfindən çapa tövsiyə olunmuşdur

MAHNUR BAYANDUR Q.ŞIRINOVA
mahnur.shirinova@mail.ru
ADU Rəşid Behbudov 60

THE PECULARITIES OF THE PREPOSITIONAL PHRASEOLOJICAL UNITS
SUMMARY

Phraselojical units play an important role in the language vocabular Phraseology is one of the widely researched linguistics fields in English. Being the colorful language units the phraseological units reflect the national peculiarities. Every language has phraseolojical units that are specific for only that langoage.Phraselogy is one of the most investigated and most interesting fields of the linguistics.In the given article "The pecularities of the prepositional phraseolojical units" the features of these units are researched.

The author of the article gives detailed information about the different types of prepositional phraseolojical units then clarifies the types of this kind of phraseolojical units.While giving the explanation of these units the authorr stresses the imporance of the investigation of these language units.In the article the the specifics of the units are defined.The prepositional phraselojical units are divided into two groups:1)phraseolojical units that have prepositions at the beginning 2) phraseolojical units that have prepositions at the end.In the investigation the relations among the parts of the phraseolojical units and the relations of the prepositions and the words are analysed.

The author gives special attention to their specific features.The similarities and differences of these units are determined.The English language is rich in prepositions.Because of it there are a lot of prepositional phraselojical units in English.The most used prepositions are on,in,at,of,with etc.

Researching these language units the researcher has refered to the scientists who has contributed a lot in this field.At the same time the quotations from these scientists are given in the article.

Besides the theoretical investigation the article is also rich in the examples with prepositional phraseolocical units.

Key words: phraseology, prepositional phraseological units, place of prepositions

An idiom is a group of words, a saying, or a phrase with a symbolic rather than literal meaning that is accepted in common usage. It is a form of artistic expression characteristic of a movement, period, individual, medium, or instrument.

Its symbolic sense differs from the definition or literal meaning of the words that make it. Idioms convey a figurative meaning that is difficult to understand solely by interpreting the words literally. For instance, “beyond the pale” means something is “over the line” or improper. You can only know that by being able to infer the phrase’s meaning based on context or if someone explains it to you.

Many different idioms exist, and people use them commonly in all languages. Translating them into other languages can be challenging because some meanings may be lost. Still, equivalents that fill in the gaps between languages exist. The English language has an unlimited number of idiomatic expressions.

Idiomatic expressions are the building blocks of civilization and language. They make the language evolve. The great intensity of idioms makes a language dynamic and interesting. Phrases bring a remarkable illustration to daily speech and offer compelling insights into the use of languages, words, and the speaker’s thought process. There is a sense of fun and mystery about idioms.

The idiomatic expressions are difficult because their meanings are not always easy to understand. This is particularly the case for non-native speakers of the language in question, since their intentions are typically symbolic. Due to this characteristic, English learners find them strange and hard to understand.(theidioms.com)

An idiom is a type of phrase or expression that has a meaning that can’t be deciphered by defining the individual words. Appropriately, the word “idiom” is derived from the ancient Greek word “idioma,” which means “peculiar phraseology It’s essentially the verbal equivalent of using the wrong math formula but still getting the correct answer. The phrase “kill two birds with one stone” is an example of an idiom. Fluent and native English speakers understand that this doesn’t refer to harming birds or using stones, but that someone is completing two tasks at once.

Our deep dive into this topic will define what an idiom is, go over the different types, help you understand how to use them in writing, and give you some examples.

And that’s exactly what it is—a phrase that’s normal to fluent speakers (every language has its idioms) but strange to others.

People who struggle with idioms often can’t see the forest for the trees, which is itself an idiom used to describe someone who’s too involved with the details of a situation and can’t see the bigger picture at hand. It doesn’t involve any forests or trees.

To understand idioms is to see the forest for the trees, or to look at the phrase as a whole rather than focusing on the individual words.

Generally speaking, there are four types of idioms: **pure idioms, binomial idioms, partial idioms, and prepositional idioms**. Some people may consider **clichés, proverbs, and euphemisms** to be types of idioms as well, but we’ll explain why they are different from idioms.

1 Pure idiomThis is your typical idiom, the meaning of which can't be deduced by its individual components. When someone says, "Spill the beans," they're asking someone to reveal a secret, not to pour out a can of beans. But you wouldn't know that by looking at each word of that phrase.

2 Binomial idiom.This idiom is a phrase that contains two words joined by a conjunction or a preposition. Some examples include "by and large" (everything considered), "dos and don'ts" (guidelines on what to do and/or avoid in a certain situation), and "heart-to-heart" (a candid conversation between two people).

3 Partial idiom .This idiom is one that's been shortened into one part, with the second part generally being understood by fluent speakers. People often use the partial idiom "when in Rome," with the understanding that the other person knows the second part: "do as the Romans do."

4 Prepositional idiom .This idiom is a phrase that combines a verb and a preposition to create a verb with a distinct meaning. The phrase "agree on" is a prepositional idiom that combines the verb "agree" with the preposition "on" and is used to express that you share an opinion with someone. Prepositions are words that show location or the relationship between nouns.(Arnold İ. V. The engilish word. M-L., 1966.pp.68) Idioms that begin with prepositions can help a writer make important connections with figurative language. The following list is a collection of commonly used idiomatic phrases that begin with prepositions.

Idioms that begin with **At:**

Are you at a loss for the right idiom? You may not be able to find it **at first**, but after reading these idioms that begin with *at*, you'll have several more to choose from. **At any** rate, you'll enjoy these figurative phrases!

at one's disposal – available for one's use

at last – finally, after some delay (connotes a feeling of exhaustion after a long period of waiting)

at a loss – unsure of what to do or say; speechless

Idioms That begin with **Behind, Beside**, and **By**

If you've ever wondered what happens **behind the scenes**, check out these idioms that begin with *behind, beside,* and *by*. And **by all means**, feel free to use them in your own writing:

behind the scenes – influencing events secretly; unseen

by all means – by any possible method

by hand – without the use of machinery

by oneself – alone

Idioms that begin with **For** and **From**

Whether you write **for a living** or just **for the time being**, it's helpful to have a collection of idioms to choose from. These idioms begin with *for* and *from*, and can keep you from having to write expressions **from scratch**:

for a living – as a profession

for now or for the time being – until some other arrangement/decision is made

materials; without anything pre-made

from time to time – occasionally

Idioms that begin with **In and Inside**

If you've been searching for the perfect idiom **in vain**, check out this list for help. These idioms begin with *in* and *inside* and can really improve your writing **in no time.**

in any case – whatever happens

in fact – in reality; really

in the heat of the moment – acting in high emotion without thinking

in no time – very soon; very quickly (used to tell how quickly something happened.

Idioms that begin with **On**

Writers are always on the lookout for the perfect idiom. But it's hard to come up with the right phrase on one's own. If you're on the verge of a writing breakthrough, keep the idioms that begin with ***on* one hand***:*

on demand – when requested or demanded

on fire – burning; in flames (not burning as in turning black from staying in the oven too long)

on hand – available; in stock

on time – at the correct time

on the verge of – very close to (an achievement)

Idioms that begin with **Out**

Including idioms in your writing may feel difficult if you're **out of practice**. But improving the quality of your writing is never **out of the question**! Keep this list of idioms that begin with *out* handy in your next writing project:

out of practice – unable to do something as well as one once could because of lack of recent practice

out of the question – not to be considered; not an option

out of shape – not in top physical condition because of lack of exercise (opposite – in shape)

out of sight – not able to be seen; hidden (opposite – in sight)

Idioms that begin with **To and Under**

Many writers are **under the impression** that leaning on idioms can make writing feel cliched. But if you only use idioms **to a certain extent**, they can make your writing feel familiar and folksy. Here are some idioms that begin with *to* and *under*:

to a certain extent – partly
under one's breath – in a whisper; not intending to be heard
under the impression that – having the idea/belief that
under the influence of – affected by (usually alcohol or drugs)
Idioms that begin with **Up, With, and Within**

Now that you've reached the end of the list, you might be ready to use idioms in your writing **with a vengeance**. But the best writers know that it's important to only include these expressions **within reason**. Check out these idioms that begin with *up*, *with*, and *within*:

with the naked eye (also to the naked eye) – without the use of a lens
with regard (also with respect to) – concerning; about
with a vengeance – more than usual; angrily
within reason – that is reasonable

Idioms that end with prepositions are typically phrasal verbs and consist of a *verb* followed by either a *preposition*, a *particle*, or a *particle* with a *preposition*. This type of prepositional idiom is used like a normal verb (describing the action of a subject) and may come at the beginning, middle, or end of a sentence.Here are some of the most common prepositions found **at the end** of prepositional idioms: up,down, on,**off**, with

To determine the meanings of idiomatic phrasal verbs, we must memorize as many combinations as possible. The following sections contain examples of prepositional idioms that end with the most common prepositions.

This is not an exhaustive list, however: there are other prepositions that can be used to form phrasal verbs, and many more combinations than the ones listed below. Additionally, many phrasal verbs have several completely unrelated meanings, which we can only learn by encountering them in writing and speech. (.thefreedictionary.com.)

Idioms that end with **up**

The table below shows various examples of prepositional idioms that end with the preposition *up*:

act up- to misbehave
bring up- to mention (in conversation)
come up- to happen (usually unexpectedly)
hang up- to end a phone call
Idioms that end with **down**

die down- to lessen in intensity or become weaker
let down- to disappoint
play down ------ to make something seem less important than it truly is

step down--- to resign or retire from a position

Idioms that end with ***on***
count on-- to rely or depend on
go on--- to continue
hang on- to wait; to be patient
tell on-- to report someone else's wrongdoing to a person of authority -

Idioms that end with **off**
back off--- to withdraw or retreat
call off--- to cancel
kick off--- to begin
Idioms that end with ***with***
come down with--- to become sick; to fall ill
do away with-- to stop or abolish; to get rid of --
get along with------ to have a good or friendly relationship with someone
put up with----- to tolerate

English is full of figurative language. The vast number of idioms in English make it one of the most difficult languages to learn, but now that you know these popular idioms, you are on your way! Take a look at these famous idioms in literature or a list of idioms about love.It's difficult to define an idiom's structure because it changes from language to language, and it even varies in different regions that speak the same language.(Jaeger L. The Nature of Idioms: the Systematic Approach- Bern ,Peter.pp.42)

Lang, 1999.. Idioms have more to do with syntax—the specific order of words or phrases—than grammar. The ancient Greek word "idioma" means "peculiar phraseology," so the rules for how to properly structure an idiom are unique to a specific region.Most New Yorkers understand the phrase "it's mad brick" to mean that it's cold, but people elsewhere in the US may not understand what the phrase means because the combination of those words is unique to New York City. Learning the structure of a particular region's idioms takes time and is often achieved by speaking with people from that area. A speaker or writer often uses idioms to convey a message to someone else in a more creative way. Think of them as a type of spice that prevents your conversation or writing from being too bland. So instead of saying "you're correct" several times, you might throw in "you hit the nail on the head" or even "bingo" for a little variety.

When are idioms used in writing.As mentioned above, idioms can be used to prevent your writing from appearing too dry or formal, but they can also be used to help the writer connect with the reader.

If you were writing for a Texan audience, and you wanted to describe something as large, you wouldn't just say that. Instead, you would say it's "bigger'n

Dallas," which means it's very big. This shows the reader that you have a familiarity with the topic you're writing about.

Other types of idiomatic usage There is another type of idiomatic usage used by fluent English speakers, and it's called collocations, or a combination of words that have a specific meaning. In English, it's common to describe a backup of cars on the highway as "heavy traffic." It's not common to describe it as "crowded traffic." Although the phrases could reasonably be interpreted the same way, the collocation "heavy traffic" simply "sounds right" to English speakers.

As we mentioned before, that's also true of people from different parts of the same country who speak the same language.

Because there are no steadfast rules for idioms, the only way for language learners to become familiar with them is to speak with native speakers and have them explained. Idiom examples

Here are some common idioms in the English language, along with their meaning.

Under the weather Meaning: Not feeling well

Break a leg Meaning: To wish someone good luck

Once in a blue moon Meaning: Rarely

The ball is in your court Meaning: A decision is up to you

You can say that again Meaning: That is true

Beat around the bush Meaning: To avoid saying something

By the skin of your teeth Meaning: Barely made it

Why are idioms challenging for language learners?

Idioms are challenging for language learners because their meanings can't be deciphered from the meanings of the individual words. It's like giving someone a jigsaw puzzle containing pieces that look like one thing, only for the finished product to be something else entirely.

SÖZÖNÜLÜ FRAZEOLOJI VAHIDLƏRIN XÜSUSIYYƏTLƏRI ARAŞDIRILIR

XÜLASƏ

Frazeoloji vahidlər dilin lüğət tərkibində xüsusi yer tutan dil vahidləridir. Bu vahidlər nitqə ifadəlilik, obrazlılıq gətirən və xüsusi məna çalarlığı olan birləşmələrdir. Hər bir dildə həmin dil üçün spesifik olan frazeoloji vahidlər vardır. Dilçilik sahəsində ən çox tədqiq olunan və maraq göstərilən sahələrdən biri də məhz frazeologiya sahəsidir. Təqdim olunan məqalədə "Sözönülü frazeoloji vahidlərin xüsusiyyətləri" araşdırılır.

Müəllif ilk növbədə sözönülü frazeoloji vahidlərin müxtəlif növləri haqqında məlumat verir və onlar arasındakı əlaqəni izah etməyə çalışır. Bu ifadələrin izahını verərkən müəllif onların tədqiqinin mühimliyini vurğulayır. Həmin ifadələrin

xüsusiyyətlərini müəyyən edir. Məqalədə müəllif ifadələri iki qrupa bölür:1) əvvəldə gələn sözönüləri ilə işlənən frazeoloji vahidlər 2)sonda gələn sözönüləri ilə işlənən frazeoloji vahidlər.

Tədqiqat zamanı bu birləşmələrin komponentləri yəni frazeoloji vahidi təşkil edən sözönü və söz arasındakı əlaqələr gözdən keçirilir. Məqalədə müəllif onların xarakterik xüsusiyyətlərinə xüsusi diqqət yetirir. Bu vahidlərin bir-birindən fərqli və onların bir-birinə oxşar xüsusiyyətləri təhlil olunur. İngilis dilində sözönülərin sayı çox olduğundan onlarla işlənən frazeoloji vahidlərin də sayı çoxdur. Bunlardan ən çoxu on, in, at, of, with və s. sözönüləridir.

Araşdırma apararkən müəllif bu sahədə elmi tədqiqatları olan alimlərin fikirlərinə istinad edərək onlardan sitatlar gətirmişdir. Məqalədə sözönülü frazeoloji vahidlərin nəzəri araşdırılması ilə yanaşı hər iki formaya aid xeyli sayda nümunələr verilmişdir.

Açar sözlər:frazelogiya, sözönlü frazeoloji vahidlər,sözönlərinin yeri

ОСОБЕННОСТИ ПРЕДЛОЖНЫХ ФРАЗЕОЛОГИЧЕСКИХ ЕДИНИЦ. РЕЗЮМЕ

Фразеологические единицы занимают важное место в словарном составе языка. Это единицы, привносящие в речь выразительность, образность, а также особые оттенки значения. В каждом языке имеются фразеологические единицы специфичные для данного языка. Фразеология является самой исследуемой и вызывающей интерес областью. В настоящей статье исследуются особенности предложных фразеологических единиц.

Автор, в первую очередь, повествует о разных типах предложных фразеологических единиц, и делает попытку разъяснить связь между ними. При разъяснении данных единиц, автор подчеркивает важность их исследования, определяет свойства данных выражений. Автор делит данные выражения на две группы:1)фразеологические единицы с использованием предлогов в начале 2)фразеологические единицы с использованием предлогов в конце.

В исследовании рассматриваются компоненты данных выражений, т.е. предлоги, составляющие данные выражения и связи между словами. Автор уделяет особое внимание их характерным свойствам. Анализируются различия и сходства данных единиц. Из-за большого количества предлогов в английском языке, количество фразеологических единиц с их использованием велико. Это такие предлоги как on, in, at, of, with и т.д.

В статье автор ссылается на исследования ученых в данной сфере и цитирует их. Здесь наряду с теоретическим изучением предложных фразеологических единиц, приводится большое количество примеров обоих типов фразеологических единиц.

Ключевые слова:фразеология ,предложных фразеологических единиц, место предлоги

Ədəbiyyat :

1. Амосова Н. Основы английской фразеологии. М., 1963
2.Arnold İ. V. The engilish word. M-L., 1966.
3.. Кунин А.В. Курс фразеологии современного английского языка. М., 1986.
4. Jaeger L. The Nature of Idioms: the Systematic Approach- Bern ,Peter Lang, 1999..

İnternet saytları:

5. www.ePals .com/Join
6. www.oed.com
7.www.thefreedictionary.com
8.www. theidioms.com

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: dosent Aytən Rzayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
ATU-nun Azərbaycan dili kafedrası
d_nagiyeva@mail.ru

NİTQ MƏDƏNİYYƏTİNİN İCTİMAİ ƏHƏMİYYƏTİ

Açar sözlər: *nitq mədəniyyəti, mükəmməl nitq, dilin estetikası, nitqin dinamikası, üslublar, nitq normaları və s.*
Ключевые слова: *культура речи,совершенствование речи,эстетика языка,динамика речи,нормы речи и т.д.*
Key words : *speech culture, perfect speech, aesthetics of languages , the dynamics of speech styles , the norms of speech and etc.*

Gözəl, rəvan dil, ifadəli, emosional və təsirli nitq təkcə o nitqlə danışanın deyil, həm də o nitqi dinləyənin, eləcə də daha geniş auditoriyanın estetik baxımdan inkişafı üçün mühüm amil hesab edilə bilər. Nitqin mükəmməlliyi həm ümumilikdə dilin potensial imkanları, həm də o dildə danışan fərdlərin intellektual səviyyəsi ilə bağlı olur. Nitq cəmiyyətdə, sosial-siyasi, mədəni mühitdə formalaşır və tətbiq olunur. Buna görə də nitq həm də ictimai, yəni cəmiyyət hadisəsidir. Mükəmməl nitq formalaşdırma məsələsi ilk növbədə təhsil, elm sahəsinin praktik təlim obyektidir. "Avropanın əksər ölkələrində orta məktəb proqramlarına daxil edilən "Nitq mədəniyyəti" fənni nəticədə xalqın səlis və rəvan danışmasına, hər kəsin öz fikirlərini çətinlik çəkmədən ifadə etməsinə gətirib çıxarır. Bu qədər zəngin lüğət tərkibinə və leksik imkanlara malik Azərbaycan dilində bəzən fikirlərin ifadəsi zamanı rastlaşdığımız xoşagəlməz hallar, fikir büdrəmələri, yersiz təkrarlar, lazımsız ifadələr və s. hər bir ziyalını narahat edir. Digər tərəfdən, bu gün gözəl Azərbaycan dilinin imkanlarından məharətlə yararlanıb fikirlərini dürüst və ifadəli çatdıran, cəlbedici nitqi ilə auditoriyanı valeh edib özünə bağlayan istedadlı natiqlər vardır. Belə təcrübələrin yayılması, həmin nümunələrin timsalında daha yaxşı danışıq vərdişlərinin kütləviləşdirilməsi universitet auditoriyalarından keçir. Ali məktəblərdə, hətta orta məktəblərdə nitq mədəniyyəti vərdişlərinin aşılanması, gənclərə düzgün və səviyyəli danışıq qaydalarının öyrədilməsi günün tələbinə çevrilib. Klassik ritorikanın banisi hesab edilən Aristotelin dediyi - "şair və rəssamdan fərqli olaraq natiq doğulmurlar, bilik, ağıl və təcrübə hər kəsi natiq edə bilər",- kimi dəyərli fikirləri nəzərə alsaq, onda fənnin geniş tədrisi mübahisəsizdir" [1].

Antik yunan, eləcə də şərq xalqları mədəniyyəti tarixində elmin, təhsilin inkişafı, bütövlükdə şəxsiyyətin formalaşması, kamilləşməsi üçün qarşıya qoyulan tələblərdən biri də mükəmməl nitq mədəniyyətinə sahiblənmək problemi idi. N.Gəncəvidən üzü bu yana klassik ədəbiyyatımız, daha sonra maarifçilik zamanında XIX əsr maarifçi-realist ədiblərimiz aydın və savadlı nitqə malik olmanın

üstünlüklərini xüsusilə vurğulamışlar. Əxlaqi-didaktik mənbələrin böyük əksəriyyətində bəlağətli və elmli nitqin milli düşüncənin inkişafına əhəmiyyətli təsirindən söz açılır. "XIX əsrin ikinci yarısında və XX əsrin əvvəllərində yaşayıb-yaradan şair, rəssam, musiqişünas, xəttat, naqqaş, maarifçi, pedaqoq kimi tanınan M.M.Nəvvabın söz, sözün qüdrəti, danışıq mədəniyyəti haqda bir çox fikirləri, nəsihətləri olmuşdur ki, bunlar bugünkü dəyərlər baxımından qiymətlidir, əhəmiyyətlidir. Onun "Nəsihətnamə"sindən (beş yüz nəsihət) danışıqla, mədəni nitqlə bağlı verilmiş bir neçə nəsihəti nümunə göstərək: bacardıqca qısa və mənalı danış, əks halda danışmasan yaxşıdır; sözü deyən vaxt fikrini düzgün ifadə et, bişirilməmiş söz danışma; danışarkən tez özündən çıxmaq axmaqlığın nişanəsidir; sözü çox uzadıb təkrar etmə ki, avamlığa dəlalət edər; səndən bir söz soruşmasalar demə; o adam ki, sənin nəsihətini eşitmir, nəsihət etmə; məclisdə öz qədərindən artıq danışma, yoldaşlara da fürsət ver; məclis əhli xahiş etsə, danışa bilərsən və s." [2,23].

Ünsiyyətin işarələr mexanizmi hesab edilən dil həm də nitq inkişafının tempi ilə tənzimlənir. Dilin canlılığı, funksionallığı, onun leksik fondunun işləkliyi, fəallığı ədəbi-bədii, publisistik, elmi üslubda yazılan əsərlərlə yanaşı həm də nitq prosesində formalaşır, xüsusi səciyyə qazanır. Aydındır ki, millət kimi mövcudluğun, yaşamanın əsas şərtlərindən biri, bəlkə də birincisi dil faktı ilə əlaqədardır. Dilin dinamikası, fonetik, leksik, qrammatik və s. aspektdən cilalanması da həmin dilin nitqlə əlaqəsi nüansında tənzimlənir. Dil nitq üçün baza, mənbə olsa da, o öz ifadəsini, əksini məhz nitqdə tapır. Nitq vasitəsilə öz potensiyasını reallaşdırır. "Nitq mədəniyyəti tətbiqi dilçilik sahəsi olub, hər hansı konkret bir dilin orfoepik, orfoqrafik, leksik, qrammatik, üslubi və s. normalarını müəyyənləşdirən nəzəri axtarışlar və təcrübi tədbirlər kompleksidir" [3,194].

Eradan əvvəl Qədim Çində, Misirdə, Hindistanda, Ərəbistanda, Babilistanda və başqa ölkələrdə filosof natiqlər yetişmişdir. Yunanıstan isə natiqlər diyarı bir məmləkət kimi bu ölkərər arasında xüsusilə seçilir. Onu da qeyd edək ki, natiqlik elminin də inkişafı digər mühüm elmlərdə olduğu kimi iqtisadi, sosial, mədəni inkişafla daha çox əlaqəli olur. Bu baxımdan qədim Yunanıstanda ictimai-siyasi sahələrdə baş verən mübarizələr, iqtisadiyyatdakı irəliləyiş, elmi tərəqqi, filosofların get-gedə çoxalması və onların nəzəri məktəblərinin yaradılması Afina şəhər dövlətində natiqlik sənətini inkişaf etdirdi.Antik Yunan natiqlik sənətində təkamül və praktik maarifləndirmə sahəsində ən böyük xidmətlər məhz Aristotelin adı ilə bağlı olmuşdur. Onun "Ritorika" əsəri natiqlik sənətinin bir elm kimi əhəmiyyətini isbat etmişdir. Bu əsərdə nitq inkişafının nəzəri-estetik əsasları işlənib hazırlanmışdır. Nitqin üslubu, orfoepiya qaydaları, estetik təsirlilik şərtləri, ifadəlilik, obrazlılıq əlamətləri geniş şəkildə şərh edilmişdir. "Ritorika" əsəri üç hissədən ibarətdir: a) Nitqin tərtibi prinsipi; b) Natiq üçün lazım olan şəxsi keyfiyyət və qabiliyyət; c) Nitqin texnikası, vasitələri və priyomları. Aristotel nitqin üsluba, məqsədə və şəraitə uyğun qurulmasına daha çox fikir verir və göstərirdi ki, üslubun əsas mahiyyəti onun aydınlığı ilə bağlıdır. Üslub nitqin predmetinə uyğun olmalıdır. Aristotel natiqin

məharətinin beş cəhətini xüsusi qeyd edirdi. 1. Materialın icadı və onun hazırlanması. 2. Planın tərtibi. Materialın plan üzrə müvafiq formaya salınması. 3. Həmin materialın öyrənilməsi və yadda saxlanılması. 4. Materialın şifahi şərhinin ədəbi-üslubi cəhətdən işlənməsi. 5.Nitqin söylənilməsi, orfoepiya (ədəbi tələffüz), intonasiya, emosiya və s. məsələlərin nəzərə alınması və onlara əməl olunması [4,123].

Ali məktəblərdə "Nitq mədəniyyəti" fənninin tədrisi həm də gənclərdə danışıq etikası, mədəni nitq kimi mühüm xüsusiyyətlər formalaşdırır. Gələcəkdə həyatın müxtəlif sahələrində mütəxəssis kimi fəaliyyət göstərəcək bu insanların şəxsiyyət kimi inkişafında nitq mədəniyyətinə yiyələnmə vacibliyi danılmazdır.İctimai-siyasi, akademik natiqlik, din, hüquq idarələrində və diplomatik sahələrdə çalışan mütəxəssislərə xas xüsusi natiqlik məktəbi formalaşdırmaq işi tədris prosesində ələlxus nəzərə alınır. Nitqin milli səciyyəsi, şifahi və yazılı nitq spesifikası, monoloq, dioloq, poliloq danışıq üslubları nitq mədəniyyəti fənninin tədrisi zamanı xüsusilə diqqəti cəlb edən mövzular kimi öyrənilir. Mədəni nitqin nəzəriyyəsi dəyişməz qanunlardan ibarət deyil. Elmin, texnikanın inkişafı, dünyaya inteqrasiyamız, beynəlxalq əlaqələr və s. bu kimi obyektiv səbəblər əsas verir ki, nitq mədəniyyəti aşılayan, öyrədən fənnin nəzəri qanunları mütəmadi olaraq dəyişsin, cilalabsın. Eyni zamanda, norma və normalaşma, nitq normalarının parametrləri və s. məsələlər də bu fənnin mühüm mövzularındandır. Normaların (fonetik, leksik, qrammatik) formalaşma tarixinə diqqət yetirəndə məlum olur ki, ədəbi dil və nitq normaları müasir Azərbaycan dilinin daima inkişafda olan və fundamental əsaslar üzərində mövcud olduğunu isbat edir. Lakin bu gün nitq mədəniyyətinin yalnız ali məktəblərdə deyil, başqa sahələrdə, xüsusən mətbuatda, kütlvi informasiya vasitələri arenasında da inkişafı, tənzimlənməsi məsələsi problem kimi aktual olmalıdır. Təəssüf ki, nitq mədəniyyətinin möhkəmləndirilməsi, inkişafı üçün əsas, praktik baza olan bədii, elmi, eləcə də tərcümə ədəbiyyatı sahəsində xeyli problemlər var. Normaların kobud şəkildə pozulması nitqin korlanmasına, bəsitləşməsinə gətirib çıxarır. Çünki danışıq etikasının normalara dayanma ənənəsi var. Təsadüfi deyil ki, ifadəli danışıq, düzgün yazı vərdişlərinin mümkünlüyü də nitq mədəniyyəti və üslubiyyat kimi tarixi kateqoriyaların bir elm kimi mənimsənilməsi ilə bağlıdır. Dilin müxtəlif elementləri mətndə məhz normalara tabe olaraq cəmləşməli, kompleks sistemlilik əsasında qurulmalıdır. Düzgünlük, dəqiqlik, məntiqilik, ardıcıllıq və estetiklik üslubi normaların kriteriyası kimi daima gözlənilməlidir. Bütün bu proseslərdə dilin funksional imkanları da nəzərə alınır. Fonetik, leksik, onomastik, frazeoloji, morfoloji və sintaktik baxımdan potensial imkanlar və ya imkansızlıqlar dilin mövcud vəziyyətini də göstərir. Yəni, dil vahidlərinin üslubi imkanları reallıqda nəzərə alınmalı, praktikada düzgün tətbiq olunmalıdır.Üslubi fonetika (səslərin uzanması, qısalması, alliterasiya, assonans, samit səslərin təkrarı, cingiltiləşmə, karlaşma, vurğu, heca, ahəng qanunu və s.), üslubi leksika (ümumişlək sözlər, dialekt sözləri, terminoloji leksika, emosional – ekspressiv leksika, məişət leksikası,

jarqonlar, neologizmlər və s.) məsələləri adətən bədii əsərlərin dili təhlil edilərkən xüsusi tədqiqat prinsipləri kimi əsas götürülür.Məlumdur ki, Azərbaycan ədəbi dilinin üslubi baxımdan formalaşması prosesi XIII-XV əsrlərə təsadüf edir. Xalq danışıq dilinin və kitab üslubunun nitq mədəniyyətinin formalaşması prosesinə təsiri tarixini düzgün analiz edəndə aydın olur ki, bu mədəniyyətin – danışıq estetikası mədəniyyətinin yaşı daha qədimlərə gedib çıxır. Lakin bizim dilçilik ədəbiyyatında bu tədqiqatın yaşı çox uzağa getmədiyi üçün dəqiq söz demək də çətin olur. Dil və nitqin qarşılıqlı əlaqəsini öyrənərkən ən qədim ədəbimədəni mənbələrə əsaslanma faktı dünya filoloji fikir tarixində də öz əksini tapıb.İsveçrə dilçisi məşhur F.de Sössürün "Ümumi dilçilik kursu" adlı əsərində dil və nitqin oxşar və fərqli cəhətləri ilk dəfə ətraflı şəkildə şərh olunmuşdur. O, dil və nitqi iki müxtəlif hadisə hesab etmiş, göstərmişdir ki, dil qrammatik sistem və lüğət tərkibindən, yəni dil vahidlərindən, nitq həmin vahidlərdən ünsiyyət məqsədilə istifadədir. Nitq fərdi danışıq və eşitmə faktorlarından ibarətdir. Sonralar bu tezislə bağlı müxtəlif nəzəriyyələr meydana gəlmiş, fikirlər söylənilmişdir. Bu fikirlər nəticə etibarilə belə ümumiləşdirilmişdir ki, dil və nitq fərqli kateqoriyalar olsa da, bu iki anlayış bir-birinə bağlıdır, bir-biri ilə dialektik vəhdətdədir. Dilin funksiyaları (məlumatvermə, ünsiyyət, təsirgöstərmə) nitqin də funksiyalarıdır. Dil nitqin hesabına, nitq də dilin hesabına zənginləşər. Dil nitqdə fəaliyyət göstərir. Nitqdən təcrid olunanda o mücərrəd bir mahiyyət daşıyır, ünsiyyət, anlama üçün yararsız olur. Nitq ünsiyyət prosesi olduğundan nitq və dil arasındakı qarşılıqlı əlaqələr bu prosesdə baş verir. [2, 99].

Təsadüfi deyil ki, dil ilə nitqin funksiyası tam eyni səciyyə daşımır. Məsələn, dil daha çox kommunikativ, yaşadıcı, tarixi və intellektual, elmi yanaşma səciyyəli ola bilirsə, nitq ümumiləşdirmələr apararaq bütün bu təcrübələri yayır və daha çox ictimai təfəkkürə həmin dil materialları ilə təsir göstərə bilir. Nitq mədəniyyətinə yiyələnmə fərdlərin deyil, ümumilikdə cəmiyyətin təkamül prosesinə təsir edir. Deməli, nitq mədəniyyəti həm də ictimai əhəmiyyəti olan gərəkli bir elm, mədəniyyət faktıdır.

Ədəbiyyat

1.http://azertag.az/xeber/Ali_mektebler_uchun_Azerbaycan_dilinin_nitq_medeniyyeti_ve_ritorika_adli_ders_vesaiti_chapdan_chixib797782?device=Desktop 2. Abdullayev N. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.

3. Azərbaycan nitq mədəniyyəti problemləri. Bakı, 1988.

4. Əliyev K. Natiqlik sənəti. Bakı, 1994.

5. Dəmirçizadə Ə.A. Müasir Azərbaycan dili. Bakı, "Maarif", 1984. 6.Axundov A. Ümumi dilçilik. Bakı, 1973.

7.Ağayev F. Azərbaycan dilinin intonasiyası. Bakı, 1978.

8.Azərbaycan dilinin orfoepiya sözlüyü. Bakı, "Elm", 1982.

9.Azərbaycan dilinin izahlı lüğəti, III cild, Bakı, “Elm”, 1983.

DÜRDANƏ NAĞIYEVA

NITQ MƏDƏNIYYƏTININ ICTIMAI ƏHƏMIYYƏTI

XÜLASƏ

Məqalədə qeyd olunur ki, nitqin təkmilləşdirilməsi həm dilin potensial imkanlarından, həm də danışanın intellektual səviyyəsindən asılıdır. Nitq cəmiyyətin ictimai-siyasi, mədəni mühitində formalaşır. Ona görə də nitq sosial hadisədir. Nitqin təkmilləşdirilməsi, ilk növbədə, təhsil və elm sahəsində praktiki təlimin obyektidir. Amma hazırda nitq mədəniyyətinin inkişafı təkcə ali təhsil müəssisələrində deyil, digər sahələrdə, xüsusən də mətbuatda, mətbuatda aktual problem olmalıdır. Təəssüf ki, nitqin formalaşması və inkişafının praktiki əsası olan bədii ədəbiyyat, elmi, tərcümə ədəbiyyatı sahəsində çoxlu problemlər mövcuddur. Nitq normalarının kobud şəkildə pozulması nitqin primitivliyinə gətirib çıxarır, çünki danışıq nitqinin müəyyən edilmiş normalarının ənənələri mövcuddur.

ДУРДАНА НАГИЕВА

ОБЩЕСТВЕННАЯ ЗНАЧИМОСТЬ РЕЧЕВОЙ КУЛЬТУРЫ

РЕЗЮМЕ

В статье отмечается, что совершенствование речи зависит как от потенциальных воэможностей языка, так и от интеллектуального уровня говорящего. Речь формируется в социально-политической, культурной среде общества. Поэтому речь - это общественное явление. Совершенствование речи, в первую очередь,объект практического обучения в сфере образования и науки. Но в настоящее время развитие культуры речи должно быть актуальной проблемой не только в высших учебных заведениях, но и в других областях,особенно в печати, в средствах массовой информации. К сожалению, в области художественной,научной,переводческой литературы,которая является практической базой формирования и развития речи, есть немало проблем. Грубые нарушения норм речи приводят к примитивности речи,так как существуют традиции установившихся норм разговорной речи.

DURDANA NAGHIYEVA

THE PUBLIC SIGNIFICANCE OF SPEECH CULTURE
SUMMARY

İt deals with the article as a whole language of excellence depends on not only the credibility of speech but also an intellectual level that is associated with individuals who speak languages. Speech is formed and applied in social , political and cultural environment. Therefore speech is a public comunity event. The subject matter of the formation excellence speech in science and education first of all is practical and training. But speech culture must be urgent as a topical problem not only in high schools but also in other spheres , particulary in press in press and in the issue of regulation of the media İt is pity that thera are many problems in the fields of translation as well as in scientific literature , fictions the main practical base for the devolepment and strenghen of a culture of speech. The gross violation of the norms of speech leads to deterioration and becoming simpler of speech. Because speech ethics has its own traditional ethitics standard norms.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: f.ü.f.d.dosent L.V.Qocayeva
tərəfindən çapa tövsiyə olunmuşdur

MƏRYƏM ƏSƏDOVA NAMİQ QIZI
AMEA, Nəsimi adına Dilçilik İnstitutu
maryam.asadova29@gmail.com

İTALYAN DİLİNDƏ KEÇMİŞ ZAMANIN LEKSİK ASPEKTİ

Xülasə

Hər bir dil özünəməxsus formada zaman anlayışına malikdir. Bir-sıra dillərdə zaman, aspekt, temporal ifadələr və bəzi praqmatik-mətn anlayışlarındakı fərqliliklər buna bariz nümunədir. İndiyə qədər aspektin təhlili, qrammatik aspektual kateqoriyaların semantik kateqeqoriyalarla əlaqəsi, hətta terminin özünün və aspektuallıq kimi əlaqəli terminlərin mənaları ilə bağlı çoxlu müzakirələr aparılmışdır. Nəticə etibariylə hələ bu mövzular mübahisəli olaraq qalmaqdadır. Aspektuallıq dilçiliyin morfologiya bölməsində feil növlərindən, onların ümumi və spesifik cəhətlərindən bəhs edən bir bölmədir. Aspektuallığın bir növü kimi tədqiq edilən leksik aspektin xarakteristik cəhətləri dildəki məhdud və qeyri-məhdud, yaxud bitmiş və bitməmiş oppozisiyanı bizə xatırladır. İtalyan dili verbal morfoloji xüsusiyyətləri vasitəsiylə bir sıra məlumatlar ifadə edən, əks etdirən verbal paradiqmaya malik bir dildir. İtalyan dilinin aspektual xüsusiyyətləri bu dilin sistemində mühüm rol oynayır. Məqalədə İtalyan dilinin leksik aspektual formaları keçmiş zaman forması ilə qarşlıqlı şəkildə şərh edilmişdir.

Açar sözlər: aspektuallıq, leksik aspekt, aksionallıq, feilin tərz kateqoriyası

The lexical aspectual aspect of the past tense in Italian

Summary

Each language has its own linguistic picture of the concept of time. Differences in time, aspect, temporal expressions and some pragmatic-text concepts in a number of languages are a clear example of this opinion. So far, there has been much researches about the analysis of aspect, the relation of grammatical aspectual categories to semantic categories, and even the meanings of the term itself and related terms such as aspectuality. As a result, these issues still remain controversial. Aspectuality is a section in the morphological part of linguistics that deals with verb types, their general and specific aspects. The characteristics of the lexical aspect studied as a type of aspectuality remind us of the limited and unlimited, or finished and unfinished opposition in the language. The Italian language is a language with a reflective verbal paradigm, which expresses a number of information through verbal morphological features. Aspectual features of the Italian language play an important role in the system of this language. In the article, the lexical aspectual forms of the Italian language are interpreted in contrast with the past tense form.

Key words: aspectuality, lexical aspect, actionality, mode of the verb

Лексический аспект прошедшего времени в итальянском языке

Резюме

Каждый язык имеет свою языковую картину понятия времени. Различия во времени, аспекте, темпоральных выражениях и некоторых прагматически-текстовых понятиях в ряде языков являются ярким примером этого мнения. До сих пор было проведено много исследований по анализу аспекта, связи грамматических аспектуальных категорий с семантическими категориями и даже значений самого термина и связанных с ним терминов, таких как аспектуальность. В результате эти вопросы до сих пор остаются спорными. Аспектуальность — раздел морфологической части языкознания, посвященный типам глаголов, их общим и частным аспектам. Характеристики лексического вида, изучаемого как вид аспектуальности, напоминают о противопоставлении ограниченного и неограниченного или законченного и незавершенного в языке. Итальянский язык — это язык с рефлективной вербальной парадигмой, выражающей ряд сведений через вербальные морфологические признаки. Видовые особенности итальянского языка играют важную роль в системе этого языка. В статье лексические видовые формы итальянского языка интерпретируются в противопоставлении форме прошедшего времени.

Ключевые слова: аспектуальность, лексический вид, акциональность, модусовая категория глагола

Dilçilikdə mövcud olan tədqiqatlara nəzər yetirdikdə məlum olur ki, aspektuallıq məfhumu hadisə və onun strukturu ilə sıx bağlı bir sıra fenomen və yanaşmanı əhatə edir[5. s9]. Bunlardan biri də aspekt anlayışıdır. Onun da leksik və qrammatik olmaqla iki növü vardır. Bir çox dilçilik tədqiqatlarına əsasən, leksik aspektə bu cür tərif verilir: ”*Leksik aspekt təbii dilin semantikasının inventarıdır*” [2.s 721]. İtalyan dilində leksik aspekti nitqin zaman uzlaşmasında xüsusi rol oynayan feillərin sahib olduğu daxili məna kimi də xarakterizə edirlər. Leksik aspekt geniş spektrli dil hadisələrinin şərh edilməsi üçün də mühüm əhəmiyyətə malikdir. Leksik aspekti başqa cür feillərlə ifadə olunan hadisələrin xüsusiyyətlərinə aid semantik kateqoriya kimi də xarakterizə etmək olar.

İtalyan dilində leksik aspektdən bəhs edərkən qeyd etmək yerinə düşər ki, italyan dilçiləri bu anlayışı “aspetto lessicale” kimi adlandırır və onun təhlilləri zamanı “*azionalità*” (aksionallıq) termini xüsusi maraq doğurur. Aksionallıq feilin semantik kateqoriyası olmaqla yanaşı həm də verbal prosesi xarakterizə etməyə qadirdir. O feilin ifadə etdiyi hərəkət barəsində bizə informasiya verən feilə xas semantik xüsusiyyətləri ehtiva edir. Ondan feilin ifadə etdiyi hadisənin növünə aid və feilin sintaktik xüsusiyyətlərinin təsiri ilə sıx əlaqəli olan feilin mənasının xüsusi komponentini göstərmək üçün istifadə olunur[10]. Leksik aspekt müxtəlif dillərdə dilçilər tərəfindən indiyə kimi müxtəlif terminlərlə ifadə olunmuşdur: alman dilçiləri

Aktionsart, digər dilçilər müvafiq olaraq *verbal hərəkət*, *təbii* yaxud *leksik aspekt* və s. kimi adlandırmışlar .

Aspektuallığın bir növü kimi tədqiq edilən leksik aspektin xarakteristik cəhətləri dildəki məhdud və qeyri-məhdud, yaxud bitmiş və bitməmiş oppozisiyanı bizə xatırladır. Azərbaycan dilçiliyində isə eyni leksik məna daşıyıcıları olan feillər xüsusi olaraq təkcə hərəkətin tamamlanıb tamamlanmadığına görə qruplaşdırılmamışdır.

Bir çox dilçilik ədəbiyyatlarında, eləcə də italyan dilinə aid materiallarda verbal hadisənin məzmununa görə feillər aşağıdakı fəaliyyət növlərinə görə qruplaşdırılıb: *teliklik, sürəklilik, durğunluq* [7]. Bu məfhumların izahını verməzdən öncə, qeyd etmək yerinə düşər ki, Azərbaycan dilində bu cür təsnifata feilin tərz kateqoriyası qismən uyğun gəlir, çünki tərz kateqoriyası da müvafiq olaraq hərəkətin təkrarlanması, sürəkliliyi, davamlılığı kimi mənalara malikdir[3. s 152]. Leksik məna cəhətinə görə aparılan təsnifat dilimizdə ilk dəfə M. Xəlifazədə tərəfindən aparılmışdır. O, müvafiq olaraq dilimizdə bitmiş, davamlı, qərarlı, niyyətli kimi feil tərzləri olduğunu müəyyən etmişdir[3. s 148]. Lakin buna baxmayaraq əksər dilçilik mənbələrində Azərbaycan dilində feilin tərz kateqoriyasının qrammatik- morfoloji kateqoriya kimi təzahür etməsi və belə olan halda onun ancaq və ancaq ifadə vasitələrinə əsasən mövcud olması qeyd edilib.

İtalyan dilçiliyində feilin fəaliyyət dairəsinə əsasən necə qruplaşdırıldığına nəzər yetirək:

1) “Telicità/atelicità” –Teliklik/ateliklik feillərdə müvafiq olaraq bitkinlik və ya natamamlıq məzmunlu funksiyaya malikdir[9]. “*Arrivare*”(çatmaq), "*dipingere*"(rəsm çəkmək) və s. kimi telik adlandırılan və məqsədə çatmağa yönələn feillərlə təsvir etdiyi müddətin kulminasiya anının olmaması ilə xarakterizə edilən feillər qrupudur. Məsələn: “*Anna ha preparato un dolce*.” – “*Anna bir şirniyyat hazırladı”* cümləsində keçmiş zamanda verilən “hazırlamaq” feilinin müəyyən bir hədəfə yönəldiyini görə bilərik. Azərbaycan dilində teliklik xüsusiyyəti özünü feilin tərz kateqoriyalarından biri növü olan və hadisənin tam bitməsini göstərən feilləri, feili birləşmələri bu qrupa daxil edə bilərik. Məsələn: “*gəbərib öldü”*, “*yazıb qurtardı”* və s. İndi isə, atelik(natamam) feillərə nəzər salaq. "*camminare*" (gəzmək) kimi atelik feillərlə digər qrupa aid feillər arasındakı fərq özünün bitkinlik yəni teliklik xüsusiyyəti olub-olmamasında biruzə verir[9]. Dilimizdə buna ancaq bəzi sintaktik üsulla ifadə olunan feili birləşmələr uyğun gəlir. Belə ki, ilk tərəfdə feili bağlama digər tərəfdə isə - *getmək,* - *olmaq*, kimi yarımmüstəqil feilləri yanaşı işlətməklə formalaşan bu cür birləşmələrə misal olaraq “*itib- getdi”(è scomparso)* göstərə bilərik. İtalyan dilində natamamlığı xarakterizə edən atelik feillər hadisənin, prosesin başa çatması ilə bağlı fikir ifadə etmir. Məsələn: “*essere felice”(*xoşbəxt olmaq); *Insieme è stato feilice.* - (Birlikdə xoşbəxt oldular.[12]

2) “Durativitа Sürəklilik – İtalyan dilində bəzi feillər xəyali bir müddət boyunca sıralanırmış kimi qruplaşdırıla bilər. Belə ki, bir tərəfdə “*davamlı feillər*”

kimi adlandırılan və zaman xətti boyunca uzanan xüsusiyyətə malik olan "*dormire*" (yatmaq), "*crescere*" (böyümək) kimi feillər, digər tərəfdə isə hərəkətin başlama və bitmə anının üst-üstə düşdüyü "*partlamaq*", "*yanmaq*" kimi fövri(ani) təbiətli davamlı olmayan feillər bu qrupa daxildir . Dilimizdə bu kateqoriyaya iş, hal və hərəkətin uzun müddət davam etdiyi mənalarını daşıyan feillər misal ola bilər. Məsələn: *O, həmişə suyun kəsilməyinə deyinirdi.* Bu cümlədə işlənən "deyinirdi" feili zərflə bərabər fasiləsiz, daima baş verən bir hadisəni təsvir edir.

3) Durğunluq – Bu qruplaşmada feilləri kəsilməyə meyilli hadisələri ifadə edən *dinamik* feillərlə kəsilməz fəaliyyət və situasiya bildirən *stativ* feillərə əsasn iki yerə bölə bilərik. Dinamik feillərə "*lavorare*"(işləmək), "*stirare*"(ütüləmək) kimi feillər, stativ feillərə "*possedere*"(sahib olmaq), "*essere stanco*" (yorğun olmaq) kimi hal və vəziyyətlə sıx bağlı olan feillər misal ola bilər.

Dilçilikdə leksik aspektin xüsusiyyətləri ilə bağlı mövcud mənbələrə əsasən, onların italyan dilində keçmiş zamanda ifadə vasitələrindən bəhs etmək istərdik. Aspektuallıq keçmiş zamanda iki formada təzahür edə bilir. Ya baş verən hadisənin son nöqtəsini göstərib bir tam kimi təqdim olunmasıyla (bax: nümunə1); ya da əsas fikri hadisənin davam etməsi və bitməsi ilə bağlı qeyri-müəyyənliyi çatdırmaq üçün hadisənin inkişafına yönəltməklə (bax: nümunə 2).

(1) Ieri Anna è andata da sua nonna. – Dünən Anna nənəsigilə getdi.

(2) Ieri Anna andava da sua nonna. – Dünən Anna nənəsigilə gedirdi.

İlk nümunədə "Annanın nənəsigilə getməsi" hadisəsi tam olaraq reallaşıb. İkinci nümunədə onun inkişaf prosesinə, müddətinə diqqət edilir. Bundan sonra, hadisə davam edə yaxud tamamlana da bilər (bax: nümunə 3).

(3) Ieri Anna andava dalla nonna quando si è ricordata che non era in casa è tornato a casa. – Dünən Anna nənəsigilə gedirdi, onun evdə olmadığını xatırlayanda evə qayıtdı.

İtalyan dilində keçmiş zamanın ifadə formaları aşağıdakılardır: iki zaman forması mövcuddur – *Perfettivo/Imperfettivo* (bitmiş/bitməmiş). Bitmiş tərzdə ifadə olunanlar, hadisənin deyilmə anında artıq bitdiyini, cari zamanla əlaqəsinin olmadığını vurğulayır, bitməmiş tərzlə ifadə olunanlar da həmçinin hadisənin artıq bitdiyini, lakin zaman oxu ətrafında müəyyən qədər dövr etdiyini vurğulayır. Bunlar arasında rus dilindən bizə tanış olan spesifik morfoloji göstərici, şəkilçi və s. yoxdur. Lakin aspektual fərqləri ifadə edən morfoloji göstəricilərin olmaması onlar arasında fərqlərin olmamasına dəlalət etmir. Onları bir- birindən fərqləndirmək üçün feillərin leksik aspektual cəhətləri bizə köməklik göstərir. Belə ki, *telik* feillərlə ifadə olunan hadisə, vəziyyətlər bitmiş, *atelik* feillərlə ifadə olunan hadisə, vəziyyətlər isə bitməmiş tərzdə olacaq. Məsələn:

1) *Lui ha letto questo libro ieri.* – O dünən bu kitabı oxudu. (bitmiş tərz; passato prossimo)
2) *Lui leggeva questo libro ieri e oggi.* – O dünən və bu gün bu kitabı oxuyurdu. (bitməmiş tərz; imperfetto)

İlk nümunədə hadisənin müəyyən vaxt çərçivəsində başa çatmış və tamamlanmış olduğu bizə məlumdur. Digər nümunədə isə, hadisə dünən və bu gün davam etmiş, lakin nə zaman başa çatması yaxud tamamlanması qeyri-müəyyən olaraq qalır. Nümunələrdən bizə bir daha aydın olur ki, italyan dilində bitmiş yaxud bitməmiş tərzdən istifadə edilməsi sırf predikatın semantik təbiəti ilə əlaqəlidir.

1) *Quando ero studentessa, sono stata in Sicilia.* –Tələbə olarkən, Siciliyada olmuşdum. (Keçmiş davamedici, yaxın yaxud nəqli keçmiş)
2) *Dopo anni ho avuto la macchina*. – İllər sonra maşınım olmuşdu. (yaxın yaxud nəqli keçmiş)
3) *Dipinse un quadro.* – Bir rəsm çəkdim.(uzaq keçmiş yaxud şühudi keçmiş zaman)

İndi isə bu nümunələr ilə İtalyan dilinin keçmiş zaman formaları ilə Azərbaycan dilindəki müvafiq formaları qarşılaşdıraraq müqayisə edək. Qeyd edək ki, nəqli keçmiş zamanın dilimizdə yaxın keçmiş, şühudi keçmiş zamanın isə uzaq keçmiş deyə verilməsinin dilimizdə elmi aktuallığ yoxdur, sadəcə o cür verərək bu anlayış haqda təsviri anlayış yarada biləcəyimizi münasib hesab edirik. Göstərilən nümunələrin bəzilərində yaxın və uzaq keçmiş formaların, digərində isə keçmiş davamedici formanın istifadəsindəki fərqlərin əsasında məhz aspektuallıq dayanır. İtalyan dilçilərindən biri olan Lo Ducanın italyan dilində keçmiş zamanın leksik aspektinə dair bu fikirləri maraq doğurur: *"Keçmiş davamedici və yaxın/uzaq keçmiş hadisənin nəticəsinin təsəvvür edilməsiylə bağlı qeyri-müəyyənlik və müəyyənliyin əks etdirdiyi xüsusiyyətlərlə xarakterizə edilir."* [4. s 140].

İtalyan dilində hadisəni bütövlükdə tam təsvir edən "*passato prossimo*" (yaxın yaxud şühudi keçmiş zaman) və "*passato remoto*" (uzaq yaxud nəqli keçmiş zaman) kimi zaman formaları "*tempi perfettivi"* adlanır və bitkinlik aspekti ilə ifadə olunur. Bunun əksinə olaraq isə " *tempi imperfettivi*" hadisənin baş verdiyi vaxt intervalı haqqında qeyri- müəyyən fikir bildirən zaman formalarını xarakterizə edir və proqressiv(davamedici) aspektlə ifadə olunur. Məsələn, keçmiş davam edici zaman funksiyasını icra edən "*Imperfetto*" bura daxildir[1. s 7]. İndi isə ətraflı şəkildə italyan dilində keçmiş zamanın leksik aspektual cəhətlərini analiz edək.

İtalyan dilində "*Passato prossimo*"(yaxın yaxud şühudi keçmiş zaman) mürəkkəb zaman forması olub, köməkçi "*essere*"(olmaq) və "*avere*" (malik olmaq) feillərinin indiki zamanda şəxsə və kəmiyyətə görə dəyişmiş formalarının üzərinə əsas feilin feili sifət formasını əlavə etməklə formalaşır. Yadda saxlamaq lazımdır ki, qayıdış növ feillər, hərəkət bildirən feillər, hal-vəziyyət bildirən feillər, bəzi təsirsiz feillər "*essere*" köməkçi feili ilə işlənir və sonda cinsə və kəmiyyətə uyğun leksem qəbul edir. Bu hal "avere' köməkçi feili ilə işlənən feillərdə baş vermir. Dilimizdəki semantik qarşılığını yaxın keçmiş zaman olaraq verdiyimiz *Passato prossimo*da hadisələr bitkinlik aspekti ilə necə və hansı halda ifadə olunur? Hadisənin zaman oxu çərçivəvəsində bitdiyini göstərərkən bu formadan istifadə edilir. Məsələn:

Ho conosciuto i nonni di Franco.- Frankonun nənə-babası ilə tanış oldum.

İtalyan dilində feilin sürəklilik aspekti ilə bitkinlik aspektinin necə fərqləndiyinə keçmiş zaman hadisələri fonunda diqqət yetirək. Keçmişdə davamlı baş verən hərəkət yəni sürəklilik tərzində ifadə olunan feil "imperfetto" (keçmiş davamedici zaman forması) da verilir, işlənir. Müəyyən vaxtda olub, başa çatmış hadisələr isə passato remoto və ya passato prossimo ilə ifadə olunur[6];

Mentre studiavo(Dərs oxuyarkən), *arrivò/è arrivata Anna (Anna gəldi).*
(Keçmiş davamedici) (Passato remoto/Passato prossimo)

Keçmişdə bitmiş bir hərəkəti və ya bitmiş bir hərəkətin nəticəsini ifadə etmək üçün passato prossimo istifadə edilir;

1. *Per cena ho mangiato dell'insalata.(Şam yeməyi üçün salat yedim.)*
2. *Dopo la dormita mi sono sentita meglio. (Yatanda daha yaxşı hiss etdim.)*

İtalyan dilində Keçmiş davamedici formada feil bitməmiş tərz(sürəklilik) aspekti ilə ifadə olunur. Keçmiş davamedici formanın təsriflənməsi olduqca nizamlıdır. Bu proses feil kökünə "v" morfemini daha sonra isə şəxs sonluğunu əlavə etməkdən ibarətdir: parla+v+o/i/a/amo/ate/ano; vede+v+o/i/e/amo/ete/ono; apri+v+o/i/a/amo/ate/ano və s. [languageclasses]. Hadisə bitməmiş tərzlə nə zaman ifadə olunur?

- hadisənin inkişafında sürəklilik və bitməmişlik müşahidə olunursa(davamedici aspekt) Məsələn: *Camminavamo/stavamo camminando di fretta quando incontrammo un vecchio amico*(Köhnə dostla qarşılaşanda tələsik gəzirdik.)
- vərdiş və təkrarlanma müşahidə olunarsa(adətkarlıq aspekti) Məsələn: *Quando frequentavo l'università, prendevo tutti i giorni il treno.* (Universitetdə oxuyanda hər gün qatara minərdim.)
- Bir münasibət, meyl ifadə etdikdə. Məsələn: *Mia nonna era una brava insegnante.*(Nənəm yaxşı müəllim idi)
- Davamlılıq müşahidə olunarsa(davamlılıq aspekti) Məsələn: *Mentre l'insegnante correggeva i compiti, gli studenti ripassavano in silenzio la lezione.(*Müəllim tapşırıqları yoxlayanda şagirdlər sakitcə dərsi təkrar edirdilər.)

Uzaq və yaxın keçmiş zaman forması deyə adlandırdığımız "*passato prossimo*"və "*passato remoto*" arasındakı fərqlər haqqında daha ətraflı danışmaq üçün onları qarşılaşdıraq. Standart italyan dilində keçmişdə reallaşıb nəticəsi indiki zamanda görünən hadisələr yaxın keçmiş zaman forması ilə; Passato remoto isə keçmişdə baş vermiş, yekunlaşmış və indiki dövr ilə heç bir əlaqəsi olmayan faktı göstərmək üçün istifadə olunur. Bədii ədəbiyyatda uzaq, keçmiş və ya tarixi bir məlumatı çatdırmaq üçün olan bir üslub seçimidir. [8]. Bununla bağlı iki nümunəyə nəzər salaq:

*(1) Gli italiani hanno costruito la citta sul mare.(*İtalyanlar dəniz üzərində şəhər saldılar.) – Burdan belə nəticəyə gəlirik ki, şəhər hazırda ordadır və onu görə bilərik.

(2) Gli italiani costruirono la citta sul mare.(İtalyanlar dəniz üzərində şəhər salıblar.)– Burada isə əsas fikir şəhərin hazırkı mövcudluğuna deyil, keçmişdə başa çatmış tikinti fəaliyyətinə yönəlib.

Yuxardakı söyləmi bu cür də vermək olar:

(3) Gli italiani costruirono la citta sul mare che visitiamo ancora oggi (İtalyanlar dəniz üzərində bu gün də səfər edə biləcəyimiz şəhər salıblar.) –Söyləmdəki əsas fikir tikinti aktını müəyyən bir hadisə kimi təqdim etməyə yönəlib.

(4) Gli italiani costruirono la citta sul mare, che è andata distrutta durante la Guerra. (İtalyanlar dəniz üzərində şəhər saldılar, lakin o, müharibə ərzində dağıdıldı.) – Burada isə tikinti faktı müəyyən bir hadisə kimi təmsil olunur, baxmayaraq ki, onun nəticələri hazırda yoxdur.)

Lakin, " Gli italiani hanno costruito la citta sul mare che *è andata distrutta durante la Guerra*." cümləsi semantik cəhətdən düzgün ola bilməz. Çünki, "*hanno costruito*" (tikdilər)- indiki zamanda təsirini görə biləcəyimiz təqdirdə nəzərdə tutulub işlənir.

"Passato remoto" və "Passato prossimo" arasındakı fərq ənənəvi qrammatika materiallarından yanlış olaraq öyrəndiyimiz kimi indiki zamandan temporal baxımdan olan məsafə ilə əlaqəli deyil [Bozena]. Bu yanıldıcı terminləri qismən neytral sadə bitmiş və mürəkkəb bitmiş anlayışlarla əvəz etməyi Bertinetto təklif etmişdir. Bertinetto bu iki yanıldıcı termini yalnız feilin formasına görə qruplaşdırılan fransız dilindəki passé composé(mürəkkəb keçmiş) və passé simple (sadə keçmiş) terminləri kimi adlandırmağı təklifini irəli sürmüşdü. "Passato remoto" daha çox tarixi hadisələrdən bəhs edərkən istifadə olunursa, "passato prossimo" isə real və gündəlik hadisələrin xronologiyası ilə əlaqəlidir. Bununla bağlı əksər nümunələrə baxaq: *Giulio Cesare nacque a Roma.../ incomincio'.../ morì nel 44 a.C.* – Culio Sezar anadan oldu.../başladı.../eradan əvvəl 44-cü əsrdə öldü... və yaxud və ya *Marco è nato.../ha incominciato.../è morto….(Marco dünyaya gəldi .../başladı.../dünyasını öldü...)*[11]

Qeyd olunanlardan belə nəticəyə gəlmək olar ki, İtalyan dili verbal morfoloji xüsusiyyətləri vasitəsiylə bir sıra məlumatlar ifadə edən, əks etdirən verbal paradiqmaya malik bir dildir. Bu baxımdan, leksik cəhətdən düzgün mənalı feilin seçilməsi, zaman formaları və feilin düzgün təsriflənməsi daim ön planda olmalıdır. İtalyan dilində keçmiş zamana aid cümlə qurarkən qrammatik baxımdan yanaşsaq, feilin tərz kateqoriyalarına, köməkçi feilin düzgün seçilməsinə fikir vermək lazımdır. Keçmiş zamanla bağlı danışanın hadisəyə dair nöqteyi-nəzərinə görə, başqa sözlə desək, hadisələrin müddəti, davam etmə arıdıcıllığı, nəticələri ilə bağlı dəyərləndirmələrdən sonra düzgün feil formasıyla ifadə olunmalıdır. Buradan, bu nəticəyə gəlirik ki, İtalyan dilində telik predikatlar bitmiş tərzə aid zaman formaları ilə ifadə olunur. Kontekstual istifadəsinə nəzər salsaq "perfettivo" feil forması digərinə nisbətən daha çox işlənir. Belə ki, burada regiona xas linqvistik bacarıqların

istifadəsindən asılı olaraq, yaxın yaxud uzaq keçmiş zaman formasına üstünlük verilir.

İstifadə edilən ədəbiyyat:

1. Bozena.E. Analisi grammaticale dei due tempi passati nell´italiano contemporaneo-passato remoto (semplice) e passato prossimo (composto) , Seminar paper, 2002, p7-8
2. Hana F., Aspectual classes and Aktionsart, Semantics 2 (inventar 721)
3. Xəlilov B., Azərbaycan dilində feil, "Adiloğlu" Bakı, 2018(tərz) s148
4. Lo Duca M. G. , Esperimenti grammaticali. Riflessioni e proposte sull'insegnamento della grammatica dell'italiano, Carocci editore, 2004 p140.
5. Шелякин М. А, В категория вида и способы действия русского глагола, Таллин "Валгус" 1983, п.9/

İnternet saytları:

6. https://accademiadellacrusca.it/it/consulenza/sulluso-del-passato-remoto/126
7. https://interlingua.comune.re.it/?page_id=1086
8. https://languageclassinitaly.com/2020/01/25/tempi-verbali-al-passato-in-italiano/
9. https://pdfcoffee.com/the-cambridge-handbook-of-formal-semantics-pdf-free.html
10. https://www.degruyter.com/document/doi/10.1515/9783110197099.1.189/pdf
11. https://www.skuola.net/letteratura-latina-fino-cicerone/cesare-gaio-giulio.html
12. https://www.wattpad.com/236785646-tecniche-di-scrittura-verbi-sull%27uso-del-passato

Redaksiyaya daxil olma tarixi: 11.04.2023
Çapa qəbul olunma tarixi: 15.04.2023
Rəyçi: fil.ü.f.d.,Bayramova Günel
tərəfindən çapa tövsiyə olunmuşdur

ƏDƏBİYYATŞÜNASLIQ

BİLAL HÜSEYNAĞA OĞLU HÜSEYNOV
ADPU Cəlilabad Filialının müəllimi, filologiya üzrə fəlsəfə doktoru,
Naxçıvan Dövlət Universitetinin elmlər doktorluğu üzrə dissertantı
bilalalarli58@mail.ru
ORCID İD 0000-0002-2249-6487

AZƏRBAYCAN FOLKLORUNDA DEYİMLƏRİN JANR XÜSUSİYYƏTLƏRİ

Xülasə

Azərbaycan folklorunda deyimlərin janr xüsusiyyətləri ayrıca araşdırılmamışdır. Bunun ilkin səbəbi deyimlərin müxtəlif bölgələrdən toplanılan nümunələrinin atalar sözü və məsəllərin tərkibində verilməsi ilə bağlıdır. Bəzi bölgələrdə hətta deyimlər atalar sözünə bərabər tutulur. Dərindən araşdırdıqda məlum olur ki, deyimlər janr xüsusiyyətlərinə görə təkcə atalar sözü ilə bağlı deyil. Epik xarakterli deyimlərlə yanaşı, mənzum (lirik) deyimlər də mövcuddur. Bundan başqa, bəzi paremilərin, obrazlı ifadələrin, frazeoloji birləşmələrin izahlı təqdimatı da deyimlər adı altında aparılır. Düzgülərin bir qismi də deyimlər kimi yazıya alınmışdır. Bölgələrdən yazıya alınmış deyimləri nəzərdən keçirdikdə bu folklor örnəyinin fərqli xüsusiyyətləri də üzə çıxır.

Aforizm, kəlmə, dəyərli söz, müdrik söz, atışma, tövsiyə, hədə, öyüd, məsləhət, irad, tənbeh, nəsihət, qarğış, bəddua, təsvir və mühakimə xarakterli deyimlər atalar sözü və məsəlin janr imkanlarını genişləndirir. Lakin əhvalat, dialoq, lətifə və başagəldi xarakterli deyimlər atalar sözü və məsəl janrının hüdudlarını aşır. Bəzi mənzum deyimlər də müdrik, tövsiyəedici xarakter daşımasına baxmayaraq, atalar sözü və məsəl janrının tələblərinə sığmır.

Açar sözlər: *Azərbaycan folkloru, atalar sözü və deyimlər, deyimlərin janr xüsusiyyətləri*

Azərbaycan folklorunda deyimlərin janr xüsusiyyətləri ayrıca araşdırılmamışdır. Bunun ilkin səbəbi deyimlərin müxtəlif bölgələrdən toplanılan nümunələrinin atalar sözü və məsəllərin tərkibində verilməsi ilə bağlıdır. Bəzi bölgələrdə hətta deyimlər atalar sözünə bərabər tutulur. Dərindən araşdırdıqda məlum olur ki, deyimlər janr xüsusiyyətlərinə görə təkcə atalar sözü ilə bağlı deyil. Təhkiyə (epik) xarakterli deyimlərlə yanaşı, mənzum (lirik) deyimlər də mövcuddur. Bundan başqa, bəzi paremilərin, obrazlı ifadələrin, frazeoloji birləşmələrin izahlı təqdimatı da deyimlər adı altında təqdim olunur. Düzgülərin bir qismi də deyimlər

kimi yazıya alınmışdır. Bölgələrdən yazıya alınmış deyimləri nəzərdən keçirdikdə bu folklor örnəyinin fərqli xüsusiyyətləri də üzə çıxır.

Göyçay folklorunda deyimlər atalar sözü və məsəllərdən sonra ayrıca təqdim olunur. Elə ilk nümunədən bəlli olur ki, deyimlər əslində fərqli xarakterdədir və onları digər janrlarla eyniləşdirmək olmur. Xalq deyimləri adıyla verilən nümunələrin bir qismi hədə-qorxuları xatırladır:

Sənə elə söz deyərəm, yeddi qatından keçər.

Sənə elə söz deyərəm, dəymişin durar, kalın tökülər.

Sənə elə söz deyərəm, düz yoluu əyri gedərsən.

Sənə elə toy tutaram, dədöön toyu yadua düşər.

Sənə elə toy tutaram, gəldiyin yolu tanımazsan **(Göyçay folklor örnəkləri 2022: 207)**.

Bölgədən toplanan bəzi deyimlər atalar sözünün eynidir. Bu eynilik mətnin özündə də xatırlanır:

Belə atalar sözü var: qonağa get deməzzər, altınnan palazı çəkəllər.

Arxı tullan, soora bərəllah de.

Yaxşı arvad kişinin üzünə baxmaz, sözünə baxar **(Göyçay folklor örnəkləri 2022: 208)**.

Bəzi deyimlər isə əhvalat xarakterlidir:

Bir arvat çox ərə gedipbiş. Bunnan soruşullar ki, neçə kişiyə ərə getmisən? Deer ki, fındığ alan, qoz satan, irəhmətdih səən atan, bir də bi köndələn yatan **(Göyçay folklor örnəkləri 2022: 210)**.

Şəkidən toplanmış deyimlər müxtəlif struktural janrlardadır. Təqdim olunan deyimlərin bir hissəsi əsasən izahedici mətnlərdən ibarətdir:

Avdıqədir ağıllanıfdı. *Həmişə səs-küy salıb bir müddət sakit oturan adam haqqında belə deyirlər.*

At görüf ayağı qabarır. *Bir şeyi çox görən adamlara ünvanlanır.*

Ayağını göydən asmaq. *Özünü naza qoymaq* **(Şəki folklor örnəkləri 2016: 305)**.

Şəki folklor örnəklərinin toplayıcısı Ləman Süleymanova deyimləri "situasiyadan asılı olaraq işlədilən frazeoloji vahidlərlə" eyniləşdirir. Bəlkə də buna görə deyimlərin ardınca dialektoloji sözlük verilir. Sözlükdəki izahların bir qismi deyimlərin izahından fərqlənmir:

Ağlını başına top elə - ağlını başına yığ

Alxam-çalxam eləmax – hər şeyi qatıb-qarışdırmaq **(Şəki folklor örnəkləri 2016: 312)**.

"Azərbaycan folkloru antologiyası"nın Şəki örnəklərindən ibarət VI kitabında verilmiş deyimlər isə söyləmələrlə birlikdə təqdim olunur. Daha doğrusu, verilən mətnlərin hansının deyim, hansının söyləmə olması qeyd olunmur. Bundan başqa, mətnlərin çoxu nəzm parçalarından ibarətdir. Hədə-qorxu şəklində olan deyimlər:

Alçaxda oturuf hündür danışma, ağzın ovular.
Yaşınnan yekə danışma, başın ağriyər **(AFA, Şəki (II) 2002: 309)**.

İzahedici mətnlər "deyirlər" (daha doğrusu, belə deyirlər) təqdimatı ilə tamamlanır:

Xəyala dalan və fikrə gedən adama: "Ə, nə fikrə getmisən, əlli abbasın bir tümməndir? – diyillər.
"Şaddığa gəlibsən, ocağa düş, bəddiyə gəlibsən bucağa düş" – diyillər.
Özündən çox müştəbeh adam barəsində: "İt oğluyam, qurd basaram" – diyillər **(AFA, Şəki (II) 2002: 315)**.

Nəzm şəklində olan deyimlərin bir qismi düzgü janrının tələbləri səviyyəsindədir. Məsələn, "Yuxudan əvvəl söylənilən deyim" ritmik lirik parçadan ibarətdir. "İlin fəsilləri və ayın günləri haqqında deyim" həm epik, həm də lirik şəkillidir. Epik şəkilli deyim: *"Yaz bitirir, yay yetirir, payız götürür, qış ötürür"* **(AFA, Şəki (II) 2002: 318)**. Lirik şəkilli deyim:

Adına yağar,
Cumay açılar.
Cumay yağar,
Şənbə açılar.
Şənbə yağar,
Bazar açılar.
Bazar yağar,
Həzar açılar **(AFA, Şəki (II) 2002: 318)**.

Lirik şəkilli deyimlərin əksəriyyəti cırnatmalara, öcəşmələrə və sataşmalara bənzəyir:

Təbarəkə,
Torba tikə,
Qoz sındıra,
Fındıq əkə **(AFA, Şəki (II) 2002: 312)**.
Yaxud:
Əzzinəm atla get,
Piyada yox, atla get.
Arıqlamaq istəsən,
Xeyir-şərə, hər yerə
Danışqan arvadla get **(AFA, Şəki (II) 2002: 313)**.

Deyimlər Laçın bölgəsində atalar sözü və məsəllərin janrdaxili dəyişimləri kimi diqqət çəkir. Atalar sözü və məsəllər beyt deyimlər, vulqar məna verən məsəllər, bəxtəvərlər haqqında deyimlər, qaçaqlar haqqında deyimlər, el deyimləri kimi qruplara bölünür ki, bunlar da fərqli ifadələrlə təqdim olunur **(Laçın folkloru 2009: 111-121).** Beyt deyimlər qafiyələnən iki misralıq şeiri xatırladır:

Dəyirmanın kərdi var,
Hərənin bir dərdi var.

Yaxud:
Qarnımdan çıxıb qada,
Hara qaçım mən dada.

Yaxud da:
Yada yalaqdı,
Qohuma çolaqdı **(Laçın folkloru 2009: 111).**

Laçın bölgəsində də el deyimləri izahedici xarakterdədir. Əvvəl vəziyyət bir cümlə ilə təsvir olunur, sonra bu vəziyyəti xarakterizə edən deyim söylənilir:

Hər hansı bir şeyin qurtarması, yoxluğu haqqında məlumat bəzən belə ifadə olunur:

- Əlini götür, üzünü yu.
Yaxud:
Yeyib doymayanlar deyir:
- Ağıza şivən, qarına vay.
Yaxud da:
Öz heybəsində olanı gizlədib, yoldaşınınkı haqqında təklif verənlərə deyirlər:
- Gəl sənin almanı yeyək, mənimkini oynadaq **(Laçın folkloru 2009: 118).**

Deyimlərin bir qismi birinci şəxs tərəfindən söylənilən qarğış və bədduaları xatırladır, digər qismi isə iradlardan ibarətdir:

Səni çay aşağı axıdım, çay yuxarı gəzim.
Ortada yeyib ucda gəzir.
Közü öz qabağına eşir.
Kərki kimi özünə tərəf yonur.
Naxır itən yerdə ala dananı gəzir.
Dədənlə dədəmdən demə, özünlə özümdən de **(Laçın folkloru 2009: 115).**

Masallı bölgəsindən toplanmış deyimlər atalar sözü və məsəllərin tərkibində verilir, hətta hansı nümunənin atalar sözü, hansı nümunənin məsəl, hansı nümunəninsə deyim olduğunu müəyyənləşdirmək çətindir. Bu faktın öz təsdiq edir ki, deyimlər əslində atalar sözü və məsəllərin janrdaxili dəyişimidir. Nümunələrə diqqət yetirək:

Öyüd xarakterli deyimlər: *"Evlənmək istəyəndə gözlərindən qabaq qulaqlarına qulaq as"*. Yaxud: *"Keçmişə güllə atarsan, gələcək səni topa tutar"* **(Masallı folklor örnəkləri (2) 2013: 292)**.

Tənbeh xarakterli deyimlər: *"Tamahına təht demədi, ilişdi".* Yaxud: *"Səsin yoxdu, nə kəranayıdan başlayırsan?"* **(Masallı folklor örnəkləri (2) 2013: 293).**

İrad xarakterli deyimlər: *"Daha Fətəlinin gəlhagəlidir, adam tanımır".* Yaxud: *"Nə dəyintin olubsa, bilmirəm, yaman şıdırğı gedirsən"* **(Masallı folklor örnəkləri (2) 2013: 293).**

Təəssüf xarakterli deyimlər: *"Məşədinin evin tolkə qoyanda nəyi var idi, apardılar, kişi tamam lüppüz oldu".* Yaxud: *"Başıma qəza gələndə, titi-piti nə yığmışdım hamısı əlimdən çıxdı"* **(Masallı folklor örnəkləri (2) 2013: 297).**

Təsvir xarakterli deyimlər: *"Şöynük çöküyündən avara bilmidim yoldan ötən kimidir".* Yaxud: *"Yağ dağıldı, palaz batdı"* **(Masallı folklor örnəkləri (2) 2013: 298-299).**

Mühakimə xarakterli deyimlər:

"Qaynanam – kəmki darağ, başıma batar;

Qaynatam – pendir-bıçağ, canıma yatar;

Qayınlarım – səlim ağacı, boyuma baxar;

Baldızlarım hərdən gələr, dım-dım atar, sancar gedər" **(Masallı folklor örnəkləri (2) 2013: 299).**

Masallı bölgəsindən toplanmış deyimlərinin də bir qismi dialektoloji sözlük kimi təqdim olunur:

Şönnük çökdü – hava qaraldı.

Korrux çəkmək – iqtisadi çətinlik çəkmək.

Şapatdamaq – araqarışdıran şillə ilə yanına, başına vurmaq.

Dar niyaz çağı – günün batan vaxtı.

Naxışı güjdü – bəxti gətirən **(Masallı folklor örnəkləri (2) 2013: 300).**

Qədim Həməşəra (Cəlilabad) diyarından toplanmış deyimlər əsasən müdrik fikirlərdən, idiomlardan, obrazlı ifadələr üzərində qurulmuş söyləmələrdən ibarətdir. Epik şəkilli bu deyimlər atalar sözünü xatırlatsa da, təyinatına, məqsədinə, söylənmə məqamına və ifadə tərzinə görə fərqlənir. Bu nümunələr əsasən öyüd, məsləhət, təsvir və mühakimə xarakterlidir, sabit şəkli xüsusiyyətlərinə görə digər bölgələrin deyimlərindən seçilir.

Deyimlərdən nümunələr:

Özünü həmişə haqlı sayan adam həmişə haqsızdır.

Günahlarını tez-tez bağışladığınız dostlarınızı daha böyük günahlara sövq edirsiniz.

Sənə başqasından deyən, başqasına da səndən deyər.

Sevdiklərinlə sevənlərini fərqləndir, dar gündə sevənlərin sevdiklərindən sənə yaxın olar.

Sənə ehtiyacı olanlardan üz döndərmə, üz tutmağa yerin qalmaz.

Yumor hissi olanla lağlağını fərqləndirməyi bacar, yumor hissi olanlar ciddi, lağlağılar qeyri-ciddi adamlardır.

Bəhrə üçün dostluq edənlər düşməndən betərdir, düşmənin düşmən sifəti var, niyyəti gizli dostların sifəti olmur.

Sadəliyi və səmimiyyəti olmayan "müdrik" insanlar təkcə "mürəkkəbliyi" ilə yadda qalmırlar, həm də qəlizliyi ilə tanınırlar.

Bəxt yuxuya gedirsə fərdin, vaxt yuxuya gedirsə millətin faciəsi başlayır.

Dəyərsizə dəyər vermək özünü dəyərdən salmağa bərabərdir.

Yaxşısansa, yaxşıların qədrini bil, yaxşılar yaxşıların qədrini bilməyən yerdə pislər at oynadır.

Xam ata minən şıllaq və təpik yeyər.

Zehnini fənərə çevirə bilməyənlər zülmətdə yaşamağa məhkumdur.

Dostlarınızı kiminsə rəyiylə seçməyin, o kimsə gözünüzdən düşəndə həmin dostlar başınızın bəlasına çevriləcəklər.

Adamın yüngüllüyü onun çəkisi ilə bağlı deyil, fikrinin çəkisinə görədir.

Ən böyük günah etiraz qabiliyyətini itirməkdir!

Xalqın üçün etmirsən, Xaliqin üçün et, xalqını tərk edə bilərsən, Xaliqindən qaça bilməzsən!

Ağsaqqalları yaltaq olan eldə ədalət olmur.

Ən böyük qazanc vaxt qazancıdır, ən böyük itki də vaxt itkisidir.

Meymun çirkin deyil, meymunluq edənlər çirkindir.

Özünü sevən adam özünü başqalarına da sevdirə bilər, özünü düşünən adam isə onu düşünənləri də itirər.

Saxlayanda, əkəndə, bəsləyəndə bir şeyi unutma, toxum nədisə, onu cücərdəcək.

Həmişə əl tutduğun adamın qapısını ehtiyac üzündən heç vaxt döymə, xeyirxahlığın gözündən düşər, sınarsan.

Salam salam gətirər, hörmət ehtiram qazandırar, nifrət isə nifrət artırar.

Udlağa bənd olan udmaq və udqunmaq başqa-başqa şeylərdir, biri cəsarətdən, digəri qorxudan baş alır.

Yaltaqlıqla ehtiramı fərqləndirə bilməyən hər ikisini itirər

Ehtiyac insanı vəhşiləşdirir.

Özündən aşağıları özünə müəllim sayan, yerli-yersiz tərifləyən, nə qədər böyük olsa da, böyütdüklərinin gözündə balacadır, özünü aşağıladığı səviyyədədir.

Günü xoş keçən adamın üzündə də işıq olur.

İlan ilandır, zəhəri cinsinə görə deyil, iştahına və qəzəbinə görədir, ayaqlarsan, sancar.

Hər insan öz dilinin altındadır, danışdır ki, ağzını açsın və sən onun kim olduğunu aydın görə biləsən.

Adamlara sənə gərəkli olub-olmadığına görə qiymət vermə, düşün ki, sən onlara nə dərəcədə gərəklisən?!

Çullanan bədən, çeynəyən ağız heyvanda da var, çalış, geydiyin və yediyin qədərində olsun ki, qədrini itirməyəsən.

Pulun hökmdar olduğu cəmiyyətdə pulu olan da, olmayan da kölədir.

İstedad iki cürdür, biri fitrətdən, digəri zəhmətdən gəlir. Zəhmətdən gələn istedadı insana həyat təcrübəsi və qazandığı bilik hədiyyə edir.

Tutduğun mövqedən asılı olmayaraq ətrafında yaltaqları və satqınları saxlayırsansa, kürəyinə saplanan xəyanət bıçağı poladdan tökdüyün kreslonu da dəlib keçəcək.

Riyakarın imkanlarına aşiqsənsə, ondan fərqlənmirsən.

Kiminsə aldadıldığının şahidi olub etiraz etmirsənsə, növbəti qurban özün olacaqsan, geci-tezi var.

Qadının xoşbəxtliyi peşə sahibi olmasındadır. Evdar qadının özünü göstərmək üçün ən böyük auditoriya mətbəxdir.

İlan ilandır, zəhəri cinsinə görə deyil, iştahına və qəzəbinə görədir, ayaqlarsan, sancar

Hər insan öz dilinin altındadır, danışdır ki, ağzını açsın və sən onun kim olduğunu aydın görə biləsən.

Adamlara sənə gərəkli olub-olmadığına görə qiymət vermə, düşün ki, sən onlara nə dərəcədə gərəklisən?!

Çullanan bədən, çeynəyən ağız heyvanda da var, çalış, geydiyin və yediyin qədərində olsun ki, qədrini itirməyəsən.

Ən böyük günah etiraz qabiliyyətini itirməkdir!

Xalqın üçün etmirsən, Xaliqin üçün et, xalqını tərk edə bilərsən, Xaliqindən qaça bilməzsən!

Oduna qızınanlar var deyə özünü yandırma, külün ocaqdan kürünəndə peşmançılığın fayda verməyəcək.

Çalış, səni tez başa çıxmasınlar, çox zaman oxunmuş kitablar marağını itirir.

Verdiyini çəkmə, aldığını çək, alıcı kimi aldığının hesabını itirsən, satıcı kimi qazancın olmaz.

Dəyər umma, dəyər ver ki, dəyərlilər dəyərini görsünlər.

Yaxşı adam kimi tanınmağa cəhd eləmə, yaxşı əməl sahibi ol ki, yaxanı yaxşılar tanısın.

Ədəbiyyatçının siyasi söhbəti zəif personajın başından böyük iddialarına bənzəyir.

İşıqlı adamları kor cəmiyyət görə bilməz.

Əl həniri hiss etməyən divarlar quzulayar.

Söz pəhləvanı və söz təlxəyi var, pəhləvan əzələ nümayiş etdirir, təlxək atlanıb-düşür, hər ikisinin əlindən heç nə gəlmir.

Qibləsi olmayan adamlar əvvəl özlərini axtarıb tapsınlar, sonra kimə istəsələr üz çevirə bilərlər.

Əyalət təfəkkürü adamdan əl götürmür ki: hamıya qohum-əqraba kimi baxırsan!

Nənəm deyərdi, it ölər, xoyu (xasiyyəti) ölməz.

Ağır şərtlərlə yüngül işləri də başa çatdırmaq olmur.

Ağacını kəsdiyiniz adamlar üstünüzə aşa bilər.

Hamıya yaxşı olmaq üçün üzgörənlik etməlisən, bu da yaltaqlığın bir növüdür.

Qanunların şaha tabe olduğu ölkədə bir qanun var, o da şahdır.

Rüşvət və saxtakarlıq, yalan və satqınlıq millətin gələcəyini təhlükə altında qoyan başlıca amildir.

Dostlarınızı kiminsə rəyiylə seçməyin, o kimsə gözünüzdən düşəndə həmin dostlar başınızın bəlasına çevriləcəklər.

Təsvir xarakterli deyimlər:

Gecənin nəğməsi*: Külək at oynadır, şahə qalxıb kişnəyir, budaqlar intihar edir, yarpaqlar torpaqda ilan kimi qıvrılıb fısıldayır.*

Xəyanət*: Yuxum gecəyə qoşulub qaçıb, fikir məni götürüb, xəyallarımla qol-boyun olmuşam, yuxum gəlmir, fikir də məndən əl çəkmir.*

Atışmalar:

Elə ucal ki, enəndə öz ayağınla düşə biləsən (Havagir Ələm).

Boğazını yırtdığın avaz dinləyənin havasına düşmürsə, demək, xaric səslənirsən (Tarzan Əbiş).

Qurban olduqların qurbanlıqdırsa, başına bıçaq qoyulan və kəsilən sən olacaqsan (Çoban Əhməd).

Əməlləri cəsarətlə suvarılmayan insanın həyatında uğur göyərmir (Pəltək Məhəmməd).

Bölgənin folklorunda deyimlərdən fərqlənməyən müdrik sözlər də yer alır. Müdrik sözlər konkret şəxslərin ünvanlı və konkret hadisələr haqqındadır:

Hər kəsin xarakteri onun taleyini müəyyən edir.

"Salam" ünsiyyətin qapısıdır, bu qapını həmişə açıq qoyun: həm özünüzə, həm də başqalarına!

Ən böyük oğru fikir oğrusudur, ən halal oğurluq da fikir oğurluğudur!

Gözünə girənlərə göz yumma, baxar korun dərdi daha böyük olur!

Sərt olduğun məqamları mülayim olduğun məqamlardan üstün tut: bir var, sən güzəşt edəsən, bir də var, sənə güzəşt edələr!

Evindəkilərdən sənə gileylənən səndən də evindəkilərə gileylənər... dəm tutma!

Ən uğurlu qələbə nəfsin üzərində çaldığın qələbədir. Ən böyük zəiflik iradə zəifliyidir.

Baş qoşduğunda baş olmayanda başın daşa dəyir.

Daxilən cılız adamlar kürə kimidir, şişirdirsən, partlayır, içinin havası çıxır, ələ gəlməli bir şeyi qalmır.

Yediyin və geydiyin sənindir, yığdığın özgənindir, övladına qalsa belə: fər oğul özü yığacaq, befər oğul dağıdacaq onsuz da!

Öz keçmişindən qaçanla deyil, keçmişindən qürur hissi duyanla oturub-durun, zəngin olmasa da, zəngin tarixi vardır!

Kol çoxdu, kolda baş da çoxdu, ondan da çox koldan çöldə qalandı, başın xəbəri yoxdu.

Nə vaxtsa xəyanət etmiş dostunuz sizi dil boğaza qoymadan tərifləyirsə, tezliklə daha böyük xəyanətlə üzləşəcəksiniz **(Alarlı,I 2018: 159-161)**.

Deyimlərə bərabər tutulan nümunələrin bir qismi dəyərli sözlər adlanır. Dəyərli sözlər də məsləhət, öyüd, nəsihət xarakterlidir. Digər deyimlərdən, hətta atalar sözündən fərqi ondan ibarətdir ki, izahedici, aydınlaşdırıcı cümlələr üzərində qurulur.

Arxasınca getdiyiniz adamın qibləsi yoxdursa, siz azmağa məhkumsunuz.

Himayəsinə sığındığınız sizdən üstün deyilsə, qazancınız alçalmaq olacaq.

Savaş meydanında mövqesizlik adamı uçuruma aparır.

Mənliyi olmayan adamlar həmişə əqidə uğrunda savaşanların arasında vurnuxar.

İki əks istiqamətə ayaq qoyan cərcənək olar.

Dilənçilik həmişə ehtiyacdan yaranmır, dilənçilik bir peşə kimi ehtiyacdan doğur.

Sizdən asılı şəxsi probleminiz heç də öz səyinizlə həll olunmur, bu, ətrafınızdakıların sizin problemə münasibətindən asılıdır.

Zülm olunan zülm edənə etiraz etmirsə, qiyamət günü zülm edənə şərik sayılır.

Qısqanclıq ruhi xəstəliyin bir növüdür və onu təbabət müalicə etməkdə çox acizdir.

Hisslər hakim, ağıl vəkildir.

Hər saqqal ağardana ağsaqqal demirlər, saqqalsız o qədər ağsaqqal var ki, ağsaqqallar onların əlinə su tökməyə layiq deyillər.

Haqq bərpa ediləndə başqalarının mənafeyi pozulursa, bərpa edilən, haqq səviyyəsinə qalxa bilmir.

Söyüşcül adamlar aciz adamlardır, onlarla mübahisə bilə-bilə özünü nüfuzdan salmaqdır.

Həmişə özünü haqlı sayan adam həmişə haqsızdır.

Əsas o deyil ki, sevirsən, əsas odur ki, sevdiyin səni sevir.

Ustadını göstər, deyim, necə şagirdsən, şagirdini göstər, deyim, necə ustadsan.

Ən böyük qələbə nəfsinə çaldığın qələbədir. Ən böyük məğlubiyyət nəfsinə olan məğlubiyyətdir.

Pıtıl adamlar içindən ovular.

Qarşındakına hörmət etmirsənsə, ətrafdakılara hörmət et.

Qoduq eşşək olacaqmış böyüyəndə... bəsləyəndə düşünmək lazım idi.

Oynamağı sevənlər oynadanların fərqində deyillər, çətini qol qaldıranacandı...

Nifrətə köklənmiş insanlar xeyirxah ola bilməzlər.

Borcun iki üzü var: verəndə yaxşı adam olursan, alanda pis.

Qırmızı adamla dostluq etmə, səni elə yerdə qızardar, özünə gələ bilməzsən.

Bilərəkdən, ya bilməyərəkdən haqsızın yanında olan adam ikiqat haqsızdır.

Əhlilləşmiş ilanlar daha təhlükəlidir, ehtiyatı itirirsən.

Elə dərd var ki, onu dilə gətirmirlər, yaşayırlar, elə fikir var ki, onu söyləmirlər, çəkirlər.

Sənə yaltaqlananla şəxsiyyətinə hörmət göstərənə fərq qoymursansaz, özünə hörmət qoymursan.

Kim olduqlarını bilməyənlər əslində heç kimdirlər.

Başqalarını alçaltmağı xoşlayanlar əslində özləri alçaldılmış insanlardır, yəni alçaqlar!..

Haqqı vermirlər, haqqı alırlar.

Kişi tinyətli qadınlar qadın xislətli kişilərdən abırlıdır.

Həmişə səndən faydalanan heç vaxt sənə fayda verməz.

Kimsə qarşında baş əyirsə, bu hələ əyilmək deyil.

Dəyəri dəyərli adamlar verə bilər.

Xarakter də vərdişlər üzərində qurulur: pis vərdişlər pis, yaxşı vərdişlər yaxşı xarakter formalaşdırır **(Alarlı,II 2019: 75-78)**.

Deyimlərin bir qismi kəlmələr adlanır. Əslində, kəlmələr atalar sözü, məsəl və deyimlərə bərabər tutulan nümunələrdir. Azərbaycan dilində təxminən cümlə ifadəsini əvəz edir. Lakin folklorda kəlmə daha geniş anlayışdır. Bu söz janr baxımından atalar sözünü, məsəlləri, idiomatik ifadələri, frazeoloji birləşmələri və müxtəlif məzmunlu deyimləri əhatə edir. belə deyimlər məzmununa görə fərqlidir. Müdrik fikri ifadə edən və obraz yaradan deyimlər dilin folklor qatının imkanlarını üzə çıxarır. Bəzi müraciətlər, hətta qarğışlar və alqışlar da kəlmə "janrının" hüdudlarına sığır. Məsələ burasındadır ki, bu müxtəlif janrları məzmun bir araya gətirir. Belə janr bölgüsü tematik xarakter daşıyır. Bütün dünya folklorunda belə mübahisəli janr problemi yaşanmaqdadır. Janrın struktural təyinatı şəkli xüsusiyyətlərə əsaslanır. Janrın tematik-semantik təyinatı isə müxtəlif şəkillərdə olur, lakin onları eyni, yaxud oxşar məzmun birləşdirir. İtlə bağlı atalar sözü, məsəl və deyimlər məzmununa görə kəlmələr adı altında qruplaşdırılmışdır:

İt hürər, karvan keçər.

İt aşı kimi qarışıb.

İt ağzın açıb üstümə.

İt xasiyyətlidir.

İt üzündən oldum.

İt dəftərində adı yoxdur.

İt qursağı yağ götürməz.
İt oyunu açdım başına.
İt sürüsü kimi.
İt olub yapışıb yaxama.
İt olub ulayaram.
İt itin ayağın basmaz.
İt əti olsa da yeyərəm.
İt xaltası kimi asıb boynundan.
İt-it danışma.
İt itdiyi ilə oturduğu yeri quyruğu ilə süpürür.
İt aparan olsun.
İt ağzına düşdüm.
İt arıqlığın qurda bildirməz.
İt–qurd görməsin.
İt qusub, pişik yalayıb.
İt ilindən qalıb.
İt yerinə qoymur.
İt yesə gözləri ağarar.
İt köküdəndir.
İt əl-ayağı yeyib.
İt də getdi, ip də getdi.
İt də öz qapısında ağadır.
İt əl çəkdi, motal əl çəkmədi.
İt it ilə boğuşdu, yolçuya girəvə düşdü.
İt it ilə dalaşanda qurd körpünü aşar.
İt itin quyruğun basmaz.
İt qorxduğu yerə hürər.
İt quduranda yiyəsini də qapar.
İt qulağını kəsəndən qorxar.
İt kimi sülənir.
İt itlə savaşar, çaya birlikdə gedər.
İt itlə savaşanda bir ayağın dalda tutar.
İt itdiyin sübut edincə dərisi dabbağa gedər.
Səndən kor it xeyir görməyib.
Könülsüz itin sürüyə xeyri dəyməz.
Yalansa it ilə yatasan.
Qanım it qanına dönüb.
Atlı qonaq itli qonaqdan yaxşıdır.
Kar iti qurd aparar.
Malını it yeyər, canını bit!
İtdən çox çarıq aparan olmaz, yenə ayaqları yalındır.

İtdən utanmırsan, sahibindən utan **(Alarlı,I 2018: 178-188)**.

İtlə bağlı kəlmələrin bir qismi mənzum deyimlərdən ibarətdir:

Yatar-yatar başı şişər,
Duranda bitin axtarar
Xörəyi verər pişiyə,
Qonşunun itin axtarar **(Alarlı,I 2018: 186)**.

Həyat həqiqətlərini əks etdirən deyimlər aforizmlər adıyla toplanmışdır. Bu aforizmlər ata sözlərini xatırladır, həm də maraqlı nəticələri özündə əks etdirir:

İstedadı olan adamın düşməni də çox olar.

Haram yolla qazanılan çörəyin adı olar, dadı olmaz.

Qocaların sözünü yerə salanın özü yerə düşər.

Qocalar evə bərəkət, elə hörmət gətirər.

Qocaların gözü nurdan düşər, sözü gurdan düşməz.

Düz adamın həyat yolu ona görə çətin keçilən olur ki, o, qarşısına çıxan maneələrin yanından deyil, üzərindən ayaqlayıb keçmək istəyir.

Düz adama yaxılan qaralar divara yaxılan sementsiz qum kimidir, yapışmaz, qopub tökülər.

Aqil insanın ağzından çıxan söz dəyirmanın ağzından təzə çıxan un kimi saf və bərəkətli olmalıdır.

Mürəbbə teştdən daşanda kəfkirin qiyməti ceyran dağına qalxar **(Alarlı, III 2020: 119)**.

Deyimlərin bir qismi tövsiyələr adlanır. Tövsiyələr məsləhət, öyüd, nəsihət xarakterli olur, həyat təcrübəsindən irəli gələn fikirləri ifadə edir:

Əməyinin əvəzini nə etdiyini bilməyən insanlardan ala bilməzsən.

Dəyəri anlamayanlara heç vaxt əməyini təklif etmə.

Cahil insanlarla heç vaxt mübahisə etmə.

Pillələri zəhmətlə qalxmağın öz ləzzəti var, göydən düşər uğur qədirsiz olur.

Hər kəs öz şəxsiyyəti qarşısında Hippokrat andı içməlidir: ona əmanət verilmiş canı salamat saxlamaq üçün.

Özü özünün həkimi olmayanları dünyanın bütün həkimləri yığışsa da, xilas edə bilməzlər.

İanələr, müavinətlər və yardımlarla yaşayan ailə, toplum, el, xalq, millət dilənçi xislətlidir.

Haqqını tələb etməyən cəmiyyət haqsızdır.

Hər şeyini itirənlər bilir, itirilənlər nə çəkir itirənlərin əlindən.

Kəc adamlarla söz güləşdirmək onun səviyyəsinə enmək deməkdir.

Dostların xəyanəti xəyanətlərin başında gəlir. Səni itirirlər, itirlər.

Geridə qalanlar elə bilirlər ki, qabaqda gedənlər qırılsalar, onlar birinci olacaqlar **(Alarlı, III 2020: 121-123)**.

Məsəllərə bənzəyən və "Belə bir məsəl var" istinadıyla başlayan deyimlər daha çox həyat hadisələrinin təhlili üzərində qurulur. Əslində bu tipli deyimlər məsəllərdir, çünki hər birinin arxasında bir əhvalat dayanır:

Ara söz, qara söz.
Bazarı qıt görən tacir zeh yerə vurar.
Bir torba dəni on beş dəyirmanda üyüdən qəhrəman olmaz.
Cütə getməyən öküzü ətliyə kəsərlər.
Çölmək diyirlənib duvağı tapar.
Qamış ola, gömüş ola, görməmiş ola.
Düz uçan quş gülləyə tuş gələr, gərəkdi ki, arada dövrə vurasan.
Malın mal olunca, bazarın bazar olsun.
İgidim igid olsun, kol dibi evim olsa da, bəsimdir.
Çox bilənfikir elər, çox yeyən şükür.
İşdən gec, yeməkdən tez əl çək.
Marta mərək aprelə gərək.
Alim dörd dürlüdür: biri bilir bilir, biri bilir bilmir, biri bilir ki, bilmir, biri də bilmir ki, bilmir!
Təqvalı insan iki cürdür: biri paklaşıb məscidə gəlir, biri isə məscidə gəlib paklaşır.
Molla seyidə dedi ki, ağa, təmiz adam axtarıram ki, onunla namaz qılım, dərəcəsinə çatsın, seyid mollaya dedi ki, tapsan mənə də xəbər elə **(Alarlı, III 2020: 175-176)**.

Hədələr də deyimlərin bir növü kimi yazıya alınmışdır. Belə nümunələr el arasında hədələr, hədə-qorxular, təpkilər, qısnamalar kimi tanınır:

Səni ağ eləyib, qara sərərəm.
Gününü göy əskiyə tutaram.
Gözünün tovunu alaram.
Ciyərini çıxararam.
Səni baxar kor elərəm.
Yaş yuyub, quru sərərəm.
Ümidini qıraram.
Çörəyə həsrət qoyaram
Elə elərəm, qazancına əlin çatmaz.
Başın hava gətirərəm.
Sənə tüstü qoyaram.
Başını elə qırxdırram, ölənəcən tük çıxmaz.
Kişilikdən salaram.
Odsuz-ocaqsız yandıraram.
Diri-diri qəbirə quyularam **(Alarlı, III 2020: 178)**.

El arasında hələ janrı dəqiqləşməmiş deyimlər də var. Bunlardan biri *dialoqvari* şəkildədir və stresslə, əsəblə bağlıdır. Bu dialoqların tərbiyəvi tərəfi isə böyükdür. İnsan nitqi ilə tanınır. Nitq həm də təfəkkürün ifadəsidir, təfəkkürü aydın olanın nitqi aydın olur. Həmişə beləmi olur? Yox! Bəzən müsahiblər təmasda olduqlarının əsəblərini səviyyəsiz cavabları ilə tarıma çəkir. Bunu bir neçə dialoqda müşahidə etmək mümkündür:

Birinci dialoq:

-Açar hardadı?
-Orda!
-Orda, yəni harda?
-Yerində!
-Yeri hardadı?
-Həmişə olduğu yerdə!
-Həmişə olduğu yer hardadı?
-Əvvəlki yerində!
-Əvvəlki yeri hardadı?
-Birinci dəfə qoyduğumuz yerdə!
-Birinci dəfə haraya qoymuşduq ki?
-Oraya!
-Oraya, yəni haraya?
-Öz yerinə!
-Öz yeri hardadı?
-Həmişə olduğu yerdə!

İkinci dialoq:

-Dostun var?
-Var!
-Dostunun dostu var?
-Var!
-Onun da dostları var?
-Var!
-Sənin nə qədər dostun var?
-Elə o qədər!

Üçüncü dialoq:

-Baxırsan?
-Hə!
-Görürsən?
-Hə!
-Nə görürsən?
-Görsənənləri!
-Görsənənlər nədi?

-Olanlar!
-Olanlar nədi?
-Görsənənlər! **(Alarlı , I 2018: 163-164)**.

Dialoqların bir qismi lətifələri xatırladır, gülüş doğuran nəticə ilə tamamlanan belə dialoqlar sərrast deyimli yekunu ilə digər folklor nümunələrindən fərqlənir. Dialoq-deyimlər lətifələr kimi konkret başlıqlar altında təqdim olunur. "Mücərrəd" başlıqlı dialoqun məzmunu belədir:

-Onlar niyə qaçırlar, ana?
-Onlar qaçmırlar, uçurlar bala.
-Hara uçurlar, ana?
-Eşq dünyasına, bala. Onlar cənnət quşlarıdır!
-Bəs bu camaat nə danışır belə, niyə qoymurlar ki, onlar uçub eşq dünyasına getsinlər?
-Camaatı ora buraxmırlar, bala, böyüyəndə hər şeyi özün başa düşəcəksən.
-Bəs onlar geri dönməyəcəklər?
-Yox, bala, o yolu bir dəfə gedirlər, geriyə dönüşü yoxdur.
-Day deginən, ölürlər də! **(Alarlı, II 2019: 78-79)**.

Konkret başlıqlar altında verilən lətifəvari dialoq-deyimlər təkəbbürü, özünəinamı, güvənci, həmçinin məsuliyyətsizliyi ifadə edir:

Reallıq
-Daha çox kimə güvənirsən?
-Özümə!
Bəs kimdən ehtiyat edirsən?
-Özümdən!

Eşq, yaxud sevgililər süfrə arxasında
-Sevirsən?
-Hə!
-Lap çox sevirsən?
-Dünyalar qədər!
-Heç belə sevmişdin?
-Yox e, hardan?
-Dəyişərdin?
-Yox, yox, ancaq onu sevirəm, başqasını istəmirəm.
-Nəyini sevirsən?
-Çox dadlıdı, yaxşı bişiriblər, istiotu da yerindədi.
-Nəyin istiotu, sevginin?
-Ləvənginin! **(Alarlı, II 2019: 78-79)**.

Əhvalat xarakterli deyimlər ibratamiz nəticəsi ilə fərqlənir. Bu cür deyimlər rəvayət və əfsanələri xatırladır. Rəssam haqqında olan deyimin məzmunu maraqlı süjet üzrəndə qurulmuşdur. Şagirdi təhsilini bitirdikdən sonra ustası buyurur ki,

çəkdiyi son rəsmi şəhər mərkəzinə aparıb yerləşdirsin və yanına da bir qırmızı qələm qoysun. Qeyd etsin ki, insanlar rəsmdə bəyənmədikləri hissəni qırmızı qələmlə işarələsinlər. Şagird ustanın dediklərini eynilə yerinə yetirir və bir neçə gündən sonra şəhər mərkəzinə gedib rəsmi götürür. Bu zaman rəsmin hər tərəfində qırmızı işarələrin qoyulmuş olduğunu görən şagird olduqca məyus və üzücü halda ustasının yanına gəlir.

Usta isə bu dəfə buyurur ki, rəsmi yenidən düzəltsin və yenə şəhər mərkəzinə aparsın. Lakin bu dəfə müxtəlif boyalar və fırça qoysun. Qeyd etsin ki , insanlar bəyənmədikləri hissələri özləri düzəldə bilərlər. Şagird eynilə bu dəfə də ustasının buyuruğunu yerinə yetirir. Bir neçə gündən sonra isə rəsmi geri götürdükdə görür ki, əsərə heç kim düzəliş etməyib. Şagird sevincək halda rəsmi ustasına göstərdikdə ustası buyurur: "Birincidə insanlara fürsət verildiyində onların nə qədər qəddar olduqlarını görə bildin. Ömrü boyu, hətta bircə rəsm də çəkməmiş olanlar da gəlib rəsmə işarə qoydu. İkincidə insanlardan müsbətə doğru yaradıcılıq istənildi. Yaradıcı olmaq üçün isə təhsil lazımdır. Heç kim bilmədiyi bir mövzunu düzəltməyə cəhd etmədi **(Alarlı, III 2020: 118)**.

Deyimlərin bir qismi başagəldi adlanır. Başagəldi rəvayətin bir variantıdır, real hadisələrlə səsləşir. Lakin deyim adöyla təqdim olunan başagəldi ibrətamiz nəticəsi olan əhvalatla bağlıdır. Deyim şəkilli başagəldilərdən birində işə girmək istəyən şəxsdən həddindən çox sənəd toplanılması ilə bağlıdır: “Astarxanbazarlı (cəlilabadlı) həddi-buluğa çatmış bir gənci 1941-ci ildə müharibəyə aparıblar. Müharibədə almanlara əsir düşür, qayıtdıqdan sonra heç yerdə işə qəbul etmirlər. Dolanışıq üçün bazarda səyyari şəkildə limon satırmış. Bazarkom Sarıbala kişi səyyari alverçiləri qovaraq onlara həmişə "tüfeylilər" deyirmiş... Əsirlikdən qayıtdıqdan sonra daha da ağır məşəqqətlər çəkən bu kişi, xeyli tərəddüddən sonra müharibədən əvvəl dost olduğu Quşdar kişinin yanına gedib bir iş almaq istəyir. Quşdar Əsgərov raypoittifaqın sədri olub. Və nəhayət görüşür, hal-əhval, xoş-on beş... Dərdini açıb deyir: heç yerdə iş vermirlər, əlimdə limon satıram, ona da Sarıbala kişi icazə vermir, bazardan qovaraq bizə "tüfeylilər" deyir. Quşdar kişi qulaq asır və xeyli tərəddüddən sonra deyir ki, get, delonu gətir. Əsir olmuş kişi soruşur: Quşdar, "delo" nədir? Quşdar kişi onu başa salır ki, şəxsi iş-əmək kitabçası, bundan əvvəl işlədiyin yerdən arayış-filan, bəşməkən... Və bunlar olmasa, onun işə qəbul məsələsinin qəti mümkün olmadığını bildirir.... Əsirlikdən qayıdan, həyatın ən amansız üzlərini görmüş bu kişi xeyli fikrə dalır və səssiz şəkildə otaqdan çıxıb gedərkən, Quşdar deyir:

-Delonu nə vaxt gətirirsən? Amma mütləq axırıncı iş yerindən arayış olsun...

Əsirlikdən qayıdanın cavabı çox məzəli olur. Deyir ki, gedim görüm, Hitleri hardan tapıram, ondan bir arayış gətirim” **(Alarlı, III 2020: 120)**.

Bu başagəldinin qəhrəmanı Quşdar kişi haqqında daha bir deyim söyləyirlər. Quşdar kişi raykopittifaqın sədri olsa da, oxuyub-yaznaq bilmirdi, amma yaxşı idarəetmə metodu vardı. Belələrinə fitrətən zəkalı adamlar deyirlər. Kadrlar

şöbəsinin müdiri, Quşdar kişinin yanına gəlib, ona deyir, yuxarıdan məktub var. Quşdar kişi deyir, aç oxu. Kadrlar şöbəsinin müdiri məktubu oxuyub bitirəndən sonra Quşdar kişi ona deyir, məktubu qoy, get.

Bir azdan Quşdar kişi baş mühasibi çağırır, ona deyir, mizin üstündəki məktubu bərkdən oxu. Baş mühasib oxuyur. Quşdar kişi deyir, hə, səndən qabaq oxuyan da belə deyirdi **(Alarlı, III 2020: 121)**. bu başagəldi-deyimin ibrətamiz nəticəsi ondan ibarətdir ki, həmin müdrik fikirləri yaradan xalq insanların cəmiyyətdəki mövqeyini təhsili ilə deyil, fitrəti ilə bağlayır.

Yekun olaraq, deyə bilərik ki, deyimlərin janr xüsusiyyətləri atalar söz və məsəllərlə bağlıdır. Aforizm, kəlmə, dəyərli söz, müdrik söz, atışma, tövsiyə, hədə, öyüd, məsləhət, irad, tənbeh, nəsihət, qarğış, bəddua, təsvir və mühakimə xarakterli deyimlər atalar sözü və məsəlin janr imkanlarını genişləndirir. Lakin əhvalat, dialoq, lətifə və başagəldi xarakterli deyimlər atalar sözü və məsəl janrının hüdudlarını aşır. Bəzi mənzum deyimlər də müdrik, tövsiyəedici xarakter daşımasına baxmayaraq, atalar sözü və məsəl janrının tələblərinə sığmır.

Ədəbiyyat:

Alarlı,I 2018 - Alarlı (Hüseynov B. Muğan elləri. I kitab. Qədim Həməşəra diyarının söz sənəti (Cəlilabadın folklor və ədəbi mühiti). Bakı, Elm və təhsil, 2018, 288 s.

Alarlı,II 2019 - Alarlı (Hüseynov B. Muğan elləri. II kitab. Qədim Həməşəra diyarının söz sənəti (Cəlilabadın folklor və ədəbi mühiti). Bakı, Elm və təhsil, 2019, 256 s.

Alarlı,III 2020 - Alarlı (Hüseynov) B. Muğan elləri. III kitab. Qədim Həməşəra diyarının söz sənəti (Cəlilabadın folklor və ədəbi mühiti). Bakı, Elm və təhsil, 2020, 192 s

AFA, Şəki (II) 2002 - Azərbaycan folkloru antologiyası, VI kitab (Şəki folkloru, II cild). Toplayıb tərtib edəni Hikmət Əbdülhəlimov. Bakı, Nurlan, 2002, 496 s.

Göyçay folklor örnəkləri 2022 - Göyçay folklor örnəkləri. I kitab. Toplayıb tərtib edənlər: Atəş Əhmədli, Xuraman Kərimova, Vüsal Abıyev. Bakı, Elm və təhsil, 2022, 296 s.

Laçın folkloru 2009 - Laçın folkloru. Toplayıb tərtib edəni İlham Qəhrəman. Bakı, Adiloğlu, 2009, 218 s.

Masallı folklor örnəkləri (2) 2013 - Masallı folklor örnəkləri, 2-ci kitab. Toplayıb tərtib edəni prof. Füzuli Bayat. Bakı, Nurlan, 2013, 400 s.

Şəki folklor örnəkləri 2016 - Şəki folklor örnəkləri. III kitab. Toplayıb tərtib edəni Ləman Vaqifqızı (Süleymanova). Bakı, Elm və təhsil, 2016, 364 s.

Bilal Huseynaga oglu Huseynov

Genre characteristics of idioms in Azerbaijani folklore

Summary

Genre features of idioms in Azerbaijani folklore have not been investigated separately. The primary reason for this is related to the collection of examples of idioms from different regions in proverbs and proverbs. In some regions, idioms are even equated to proverbs. Upon closer examination, it becomes clear that idioms are not only related to proverbs due to their genre characteristics. In addition to epic idioms, there are also verse (lyrical) idioms. In addition, an explanatory presentation of some paremis, figurative expressions, and phraseological combinations is also presented under the name of idioms. Some of the sentences have been written down as sayings. Different characteristics of this folklore example are revealed when we consider the recorded sayings from the regions.

Aphorism, kelme, deyerli soz (valuable word), mudrik soz (wise word), atishme, tovsiye (recommendation), hede, oyud (reminder), meslehet (advice), irad (remark), tenbeh (rebuke), nesihet (advice), qargish, beddua (curse), descriptive and judgmental idioms expand the genre possibilities of proverbs.

However, stories, dialogues, anecdotes and bashageldi (idioms) of a comprehensible nature exceed the boundaries of the genre of proverbs. Although some proverbs are wise and suggestive, they do not fit the requirements of the genre of proverbs.

Keywords: *Azerbaijani folklore, proverbs and idioms, genre characteristics of idioms*

Билал Гусейнага оглы Гусейнов

Жанровые характеристики идиом (поговорок) в азербайджанском фольклоре

Резюме

Жанровые особенности идиом (поговорок) в азербайджанском фольклоре отдельно не исследовались. Основная причина этого связана со сбором примеров идиом из разных регионов в пословицах и пословицах. В некоторых регионах идиомы даже приравнены к пословицам. При ближайшем рассмотрении становится ясно, что фразеологизмы связаны с пословицами не только в силу их жанровых особенностей. Наряду с эпическими фразеологизмами существуют лирические фразеологизмы. Кроме того, под названием фразеологизмов дается пояснительное изложение некоторых паремий, образных выражений и фразеологических сочетаний. Некоторые предложения были записаны как поговорки. Различные характеристики этого фольклорного образца выявляются при рассмотрении записанных поговорок из регионов.

Афоризм, келме (слово, поговор), ценное слово, мудрое слово, атышмалар, рекомендация, запугивание, напоминание, совет, замечание, упрек, несихет (совет, завещание), гаргыш, беддуа (проклятие), описательные и оценочные фразеологизмы расширяют жанровые возможности пословиц и пословиц. Однако ехвалат (рассказы, история), диалоги, анекдоты и идиомы понятного характера выходят за рамки жанра пословиц. Хотя некоторые стихотворные изречения мудры и наводящие на размышления, они не подходят под требования жанра пословиц.

Ключевые слова: *Азербайджанский фольклор, пословицы и поговорки, жанровые характеристики поговорок*.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Filologiya üzrə fəlsəfə doktoru, dosent Akif Əhmədov tərəfindən çapa tövsiyə olunmuşdur

ABDULLAYEVA KÖNÜL TƏVƏKKÜL QIZI
ADNSU-nun müəllimi
abdullazade_konul@mail.ru

AZƏRBAYCAN ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR

Açar sözlər: atalar sözləri, məna, xalq dili, tərcümə, məzmun, lüğət

Atalar sözü və məsəllər xalqın həyatı ilə bağlı olan, formaca kiçik, mənaca geniş janrlardan biridir. Atalar sözü və məsəllərdə xalq hikməti, xalq zəkası xalqın əsrlərdən bəri əldə etdiyi sınaq və təcrübələrin nəticələri ümumiləşdirilir. Odur ki, danışıq dilində ifadələrin daha canlı, sərrast və təsirli olması üçün atalar sözü və məsəllərdən istifadə olunur. M. Qorki yazır: "Ən böyük hikmət sözün sadəliyindədir. Atalar sözü və məsəllər həmişə qısa olur, lakin onlarda tam kitablar dolusu ağıl və hiss vardır ".

Ona görə də, atalar sözü və məsəllərə ruslar ibrətamiz söz, qanadlı söz, qızıl söz, Şərq xalqları dilin gülzarı, ipə - sapa düzülməmiş incilər, yunanlar və romalılar hakim fikirlər, italyanlar xalq məktəbi, ispanlar ruhun təbiəti, ingilislər və fransızlar təcrübənin barı və s. adlar vermişlər.

Atalar sözü və məsəllər folklorun çox qədim janrlarındandır. Bu janr öz mənşəyini lap ibtidai icma dövründən alır. O vaxtdan bəri insanların həyat, təbiət haqqındakı təcrübələri, bilik və sınaqları qısa və bədii şəkildə ifadə edilərək zəmanəmizə qədər gəlib çıxmışdır. Ona görə də atalar sözü və məsəllərdə xalq həyatının, xalq tarixinin bütün dövrlərinə aid əlamətlər yaşamaqdadır.

Atalar sözü və məsəllər bir-birinə çox yaxındır. Bunları bir-birindən ayırmaq çox vaxt hətta çətin olur. Lakin bunları fərqləndirən cəhətlər də vardır. Bu barədə müxtəlif fikirlər söylənmişdir. Bəzi tadqiqatçılar bu fərqləri onların qrammatik quruluşunda görmüş, bəziləri həcmcə kiçik və böyük olmalarında axtarmış, bəziləri isə məsəllərdə daha çox məcaz, idiom, müqayisə və s. işləndiyinə görə atalar sözlərindən seçildiyini qeyd etmişlər.

Atalar sözü və məsəllər forma və zahiri xüsusiyyətlərinə görə deyil, məhz məzmununa görə bir-birindən ayrılır. Bu məzmun fərqi olduqca incə və gözəgörünməyən olduğuna görə çox zaman hər iki qisim bir-birinə qarışdırılır. Bu məzmun fərqi isə ondan ibarətdir ki, atalar sözü fikri tam ifadə edir, onlarda ümumiləşdirmə, fikir dərinliyi mühüm yer tutur. Əksinə, məsəllər çox zaman bu və ya digər konkret hadisəyə aid olub, natamam fikir ifadə edir. Əgər atalar sözündə mühakimə tam və hərtərəfli isə, məsəllərdə hadisəyə işarə edilir, adı çəkilir, onda tamamlanmağa ehtiyac vardır. Məsəllər sözgəlişi, tez – tez deyilən, bəzən naməlum kimi görünən hadisəyə izahat vermək üçün işlənən populyar bir janrdır.

Atalar sözü xalqın mübarizəsi, əməyi, düşüncələri, təcrübə və sınaqları, dünya baxışı, həyat münasibətləri haqqında dərin və geniş mənalar ifadə edən konkret janrdır. Bəzən bunların arxasında xalqın təfəkkürü, adət və ənənələri ilə bağlı olan böyük bir hadisə gizlənir. Bəzi atalar sözlərini oxuyanda insanın qarşısında böyük bir dövr açılır, onun vasitəsilə həmin dövrdə xalqın vəziyyəti, insanların münasibəti ilə tanış oluruq. Bu nöqteyi-nəzərdən bir çox atalar sözü yalnız xalqın dünya görüşü, təfəkküründü ifadə edən nümunə olmayıb, həm də bir növ tarixi sənədlərdir.

Azərbaycan atalar sözü və məsəllərinin mövzu dairəsi çox genişdir. Bunlar xalqımızın hərtərəfli həyatı ilə əlaqədar yaranmışdır. Atalar sözü və məsəllər xalq kütlələrinin gündəlik həyatı və fəaliyyəti ilə daha çox bağlı bir janrdır. Bunlar hər addımda bu və ya digər hadisəyə tətbiq olunan nümunələr olduğundan xalqın həyatını, məişətini bütün mürəkkəbliyi ilə əks etdirir. Atalar sözləri və məsəllərdə biz xalqın əməyə, zəhmətə, namusla işləməyə böyük səy və həvəsinin ifadə olunduğunu görürük.

Türk dillərinin tədqiqində araşdırılıb toplanmasında əvəzsiz xidmətləri olan V.V. Radlov tədqiq etdiyi dillərin yalnız leksik tərkibi ilə deyil, eyni zamanda bu dildə danışan xalqların əsrlərdən bəri yaratdığı xalq yaradıcılığı nümunələri ilə də maraqlanmışdır. O, bu nümunələri də (müvafiq olaraq) toplamış, araşdırmış və qruplaşdırmışdır. Bu nümunələr yəni, nağıllar, məsəllər, atalar sözləri, inanclar, tapmacalar və s. türk xalqlarının daxili və mənəvi aləminin zənginliyini əks etdirir.

Akademik V.V. Radlov özünün məşhur "Опыт словаря тюркских наречий" lüğətində bir çox türk dilləri ilə yanaşı Azərbaycan dilinə məxsus sözləri və onların rus dilinə tərcümələrini verərkən bu sözlərin mənalarını daha aydın şəkildə çatdırmaq üçün bəzən atalar sözlərindən, bəzən zərbi məsəllərdən, bəzən frazioloji birləşmələrdən də istifadə etmişdir. Bilirik ki, atalar sözü müəyyən ibrətamiz fikirləri bir məfhum kimi qısa, obrazlı, bitkin şəkildə ifadə edir. Atalar sözlərinin mənşəyi, kimin tərəfindən və nə zaman deyildiyi konkret olaraq məlum olmasa da hər bir atalar sözünün müəyyən bir dövrün məhsulu olduğu və müəyyən bir hadisə ilə əlaqədar yarandığı aydındır. Demək olar ki, atalar sözü həyati hadisələrlə əlaqədar olaraq yaranır və zaman keçdikcə, daha doğrusu öz mənşəyindən uzaqlaşdıqca abstraklaşır, ümumiləşir və öz həqiqi mənasını tamamilə itirir. (1, 104)

Atalar sözləri xalqımızın inkişaf tarixini öyrənmək üçün mötəbər mənbələrdən birini təşkil edir. Çünki onların içərisində xalqımızın qədim dövrlərdən başlamış indiyə qədər məişətinin bütün sahələrinə aid atalar sözlərinə təsadüf etmək mümükündür.

Atalar sözləri və məsəllər keçmiş nəsillərin çoxcəhətli fəaliyyətdə əldə etdikləri nəticələri yeni nəslə vermək üçün işlədilir. Atalar sözləri və məsəllərdə obrazlılıq daha güclüdür.

Ümumiyyətlə, atalar sözləri elmə, vətənə, sənətə, əməyə, biliyə, ağıla, arzu və istəyə, uşaq və valideynlərə, dostluq və birliyə və s. aid olur.

Atalar sözləri atalarımız və ulu babalarımız tərəfindən yaradılmış və dəyişməz halda qalan ifadələrdir.

V.V. Radlovun "Опыт словаря тюркских наречий " lüğətində qeydə alınmış atalar sözləri və məsəllərə nəzər saldıqda bəzi atalar sözləri və məsəllərin hal – hazırda işlənən variantlarından fonetik və qrammatik cəhətdən az da olsa fərqləndiyinin şahidi oluruq. Adı çəkilən lüğətdə qeyd olunmuş Azərbaycan dilinə məxsus atalar sözləri və məsəllərə nəzər salaq:

Ağır otur batman tələsən – садись тяжело, свесишь батмань. (T.e) веди себя с достоинством и ты будешь уважаем.

Bu atalar sözü hal-hazırda dilimizdə "Ağır otur batman gələrsən" şəklində işlənir. Burada batman ağırlıq mənasında (əvvəllər çəki vahidi kimi işlənmişdir), hörmətli olarsan mənasında işlənir. Gələrsən sözünün tələsən kimi verilməsini isə, bir çox sözün dialekt və şivələrimizdə səslərin əvəzlənməsi, səs düşümü hadisələrinə məruz qalması kimi izah edə bilərik.

Koyunu koyun ayağından, keçini keçi ayağından asarlar – барана вешають за баранью ногу, козла за козлиную. (T.e) каждому воздается по его заслугом. Tərcümədən də aydın olur ki, bu atalar sözü "hər kəs öz əməlinin bəhrəsini görür. Öz əməlinə görə qiymətləndirilər və ya cəzasını çəkər" mənalarında işlənir.

Armud ağacından uzak düşməz – груша не далеко падаеть от своего дерева.

Bu atalar sözü məcazi mənada ifadə olunaraq, əslində övlad vadeyninə bənzəyər mənasını verir.

Aman dilənə kılıç yok (ulmaz) – неть меча для того, кто просить пардонь. (4, 644).

Bu atalar sözü xalqımızın geniş ürəyinin, humanizminin bir göstəricisidir. Atalarımız aman diləyənə rəhm edin, qılınc vurmayın deyə hər zaman nəsihət etmişlər.

Ağacı öz kolundan, gəlini öz elindən – режь себе палку от своего леса, бери себе невесту из своего племени. (4, 804)

Bu atalar sözü vasitəsilə atalar oğullarna yalnız öz elindən, öz yurdundan evlənməyi məsləhət görmüşlər.

Hər nə ki əkərsən, onu da biçərsən – что ты посеешь то и пожнешь

Bu atalar sözü həm yaxşı mənada, həm də pis mənada işlədilir. Yəni hər nə etsən onun da bəhrəsini görərsən.

Atalar sözləri və məsəllərdə məcazlardan cox istifadə edilir. Burada fikir, düşüncə əksər hallarda dolayı yolla çatdırılır.

Ayının min oını var, bir armud üstə - медведь играеть тысячу фокусовь пока не достанеть груши.

Məqsədinə çatmaq üçün hər yola əl atan insanlara xitabən işlədilən məsəldir.

Kənarına bak bezin al, anasına bak kızın al! – покупай материю, смотря на край ея, бери девицу, смотря на мать.

Kilim altında daul çalınmaz – под кавром не бють в барабань

Bir işin mümkünsüzlüyünü bildirmək üçün bu atalar sözündən istifadə olunur. Bir iş görülsə də gizlin qalmayacağını bildirmək üçün işlədilən məsəldir.

Xiyarı yaşıl, kavunu sarı yeməli – огурцы едять зеленьми дыни – желтыми.

Hər şeydən vaxtında isitfadə olunmalı olduğunu bildirmək üçün bu məsəldən istifadə olunur.

Hər baştan bir yel əsir – сколько головь, столько мнений.

Yel sözü burada məcazi mənada işlənmişdir. Hər başda bir fikir var mənasında işlədilir.

Ucuz satan tez satar – кто дешево продаеть скоро продаеть.

El arsında bir çox inanclar var. Bu inanclar bəzən məsələ çevrilir, bəzən də unudulur. Məsələn: Uzum boilı uzun sakallı akmak olur.

Dialektlərimizdə işlənən bu məsəlin nə qədər həqiqətə uyğun olub – olmaması mübahisəli olsa da, " Uzun boylu, uzun saqqallı axmaq olur ", "Boyu uzun olanın ağlı topuğunda olar" məsəlləri yeri gəldikcə, zarafatla da olsa işlənən məsəllərdir.

Haydan gələn huya gedər! – как приобретено, так и пошло!

Yəni bir şey necə əldə olunubsa, necə gəlibsə, elə də itirilir, gedir.

Hak söz acı gəlir – истинное слово горько. (4, 1743)

Hal halın yoldaşıdır – несчастия приходить поперно (4, 1754)

Bu məsəl sevinc sevinc gətirər, kədər də kədər mənasında işlənir.

Halal malın şeytan yarısını alır, haram malı sahibilə bərabər götürür. – оть честно приобретеннаго имущество чорть береть половину, нечестно приобретенное имушество онь береть все вместе с его хозяином. (4,1755)

Bu məsəldən də görünür ki, atalarımız hər zaman halal mal qazanmağın üstünlüyünü bildirmiş, bunu nəsihət etmişlər.

Hasəd ədən hərdən məhrum – завистливый всегда несчастень (4, 1766)

Həsədin, paxıllığın nə qədər pis və ziyanlı olduğunu başa salmaq üçün həsəd aparan adamın hər zaman bədbəxt olduğu bu məsəl vasitəsilə bildirilir.

Kuru yanınca yaş dahı yanır – когда горять сухия дрова, вместе с ними горять и сырые (4,241)

Adətən, günahsız bir insan, günahkarın yerinə cəzalananda və ya çıxılmaz vəziyyətə düşdükdə bu məsəldən istifadə edir. Lakin bu söz hal-hazırda "Qurunun oduna yaş da yanar " şəklində işlənməkdədir.

Bir ləilək yaz qətirilməz – одинь аисть не делаеть весны. (4,742)

Müasir dövrümüzdə " bir leylək yaz gətirməz " şəklində işlənən bu məsəl, adətən, bir nəfər yenilik edə bilməz mənasında işlənir. Bu mənaya uyğun olaraq bəzən " Tək qaranquşla bahar olmaz " məsəli də işlədilir.

Kor ləiləyin yuvasını tanrı yapar. – гнездо слепой аиста строит Богь.

Bu məsəl də imkansıza, şikəstə Allah hər zaman kömək olur mənasında işlənir. Azərbaycan xalqı dinə olan inamlarını çox vaxt atlar sözlərində də biruzə vermişlər. Bəzən xalq kütlələri Allahdan, fələkdən kömək diləmiş, peyğəmbərlərdən pənah istəmişlər. Bu da onların atalar sözlərində öz izlərini saxlamışdır.

Hər tarlada hər əkin bitməz – не на всякой пашне растеть всякий хлебь. (4,855)

Bu məsəl həm həqiqi mənada, həm də məcazi mənada işlədilir. Yəni bu məsəli insanlara da şamil etmək olar. Dilimizdə buna yaxın mənalı bir çox atalar sözləri mövcuddur. Məsələn: “ Hər oxuyan alim olmaz ”

Qök yerə su vərir, yər qöyə toz verir – небо даеть земле воду, земля даеть небу пыль.(2, 1212). Bu məsəldə “ qök yerə su vərir ” yəni göydən yağış yağır, torpaq bu sudan bəhrələnir, “yər qöyə toz vərir ” yəni yerin, torpağın tozu səmaya qalxır və göyü çirkləndirir. Bu məsəldən adətən yaxşılığa yamanlıq görəndə istifadə olunur.

Bilməməzlik aiptır, lakin sormak aip dəildir.

Bu atalar sözü müasir Azərbaycan ədəbi dilində “ bilməmək ayıb deyil, soruşmamaq ayıbdır ” şəklində işlənir. V.V. Radlov bu məsəli belə tərcümə etmişdir – незнать не годится, но спросить дозволено.

Meşə çakalsız olmaz, gözəl aipsız olmaz – неть леса безь шакала и неть красавицы без порока.

Akıl başta olmaz, yaşta olur – ум не в голове, а в возросте.

Bu atalar sözü hal – hazırda dilimizdə başqa şəkildə işlənir: Ağıl yaşda deyil, başdadır.

Atalar sözü və məsəllərin yalnız ideya, məzmunu deyil, forma xüsusiyyətləri və bədii dəyəri də qeyd edilməlidir. Bizim atalar sözü və məsəllərin çoxu nəzmlə deyilir. Hətta nəsrlə söylənən nümunənin özündə də xalq şeiriyyatı gözləməyə çalışır.

Atalar sözü və məsəllər dünyanın ən görkəmli yazıçı və sənətkarlarının tez-tez müraciət etdikləri xəzinədir. Onlar surətləri kəskin danışdırmaq, böyük fikirləri qısa sözlərlə ifadə etmək üçün həmişə atalar sözü və məsəllərdən faydalanmışlar. Böyük şəxsiyyətlər bu nümunələrdən istifadə etmiş, həm də onlar haqqında gözəl və qiymətli fikirlər söyləmişlər.

İstifadə olunmuş ədəbiyyatlar:

1. Dəmirçizadə Ə.M. Müasir Azərbaycan dili (fonetika), Bakı: Maarif, 1984, 307 səh.
2. Altaylı Seyfettin. Azərbaycan türkçesi sözlüğü. II hissə, İstanbul, 1994, 1292 səh.
3. Axundov A.A. Azərbaycan dilinin izahlı lüğəti. Bakı: Maarif, 2005, 452 səh.

4. Radlov V.V. Опыт словаря тюркских наречий, I - IVc., Sank-Peterburq, 1893.

Summary

Abdullayeva Konul T.

AZERBAIJAN PROVERBS AND SAYINGS

Keywords: proverbs, meaning, vernacular, translation, content, vocabulary

Proverbs and sayings are one of the genres related to the life of the people, small in form and broad in meaning. In proverbs and sayings, folk wisdom are summarized, the results of the tests and experiences that the people have acquired since centuries. That's why proverbs and proverbs are used to make expressions in the spoken language more vivid, precise and effective. Proverbs and sayings are distinguished from each other not by their form and external characteristics, but by their content. Since this difference in content is quite subtle and invisible, both parts are often confused. This difference in content is that proverbs fully express an idea, generalization and depth of thought occupy an important place in them. On the contrary, proverbs often refer to one or another specific event and express an incomplete idea. The subject range of Azerbaijani proverbs and sayings is very wide. These are related to the comprehensive life of our people. Proverbs are a treasure trove that the world's most famous writers and artists often turn to. They have always benefited from proverbs in order to make the images sharp and express great ideas in short words. Great personalities have used these examples, and also said beautiful and valuable thoughts about them.

Резюме

Абдуллаева Конул Т.

АЗЕРБАЙДЖАНСКИЕ ПОСЛОВИЦЫ И ПОГОВОРКИ

Ключевые слова: пословицы, значение, просторечие, перевод, содержание, лексика.

Пословицы и примеры - один из жанров, связанных с жизнью людей, небольшой по форме и широкий по смыслу. В пословицах и примерах обобщается народная мудрость, результаты испытаний и опытов, которые народ приобретал веками. Вот почему пословицы и примеры используются, чтобы сделать выражения в разговорной речи более живыми, точными и эффектными. Пословицы и примеры различаются не по форме и внешнему виду, а по содержанию. Поскольку эта разница в содержании весьма тонка и незаметна, обе части часто путают. Это различие в содержании заключается в том, что пословицы полностью выражают мысль, важное место в них занимают обобщение и глубина мысли. Наоборот, примеры часто относятся к тому или иному конкретному событию и выражают незаконченную мысль. Тематика азербайджанских пословиц и пример очень широка. Они связаны со

всесторонней жизнью нашего народа. Пословицы – это сокровищница, к которой часто обращаются величайшие писатели и поэты мира. Они всегда пользовались пословицами, чтобы сделать образы четче и выразить большие мысли короткими словами. Великие личности использовали эти примеры, а также высказывали о них красивые и ценные мысли.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: ADPU-nun professoru Mirvari İsmayılova
tərəfindən çapa tövsiyə olunmuşdur

ÜLKƏR İMAN QIZI ƏLIYEVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
e-mail: aliyevaulkar2020@gmail.com
ORCID ID: 0000-0002-2989-8702

ŞƏHƏR FOLKLOR MÜHİTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ: SALAMLAŞMA VƏ SALAMATLAŞMA

Şəhər folkloru problemi və istilahı folklor klassifikasiyasında yeni deyildir. Ancaq köhnə də deyildir (1; 2; 3; 4; 5; 6; 7; 8). Azərbaycan folklorşünaslığında şəhər folkloru istilahı və bu istiqamətdə təhlil isə daha da yenidir. Eyni zamanda şəhər folklorunun sərhədləri də indiyə qədər folklorşünaslıqda tam olaraq dəqiqləşməyib. Yeni texnoloji dövr şəhər folklor mühitinin formalaşmasında mühüm əhəmiyyət kəsb edir. Şəhər folklor mühiti ənənəvi folklordan fərqli səciyyə ilə diqqət çəkir. Şəhərliləşmə, müasirləşmə, modern resurslar, virtuallaşma, internet folklorunun şəhər mühitinə məxsus xüsusiyyətləri istər ritual səviyyədə, mərasim və adətlərdə, istərsə də digər örnəklərdə özünü göstərir. Şəhər mühitinə məxsus olan teatrdan teatral folklor, kino sahəsindən deyimlərə çevrilən folklor örnəkləri, opera janrının əsasında dayanan folklora aid səs, temp və avaz, balet janrının arxaik kökündə olan pantomimik xüsusiyyətlərin folklorla bağlılığı, ayrıca olaraq eyni məzmunda pantomim teatrının qədim rituallarla bağlılığı, şəhər mühitində ayrıca tədris edilən xalq rəqsləri, virtual folklor örnəkləri kimi internet resurslarında folklor janrlarının yayğınlığı, xüsusilə yeni yaranan lətifə janrının formalaşmasında şəhər tipli xüsusiyyətlər, şəhərdə həyata keçirilən toy, yas mərasimlərində, ümumiyyətlə, mərasim folkloruna aidiyyəti olan bütün janrlarda şəhər folklorunun səciyyəsi, rəsm, mozaika və s. də daxil olmaqla təbiidir ki, yeni araşdırmaların mövzusu olmalıdır.

Şəhər folkloru əsas etibarilə üç səviyyədə təsnif oluna bilər:

1. Şəhər folklorunun şəhərə məxsus tipi və folklor janrlarının səciyyəsi kimi özünəməxsusluğu;
2. Şəhər folkloruna aid edilən bir sıra nümunələr;
3. Şəhər infrastrukturunu özündə daşıyan folklor nümunələri.

Şəhər folklorunun şəhərə məxsus tipi və folklor janrlarının səciyyəsi kimi özünəməxsusluğu. Aydındır ki, burada əsas etibarilə şəhər tipli folklor vacib funksiya daşıyır və bu istiqamətdə araşdırılması ağırlıq təşkil edir.Ancaq şəhər folkloruna aid edilən nümunələr də geniş olmasa da, yox deyildir. Bu barədə də mərasim folkloruna aid olan şəhər mərasimləri və s. örnəklərə diqqət yetirilməsi məqsədə uyğundur. Eyni zamanda folklor janrlarında şəhər bilgilərini daşıyan folklor örnəkləri də yardımçı funksiyada diqqət çəkdiyi üçün tədqiqata cəlb olunmalıdır. Şəhər mühitini işarələyən məkan (saray, ev, yol, küçə və s), zaman və s. kimi fəlsəfi

kateqorial bilgilər təbiidir ki, tədqiq olunmaqla şəhər folklorunu geniş səviyyədə təzahür etdirə bilər.

Onu da qeyd etmək lazımdır ki, şəhər folkloru yalnız səsli folklor nümunələrindən ibarət deyildir. Eyni zamanda, qeyd etdiyimiz kimi, pantomimiki hərəkətlər də folklor elementlərini təşkil edə bilir. Aydındır ki, bu barədə irəlidə bəhs olunacaqdır.

Şəhər folkloru iki istiqamətdə araşdırmaya cəlb oluna bilir:

1. Yazılı ədəbiyyatda şəhər folkloru;
2. Xalq ədəbiyyatında şəhər folkloru.

Şəhər folkloru əsasında bu kimi struktur bazasını izah etməklə əsas mövzunun salamlaşma və salamatlaşma olduğunu əsas götürərək araşdırmanı bu istiqamətdə aparmağı məqsədəuyğun hesab edirik.

Onu da qeyd etmək lazımdır ki, salam və salamatlaşma xalq arasında şifahi ənənə təşkil etməsi ilə şəhər folklor mühitinə daxil olur. Yazılı nümunələrdə də etnokulturoloji bilgilərin yayğınlığı bu davranış modelini folklor estetikası olaraq özündə daşıyır. Çünki toplum içində ən geniş yayılan ünsiyyət tipinin sözlü gələnəyi məhz səlamlaşmaq və səlamatlaşmaqdır.

Şəhər folklorunun təşəkkülü hesab olunan şəhər tipli folklor örnəklərini tədqiq etmək üçün mövzu daxilində janrlar kontaminasiyası əsasında bu ünsiyyət modelinə diqqət yetirək:

1. Teatr.

Teatral folklor dedikdə şəhər mühitini mədəniyyət mərkəzi kimi formalaşdıran ən əhəmiyyətli faktorlardan biri olan incəsənət sahəsi nəzərdə tutulur. Yoxsa teatrallıq demək olar ki, bütün janrlarda mövcuddur. Bu kontekstdə konkret olaraq teatr vasitəsilə meydana çıxan folklor nəzərdə tutulur. Əsas etibarilə şəhərə məxsus mədəni qurum olaraq fəaliyyət göstərən teatr bətnində geniş folklor xəzinəsi daşımaqla şəhər folklorunun inkişafında mühüm rol oynayır. Təbiidir ki, teatral folklor süjet, məzmun, janr əlaqəsi vasitəsilə quruluş etibarilə səhnəciklər, monoloq və dialoqlar əsasında səciyyələnir. Eyni zamanda unutmaq olmaz ki, şəhər folklorunun müxtəlif fərqli xüsusiyyətləri onu folklorun tərkib hissəsi olmaqdan ayırmır, ancaq spesifik fərqlilikləri də tədqiq etmək üçün ciddi əsas yaradır. Qədimdən bəri xalq mədəniyyətində dram janrının mövcud olması məhz teatral folklor üçün əsas təşkil edə bilər. Bu örnəklərdən "Əkəndə yox, biçəndə yox, yeyəndə ortaq qardaş", "Kos-Kosa" (əslində "Kosa-Kosa"), (9, 251-261) qaravəlli janrında teatral ünsürlərin mövcudluğu (10, 146), Qaragöz tamaşaları (11, 114) xalq tamaşalarının Avropadan gələn teatr sənətini əsrlərlə qabaqladığını aydın biçimdə təsdiq edir. Elə bu baxımdan da teatrın şəhər folklorunda mərhələ təşkil etməsi poetik-funksional struktur olaraq meydana çıxır.

Qeyd edək ki, bütün teatrların haqqında bəhs etmək burada mümkünsüzdür. Ancaq salam və salamatlıq arzulama (xudahafizləşmə) əsasında xüsusi spesifika daşıyan konkret nümunələrə diqqət yetirmək vacibdir.

Azərbaycan teatr səhnəsinin misilsiz nümunəsi olan əsərlərdə salam və salamatlaşmanın əhəmiyyətli səviyyəsini müşahidə etmiş oluruq. Bu əsərlər həm yazılı ədəbiyyat nümunələri, həm də xalq ədəbiyyatı örnəkləridir. Tamaşalarda xalq ədəbiyyatı janrları olan lətifələr, rəvayətlər, əfsanələr, nağıllar, uşaq oyunları və s. nümunələr təcəssüm olunur. Təbiidir ki, burada teatrın xalq mədəniyyətini təşkil etməsi mühüm vəzifə olaraq götürülür. Teatrların şəhər mərkəzlərində fəaliyyəti Şəhər folklorunun ayrıca sahə təşkil etməsinə gətirib çıxarır. Burada folklor fabulası özünü imkan çatan qədər qorusa da, şəhər mühitinə uyğun davranış modeli əsasında büruzə verir. İrəlidə bəhs açacağımız internet folkloru, virtual folklor nümunələri də eyni spesifika ilə stimullaşır. Burada qarşı-qarşıya, məclislərdə yaranan folklor örnəkləri artıq şəhər teatrlarından izləyicilərə təqdim olunur. Bir növ tipini dəyişir, ancaq mahiyyətini qoruyub saxlayır.

Ümumiyyətlə, salamlaşmaq və salamatlaşmaq xalq arasında konkret ünsiyyət vasitəsidir. Burada yalnız iki müraciət formasından fərqli nəyə isə diqqət yetirmək imkan xaricindədir. Ancaq xalq ədəbiyyatında və yazılı ədəbiyyatda bu ünsiyyət modelinin və yaxud davranış etiketinin müxtəlif situasiyalarda, fərqli funksiyalarda səslənməsi müşahidə olunur. Təbiidir ki, bu da müxtəlif situasiyalarda, fərqli kontekstlərdə, obraz psixologizmində semantik çalarlarda ifadə olunur. Məlumdur ki, bu da tədqiqatlardan kənarda qala bilməz.

Yazılı əsərlərdə folklorun tədqiqi hər zaman tədqiqatçıların diqqətində olmuşdur. Ancaq biz, yazılı əsərləri eyni zamanda o baxımdan araşdırırıq ki, bu əsərlər tamaşaya qoyulmuş və izlənən əsərlərdir. Folklorun modern dünyada şəhər folklorunda fərqli görüntülərlə meydana çıxması dövrün tələbi olaraq müzakirə mövzusuna çevrilib. Aydın görünür ki, şəhər folklorunda da canlı folklor nümunələrindən fərqli prosedurlar əsasında folklor örnəkləri öz yaşamını sürdürür. Əslində folklor itmir, mexaniki dəyişikliyə uğrayır və müxtəlif səviyyələrdə davam edir.

Aydındır ki, teatr mədəni-ədəbi qurumunu tədqiq edərkən geniş bəhs açmaq imkanımız yoxdur. Bu baxımdan dramaturgiyanın banisi olaraq qəbul olunan M.F.Axundovun əsərlərində bu ünsiyyət modelinin bir neçə maraqlı nümunəsini təqdim etməklə ümumiləşdirmə aparmağı daha məqbul hesab edirik. Yazıçının əsərlərində bu kontekstdə çox maraqlı örnəklər diqqət çəkir. M.F.Axundovun "Hekayəti-Molla İbrahimxəlil kimyagər" əsərində salam modeli nuxulularla İbrahimxəlilin şagirdi Molla Həmid arasında cərəyan etdikdə salamlaşma geniş səviyyə alır:

"Nuxulular (Molla Həmidə) Səlam-əleyküm!

Molla Həmid (onlara) Əleyküm-səlam! Xoş gəlibsiniz, səfa gətiribsiniz. Buyurun, çadıra, əyləşin, rahat olun" (12, 42).

İbrahimxəlil kimyagər onlarla saymazyana və eqoist davranışla salamlaşır. Hətta o qədər təkəbbür nümayiş etdirir ki, nuxulularla salamlaşmasına baxmayaraq

göstərdiyi soyuq davranışı ifadə etmək üçün müəllif remarkaya "Səlamı rədd edir" predikatını daxil etmişdir (12, 45).

Burada obrazların daxili aləmi, tutduqları mövqe, məqsəd və məramları müəllif qələmində incə şəkildə açılmaqla bərabər toplum arasında yayğın olan salamlaşma etiketinin məqsədyönlü tərəfləri ortaya çıxır. Nuxuluları aldatmaq üçün İbrahimxəlilin şagirdinin çox sadə və geniş qarşılama mərasimi salamlaşmada özünü göstərirsə, İbrahimxəlil kimyagərin özünü ağır yerdən götürməsi, "Özünü samballı apar!", "Ağır otur, batman gəl" kimi xalq deyimlərinə əməl etməsi bu periferik prosesdə özünü aydın göstərir.

İbrahimxəlil kimyagərin salamatlaşması da eyni laqeyd ovqatla müşahidə olunur: "Xudahafiz! Günorta namazının vaxtı yetişir" (12, 47).

Kontekstdən aydın görünür ki, burada məqsəd namaza yetişmək yox, nuxuluların pul-parasını hiylə yolu ilə alıb onlardan ayrılmaqdır.

Yazıçının digər əsərlərində salamlaşmaq əksər halda geniş təsvir olunmur, situasiya və məzmun etibarilə "Səlam-əleyküm! Əleyküm-səlam!" deyilməklə mövzuya keçilir (12,63, 70, 81,87, 142) və s.

Burada teatrda tamaşaya qoyulan əsərlər ümumiləşdirilərək təqdim olunur. İlk anda hesab oluna bilər ki, M.F.Axundovun təqdim etdiyimiz komediyası yazılı ədəbiyyat nümunəsidir. Ancaq diqqətlə nəzər yetirdikdə məlum olur ki, salamlaşmaq və salamatlaşmaq və yaxud xudahafizləşmək yazılı ədəbiyyat ənənələrinə tabe deyil, məzmun səviyyəsində toplumun daimi ünsiyyət modeli olduğu üçün folklorşünaslığın öyrəndiyi məsələlərdəndir. Teatrda toplumun davranış formullarını topluma çatdırmaq isə şəhər folkloruna aid əsas səciyyəvi xüsusiyyətlərdir.

Yazılı ədəbiyyatın digər nümunələrini burada təqdim etmək ehtiyacı hiss etmirik. Çünki bu əsərlər əvvəldə də qeyd etdiyimiz kimi həddindən artıq çoxdur. Eyni zamanda teatrda tamaşaya qoyulmuş folklor janrlarına aid nümunələr də kifayət qədərdir. Bu da şəhər mühitində bu təsisatlar vasitəsilə folklorun reablitasiyasını aşkar göstərir.

2. Film, kino və yaxud kinofilm.

Şəhər folkloru teatral folklor kimi bədii filmlərdə də çox yayğındır. Biz, filmlərdən yayılıb xalq arasında folklorlaşan bir neçə örnəyə diqqət yetirməyi münasib hesab edirik. "Bir qalanın sirri" (1959) filmində folklorumuzun janr və motivlərini, xaotik qüvvələrin tilsimlədiyi qalanı, gənclik iksirini, gözü göy kosanı, sehrli güzgünü, sehrli kəməri və s. nümunələri kifayət qədər müşahidə edirik ki, bunlar da şəhər mühitində folklorun kinofilm vasitəsiylə yayğınlaşmasına xidmət etməklə Şəhər folklorunun inkişafını təmin edir. Təsadüfi deyil ki, kinoşünas A.Kazımzadə yazır ki, "Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" nağıl - filmləridir (13, 285).

"Sehrli xalat" filmində də (1964) semantik laylar çox geniş işlənmiş, hətta virtual sənət olan kino vasitəsilə biz bu gün üçün aktual olan ən modern texnologiyanı belə müşahidə edə bilirik. Elə "sehrli xalat" adı da birbaşa folklor

motivləri və janrları ilə, xüsusilə nağıllarla bağlıdır. A.Kazımzadənin yuxarıda təqdim etdiyimiz mülahizəsinin davamı olaraq kinoşünas Ş.Əmirli yazır ki, "Çoxşaxəli kinoya baxımlılıq gətirən əsas səbəblərdən biri də nağıl janrlı ekran əsərlərinin yaranmasıdır... Belə filmlərimizdən biri də bu il 55 yaşını qeyd etdiyimiz "Sehrli xalat" filmidir" (14, 7).

Şəhər əhalisi kinozallarda folklor estetikasını bir qədər dəyişik məzmunda olsa da, bu şəkildə izləməklə folklorun filmlərdən alınıb daşınmasında iştirak edir. Kinofilmlərin bütün respublika ərazisində işlək ola bilməsindən sonra isə şəhər folkloru şəhərə məxsus məzmun səviyyəsində yayğınlaşır ki, burada əvvəldə müəyyənləşdirdiyimiz kimi özündə şəhər bilgilərini daşıyan folklor örnəkləri əsas yer tutur.

"Sehrli xalat" filmində salam və salamatlaşmanın demək olar ki, çox qəribə tipinə rast gəlirik. Burada sehrli xalatı geyinən məktəb şagirdləri və xan keçmişə və gələcəyə getməklə xüsusi kəlmələr söyləyib bu prosesdə anaxron səviyyədə iştirak edirlər. Əslində müasir dilə uyğun olmayan anlaşılmaz sözlər keçmişə və gələcəyə aparmaqla obrazları öz ətraf mühitindən ayırır, geri qayıtmaqla yenidən görüşdürür, salam və salamatlaşmaq funksiyasını da bu kimi semantik laylarda nümayiş etdirir (13, 293).

3. Opera, balet, Pantomim teatrı, Xalq rəqsləri.

Şəhər mühitində formalaşan bu incəsənət növlərinin arxaik rituallarla bağlılığı, hərəkət və funksiyaları səs, avaz, mimika, jest vasitəsi ilə işarələməsi mifoloji qaynaqlarda öyrənilə bilər. Bu janrlarda da kifayət qədər "salam və salamatlaşma" özünü göstərir. Məzmun etibarilə də folklorun bu janrlarda yayılması aşkar müşahidə olunur. Təsadüfi deyil ki, Ü.Hacıbəylinin bütün Şərq aləmində ilk opera nümunəsi olan, 1907-ci ildə yazılıb, 1908-ci ilin yanvar ayında tamaşaya qoyulan "Leyli və Məcnun" operası (15, 308; 16, 148) şəhər mühitində məşhur "Leyli və Məcnun" əfsanəsinin daha çox yayğınlaşmasına səbəb olmuşdur.

Ə.Bədəlbəylinin "Qız qalası" (1940), Q.Qarayevin "Yeddi gözəl" (1952), A.Məlikovun "Məhəbbət əfsanəsi", F.Əmirovun "Min bir gecə" (1979) (17,15) baletləri və s. baletlər süjet və məzmun cəhətdən folklor janrlarını, motiv və mifologemləri özündə daşımaqla şəhər mühitində folklorun intellektual səviyyədə qəbul edilməsində mühüm rol oynamışdır.

Baletlər arxaik rituallarla birbaşa bağlıdır. Rituallarda edilən rəqs, hərəkət və pantomimik funksiyalar baletlərə daşınmış, məzmununu dəyişərək konkret janr olaraq davam etmişdir.

Azərbaycan mədəniyyətinin qədim rituallarla bağlılığını dərk edən rejissor B.Xanızadə təsadüfi olmayaraq Azərbaycanda ayrıca pantomim teatr nümunəsi kimi Azərbaycan Dövlət Pantomim Teatrını yaratmışdır. Bu teatrda qoyulan tamaşaların bir qismində də ritual elementləri özündə daşıyan pantomimik davranış tərzi ilə folklor süjetləri tamaşaçıya təqdim olunmuşdur. Bunlardan "Gəldim ki, olam ğəmin hərifi" (M.Füzuli "Leyli və Məcnun" poeması əsasında) – pantomim balet, "Şəngül,

Şüngül, Məngül" - M.Musabəyov – divertisment tamaşa, "Manqurt" (Ç,Aytmatov "Gün var əsrə bərabər" povestinin motivləri əsasında) – pantomim, Antuan de Sent Ekzüperi"Balaca şahzadə" – nağıl-tamaşa, "Maska" - Zaur Zeynalov – pantomim və s. tamaşaların folklor motivləri əsasında meydana gəldiyi aydındır (18).

Onu da qeyd etmək vacibdir ki, təqdim etdiyimiz opera, balet və pantomim teatrının tamaşalarında salam və salamatlaşma kifayət qədər genişdir, ancaq bu qədər geniş mətnləri bir araya gətirmək, örnəklər vermək imkan daxilində olmadığı üçün nəzəri müddəalarla kifayətlənirik.

Xalq rəqsləri də şəhər folklorunun mühüm hissəsini təşkil edir. Təbiidir ki, balet və pantomimik rəqslərlə xalq rəqsləri də yaxın və fərqli cəhətləri ilə xüsusi spesifika nümayiş etdirir. Ancaq arxaik rituala bağlılığı baxımından xalq rəqsləri də istisna təşkil etmir. Müxtəlif elastik, gimnastik, hətta akrobatik hərəkət baxımından bu rəqslərdə də qədim davranış metodu özünü göstərir.

Xalq rəqslərinin öyrənilməsi üçün şəhər mühitində bir çox təsisatlar fəaliyyət göstərir (Qurumlar, dərnəklər, kurslar və s), xalq rəqsləri tədris olunur. Milli xoreoqrafiyanın inkişafı xalq rəqslərinin öyrənilməsində mühüm mərhələ təşkil edir (19, 20, 21).

Xalq rəqslərində də salamlaşmaq və salamatlaşmaq xəfif şəkildə özünü göstərsə də yox deyil və aydındır ki, rəqsə başlayanda yüngül şəkildə görüşmək, bitirəndə isə salamatlaşmaq anlamında yekun vurmaq rəqs poetikasının xüsusiyyətidir. Xüsusilə toy mərasimlərində bu kimi davranış tərzini müşahidə etmək hər zaman mümkündür. Əlbəttə, bu həyat boyu öyrəndiyimiz mexaniki nəzakət qaydalarından irəli gəlir, ancaq rəqslərdə də öyrənilməsi və praktikası bunu göstərir.

4. Virtual folklor və yaxud internet folkloru.

Müasir texnoloji dövrdə ünsiyyət və münasibət dəyişikliyi də baş verir. Artıq bütün dünya modernləşir, müasir üsullardan istifadə edir, kompüter, mobil telefon, planşet və s. həyatımızın əsas hissəsinə çevrilir. Təbiidir ki, burada üz-üzə, qarşı-qarşıya folklor örnəklərinin meydana çıxması çətinləşir. İnsanlar özünə çəkilib virtual aləmlə inteqrasiya qurur. Bu zaman canlı ünsiyyətin yerini süni inteqrasiya tutur. Bu barədə H.Quliyev yazır ki, "Folklor və internet münasibətlərinin müəyyənləşdirilməsi ilə bağlı ilkin olaraq onu demək olar ki, bu problem dünya folklorşünaslığının son 20 illik təcrübəsində daha çox diqqət mərkəzinə gətirilən ən yeni və aktual məsələlərdəndir (20, 60).

Elə bu səbəbdən də internet folkloru anlayışı meydana çıxır. Artıq internetdə mövcud olan bağlantılar ünsiyyət formasının yeni mərhələyə keçməsini şərtləndirir. Buna baxmayaraq toplum arasında əlaqə kəsilmədiyi üçün folklorun varlığı da yaşam tərzinə uyğunlaşır. Çünki insan olan mühitdə folklor mövcudiyyətini qoruyub saxlayır. Elə tədqiqatçılar da bu faktoru inkar etmir (3, 234; 20, 60).

Müxtəlif səviyyələri təşkil edən sosial-ictimai mühit artıq virtual şəbəkədə bir-biri ilə əlaqələnir, müzakirələr aparır, ideoloji yönümünü təqdim edir, bir sözlə bütün sahələrdə əlaqələnmə elektron resurslar və internet vasitəsilə baş verir. Burada

folklor əvvəlki mahiyyəti ilə də, kontaminasiya olunmuş daha yeni variasiyaları ilə də, eyni zamanda ən müasir formada – yeni yaradıcılıq metodu ilə də davam edir və diqqət çəkir. Çünki toplum bir araya gəldikdə folklor yaranmağa başlayır. Bu mənada virtual folklor nümunələri şəhər folklorunu da əhatə edir. İnternetdə yaradılan yeni lətifələr, atmacalar, el şairlərinin əsərləri, inanclar, dəyişikliyə uğrayan mərasimlər, diləklər, alqışlar, qarğışlar, bayatılar, hekayət və rəvayətlər və s. janr etibarilə folklorlaşmanı sürdürsə, rəqs, rəsm, mozaika və s. işarələr məcmusu da folklorun yenidən qavranılmasını təmin edir. Eyni zamanda səsli və səssiz folklor virtual məkanda əsas etibarilə yazı vasitəsi ilə özünü göstərməklə (səsli funksiyalardan daha çox yazı üsulundan isifadəyə yer verilir) yazılı ədəbiyyat anlayışından çıxan **virtual yazılı folklor** qavramını ortaya qoyur.

Təbiidir ki, virtual folklor terminologiyasına daxil olan örnəklərdə kifayət qədər salamlaşma və salamatlaşma (xudahafiz etmə, ayrılarkən salamatlıq diləmə) özünü göstərir. Bunu müşahidə etmək üçün hansısa akademik mənbəyə ehtiyac da yoxdur. Virtual imkanlardan istifadə etməklə salam və salamatlaşmanın müxtəlif formalarını görmək mümkündür. Ancaq onu da qeyd etmək lazımdır ki, şəhər folkloru o zaman yaranmağa başlayır ki, internet kommunikasiyalarının da mərkəzində şəhər durur. Virtual aləmdə fəaliyyət göstərən toplum şəhərə yönləndikcə şəhər folkloru meydana çıxır.

Burada araşdırılması vacib olan problematik məsələlərdən biri də odur ki, şəhərdə yaranan folklor örnəkləri hələ şəhər folkloru sayıla bilməz. Çünki folklor müxtəlif variasiyaları ilə kənd və şəhərdə yayğınlaşır. Bunun üçün şəhər səciyyəsinin fərqliliyi gözə görünməlidir. Biz bu baxımdan şəhər folklorunu şəhər mühitində mövcud olan təsisatlar üzərindən izah etməyə çalışdıq. Mövzu çox geniş olduğu üçün gələcəkdə bu istiqamətdə daha geniş araşdırma aparmaq niyyətindəyik.

ƏDƏBİYYAT

1. O.Yusuf. Tarihi Bursa efsaneleri. Derleme-inceleme. Doktora tezi. Bursa, T.C.Uludağ Universitesi, Sosyal Bilimler Enstitüsü, Halk Bilimi, Ana bilim dalı, 1989.

2. Sezen L. Erzurum şehir folkloru. I cilt. Doktora tezi. Atatürk Universitesi, Sosyal Bilimler Enstitüsü, Türk dili ve edebiyyatı, Ana bilim dalı. Erzurum, 1993.

3. Ersoy R. Şehirleşme - Halk kültürü ikiliminde sorunlar ve bazı çözüm önerileri / Gaziantep Üniversitesi Fen- Ed.Fak., Türk Dili ve Ed. Böl. Türk Halk Bilimi, Ana Bilim Dalı. Sosyal Bilimler Enstitüsü Dergisi. Sayı : 20 Yıl : 2006 /1 (233-238 s.)

4.Mullen, Patrick B. “Modern Legend and Rumor Theory”. Journal of Folklore Institute Vol. 9, No. 2/3 (Aug.-Dec., 1972): 95-109

5. Essays on Urban Folklore - City Lore https://citylore.org/urban-culture/resources/articles/

6.Современный городской фольклор / Отв. ред. серии С. Ю. Неклюдов. — М.: Российск. гос. гуманит. ун-т, 2003. — 736 с. — (Традиция-текст-фольклор). — ISBN 5-7281-0331-6.

7. Лазарев А. И. Городской фольклор / Гл. ред. В. В. Алексеев. — Екатеринбург: Академкнига, 2000.

8. Поспелов Г. Г. Бубновый валет. Примитив и городской фольклор в московской живописи 1910-х годов. — 2-е изд.. — М.: Пинакотека, 2008. — 288 с. — ISBN 978-5-903888-01-6.

9. Xalq ədəbiyyatı. Azərbaycan klassik ədəbiyyatı kitabxanası, XX cilddə, I cild. Cildi tərtib edənlər: Fərzəliyev T. Abbasov İ. Bakı: Elm, 1981.

10. Orucov T. Qaravəlli janrının poetikası. Bakı, 2009.

11. Məmmədova M.N. Azərbaycan və Anadolu folklorunda oyun və tamaşalar. Bakı, Elm və təhsil, 2014.

12. Axundov M.F. Əsərləri. III cilddə, I cild. Bakı: Elm, 1987.

13. Kazımzadə A. Kino və zaman. Bakı: Şərq-Qərb, 2016.

14. Əmirli Ş. 55 il "Sehrli xalat" la / Mədəniyyət qəzeti, 14 iyun, 2019-cu il, s. 7

15. Hacıbəyov Ü. Əsərləri. X cilddə, I cild. Bakı: Azərbaycan EA nəşr, 1964.

16. Ensiklopediya (ASE). X cilddə, X cild. Bakı: 1987.

17. Sarıyeva İ. Azərbaycanda balet sənətinin tarixi inkişafı / "Bakı-Xəbər" qəzeti, 14 aprel, 2015, s. 15

18. Elektron resurs: Azərbaycan Dövlət Pantomima Teatrı https: // www. azerbaijans.com/ content_213_az.html

19. Həsənov K. Qədim Azərbaycan xalq rəqsləri. Bakı: İşıq, 1983.

20. Quliyev H. Folklor və internet: problemin nəzəri-metodoloji aspektləri / Azərbaycan şifahi xalq ədəbiyyatına dair tədqiqlər / 2 (51). Bakı: Elm və Təhsil, 2017, s. 55-64

Ülkər İman qızı Əliyeva
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Folklor İnstitutu
e-mail: aliyevaulkar2020@gmail.com
ORCID ID: 0000-0002-2989-8702

Şəhər folklor mühitinin əsas xüsusiyyətləri: salamlaşma və salamatlaşma

Xülasə

Şəhər folklor mühiti, adından da göründüyü kimi, şəhərə məxsus xüsusiyyətləri özündə cəmləşdirir. Təbiidir ki, burada əsas etibarilə yazılı və şifahi örnəklər əsasında folklor nümunələri müəyyənləşdirilə bilər. Burada şəhər folklorunun şəhərə məxsus tipi və folklor janrlarının səciyyəsi kimi özünəməxsusluğu əsas yer tutmalıdır.

Məqalədə şəhərlərdə və mərkəzdə yerləşən incəsənət qurumları vasitəsilə təbliğ olunan folklor nümunələri və xalq arasında folklorlaşan örnəklər dəqqətə alınmışdır. Şəhər folkloru 2 istiqamətdə - şifahi və yazılı ədəbiyyatda araşdırmaya cəlb edilmiş, bu növün səciyyəvi xüsusiyyətləri tədqiq edilmişdir. Qeyd olunmuşdur ki, cəmiyyət içərisində ən geniş yayılan ünsiyyət tipi – salamlaşma və salamatlaşma şifahi ənənə təşkil etməsilə şəhər folklor mühitinə daxil olmuşdur. Müasir dövrdə virtual folklor terminologiyasına daxil olan örnəklərdə salamlaşmaq, xudafizləşmək, ayrılarkən salamatlıq diləməyin müxtəlif formalarını görmək mümkündür.

Açar sözlər: şəhər, şəhər folkloru, folklor örnəkləri, virtual folklor, şəhər folklor arealı

Ulkar Iman gizi Aliyeva
Candidate of philological sciences, associate professor
Institute of Folklore National Academy of Sciences
e-mail: aliyevaulkar2020@gmail.com
ORCID ID: 0000-0002-2989-8702

The main features of urban folklore environment: greetings and taking care

Summary

As it is seen from the name of the urban folklore environment, it can contain the features of the city. Naturally, folklore samples can be identified here mainly on the basis of written and oral examples. Here the originality of urban folklore, such as the type belonging to the city and the characteristics of folklore genres, should take the main place. In other words, it was necessary to pay attention to the examples of folklore propagated mainly through art institutions located in cities and centers, the examples of folklore among the people and its was done in the research work.

In the article, examples of folklore promoted through art institutions located in cities and in the center, and examples that became folklore among the people, were taken into account. Urban folklore has been studied in 2 directions - oral and written literature, and the characteristic features of this type have been studied. It was noted that the most widespread type of communication in the society - greetings and greetings has entered the folklore environment of the city by forming an oral tradition. In modern times, it is possible to see various forms of greetings, greetings, and farewell wishes in the examples included in the virtual folklore terminology.

Keywords: city, urban folklore, folklore samples, virtual folklore, urban folklore area

Улькер Иман кызы Алиева
Кандидат филологических наук, доцент
Институт Фольклора Национальной Академии Наук Азербайджана
e-mail: aliyevaulkar2020@gmail.com
ORCID ID: 0000-0002-2989-8702

Основная специфика городской фольклорной среды: приветствие и прощание

Резюме

В данном исследовании были рассмотрены некоторые конкретные образцы городского фольклора и при необходимости эти примеры приводились для уточнения темы. В этой статье также рассматриваются примеры фольклора, отражающие городскую инфраструктуру, и исследуются примеры, выражающие городские знания.

Естественно, городской фольклор был проанализирован с теоретической и практической точки зрения на тему приветствие и прощание (желания благополучия). В дальнейшем мы намерены развивать эту тему более широко, и считаем целесообразным изучение азербайджанского фольклора как городского фольклора.

В статье учитывались образцы фольклора, продвигаемые через художественные учреждения, расположенные в городах и в центре, и образцы, ставшие фольклором в народе. Городской фольклор изучался по 2 направлениям - устной и письменной литературе, характеризовался особые черты этого типа. Было отмечено, что наиболее распространенный в обществе вид общения - приветствия и приветствия вошел в фольклорную среду города, сформировав устную традицию. В современное время можно увидеть различные формы приветствий и напутственных пожеланий в примерах, вошедших в виртуальную фольклорную терминологию.

Ключевые слова: город, городской фольклор, фольклорные образцы, виртуальный фольклор, городская фольклорная среда.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: akademik Muxtar İmanov
tərəfindən çapa tövsiyə olunmuşdur

QULİYEVA GÜNEL RAMIZ QIZI
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun dissertantı
elcanselcanquluzade@gmail.com
ŞAKİRLİ GÜNEL İSRAFIL QIZI
AMEA Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
Shgunel123@gmail.com

SEYID ƏZIM ŞIRVANININ AZƏRBAYCAN MƏTBUATINDA ROLU.

XÜLASƏ

Ümummilli mədəniyyətin tərkib hissəsi hesab olunan mətbuat mənsub olduğu xalqın həyata baxışlarını, yaşayış tərzini, ictimai proseslərə qarşı münasibətini özündə təcəssüm etdirən, eyni zamanda onun hər hansı məsələyə münasibətinin formalaşmasında əhəmiyyətli rol oynayan bir vasitədir. Millətin tərəqqisində, milli şüurumuzun oyanışında mətbuatımızın xüsusi rolu vardır. Milli mətbuat tariximizin keçdiyi yolu araşdıran, ümumi mənzərəsini canlandırmağa çalışan qəzet və jurnallarımızın xidməti danılmazdır.1875- ci ilin 22 iyul tarixində dahi mütəfəkkir Həsən bəy Zərdabinin redaktorluğu ilə ilk nömrəsi işıq üzü görən "Əkinçi" qəzetinin nəşri Azərbaycan ədəbiyyatının inkişafında uğurlu yol qət etmişdir. "Əkinçi" qəzeti pzündən sonra bir sıra milli mətbu nümunələrinin nəşrinə cığır açmışdır. Ünsizadə qardaşlarının rəhbəri olduqları "Ziyayi-Qafqaziyyə", "Kəşkül" kimi nəşrlər "Əkinçi" ənənələrindən bəhrələnərək mətbuatımızın inkişafını təkan vermişdir. Milli mətbuatdakı boşluğu "Əkinçi" qəzetinin bağlanmasından iki il sonra Seyid Ünsizadə "Ziya" qəzeti ilə aradan qaldırdı. Qəzet 1880-1884-cü illər ərzində "Ziyayi-Qafqaziyyə" adı ilə Tiflisdə dərc olunmağa başladı. Ünsizadə qardaşlarının nəşr etdirdiyi mətbu orqanlar islam ideyalarının tərəfdarı kimi xalqın maariflənməsinə Avropanın elmi yenilikləri ilə oxucuların tanışlığına zəmin yaratdı, bunun əsasında da mətbəəçilik işinin əsası quruldu. "Ziyayi-Qafqaziyyə" qəzetinin süqutundan sonra Tiflisdə 1883-1891-ci illərdə "Kəşkül" jurnalının nəşrinə başlanıldı. "Kəşkül" jurnalının naşiri Cəlal Ünsizadə "Kəşkül"ün ilk saylarında "Azərbaycan", "vətənimiz" kəlmələrini mütamadi işlətməklə xalqda kimlik və milli şüur hissi formalaşdırmağa səy göstərirdi. XIX əsr Azərbaycan mətbuatının inkişafında Seyid Əzim Şirvaninin də imzası vardır. Seyid Əzim Həsən bəy Zərdabi ilə sıx dostluq əlaqəsi saxlamış, "Əkinçi" qəzetinin xalq arasında yayılmasına yardımçı olmuşdur. "Əkinçi" qəzetindən sonra Seyid Əzim Şirvani "Ziyayi-Qafqaziyyə" və "Kəşkül" qəzetlərində fəal iştirak etmişdir. Məhz bu məqalədə dahi mütəffəkirimizin Azərbaycan mətbuatındakı xidmətlərindən bəhs etmişik.

Açar sözlər: mətbuat, qəzet, jurnal, Seyid Əzim Şirvani, Əkinçi, Ziyayi-Qafqaziyyə, Həsən bəy Zərdabi

Cəmiyyətimizin inkişafına bir neçə amil təsir edir. Başlıca rol oynayan amillərdən biri mətbuatdır. XIX əsr Azərbaycan mətbuatının əsası qoyulmaqla cəmiyyətimizin inkişafı daha üst mərhələyə qədəm qoymuşdur. Mətbuatımız yaranmazdən öncə keşməkeşli bir tarixi yol keçmişdir. Müxtəlif maneələr və çətinliklərlə qarşılaşaraq onu dəf etmiş və nəticədə Azərbaycan mətbuatının yaranması kimi əlamətdar bir hadisə yaşanmışdır.Azərbaycan mətbuatının əsası qoyulmaqla cəmiyyətimizdə xüsusi bir canlanma müşahidə olundu. Bu sferda Həsən bəy Zərdabinin "Əkinçi" qəzeti, Səid Ünsizadənin "Ziyayi-Qafqaziyyə" qəzeti, Cəlal Ünsizadənin təsisçisi olduğu "Kəşkül" qəzetləri mühüm işlərə imza atmışdır. Azərbaycan mətbuatının əsası "Əkinçi" qəzeti ilə qoyulmuşdur. "Əkinçi" qəzeti Azərbaycan dilində nəşr olunmuş ilk milli qəzetimizdir. "Əkinçi"qəzetinin yaranması görkəmli maarifçimiz olan Həsən bəy Zərdabinin adı ilə bağlıdır. Qəzetin ilk nömrəsi 1875-ci il 22 iyul tarixində Bakıdakı qubernator mətbəəsində nəşr edilmişdir və bununla da Azərbaycan milli mətbuatının əsası qoyulmuşdur. Müasir dövrdə 22 iyul Azərbaycanda "Mətbuat Günü" kimi qeyd edilir. Ayda iki dəfə nəşrə buraxılan "Əkinçi"qəzetində məşhur dramaturqumuz Mirzə Fətəli Axunzadənin, Nəcəf bəy Vəzirovun, Əsgər ağa Göraninin, Seyid Əzim Şirvaninin, Məmmədtağı Əlizadə Şirvaninin və digərlərinin məqalə və yazıları dərc olunmuşdur. 1877-ci ildə Rusiya-Türkiyə müharibəsində Bakı qurernatoru 1877-ci ilin 29 sentyabr tarixində "Əkinçi" qəzetinin fəaliyyətinə rəsmi olaraq qadağa qoymuşdur. Ümumilikdə, "Əkinçi" qəzetinin 56 sayı işıq üzü görmüşdür. "Əkinçi" qəzetinin sonuncu sayında Həsən bəy Zərdabi ürək ağrısı ilə oxucularına son sözünü belə deyirdi: "Biz naxoş olduğumuza görə bu ilin axırıncı nömrələri öz vaxtında çıxmayacaq və onların haçan çıxmağı məlum deyil" [2,15]

Seyid Əzim Şirvani XIX Azərbaycan poeziyasınınən qüdrətli nümunəsidir. Şair lirik şeirləri və satiraları ilə böyük şöhrət qazanmışdır.Seyid Əzim Şirvaninin yaradıc XIX əsr Azərbaycan ədəbiyyatı tarixində şərəfli bir yer tutu. O, məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair, maarifçi şeirləri, təmsil, satiraları ilə görkəmli realist sənətkar kimi tanınmışdır. Seyid Əzim Şirvaninin Qasım bəy Zakirlə Mirzə Ələkbər Sabir arasında körpü rolunu oyanayan satirik şeirləri XX əsr satirik poeziyasının ideya-bəddi mənbələrindən biri olmuşdur [3,407].Görkəmli ədibimiz mətbuatımızın təşəkkül tapmasında və inkişaf tarixində xidmətləri olan sənətkarlarımızdandır. Seyid Əzim Şirvani mətbuata daima böyük dəyər vermiş, onun həyatda, məişətdə daha möhkəm bünövrə qoyması üçün əlindən gələni əsirgəməmişdir.

Seyid Əzim Şirvani Həsən bəy Zərdabi ilə də sıx əlaqə saxlamış və onunla tez-tez yazmışdır. 1875-ci ildə "Əkinçi"nin nəşrindən sonra onun Həsən bəy Zərdabi ilə əlaqəsi daha da möhkəmlənmişdir. Qabaqcıl ideya və fikirlərin carçısı olan "Əkinçi"nin nəşri Seyid Əzim Şirvanini çox sevindirmişdir. O bu zaman bir tərəfdən "Əkinçi"nin xalq arasında yayılmasına çalışır, o biri tərəfdən böyük bir ruh hissi ilə

həvəslə maarifçi şeirlər yazıb qəzetdə çap etdirirdi. Seyid Əzim Şirvani Həsən bəy Zərdabi ilə əl-ələ verərək cəhalət və nadanlıq əleyhinə, maarif və tərəqqi uğrunda mübarizə aparırdı.

Seyid Əzim Şirvani Həsən bəy Zərdabinin yaradıcısı olduğu "Əkinçi" qəzetinə göndərdiyi mənzum təbrik məktubunda qəzetin çıxarılmasının vacibliyini xüsusilə vurğulamışdır. Şair qəzetin vacibliyi barədə bir təbrik məktubundakı sözlərlə kifayətlənməmişdir.

S.Ə. Şirvaninin əxlaqi-didaktik səpkidə yazıdığı əsərlərinin ana xəttini maarifçilik ideyalarının təbliği tutur. 70-ci illərdə "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində şair mədəni geriliyi pisləyir, insanların qarşılaşdığı çətinliklərin səbəbini savadsızlıqda görürdü:

Dadü fəryad, ey güruhu- izam,
Oldu zaye bu milləti-islam.
Günü-gündən zəlili-xar olduq,
Möhnəttü qüssəyə düçar olduq [5].

S.Ə.Şirvani "Əkinçi" qəzeti çapa çıxan zaman oxuculara ünvanlı yazırdı:

Neçə müddətdir ki, Həsən bəyi zar,
Hüsnü-tədbir ilə o fəxri-kibar,
Öz qədimi misalımızda haman,
Qəzetə çapını edib ünvan.

İzn hasil qılıbdır dövlətdən,
Biz gərək dəm vuraq səadətdən
Özünə gərçi yoxdur faidəsi,
Leyk var, xəlqə feyzi-zaidəsi [1,22].

Böyük şair Seyid Əzim Şirvani yaradıcılığı yalnız Azərbaycan dilində deyil, həmçinin farsa da mövcuddur. O, Azərbaycan dilində sözdən məharətlə istifadə etdiyi kimi fars mənşəli sözlərdən də düzgün və yerində istifadə etməyi bacarmışdır. Seyid Əzim Şirvani Bakıda nəşr olunan qəzetlərə təqdim etdiyi məqalələrini əsasən öz doğma dili olan Azərbaycan dilində yazmış və həmin məqalələrdə öz həmyerlilələrini cəhalətdən və nadanlıqdan uzaqlaşdırmağı əsas meyar götürmüşdür. Seyid Əzim Şirvaninin irsində böyük bir külliyatı mövcuddur. Feyzulla Qasımzadənin tədqiqatına əsaslanaraq deyə bilərik ki, Seyid Əzim Şirvaninin külliyatı üç böyük hissəyə bölünür: Birinci hissə qəsidə, həcv, mənzum məktub, tərcibənd, tərkibənd, tərkibbənd, müxəmməs, təxmis, müsəddəs, müstəvad və s. əsərlərdən, ikinci hissə qəzəl, rübai, qitə, beyt və fərdlərdən, üçüncü hissə isə mənzum hekayələrdən ibarətdir [3,410].

Seyid Əzim Şirvanin yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirləriylə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıclığında realizm üstünlük təşkil edir. Onun realist janrra keçməsində "Əkinçi" qəzetinin xüsusi rol oynamışdır. Məhz "Əkinçi" qəzetinin təsiri ilə S.Ə.Şirvani dövrün bir sıra

zəruri məsələləri ilə yaxından maraqlanır və yaradıcılığında həmin mövzulara böyük yer ayırır. Maarifçi şair üçün "Əkinçi" qəzeti bir xitabət kürsüsü hesab edilirdi. S.Ə.Şirvani "Əkinçi" qəzetinin redaktoru Həsən bəy Zərdabiyə ünvanladığı mənzum məktublarında oxucularına mətbuatın faydası haqqında məlumat verirdi. Şair öz müasirlərini qəzet oxumağa, qəzetin nəşrinə yaxından köməklik göstərməyə çağırırdı:

Bəs "Əkinçi" cəlalımızdı bizim,
Nasehi-xoşməqalımızdı bizim.
Səy edin, ey guruhi-niksifat,
Etməsin ta "Əkinçi" vəfat [3,420].

Seyid Əzim Şirvaninin qələmə aldığı əsərləri içərisində öyüd, nəsihət, təmsil və didaktik xarakter daşıyan mənzum hekayələri var ki, bunların da müəyyən bir hissəsi öz ideyaları ilə şairin maarifçi şeirləri arasında uyğunluq yaradır. Mərdlik, dürüstlük, dostluqda mətanət və digər nəcib keyfiyyətlərin tərbiyə olunması bu tip əsərlərin əsas ana xəttini təşkil edir :

Filhəqiqət dirəxti-nakamil,
Tərbiyət feyzinə olur şamil.
Növi-insan deyil ağacdan kəm,
Qabili-tərbiyətdi hər adəm [4].

Seyid Əzim Şirvaninin əxlaqi-didaktik əsərlərinin ana xəttini əsasən maarifçilik ideyalarının təbliği tutur. Şair əsaəsən "Əkinçi" qəzetində çap etdirdiyi şeirlərində mədəni geriliyi tənqid atəşinə tutur, insanların qarşılaşdığı çətinliklərin, millətin geridə qalmasının başlıca səbəbini savadsızlıqda görürdü:

Dadü fəryad, ey güruhu-izam,
Oldu zaye bu milləti-islam.
Günü-gündən zəlili-xar olduq,
Möhnəttü qüssəyə düçar olduq [6].

S.Ə. Şirvani "Əkinçi" qəzetinə oğuna yazdlğl nəsihət məzmunlu şeiri də göndərmişdir. Və həmin şeir qəzetdə çap olunmuşdur. Şeir çap olunarkən redaksiya tərəfindən qeyd yazılmışdır. Həmin qeyddə deyilirdi: "Şamaxıda bir camaat uçqolası bina olub ruhani okrujioy məclisinin nəzarətində Şamaxı sakini Seyid Əzim Məliküşşüəra öz oğlu Mir Cəfər namı haman uçqolaya elm təhsil etmək üçün qoymadan xalqın məzəmmətin görüb öz oğluna nəzm ilə nəsihət verdiyinin bəyanıdır" (A.Aşırlı, 22).

"Əkinçi" qəzetinin nəşrindən sonra Seyid Əzim Şirvaninin ədəbi prinsipləri mənimsə dövrü kimi qiymətləndirilir. Bundan sonra şair təkcə maarifçilik ideyalarını təbliğ edən şeirlər yazmaqla kifayətlənməmiş, həm də Səid Ünsizadənin açmış olduğu "Məclis" məktəbində pedaqoji fəaliyyətini genişləndirərək dərslik tərtibi ilə də məşğul olmuşdur. Bu fikrə düşməyində "Vəkili-naməlum"un Mirzə Fərəli Axundovun təşəbbüsü ilə "Əkinçi" səhifələrində dövrə uyğun məktəb, dərslik və onlara müvafiq müəllim kadrlarının yoxluğu və bu problemin həlli yolları ətrafında

qaldırılan müzakirələrdə müəyyən rol oynamışdır. Həmin müzkirələrə Seyid Əzim Şirvani də öz münasibətini bu şəkildə bildirmişdir:

... Necə kim, ol "Vəkili-naməlum"
Eyləmişdi bu nüktəni mərqum.
Əvvəla bizdə yox o məktəblər
Ki, verə kəsbi-elmi xəlqə səmər.
Nə o gunə kitablar ılan
Ki, ola lisanımızda bəyan.
Bizə hasil nə şey olur yoxdan
Ki, itibdir kitabımız çoxdan....[6].

Seyid Əzim Şirvani irəli sürdüyü fikir və mülahizələrini "Ziya"nın səhifələrində də davam etdirmiş, özü də dərslik tərtib etmişdir. Şair məktəb və mədrəsələrdəki təlim üsulunu, onlarda istifadə olununan təlim kitablarının yararsız halda olduğunu və bu kitabların birdəfəlik aradan qaldırılmasının vacibliyi haqqında "Ziyayi-Qafqaziyyə"də dərc etdirdiyi şeirlərin birində yazırdı :

... Niyə biz bunca bikamal olduq?
Ayaq altında payimal olduq?
Bəsdir tədrisi- "Gürbəvü muş",
"Leyli-Məcnun", "Vəsfi-badəfiruş" [6].

Seyid Əzim "Ziyayi- Qafqaziyyə" qəzetinin səhifələrində elan edilən şeir müsabiqələrində iştirak edir, dərsliklərin çapına nail olmaq üçün əlindən gələni edirdi. Şairin "Məclis" məktəbindəki fəaliyyətinin səhifələri, "Tacül-Kütüb" dərsliyinin nəşrinə icazə almaq cəhdlərini və yaradıcılığının bu cəhətinin işıqlandırılmasına həsr olunmuş yazıları "Ziyayi-Qafqaziyyə"nin səhifələrində özünə yer almışdır. "Əkinçi" qəzetindən sonra həmin dövrdə nəşr olunan və "Əkinçi" qəzetinin boşluğunu doldura bilən qəzetlərdən biri və birincisi "Ziyayi-Qafqaziyyə" qəzeti olmuşdur. "Ziyayi-Qafqaziyyə" qəzetinin baş redaktoru və naşiri Səid Ünsizadə idi . Bu qəzet 1879-1880-ci illərdə Tiflisdə "Ziya" adı ilə, daha sonra 1882-ci ildə Tiflisdə və 1883-1884-cü illərdə Şamaxıda "Ziyayi-Qafqaziyyə" adı ilə nəşr olunub. Tarixdən məlum olduğu kimi iki il fasilədən sonra işıq üzü görən "Ziyayi-Qafqaziyyə" qəzeti mövzu və ideya baxımından "Əkinçi" qəzetinin davamçısı hesab oluna bilər. Hər iki qəzetdə dil anlaşıqlı və sadə idi. "Ziyayi-Qafqaziyyə" qəzeti də anlaşılmayan ifadə istifadə etdikdə mütləq ya "yəni" bağlayıcısını əlavə edib həmin sözü aydınlaşdırırdı, yaxud da həmin sözün üstünə ulduz işarəsi qoyaraq qəzetin ətəyində həmin ifadənin izahını verirdi. Həmçinin bu qəzetlərdə tərcümələrə də yer verilirdi ki, bu da həmin dövr üçün alqışlanası bir hal hesab olunurdu. "Əkinçi" qəzetindən fərqli olaraq "Ziyayi-Qafqaziyyə" qəzetində terminlər xüsusi yer tuturdu. Hətta Nazim Nəsrəddinov öz məqaləsində "Ziyayi-Qafqaziyyə" qəzetində işlənən terminləri 5 yerə bölmüşdür. Onlara icitmai- siyasi məzmunlu terminlər, məktəb və maarifçilik terminləri, peşə, sənət, vəzifə və məşğulluq sahəsinə aid terminlər,

maliyyə, pul və bank əməliyyatları ilə ilgili terminlər, hərbi anlayışları ifadə edən terminlər.

"Ziyayi-Qafqaziyya" qəzetinin də tərəfdarları çox idi. Onlar arasında Səid Ünsizadə, Kamal Ünsizadə, Cəlal Ünsizadə, Nəcəf bəy Vəzirov, Seyid Əzim Şirvani, Aleksandr Çernyayevski kimi müttəfəkkirlər var. Seyid Əzim Şirvani "Qəzet nədir?" başlığı altında olan şeirində qəzetin əhəmiyyət və dəyərini oxucuların diqqətinə çatdırmışdır:

Qəzetin çoxdur xəlqə mənfəəti,
Nə bilir kim ki, yoxdu mərifəti.
Nə deyim, vəhyi-asimandır ol,
Leyk ərbabi-hal canıdır ol.
Nə qəzet, mayeyi-səadətdir,
Nə qəzet, eyni-elmi-hikmətdir [6].

Seyid Əzim Şirvani yaradıcılığının daha sonrakı pillələrində elmi-pedaqoji, həm bədii yaradıcılıqla məşğul olmuş, maarifçilik ideyalarının təbliğində yaxından iştirak etmiş, bu yolda qarşısına çıxan bütün maneələri dəf edə bilmişdir. Seyid Əzim Şirvani "Ziya" qəzetindı yazdığı poetik nümunəsində cəmiyyətin inkişafı və tərəqqisi üçün qəzetin və jurnalistlərin insanların həyatında tutduğu rolu və daşıdığı əhəmiyyəti sətirlərə düzmüşdür:

Qəzet bir hüdhüdi-ziba, qəzetxanalar Süleymandır,
Yetib Bilqeysi-mənayə gərək onlar Səbalənsin.
Qəzetdir peyki-ruhani ki, söylər sirri-pünhani,
Nə lazım peyki-həq künci-xəfadə ixtifalənsin.
Bu kari-xayrə kim bir paktiynət eyləyib iqdam,
Gərək millət qıla himmət ki, ta mətləb ədalənsin [6].

Həmin dövrdə nəşr olunan qəzetlərdən biri "Kəşkül" qəzetidir. "Ziyayi-Qafqaziyyə" qəzetindən sonra "Kəşkül" jurnalı işıq üzü gördü. Səid Ünsizadənin qardaşı Cəlal Ünsizadə bu jurnalın redaktoru idi. O, 1882-ci ildə Qafqaz canişinin baş idarəsinə məktub yazaraq jurnal nəşr etmək arzusunda olduğunu bildirdi. "Kəşkül" jurnalı 1883-cü ildə Tiflisdə nəşr olunmuşdur. Bu jurnal təkcə Azərbaycan dilində deyil, ərəb və fars dilində də nəşr olunub. "Kəşkül" 1883-Bu qəzet də ideya baxımdan "Əkinçi" qəzetinə çox yaxındır. "Kəşkül" qəzetində də sənətkarlıq və mədəniyyət məsələlərinə toxunulmuşdur. "Ziya" qəzeti ilə müqayisədə "Kəşkül" qəzetinin mövzu dairəsi daha genişdir. Onun daxili şöbə, tarixi və siyasi şöbə, tənqid və mətbuat xülasəsi, pedaqogika, həkim məsləhəti, şeir şöbəsi, təqvim, müxtəlif materiallar və elanlar adlı şöbələri mövcud idi [7].

Akif Aşırlı "Azərbaycan mətbuatı tarixi" adlı kitabında "Kəşkül" jurnal haqqında danışarkən qeyd edirdi: "Jurnalın ərəb, fars və Azərbaycan dillərində nəşr edilməsi nəzərdə tutulub. "Kəşkül"ün ilk nömrəsi 1883-cü ilin yanvarında çıxıb. Həm jurnal, həm də qəzetin aşağıdakı şöbələri vardı - daxili şöbə, tarix və siyasi şöbə, tənqid və mətbuat xülasəsi, pedaqogika, həkim məsləhəti, şeir şöbəsi, təqvim,

müxtəlif materiallar və elanlar. Şöbələrin adından göründüyü kimi jurnal müxtəlif sahələri əhatə edən publisistik-elmi məqalələrlə çıxış etməli, baş verən hadisələri, yenilikləri izləməli idi. Buna g örə də siyasi, iqtisadi və ədəbi məsələləri işıqlandırmaq üçün "Kəşkül" müxtəlif sahələrdə çalışan mütəxəssisləri, savadlı insanları işə cəlb etdi. Cəlal Ünsizadə "Kəşkül"ün 3-cü sayında yazırdı: "Kəşkül"ün daireyi-qələmiyyəsi bu tərəflərdə, yəni Qafqaziyyə qitəsindən müxtəlif mövqelərdə, Rusiyanın içərilərində, həmçinin islam malikində (İran, Osmanlı və Misir səmtlərində) xüsusi müxbirləri olacaqdır" [7].

"Kəşkül" qəzeti ilə Seyid Əzim Şirvani, Firudun bəy Köçərli, Məhəmməd ağa Şahtaxtlı S.M.Qənizadə, M.Sultanov, S.Vəlibəyov, G.Kəngərli, Ə.Qayıbov, R.Axundov əməkdaşlıq edib və qəzetə müxtəlif mövzularda məqalələr, bədii əsərlərindən nümunələr təqdim etmişdilər. Həmçinin Abbasqulu ağa Bakıxanov, Mirzə Fətəli Axundzadə və Seyid Əzim Şirvani kimi dahilərin yaradıcılığına "Kəşkül" qəzetində yer verilmişdir. Bununla yanaşı A.Çernyayevski, İ.Çavçavadze, N. Qulak da qəzetin işində fəal iştirak etmişdir. Seyid Əzim Şirvaninin qəzetin birinci sayında "Qurani-əzimülşən və çobani-nadan", "Kor atlandı kəndin basdı" başlığı altında rəvayətləri dərc olunmuşdur. "Kəşkül"ün növbəti saylarında şair "Kəlilə və Dimnə"dən və Klassik Şərq ədəbiyyatına məxsus nümunələrdən bir tərcümə əsərləri ilə yaxından iştirak etmişdir.

Ədəbiyyat siyahısı:

1. Aşırlı Akif "Azərbaycan mətbuat tarixi:1875-1920". "Elm və təhsi", Bakı-2009, s.296
2. Cavadova Esmira "Həsən bəy Zərdabinin etnoqrafik görüşləri". "Elm və təhsil", Bakı-2012, s.164
3. Qasımzadə Feyzulla "XIX əsr Azərbaycan ədəbiyyatı" Bakı-1974, 607
4. http://www.anl.az/down/meqale/azerbaycan/2015/iyul/448910.htm
5. https://az.wikipedia.org/wiki/Seyid_%C6%8Fzim_%C5%9Eirvani
6. http://anl.az/down/meqale/az_muellimi/2010/aprel/117571.htm
7. https://az.wikipedia.org/wiki/K%C9%99%C5%9Fk%C3%BCl_(q%C9%99zet)

Guliyeva Gunel
Shakirli Gunel

Publicism of Seyid Azim Shirvani in XIX century Azerbaijani press

The press, which is considered an integral part of the national culture, is a tool that embodies the views of the people to whom it belongs, their way of life, attitude towards social processes, and at the same time plays a significant role in the formation of its attitude to any issue. Our press plays a special role in the progress of the nation and the awakening of our national consciousness. The service of our

newspapers and magazines exploring the path of our National Press history and trying to revive its overall picture is undeniable.In 1875, on July 22, the publication of the newspaper “Ekinchi”, the year number of which was published under the editorship of the great thinker Hasan Bey Zardabi, was successful in the development of Azerbaijani literature. After the publication of” ekinchi " newspaper, a number of national press samples were published. Publications such as “Ziyayi-Qafqaziyya” and “Kashkul”, headed by the unsizade brothers, benefited from the traditions of “Ekinchi” and stimulated the development of our press. Two years after the closure of “Ekinchi” newspaper, Seyid Unsizade closed the gap in the National Press with “Ziya” newspaper. During 1880-1884, the newspaper began to be published in Tbilisi under the name “Ziyayi-Qafqaziyya”. The media published by the unsizade brothers, as supporters of Islamic ideas, paved the way for the Enlightenment of the people with the scientific innovations of Europe, on the basis of which the basis of the printing business was established. After the collapse of the newspaper” Ziyayi-Qafqaziyya“, the publication of the magazine” Kashkul " began in Tbilisi in 1883-1891. Jalal Unsizade, publisher of” Kashkul “magazine, in the first issues of”Kashkul “made an effort to form a sense of identity and national consciousness in the people by using the words” Azerbaijan “and” our motherland " regularly. Seyid Azim Shirvani also has a signature in the development of the Azerbaijani press of the XIX century. Seyid Azim Hasan Bey maintained close friendship with Zardabi and helped to spread the newspaper” Ekinchi " among the people. After” ekinchi "newspaper, Seyid Azim Shirvani took an active part in” Ziyayi-Qafqaziyya “and” Kashkul" newspapers. It was in this article that we talked about the services of our genius mutaffekir in the Azerbaijani press

Keywords: Press, newspaper, magazine, Seyid Azim Shirvani, Ekinchi, Ziyayi-Qafqaziyya, Hasan Bey Zardabi

Гулиева Гюнель
Шакирли Гюнель

Публицист Сеида Азима Ширвани в азербайджанской прессе XIX века

Резюме

Пресса, которая считается неотъемлемой частью национальной культуры, является инструментом, воплощающим взгляды народа, к которому она принадлежит, их образ жизни, отношение к социальным процессам, и в то же время играет значительную роль в формировании его отношения к любому вопросу. Наша пресса играет особую роль в прогрессе нации и пробуждении нашего национального самосознания. Заслуга наших газет и журналов в изучении истории нашей национальной прессы и попытках воссоздать ее общую картину неоспорима.В 1875 году, 22 июля, издание газеты “Экинчи”, годовой номер которой вышел под редакцией великого мыслителя Гасан Бека

Зардаби, имело успех в развитии азербайджанской литературы. После выхода газеты ”экинчи" был опубликован ряд образцов национальной прессы. Такие издания, как “Зияи-Кафказия” и “Кашкуль”, возглавляемые братьями Унсизаде, воспользовались традициями “Экинчи” и стимулировали развитие нашей прессы. Через два года после закрытия газеты “Экинчи” Сеид Унсизаде закрыл пробел в национальной прессе газетой “Зия”. В 1880-1884 годах газета начала издаваться в Тбилиси под названием “Зияи-Кафказия”. Средства массовой информации, издаваемые братьями унсизаде, как сторонниками исламских идей, проложили путь к просвещению народа научными новшествами Европы, на основе которых была создана основа полиграфического бизнеса. После распада газеты ”Зияи-Кафказия“ в 1883-1891 годах в Тбилиси началось издание журнала ”Кашкуль". Джалал Унсизаде, издатель журнала ”Кашкуль“, в первых номерах ”Кашкуля“ предпринял попытку сформировать у людей чувство идентичности и национального самосознания, регулярно используя слова ”Азербайджан“ и ”наша Родина". Сеид Азим Ширвани также внес свой вклад в развитие азербайджанской прессы XIX века. Сеид Азим Хасан бей поддерживал тесную дружбу с Зардаби и помогал распространять газету ”Экинчи" среди народа. После газеты ”экинчи" Сеид Азим Ширвани принимал активное участие в работе газет ”Зияи-Кафказия“ и ”Кашкуль". Именно в этой статье мы рассказали о заслугах нашего гения мутаффекира в азербайджанской прессе

Ключевые слова: Пресса, газета, журнал, Сеид Азим Ширвани, Экинчи, Зияи-Кафказия, Хасан Бей Зардаби

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: fil.ü.f.d., Samirə Əliyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

RƏNA RZAYEVA
AMEA Şərqşünaslıq institutu
İran filologiyası şöbəsi
Aparıcı elmi işçi, dosent
Rzayeva1958@icloud.com

«ƏDALƏT» ANLAYIŞI VƏ ONUN ƏBUBƏKR İBN XOSROV ƏL-USTADIN «MUNİSNAMƏ»SİNDƏ YERİ

Xülasə

Ədalət həm əxlaqi və hüquqi, həm də siyasi baxımdan çox böyük əhəmiyyətə malik fəlsəfi anlayışdır. Ədalət etika və siyasi fəlsəfənin ən mühüm mövzularından biri olmaqla bərabər, bu təlimlə ilə məşğul olmayan insanların belə vaxtaşırı istifadə etdiyi, onun vasitəsilə ətrafı haqqında fikirlər söylədiyi, suallar qoyduğu və ona əsasən davranışını müəyyən etdiyi bir anlayışdır.

Cəmiyyətdə xüsusi dəyərə, məqama malik olan ədalət prinsipi hər zaman bədii ədəbiyyatda da öz əksini tapmışdır.

Ensiklopedik biliyə, geniş dünyagörüşünə, dərin zəkaya malik olan Nizami Gəncəvi malik olan əsərlərində bir çox bəşəri ideyaları təbliğ etmişdir. Şair öz yaradıcılığı ilə dünya ədəbiyyatında yeni bir dövr, yeni bir səhifə açmışdır. Şərq xalqlarının bədii, estetik, əxlaqi, fəlsəfi təfəkkür tərzini geniş şəkildə işıqlandırmışdır. Bu bəşəri məsələlərdən ədalət və ədalətli höhmdar ideyası dahi şairin yaradıcılığının aparıcı xətti olaraq bütün yaradıcılığında
öz əksini tapmışdır.

Bu baxımdan, şairin müasiri, dostu olmuş Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri də maraq doğurur. Bu əsər didaktik-belletristik olmaqla özündə dövrünün bir çox ideyalarını işıqlandırır ki, onlardan biri də «ədalət» mövzusudur. Şərti olaraq iki – didaktik və bədii hissəyə bölünmüş bu əsərin istər didaktik, istərsə də bədii hissəsində «ədalət» mövzusuna toxunulur.

Açar sözlər: ədalət, ədalətli hökmdar,Nizami, əbubəkr ibn Xosrov əl-Ustad, əxlaq, etika

Ədalət həm əxlaqi və hüquqi, həm də siyasi baxımdan çox böyük əhəmiyyətə malik fəlsəfi anlayışdır. Ədalət etika və siyasi fəlsəfənin ən mühüm mövzularından biri olmaqla bərabər, bu təlimlə ilə məşğul olmayan insanların belə vaxtaşırı istifadə etdiyi, onun vasitəsilə ətrafı haqqında fikirlər söylədiyi, suallar qoyduğu və ona əsasən davranışını müəyyən etdiyi bir anlayışdır.

Ədalət-daimi və dayanıqlı olaraq hər kəsə haqqını vermək istəyidir. (6) Ədalət - heç bir ifadə ilə müqayisə olunmayacaq dərəcədə özəl məfhumdur. O, hər

bir yaraya məlhəm olmağa, hər düyünü açmağa qadirdir. Ədalət varlığın üzərində qurulan möhtəşəm binanın bünövrəsidir. (3,10)

Fəlsəfə tarixinin qarşısında duran əsas məsələlərdən biri də ədaləti bu və ya digər şəkildə əsaslandırmaq olmuşdur. Ədalət anlayışı bəşəriyyətin sosiallaşdığı dövrdən etibarən müxtəlif şəkillərdə özünü büruzə vermişdir.

Bu anlayış hələ mifoloji təfəkkürün mövcud olduğu dövrlərdən etibarən cəmiyyəti maraqlandıran bir məsələ olmuşdur. Yəni müəyyən cəmiyyət normalarının qanunlaşdırılması üçün bir cəmiyyətin özünəməxsus yasaqlar, qadağalar sisteminin formalaşdırmasıdır. Monoteist dinlərin inkişafı ilə bu ədalət anlayışı Tək Allaha məxsus olur.

Qədim sivilizasiyalarda da (o cümlədən, Şumer, Misir, Hind, Çin, Yunan və.s.) mövcud qanunlar fövqəlbəşər qüvvələrin daha dəqiq desək Allahların nəzarətində idi. Panteoncu düşüncədə ədaləti insanlar arasında tənzimləyən xüsusi tanrılar da mövcud idi.

Monotest dinlərin inkişafı ilə isə ictimai funksiyaların bir çox xüsusiyyətləri kimi ədalət anlayışı da Tək Tanrının idarəçiliyində cəmlənmiş olur. Belə ki, müsəlman tarixində də İslam idarəçiliyi çox vaxt sosial ədalətlə əlaqələndirilmişdir.

Mifologiyadan və dini düşüncədən müstəqil elm kimi formalaşan fəlsəfənin əsas anlayışlarından birinə çevrilən ədalət məsələsi Platon və Aristoteldən başlayaraq klassik və müasir fəlsəfənin əsas aparıcı xətlərindən birinə çevrilir.

Beləliklə cəmiyyətdə xüsusi dəyərə, məqama malik olan ədalət prinsipi hər zaman bədii ədəbiyyatda da öz əksini tapmışdır. (7)

Hələ şifahi xalq ədəbiyyatının mövcud olduğu dövrlərdə belə ədalət mövzusu aktual olmuşdur. Belə ki, hələ ən kiçik bir cəmiyyətin mövcud olduğu yerdə də ədalətin olması zərurətdir.

Məzmun və ideya baxımından müxtəlif növlərə bölünən bayatıların, atalar sözləri və məsəllərin, mif və əfsanələrin, nağıl və rəvayətlərin, lətifə və təmsillərin ictimai məzmun daşıyan nümunələrinin əsas mövzusu haqq, ədalət, dürüstlük və s. olmuşdur. Yəni, insan hər zaman öz istək və arzularını, öz ideya və amalını ədəbiyyat vasitəsi ilə ifadə etmişdir. Bildiyimiz, oxuduğumuz, bələd olduğumuz şifahi xalq ədəbiyyatının bütün nümunələrində ədalət anlayışı həmişə öz əksini tapmışdır.(4)

Şübhəsiz ki bu anlayış daha dərin, daha mükəmməl şəkildə yazılı ədəbiyyatda əvəzolunmaz bir prinsip kimi hər zaman öndə olmuşdur. İstər klassik ədəbiyyat, istər müasir ədəbiyyat nümunələrində də bu anlayış ən müxtəlif tərzlərdə təqdim olunmuşdur.

Ensiklopedik biliyə, geniş dünyagörüşünə, dərin zəkaya malik olan Nizami Gəncəvi malik olan əsərlərində bir çox bəşəri ideyaları təbliğ etmişdir. Şair öz yaradıcılığı ilə dünya ədəbiyyatında yeni bir dövr, yeni bir səhifə açmışdır. Şərq xalqlarının bədii, estetik, əxlaqi, fəlsəfi təfəkkür tərzini geniş şəkildə işıqlandırmışdır. Bu bəşəri məsələlərdən ədalət və ədalətli höhmdar ideyası dahi

şairin yaradıcılığının aparıcı xətti olaraq bütün yaradıcılığında öz əksini tapmışdır. Dahi şairin ilk iri həcmli əsəri «Sirlər xəzinəsi» olmuşdur ki, bu əsər həmin dövrlərdə Yaxın və Orta Şərq ədəbiyyatında geniş yayılmış didaktik əsərlər silsiləsinə daxildir. Dahi şair sanki özünəqədərki didaktik ədəbiyyatı yekunlaşdırıb ona yeni humanist, demokratik istiqamət vermişdir. Rudəkinin «Kəlilə və Dimnə»sinin, Yusif Xas Hacibin türkcə yazdığı «Kütadqu bilik» («Xoşbəxtlik gətirən bilik») əsərinin ənənələrini davam ertdirən Sənai Qəznəvi artıq XII əsrin əvvəllərində «Hədiqətül-həqiqə» («Həqiqət bağşası») poeması ilə didaktik poema janrını yeni bir yüksəkliyə qaldırır. «Hədiqətül-həqiqə»dən başqa bir sıra xırda poema, çox sayda qəsidə, qəzəl, rübailərin müəllifi olan Sənainin yaradıcılığı farsdilli poeziyada humanist fikirlərin təsdiqi baxımdan xüsusi bir mərhələ təşkil edir. Bu nöqreti-nəzərdən dahi Nizaminin «Sirlər xəzinəsi» xüsusi mövqeyə malikdir. Əsər ümumilikdə didaktik bir poema olmaqla, dürüstlüyü, zəhmətkeşliyi, insafı, insanpərvərliyi və nəhayət ədaləti əks etdirir. Nizami Gəncəvi bu humanist ideyalı didaktik əsərində əsas hədəf olaraq, bəşəriyyəti daima düşündürən «ədalətli hökmdar» ideyasını işıqlandırır. Ümumiyyətlə cəmiyyətin «ədalət» olmadan mövcudluğunun mümkünsüzlüyünü nəzərə çatdırmaq ideyasını qabardır. Poemanın «İnsanın mərtəbəsi haqqında», «Ədalət və insafı gözləmək haqqında», «Padşahın rəiyyətə qayğı göstərməsi haqqında» məqalətlərini, «Özündən naümüd olub bağışlanan padşahın hekayəsi», «Nuşirəvan və bayquşların söhbəti», «Sultan Səncər və qarı», «Zalım padşahla zahidin dastanı», «Bir şahzadənin hehayəsi» hekayətlərini misal gətirərək dahi Nizaminin qarşısına qoyduğu əsas məqsədi asanlıqla sezmək mümkündür. Dahi şair dövrünün zalım hökmdarlarını gah axirətlə qorxudur, gah da zülmün bu dünyada ona zərər, ziyan yetirəcəyini xatırladır, xalqın qəzəbi ilə hədələyir.

Xalq və hökmdar problemi Nizami poeziyasının, o cümlədən «Sirlər xəzinəsi»nin əsasını təşkil edir. Çox vaxt bu problemi ədalətli hökmdar ideyası şəklində ifadə edirlər.

Aləmi kim fəth eləyər zülm ilə,
Mülkü ədalətlə alarlar ələ.
Məmləkət ədlilə olar payidar,
İşlərin ədl ilə olar bərqərar. (2,147,148)

Bu baxımdan, şairin müasiri, dostu olmuş Əbubəkr ibn Xosrov əl-Ustadın «Munisnamə» əsəri də maraq doğurur. Bu, didaktik-belletristik əsər olmaqla özündə dövrünün bir çox ideyalarını işıqlandırır ki, onlardan biri də «ədalət» mövzusudur. Şərti olaraq iki – didaktik və bədii hissəyə bölünmüş bu əsərin istər didaktik, istərsə də bədii hissəsində «ədalət» mövzusuna toxunulur. Hər iki hissəni təşkil edən mətnlərdə ədalət xüsusi mövqeyə malikdir. Hadisələrə ədalətli yanaşma, hadisələrin ədalətlə dəyərləndirilməsi oxucunun diqqətini çəkir. Əsərin istənilən fəsil və hekayətində ədalətlə bağlı, az da olsa, bir fikrə rast gəlmək olur.

Əsərin II fəsli – «Möminlərin əmiri Əli ibn Əbu Talibin İmam Hüseynə-onlara salam olsun!-vəsiyyəti və onun şeirlə tərcüməsi» adlanır. Bu fəsildə ədalətlə bağlı fikirlər vardır:

Dost-düşmən yanında həmişə ədalətli ol,
Həyatın məğzi ədalətdir.
Həyat bir zahirdir,
Ədalət isə batindir. (1,36)

Əsərin VI fəsli isə, ümumilikdə haqqa, ədalətə bağlı bir parçadır. «Munisnamə»nin həcmcə ən kiçik hissələrindən olan VI fəsli istər öz adına («Ədalət və insaf haqqında»), istərsə də strukturuna görə didaktik məzmunlu epik əsərlərdə (məsələn, Nizami Gəncəvinin «Sirlər xəzinəsi»ndə) tez-tez rastlaşdığımız fəsilləri xatırladır. Yəni fəsil ədalət haqqında nəzəri mülahizələrlə başlayır, sonra isə həmin mülahizələri əsaslandıran kiçik bir hekayət verilir. Ədalətli hökmdarların ən zəruri və bütün digər xüsusiyyətləri kölgədə qoyan bir keyfiyyəti kimi səciyyələndirən əl-Ustad Məhəmməd peyğəmbərin «hökmdarın bir saatlıq ədaləti zahidin altmış illik ibadətindən yaxşıdır» hədisini misal gətirir. Bunun ardınca Ənuşirəvanın dövründə baş vermiş bir hadisə nəql olunur:

Bir şəxsdən torpaq sahəsini icarəyə götürən birisi şum zamanı qızılla dolu bir quyu tapır.Tez torpaq sahibinin yanına gedib qızıllarına sahib çıxmağı xahiş edir. Torpaq sahibi isə qızılların torpağı bir illik icarəyə götürmüş icarəçiyə mənsub olduğunu söyləyir. Çox mübahisədən sonra məsələ ədaləti ilə seçilib ad-san qazanmış Ənuşirəvana çatdırılır. Bəzi əyanlar şahı heç kəsin götürmək istəmədiyi dəfinəni bütünlüklə götürüb xəzinəyə mədaxil etməyə təhrik etmək istəyirlər. Ənuşirəvan belə qanunsuzluğa yol verməyəcəyini bildirib müdrik vəziri Bozorgmehrə müraciət edir. Ağlı, müdrikliyi, zəkası ilə məşhur olan, hər zaman seçilib xüsusi hörmətə mənsub olan Bozorgmehrin məsləhəti ilə dəfinə üç hissəyə bölünür: birincisi-torpaq sahibinə, ikincisi-icarəçiyə,üçüncüsü isə yoxsullara verilir. Daha sonra Bozorgmehr torpaq sahibi ilə icarəçiyə övladlarını evləndirib torpağı da onlara verməyi tövsiyə edir.

Qeyd edək ki, bu əhvalat geniş bir epizod kimi, hadisənin məkanı və zamanı dəyişdirilməklə, «Munisna- mə»nin XVII fəslinin 27-ci hekayətinə də daxil edilmişdir .
(5, 68-69)

Əsərin «Rum müdriklərinin hikmət və nəsihətləri, möbidlər möbidinin kəlamları və onun Bəhmən şah üçün etdikləri haqqında» adlanan VIII fəslində ədalət yüksək qiymətləndirilmişdir. Fəsil belə başlayır:

Belə nəql edirlər ki, günlərin bir günü Bəhmən şah əmr edir ki, yer üzünün ən müdrik adamını tapıb onun hüzuruna gətirsinlər. Şah həmin adamdan çox kiçik, amma mənalı, məzmunlu bir nəsihət istəyir. Həmin adam deyir: «Allah padşahımızın

ömrünü uzun eləsin!.... Ey şah, bil ki, xalqın üzərində hökmdarlıq etmək çox çətin və məsuliyyətli işdir, onun öhdəsindən ancaq imanın, ağılın, təmkinin, mərhəmətin və ədalətin köməkliyi ilə gəlmək olar....Ümumiyyətlə, hökmdarlığın əsasını haqq və ədalət təşkil edir.»(1,120)

Dediyimiz kimi «Munisnamə» əsərində ədalət, ədalətli hökmdar ideyası dəfələrlə öz əksini tapir. Buna misal olaraq, «Munisnamə»nin pəhləvi didaktik ədəbiyyatı ilə birbaşa əlaqələrini müəyyənləşdirmək və öyrənmək baxımından əsərin X fəsli xüsusi əhəmiyyət kəsb edir. Ümumən abidənin birinci hissəsinin ən maraqlı və həcmcə ən böyük qismi olan həmin fəsil «Hindistan əhlinin ədalətli Ənuşirəvana sualları, müdrik Büzürcmeh- rin cavab verməsi və onun Hindistan padşahının elçisi ilə mübahisəsi haqqında» adlanır.

Elə adına əsaslanaraq ədalətliliyin bir titul olaraq necə yüksək dəyərə, qiymətə malik olduğunu da söyləmək mümkündür. Tarixdə məhz « ədalətli Ənuşirəvan» adını qazanmış Sasani hökmdarı I Xosrovun dövründə Bizans hökmdarı I Yustinianın təqiblərindən xilas olmuş neoplatoniklər onun ədalətinə sığınmışlar . Bu fəsildə onun vəziri olmuş Bozorgmehrin dilindən ədalət haqqında söylədikləri də maraqlıdır. Bozorgmehr bu sözləri Hindistan hökmdarının elçisinin vasitəsi ilə Hindistan hökmdarına çatdırır. Belə ki Hindistan hökmdarının elçisi Bozrgmehrdən hökmdarı üçün bir nəsihət istəyir, Bozorgmehr də cavabında deyir: « Hindistan hökmdarına çatdır ki, onun qarşısında təzim edib, yeri öpürəm. Ona de ki, yer üzündə ən qiymətli nəsihət bir həqiqətin qeyd-şərtsiz qəbul olunmasıdır: özünü anla, özünü anlasan, Allahı anlayarsan, Allahı anlasan, biləcəksən ki, hökmdarların ən gözəl, kamil xüsusiyyətləri rəiyyətə qarşı ədalətli, mərhəmətli, səxavətli, xeyirxah, səmimi və mehriban olmaqlarıdır. Əgər hökmdarlığının uzun, əmin-amanlağının daimi olmasını istəyirsənsə, onda:

Hər işdə ədalətli ol! Onda hökmdarlığın çiçəklənər,
Onda bütün xalqın sənin üçün dua edər.
Axı sən çobansan, xalqın isə bir sürüdür.
Bil ki, qiyamət günü sən onlara görə cavabdehsən» (1,132-133)

Əsərin bu fəslində Hindistanlı elçi Bozorgmehrdən soruşur: «Ən alicənab, ədalətli hökmdar kimdir?» Bozorgmehr cavab verir: «Ən alicənab, ədalətli hökmdar hakimiyyəti dövründə cinayətkarların azadlıqda gəzib onun təəbəsini incitməyə yol verməyəndir». (1,132)

Elçi soruşur: «Bəs hpkmdarların ən yaxşısı hansıdır?» Bozorgmehr cavab verir: «Hökmdarın ən yaxşısı-ədalətli və mərhəmətli olanı və axmaqlara iş tapşırmayanıdır».
(1, 131)

Əsərin «Əcəm əhlinin hikmətli sözləri və Cəmşidin öz canişinlərinə nəsihətləri haqqında» adlanan XI fəslində də ədalətlə bağlı müdrik fikirlərə rast gəlirik.

....Hər zaman məmləkətinizi, işlərinizi nəzarətdə saxlayın, kasıblara qarşı rəhmdil, mərhəmətli olun, ədalətli siyasətinizlə onların güzəranının yaxşılaşdırılmasını təmin edin, nadürüst məmurları işlərindən uzaqlaşdırın, haqqı,ədaləti ömrünüzün, həyatınızın ana qanunu kimi qəbul edin....(1,138)

Əsərin XVII fəslinin IV hekayəti «Vəzir ilə Dəryabar şahının qızı və onların gördükləri qəribə şeylər haqqında hekayət» adlanır. Bu hissəsində belə bir əhvalatla rastlaşırıq: Şah əyan, əshabələrini dəvət edib onlardan soruşdu: «Siz bu adama hansı cəzanın verilməsinə hökm verərsiniz?» Onlar bir səslə dedilər: «Onu tikə-tikə etmək lazımdır». Şah cavab verdi: «Yox, belə olmaz, yaxşısı budur ki, onu aparın və ədalət tərəzisinin gözünə qoyun. Doğru olanı tərəzi dəqiqliyi ilə göstərər». (1, 250)

Ədalət tərəzisi, mizan-tərəzi olan yerdə əminamanlıq, asayiş də olar.

Əsərin «Nəsri-əyyar və Xorasan şahzadəsinin hekayəti» adlanan hissəsində haqq-ədalətin, doğru-dürüstlüyün hökmdarlar üçün nə qədər üstün bir xüsusiyyət olduğu çox mükəmməl şəkildə təqdim edilir. Bu hisssədə ədalətin hökmdar üçün zəvvar olub həcc ziyarətinə getməyə bərabər bir əməl kimi qəbul olunduğunu görürük:

Aqillər danışırlar ki, qədim zamanlarda çox müdrik bir hökmdar yaşayırmış. Bir dəfə hökmdarın şahzadə oğlu ovdan qayıdanda görür ki, şəhərdə qarışıqlıq vardır. Şahzadə maraqlanıb öyrənir ki, bu, Kəbə ziyarətinə hazırlaşan zəvvarlar karvanıdır. Şahzadə fikirləşir: «Bəlkə mən də Kəbə ziyarətinə yollanım?!» Şahzadə saraya qayıdıb, atasından icazə istəyir, amma atası razılıq verməyib deyir: «Sən hələ ziyarət səfəri üçün çox gəncsən və unutma ki, Allah-təala buyurmuşdur ki, hökmdarlar üçün ən üstün zəvvarlıq haqq və ədalətdir». (1, 261)

Belə misalları çox gətirmək olar. Gördüyümüz kimi, əsərin hər bir hissəsində haqqa, ədalətə, doğru-dürüstlüyə xüsusi qiymət verilıir. İstər hökmdarların, istər hər hansı bir insanın hər işdə doğru-düzgün davranışı çox yüksək qiymətləndirilir.

İstifadə olunmuş ədəbiyyat

1. Əbubəkr ibn Xosrov əl-Ustad. Munisnamə. Bakı- 2021 764səh.
2. Əlyar Səfərli, Xəlil Yusifli.Azərbaycan Ədəbiyyatı Tarixi, Bakı-2008.695səh. s.147,148
3. Rafiq Əliyev. Ədalətlilik şüuru dəyişən güclü amildir. 525-ci qəzet.-2016.- 23 aprel.- S.10
4. Ramil Əliyev.Azərbaycan şifahi xalq ədəbiyyatı (Müasir aktual problemlər) Bakı-2014. 349səh.
5. R.Rzayeva. Əbubəkr ibn Xosrov əl-Ustadın Munisnamə əsəri. Bakı-2016. 195səh. s. 68-69
6. https://bakuresearchinstitute.org/edalet-anlayisi-barede-2/
7. https://dergipark.org.tr/tr/download/article-file/1792881

Понятие «Справедливость» в Муниснаме Абубакра ибн Хосрова аль-Устада

доц.Рзаева Р. Н.

Резюме

Справедливость – это философское понятие, имеющее большое значение как с морально-правовой, так и с политической точки зрения. Помимо того, что это одна из важнейших тем этики и политической философии, справедливость — это понятие, на основе которой, даже люди, не вовлеченные в данный тренинг, время от времени используют его и выражают через него мнения об окружающем. Задают вопросы и определяют свое поведение на его основе.

Принцип справедливости, имеющий особую ценность и значение в обществе, всегда находил свое отражение в художественной литературе.

Обладая энциклопедическими знаниями, широким кругозором и глубоким умом, Низами Гянджеви в своих произведениях продвигал многие гуманистические идеи. Поэт открыл своим творчеством новую эпоху и новую страницу в мировой литературе. Она широко осветила художественное, эстетическое, нравственное, философское мышление народов Востока. Среди этих человеческих вопросов идея справедливости и справедливого правителя отразилась во всех его творениях как
ведущая линия творчества гениального поэта.

С этой точки зрения интересен и труд «Муниснаме» Абубакра ибн Хосрова ал-Устада, который был современником и другом поэта. Это произведение, будучи дидактическим и художественным, освещает многие идеи своего времени, одной из которых является тема «справедливости». В условно разделенной на две - дидактическую и художественную часть «Муниснаме», тема "справедливости" затрагивается как в дидактической, так и в художественной частях этого произведения.

Ключевые слова: справедливость, справедливый правитель, Низами, Абубакр ибн Хосров аль-Устад, нрав, этика

THE CONCEPT OF "JUSTICE" AND ITS PLACE IN THE 5ABUBAKR IBN KHOSROW'S "MUNISNAMA" OF AL-USTAD

R. N. Rzayeva.

Summary

Justice is a philosophical concept of great importance both from a moral and legal point of view, as well as from a political point of view. In addition to being one of the most important topics of ethics and political philosophy, justice is a concept that even people who are not involved in this training use from time to time, express opinions about their environment through it, ask questions and

determine their behavior based on it.

The principle of justice, which has a special value and significance in society, has always been reflected in fiction.

Nizami Ganjavi, who has encyclopedic knowledge, broad outlook, and deep intelligence, promoted many humanistic ideas in his works. The poet opened a new era and a new page in world literature with his creativity. It has widely illuminated the artistic, aesthetic, moral, philosophical way of thinking of the peoples of the East. Among these human issues, the idea of justice and a just ruler was reflected in all his creations as the leading line of the genius poet's creativity.

From this point of view, the work "Munisname" by Abubakr ibn Khosrov al-Ustad, who was a contemporary and friend of the poet, is also interesting. This work, being didactic and fictional, illuminates many ideas of its time, one of which is the theme of "justice". Conditionally divided into two - didactic and artistic parts, the theme of "justice" is touched upon in both didactic and artistic parts of this work.

Key words: justice, just ruler, Nizami, Abu Bakr ibn Khosrow al-Ustad, morality, ethics

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: «İran filologiyası» şöbəsinin müdiri, fil.ü.f.d.,dos. G.V.Verdiyeva tərəfindən çapa tövsiyə olunmuşdur

ƏFƏNDIYEVA NAİRƏ PÜNHAN QIZI
Bakı Dövlət Universiteti
Ünvan: Akademik Zahid
Xəlilov küçəsi 33

ALBERTO MORAVİANIN HEKAYƏLƏRİNİN BƏDİİ XÜSUSİYYƏTLƏRİ

Xülasə

A.Moraviyanın orijinal istedadı və bədii məharəti ədəbiyyatın müxtəlif janrlarında üzə çıxmışdır. Lakin həyat fəlsəfəsini, yazıçının müasir insana baxışını öz yazılarında ən dolğun şəkildə əks etdirməyə imkan verən forma qısa hekayələr idi. A.Moraviyanın hekayələri çox rəngarəngdir: onların bəziləri dinamik və ifadəlidir, bəziləri elastikdir, hekayənin mərkəzində isə həmişə özünəməxsus xarakteri və mentaliteti ilə seçilən qəhrəman dayanır. Müəllif oxucunu biganə qoymur. Hekayələr oxucuya təxəyyülünü işlətməyə, səbirli araşdırmağa şərait yaradır. O, həyatı boyu yüzdən çox hekayə yazmışdır. Əsərdə qəhrəmanların tipləri səciyyələndirilmişdir. Personajları öyrənmək yazıçının tədqiqatçılığında ən çətin problemlərdən biridir. Xarakter sistemi dəyişkəndir, süjet boyunca dəyişir. Lakin obrazın xarakteristikası digər personajlar sistemində daha rahat şəkildə üzə çıxır.

Açar sözlər: Alberto, italiya ədəbiyyatı, hekayə, bədii, psixoanaliz

GİRİŞ

Alberto Moravia 28 noyabr 1907-ci ildə Romada doğulmuşdur. Doqquz yaşında sümük vərəminə tutulan Alberto xəstəlik səbəbilə 18 yaşına qədər müxtəlif sanatoriyalarda müalicə almışdır. Bu illərdə yaşıdları ilə vaxt keçirmək yerinə kitablar oxuyan, Alman və Fransız dillərinə yiyələnən gənc 16 yaşında ikən "Biveclər" romanını yazmışdır. Əsəri 1925-ci ildə bitirsə də, 4 ildən sonra çap etdirə bilmişdir. Maraqlısı odur ki, gənc yazar bu əsəri çapa verəndə "Pinşole" soyadını deyil, "Moravia" təxəlləsü ilə imza atmışdır. Əsər beşinci nəşrindən sonra qadağan edilsə də, buradakı pul, hərislik və s. məsələlər, demək olar ki, bütün əsərlərinə yansımışdır. Onun uydurma Mərkəzi Amerika diktatorunu təhqir edən "Maskalılar" romanı İtaliya hersoginyası Bonito Mussolininin prototipi kimi qiymətləndirildiyi üçün Moraviaya həmin əsərin ikinci nəşri qadağan edilmişdir.

İtaliyaya qayıtdıqdan sonra Moravia "Yalan" (1937) adlı hekayələr toplusunu nəşr etdirmişdir. Bu hekayələr toplusunda XX əsrin əvvəllərində İtaliyadakı siyasi məsələlər dolayı yolla əks etdirilmişdir.

Elə həmin il Moravia orta təbəqənin problemlərindən bəhs edən "Aqostino" və "Üsyan" adlı qısa romanlarını yazmış və bu əsərlərdə psixoanalizdən istifadə etmişdir. 1943-cü ildə Mussolininin faşist hakimiyyətini qurduğu illərdə "təxribatçı şəxs" kimi qələmə verilən müəllif mühakimə olunanlar siyahısına salınmışdır. O,

həbs olunmamaq üçün həyat yoldaşı Elza Morante ilə dağlara qaçmış və 9 ay orada gizlənməli olmuşdur. Moravia-Morante cütlüyü 1944-cü ildə Romanın azad edilməsindən sonra şəhərə qayıda bilmişdir. 1944-cü ildə Almaniyanın işğalı zamanı yazılan "Epidemiya" adlı hekayələr toplusu nəşr olunmuşdur.

Yazıçı bu "səyahəti" haqqında yazmışdır: «Bu, mənim həyatımın ən pis illəri idi və o illəri heç zaman həyəcansız xatırlaya bilmirəm» (4). Alberto Moravia dünya xalqlarının dillərinə çevrilən "Həyat oyundur", "Çoçara", "İntervyu", "Diqqət" və digər məşhur əsərlərin müəllifi kimi tanınır. İtalyan yazıçı, novella ustası, jurnalist Alberto Moravia 1990-cı ildə Romada vəfat etmişdir.

Alberto Moravia XX əsr Avropa ədəbiyyatının görkəmli hekayə ustası kimi də adını yazdırmışdır.

ƏSAS HİSSƏ

Dilimizə Etimad Başkeçid və Mahir N. Qarayev tərəfindən tərcümə edilən Alberto Moravianın "Çoçara" romanı, eləcə də "Roma hekayələri" silsiləsindən olan "Mario", "Dostluq", "Bədxərc", "Təlx ovqat", "Bürkü zarafatları", "Kötük", "Körpə", "Roma sikkəsi", "Dublyor" kimi otuza yaxın hekayəsi kitab halında 2018-ci ildə çapdan çıxmışdır. "Çağdaş İtaliya ədəbi məktəbinin tanrısı" adlandırılan Moravianın hekayələri özünəməxsus üslub xüsusiyyətləri və dərin məzmunu ilə səciyyələndirilmişdir.

Hekayələrin çoxu gündəlik məişətdən, İtaliyanın XX əsrdəki vəziyyətindən, yeniyetməlik hisslərindən bəhs edir. Demək olar ki, hekayələrinin 90 faizində baş obraz müəllifin özüdür. Əksər hekayələrində mürəkkəb və zərif hissli, ləyaqətli düşüncəyə malik, yalnız öz şəxsi həyatını deyil, qarşısındakı insanları da düşünən, həssaslığı ilə seçilən baş obraz başına gələn əhvalatları nəql edir, duyğu və düşüncələrini paylaşır.

Alberto Movarianın hekayələrinin bir sıra spesifik cəhətləri var. Yazıçı hekayə başlayan kimi obrazların səciyyəvi xüsusiyyətlərini açır. Məsələn, "Xoş keçən məclis" əsərinin girişində obrazlar haqqında məlumat verir:

"Aramızda iki qadın vardı – Amilkarenin arvadı Adele, bir də onların Terndən Romaya qonaq gəlmiş qohumu Cemma. Dörd kişi də biz idik – Amilkare, Remo, Sirio və mən. Birinci səhvimiz onda oldu ki, məclisə Sirionu da dəvət etmişdik, onda mədə xorası vardı və çox sinirliydi, hər xırda şeyin üstündə əsib-coşmağa hazır idi. İkinci səhvimiz onda idi ki, restoran seçməyi Amilkarenin öhdəsinə buraxmışdıq. Üç nəfərin hesabını ödəməli olduğundan qabaqcadan bilməliydik ki, Amilkare belə böyük xərcə düşmək istəməz" (4). Artıq müəllif oxucuya Sirionun əsəbiliyi, Amilkarenin xəsisliyi ilə bağlı məlumat verməklə xəbərdarlıq edir. Əsərin sonunda da konflikt məhz Sirionun kobudluğu, Amilkarinin xəsisliyi sayəsində baş verir.

Movarinin ustalığı bir də ondan ibarət idi ki, mövzusu məişətdən götürülksə də, bəsit bir mövzu kimi görünsə də, orada dərin mətləblərin yatır. Müəllifin "Avtomat" (1963) hekayələr toplusundan götürülən "Sən yatmışdın" novellasında ata və ananın

davranışı fonunda Cirolamonun davranışlarının şahidi oluruq. Ana tənbəl, ata isə diqqətsizdir. Hər ikisini də birləşdirən cəhət odur ki, vecsizdilər. Qrifon üçün ağlayan, onun dərdinə yanan övladın acısını heç biri duya bilmir. Axırda Cirolamo söz tapa bilmir və "Sən yatmışdın" cümləsi ilə valideynlərini ittiham edir. Bu günahlandırma, əslində, xalqın problemlərə göz yuman təbəqəsinə ünvanlanmışdır. Valideynlər, övlad və xidmətçi arasında olan dialoqda cəmiyyətin duyğusuz, etinasız təbəqəsi ilə üz-üzə qalırıq:

"Bəlkə, kimsə gəlib onu aparıb?

- Xeyr, ancaq qaydaya görə tələb olunan üç gün, hələ üstəlik iki gün də keçdiyinə görə biz... Görünür, sarışın cavabı yüngülləşdirməkdən ötrü münasib sözlər axtarırdı, ancaq sonra fikirləşdi ki, düzünü desin:

- Biz onu qaz kamerasına göndərmişik.

- Axı biz demişdik ki, onun dalınca gələcəyik!

- Haqlısız, sinyora, demişdiniz, ancaq sonra gəlib çıxmadınız. Bizdə isə qayda belədir...

- Həftədə neçəsini məhv edirsiniz ki? - deyə ata sarışına yaxınlaşaraq əlindəki siqaret qutusunu ona uzatdı. Sarışın təşəkkür edib bir siqaret götürdü, onu qulağının ardına taxıb dedi:

- Belə də, həftədə onunu, on beşini. - Cirolamo heç nə anlamırdı. Nəhayət, o, dərin bir həyəcanla anasından soruşdu:

- Ana, qaz kamerası nəyə deyirlər?

Ana əvvəlcə tərəddüd etdi, sonra quru, nəsihətamiz bir tərzdə dedi:

- Sahibsiz itlər quduzluq yaya bilərlər, bu isə çox qorxulu xəstəlikdir. Ona görə də belə itləri qaz kamerasına yerləşdirirlər və onlar orada əzab çəkmədən ölürlər.

- Deməli, qara qrifon da ölüb?

Ata əlini oğlunun çiyninə qoyub dedi:

- Belə görünür ki, o da" (2).

Alberto Movarinin qəhrəmanları real həyatdandır. Bu qəhrəmanlar bəzən cəmiyyətin naqisliklərı ilə döyüşə atılır, bəziləri isə elə nöqsanlı tərəfdə dayanırlar. Onun qəhrəmanları vasitəsilə yaratdığı xarakterlərin fərdi və ümumi cəhətləri vasitəsilə oxucu insan təbiətinin, müasir bəşər övladının taleyini, dinamik inkişafının şahidi olur. Müəllif qəhrəmanını təkcə müsbət qəhrəman kimi təlqin etmək fikrindən uzaqda dayanır. Vəziyyətdən asılı olaraq, həmin qəhrəman birdən-birə mənfi mövqedə də dayana bilər. Alberto Movarinin əsərlərinin çoxunda baş qəhrəman müəllifin özü olur. Bununla belə, müəllif qəhrəmanını, yəni özünü qorumağa, yaxşı göstərməyə çalışmır. Bəzən mövqesiz dayansa da, bəzən isə açıq fikirlərini bildirir. Bəzən isə cəmiyyətin nöqsanlı tərəfləri ilə eyni yerdə dayanır.

"Püşk" hekayəsində baş obraz müəllifin özüdür. Əsərdə İtalyan yeniyetmələrinin pulsuzluğunu, sərgərdanlığını görürük. Alberto Movari İtalyan gənclərini hekayələrində əks etdirməklə gəncliyin nöqsanlı tərəflərini tənqid edir. Əsərdə baş obraz harada dayananacağını çaşdırır, gah hamı tərəfindən sevilən qaraşın

qızın yanında olur, onun hiyləsinə etiraz etmir. Bəzən də içindəki vicdan hissi baş qaldırır, sarışın qızın ürəyini alır. Lakin sonda ehtirasının qurbanı olaraq qaraşın qızla heç bir etiraz etmədən gedir.

Müəllif obrazların ehtiras, sevgi hislərini də ustalıqla qələmə alır, düşüncələrini sadə dillə oxucuya çatdırır, bununla belə, hiss etdirə də bilir:

"O, mənə geyinməyi, düşünməyi, həyatdan zövq almağı öyrətdi. Mən bu mənalı həyat üçün ona çox borcluyam. Doktor Albertoya qədər mən ağacın, günəşin, buludun, sevginin, piyada gəzməyin nə olduğunu bilmirdim. Doktor Alberto mənə düşünməyi, hiss etməyi öyrətdi. O, əsl kişi idi. Yerişi, oturuşu, danışığı, əsəbləşməyi, su içməyi o qədər gözəl idi ki, Doktor Albertoya vurulmamaq mümkün deyildi. Hər bir işi həvəslə, diqqətlə görürdü. Ciddiliklə mehribanlığı özündə birləşdirə bilmişdi. Hər kişi belə olmur. Doktor Alberto tamam başqa kişi idi, eləsini bir də görmədim..." (6). "Bir gözəlliyin qürubu" əsərində obraz ağızdolusu platonik sevgisindən bəhs edir. Sonra müqayisə nəticəsində aydın olur ki, qadın cavanlığında qarşılıqsız sevməmişdir.

Çox sadə və anlaşıqlı cümlələrlə oxucuda həyəcan yaradan müəllif obrazın kədərini daha həssasiyyətlə çatdırır: "Alberto, o, heç mənimlə danışmaq istəmirdi. O, heç məni dinləmirdi. Əgər çox yox, iyirmi il əvvəl olsaydı o, saatlarla mənlə danışardı. Həyat belədi. Nə qədər ağır olsa da, bu acı həbi udmalıyıq. İyirmi il əvvəl kişilər mənimlə söhbət edəndə həzz alırdılar, bu gün həkimim heç mənlə danışmaq istəmədi..." (6). Bu hekayədə psixoanalizmdən istifadə edən müəllif qadının obrazının üstündə psixoanalitik təhlillər aparmışdır.

"Epidemiya" hekayələr toplusunda Moraviya yaradıcılığının əsas xarakterik cəhətini - əxlaqlılığını görürük. Moraviya proqramlaşdırılmış burjua yazıçısı kimi çıxış etmişdir. Bununla da burjua cəmiyyətini tənqid edir, onun çatışmazlığımı pisləyir. Yazıçı burjuaziyanın mənəvi əsaslarını qorumaq, müdafiə etmək istəyir: demokratiya, din, azadlıq, vətənpərvərlik, ailə və s. xilas etmək üçün əlindən gələni etmişdir. O, Freydə və Marksa böyük hörmət edərək onların nəzəri fikirlərindən bəhrələndiyini açıq etiraf etmişdir.

XX əsrin əvvəllərində başlayaraq, psixoanaliz psixi pozuntuların, nevroz xəstələrinin müalicəsi zamanı istifadə olunan tibb metodu dar çərçivəsini aşmışdır. Bu da mədəniyyət hadisəsinə çevrilərək bir çox yazıçıların əsərlərinə keçmişdir. Mənəvi və mədəni həyatın bir çox sahələrin dərindən tədqiqinə şərait yaradan psixoanaliz nəzəriyyəsinin əsas müddəaları və ideyaları Albertonun hekayələrinin təhlilində, yaradıcılıq motivlərinin üzə çıxarılmasında, personajların psixologiyasının açılmasında istifadə olunmağa başlanmışdır.

Müəllif bir çox hekayələrində bədii təsvir və ifadə vasitələrindən məharətlə edir. Özünü "Yük maşınının sürücüsü" adlı hekayəyə prototip olaraq seçən müəllif xarici görkəmini belə təsvir edir:

"Mən arıq və əsəbiyəm; əllərim çöp kimi, ayaqlarım uzun və nazikdir, qarnım isə, az qala, belimə yapışıb, şalvar əynimdə güclə durur. Bir sözlə, mən yük maşını

sürücüsünə qətiyyən oxşamıram. Siz bir onlara diqqət yetirin: hamısı sağlam, enlikürək cavanlardır; əlləri yükdaşıyanlarınkı kimidir, nəinki sinələri, hətta qarınları da əzələlidir. Çünki yük maşınının sürücüsündən ötrü, ən başlıcası – əl, kürək, bir də qarındır. Möhkəm əllər – diametri qolların uzunluğundan azacıq gödək olan sükanı hərlətmək üçündür, dağ yollarında hərdən sükanı tam şəkildəmfırlatmaq lazım gəlir; kürək – ondan ötrüdür ki, quruyub qaxaca dönmədən saatlarla eyni vəziyyətdə qalmağa dözə bilsin; o ki qaldı qarına – hə, qarın gərək oturacağa möhkəm mpərçimlənib, onunla nə cürsə vəhdət təşkil eləsin. Bunlar fiziki göstəricilərə aiddir. Öz xarakterimə görə isə mən bu iş üçün daha az yararlıyam. Yük maşınının sürücüsü sinirsiz olmalıdır; o, kənar şeylər barəsində düşünməməli, heç nəyin dərdini, qayğısını çəkməməlidir" (1,363). Əvvəlcə qəhrəmanın xarici görkəmindən bəhs edən müəllif xarakterin önəmli olduğunu vurğulayır. Bir anda xarici görkəm unudulur, xarakter ön plana çıxır.

Yazıçının ən son hekayə topluları olan "Cənnət" (1970) , "Başqa həyat" (1973), "Bo" (1976) kitablarında İtaliyadakı müasir insan həyatı: saxtakarlıq, yalançı insanlar, xırda burjuanın qanunauyğunluqları, xalq adət-ənənələri və s. canlandırılmışdır. Son hekayələrinin qəhrəmanları həyatın burjua əsaslarına qarşı üsyan edir, ögeyləşmənin yaratdığı problemlərdən çıxmağa çalışır, çıxış yolları axtarır, reallıqla itirilən əlaqəni bərpa etməyə çalışırlar.

NƏTİCƏ:

Movari hekayələrinə diqqət yetirmək, italyan hekayəçiliyinin yeni yüksəliş mərhələsinin xüsusiyyətlərini, səciyyəvi cəhətlərini öyrənmək nöqteyi-nəzərindən daha maraqlıdır. Bədii sözə yeni, sağlam estetik münasibətlər formalaşdırmaq və cəsarətli sənət mövqeyindən çıxış etmək, sənətkar mövqeyini qabaqcıl estetik meyarlarla işıqlandırmaq yazıçının səmərəli yaradıcılıq axtarışlarından qaynaqlanır. Hekayə poetikasının zənginliyi yazıçının mühüm yaradıcılıq vəzifəsindən və məsuliyyətindən irəli gəlir. Yüksək yazıçı mədəniyyətinin təzahürü eyni zamanda onun yaradıcılıq simasını təyin edir. Reallığı konkret zaman konteksində qavrayıb mənalandırmaq, hadisələrin ictimai məğzinin məna və əhəmiyyətinin bədii inikasını vermək yazıçının ədəbi görüşlərinə və konsepsiyasına uyğun olduğuna görədir.

Эфендиева Наира Пюнхан кызы

ХУДОЖЕСТВЕННАЯ ХАРАКТЕРИСТИКА РАССКАЗОВ АЛЬБЕРТО МОРАВИА

Резюме

Самобытный талант и художественное мастерство А.Моравиа раскрылись в разных жанрах литературы, но именно небольшой рассказ стал той формой, которая позволила наиболее полно отразить философию жизни, взгляд писателя на современного человека в его связях с окружающим миром.

Рассказы А. Моравиа очень разнообразны: одни из них динамичны и экспрессивны, другие – элегичны, а в центре повествования - всегда герой с его неповторимым характером и складом души. Он может нравиться или нет, но, как правило, не оставляет равнодушным читателя. Рассказы, его привлекала деловитость и собранность, недосказанность, позволяющая читателю положиться на свою фантазию. За свою жизнь он написал более ста рассказов. В нашей работе мы определили типы героев А.Моравиа. Изучение персонажей является одной из наиболее трудных проблем в исследовании творчества писателя. Система персонажей выступает одним из способов выражения идейного и художественного замысла автора. Персонаж в художественном произведении существует не сам по себе, а в системе отношений с другими персонажами.

Ключевые слова: Альберто, итальянская литература, рассказ, художественная литература, психоанализ.

Afandieva Naira

ARTISTIC CHARACTERISTICS OF THE STORIES OF ALBERTO MORAVIA

Summary

The original talent and artistic skill of A. Moravia was revealed in various genres of literature. But short stories were the form that allowed to reflect the philosophy of life, the writer's view of modern man in the most complete way in his writings. A. Moravia's stories are very colorful: some of them are dynamic and expressive, some are flexible, and at the center of the story there is always a hero distinguished by his unique character and mentality. The author does not leave the reader indifferent. Stories allow the reader to use his imagination and patiently research. He wrote more than a hundred stories during his life. The types of heroes are characterized in the work. Studying characters is one of the most difficult problems in a writer's research. The character system is variable, changing throughout the plot. But the characterization of the character is more easily revealed in the system of other characters.

Keywords: Alberto, Italian literature, narrative, art literature, psychoanalysis.

ƏDƏBİYYAT:

1. Moravia Alberto. Çoçara [Mətn] : (roman və hekayələr) Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 2018. 598 s.
2. Püşk.https://aydinyol.aztc.gov.az/newsview/1898/Alberto-Moravianin-hekayesi
3. Sən yatmışdın. https://edebiyyat.az/proza/757-alberto-moravia-sen-yatmisdin-hekaye.html

4. Xoş keçən məclis. https://aydinyol.aztc.gov.az/newsview/1252/Alberto-Moravianin-hekayesi
5. İdeal cinayət. https://ann.az/az/e-kitab-alberto-moravia-ideal-cinayet-hekaye/
6. Bir gözəlliyin qurbanı. https://kayzen.az/blog/yazar/14250/hekay%C9%99-bir-g%C3%B6z%C9%99lliyin-q%C3%BCrubu.html#cut
7. Моравиа Альберто. Рассказы. Пер. с ит./Сост. JI. Вершинина. Вступ. статья Г. Смирнова. — М.: Худож , 1981, 414 с.
8. Моравиа Альберто // Большая советская энциклопедия (rus.): [в 30 т.]. / под ред. А. М. Прохоров 3-е изд. Москва: Советская энциклопедия, 1969, 256 с.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Sevinc Məmmədova Tələt qızı
tərəfindən çapa tövsiyə olunmuşdur

GÜNAY SÜLEYMANOVA ŞAKIR
ADU
Rəşid Behbudov küç. 134

DANİEL KİZ VƏ ONUN ELMİ FANTASTİK ƏSƏRLƏRİ HAQQINDA

Xülasə

Məqalədə D.Kiz və onun elmi fantastik əsərləri haqqında məlumat verilir. D.Kiz Amerikanın məşhur yazıçılarından hesab olunur.

Daniel Kiz son zamanlarda əsərləri tədqiqata çəlb olunan yazıçılardan biridir. Yaxından tanımaq üçün onun haqqında qısa məlumat verək.

D.Kiz 1927-ci ildə Amerikanın New York şəhərində doğulub. Əsli yəhudi olan bu şəxs New York universitetini bitirib. İş həyatına yerli bir jurnalda başlayan Kiz bir müddət sonra başladığı vaxt "Marvel Science Stories" jurnalının redaktoru olur. Redaktor olduğu vaxtdan sonra o, həmin jurnal üçün hekayələr yazmağa başlayır. Bir qədər sonra o, baş redaktor və sənət direktoru S.Linin rəhbərliyi altında "Atlas" jurnalının köməkçi redaktoru oldu. O, yenə də jurnallar üçün məqalələr yazmağa davam edirdi [11, s. 9].

D.Kiz Ueyn Dövlət Universitetində akademik yazıdan dərs deyirdi və 1966-cı ildə Ohayo Universitetində ingilis dili və yaradıcı yazı professoru oldu, 2000-ci ildə fəxri professor adına layiq görüldü.

D.Kiz 2014-cü ildə Boka Ratondakı evində sətəlcəmdən yaranan ağırlaşmalar səbəbindən vəfat etmişdir. 1952-ci ildə evləndiyi həyat yoldaşı A.C. Vazquez 2013-cü ildə vəfat etmişdi. Onların iki qızı var idi [1, s. 2].

Açar sözlər: *Daniel Kiz, roman, elmi, fantastik, çox satılan*

D.Kizin bir sıra məşhur əsərləri:

1) *Flowers for Algernon (novel);*
2) *The Touch;*
3) *The Fifth Sally;*
4) *The Minds of Billy Milligan;*
5) *Unveiling Claudia;*
6) *The Milligan Wars;*
7) *Until Death;*
8) *The Asylum Prophecies* [2]*;*

Onun ən çox tanınan və nüfuz qazanan əsərlərindən "Algernon üçün çiçəklər" əsərini göstərmək olar.

D.Kizin yaradıcılığı maraqlıdır. Onun məşhur əsərlərindən biri "Flowers for Algernon" (Algernon üçün çiçəklər) adlanır. Əsər 1966-cı ildə nəşr olunduqdan sonra beş milyon nüsxədən çox satılmışdı və elmi fantastika romanı idi. Əsər əslində

novella şəklində yazılan roman idi. Əsər Çarli Qordon adlı əqli qüsurlu insanı dahiyə çevirən elmi təcrübənin faciəvi hekayəsindən bəhs edir [12].

Roman D.Kizin sevimli romanı idi və o, 27 fərqli dilə tərcümə edilmiş, ingilis dili dərslərində tədris olunmuş və saysız-hesabsız tələbələrə öyrədilmişdir [3, s. 11].

D. Kizin orada keçirdiyi bu mühüm vaxtın şərəfinə qızları Hillari və Lesli Kizin səxavətlə "Wayne State" ingilis dili tələbələri üçün bir neçə təqaüd təyin etdilər.

"Algernon üçün çiçəklər" adlı roman Nyu York Universitetində əsas ixtisas olaraq uzun bir tarixə malikdir.

"Algernon üçün çiçəklər" adlı roman Ç. Gordon adlı bir adamın xarakter araşdırmasıdır. Çarli 32 yaşlı inkişaf qüsuru olan bir kişidir və onun əqli imkanlarını kəskin şəkildə artıracaq cərrahi əməliyyat keçirmə imkanı var. Bu prosedur artıq laboratoriya siçanı Algernon üzərində aparılıb və əla nəticələr əldə edilib. Çarli ilk insan mövzusu olacaq. Hadisələr inkişaf etdikcə Çarli başına gələn hər şeyi sənədləşdirir. Çarlinin intellekti yüksəldikcə, oxucu təkcə Çarlinin nöqteyi-nəzərindən dəyişiklikləri oxumur, həm də Çarlinin yazı qabiliyyətinin dəyişməsini görür. Bununla belə, zəkada bu sıçrayış mütləq yaxşı bir şey kimi nəzərdə tutulmur. Çarli indi həyatını formalaşdıran keçmiş hadisələri xatırlaya bilir və keçmiş dostluqlarını olub-olmadığını təhlil edə bilir. Cərrahiyyə əməliyyatının nə düzəldə bilməyəcəyi, nə də təxmin edə bilmədiyi sosial intellekt çatışmazlığı səbəbindən yeni dostluqlar qurmaqda və yeni əlaqələr qurmaqda da çətinlik çəkir. Və nəhayət, artan intellektə görə, Çarli eksperimentin "ölümcül qüsurunu" kəşf edə bilir və dahi ilə qısa döyüşündən gələcək üçün nəyisə xilas etmək ümidi ilə həm Algernon, həm də özü üçün sonunu seyr etməyə məcbur olur [4].

İlk əvvəl 1959-cu ildə "The Magazine of Fantasy and Science Fiction" (Fantaziya və Elmi Fantastika Jurnalı) üçün qısa hekayə kimi nəşr olunan D. Kizin "Algernon üçün çiçəklər" əsəri 1960-cı ildə "İlin ən yaxşı elmi fantastika romanı" nominasiyasında Hüqo mükafatına layiq görülmüşdü. Hekayə daha sonra 1961-ci ildə ABŞ-ın Polad Saatında (Steel Hour) "Çarli Qordonun iki dünyası" kimi yayımlandı. D.Kiz "Algernon üçün çiçəklər"in qısa hekayəli versiyasını yenidən işlədi və əsər ilk tammetrajlı romanına çevirdi. Əsərin roman versiyası 1966-cı ildə nəşr olundu və Nebula Mükafatını (Amerikanın Elmi Fantastika Yazıçıları tərəfindən ilin ən yaxşı romanı) qazandı. K. Robertson, kitabın 1968-ci il film versiyası olan "CHARLY" (Çarli) filmində Ən Yaxşı Aktyor nominasiyasında Akademiya Mükafatını qazandı. Kitab həmçinin Londonda, Vaşinqtonda və Broadveydə nümayiş etdirilən Çarli və Algernon adlı dramatik musiqiyə çevrildi [5, s. 14].

"Algernon üçün çiçəklər" əsəri birinci şəxs rəvayətində yazılmışdır. Bu texnika əsas xarakterdə baş verən dəyişiklikləri həm daxili, həm də xarici səviyyədə aydın göstərməyə imkan verir. Ç. Qordon — eksperimentin baş qəhrəmanı və mövzusu — bu povestlərin müəllifidir; oxucu həyata Çarlinin gözü ilə baxır. Onun

inkişaf edən sintaksisi və orfoqrafiyası oxucuya Çarlinin inkişafının qrafikini göstərməyə imkan verir.

Qeyd edək ki, 1960-cı illərin ortalarında yazılmış roman, əsasən Nyu-Yorkda baş verir. Romanda siyasi yanlışlıq hissi doğuran bir sıra sözlərdən istifadə edilir ki, bu da kitaba aid olan yeganə aşkar xüsusiyyətdir. "Algernon üçün çiçəklər"i elmi fantastika parçası kimi təyin etmək onun bu janrı oxumaq istəməyən bir çox oxucu üçün cəlbediciliyini məhdudlaşdırır. Bununla belə, elmi fantastika etiketi doğrudur, çünki hekayənin əsas prinsipi hekayə yazıldığı zaman mümkün olmayan cərrahi prosedurlar vasitəsilə insanın zəkasını fövqəlbəşəri nisbətlərə dəyişdirir. Bu tərif həmişə elmi fantastika təşkil etməsə də, bu roman üçün bunu edir.

"Algernon üçün çiçəklərin" əsas mövzularından biri insanın Allahı Oynaması və çox yüksəklərə qalxması təhlükəsi və yaxud qeyri-münasibliyidir. Kitabdakı bir neçə personaj, o cümlədən Çarli bu mövzunu gündəmə gətirir ki, bu da kitabın hər hansı təhlilinə daxil edilməlidir. Dostluq, qəbul edildiyi və verildiyi kimi, onun əhəmiyyəti də təkrarlanan başqa bir mövzudur. Üçüncü, əsərin güclü sujeti insan zəkasının rolu və tərifi ətrafında fırlanır. Çarli ağıllı olmadan əvvəl insan idi; onun zəkasının öz insanlığına, başqaları ilə rəftarına və başqalarının ona qarşı rəftarına necə təsir etdi? Zəka onu özü ilə və digər insanlarla münasibətdə az-çox "insan" etdi? Eyni əməliyyatı keçirən və Çarlinin ən çox əlaqəsini hiss etdiyi Algernon siçandır. Algernon Çarlinin insanlığı ilə necə əlaqəsi var? Oxuyanlar romanı oxuyarkən bu sualları yadda saxlamalı və onlara cavab verməyə çalışmalıdırlar.

"Algernon üçün çiçəklər" əsərində insan münasibətlərinə də toxunulur. Burada təsvir olunan münasibət bir güc və insanın ən dərin mənliyinin ifadəsi kimi qəbul etməyin daha yüksək səviyyəsinə insan münasibətinin şəxsiyyətə inteqrasiyasının vacibliyindən də bəhs olunur. Bu mövzuların altında "ailə dəyərləri" kimi mühüm məsələ dayanır. Anası və atası tərəfindən emosional zorakılığa məruz qalan və tərk edilmiş, indi Çarli üçün "ailə" nədən ibarətdir? Əsərin qəhrəmanı kitab boyu valideynlərini sevindirmək arzusunu inkişaf etdirir [4, s. 14].

Bildirək ki, qəhrəman çörək sexindəki iş yoldaşlarına da ailə kimi baxır və onları da sevindirmək istəyir. Doğulduğu ailə onu kifayət qədər ağıllı olmadığı üçün tərk edir; onun surroqat ailəsi çox ağıllı olduğu üçün onu tərk edir. Sonda Çarli Uorrenin Evinə qəlib çatır - cənab Donnerin Çarlini müəssisədən kənarda saxlamağa vəd etməsinə baxmayaraq - cənab Donner onu qəbul edir. Ailənin güclü təsiri və ailənin dostluqla əlaqəsi bu kitabda mövcuddur.

"Algernon üçün çiçəklər" adlı əsəri üçün ideyalar 14 il ərzində inkişaf etmişdi və Kizin həyatında baş verən hadisələrdən ilhamlandı. 1945-ci ildə Kizin yazıçılıq karyerasını davam etdirmək istəyinə baxmayaraq, onu həkiməqədər təhsilə sövq edən valideynləri ilə münaqişəsi ilə başladı. Kiz hiss edirdi ki, onun təhsili özü ilə valideynləri arasında uçurum yaradır və bu, insanın intellektini artırmaq mümkün olsaydı, nə baş verəcəyini düşünməyə vadar edirdi.

1957-ci ildə Kiz xüsusi qayğıya ehtiyacı olan tələbələrə ingilis dilini öyrədərkən mühüm məqam baş verdi və onlardan biri çox çalışsa və ağıllı olarsa, şagirdin adi sinifə (ümumi sinifə) salınmasının mümkün olub-olmadığını soruşdu. Kiz, adi dərslərdən çıxarıldıqdan sonra geriləyən başqa bir öyrənmə qabiliyyəti olmayan tələbədə də dramatik dəyişikliyin şahidi oldu. Kiz belə deyirdi: "O, məktəbə qayıdanda hər şeyi itirmişdi və oxuya bilmirdi. Bir müddət sonra o, əvvəlki vəziyyətinə qayıtdı və gördüyü vəziyyətdən ürəyi parçalayırdı".

Kitabdakı personajlar Kizin həyatındakı insanlara əsaslanırdı. Algernon personajı universitetin müəllimlərindən birinə Algernon Çarlza həsr olunub. Hekayədə zəka artıran cərrahiyyəni inkişaf etdirən elm adamları Nemur və Strauss Kizin aspiranturada oxuyarkən tanış olduğu professorlara əsaslanırdı.

1958-ci ildə "Galaxy Science Fiction" (Galaxy Elmi Fantastika) jurnalı Kizə hekayə yazmaq üçün müraciət edir və bu zaman "Algernon üçün çiçəklər" kitabının elementləri onun yadına düşür. D.Kiz əsər üzərində işləyir və hekayə Galaxy-yə təqdim edildikdə, redaktor Horace Gold Çarlinin zəkasını qoruyub saxlaması, Alice Kinnianla evlənməsi və bundan sonra da xoşbəxt yaşaması üçün sonun dəyişdirilməsini təklif etmişdir. D.Kiz dəyişiklik etməkdən imtina etdi və hekayəni əvəzində "The Magazine of Fantasy & Science Fiction" (Fantaziya və Elmi Fantastika Jurnalı)- a satdı. D.Kiz 1962-1965-ci illər arasında genişləndirilmiş roman üzərində çalışdı və əvvəlcə onu Doubleday-a satmağa çalışdı, lakin onlar da sonluğu dəyişdirmək istədilər. Yenə D.Kiz imtina etdi və Doubleday-a avanslarını geri verdi. 1966-cı ildə Harcourt tərəfindən nəşr olunana qədər bir il ərzində beş naşir hekayəni rədd etdi [6, s. 186].

D.Kizin həyatından baş verən digər hadisələr, məsələn, böyüdüyü mühit də romana təsir göstərmişdir.

D.Kiz "Algernon üçün çiçəklər" romanından sonra da əsərlər yazmağa davam etdi, lakin əvvəlki əsərinin uğuruna heç nə çata bilmədi. 2000-ci ildə Kiz "Algernon, Çarli və mən: Yazıçının Səyahəti" memuarını yazdı; burada Kiz yazı üçün istifadə etdiyi üsulları da təsvir edirdi [8, s. 79].

"Məktəb Kitabxanası Jurnalında" yazılır: "Qismən tərcümeyi-halı, qismən yazıçılar üçün təlimatı əks etdirən bu kitab müəllifin yaradıcılıq prosesinə və inkişafına maraqlı və olduqca cəlbedici baxışdır. Ona yazmaq üçün təkan və material verən uşaqlıq illərindən başlayaraq Kiz "Algernon üçün Hüqo Mükafatlı Çiçəklər" əsərinin ictimai və özəl təkamülünü roman, səhnəyə uyğunlaşma, kino istehsalı və televiziya üçün hazırlanmış əsər kimi izləmişdir. Əsərə həmçinin film də çəkilmişdir.

Bu kitab onun yazıçılıq həyatının çətinliklərini və sevinclərini dərindən izah etdirən şəxs tərəfindən nəql edilir və uzun müddətdən sonra nəşr olunacaq ən faydalı yazıçı kitabçalarından biri kimi uğur qazanmışdır".

D.Kizin son kitabı "The Asylum Prophecies" (Sığınacaq peyğəmbərlikləri) adlanırdı. Həmin kitab D.Kizin otuz illik yazım fasiləsindən sonra 2009-cu ildə nəşr olundu. "The Asylum Prophecies" minlərlə insanın həyatını gözlənilən terror

hücumundan xilas edə bilən yeganə Dissosiativ şəxsiyyət pozğunluğu (DŞP) olan intihara meyilli olan qadın haqqında psixoloji trillerdir.

"Sığınacaq peyğəmbərlikləri" əsəri "Algernon üçün çiçəklər" qədər uğurlu olmasa da, geniş populyarlıq qazandı, lakin zamanın sınağına tab gətirə bilmədi. Dünyanın dəyişməsi və psixi sağlamlıq haqqında daha çox məlumatlı olması ilə D.Kizin ruhi xəstəlik təsviri indi daha pis görünür və kitab artıq uğurlu hesab edilə bilməz [7, s. 34].

"Algernon üçün çiçəklər"in əbədi olaraq klassik sayılacağını söyləməyə ehtiyac yoxdur. O, heç vaxt çapdan çıxmayıb və bu günə qədər beş milyondan çox nüsxə satılıb və otuz müxtəlif dilə tərcümə olunub. Dünyaya belə gözəl və yaxşı yazılmış bir hekayə bəxş edən Daniel Kiz əbədi olaraq xatırlanacaqdır.

"The Touch" (Toxunma) D.Kizin əsərlərindən biridir. İngiltərənin "Guardian" qəzeti həmin əsər haqqında belə yazır: "Algernon üçün çiçək" kitabının milyon nüsxə ilə ən çox satılan müəllifindən son "Toxunma" romanı "Əsrarəngiz parlaqlığın şah əsəridir... ürək parçalayan bir əsərdir". Əsərin məzmunu həqiqətin insanın ürəyini parçalayır.

Karen və Barni Stark heç evlənməməli idilər. Uşaqsız, narahat və bir-birinə uyğun gəlməyən evlilikləri uğur qazana bilmirdi, uşaq olmaması isə aralarındakı gərginliyi daha da artırırdı. Nəhayət, həyat onların üzünə gülür və xanım hamilə qalır. Lakin bu zaman dəhşətli bir hadisə baş verir. Barninin iş yerində bir hadisə baş verir. O, bilmədən radioaktiv tozla çirklənir və onu həm qonşularına, həm də xanımına keçirir. Bundan sonra onların həyatları dəhşətə çevrilir və valideyn olmaq arzuları kabusa çevrilir...[9, s. 11].

Bu əsər də müəyyən uğur qazanır, lakin onun da uğurunu "Algernon üçün çiçək" əsəri ilə müqayisə etmək olmaz.

D.Kiz dövrünün məşhur yazıçısı idi, lakin hazırda da onun işlərinə maraq getdicə artmaqdadır. Xüsusilə onun əsərlərinin yazılmasının üslubi xüsusiyyətləri elmi tədqiqat işlərinin mövzusu üçün maraqlı tədqiqat sahəsi hesab olunur.

ƏDƏBİYYAT

1) "In Memoriam – Daniel Keyes 1927–2014". Science Fiction and Fantasy Writers of America, 2014.
2)https://www.cliffsnotes.com/literature/f/flowers-for-algernon/daniel-keyes-biography
3) Sedensky M. Daniel Keyes, novelist whose "Flowers for Algernon" is a classroom staple. UK: Routledge, 2014.
4) Keyes D. Flowers for Algernon. USA: Harcourt, 2004.
5) Ashley M. Transformations: Volume 2 in the History of Science Fiction Magazine, 2005.
6) Budrys A. "Galaxy Bookshelf". Galaxy Science Fiction. 1965, pp. 186–194.
7) Chambers R. The Play of Daniel Keyes' Flowers for Algernon. USA: Heinemann, 1993.

8) Keyes D. Algernon, Charlie, and I: A Writer's Journey. Boca Raton, FL: Challcrest Press Books. 1999, pp. 79–80.
9) Keyes D. The Touch. USA: Harcourt, 2003.
10) Langer E. “Daniel Keyes, author of the classic book ‘Flowers for Algernon,’ dies at 86”. The Washington Post, 2014.
11) Winters R. “Keyes Biography”. New York: New York University, 2009.
12) https://www.cliffsnotes.com/literature/f/flowers-for-algernon/book-summary

Süleymanova G.

ON DANIEL KEYES AND HIS SCIENTIFIC FANTASTIC NOVELS

Summary

The article provides information about D. Keyes and his scientific fantastic works. D. Keyes is considered to be one of the famous American writers.

Daniel Keyes is one of the writers whose works have been recently studied. We’d like to give some brief information about him to get to know him better.

D. Keyes was born in 1927 in New York, America. This person, who is a true Jew, graduated from New York University. Keyes, who started his working life in a local magazine, became the editor of the magazine “Marvel Science Stories” when he started after a while. After his time as an editor, he began writing stories for that magazine. A little later, he became an assistant editor of “Atlas” magazine under the leadership of editor-in-chief and art director S. Lee. He then continued to write articles for magazines.

D. Keyes taught academic writing at Wayne State University and became the professor of English and creative writing at Ohio University in 1966, and was named Professor Emeritus in 2000.

Keyes died in 2014 at his home in Boca Raton of complications from pneumonia. His wife A.C. whom he married in 1952 died in 2013. They had two daughters.

Key words: *Daniel Keyes, novel, scientific, fantastic, bestseller*

Süleymanova G.

О ДЭНИЭЛЕ КИЗЕ И ЕГО НАУЧНО-ФАНТАСТИЧЕСКИХ РОМАНАХ

Резюме

В статье представлена информация о Д. Кизе и его научно-фантастических произведениях. Д. Киз считается одним из известных американских писателей.

Дэниел Киз — один из писателей, чьи произведения недавно изучались. Мы хотели бы дать краткую информацию о нем, чтобы узнать его лучше.

Д. Киз родился в 1927 году в Нью-Йорке, Америка. Этот человек, настоящий еврей, окончил Нью-Йоркский университет. Киз, который начал свою трудовую жизнь в местном журнале, через некоторое время стал редактором журнала «Marvel Science Stories». Поработав редактором, он начал писать рассказы для этого журнала. Чуть позже он стал помощником главного редактора журнала «Атлас» под руководством главного редактора и художественного руководителя С. Ли. Затем он продолжал писать статьи для журналов.

Д. Киз преподавал академическое письмо в Государственном университете Уэйна и стал профессором английского языка и творческого письма в Университете Огайо в 1966 году, а в 2000 году был удостоен звания почетного профессора.

Киз умер в 2014 году в своем доме в Бока-Ратон от осложнений, вызванных пневмонией. Его жена АС, на которой он женился в 1952 году, умерла в 2013 году. У них было две дочери.

Ключевые слова: *Дэниел Киз, роман, научный, фантастический, бестселлер*

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: fil.f.d. Xəyalə Şahverdi qızı Əliyeva tərəfindən çapa tövsiyə olunmuşdur

TAHIRƏ FƏRMAN QIZI YUSIFOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: tahireyusifova7@gmail.com

N. GƏNCƏVİNİN YARADICILIĞINDAN NÜMUNLƏRİN ÖYRƏDİLMƏSİ PROSESİNDƏ ŞAGİRDLƏRDƏ MƏNƏVİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI

Xülasə

Yeni təhsil proqramı əsasında yazılmış "Ədəbiyyat" dərsliklərində klassik ədəbiyyata geniş yer verilmişdir. Bu da məlumdur ki, həmin dövrün ədəbi nümunələrinin tədrisi ciddi metodik hazırlıq, yüksək səriştə tələb edir. Müşahidələrdən aydınlaşır ki, hətta təcrübəli müəllimlər də müvafiq metodik kömək almayanda tədris işlərini səmərəli təşkil etməkdə çətinlik çəkirlər.

Məsələnin başqa tərəfi də var; klassik ədəbiyyat şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılmasına geniş imkan yaradan tükənməz mənbə kimi də qiymətlidir. Məhz bu cəhətin qabardılması ilə metodik yazıların hazırlanmasına, məktəbə metodik köməyin göstərilməsinə bu gün ehtiyac duyulur.

Nizami Gəncəvinin yaradıcılığından nümunələrin ümumi orta təhsil pilləsində tədrisi prosesində şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması üzrə işin təşkilinə geniş imkan yaranır. Bunun başlıca səbəbi böyük şairin əsərlərində yüksək əxlaqi dəyərlərin ifadə olunmasıdır.

N. Gəncəvinin ümumi orta təhsil pilləsində tədris edilən "Kərpickəsən kişinin dastanı" əsərinin öyrədilməsi prosesində məktəblilərdə mənəvi tərbiyənin formalaşdırılmasına imkan yaradan işlərin təşkili yolları məqalədə ətraflı şərh edilmişdir.

Əsərin məzmunu ilə bağlı qazanılmış ətraflı məlumat təhlil dərsində maraqlı, məntiqli cavabların hazırlanmasına imkan yaradır. İkinci dərsdə – təhlildə əsərin tərbiyəvi imkanları daha da qabardılır. İşin təşkili isə müxtəlif siniflərdə fərqli məzmunda olmuşdur. Hər iki halda tədqiqat sualı şagirdlərin fəal iştirakı ilə müəyyənləşdirilmişdir. Bunun üçün şagirdlərə əməklə bağlı oxuduqları əsərləri, onlarda iştirak edən obrazları xatırlatmaq təklif edilmişdir. Şagirdlərə hər iki obrazı səciyyələndirmək tapşırığı verilir. Onlara aydın olur ki, ədərin məzmunu üzrə dərsdə obrazların hər biri haqqında müəyyən təsəvvür qazansalar da, bu, onları dəyərləndirmək üçün kifayət deyildir. Bu obrazlar haqqında araşdırmanı davam etdirməyə ehtiyac vardır.

Dərslikdəki tələblərə fərqli yanaşma, orijinal tapşırıqların təklif olunması, yeni təlim texnologiyalarına müraciət məqaləndə diqqət mərkəzində saxlanılan məsələlərdəndir.

Dərsdə şagirdlərdə belə bir qənaət formalaşır ki, şair əsərdə maraqlı insan obrazları yaratmışdır. Onların hər ikisi mənəviyyatca saf insanlardır. Qoca əməksevər, qürurlu, sadə yaşamağı üstün tutan bir insandır. İkinci obraz diqqətcil, safniyyətli gənc oğlandır. Onları qarşılaşdırmaqda müəllifin məqsədi oxucularına ibrət dərsi vermək olmuşdur:

Açar sözlər: klassik ədəbiyyat, mənəvi tərbiyə, təlim texnologiyası, müzakirə, mənzum hekayə.

Tahira Yusifova

FORMATION OF SPIRITUAL EDUCATION IN STUDENTS IN THE PROCESS OF TEACHING EXAMPLES FROM THE CREATIVITY OF N. Ganjavi

Summary

Classical literature is given ample space in the "Literature" textbooks written on the basis of the new educational program. It is also known that the teaching of literary examples of that period requires serious methodical preparation and high competence. It is clear from the observations that even experienced teachers find it difficult to effectively organize teaching work when they do not receive appropriate methodical help.

There is another side to the matter; classical literature is also valuable as an inexhaustible source that creates a wide opportunity for the formation of spiritual education in students. It is necessary to prepare methodical writings and provide methodical assistance to the school by highlighting this aspect.

In the process of teaching examples from Nizami Ganjavi's creativity at the general secondary level, there is a wide opportunity to organize work on the formation of moral education in students. The main reason for this is the expression of high moral values in the works of the great poet.

In the process of teaching N. Ganjavi's "Epic of the Bricklayer", which is taught at the general secondary level, the ways of organization of work that enable the formation of moral education in schoolchildren are explained in detail in the article.

The detailed information gained about the content of the work enables the preparation of interesting, logical answers in the analysis class. In the second lesson - analysis, the educational possibilities of the work are further enhanced. The organization of work was different in different classes. In both cases, the research question was determined with the active participation of students. For this, students were suggested to recall the works they read about labor and the characters involved in them. Students are given the task of characterizing both characters. It becomes clear to them that even if they get a certain idea about each of the characters in the lesson on the content of the poem, this is not enough to value them. There is a need to continue researching these images.

A different approach to the requirements in the textbook, offering original tasks, applying to new learning technologies are some of the issues focused on in the article.

In the lesson, the students form a conclusion that the poet has created interesting human characters in the work. Both of them are spiritually pure people. The old man is hardworking, proud, and prefers to live simply. The second character is a careful, conscientious young man. In meeting them, the author's goal was to teach his readers a lesson:

Key words: classical literature, moral education, teaching technology, discussion, poetic story.

Тахира Юсифова

ФОРМИРОВАНИЕ ДУХОВНОГО ВОСПИТАНИЯ У СТУДЕНТОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ НА ПРИМЕРАХ ТВОРЧЕСТВА Н. ГЯНДЖЕВИ

Резюме

В учебниках «Литература», написанных на основе новой образовательной программы, классической литературе отводится достаточно места. Известно также, что преподавание литературных образцов того периода требует серьезной методической подготовки и высокой компетентности. Из наблюдений видно, что даже опытным учителям трудно эффективно организовать педагогическую работу, когда они не получают соответствующей методической помощи.

Есть и другая сторона дела; классическая литература ценна и как неиссякаемый источник, создающий широкие возможности для формирования у учащихся духовного воспитания. Необходимо подготовить методические работы и оказать методическую помощь школе, осветив этот аспект.

В процессе преподавания примеров из творчества Низами Гянджеви на общеобразовательном уровне имеется широкая возможность организовать работу по формированию нравственного воспитания учащихся. Основной причиной этого является выражение высоких нравственных ценностей в произведениях великого поэта.

Ключевые слова: классическая литература, нравственное воспитание, технология обучения, дискуссия, поэтический рассказ.

В процессе преподавания «Эпоса о каменщике» Н. Гянджеви, которое преподается на уровне общего среднего образования, в статье подробно разъясняются способы организации работы, позволяющие формировать нравственное воспитание школьников.

Подробная информация, полученная о содержании работы, позволяет подготовить интересные, логичные ответы на уроке анализа. На втором

занятии - анализе воспитательные возможности работы еще более усиливаются. Организация работы в разных классах была разной. В обоих случаях вопрос исследования определялся при активном участии студентов. Для этого учащимся предлагалось вспомнить прочитанные ими произведения о труде и действующих в них персонажах. Учащимся дается задание охарактеризовать обоих персонажей. Им становится ясно, что даже если они получат определенное представление о каждом из персонажей урока по содержанию стихотворения, этого недостаточно, чтобы их оценить. Необходимо продолжить исследование этих изображений.

Иной подход к требованиям учебника, предложение оригинальных заданий, применение новых технологий обучения – вот некоторые из вопросов, которым посвящена статья.

На уроке учащиеся формируют вывод о том, что поэт создал в произведении интересные человеческие образы. Оба они духовно чистые люди. Старик трудолюбив, горд и предпочитает жить просто. Второй персонаж – осторожный, добросовестный молодой человек. Встречаясь с ними, автор преподал своим читателям урок.

Nizami Gəncəvinin yaradıcılığından nümunələrin ümumi orta təhsil pilləsində tədrisi prosesində şagirdlərdə mənəvi tərbiyənin formalaşdırılması üzrə işin təşkilinə geniş imkan yaranır. Bunun başlıca səbəbi böyük şairin əsərlərində yüksək əxlaqi dəyərlərin ifadə olunmasıdır. Şairin öyrənilən ilk əsəri "Kərpickəsən kişinin dastanı"dır. Əsərin tərisinə illik planlaşdırmada iki saat ayrılmış, dərslikdə də bu saatlara uyğun material verilmişdir. Başqa sözlə, birinci saat əsərin məzmununun öyrənilməsinə, ikinci saat isə təhlil üzrə işə həsr edilir. Müşahidələrdən məlum olmuşdur ki, ümumiyyətlə "Ədəbiyyat" dərsliklərində sənətkarlarla ilk tanışlığa *epiqrafla* başlanmasına müəllimlərin çoxu diqqət yetirmir. Bu epiqraflar yazıçı və şairlər haqqında aydın təsəvvür yaradır. Onlar ya sənətkarın öz sözləri olur, ya da digər sənətkarların, yaxud elm xadimlərinin əsərlərindən seçilir. "Kərpickəsən kişinin dastanı"ı ilə tanışlığa başlamazdan əvvəl şagirdlərin diqqəti Səməd Vurğunun şair haqqındakı sözlərinə – epiqrafa cəlb edilir: "Nizaminin əsərlərində zəhmət adamlarından hörmət və məhəbbət hissi ilə danışılır. Onun əsərlərində biz bir çox zəhmət adamlarının – kərpickəsənlərin, əkinçilərin, bənnaların, çobanların, bağbanların parlaq surətlərinə rast gəlirik" [2, səh. 116].

Həmin mətnin müstəqil oxusundan sonra müəllimin aşağıdakı sualları əsasında yığcam müsahibə aparılır:

- S. Vurğuna görə, Nizami zəhmət adamlarına necə münasibt bəsləmişdir?
- Nizaminin əsərlərində hansı zəhmət adamlarından danışılmışdır?
- Nizami yaradıcıığının Səməd Vurğunun diqqətini cəlb etməsinə səbəb, sizcə, nə olmuşdur?

Müsahibənin məzmunu tərbiyəvi təsir baxımından yüksək dəyərləndirilməlidir. Onun gedişindən məlum olur ki, böyük sənətkar zəhmət adamlarını saf mənəviyyatlı,

əməksevər, humanist, başqasının əməyinə qədərincə qiymət verən, doğruçu, xeyirxah əməl sahibi kimi tərənnüm etməkdən usanmamışdır.

Dərsdə növbəti addım "Yada salın" başlıqlı sualların üzərində işin təşkili olur. Suallar aşağıdakı məzmundadır:

– İnsanların əməyə fərqli münasibətini əks etdirən hansı əsərləri oxumusunuz?
– Həmin əsərlərdə əmək və əməkçi insanla bağlı hansı fikirlər diqqətinizi daha çox çəkib?

Şagirdlərin düşünməsi üçün onlara vaxt verilir. Müəllim istiqamətləndirici suallardan da istifadə edərək şagirdlərin aşağı siniflərdə, beşinci sinifdə, eləcə də müstəqil oxuduqları əsərləri xatırlamalarına imkan yaradar. Yığcam müsahibə prosesində şagirdlər nağıllarda, yazılı ədəbiyyat nümunələrində əməyə rəğbət bəsləyən və xor baxan obrazları, onların fərqli taleyini xatırladırlar. Şagirdlər əməksevər adamların xarakter və əməllərinə görə oxucuların məhəbbətini qazandıqlarını, özlərinin də onlara rəğbət bəslədiklərini həvəslə dilə gətirirlər.

Müəllim şagirdlərin diqqətini dərslikdəki "Düşünün" başlıqlı suala (İnsanların əməyə fərqli münasibət bəsləmələrinə səbəb, sizcə, nədir?) yönləndirir və onun tələbini qısaca şərh edir:

– Əsərin öyrənimәsinə həsr edilmiş dərslərdə bu sualın üzərində düşünəcək və ona əsaslandırılmış cavab tapmağa çalışacağıq. Sonuncu dərsi tamamlayarkən cavabları müzakirə edəcəyik.

Bu məzmunda aparılan işlərdən sonra əsərin oxusuna hazırlıq həyata keçirilir. Xalq rəssamı M. Abdullayevin "Kərpickəsən kişinin dastanı" əsəri ilə bağlı hazırladığı fraqmentin dərslikdəki əksi diqqəti dərhal cəlb edir. Şagirdlər müəllimin təklifi ilə şəklin ümumi görünüşünü, obrazların necə təqdim olunduğunu nəzərdən keçirirlər. Böyük sənətkarlıqla yaradılan bu əsər obrazlar haqqında xeyli təsəvvür yaradır. Qocanın məmnun olmadığı, gəncin günahkar adam kimi duruşu şagirdlərin diqqətini cəlb edir. Bu cəhətlər müəllimin sualları ilə aydınlaşdırılır. Müəllim sinfə müraciət edir:

– İndi oxuyacağınız əsərdə, sizcə, nədən danışılır?

Fikirlər, münasibət bildirilmədən dinlənilir. Sonda şagirdlərin fəal iştirakı ilə tədqiqat sualı müəyyənləşdirilir.

Tədqiqat sualı: Qoca bir insanın ağır əməklə məşğul olmasına səbəb, sizcə, nə ola bilər?

Şagirdlərin fərziyyələri diqqətlə dinlənilir, təkrara yol verilmədən lövhədə qeyd edilir. Yalnız bundan sonra mətnin oxusuna başlanılır. Oxu fərqli formalarda həyata keçirilə bilər. Biz sınaq dərsləri apardığımız siniflərdə yeni texnologiyalardan istifadəyə üstünlük vedik. Üç bitkin hissəyə bölünmüş mənzum hekayənin ilk hissəsinin (birinci misradan "Torpağın qalxanına qılınc vurma bu qədər" misrasına kimi) oxusu üçün iki şagird – cütlük müəyyənləşdirilir. Onlar aldıqları təlimata uyğun olaraq, oxuya başlayırlar. Şagirdlərdən biri bu hissəni aramla, ucadan, aydın səslə oxuyur. Oxunu başa çatdırdıqdan sonra həmin hissənin məzmununu

ümumiləşdirib qısa şəkildə ifadə edir. Ümumiləşdirmə təxminən aşağıdakı məzmunda olur: Şam şəhərində insanlardan qaçan, kərpic kəsməklə çörəkpulu qazanan qoca bir kişi yaşayırdı. Bir gün yenə işləyən zaman ona cavan bir oğlan yaxınlaşır.

Sonra həmin şagird onu dinləyən ikinci şagirdə suallar verir:

1. Qoca kişi səni maraqlandırdımı?
2. Dinlədiyin misralardakı fikirləri necə başa düşdün:
   Şam şəhərində xeyli qoca bir kişi vardı,
   Pəri kimi, cin kimi camaatdan qaçardı...
3. Aşağıdakı misra diqqətini cəlb etdimi?
   Toxuyardı özünə yaşıl otlardan köynək...
   Onun otlardan toxunmş köynək geyinməsinin səbəbini necə izah edərsən?
4. "Camaatdan qaçan", "yaşıl otlardan köynək geyinən" bu qocanın davranışı səni təəccübləndirmir ki?

İkinci şagirdin cavabları həm birinci şagirdi – mətni oxuyanı, həm də sinifdəki şagirdləri razı salmalıdır. Müşahidələrdən məlum oldu ki, suallar sinifdə canlandrma yaradır. Fərqli fikirlər mübahisələrin yaranmasına, hər kəsin öz mövqeyini müdfiə etməsinə səbəb olur. Müəllimin istiqamətləndirici sualları qənaətlərin yaxınlaşmasına təsir edir. Şagirdlər nəticə çıxarırlar: Zəhmətə ürəkdən bağlı olan bu qoca sadə, qənaətcil ömür yaşamağa üstünlük verir. Onun insanlardan kənar dolanmasının səbəbi öz işi ilə məşğul olmağa önəm verməsi ilə bağlıdır.

Şagirdlərdən bəziləri "Öz işinə məşğulkən bir gün o qoca kişi, Fələyin öz əliylə bir daha artdı işi" misralarını xatırladaraq qocanın aramsız olaraq işlədiyini, gərgin əməklə məşğul olduğunu qeyd edirlər. Ondakı qəribəliyin səbəbini bununla izah edirlər.

İkinci hissənin ("Qoca dedi: "Cavansan, belə cahillik etmə!" misrasına kimi) oxusu başqa bir cütlüyə təklif edilir. Birinci şagird hissənin oxusunu başa çatdırdıqdan sonra məzmununu ümumiləşdirir: Cavan oğlan qocaya ağır əməkdən əl çəkməyi, yüngül bir işlə məşğul olmağı məsləhət görür.

Mətni oxuyan ikinci şagirdə – onu dinləyənə aşağıdakı suallarla müraciət edir:

1. Cavan oğlanın "Qalx ki, səndən bir qarın çörək əsirgəməzlər" sözlərində hansı fikir ifadə edilmişdir?
2. Cavanın fikrincə, qocanın hansı işlə məşğul olması faydalı olardı?
3. Cavan oğlanın "Qocasan, tut özünü ahıllara bərabər" sözlərində hansı fikir ifadə olunub?

İkinci şagirdin bu suallara cavabları sinifdə birmənalı qarşılanmır. Şagirdlərin əksəriyyəti əlavələr etməyə can atır. Müzakirənin sonunda sinif nəticə çıxarır: Cavan oğlan qocaya nəsihət verməyə, yol göstərməyə cəsarət edir, ona yüngül bir işlə məşğul olmağı məsləhət görür.

Üçüncü cütlüyün şagirdlərindən biri əsərin sonuncu hissəsinin oxuyur. Sonra məzmununu ümumiləşdirib danışır: Qoca cavan oğlandan inciyir, ona kəskin sözlər deyir, bu sənətin onu təmin etdiyini bildirir.

Birinci şagird dinləyənə aşağıdakı suallarla müraciət edir:

1. Qoca cavan oğlanı nə üçün cahillikdə günahlandırır?
2. Aşağıdakı misralarda ifadə olunmuş fikri necə izah edərsən?
   Onunçün öyrətdim ki, əlimi bu sənətə,
   Bir gün sənə əl açıb düşməyim xəcalətə.
3. Qocanın sözləri cavan oğlana necə təsir edir?

Sualların cavablandırılmasında bütün sinif iştirak edir. Şagirdlərin fəallığı şəraitində nəticə çıxarılır: Qoca kərpickəsənin cavan oğlana kəskin sözlər deməyə haqqı çatır. O, qocaya ağıl öyrətməməli idi. Əlinin zəhməti ilə dolanan qoca özünü xoşbəxt sayır, o heç kimə möhtac deyildir.

İkinci dərsdə – təhlildə əsərin tərbiyəvi imkanları daha da qabardılır. İşin təşkili isə müxtəlif siniflərdə fərqli məzmunda (burada onlardan birinin səciyyəvi mərhələləri təsvir edilmişdir) olmuşdur. Hər iki halda ilk növbədə tədqiqat sualı müəyyənləşdirilmişdir. Bunun üçün şagirdlərə əməklə bağlı oxuduqları əsərləri, onlarda iştirak edən obrazları xatırlatmaq təklif edilmişdir. Müəllim əlavə etmişdir ki, məzmunu ilə tanış olduğunuz əsərdə iki obrazla tanış oldunuz. Obrazların hər biri haqqında müəyyən təsəvvür qazansanız da bu, onları dəyərləndirmək üçün kifayət deyildir. Bu obrazlar haqqında araşdırmanı davam etdirməyə ehtiyac vardır. Şagirdlərin fəal iştirakı ilə tədqiqat sualı müəyyənləşdirilir.

Tədqiqat sualı: Bu obrazları yaratmaqda şairin məqsədi nə olmuşdur?

Sinifdə beş kiçik qrup yaradılmışdır. Hər qrupa tapşırıqlar əks etdirilmiş iş vərəqləri təqdim edilmişdir.

I qrup: Qoca kərpickəsənin düşüncəsi, davranış və danışıqları sizdə rəğbət doğururmu? Nə üçün?

II qrup: Qoca kərpickəsənin bir insan kimi hansı cəhətlərini özünüz üçün faydalı hesab edirsiniz?

III qrup: Qoca obrazına münasibətiniz necədir? Fikrinizi nümunlərlə əsaslandırın.

IV qrup: Qoca kərpickəsənə müraciət etməyə cavan oğlanı vadar edən səbəb, sizcə, nədir?

V qrup: Bir insan kimi cavan oğlanda rəğbət doğuran cəhətlər varmı?

İşin icrası üçün ayrılmış vaxt elan edilir. Qrupların işini diqqətlə izləyən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallar vasitəsilə şagirdlərin səmərəli işləmələrinə nail olur. Əsərin məzmunu ilə bağlı qazanılmış ətraflı məlumat, maraqlı, məntiqli cavabların hazırlanmasına imkan yaradır.

Qrup sözçülərinin təqdimatları dinlənilir, məlumat mübadiləsi iə müzakirə qovuşur. Müəllim cavablarda əsərin tərbiyəvi imkanlarının daha qabarıq ifadə

edilməsinə diqqət yetirir. Birinci qrupun sözçüsü gəldikləri nəticələri digər qruplara aşağıdakı məzmunda çatdırır:

– Qoca kərpickəsənin obrazı bizi şox maraqlandırdı. Hələ şəklə baxarkən onun zəhməti

sevən bir insan olduğunu hiss etdik. Üzündəki ifadədən qətiyyətli bir insan olduğunu da duyduq. Əsərdəki ilk misralar isə ona marağımızı daha da artırdı, hətta biz xeyli təəccübləndik:

Şam şəhərində xeyli qoca bir kişi vardı,
Pəri kimi, cin kimi camaatdan qaçardı...

Onunla ətraflı tanış olduqca davranışında, hərəktlərində qeyr-adilik görmədik. Çünki zəhmətə, sevdiyi peşəyə ürəkdən bağlı olan bu hörmətli qoca ruzi qazanmaq üçün hər gün ağır zəhmətə qatlaşmalı olur. Gününü başqaları ilə söz-söhbətlə keçirməyə onun vaxtı yoxdur, sadə, qənaətcil bir ömür yaşayan bu zəhmət adamına bizdə böyük məhəbbət yarandı...

İkinci qrupun gəldiyi nəticə də sinifdə böyük marağa səbəb oldu:

– ... Sadə peşə sahibi olan qocanın böyük ürəyi var. Zəhmət adamı başqa cür ola bilməz. O, saf mənəviyyatı ilə diqqətimizi cəlb edir. Cavana dediyi sözlər acı görünsə də, əslində, gözəl nəsihətdir. Onun qürurlu olması, əməksevərliyi, gənc oğlana həqiqəti başa salması bizim üçün çox faydalı örnəkdir...

Üçüncü qrupun işinin nəticəsi sinifdəki bütün şagirdlərin müzakirəyə qoşulmalarına səbəb olur. Bu qrup qoca obrazına münasibətlərini əsərdən seçdikləri nümunələrlə əsaslandırmağa çalışmış, maraqlı nəticəyə gəlmişdir. Digər qrupların üzvləri fərqli nümunələr göstərməklə bu obrazın hərtərəfli təhlilinə çalışırlar.

Üçüncü qrup sözçüsünün təqdimatının səciyyəvi məqamları aşağıdakı məzmunda olmuşdur:

– Əsərdə bizi daha çox maraqlandıran, cəlb edən qoca obrazı oldu. Kərpickəsən qocanın sadə, zəhmətlə dolu həyatı bizdə ona böyük rəğbət yaratdı:

...O, ruzi qazanardı hər gün kərpic kəsərək...
Öz işinə məşğulkən bir gün o qoca kişi,
Fələyin öz əliylə bir daha artdı işi.

Heç kimə dəyib-dolaşmayan, vaxtını boş keçirməyən, öz ağır əməyi ilə "ruzi qazanan" qocanın işinin "fələyin əli ilə" artması onda təəssüf və narazılıq hissi yardır. Lakin qoca sanki fürsətdən istifadə edib gəncə həyatın mənasını izah etməyi lazım bilir. Ona izah edir ki, sənəti ağır olsa da, şərəflidir, şünki ruzi qazanmasına imkan verir.

Qocanın qürurlu olması ona rəğbətimizi daha da artırır:

Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,
Əlimin zəhmətilə toxdur gözüm, deyil ac...

Qoca kərpickəsənə rəğbətimizi artıran bir cəhət də odur ki, başqalarını səbəbsiz yerə günahkar saymağın doğru olmadığını nəsihət edir:

Məni bu ruzi üçün günahkar sayma, bəsdir,

Düşünsən, bilərsən ki,dediklərin əbəsdir...

Halal zəhməti ilə dolanan, müdrik qocanın əməlləri, sözləri bizə çox güclü təsir etdi. Bu müdrik qocadan öyrəndiklərimiz çox oldu...

Dördüncü qrupun gəldiyi nəticə sinifdə qızğın mübahisəyə səbəb olur. Cavanın qocaya irad tutmasının səbəbi fərqli şəkillərdə başa düşülür və izah olunur. Müəllimin istiqamətləndirici sualları mövqelərdə yaxınlaşmaya səbəb olur.

Dördüncü qrupun gəldiyi nəticənin səciyyəvi məqamları aşağıdakı məzmunda olmuşdur:

– ... Biz qocaya müraciət edən cavanın şəkildəki görünüşünü diqqətlə müşahidə etdik. O, sözlərini deyib, indi isə qocanı dinləyir. Açıq görünür ki, dediyi sözlərdən dərin peşmançılıq hissi keçirir...

Bəs bu gənci qocaya o sözləri deməyə nə vadar edib? O, əməyə xor baxırmı? Öz zəhməti ilə ruzi qazananlara rəğbəti yoxdurmu?

Bu sualların üzərində düşündük. Əsərin sonundakı misraları dönə-dönə oxuduq:

Cavan oğlan sarsıldı qocanın bu sözündən,
Orda durmadı, getdi, yaş axıdıb gözündən...

Onun qocaya dediyi sözləri də bir daha nəzərdən keçirdik. Aydınlaşdırdıq ki, bu sözləri deyən adam əməyə, əmək adamına aşağı nəzərlərlə baxa bilməz. Cavan oğlan qocaya böyük hörmət bəsləyir, onun ahıl yaşında ağır zəhmətə qatlaşmasına dözmür. Daha yüngül bir işlə məşğul olmasını arzulayır:

Bu kərpicin qəlibi yansın deyə oda at!
Başqa bir sənət tapıb işlə, muradına çat!
Nə vaxtadək zəhmətlə daş, kəsək əzəcəksən?
Sudan, palşıqdan əldə nə hasil edəcəksən?

Belə nəticəyə gəldik ki, əslində, cavan oğlan qoca kərpickəsənə ürəyi yandığı üçün müraciət etmişdir...

Beşinci qrupun araşdırmasının nəticələri də maraqla qarşılanmışdır. Şagirdlər cavan oğlan obrazına obyektiv qiymət verməyə çalışmış, onun sözlərini diqqətlə araşdıraraq nəticə çıxarmağa səy göstərmişlər:

– ... Əsərdəki ikinci obraz gənc oğlandır. Bəlkə də hər gün yanından keçib getdiyi, ağır işlə məşğul olduğunu hər gün müşahidə etdiyi qocaya ürək sözlərini deməkdən özünü saxlaya bilmir. İlk sözlərini ehtiyatsız deyir, qocanın qəlbinə dəyəcəyini xəyalına gətirmir:

Torpağın qalxanına qılınc vurma bu qədər,
Qalx ki, səndən bir qarın çörək əsirgəməzlər...

Bu sözlər zəhmət adamının, üstəlik vüqarlı bir insanın qəlbunə toxuna bilərdi. Elə də olur. Qocanın ilk sözləri bunu təsdiq edir:

Qoca dedi: "Cavansan, belə cahillik etmə!
Əl çək acı sözlərdən, mənə ağıl öyrətmə!..

Lakin cavanın sonrakı sözləri onun qoca kərpickəsənin halına ürəkdən yandığını açıq-aşkar nümayiş etdirir:

Nə vaxtadək zəhmətlə daş, kəsək əsəcəksən?
Qocasan, tut özünü ahıllara bərabər,
Cavanların işini cavanlara da qaytar...

Onun saf niyyətli oduğunu başa düşmək olur. Qocanın əvvəl sərt səslənən sözləri sonra yumşalır, cavan oğlanı ayıldır, ona güclü təsir edir. Əslində, bu cavan oğlan ürəyiyumşaq, mehriban bir gəncdir. Belə olmasaydı, qocanın sözlərindən sarsılmazdı, göz yaşı tökə-tökə, xəcalət içində oradan uzaqlaşmazdı. Biz ona rəğbət bəsləyirik, onun qocaya dediklərində pis bir niyyətin olmadığını başa düşürük...

Müzakirənin sonunda şagirdlərdə belə bir qənaət formalaşır ki, şair əsərdə maraqlı insan obrazları yaratmışdır. Onların hər ikisi mənəviyyatca saf insanlardır. Qoca əməksevər, qürurlu, sadə yaşamağı üstün tutan bir insandır. İkinci obraz diqqətcil, safniyyətli gənc oğlandır. Onları qarşılaşdırmaqda müəllifin məqsədi oxucularına ibrət dərsi vermək olmuşdur:

- əmək, zəhmət adamının heç kimə ehtiyacı olmaz;
- əmək adamı gözəl mənəvi keyfiyyətləri ilə nümunə olur;
- əmək adamına hörmət və ehtiram göstərilməli, onlardan nümunə götürülməlidir.

Dərsin əvvəlində şagirdlərə verilmiş sual ((İnsanların əməyə fərqli münasibət bəsləmələrinə səbəb, sizcə, nədir?) xatırladılır. Şagirdlərin fikirləri dinlənilir, ümumi nəticənin çıxarılmasına nail olunur.

ƏDƏBİYYAT

1. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. B., 2016.
2. Əliyev S., Həsənov B., Səfərova Ə., Quliyev Ə. Ədəbiyyat. 5-ci sinif üçün dərslik. B., 2020.
3. S. Hüseynoğlu. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. B., 2009.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Fiologiya elmləri doktoru, professor Yaqub Babayev tərəfindən çapa tövsiyə olunmuşdur

VERDİYEVA ZÜLFİYYƏ VAHID QIZI
Azərbaycan Dövlət Pedaqoji Universiteti
E-mail: zulyaverdiyeva2000000@gmail.com

ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ SƏNƏTKARIN HƏYAT VƏ YARADICILIĞININ ÖYRƏDİLMƏSİ YOLLARI

Xülasə

Ədəbiyyat dərslərində ilk növbədə sənətkarın həyat və yaradıcılığının öyrədilməsinin məqsədi, əhəmiyyəti aydın olmalıdır. Nəzərə almaq lazımdır ki, hər bir ədəbi əsər sənətkarın şəxsiyyətini, dünyagörüşünü, mənəvi mövqeyini , oxucuya çatdırmaq istədiyi niyyəti əks etdirir.

Ədəbiyyat dərslərində yazıçının şəxsiyyətinin, xarakterinin və taleyinin orijinallığını estetik cəhətdən izah edilməsi şagirdlərə sənətkarın tarixi hadisələrə baxışlarını, tərcümeyi-halını öyrənməyə kömək edir.

Bu baxımdan ədəbiyyat dərslərində ədibin tərcümeyi-halının öyrənilməsi məktəblilərin onların hisslərini, düşüncələrini amalını anlamağa zəmin yaradır. Təlim prosesində sənətkarın şəxsiyyətinin orijinallığı, həyat hadisələrinə münasibətinin aydınlaşdırılması onun yaradıcılıq məramı, idealları barədə dolğun təsəvvür yaradır, monoqrafik şəkildə öyrənilən əsərlərinin dərindən öyrənilməsinə imkan verir.

Ədəbiyyat dərslərində öyrənilən tərcümeyi-hal materialları ideoloji, əxlaqi və estetik əhəmiyyət kəsb edir. Şagirdlər bu yolla onlarda maraq doğuran mənəvi-estetik problemlərə sənətkarın münasibətini öyrənir, dolğun təəssürat əldə edirlər. Bu məqsədlə görkəmli ədibin həyat yolunu öyrənərkən məktəblilərə yazıçının özünə, həyata münasibətinin necə olduğunu göstərmək lazımdır.

Yazıçının tərcümeyi-halının öyrənilməsi məktəblilərdə maraq oyatmalıdır. Onlara aydın olmalıdır ki, ədibin şəxsiyyəti, mənəvi, ideoloji axtarışları ilk növbədə bədii yaradıcılığında öz əksini tapmışdır. Yazıçının yaradıcılığının estetik təsiri və onun tərcümeyi-halının ibrətamiz, mənəvi məqamları onun əqidəsinin dərk edilməsi üçün zəmin olmalıdır.

Ədəbiyyat müəllimin vəzifəsi sənətkarın həyat və yaradıcılıq yolunun səmərəli təqdimi yolunu tapmaqdan ibarətdir. Çalışmaq lazımdır ki, sənətkarla şagird-oxucunun ilk tanışlığı emosional səciyyə daşısın, yaddaqalan olsun.

Açar sözlər: dərs, ədəbiyyat, təlim, yazıçı, şəxsiyyət, həyat, yaradıcılıq, mənəvi, estetik, əsər, müəllim, tarixi, ədəbi, oxucu

ZULFİYYA VERDİYEVA

WAYS OF TEACHING THE LIFE AND CREATIVITY OF AN ARTIST IN LITERATURE LESSONS

Summary

First of all, the purpose and importance of teaching the life and creativity of the artist should be clear in literature classes. It is necessary to take into account that every literary work reflects the artist's personality, outlook, moral position, and the intention he wants to convey to the reader.

Aesthetically explaining the originality of the writer's personality, character and fate in literature classes helps students to learn the views of historical events and biography of the artist.

From this point of view, the study of the writer's biography in literature classes creates a foundation for schoolchildren to understand their feelings, thoughts and actions. Clarifying the originality of the artist's personality and his attitude to life events in the training process creates a full picture of his creative goals and ideals, and allows for an in-depth study of his monographically studied works.

The biographical materials studied in literature classes are of ideological, moral and aesthetic importance. In this way, the students learn about the artist's attitude to the spiritual and aesthetic problems that interest them, and get a full impression.

For this purpose, to schoolchildren while studying the life path of a prominent writer it is necessary to show the writer himself and his attitude towards life.

Studying the writer's biography should arouse interest in schoolchildren. They should be taught that the writer's personality, spiritual and ideological searches are first of all reflected in his artistic creation. The aesthetic effect of the writer's creativity and the instructive and spiritual points of his biography should be the basis for understanding his beliefs.

The task of the literature teacher is to find a way to effectively present the life and creative path of the artist. It is necessary to try to make the first acquaintance of the student-reader with the artist emotional and memorable.

Key words: lesson, literature, training, writer, personality, life, creativity, spiritual, aesthetic, work, teacher, historical, literary, reader

ЗУЛФИЯ ВЕРДИЕВА

ПУТИ ИЗУЧЕНИЯ ЖИЗНИ И ТВОРЧЕСТВУ ХУДОЖНИКА НА УРОКАХ ЛИТЕРАТУРЫ

Резюме

Прежде всего, на уроках литературы должны быть ясны цель и значение обучения жизни и творчеству художника. Необходимо учитывать, что каждое литературное произведение отражает личность художника, мировоззрение, нравственную позицию, замысел, который он хочет донести до читателя.

Эстетическое объяснение своеобразия личности, характера и судьбы писателя на уроках литературы помогает учащимся узнать взгляды на исторические события и биографию художника.

С этой точки зрения изучение биографии писателя на уроках литературы создает основу для осмысления школьниками своих чувств, мыслей и поступков. Выяснение своеобразия личности художника и его отношения к жизненным событиям в процессе обучения создает полную картину его творческих целей и идеалов, позволяет глубже изучить его монографически изучаемые произведения.

Биографические материалы, изучаемые на уроках литературы, имеют мировоззренческое, нравственное и эстетическое значение. Таким образом, студенты узнают об отношении художника к интересующим их духовным и эстетическим проблемам и получают полное представление. Для этого школьникам при изучении жизненного пути выдающегося писателя необходимо показать самого писателя и его отношение к жизни.

Изучение биографии писателя должно вызывать интерес у школьников, учить их тому, что личность писателя, его духовные и мировоззренческие искания в первую очередь отражаются в его художественном творчестве. Эстетический эффект творчества писателя и поучительные и духовные моменты его биографии должны стать основой для понимания его убеждений.

Задача учителя литературы – найти способ эффектно представить жизненный и творческий путь художника. Нужно постараться сделать первое знакомство ученика-читателя с художником эмоциональным и запоминающимся.

Ключевые слова: урок, литература, обучение, писатель, личность, жизнь, творчество, духовный, эстетический, промзведение, учитель, исторический, литературный, читатель

Ədəbiyyatın məktəbdə öyrənilməsi ilə bağlı elmi-metodik ədəbiyyatda nəzəri və metodoloji problemlərlə yanaşı, ədəbiyyat dərslərində yazıçı və şairlərin tərcümeyi-halının, yaradıcılığının öyrənilməsi problemləri, məsələ ilə bağlı tarixə baxış və hazırkı vəziyyət öz əksini tapıb.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin tərcümeyi-halı, yaradıcılığının tədrisi problemləri ədəbiyyat tədrisi metodikası üzrə alimlər- Əlyar Qarabağlı, Camal Əhmədov, Ağadadaş Babayev, Aydın Hacıyev, Bilal Həsənli, Soltan Hüseynoğlu, Fəxrəddin Yusifovun tədqiqatlarında araşdırılmışdır. Bu tədqiqatlarda yazıçıların həyat və yaradıcılığı ilə bağlı tövsiyələr verilmişdir. Bu araşdırmalarda ədəbiyyat dərsləri və yaradıcı insan, ədib fenomeni geniş şəkildə təhlil edilir.

Mənbələrdə qeyd edilir ki, ədəbiyyat dərslərində həyat və yaradıcılığı öyrənilən hər bir sənətkarın öz yaradıcılıq taleyi və özünəməxsusluğu var. Onların hər biri özünəməxsus yaradıcılıq üslubuna, tamam fərqli baxışlara malikdir. Bu sənətkarların əsərlərində tamamilə fərqli forma və üslublardan istifadə edilir.

Qeyd olunur ki, ədəbi əsərin oxunması və təhlili prosesində şagirdlər aşağıdakıları ayırd etməyi bacarmalıdırlar:

• bədii mətndə hər bir mühüm detalda müəllifin baxışının əks olunması;

• müəllifin həyatın reallıqlarını əsərdə əksetdirmə xüsusiyyətləri;

•təsvir olunan hadisəyə əsərin müəllifi tərəfindən verilən qiymət, onun təsvir etdiyi obrazın səciyyəsi;

• təsvir tərzinin, üslubunun və təsvir formasının əsərdə əks olunması və s .

Hətta bir neçə müəllif eyni mövzuda əsər yazsa da , onların əsərləri bir-birindən fərqlənir. Çünki burada sənətkarın yaradıcılıq fərdiliyi, baxışları, həyat hadisələrinin və dövrün qiymətləndirilməsi xüsusiyyətləri, müəllifin yaşayıb-yaratdığı və tərbiyə aldığı ictimai mühit öz təsirini göstərir.

Eyni zamanda cəmiyyətdəki siyasi, sosial şərait müəlliflərin əsərlərində öz əksini tapir. Şagirdlər üçün əhəmiyyətli olan məsələlərdən biri də yazıçıların yaşadığı dövrdə əhəmiyyətli tarixi hadisələr, sənətkarın bu hadisələrə münasibəti, siyasi mövqeyidir. Sənətkarın uşaqlıq və gənclik illəri, gələcəyinə təsir edən şəxsiyyətlər, yazıçının özünün iştitrak etdiyi və ya şahidi olduğu hadisələr, müəllifin peşəsi və ixtisası, tərcüməçilik fəaliyyəti, yazıçının davranışı və xarakteri və s. ədəbiyyat dərslərində müzakirə olunan mühüm məqamlar kimi qeyd edilir.

Metodik ədəbiyyatda yazıçı və şairlərin tərcümeyi-hallarında siyasi və ideoloji xarakterli qısa məlumatların açıqlanması da məqbul sayılır.

Təhsil proqramı üzrə dərsliklərdə bioqrafik materialın forma və məzmun baxımından müxtəlifliyi nəzərə alınmışdır. Kurikulum üzrə ədəbiyyatdan yuxarı siniflər üçün dərsliklərdə mətndən əvvəl hər bir müəllifin əsərinə bu barədə digər müəlliflərin açıqlamaları verilir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, yeni tipli bioqrafik materialın daxil edilməsi kurikulumun mahiyyəti və dərsliklərə fərqli yanaşmalarla bağlı idi.

Ona görə də yazıçının tərcümeyi-halının tədqiqi onun həyat yolunun aşağıdakı sahələrini də əhatə edir:

• sənətkarın ədəbiyyatda mövqeyi;

• yaradıcılıq emalatxanası;

• yazı tərzi;
• əsərlərinin dil və üslubu;
• fərdilik;

Metodik tədqiqatlarda ədəbiyyat dərslərində sənətkarın həyat və yaradıcılığının öyrənilməsinin müxtəlif yolları təklif olunur:

- V-VII və VIII-IX siniflərdə şagirdlərə yalnız qısa bir xülasə şəklində məlumat verilir.
- yazıçı və şairlərin həyat və yaradıcılığının məlumat şəklində təqdim edilməsi.
- tərcümeyi-halı materiallarının daha çox ədəbi formada təqdim edilməsi.

Tədqiqatlarda yazıçı və şairlərin tərcümeyi-halının öyrənilməsinin psixoloji, pedaqoji, ədəbi və metodoloji əsaslarından da bəhs edilir. Qeyd olunur ki, tərcümeyi-halın öyrənilməsinin əsasını fəlsəfə, estetika, tarix, pedaqogika, psixologiya elminin tədqiqat və tapıntıları təşkil edir.

Beləliklə, sənətkarların tərcümeyi-halını öyrənmək üçün aşağıdakı metodik şərtlərə riayət edilməsi zəruridir:

- hər bir müəllifin fərdi cəhətlərini və fərqli xüsusiyyətlərini müəyyən etmək və onları şagirdlərin diqqətinə çatdırmaq;
- şagirdlərin yazıçının fərdiliyi və fərdi üslubu haqqında məlumatlı olması;
- yazıçının şəxsi baxışlarının və ideoloji mövqeyinin əsərləri vasitəsilə təhlili;
- tarix, ədəbiyyatşünaslıq, dilçilik, pedaqogika, psixologiya, sosiologiya və Azərbaycan dili üzrə əlavə ədəbiyyatdan müəllim tərəfindən istifadə;
- yazıçı və şairlərin tərcümeyi-hallarının dərindən öyrənilməsi üçün ədəbiyyatın təhlili;
- müəlliflərin tərcümeyi-halı və əsərlərinin digər sənət nümunələrində (rəsm, kino, teatr, heykəltəraşlıq) əks olunması;
- yazıçıların tərcümeyi-halının nəzərdən keçirilməsi və yaşadığı dövrlə, yaşadığı ərazi ilə bağlı zəruri məlumatların verilməsi;
- yazıçı və şairlərin tərcümeyi-halı, yaradıcılığı ilə bağlı xatirələr, məktublar, gündəliklərdən istifadə;

Didaktik-pedaqoji, metodoloji əsaslar isə bunu göstərir ki, sənətkarların tərcümeyi-hallarının yaradıcılığının öyrənilməsi prosesində aşağıdakı didaktik prinsipləri rəhbər tutulmalıdır:

- elmilik;
- tarixilik;
- şagirdlərin yaş, qavrama xüsusiyyətlərinin nəzərə alınması.

Ədəbiyyat dərslərində V-IX siniflərdə müəllifin tərcümeyi-halı haqqında qısa məlumat onun yaradıcılığı öyrənilməzdən əvvəl təqdim olunur. Yuxarı siniflərdə sənətkarın tərcümeyi-halı və yaradıcılıq yolu ilə bağlı daha geniş xarakterli məlumat verilir. X-XI siniflərdə yazıçıların tərcümeyi-halı və yaradıcılığı dərsdə ictimai hadisələrlə, tarixi-ədəbi proseslə sıx əlaqədə öyrənilir, hər bir sinifdə kurikuluma uyğun olaraq təhlil edilir.

Yazıçının tərcümeyi-halının öyrənilməsi onun şəxsiyyətinin, xarakterinin, taleyinin orijinallığını görməyə kömək edir. Hər bir ədəbi əsər öz müəllifinin şəxsiyyətini əks etdirir, onun müəllif mövqeyini ifadə edir. Məktəblilər bunu mənimsəmədən bədii mətnin ideya-məzmununu müəllif mövqeyini dərindən dərk edə bilməzlər.

Yazıçının tərcümeyi-halının öyrənilməsi məktəblilərdə onun şəxsiyyətinə, yaradıcılığında əks olunan mənəvi axtarışlara maraq oyatmalıdır. Yazıçının həyat yolunun onun yaradıcılığının öyrənilməsi, tərcümeyi-halın əsərin mətninin məzmununun mənimsənilməsi və təhlilinə ön söz kimi daxil edilməsi V-IX siniflərdə mümkündür. Bu zaman tərcümeyi-hal materialı, bir qayda olaraq, tədris olunan əsərə giriş səciyyəsi daşıyır, əsəri oxumaq və təhlil etmək üçün zəmin yaradır. Yuxarı siniflərdə isə bioqrafiyanın öyrənilməsi daha müstəqil və dolğun xarakter alır.

Yuxarı siniflərdə yazıçının tərcümeyi-halı ilə bağlı dərslərdə daha çox müəllimin mühazirəsindən istifadə olunur. Bu prosesi şagirdlər üçün üçün cəlbedici . çaraqlı etmək üşün mühazirədə seçilmiş materialın maraqlı olması, nitqin tempi, müəllimin mimika və jestlərinin ifadəliliyi də mühüm əhəmiyyət kəsb edir. Müəllimin nitqi, cəlbedici təqdimatı bu materialın şagirdlər tərəfindən dərindən qavranılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Tərcümeyi halın öyrənilməsi üzrə dərslərdə məktəblilərin faktlar üzərində düşünmələri üçün müəllim mühazirəsi problemli, düşündürücü səciyyə daşımalıdır. Bu baxımdan yazıçının ictimai hadisələrə, sənətə, təbiətə münasibətinin aydınlaşdırılması ilə bağlı suallardan istifadə oluna bilər. Yazıçıların həyatından oxşar epizodları müqayisə etmək üçün və suallar vermək faydalıdır.

Tərcümeyi-hal dərslərində ancaq müəllimin nitqi eşidilsə, şagirdlər sənətkar haqqında dolğun məlumat ala bilməyəcəklər. Aydındır ki, müəllimin sinifə ünvanladığı suallarla yanaşı, şagirdlərə müstəqil fikir söyləmək, münasibət bildirmək, mübahisə etmək imkanı da vermək lazımdır. Qabaqcıl müəllimlərin iş təcrübəsində tərcümeyi-halı dərsləri sinifdənxaric işlərlə üzvi şəkildə əlaqələndirilir, şagirdləri narahat edən mənəvi və estetik məsələlərin həllinə kömək edir.

Sənətkarın tərrcümeyi-halı öyrənilərkən, sorğunun təşkili və ev tapşırığı diqqətdə saxlanılmalıdır. Burada təkcə dərsliyə uyğun olaraq xronoloji cədvəllərin tərtib edilməsi və müəllimin mühazirəsi üzrə qeydlər aparılması kifayət deyil. Bu baxımdan sənətkarın həyat yolu və yaradıcılığı üzrə ədəbi viktorinalar, əlavə mənbələr üzrə iş də məqsədəuyğundur. Yazıçının tərcümeyi-halının şagirdlərə emosional təsiri, şübhəsiz ki, dərslərdə əyani vasitələrdən istifadə etməklə asanlaşdırılır. İnternet mənbələrindən istifadə, musiqi, rəssamlıq, kino burada müəllimin əvəzolunmaz köməkçiləridir.

Dərsdə yazıçının əsərlərindən parçaların bədii oxu ustasının ifasında dinlənilməsi, dərsin ifadəli və emosional cəhətdən təsirli olmasına kömək edir. Dərsdə yazıçının portretinin nümayiş etdirilməsi və müzakirəsi də metodik

baxımdan əhəmiyyətlidir. Sənəıtkarın portretinin müzakirəsi şagirdlərin bioqrafik materiala münasibətini fəallaşdırmağa imkan verir.

Tərcümeyi-halın öyrənilməsinin ən mühüm vasitələrindən biri də sənətkar haqqında sənədli film və ədibin həyat yolu və yaradıcılığı ilə bağlı yerlərə ekskursiyalardır. Filmin nümayişindən əvvəl müəllimin giriş sözü, dərslikdəki materialın oxunması, xatirələrdən parçalarla tanışlıq şagirdlər tərəfindən daha maraqla qarşılanır. Film nümayişindən əvvəl müəllimin sinifə suallar verməsi şagirdləri ekran əsərinə diqqətlə baxmağa və dinləməyə sövq edir. Bu həm də onları ekrana baxarkən düşünməyə vadar edir. Suallar, təbii ki, müxtəlif olmalıdır:

1. Filmdən yazıçının həyat və yaradıcılığında hansı yenilikləri öyrəndiniz?
2. Filmin hansı səhnələri sizə daha çox təsir etdi?
3. Ədibin müasirlərinin rəylərindən və ya ifadələrindən hansı sözlər diqqətinizi cəlb etdi

Ədəbiyyat dərslərində ilk növbədə sənətkarın həyat və yaradıcılığının öyrədilməsinin məqsədi, əhəmiyyəti aydın olmalıdır. Nəzərə almaq lazımdır ki, hər bir ədəbi əsər sənətkarın şəxsiyyətini, dünyagörüşünü, mənəvi mövqeyini , oxucuya çatdırmaq istədiyi niyyəti əks etdirir.

Ədəbiyyat dərslərində yazıçının şəxsiyyətinin, xarakterinin və taleyinin orijinallığını estetik cəhətdən izah edilməsi şagirdlərə sənətkarın tarixi hadisələrə baxışlarını, tərcümeyi-halını öyrənməyə kömək edir.

Bu baxımdan ədəbiyyat dərslərində ədibin tərcümeyi-halının öyrənilməsi məktəblilərin onların hisslərini, düşüncələrini amalını anlamağa zəmin yaradır. Təlim prosesində sənətkarın şəxsiyyətinin orijinallığı, həyat hadisələrinə münasibətinin aydınlaşdırılması onun yaradıcılıq məramı, idealları barədə dolğun təsəvvür yaradır, monoqrafik şəkildə öyrənilən əsərlərinin dərindən öyrənilməsinə imkan verir.

Ədəbiyyat dərslərində öyrənilən tərcümeyi-hal materialları ideoloji, əxlaqi və estetik əhəmiyyət kəsb edir. Şagirdlər bu yolla onlarda maraq doğuran mənəvi-estetik problemlərə sənətkarın münasibətini öyrənir, dolğun təəssürat əldə edirlər. Bu məqsədlə görkəmli ədibin həyat yolunu öyrənərkən məktəblilərə yazıçının özünə, həyata münasibətinin necə olduğunu göstərmək lazımdır.

Yazıçının tərcümeyi-halı məktəblilərdə maraq oyatmalıdır. Onlara aydın olmalıdır ki, ədibin şəxsiyyəti, mənəvi, ideoloji axtarışları ilk növbədə bədii yaradıcılığında öz əksini tapır. Yazıçının yaradıcılığının estetik təsiri və onun tərcümeyi-halının ibrətamiz, mənəvi məqamları onun əqidəsinin dərk edilməsi üçün zəmin olmalıdır.

Ədəbiyyat müəllimin vəzifəsi sənətkarın həyat və yaradıcılıq yolunun səmərəli təqdimi yolunu tapmaqdan ibarətdir. Çalışmaq lazımdır ki, sənətkarla şagird-oxucunun ilk tanışlığı emosional səciyyə daşısın, yaddaqalan olsun.

ƏDƏBİYYAT SİYAHISI

1. Həbibbəyli İ., ƏdƏliyev S., Həsənov B. Ədəbiyyat. 11-ci sinif üçün dərslik. Bakı: Bakınəşr, 2018. 207 s.
2. Həsənov B., Əliyev S., Mustafayeva A. Ümumtəhsil məktəblərinin 10-ci sinfi üçün ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2017., 207 s..
3. Həsənov B., Mustafayeva A., Əliyev S. Ümumtəhsil məktəblərinin 11-ci sinfi üçün Ədəbiyyat fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı 2018, 207 s.
4. Həsənli B. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2016.
5. Əliyev S., Həsənov B., Mustafayeva A. Ədəbiyyat. 10-cu sinif üçün dərslik. Bakı: Bakınəşr, 2017.207 s.
6. Hüseynoğlu S. Ədəbiyyatın məktəbdə öyrənilməsi. Bakı, 2021.
7. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Bakı, 2023.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: pedaqogika üzrə fəlsəfə doktoru,
dosent Bilal Həsənli tərəfindən çapa tövsiyə olunmuşdur

MAYA AĞAMIRZƏQIZI
(ABDULLAYEVA)
ADPU-nun Ağcabədi filialı
Ağcabədi şəhər.Ü.Hacıbəyli, pr-ti 210.
Magamirzeqizi@gmail.com

RAMİZ RÖVŞƏN ŞEİRLƏRİNDƏ SÖZÜN MİSTİK OBRAZI

Xülasə

Məqaləmizdə Ramiz Rövşən şeirlərinin bədii xüsusiyyətləri araşdırılır. Sözü yeni formada təqdim edən şairin yaradıcılığının fərqli cəhətləri göstərilir. Ədəbiyyat meydanına atıldığı gündən bu poeziya inciləri qətiyyən zəifləməmiş hər gün yeni bir inkişaf istiqaməti müəyyənləşdirmişdir. İldən-ilə yenilənmiş,daha da qüvvətlənmiş, onun sehrinə düşən oxucu sayını artırmışdır. Bu poeziyada söz yeni və orjinal bir qiyafədə oxucu qarşısına gəlir. Onun hər kəliməsi ilahi şairlik istedadının zərrəsi olmaqla bərabər özünün elmi və fəlsəfi xüsusiyyətləri ilə də oxucudan yüksək intelektual təfəkkür tələb edir. Sözün bu qədər yeni olması, ilk baxışdan anlaşılmaması, dərin fəlsəfi qatları ilə oxucunu sehirləyir və bu şeirləri oxuyan hər kəsdə onu yenidən oxumaq marağı yaradır. Bu mistik gücə malik olan Ramiz Rövşən sözünün sehrindən çıxmaq dərin düşünmə qabliyyətinə malik oxucu üçün heç də asan məsələ deyil. Ramiz Rövşənin fəlsəfəsində söz təmiz vicdanların, azadlıq aşiqlərinin, mənəvi idealların, saf əqidələrin, insan ləyaqətinin, qəlbləri bürüyən sevincli-iztirablı anların səsi olaraq ilahi məqam səviyyəsinə yüksəldilir. Rövşənin şeirlərini oxuduqda onun müəllifinin mistik sözü yaradarkən keçirdiyi mifik əzabı duymamaq olmur və çox gümanki, bu mifik əzabın mənşəyi klassik Azərbaycan poeziyası, Füzuli kədəri, həmçinin ümumbəşəri kədərlə bağlıdır. Çağdaş Azərbaycan ədəbiyyatında şair sözünün müqəddəsliyini qoruyan əbədi şöhrət sahiblərindən biri də məhz Ramiz Rövşəndir.

Açar sözlər: Ramiz Rövşən, poeziya, obraz, söz, mistika

MAYA AGAMIRZAGHIZI (ABDULLAYEVA)

THE MYSTICAL IMAGE OF THE WORD IN RAMIZ ROVSHAN'S POEMS

SUMMARY

In our article, the stylistic features of Ramiz Rovshan's poems are examined. The different aspects of the poet's creativity, which presents the word in a new form, are shown. From the day it was launched in the field of literature, these pearls of poetry have not weakened at all and have defined a new direction of development every day. Every year it has been renewed, strengthened, and has increased the number of readers falling under its spell. In this poetry, the word comes to the reader in a new and original guise. Every word of his is a particle of his divine poetic talent, and with its scientific and philosophical characteristics, it requires high

intellectual thinking from the reader. The fact that the word is so new, incomprehensible at first glance, enchants the reader with its deep philosophical layers and makes everyone who reads these poems interested in re-reading them. It is not an easy task for a reader with the ability to think deeply to get out of the spell of the word Ramiz Rovshan, which has this mystical power. In the philosophy of Ramiz Rovsha, the word is elevated to the divine level as the voice of pure consciences, lovers of freedom, spiritual ideals, pure convictions, human dignity, joyous and painful moments that cover the hearts. When reading Rovsha's poems, one cannot help but feel the mythical pain experienced by its author while creating the mystical word, and most likely, the origin of this mythical pain is related to classical Azerbaijani poetry, Fuzuli's grief, as well as universal grief. Ramiz Rovshan is one of the holders of eternal fame who protects the sanctity of the word poet in contemporary Azerbaijani literature.
Key words: Ramiz Rovshan, poetry, image, word, mysticism.

МАЙЯ АГАМИРЗАГЫЗИ (АБДУЛЛАЕВА)

МИСТИЧЕСКИЙ ОБРАЗ СЛОВА В СТИХАХ РАМИЗА РОВШАНА

РЕЗЮМЕ

В нашей статье рассматриваются стилистические особенности стихотворений Рамиза Ровшана, показаны разные стороны творчества поэта, представляющего слово в новой форме. Со дня своего появления в области литературы эти жемчужины поэзии ничуть не ослабли и каждый день определяли новое направление развития. С каждым годом она обновлялась, укреплялась и увеличивала число читателей, попадающих под ее чары. В этой поэзии слово предстает перед читателем в новом и оригинальном обличии. Каждое его слово есть частица его божественного поэтического таланта, и при своих научно-философских особенностях оно требует от читателя высокого интеллектуального мышления. То, что это слово такое новое, непонятное на первый взгляд, завораживает читателя своими глубокими философскими пластами и вызывает у каждого, кто читает эти стихи, интерес к их перечитыванию. Выйти из-под чар слова Рамиза Ровшана, обладающего этой мистической силой, читателю, способному глубоко мыслить, — непростая задача. В философии Рамиза Ровши слово возводится на божественный уровень как голос чистых совести, любящих свободу, духовные идеалы, чистые убеждения, человеческое достоинство, радостные и тягостные мгновения, которые охватывают сердца. Читая стихи Ровши, нельзя не почувствовать мифическую боль, которую испытывает их автор при создании мистического слова, и, скорее всего, происхождение этой мифической боли связано с классической азербайджанской поэзией, горем Физули, а также

всеобщей скорбью. Рамиз Ровшан – один из обладателей вечной славы, охраняющих святость слова поэт в современной азербайджанской литературе.

Ключевые слова: Рамиз Ровшан, поэзия, образ, слово, мистика.

Ramiz Rövşən poeziyasından danışmaq çətin və məsuliyyətlidir. Ona görə ki, bu poeziya klassik şeir örnəyii kimi qədim, müasir şeir nümunəsi kimi canlı və təravətlidir. Ramiz Rövşən şeiriyyatı oxucusundan düşünməyi, dərk etməyi və estetik zövq almağı tələb edir. Taleyinə şairlik yazılan hər şair bu müqəddəs missiyanı ardıcıl olaraq daşımaqda çətinlik çəkir, müəyyən ləngimələrə, zəifləmələrə yol verə bilir. Lakin bu fikir Ramiz Rövşən şeirinə tamamilə yaddır. Ədəbiyyat meydanına atıldığı gündən bu poeziya inciləri qətiyyən zəifləməmiş hər gün yeni bir inkişaf istiqaməti müəyyənləşdirmişdir. İldən-ilə yenilənmiş,daha da qüvvətlənmiş, onun sehrinə düşən oxucu sayını artırmışdır. Bu poeziyada söz yeni və orjinal bir qiyafədə oxucu qarşısına gəlir. Onun hər kəliməsi ilahi şairlik istedadının zərrəsi olmaqla bərabər özünün elmi və fəlsəfi xüsusiyyətləri ilə də oxucudan yüksək intelektual təfəkkür tələb edir. Sözün bu qədər yeni olması, ilk baxışdan anlaşılmaması, dərin fəlsəfi qatları ilə oxucunu sehirləyir və bu şeirləri oxuyan hər kəsdə onu yenidən oxumaq marağı yaradır. Bu mistik gücə malik olan Ramiz Rövşən sözünün sehrindən çıxmaq dərin düşünmə qabliyyətinə malik oxucu üçün heç də asan məsələ deyil:

Gün doğsa da, işıqlanmaz
ömrün qara günləri.
Tanrıyla kim barışdırar
bəxtindən küsənləri?
Canımıza hardan dolub
bu dəlilik havası?
Ağaclar da Məcnun olub
başında quş yuvası.
Quşa dönüb mollalar da,
qonub minbər başına.
Əzan verib bu şəhəri
basdırarlar axşama.
Mən də Tanrı quşu olsam,
mən də qonsam minbərə,
Hər nə desəm küfr çıxar
bəlkə bütün dinlərə.
Bəlkə məni dörd bir yandan
nişan alar ovçular
minbərdən damla-damla
qanım yerə damcılar.
Bir yaralı molla uçar
sənə sarı. İlahi.

İnsaf elə bu yaramı
özün sarı, İlahi!.. (3.)

...Ramiz Rövşənin fəlsəfəsində söz təmiz vicdanların, azadlıq aşiqlərinin, mənəvi idealların, saf əqidələrin, insan ləyaqətinin, qəlbləri bürüyən sevincli-iztirablı anların səsi olaraq ilahi məqam səviyyəsinə yüksəldilir. Aşağıdakı misralarda şair İlahidən gələn sözü özünün şairlik məharəti ilə yenidən "geyindirb, kecindirib" oxucuya orjinal formada təqdim edən sözü mətəanətlə yazan şairlərə müraciət etmişdir.

Aldanma heç kimə, satma heç kimə.
satsan, öz ömrünü sən Allaha sat!..
Amma Allaha da satma sözünü,
demə ki, satdığın varaqda sözdü.
Allah necə alsın özü-özünü
Allahın Canı yox, Allah da Sözdü...
Allahı dünyayla barışdırmısan,
qıraqda gəzməsin gözün Allahı.
Dünyanı Allahla bölüşdürmüsən;
Allahın qulusan, Sözün Allahı... (4. s-11)

Bəli şair bu misralarda sözün Allahı olan, oxucunu mistik sözün sehrinə salmağı bacaran , şair adını ləyaqətlə daşıyan əsil şairlərdən söhbət açır onların Allah tərəfindən seçilmiş varlıqlar olduğunu dilə gətirir. Dolayısı ilə özünə də müraciət etmiş olur. Çünki Ramiz Rövşən də ilahi nurla ilhamlanan şairlərdəndir.

Doğrudan da, R.Rövşənin şeirlərini oxuduqda onun müəllifinin mistik sözü yaradarkən keçirdiyi mifik əzabı duymamaq olmur və çox gümanki, bu mifik əzabın mənşəyi klassik Azərbaycan poeziyası, Füzuli kədəri, ümumbəşəri kədərlə bağlı olduğu dərəcədə həmçinin müasir dünya ədəbiyyatı, bu ədəbiyyatda gedən proseslər, haqq-ədalət axtarışlarında olan dünya ədəbiyyatı dahilərinin yaradıcılığı ilə bağlıdır.

Nə var Allahdan yuxarı?
Nə var qəbirdən aşağı?
Çəkdiyim ahdan yuxarı?
Bildiyim sirdən aşağı?
Niyə günün gündüzündə
Quşlar azır göy üzündə?
Göz yaşları quş gözündən
Tökülür dən-dən aşağı.
Demə, biz ki quş deyilik,
Allaha tanış deyilik...
Ruhum, dur, yığış, gedirik,
Sən yuxarı, mən aşağı... (1.s-21)

Ramiz Rövşən şeirindəki poetik düsturlar, poetik faktlar, işıqlı ümidə bükülmüş tragik kədər, qışda baharı duymaq, baharda soyuqdan donmak kimi sehirli bir ovsuna

bənzəyir. Buna baxmayaraq hər zaman bahar nəfəsi, bahar ətri qoxuyur bu poeziya. Coşğun şair ilhamının sehrinə salan "Nəfəs" şeiri bu baxımdan çox yaddaqalandır.

Mənim bu dünyayla bir alverim var;
aldığım-verdiyim nəfəsdi, nəfəs.
Daha özgə bazar açan deyiləm,
ölüncə bu alver mənə bəsdi, bəs.
Aldım nəfəsimi quş dimdiyindən,
ocaq tüstüsündən, çiçək iyindən.
Üzümə çırpılan yağışa-qara,
küləklərə verdim öz nəfəsimi.
Nəfəsim toxundu gül dodaqlara,
aldı neçə-neçə qız nəfəsimi. (1.s-64)

Bu romantik-fəlsəfi şeirin sərt və amansız bir israrla bitməsi oxucu üçün tamamilə maraqlı və orjinal görünür. Məhz bu fakt "sözü bağrı çatlayana qədər fikirlə yükləyən, söz yuvasında ətirli güllər bitirən lirik, fəlsəfi-romantik şair" (2.) in sözünün qüdrətindən xəbər verir.

Sən göydə mən yerdə
Düşürük heydən
Sən göydə mən yerdə
Tək qalmışıq tək
Son şair boğulub öləndə
Göydən ölü Allah düşəcək. (1.s-64)

Ramiz Rövşən poeziyasını bir bütövlük tamlıq xarakterizə edir. Onun bütün şeirləri bir mətləbə, bir mərama qovuşdurur. Adilikdən başlayan qeyri-adiliyə , ümidsizlikdən doğulan böyük ümidlərə, soyuq qışdan gül qoxuyan bahara, buz tutmuşluqdan yüksək hərarətə,amansız nifrətdən ülvi sevgilərə,ulu keçmişdən uğurlu gələcəyə doğru addımlayır. Onun poeziyasinda keçmişə nə qədər böyük bağlılıq varsa gəlcəyə də o qədər qovuşmaq arzusu var. Ənənə və novatorluğun vəhdəti şairin yaradıcılığının əsas məramnaməsidir.

Yıxılıram, yıxılıram
Özümdən yıxılıram.
Qəlbimdəki səbirdən
Dözümdən yıxılıram.
Sığınmağa bir bucaq yox,
Yıxılmağa qucaq yox.
Gözümdən yıxıldım, Allah.
Gözüm yaşından yıxıldım,
Sözün başından yıxıldım.(3.)

Ramiz Rövşən qələminin qüdrətindən doğulan "Yıxılıram", "Qədrimi bilmədi, bu adam mənim", "Göy üzü daş saxlamaz", "İlan balası", "Çiçəklər doğulur, bu yaz

gecəsi", "Ayrılıq", "Qara paltarlı qadın", "Nəfəs", "Lal" ,"Analar aldatdı bizi", "Qapı" və s. ruhumu dinləndirən, düşüncəmi daima rahat buraxmayan şeirlər fəlsəfi-intellektual poeziyanın ən dəyərli örnəkləri sayılmağa layiqdir.

Çağdaş Azərbaycan ədəbiyyatında şair sözünün müqəddəsliyini qoruyan əbədi şöhrət sahiblərindən biri də məhz Ramiz Rövşəndir. V. Belinski bəlkə də elə buna görə deyirdi ki, "Şair özü də yüksək və müqəddəs bir sözdür. Bu sözdə ölməyən əbədi bir şöhrət vardır." Bu şöhrətdən nəsibini alan qüdrətli şairimiz ədəbiyyatımız yaşadıqca var olacaq,onun sözü çox əsrlər aşacaq,çox oxucunu özünün mistik aurasına, doyulmaz sehrinə salacaqdır.

İstifadə olunan ədəbiyyat:

1. Rövşən.R. Nəfəs,Qanun nəşriyyatı.2017.
2. http://www.anl.az/down/meqale/525/2015/iyun/445709.
3. https://achiqkitab.aztc.gov.az/Books/Read/1076/Ramiz-Rovshen-Sheirler
4. Rövşən.R . Göy üzü daş saxlamaz. Bakı-1987.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: f.ü.f.d. dosent. Məmmədov Sabir Rüstəm oğlu tərəfindən çapa tövsiyə olunmuşdur

AYDAN RƏSULZADƏ
Odlar Yurdu Universiteti
Bakı, Nərimanov r-nu,
Koroğlu Rəhimov küç, 13 AZ1072
aydan.rasulzada@icloud.com

TƏLƏBƏLƏRİN SƏVİYYƏLƏR ÜZRƏ QİYMƏTLƏNDİRMƏ STANDARTLARI VƏ EFFEKTİV QİYMƏTLƏNDİRMƏ

Tədris zamanı bilik və bacarıqların mənimsənilməsi üçün aparılan effektiv qiymətləndirmənin əhəmiyyəti böyükdür. Effektiv qiymətləndirmə qiymətləndirmənin öyrənmə vasitəsi kimi necə fəaliyyət gostərə biləcəyini başa düşməyin,bəzi qiymətlərin subyektiv meyarlara əsaslanacağını qəbul etməyi və tələbələri dinləmək və onlarla ünsiyyət qurmaq istəyini tələb edir.Şagirdlərin diqqətini "qiymət almağa" deyil,öyrənmə prosesinə yönəltməyə komək etmək,eyni zamanda qiymətlərin tələbələr və ya şagirdlər üçün əhəmiyyətini etiraf etmək çox vacibdir.Effektiv qiymətləndirmənin tələblərini digər iş yükü və peşəkar öhdəliklərlə uyğunlaşdırmaq və ya tarazlaşdırmaq vacibdir.Bu da qiymətləndirməyə bir proses kimi baxmağa kömək edir. Bu,sadəcə olaraq nömrə və ya hərf kimi qiymətləndirmənin təyin edilməsi məsələsi deyil. Prosesin qiymətləndirilməsi kimi bu, fəaliyyətlərin bəzilərini və ya hamısını əhatə edə bilər.

Ona görə də biz aşağıdakı əsas prinsipləri mütləq diqqət mərkəzində saxlamalıyıq.

- qiymətləndirmə siyasəti vasitəsilə tələbələrlə gözləntilərin müəyyən edilməsi
- kursun məqsədlərini təşviq edən tapşırıqların və imtahanların layihələndirilməsi
- standartların və meyarların müəyyən edilməsi
- ardıcıllıq vı ədalətlilik üçün qiymətləndirmə standartının tətbiqinin kalibrlənməsi
- səy və təkmilləşdirmə haqqında qərarlar qəbul etmək
- hər bir tələbənin öyrənməsinə rəhbərlik etmək üçün hansı şərhlərin ən faydalı olacağına qərar vermək
- tapşırıqları geri qaytarmaq və tələbələrə qiymətlərini anlamağa kömək etmək

Bu formada qiymətləndrəni həm daha effektiv,həm də daha səmərəli etmək üçün ümumi məsləhətlər mövcuddur.Belə ki,biz həmçinin burada tapşırıqların tərtib edilməsi,standartların və standartlar üzrə siyasətlərin müəyyən edilməsi, qiymətləndirmə rubrikalarından istifadə və tələbə işi ilə əlaqəli şərhlərin yazılması ilə bağlı xüsusi təkliflərə muraciət edə bilərik.Bu zaman həmçinin onlayn bələdçinin digər bölmələrində müvafiq məlumatları tapa bilmək olar ,məsələn, tələbə yazıları ilə iş(əsasən tələbə esseləri ilə işləmək üçün),akademik təhlükəsiz davranış(fırıldaqçılıq

və plaqiatla mübarizə üçün)və tədrisin qiymətləndirilməsi və təkmillləşdirilməsi (qiymətləndirmə və öyrənmə üçün)və s.

Effektiv qiymətləndirməyə dair bi sıra göstərişlər nəzərdən keçirək:

- kursun qiymətləndirmə siyasətinə diqqət yetirmək.Bu zaman həddindən artıq yenidən qiymətləndirmə sorğularına və gec işləməyə mane olmaqla çox vaxta qənaət edə bilərsiniz.
- tapşırıq dizaynını nəzərdən keçirmək. Aydın ifadəli tapşırıqlar və aydın təlim məqsədləri qiymətləndirmənin səmərəliliyini xeyli artıracaq. İmtahandan əvvəl imtahan suallarının hərtərəfli yoxlanıldığından əmin olun!
- diqqətsiz tələbə işinə vaxt itirməmək.
- həmişə öyrənmə məqsədlərinə uyğun gələn minimum dərəcələrdən istifadə etmək. Nəyə görə keçmək/keçməmək kifayət (və əhəmiyyətli dərəcədə daha səmərəli) olduqda 10 ballıq şkala ilə qiymət vermək və s.
- tələb olunan vaxıt ayırmaq. Hər tapşırığı qiymətləndirməyə nə qədər vaxt sərf edəcəyinizi məhdudlaşdırmağa çalışın (məsələn, mən saatda orta hesabla 20 məsələni qiymətləndirmək istəyirəm). Müəyyən bir kağız üzərində çaşqınlıq hiss edirsinizsə, bütün tələbələrin işi ilə bağlı hisslәriniz tam formalaşdıqdan sonra sonuncu qiymət vermək üçün kağızı kənara qoyun.
- tapşırığın bir-birindən ayrılmış hissələri varsa, hər bir hissəni ayrıca qiymətləndirmək (məsələn, tapşırıq üç məsələdən ibarətdirsə, ikinci məsələni qiymətləndirməyə başlamazdan əvvəl birinci məsələni bütün sinif üçün qiymətləndirin və s.). Bu, bizə ardıcıl və səmərəli qiymət verməyə kömək edəcək.
- qiymətləndirərkən tapşırıqları yığınlara çeşidləmək (hər qiymət üçün bir yığın). Bitirdikdən sonra hər bir yığını ardıcıllıq üçün yoxlayın. Müəllimi qane etdikdən sonra o,tapşırıqları ballarla qeyd edir.
- qiymətləndirərkən özünüzə qeydlər etmək. Bu, ardıcıllığa kömək edəcək və əgər müəllimfikrini dəyişərsə , tələbə işini tapmağı asanlaşdıracaq.

Qiymətləndirmə tapşırığının ortasında fasilə vermək olar. Qiymətləndirməyə davam edən zaman əqli miqyasınızı sıfırlamaq üçün əvvəlcə qiymətləndirdirilən sənədlər nəzərdən kecirilməlidir.Qiymətləndirməni bitirdikdən sonra yenə də özümüzlə razılaşdığınızı görmək üçün qiymətləndirdiyimiz ilk bir neçə tapşırığa yenidən baxmalıyıq.

Qiymətləndirmə meyarlarını daha aydın etmək həm tələbə öyrənməsini artırır, həm də qiymətləri müəyyənləşdirmək və əsaslandırmaq üçün sərf etdiyiniz vaxtı azaldır.

Həmçinin, əgər biz böyük bir mühazirə kursunu qiymətləndiririksə, bu, qiymətləndirmənin ardıcıllıq yoxlamalarını asanlaşdıra bilər. Ardıcıllığı təmin etmək üçün hər bir bal aralığında bir neçə müsbət cavablandırma ilə onları müstəqil olaraq qiymətləndirmək olar. Xalları müqayisə edərək və zəruri hallarda düzəlişlər edilə bilər.

Əgər kor-koranə qiymət verirsinizsə, qiymətlərinizi adlara uyğun gələn fayldan ayrı, tələbə ID nömrəsi (SID) ilə təşkil edilmiş faylda saxlanılmalıdır. Bu, obyektivliyi təmin edir və ya daha az formal olaraq, qiymət verərkən tələbə adlarına baxmamağı təcrübə etmək olar.

Tələbə işini şərh etmək üçün şagirdlərin tapşırıqla bağlı qarşılaşdıqları ümumi problemləri müəyyən etmək və bu problemlərə toxunan paylama materialı hazırlamaq lazımdır. Bu, eyni şərhləri dəfələrlə yazmaq məcburiyyətindən qaçmağa kömək edir. O, həmçinin problemi daha ətraflı şəkildə həll etməyə imkan verir və tələbələrə başqalarının da eyni problemləri paylaşdığını anlamağa kömək edir.

Şərhlərin yazılmasının bir sıra üstünlükləri var. Bu, hər bir tələbənin semestr ərzində əldə etdiyi irəliləyişlərin kompüter qeydini saxlamağa imkan verir; şərhlər daha ətraflı ola bilər; ümumi problemlərə dair daha uzun şərhlər kəsilə və bir tapşırıqdan digərinə yapışdırıla bilər; və sizin yazdıqlarınızı tələbələrin oxuması daha asan olur. Hər problem və ya nöqtəni şərh etməyin. Bir neçə əsas məqama diqqət yetirin. Bu, nəinki daha səmərəli qiymət verməyə kömək edir, həm də tələbələrin həddən artıq yüklənməsinin qarşısını alır. Bu, onlara işlərinin daha çox təkmilləşdirməyə ehtiyacı olan sahələrinə daha effektiv diqqət yetirməyə imkan verir. Tələbələrdən işlərinin ən güclü və zəif tərəflərini, eləcə də işi necə təkmilləşdirə biləcəklərinə dair fikirlərini öz qiymətləndirmələri ilə əhatə səhifəsini çevirmələrini xahiş etməyi düşünmək daha məqsədəuyğun sayıla bilər. Şərhlər hər bir tələbənin işlə bağlı narahatlığına daha yaxşı uyğunlaşdırıla bilər. Şagirdlərin nə üçün müəyyən qiymət aldıqlarını və daha yüksək qiymətlər üçün gələcək işlərini necə təkmilləşdirəcəklərini başa düşə biləcək qədər şərhlər daxil etdiyimizə əmin olmalıyıq. Uzun izahatlar yazmaq əvəzinə "məni gör" sözlərindən istifadə edin. Bəzi məsələləri üz-üzə izah etmək daha səmərəli ola bilər. Belə ki, tələbələrin izləmək və tələbələrə izləməyi unutduqlarını xatırlatmaq vacibdir. Ümumi səhvlər üçün qısa koddan istifadə edilir və açarı tələbələrə verilir. Qiymətləndirdikdən sonra kurslar və ya bölmələr üçün uyğundursa, qiymətləri hesablamaq üçün elektron cədvəldən istifadə edilir. Əgər müəllim onlarla tanış deyilsə, onlardan necə istifadə ediləcəyinii öyrənmək bir az vaxt apara bilər, lakin qiymət xalları və ya fərqli ölçülü məktub qiymətləri ilə işlənilərsə, vaxta qənaət əhəmiyyətli ola bilər. Bütün elektron qeydlərin ehtiyat nüsxəsini çıxarılmalıdır. Tələbə davamlı olaraq qeyri-qənaətbəxş işlərə müraciət edirsə, bunun səbəbini tapmaq və fəaliyyət planı hazırlamaq üçün onunla görüşmək vacib şərtlərdən biridir. Çox vaxt tələbəyə daha səmərəli təhsil strategiyası lazımdır. Dərsin vaxtına təsirini məhdudlaşdırmaq üçün bölmənin sonunda işi geri qaytarılır və siniflə ümumi problemlər müzakirə edilir. Ola bilsin ki, prosesi asanlaşdırmaq üçün qiymətləndirmə meyarlarını müəllim özü dəyişdirə bilərs. Hər bir problemi tapşırıq üzrə qiymətləndirmək lazımdırmı? Kobud qaralamalar üzrə şərhlər (qiymət əvəzinə) kifayətdirmi? Daha sadə rubrikadan istifadə etmək olarmı (məsələn, beş ballıq şkala əvəzinə keçmək/keçməmək)? və s.

Şagirdlər bəzən qiymətləri öz dəyərlərinin və ya gələcək imkanlarının göstəriciləri kimi düşünürlər və onlar öyrənə biləcəklərindən daha çox qiymətlərinə diqqət yetirə bilərlər. Bununla belə, müəllimlər tələbələrə öyrənmələri haqqında rəy bildirmək prosesində qiymətlər təyin edirlər. Tələbələrin işlərindən öyrənmələri çox vacibdir və qiymətləndirmə meyarları buna kömək etməlidir.

Tələbə işini ədalətli qiymətləndirdiyimizə əmin olmaq istəyirik, o mənada ki, mühakimələrimiz subyektiv və ya ziddiyyətli deyil. Tələbələr ədalətə layiqdirlər.Buna görə də bu ədaləti təmin etmək üçün effektiv qiymətləndirmə qiymətləndirmənin öyrənmə vasitəsi kimi necə fəaliyyət göstərə biləcəyini başa düşməyi, bəzi qiymətlərin subyektiv meyarlara əsaslanacağını qəbul etməyi və tələbələri dinləmək və onlarla ünsiyyət qurmaq istəyini tələb edir. Şagirdlərin diqqətini "qiymət almağa" deyil, öyrənmə prosesinə yönəltməyə kömək etmək, eyni zamanda qiymətlərin tələbələr üçün əhəmiyyətini etiraf etmək vacibdir. GSI-lər tələbələrin özləri olduğundan, effektiv qiymətləndirmə tələblərini digər iş yükü və peşəkar öhdəliklərlə tarazlaşdırmaq vacibdir.

Qiymətləndirməyə bir proses kimi baxmağa kömək edir. Bu, sadəcə olaraq nömrə və ya hərf qiymətlərinin təyin edilməsi məsələsi deyil. Prosesin qiymətləndirilməsi kimi bu fəaliyyətlərin bəzilərini və ya hamısını əhatə edə bilər:

• Qiymətləndirmə siyasəti vasitəsilə tələbələrlə gözləntiləri müəyyən etmək

• Kursun məqsədlərini təşviq edən tapşırıqların və imtahanların layihələşdirmək

• Standartların və meyarların müəyyən etmək

• Ardıcıllıq və ədalətlilik üçün qiymətləndirmə standartının tətbiqinin kalibrləşdirmək

• Səy və təkmilləşdirmə haqqında qərarlar qəbul etmək

• Hər bir tələbənin öyrənməsinə rəhbərlik etmək üçün bu və ya digər şərhlərin ən faydalı olacağına qərar vermək

• Tapşırıqları geri qaytarmaq və tələbələrə qiymətlərini anlamağa kömək etmək

Bu prinsiplərə əməl etmək qiymətləndirməni həm daha effektiv, həm də daha səmərəli etmək üçün əlverişlidir. Burada həmçinin tapşırıqların tərtib edilməsi, standartların və siyasətlərin müəyyən edilməsi, qiymətləndirmə rubrikalarından istifadə və tələbə işi ilə bağlı şərhlərin yazılması ilə bağlı xüsusi təkliflərə rast gəlmək olar. Müzakirə bölmələri həmişə ənənəvi mühazirə kontekstində baş tutmayan əməkdaşlıq və fəal öyrənmə imkanlarını təmin edir. Bölmənin rolu kurs materialı mühazirədə təqdim edildikdən sonra qalan hər hansı bir çaşqınlığı aradan qaldırmaqdan kənara çıxır. Bölmə həmçinin tələbələrə müzakirə etmək, suallar vermək və kursun məzmununu tətbiq etmək imkanı verir, nəticədə verilən taşırıqlar daha dərindən öyrənilir. Bu bölmə sizin müzakirə bölmənizdə tələbə öyrənməsini maksimum dərəcədə artırmaq üçün geniş məsləhətlər və resursları ehtiva edir. Müzakirə bölmələrinin tədrisinin ilk həftələrində bir çox tələbələrin mühazirədə müzakirə olunan tapıntıların arxasındakı eksperimental metodları xatırlamaqda çətinlik çəkdiyini aşkar etmək olar.Zaman keçdikcə, hətta izahat fasilələri xaricində

tələbələrin tədqiqat metodları haqqında daha çox suallar verdiyini, tez-tez eksperimental tapıntılar üçün alternativ fərziyyələr və izahatlar qaldırdıqlarının şahidi oluruq. İzahat fasiləsi müdaxiləsi eyni zamanda tələbələri materialla sinifdən kənara çıxarıla biləcək şəkildə məşğul olmağa təşviq edir və onlara sübutların arxasındakı eksperimental üsullar haqqında dərindən düşünməyə imkan verir.

Tələbələrin səviyyələr üzrə qiymətləndirmə standartları

Şagirlərin bilik və bacarıqları necə mənimsədiklərini nəzərə alaraq,onların bu nailiyyətini qiymətləndirməyin əsas göstəricisini 5 fəaliyyət növü olaraq qruplaşdırmaq olar.

1. yazılı formada test tapşırıqları
2. şagirdlərin şifahi şəkildə verdiyi cavabları
3. sərbəst şəkildə yerinə yetirilən həm ev, həm də sinif tapşırıqıları
4. yaradıcı çalışmalar
5. oyun tipli fəaliyyətlər (məsələn krossvord həlli, yarışlar və s)

Hər bir fəaliyyət növü qiymətləndirilmə zamanı müəyyən xüsusiyyətə malikdir. Onları bu xüsusiyyətləri müxtəlif cür meyarlara malik olmaqlarından irəli gəlir. Bu meyarlar aşağıdakılardır:

- Yazılı formada olan test tapşırıqları həm ümumi testdə mövcud olan tapşırıq sayından, həm də onların mürəkkəblik dərəcəsindən asılı olaraq qiymətləndirilir.
- Şifahi formada verilən cavablar şagirdlərin verdiyi cavabın düzgün, konkret və dolğun olmasından, verilən sualın cavabını əhatə etmə dərəcəsindən, şagirdin nitqinin səlis, məntiqi və ardıcıl olmasından asılı olaraq qiymətləndirilir.
- Sərbəst şəkildə yerinə yetirilən ev və sinif tapşırıqları şagirdlərinn yerinə yetirmiş olduğu hər bir çalışma üçün vacib olan onun təlim məqsədindən asılı olaraq qiymətləndirilir və bu qiymətləndirmə keyfiyyət xarakterinə malik olur.
- Yaradıcı çalışmalar çagirdlərin ideya vı təkliflərinin məhsuldar olmasından, onların uyğunluu və orjinal olmasından asılı olaraq, həmçinin bu çalışmaların yerinə yetirilmə çevikliyinə əsaslanaraq qiymətləndirilir.

Şagirdlərin müvəffəqiyyətlərini həvəsləndirmək, onları qabiliyyət dərəcələrinə uyğun olaraq fərqləndirmək üçün 4 səviyyədə qiymətləndirmə forması müəyyən olunmuşdur.

Şagirdlərin qazandıqları bilik və ya bacarıqların qiymətləndirilməsini səviyyələr üzrə ağıdakı müəyyən etmək olar :

Səviyyə	Meyar	Mənimsəmə
Səviyyə 1	ən aşağı (qeyri kafi)	14% dən aşağı
Səviyyə 2	orta(kafi)	15-44%
Səviyyə 3	yaxşı	45-79%
Səviyyə 4	yuxarı(əla)	80-100%

Ən aşağı səviyyəni-1; ən yüksək səviyyəni isə- 2 göstərir. Əksər şagirdlər səviyyə 1 və ya səviyyə 2-yə aid olunur. Digər şagirdlərdən istedadlarına görə fərqlənənlər üçün isə səviyy-3 və ya səviyyə-4 nəzərdə tutulmuşdur.

Yuxarıda göstərilən səviyyələrə əsasən şagirdlərin bilik və bacarıqlarının qiymətləndirilməsi meyarları aşağıdakı kimidir:

Mənimsəmə səviyyəsi	5 ballıq sistemlə səviyyəsi 20% dən aşağı	Mənimsəmə 2	10 ballıq sistemlə ballar 20%dən aşağı 1
20-49%	3	20-29%	2
		30-39%	3
		40-49%	4
50-79%	4	50-59%	5
		60-69%	6
		70-79%	7
80-100%	5	80-89%	8
		90-94%	9
		95-100%	10

İstifadə edilmiş ədəbiyyat:

1.Abbasov Ə., Əhmədov A. Məktəbəqədər təhsilin konseptual problemləri. //Kurikulum, 2011, № 2

2. Fəal təlim. Təlimatçılar və müəllimlər üçün vəsait. Azərbaycan Respublikası Təhsil Nazirliyi/ Təhsilin İnkişafı Mərkəzi, Bakı, 2003.

3. İnnovativ dərs modelləri. Müəllimlər üçün metodik vəsait. Bakı, Açıq Cəmiyyət İnstitutu – Yardım Fondu, 2002.

4. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı, TPİ, 2011.

5. "Məktəbəqədər təhsilin dövlət standartı və proqramı".

6. Anlayışla Öyrənmə: Yeddi Prinsip." Milli Tədqiqat Şurası. 2002.

7.Bocharova OV, Arefyeva ON. Application of ICT in the classroom and after school. Kurgan: IPKiPRO of Kurgan Region; 2008.

8. British Council, Innovations in learning technologies for English language teaching. British Council 2013, 43p.

9. Druzhinin VI, Krivolapova NA. Organization of innovative activity in educational institution. Kurgan: IPKiPRO of Kurgan region, 2008.

RƏSULZADƏ AYDAN

Tələbələrin səviyyələr üzrə qiymətləndirmə standartları və effektiv qiymətləndirmə

XÜLASƏ

Yuxarıda qeyd olunanlardan da məlum olduki, şagirdlərin əldə etdikləri bilik və bacarıqlarına əsaslanaraq onların müvəffəqiyyətlərinin müəyyən meyara əsasən qimətləndirilməsi aparılır. Lakin bunun əksinə olaraq təlimin əsas nəticəsi kimi şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi aparılmır. Burada təəccüb doğuran əsas məqam ondan ibarətdir ki, təlimin məqsədlərini nümayiş etdirmək üçün mövcud olan bütün sənədlərdə, təlim prosesi ərzində şagrdlərdə formalaşması nəzərdə tutulan şəxsi keyfiyyətlər öz əksini tapır. Bu onunla əlaqəlidir ki, şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsini təcrübi olaraq həyata keçirmək olduqca mürəkkəb məsələdir. Lakin onuda nəzərə almaq lazımdır ki, təlimin yekunları barədə tam təsəvvürlər yaratmaq məhz şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsi zəmnində mümkündür. Bunun həyata keçirilməsində isə, məktəblərdə mövcud olan psixoloji xidmət böyük vəzifəyə malikdir.

Buna görə də şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsinin diaqnostik metod və üsullarının müəyyən olunması, onların ümumi bilik və bacarıqlarının qiymətləndirilməsinin tərkibinə daxil olan mühün məsələlərindən hesab olunur.

Ənənəvi təlim metodlarında yoxlama yazı işləridən və ya test tapşırıqlarından və bunlara şagirdlərin verdiyi cavablardan asılı olaraq şagirdlərin bilik və bacarıqları qiymətləndirilir. Cari qiymət və yekun qiymət olmaqla 2 növ qiymət ayrılır. Cari qiymət dedikdə, şagirdin ayrı- ayrı dərs mövzularını necə mənimsədiyini müəyyən etmək üçün verilən qiymət nəzərdə tutulur. Yekun qiymət dedikdə isə, ümumi tədris nəticəsində çıxarılan qiymət nəzərdə tutulur.

Nəticəyönümlü təlim isə başqa prinsiplərə əsaslanır. Bu təlimdə şagirdlərin müəyyən biliklərə yiyələnməsi, bu biliklərdən düzgün istifadə etməsi və onlardan müəyyən nəticə çıxarması kimi proseslərin məcmusu şagirdlərin müvəffəqiyyətlərinin qiymətləndirilməsi kimi nəzərdə tutulur. Və aşağıda göstərilən məqsədlərə qulluq edir:

- şagirdlərdə baş verən irəliləyişlərin yaxudda geriləmələrin daim müşahidə olunması yəni monitorinqi ;
- -təlim prosesi zamanı düzgün qərarların qəbul olunması;
- -tədris zamanı şagirdin təlim nailiyyətlərinin dəyərləndirilməsi.

Təhsilin daim qarşılıqlı əlaqədə olan 2 əsas tərəfi kimi birinci qiymətləndirməni və digəri kimi isə təlimi qeyd etmək lazımdır. Mövcud sistem əsasında həyata keçirilən qiymətləndirmə özü əlverişli əks əlaqə vasitəsi kimi

nəzərdə tutulur. Bu əlverişli əks- əlaqə təlimin nətəcələri və ona olan maraqlı tərəflər arasında baş verir

Açar sözlər: effektiv qiymətləndirmə, qiymətləndirmə standartları, şərhlərin yazılması

RASULZADAAYDAN

ASSESSMENT STANDARDS AND EFFECTIVE ASSESSMENT OF STUDENTS ACROSS LEVELS

SUMMARY

From the above, it became clear that the students' success is evaluated based on certain criteria based on their acquired knowledge and skills. However, on the contrary, the assessment of the personal qualities of the students is not carried out as the main result of the training. The main point that is surprising here is that in all the documents available to demonstrate the goals of the training, the personal qualities that are supposed to be formed in the students during the training process are reflected. This is related to the fact that it is quite a complex issue to empirically evaluate the personal qualities of students. However, it is necessary to take into account that it is possible to create complete ideas about the results of the training precisely in the context of the evaluation of the personal qualities of the students. In the implementation of this, the psychological service available in schools has a great role.

Therefore, determining the diagnostic methods and methods of assessing the personal qualities of students is considered one of the important issues included in the assessment of their general knowledge and skills.

In traditional teaching methods, students' knowledge and skills are evaluated depending on written tests or tests and their answers. There are 2 types of prices: current price and final price. Current grade refers to the grade given to determine how the student mastered individual lesson topics. The final grade means the grade obtained as a result of general education.

Results-oriented training is based on other principles. In this training, the set of processes such as students acquiring certain knowledge, using this knowledge correctly and drawing certain conclusions from them is considered as the assessment of students' success.

And it serves the following purposes:

- constant monitoring of student progress or setbacks;
- making the right decisions during the training process;
- evaluation of student's learning achievements during teaching.

As the 2 main aspects of education that are constantly interacting, it is necessary to mention the first evaluation and the second training. Evaluation based

on the current system is intended as a convenient feedback tool. This positive feedback loop occurs between learning outcomes and stakeholders.

Key words: effective assessment, assessment standards, writing comments

Расулзаде Айдан

СТАНДАРТЫ ОЦЕНИВАНИЯ И ЭФФЕКТИВНОЕ ОЦЕНИВАНИЕ УЧАЩИХСЯ НА РАЗНЫХ УРОВНЯХ

РЕЗЮМЕ

Из вышеизложенного стало понятно, что успешность студентов оценивается по определенным критериям, основанным на приобретенных ими знаниях и умениях. Однако, наоборот, оценка личностных качеств обучающихся не проводится как основной результат обучения. Главное, что здесь удивляет, это то, что во всех имеющихся документах, демонстрирующих цели обучения, отражены те личностные качества, которые предполагается сформировать у студентов в процессе обучения. Это связано с тем, что эмпирически оценить личностные качества студентов достаточно сложно. Однако необходимо учитывать, что составить целостное представление о результатах обучения можно именно в контексте оценки личностных качеств обучающихся. В реализации этого большую роль играет психологическая служба, имеющаяся в школах.

Поэтому определение методов диагностики и методов оценки личностных качеств студентов считается одним из важных вопросов, входящих в оценку их общих знаний и умений.

В традиционных методах обучения знания и умения учащихся оцениваются в зависимости от письменных тестов или тестов и их ответов. Существует 2 вида цен: текущая цена и окончательная цена. Текущая оценка относится к оценке, выставленной для определения того, насколько учащийся усвоил отдельные темы урока. Итоговая оценка означает оценку, полученную в результате общего образования.

Обучение, ориентированное на результат, основано на других принципах.В данном обучении в качестве оценки успешности студентов рассматривается совокупность таких процессов, как приобретение студентами определенных знаний, правильное использование этих знаний и вывод из них определенных выводов. И служит следующим целям:

- постоянный контроль успеваемости или неудач учащегося;
- принятие правильных решений во время тренировочного процесса;
- - оценка учебных достижений студента в процессе обучения.

В качестве двух основных аспектов образования, которые постоянно взаимодействуют между собой, необходимо упомянуть первое оценивание и

второе обучение. Оценка, основанная на текущей системе, задумана как удобный инструмент обратной связи. Эта петля положительной обратной связи возникает между результатами обучения и заинтересованными сторонами.

Ключевые слова: эффективная оценка, стандарты оценки, написание комментариев

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: dos. Ülviyyə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏFİQƏ NƏCƏFOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Sumqayıt Dövlət Universiteti
E-mail:shafiganajafova55@mail.ru

ŞEKSPİR "SONET"LƏRİNDƏ GÖZƏLLİK ANLAYIŞININ FUNKSİONAL SƏVİYYƏLƏRİ

V.Şekspir bütün dünya ədəbiyyatında əsrlərlə yazıçı-dramaturq olaraq öz yerini qoruyub-saxlayan çox az sayda qələm sahibindən biridir. İngilis ədəbiyyatının görkəmli nümayəndəsi olan Şekspir daha çox dram əsərləri ilə tanınsa da, hələ öz zamanında belə digər janrlarda əsər yazan şair olaraq da şöhrət qazanmışdır. Onun qələmə aldığı sonetlər çox yayğınlaşmış, bir daha mütəfəkkirin çoxşaxəli yaraıcılığının qiymətli örnəkləri olaraq aşkara çıxmışdır.

Məlumdur ki, sonet janrı İngiltərədə deyil, hələ XIV əsrin əvvəllərində İtaliyada yaranmışdır. Ancaq V.Şekspir məhz 154 soneti ilə sonet janrının ingilisdilli poeziyada dəyərli nümunələrini yarada bilmişdir (1, 4). Bu eyni zamanda onu təsdiq edir ki, böyük sənətkarlar yalnız ilk nümunələri yaratmaqda deyil, öz məqsəd və məfkurələrini həyata keçirmək üçün işlək janrlardan da, hətta digər ölkələrdə yayğın olan bədii formalardan da istifadə etməkdə maraqlıdırlar. Əsas odur ki, bu nümunələr əsasında yeni fikirlər, yeni baxış tərzi ortaya qoymaq mümkün olsun. Məhz Şekspir sonetləri bu cəhətdən çox əhəmiyyətlidir. Sonetlərin bədii səviyyəsi, poetik strukturu və məzmun zənginliyi ədəbiyyatşünaslıqda ciddi araşdırma mövzusu olaraq bu gün də qalır. Ona baxmayaraq ki, bizi, bu sonetlərin yazılışından ən az IV əsrdən çox bir zaman məsafəsi ayırır.

Şekspir sonetlərinin yalnız poetik strukturu deyil, həmçinin məzmun səviyyəsi müxtəlif rakursdan tədqiq oluna bilər. Lirik-emosional, ictimai-sosial, dini-fəlsəfi, mənəvi-ruhani, psixi-ireal kontekstlərdə bu sonetləri araşdırmaq mümkündür. Bizim məqsədimiz bu araşdırmada sonetlərdə bədii səviyyədə təzahür edən gözəllik anlayışının funksional səviyyələrini tədqiq etmək, mütəfəkkirin təfəkkür tərzinin poeziya nümunələrində hansı metodlarla meydana çıxmasına nəzər yetirməkdir. Bunun üçün təbiidir ki, öncə gözəllik anlayışının kateqorial mahiyyətinə diqqət yetirmək vacibdir. Qısaca olaraq bildirmək lazımdır ki, gözəllik anlayışı estetik qavram olaraq geniş səviyyədə qəbul olunur. Bəzən estetikanın bir kateqoriyası kimi, bəzən də estetikanın əsası olaraq səciyyələnir (2, 18).

Biz, V.Şekspir sonetlərində gözəllik anlayışının müxtəlif səviyyələrini izləyə bilirik. Aşağıdakı örnəyi təqdim edərək Şekspir baxışında gözəllik anlayışına nəzər yetirməyə çalışacağıq, ancaq öncə qeyd edək ki, V.Şekspir sonetlərini ingilis dilindən Azərbaycan dilinə Sabir Mustafa tərcümə etmişdir və bu araşdırmada bu tərcümədən istifadə ediləcəkdir (1, 303).

Gözəllik hifz edir öz surətini,
Gülüm, gözəlliklə həyat qoşadır.
Solan çiçəklərin təravətini,
Qönçə çiçəklərin hüsnü yaşadır.

Göründüyü kimi, mütəfəkkir fəlsəfi görüşlərini bədii səviyyədə təzahür etdirərək gözəlliyin həyat ilə qoşa olduğunu, gözəlliyin özünü hifz etməsini, əslində gözəlliyin itməməsini, solan çiçəklərin qönçə çiçəklərdə yaşamasını göstərməsi gözəllik anlayışına kateqorial yanaşmanı göstərir. Təsadüfi deyil ki, "Estetika" adlı tədqiqatında Y.Borev yazır ki, gözəlliyin sirri – həyatın sirridir (2, 28).

Sonetin ilk bəndinin son iki misrasında dialektik inkişafda estetik qavramın təcəssüm etməsi məhz Şekspir qələminə məxsus sənət hadisəsidir. Bu misralarda maddi-fiziki, bioloji-genetik, mənəvi-ruhani yaşantının davamiyyətinin lirik məzmunda verilməsi sənətkarın estetik dünyagörüşünün zənginliyindən xəbər verir. Eyni zamanda sonetin ilk bəndinin fikir yükü sonrakı bəndlər üçün keçid funksiyasında çıxış edir:

Fəqət sən vurulub öz gül hüsnünə,
Onu xərcləyirsən boş yerə, əbəs.
Ən qəddar düşmənsən özün özünə,
Varını yoxluqla edirsən əvəz.

Göründüyü kimi, lirik obraz öz duyğularını təqdim etmək üçün fəlsəfi görüşlərini zərif misralarda əridib oxucusuna təqdim edir, sənət estetikasını da ayrıca olaraq diqqətə çatdırır. Lirik mövzuda məhz fəlsəfi-dialektik məzmunun verilməsi də elə gözəllik anlayışının, yəni estetik tələbatın qanunlarından irəli gəlir. N.Hacıyeva yazır ki, insanın özünün hərəkət və rəftarı da bu və ya digər estetik hiss doğura bilər (3, 6).

Elə şair də fikirlərini sevdiyi və yaxud gözəlliyinə heyran olduğu gözəlin rəftar və davranışına uyğun quraraq, öz gözəlliyini özünə məftun olaraq boş yerə xərcləməməsi kimi didaktik tövsiyyə üzərində təqdim etməyə çalışır. Biz burada estetik anlayışın daha bir tərəfini görürük. Bu mənəvi zənginliyin gözəllik anlayışına əhəmiyyətli təsirini göstərir. Eyni zamanda dialektik qanunları əsaslandıran tezis və antitezis (4, 112) kimi diqqət çəkib, təkəbbürün, eqoist davranışın gözəlliyə xələl gətirməsi kimi işarələnərək gözəllik qavramının daha fərqli nüanslarını meydana çıxarır. Demək, Şekspirə görə, özünə vurğun olmaq gözəlliyi dərk etməmək, gözəlliyi boş yerə xərcləmək, qönçə gözəlliyi solan gözəlliklə əvəz etməkdir. Bu ardıcıl fikir tərzini daha sonra gələn bənddə aydın müşahidə edirik:

Bu gün dünyamızın zinəti sənsən,
Bahar müjdəsisən, qönçəsən artıq.
Özündə özünü dustaq edirsən,
Nədir bu simiclik, bu israfçılıq? (1, 11).

V.Şekspir sonetlərdə gözəllik qavramının müxtəlif səviyyələrini təqdim edir. Əgər nümunə olaraq nəzər saldığımız bu sonetdə gözəlliyə eqoist yanaşmanın zərər

gətirdiyi kimi mühakimə irəli sürülürsə, bu təqdimat eyni zamanda gözəl obrazında işarələnirsə, örnək verəcəyimiz növbəti sonetdə isə səciyyələnən insan obrazında həyatın əxlaq qanunları əsasında qurulduğunda gözəllik təzahürünün müşahidə olunmasına diqqət yetirilir. Şair bu sonetdə çox incəliklə gözəlliyin fərqli səviyyələrini fərddən-fərdə ötürülən sakral vəzifə olaraq təqdim edir. Ancaq sonetin poetik strukturunda müxtəlif kontekstlər daxilində bu fikir nəticə olaraq görünür. İlk bənddə qocalıq və gənclik təzadının binar oppozisiyası estetik qavram olaraq iştirak edir:

Qocalıq üstünə hücum edəndə,
Vaxt da gül üzündə qazacaq səngər.
Gözəlliyin tül tək solub gedəndə,
Cındırından hürküb diksinəcəklər.

Sonetdə inkişaf xətti üzrə gəncliklə qocalığın qarşılaşdırılması, gözəlliklə gözəllikdən təbii məhrumiyyət, dialektik qanunlar əsasında tezis-antitezis müddəası və iddiası estetik davranışın modeli olaraq klişeləşir:

Deyəcəklər: hanı büllur xəzinən -
Keçmiş gözəlliyin, zavallı insan? -
O, sönmüş gözümdə gizlənib, desən,
Özün öz sözündən utanacaqsan.

Aydın görünür ki, mütəfəkkir burada xəzinə dedikdə gəncliyi nəzərdə tutaraq gözəlliyi yalnız zahiri deyil, həm də daxili kateqorik anlayış kimi qəbul edərək qüvvət, hərəkət və enerji mənbəyi olan fiziki üsütünlüyü də estetik norma kimi diqqətə çatdırır. Təbiidir ki, sənətkarın gənclik-qocalıq kontekstlərində təqdim etdiyi bu fikirlər məqsədəyetmə vasitəsi kimi səciyyələnir. Yekun fikir, məntiqi müddəa sonuncu bənddə və sonet sonluğu olan poetik formulda aydın görünür:

Gül tək balaları göstərib bir-bir,
İftixarla desən: bu gözəl gənclər,
Mənim gəncliyimdir, gözəlliyimdir,
Deməli, döyüşdə sənindir zəfər!
Soyumuş qanın da qaynayıb onda,
Çağlar övladının damarlarında (1, 11, 12).

Göründüyü kimi, sənətkar gözəlliyin daha fərqli və təkamülə söykənən əhəmiyyətli səviyyəsini diqqətə çatdırır. Şekspirin gəldiyi yekun qənaətə görə insan müvəqqətidir, vaxt amansızdır, bütün gözəlliklər nisbidir, yalnız gözəllik səndə deyil, səndən sonra səni yaşadan boyunda, soyunda, övladlarındadır. Bu həm də insanı kamilliyə səsləyən, əxlaq etalonunu əsas götürən mükəmməl dünyagörüşüdür. Bu da təbii ki, gözəlliyə yalnız bir anın, bir vaxtın gözüylə deyil, gələcək zamanların gözüylə baxmaq, inanc, əxlaq və gözəlliyin vəhdətini görə bilmək ustalığıdır.

Biz V.Şekspirin gözəllik qavramına "bu gün və sabah" prizmasından yanaşmasını bir çox sonetlərdə müşahidə edirik. Sənətkar bir sonetində deyir ki, "öz ömür güzgünü yarat, anan sənə baxanda o güzgüdə öz gəncliyini görsün" və yaxud

“Ey gözəl, öz gözəlliyini daimi görmə, çalış varisin olsun ki, sənin gözəlliyin də itib-getməsin”, “Yerində övladın qalmasa, səndən də üz döndərərlər” (1, 12, 13, 14) və s.

Bu sonetlərdə mətn təhlili aparılarkən mütəfəkkirin eyni zamanda genefond immuniteti yaratmaq cəhdini bədii səviyyədə görmüş oluruq. Buradan bu nəticəyə gəlmək olur ki, Şekspir bu kontekstdə yalnız şair və yazıçı kimi deyil, həm də milli kimliyini bilən, ictimai-sosial məzmunu qabardan bir vətəndaş olaraq da işarələnir.

Müəllif bu sonetlərdə müxtəlif mövzular qursa da, nəticədə gözəllik qavramının bir anlamı meydana çıxır ki, soy aktı mövzusu sənətkarın yaradıcılığından ana xətt kimi keçir. Aşağıdakı sonetə nəzər yetirək:

Od qızı qaldırıb odlu başını,
Qızıl beşiyindən durar hər səhər.
Yer üzü görəndə qəlb sirdaşını,
Ona məhəbbətlə səcdə eyləyər.

Burada müəllif astronomik bilgilərini süjet xətti kimi qurur, günəşin trayektoriyasını, yerin günəş ətrafında stabil hərəkətini bədii ifadələrlə təsvir edir. Hətta günəşin mərkəzdə durmasını, günəşin ən yüksək zirvəsi anı olan günəş günortasını (5, 50) təsvir edərək bu astronomik faktı məzmun səviyyəsinə uyğun olaraq bədiiləşdirir:

Bu məşəl günorta çatar zirvəyə,
Yaşar gəncliyinin xoş dəmlərini.
Hamı heyran-heyran boylanıb göyə,
Öpər baxışıyla qədəmlərini.

Müəllif göstərir ki, günəş batmağa gedərkən günün əvvəlində ona üzünü tutan insanlar günün sonunda arxalarını çevirib gedirlər. Günəşin hərəkətini mövzu olaraq seçən V.Şekspir sonda öz məqsədini gün işığına çıxarır və təsirli frazasını təqdim edir:

Yerində övladın qalmasa əgər,
Səndən də beləcə üz döndərərlər (1, 14).

Biz, gözəllik anlayışının məzmunca eyni, şəkilcə fərqli təzahürlərinə də bu sonetlərdə rast gəlmiş oluruq. Belə ki, ilk sonetlərdə insan estetik baxımdan işarələnirsə, daha sonra təbiət ünsürləri, astronomik işarələr, təqvim periodikliyi özünü göstərir. İnsan-gözəl, gənclik-qocalıq, yay-qış, günəş-yer, ay-ulduz, musiqi-nəğmə və s. Anlayılar. Şekspir sonetlərində gözəllik qavramının müxtəlif kontekstlərdə fərqli səciyyələrini ifadə etmək üçün iştirak edir. Şekspir üçün bütün həyat və təbiət gözəlliyin təcəssümüdür. Bunu şəkilcə və mənaca anladıqda ayrı-ayrı mövzuların bir mövzuya bağlanıb gözəllik harmoniyası təşkil etdiyini görmək olur.

Biz yuxarıda günəş trayektoriyasının bədii şəkildə təsvir olunmasının yekun müddəa üçün vasitə rolunda çıxış etdiyinə diqqət yetirdik. Eyni spesifika digər sonetlərdə də diqqət çəkir. Müəllif qeyd edir ki, zaman “vahiməli qışa çevirir yayı” və bu zaman şüşə qəfəslərdə əsir kimi saxlanan gülün rayihəsi qışda da qorunub saxlanır”. Yayın qışa çevrilməsini, istinin soyuqla əvəzlənməsini, hətta torpağın belə

“ölü tək kəfənə bürünməsi”ni təsvir edən sənətkar əslində gülün rayihəsinin qorunmasını yekun iki misrada təqdim edir:

Güllər itirsə də qışda çətirini,
Saxlayır yenə də gözəl ətrini (1, 13).

Yekun müddəa göründüyü kimi gözəllik anlayışının daha bir səviyyəsini nəzərə çatdırır. Gözəlliyin qorunmasının qışda belə (məcazi oxunuşda ömrün qışında) vacibliyini göstərən V.Şekspir məhz estetik qavramın sənət hadisəsi olaraq bədii təcəssümünü təbiətin yay-qış mövsümü kontekstində təqdim edir.

V.Şekspirin sonetlərində estetikanın kateqoriyalarınan olan eybəcərlik məzmununu da görə bilirik. Y.Borev B.A.Turaevə istinadla hələ qədim misirlilərin bu estetik qavramı necə gördüyünü göstərərək yazır ki, bütün sağlamlar və gözəllər qocalma prosesində xəstəhal və eybəcər olur, yaxşı pisə çevrilir, zövq itirilir (2, 97, 98).

Biz bu məzmunda sonetlərin bir qismindən örnək verərək eybəcərlik qavramının eyni şəkildə Şekspir təfəkküründə və qələmində yer aldığına diqqət yetirək:

“Qocalıq üstünə hücum edəndə,
Vaxt da gül üzündə qazacaq səngər”
“Ey israfçı gözəl, ömrü anmayıb,
Dağıtma mirası, düşün sonunu”
“Qışın ağır əli ömrün yazmı,
Borana, çovğuna çevirməmiş sən,
Havayı soldurma gül murazını,
Çalış ki, ətirlə dolsun piyalən”
“Solmuş gül hüsnünü güzgü göstərər,
Saat- keçən vaxtı, - itən sərvəti” (1, 11, 12, 13, 49) və s.

Göründüyü kimi, şair müxtəlif metaforalarla eyni kontekstdə bədii nümunələr yaradır, eybəcərliyin kateqorik anlam olaraq izlənilməsi bu misralarda aydın olur. Biz estetik anlayış kimi eybəcərliyin sosial səviyyəsinə də toxunmağı vacib bilirik. Təqdim etdiyimiz təbii eybəcərliklə yanaşı sosial eybəcərlik və yaxud eybəcərliyin məzmunu da gözəllik qavramının ziddi olaraq kateqoriya kimi işarələnir. N.Hacıyeva bu barədə yazır ki, Etikadakı xeyir və şər problemləri elə incəsənətdə də bədii şəkildə həll edilərək, gözəllik və eybəcərlik kimi qiymətləndirilir (3, 55).

C.A.Aytekin, G.Altıntağa görə, “bir insanda güzelliğin ne olabileceği düşünüldüğünde; akla, o kişinin davranışları veya fikirleri yani ruhsal ve zihinsel değerleri hakkındaki izlenimleri gelmektedir. Bu ahlaki bir soruna dönüşmektedir” (6, 115).

Aydındır ki, eybəcərliyin gözəlliklə antonim təşkil etməsi ictimai-sosial məzmun səviyyəsində inkar oluna bilməz (7, 97) və Şekspir sonetlərində biz bu konteksti də müşahidə edə bilirik. Ancaq sənətkar bu anlamı da fərqli şəkildə qələmə ala bilir. Şair bir sonetində xeyirlə-şərin, gözəlliklə-eybəcərliyin, fəzilətlə-rəzalətin

qarşıdurmasında mövcud şəraitə və siyasi sistemin gətirdiyi antiinsani münasibətlərə uyğun olaraq müsbətin mənfiyə uduzduğunu görüb intihar etmək istəyən insanın sonda başqası üçün yaşamağı seçdiyini təsvir edir, həyatın bütün halda davam etməsini doğru sayır, dinamik inkişafın nəticə etibarilə müsbətin mənfi üzərində qələbəsini təmin edəcəyinə inanır:

Ölüm istəyirəm, çarə budur, bax,
Səni tək qoymağa qıymıram ancaq (1, 44).

Şekspirə görə, eybəcərlik yalnız görünüşdə deyil, həm də daxildə mövcuddur. Onun əksinə olaraq da təbiidir ki, gözəllik də eyni anlamda əks olunur. Şair bir sonetində eybəcərliyin gözəllik kateqoriyası kimi gözəlliklə iç-içə daşındığını, aldadıcı funksiyada iştirakını, həm əks anlam kontekstində, həm də gözəlliyə məhkum olan qavram kimi mövcudluğunu işarələyir. "Sənin görkəmin gözəldir, kiminsə sənə söz deməyə həddi olmaz. Zahirin zahiri hörmət qazandırır, ancaq daxilinə nəzər salanda tərifin yerini məzəmmət alır. Çünki qəlbini nə qədər gizlətsən də əməlin ifşa edir, daxili eybəcərliyin gözəlliyini itirir" (1, 45).

Şair eyni zamanda bu eybəcərliyin əxlaq normasının dəyişməsindən, ailə etikasının pozulmasından, şəxsiyyət amilinin deqredasiyaya uğramasından irəli gəldiyini söyləyərək bu əxlaqi qüsuru aşağıdakı şəkildə mühakimə edir:

Ətrin yaraşmayır hüsnünə nədən,
Çünki qoxulayır səni hər yetən (1, 45).

Gözəllik estetikanın bir kateqoriyası olaraq hər zaman araşdırma mənbəyi olmuşdur. Bunun üçün gözəlliyə müxtəlif baxışlar sərgilənmişdir. "Gözəlliyin bizi əhatə edən aləmdən irəli gəldiyini iddia edən materialist estetikasının əksinə olaraq, İdealist estetika (Platon, Foma, Akvinski və b.) gözəlliyin İlahi ideal mahiyyəti haqqında ideyanı müdafiə etmişdir (7, 248).

Biz, G.Hegel kimi filosoflarda da məhz eyni ideyanı görmüş oluruq (8, 8).

Biz, Şekspirdə də məhz İdealist estetikanı görə bilirik. A.Hacıyev yazır ki, Orta əsrlərin əvvəllərindən Qərbi Avropada materialist ənənə xeyli zəifləyir, ədəbi-nəzəri fikir dini-teoloji istiqamətdə inkişaf edirdi (9, 56). Biz sonetlərdə səciyyələnən gözəllik qavramının bu kimi mövzularda da xüsusi xətt təşkil etdiyini görürük. Aydın olur ki, mütəfəkkir gözəlliyi qeyd olunan kimi, yalnız bu aləmin özündə olan təzahür hesab etmir, İlahi mahiyyətdən gəldiyini ifadə edir. Elə buna görə də Şekspir gözəlliyi yalnız özündə görməyin deyil, özündən sonra da övladlarda yaşadığına inanmağın tərəfdarıdır. Bu fikir sonetlərdə az qala əsas motiv olaraq iştirak edir. Biz yuxarıda fərqli aspektdə bu kimi sonetlərdən örnək vermişik. Bir neçə nümunəyə də bu aspektdən yanaşaraq diqqət yetirək:

"Atanı qorusan sən öz oğlunda,
Nəvəndə hifz edər səni oğlun da"
"Sənin gül hüsnün də solar bir səhər,
Zəmanə ömrünü biçir hər kəsin,
Nəsil qoy, yurdünda şamın sönməsin"

“Olsa bir övladın, yetib bahara,
Həqiqət, gözəllik birgə gül açar”
“Versən öz ömrünü övladına sən,
Onun varlığında ömür sürərsən” (1, 17, 18, 19).

Göründüyü kimi, gözəlliyə dialektik yanaşma elə idealist estetika olaraq gözəlliyin İlahi mahiyyətli olduğunu işarələyir. Çünki gözəllik özündə daşındıqda aləmin gözəlliyi olaraq səciyyələnirsə, özündən sonra gələnlərdə daşınması artıq gözəllik qanunlarının İlahidən gəldiyini və davamiyyətinin qanunauyğunluğunu ifadə edir. Şekspirə görə əgər gözəllik qanunları soy aktında daşınmasaydı, dünya altmış ildən, yəni bir insan ömründən artıq mövcud ola bilməzdi (1, 16). A.İslamzadə də demək olar ki, soy daşınmasının eyni məzmununu İlahi nizam əsasında izah edir (10, 41, 42). V.Şekspir bu məzmunu yalnız soy aktında ifadə etməklə kifayətlənmir, eyni zamanda açıq şəkildə də bu qavramı qələmə alır. Gözəlliyin daşınması yuxarıda diqqət çəkdiyimiz motivlə bərabər təqdim olunursa, daimiliyinə aid fikir tərzinə də rast gəlinir ki, bu da ancaq dini-teoloji düşüncə tərzindən doğur:

“Gözəllik, möhrüsən sən təbiətin,
Əks olun, əbədi qalsın surətin”
“Gəl, gözəl nəğmələr qoş həqiqətə,
Çatsın olduğu tək əbədiyyətə”
“Ey İblis, zülmünü artırma nahaq,
Zülmət çoxaldıqca nurlanar çıraq”
“Olsan tamahına, nəfsinə hakim,
Ölümü öldürüb yaşarsan daim” (1, 16, 61, 73, 84) və s.

Beləliklə, V.Şekspirin sonetlərində gözəllik anlayışının funksional səviyyələri, estetik kateqoriyaların çoxşaxəliliyi araşdırma mövzusu olaraq Şekspirdə gözəllik anlayışının müxtəlif təsnifatını meydana çıxarır:

1. Gözəllik anlayışı insan üzündə təsvir olunur;
2. Gözəllik anlayışı metaforik olaraq təbiət obrazında səciyyələnir;
3. Gözəllik anlayışı soy aktını işarələyir:
4. Gözəllik anlayışı eybəcərliyin əks tərəfi olaraq kateqoriya təşkil edir;
5. Gözəllik anlayışı İlahi ideal mahiyyətlə bağlılığı ifadə edir.

Son olaraq onu qeyd etmək olar ki, gözəlliyin funsional səviyyələri hər biri ayrıca kateqoriya təşkil edir ki, bu da öyrənilməsi vacib olan problemlərdəndir. Gələcəkdə də bu mövzu ətrafında tədqiqatların aparılması, gözəllik anlayışının funksional səviyyələrinin sənət və düşüncə baxımından öyrənilməsi vacib və zəruridir.

QAYNAQLAR

1. Şekspir V. Seçilmiş əsərləri, II cilddə, II cild, Bakı: Öndər nəşr, 2004.
2. Borev Y. Estetika. Bakı: Elm və Təhsil, 2010.
3. Hacıyeva N. Estetika, peşə etikası və psixologiya. Bakı: Şərq-Qərb, 2012.

4. Gadamer G.H. Hegel's Dialectic. Translated and with an Introduction by P. Christopher Smith. New Haven and London Yale University Press, 1976.

5. Quluzadə M, Sərtipzadə R.Q. Təqvimlərin riyazi və astronomik əsasları. Dərs vəsaiti. Bakı, 2013.

6. Aytekin Cemile A.A. Altıntağ G. Sanatta ölçülebilen güzellik ve sonsuz olan çirkinlik: aksiyolojik açıdan güzel ve çirkin estetiği / Mecmua, Uluslararası sosial bilimler dergisi, say 9, yıl 2020.

7. Qısa estetika lüğəti. Tərtib edən Ə.Ağayev. Bakı: Azərnəşr, 1970.

8. Harries K. Hegel's Introduction to Aesthetics. Fall Semester 2009, Yale University.

9. Hacıyev A. Ədəbiyyatşünaslığın əsasları (Ali məktəblərin filologiya fakultələri üçün dərslik). Bakı, 2010.

10. İslamzadə A.İ. Oğuz epik ənənəsində Qazan xan obrazının mifoloji strukturu. Bakı: Elm və təhsil, 2017.

ŞEKSPİR "SONET"LƏRİNDƏ GÖZƏLLİK ANLAYIŞININ FUNKSİONAL SƏVİYYƏLƏRİ

XÜLASƏ

V.Şekspirin sonetlərində gözəllik anlayışı müxtəlif şəkillərdə təsvir olunur. Buna görə də bu örnəklərdə gözəllik anlayışının funksional səviyyələri üzə çıxır. Gözəllik Şekspir qələmində insan üzündə, təbiətdə, nəsil törəməsində də səciyyələnir. Bundan əlavə gözəllik anlayışı zidd anlamlar baxımından özünə antonim olan eybəcərlik anlayışı ilə də əsaslandırılır, keyfiyyəti üzə çıxır, həmçinin eybəcərliyə estetik baxış bu qavramı kateqoriya kimi göstərir. Sonetlərdə gözəlliyin ideal başlanğıcla bağlılığı, İlahi qanunların törəməsi kimi təcəssüm olunması da xüsusi diqqət çəkir. Sonetlər bu araşdırmada sənət və düşüncə hadisəsi kimi tədqiq olunmuş, əhəmiyyətlilik dərəcəsi qeyd olunmuşdur. Gözəllik anlayışının funksional səviyyələri konkret örnəklər əsasında ayrıca olaraq tədqiq olunmuş və bir çox yeniliklərlə zəngindir.

AÇAR SÖZLƏR: Şekspir, sonetlər, gözəllik anlayışı, estetika, soy aktı, ideal.

FUNCTIONAL LEVELS OF THE CONCEPT OF BEAUTY IN SHAKESPEARE'S "SONNETS"

Summary

The concept of beauty is described in various pictures in William Shakespeare's sonnets. Therefore, in these examples the functional levels of the concept of beauty are revealed. Beauty is also characterized in Shakespeare's activity in the human face, in nature, in generational derivation. In addition, the concept of beauty is justified by the concept of disfigurement, which is an antonym to itself from the point of view of opposite meanings, its quality is revealed, as well as the

aesthetic view of disfigurement shows this perception as a category. In the sonnets the connection of beauty with the ideal beginning, its embodiment as a derivative of divine laws, also attracts special attention. Sonnets are studied in this study as a phenomenon of art and thought, the degree of their significance is noted. Sonnets are studied in this study as a phenomenon of art and thought, the degree of their significance is noted.

Keywords: Shakespeare, sonnets, concept of beauty, aesthetic, generation act, ideal.

ФУНКЦИОНАЛЬНЫЕ УРОВНИ ПОНЯТИЯ КРАСОТЫ В «СОНЕТАХ» ШЕКСПИРА

РЕЗЮМЕ

В сонетах В. Шекспира понятие красоты описывается по-разному. Таким образом, в этих примерах раскрываются функциональные уровни понятия красоты, красота проявляется в человеческом лице, природе и поколении. Кроме того, понятие красоты обосновывается понятием безобразия, которое антонимично себе по противоположным значениям, раскрывается его качество, а эстетический взгляд на безобразие показывает это понятие как категорию. В сонетах также привлекает особое внимание связь красоты с идеальным началом, воплощением как производной Божественных законов. В данном исследовании сонеты изучались как явление искусства и мысли, и отмечалась степень их значимости. Функциональные уровни концепта красоты изучены отдельно на конкретных примерах и богаты многими нововведениями.

КЛЮЧЕВЫЕ СЛОВА: Шекспир, сонеты, понятие красоты, эстетика, генеалогический акт, идеал.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Professor Kamil Allahyarov
tərəfindən çapa tövsiyə olunmuşdur

NƏRMİN ZEYNALOVA
Naxçıvan universiteti
hvanrmn@gmail.com

ƏDƏBİYYATIN TƏDRİSİ VƏ ÇAĞDAŞ İŞ ÜSULLARI

Xülasə

Dərs prosesində fəal-interaktiv üsullardan istifadə edilir. Müəllimin şagirdlərlə və şagirdlərin bir-biri ilə əməkdaşlığı bu üsullar üçün səciyyəvidir. Müstəqil düşünmək, sərbəst fikir söyləmək şagirdlər üçün əsas olmalıdır. Kreativ təfəkkürün inkişafı yeni təlim texnologiyaları ilə mümkündür.

Müasir təlim texnologiyaları dərsə qədər hazırlıq prosesində müəllimin, dərsdə isə şagirdlərin fəallığını tələb edir. Məqalədə dərs prossesində yeni təlim üsullarının əhəmiyyəti açıqlanır. Müəllim və şagirdlərin bu üsullardan istifadə yolları göstərilir. Və əldə ediləcək nəticələrdən bəhs edilir.

Yeni təlim texnologiyaları araşdırılmışdır. "Şaxələndirmə", "Beyin həmləsi" və.s üsulların mahiyyəti açıqlanır. Bu mövzuda yazılmış dərsliklərdən nümunələr gətirilərək izahlar verilmişdir. Yeni təlim texnologiyalarının şagirdyönümlü olduğu qeyd olunmuşdur. Müəllim metod seçimi edərkən texnikanı diqqətlə öyrənməlidir. Motivasiya və ümumiləşdirmə mərhələləri haqqında məlumat verilmişdir.

***Açar sözlər**: təlim, texnologiya, üsul, dərs, metodika*

Qeyd-şərtsiz, hər bir fənnin müvəffəqiyyətli tədrisi müəllimin faydalandığı iş üsullarından əsaslı şəkildə asılıdır. Şübhəsiz ki, hər hansı bir mövzuya dair biliklərin şagirdlərə lazımı səviyyədə mənimsədilməsindən ötrü yalnız müəllimin yüksək səviyyədə nəzəri hazırlığı kifayət deyil. Çünki müəllim faktoru nəzərə alınmaqla tədris prosesində aşağıdakı nəticələrin mövcud olacağı qəbul edilməkdədir:

1. Müəllim tədris edəcəyi mövzunu nəzəri cəhətdən bütün detalları ilə bilsə də, biliklərin mənimsədilməsi yollarına o qədər də bələd deyil və bu hal məqbul sayılmır.

2. Müəllim metodik cəhətdən hazırlıqlıdır, lakin tədris edəcəyi mövzuya qaneedəcək səviyyədə bələd deyil. Pedaqoji ictimaiyyət bu vəziyyəti də qeyri-məqbul sayır.

3. Müəllim həm nəzəri biliyi, həm də metodikası ilə başqalarına nümunədir. Bu isə tədrisdə artıq müvəffəqiyyətin əldə edilməsi deməkdir.

Bütün bunlarla bərabər, qloballaşma digər peşə sahələrinin əməkdaşları kimi, müəllimdən də daim yeniləşmə tələb edir. Başqa sözlə, artıq fənlərin tədrisində ənənəvi metodlar özünü doğrultmadığı kimi, fəal-interaktiv dərs də yeni təlim üsullarından istifadəni zəruriləşdirir. Nəzərə almaq lazımdır ki, fəal-interaktiv dərs prosesində yeni təlim üsullarından faydalanarkən müəllimin əsas məqsədi təhsilalanların idrak fəallığına yaradıcı təsir göstərmək, onlarda hər hansı bir prosesə

məntiqi və tənqidi yanaşma bacarıqları formalaşdırmaqdır. O da var ki, çağdaş dərsdə müəllimin faydalanacağı təlim üsulları təhsilverənin özü üçün də yenidir və həmin üsulların əsas səciyyəvi cəhətlərindən biri budur ki, bir dərsdaxilində müəllimin bir neçə üsuldan faydalanması nəzərdə tutulur. Yəni motivasiya mərhələsində hər hansı bir təlim üsulundan istifadə edən müəllim yaradıcı tətbiqetmə mərhələsində digər bir üsuldan faydalana bilər.

Əlaqədar nəzəri və metodiki ədəbiyyatlarda fəal-interaktiv dərsdə istifadə oluna biləcək çoxsaylı iş üsullarından bəhs edilməkdədir. F.Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" dərsliyində fəal-interaktiv dərslə bağlı iş üsullarına dair müxtəlif nəzəri-metodiki mənbələrdəki məlumatlar belə ümumiləşdirilmişdir: "Xatırladaq ki, internet səhifələrində belə texnikaların sayının 400-dən çox olduğu bildirilir. Onlar qruplaşdırılaraq metodlar başlığı altında təsnif olunurlar. Biz burada çox işlənən, geniş yayılan texnikalar barəsində danışacağıq. Siz onlar barəsində daha geniş məlumat almaq istəsəniz Zülfiyyə Veysovanın vəsaitinə baxa bilərsiniz.

Dərsin müxtəlif mərhələlərində tətbiq olunan və tədqiqat işinin - qrup işlərinin təşkilinin səmərəli olmasında istifadə olunan bu iş üsullarından hələlik bizə bəlli olanı 40-a qədərdir. Onlar strategiya, metod və metodun texnikaları, tədqiqatı təşkil edən iş üsulları kimi də adlandırılır. İnternet səhifələrində rast gəlinən yazıların əksəriyyətində onlar üsullar və texnikalar kimi qeyd olunur. Zülfiyyə Veysova düzgün olaraq texnikaları oxşar əlamətlərinə görə qruplaşdırır və metodlar başlığı altında təqdim edir. Biz texnikalar əvəzinə iş üsulları terminini daha məqbul hesab edirik. Çünki bu iş üsulları (texnikalar) tədqiqatın təşkil olunmasında, təqdimatlarda, müzakirələrdə istifadə olunan alətlər kimidir." (s. 139)

Maraqlıdır ki, F.Yusifova görə, ənənəvi təlimin müəllimyönümlüyü, fəal-interaktiv təlimin isə şagirdyönümlüyü tətbiq edilən iş üsullarında da nəzərə alınmışdır. Yəni təlimdə çağdaş iş üsulları şagirdin fəallığına hesablanıb, onu axtarışlara sövq edir, məktəblinin tədqiqatçılıq qabiliyyətini üzə çıxarır və cilalayır, onda məntiqi təfəkkürün təkamülünü şərtləndirir. Hətta "Ədəbiyyatın tədrisi metodikası" dərsliyinə əsaslansaq, fəal-interaktiv dərsdə tətbiq edilən iş üsullarının mahiyyətinə müəllim qədər şagirdlər də bələd olmalıdır.

Bu qeydlərdən belə məlum olur ki, müəllim fəal-interaktiv dərsin uğurlu alınmasından ötrü şagirdlərlə əlavə işlər aparmalı, zaman-zaman onlara təlimdə yeni texnologiyaların mahiyyətini izah etməli, məktəblilərə yeni iş üsulları ilə işləməyin qaydalarını gərəyincə öyrətməlidir. Şübhəsiz ki, bunun üçün heç bir saat ayrılmır və müəllim eyni məqsədlə sinifdənxaric işlərdən, dərsdənkənar tədbirlərdən maksimum səviyyədə faydalanmalı, müxtəlif tədbirlərin təşkili prosesində şagirdləri də yeni təlim üsullarından istifadə etməyə yönəltməlidir

Düşünürük ki, bütün hallarda yeni təlim metodlarına münasibətdə müəllimlə şagirdlərin mövqeyi fərqlənməlidir. Maraqlıdır ki, Zülfiyyə Veysovanın kitabında yeni təlim üsullarının mahiyyətində daha dərindən nüfuz edildiyi müşahidə olunmaqdadır. Qeyd edək ki, müəllif "üsul" sözünü "metod" sözü ilə əvəzləmiş,

fəal(interaktiv) təlimdə yüzdən çox üsulun mövcudluğunu vurğulayaraq göstərmişdir ki, müxtəlif üsulların reallaşma variantları da fərqlidir. Sadəcə olaraq müəllim öyrədiləcək mövzunun xarakterinə uyğun üsul seçməli, tədris prosesinin maksimum səviyyədə sadələşdirilməsini diqqətdə saxlamalı, bunun üçün istənilən üsulun tətbiqində aşağıdakı məqamları nəzərə almalıdır:

1. Məqsəd.
2. Alqoritm və ya işin gedişi.
3. Şərtlər.
4. Vasitələr.
5. Yarana biləcək problemlər.

Zülfiyyə Veysova həm də o fikirdədir ki, təlim üsulunun seçimi müəllimdən xüsusi məsuliyyət tələb edir. Bu cəhət kitabda belə açıqlanır: "Müəllim metodun (üsulun) seçimini edərkən texnikanın əsas xüsusiyyətlərini diqqətlə öyrənməli və dərsin məqsədinə uyğun seçməlidir. Biz ümid edirik ki, fəal(interaktiv) təlimin müxtəlif metod və texnikalarının "pasportu" vasitəsilə müəllimlər onlardan geniş istifadə edib təlim-tədris prosesini daha da zənginləşdirəcəkdir." (s. 66)

1. Şaxələndirmə (klaster) üsulu

F.Yusifovun "Ədəbiyyatın tədrisi metodikası" kitabında ilk üsul olaraq şaxələndirmədən bəhs olunur və şaxələndirmənin məzmunu, üsulla əlaqədar təlimat, həmçinin tapşırıq nümunəsi və klasterin dərsdə yeri diqqətə çatdırılır.

Venn diaqramı ədəbiyyat müəlliminə əsasən hadisə və surətlərin müqayisəsini aparmaq, onların oxşar və fərqli cəhətlərini üzə çıxarmaq, yeni nəslin təfəkküründə biliklərin aktuallaşdırılması, təhlil prosesinin səviyyəsinin yüksəldilməsi, eləcə də biliklərin daha obyektiv qiymətləndirilməsi üçün lazım olur. Bunun üşün müəllim müqayisə olunacaq hadisə və surətləri əvvəlcədən müəyyənləşdirdiyi kimi, şagirdlərdə onlara təqdim edilən obyeklər haqqında gərəkli məlumatlara sahib olmalıdırlar.

Fəal-interaktiv dərsdən bəhs edən bütün ədəbiyyatlarda bu və ya digərə dərəcədə "Beyin həmləsi" ("Əqli hücum") üsulundan da danışıldığını görürük. Təbiidir ki, Avropa təhsilində "Beyin həmləsi" üsulu o qədər də yeni deyil. Daha doğrusu, "Beyin həmləsi" ("Əqli hücum") üsulunun hələ 1953-cü ildə Amerikanın görkəmli psixoloqu A.Obsorn tərəfindən təklif edilməsi məlum faktdır. Bu üsul imkan verir ki, bütün sinif birlikdə gündəmə çıxarılmış problemin həlli yollarının müəyyənləşdirməsini dəqiqləşdirsin, istənilən situasiyada çıxış yollarının nədən ibarət olması məsələsinə aydınlıq gətirsin, həmin çıxış yollarından hansının daha səmərəli olduğunu üzə çıxarsın və bu proseslər gedişində şagirdlərin daha dinamik qərar qəbul etmək qabiliyyətlərini formalaşdırsın. Heç şübhəsiz ki, "Beyin həmləsi" üsulu tədris prosesində sərbəst düşüncəyə, demokratik formada mövqe ifadə etməyə imkan yaradır, şagirdlərdə məntiqi təfəkkürün təkamülünə, onların yaradıcılıq qabiliyyətlərinə təkan verir.

Yadda saxlamağa ehtiyac vardır ki, "Beyin həmləsi" üsulundan fəal-interaktiv

dərsin müxtəlif mərhələlərində, xüsusən də motivasiya və ümumiləşdirmə mərhələlərində faydalanmaq mümkündür.

2. Ədəbiyyat fənnindən mövzuların tədrisi zamanı T-sxemlər üsulunun əhəmiyyəti.

Çağdaş dərsdə müəllimə təklif edilən üsullardan biri də T-sxemlər üsuludur. Demək mümkündür ki, ənənəvi dərsin əyaniləşdirilməsində sxemlər birinci yerdə dayanan vasitə sayılırdı. T-sxemlər üsulunda da sxemin tərtibi mühüm şərtdir. Lakin bu üsulda məsələnin qoyuluşu tamamilə fərqlidir

T-sxemlər üsulu nəinki şagirdlərin idrak fəallığını təmin etmək imkanına malikdir, hətta ədəbi yatadıcılıq baxımından xüsusi qabiliyyətə malik olan məktəbliləri üzə çıxara bilər.

3. Kublaşdırma üsulunun ədəbiyyat dərslərində yeri.

Fəal-interaktiv dərsdə müəllimin köməyinə gələn üsullardan biri də kublaşdırmadır. Qeyd edək ki, kublaşdırma üsulunu bir necə cəhətdən müsbət dəyərləndirmək mümkündür. Birincisi, bu üsul təlim prosesində şagirdlərin keçilən mövzuya müxtəlif baxış bucaqlarından münasibət bildirmələrinə imkan yaradır. Müəllim kublaşdırma üsulundan faydalanaraq şagirdlərin təhlilçilik qabiliyyətlərini daha da inkişaf etdirə bilər. İkincisi, şagirdlərdə məntiqi və tənqidi təfəkkürün inkişafına çalışan müəllim kublaşdırma üsulunun səmərəsindən maksimum səviyyədə faydalanmalı, bunun üçün yeni üsulun tətbiqi məqsədilə ciddi hazırlıq işləri aparmalıdır. Üçüncüsü, kublaşdırma üsulunun tətbiqindən ötrü sinif mütləq qruplara bölünməli, şagirdlər qruplar şəklində çalışmalıdırlar ki, bu da məktəblilərdə bütün həyatları boyu gərəkləri olacaq başqaları ilə əməkdaşlıq vərdişlərini formalaşdırmaq deməkdir. Məhz kublaşdırma üsulunun tətbiqi nəticəsində şagirdlər hər hansı bir surəti hərtərəfli dəyərləndirə bilirlər.

Məsələ ondadır ki, həndəsi fiqur olaraq kubun altı üzü mövcuddur. Yəni kublaşdırma üsulu dərs prosesində təqdim edilən problemə altı müxtəlif istiqamətdən yanaşılmasını reallaşdırmaq imkanındadır. Həmin altı istiqamət elmi ədəbiyyatlarda aşağıdakı ardıcıllıqla düzülür:

1. Təsvir et.
2. Müqayisə et.
3. Əlaqələndir.
4. Təhlil et.
5. Tətbiq et.
6. Lehinə, yaxud əleyhinə mübahisə et.

Ümumilikdə belə nəticəyə gəlirik ki günümüzdə təlim prosesində istifadə olunan yeni təlim metodları şagirdlər üçün əhəmiyyətli olduğu qədər müəllimlər üçün də əhəmiyyətlidir. Təlim verənlər bu üsulları dərindən öyrənib istifadə etməklə şagirdlərə dərsi tam şəkildə çatdırmalıdır.

ƏDƏBİYYAT

1. Yusifov F. Ədəbiyyatın tədrisi metodikası. Ankara: 2022
2. Veysova Z. Fəal/interaktiv təlim. UNİCEF:2007
3. Kərimov Y. Təlim metodları. Bakı:2009
4. https://aztehsil.com/news/6687-nnvi-v-interaktiv-tlim-metodlarnn-mqayisli-thlili.html

РЕЗЮМЕ

НАРМИН ЗЕЙНАЛОВА

ПРЕПОДАВАНИЕ ЛИТЕРАТУРЫ И СОВРЕМЕННЫЕ МЕТОДЫ РАБОТЫ

В процессе урока используются активно-интерактивные методы. Для этих методов характерно сотрудничество учителя со студентами и студентов друг с другом. Независимое мышление и свобода слова должны быть основой для студентов. Развитие творческого мышления возможно с новыми технологиями обучения. Современные технологии обучения требуют активности учителя в процессе подготовки к уроку и активности учащихся на уроке. В статье объясняется важность новых методов обучения в учебном процессе. Показаны способы использования этих методов преподавателями и учащимися. И упоминаются результаты, которые должны быть достигнуты. Изучаются новые технологии обучения. Объясняется сущность «Ветвление», «Мозговой штурм» и других методов. Были приведены примеры из учебников, написанных на эту тему, даны пояснения. Было отмечено, что новые технологии обучения ориентированы на студента. Преподаватель должен внимательно изучить технику при выборе метода. Описаны этапы мотивации и генерализации.

Ключевые слова: обучение, технология, метод, урок, методика.

SUMMARY

NARMİN ZEYNALOVA

LITERATURE TEACHING AND MODERN WORKING METHODS

Active-interactive methods are used in the lesson process. Cooperation of the teacher with students and students with each other is typical for these methods. Independent thinking and free speech should be the basis for students. The development of creative thinking is possible with new learning technologies. Modern learning technologies require the teacher's activity in the preparation process before the lesson, and the students' activity in the lesson. The article explains the importance of new teaching methods in the teaching process. The ways of using these methods by teachers and students are shown. And the results to be achieved are mentioned. New training technologies are explored. The essence of "Branching", "Brainstorming" and other methods is explained. Examples from the

textbooks written on this topic were given and explanations were given. It was noted that new learning technologies are student-oriented. The teacher should carefully study the technique when choosing a method. Motivation and generalization stages are reported.

Key words: training, technology, method, lesson, methodology

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: dos. İman Cəfərov
tərəfindən çapa tövsiyə olunmuşdur

HƏMİDOVA NƏRMİN
Bakı Avrasiya Universiteti
Email : hemidovanermin88@gmail.com

MÜASİR DÖVR AVSTRALİYA NƏSRİ VƏ MARKUS ZUSAK YARADICILIĞI

Xülasə:

Avstraliya ədəbiyyatı dünya ədəbiyyatı nümunələri arasında seçilir. Bunu həm qitənin yerləşdiyi coğrafi ərazi ilə, həm də tarixi ilə əlaqələndirmək olar. Coğrafi ərazi dedikdə burada mövcud olan landşaft, bununla əlaqədar yerli xalqın yaşam tərzi nəzərdə tutulur. Qeyd edək ki, yalnız bu qitəyə məxsus olan janr – Buş balladaları mövcuddur. Avstraliya tarixi illərlə sürən müstəmləkəçilik və azadlıq mübarizələri ilə zəngindir.

Çağdaş Avstraliya ədəbiyyatı ingilisdilli ədəbiyyatdır və 3 tarixi dövrə bölünür:

1.Müstəmləkə dövrü (1788-1880)

2.Milli dövr (1880-1920)

3.Müasir dövr (1920- indiki dövrə qədər)

Hər bir dövrün özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır.

1920-ci illərin əvvəllərindən başlayaraq Avstraliya ədəbiyyatında Qərb və Amerika ədəbiyyatına yaxınlaşma hiss olunurdu. Yeni cərəyanların formalaşmasında yerli ədəbi jurnallar böyük rol oynamışdır. Bunlara misal olaraq "Baxış bucağı" ("Vision"), "Meanjin qəzetləri" (" Meanjin papers") və "Acıqlı pinqvinlər" ("Angry penquins") kimi mətbu orqanları göstərmək olar.

Məqalədə müasir dövr Avstraliya ədəbiyyatından, xüsusilə bu dövrə aid olan nəsr nümunələrindən və yazıçılardan bəhs olunacaq və bu dövrün məşhur nasirləri kimi 1973-cü ildə ədəbiyyat üzrə Nobel mükafatına layiq görülən Patrik Uayt, həmçinin Riçard Fleneqan, Devid Maluf və Markus Zusak yaradıcılığına nəzər salınacaqdır. Fleneqan və Zusakın müharibə mövzulu əsərlərindən, xüsusilə, sonuncunun yaradıcılığında önəmli yer tutan "Kitab Oğrusu" əsərindən söhbət açılacaqdır.

Açar sözlər: Avstraliya, dövr, nəsr, müharibə, "Kitab oğrusu"

Giriş: İnsan yaşayışı olan materiklər sırasında ən gec kəşf olunan Avstraliyadır. Bunu müəyyən qədər onun digər materiklərdən uzaqda yerləşməsi və sərhədlərinin yalnız okean suları ilə əhatə olunması ilə izah etmək olar. Tarixə nəzər salsaq görərik ki, hələ o zamanlar kəşf olunmamış bu torpaqlara ilk olaraq – XVII əsrdə ispan və holland səyyahları gəlmişlər. Lakin onlar Avstraliyanı deyil, onun ətrafında yerləşən adaları kəşf etmiş və bu əraziləri Yeni Hollandiya adlandırmışlar.

Bir əsr sonra ingilislər yeni qitəni kəşf etmişlər. Bu işdə Ceyms Kukun adı xüsusi olaraq qeyd edilməlidir. Məhz onun Avstraliyanın şərqini kəşfindən sonra ingilis krallığı burada öz hökmranlığını elan etmişdir. *"Kuk tərəfindən Yeni Şərqi Uels adlandırılan Avstraliyanın şərq hissəsi Britaniya krallığının mülkiyyətinə çevrildi"(8, s. 12).* Yeni torpaqlara sahib olan ingilislər burada müstəmləkə siyasəti yürütməyə və qitədən sürgün ərazisi kimi istifadə etməyə başladılar. Yerli aborigen tayfalar isə sıxışdırılmağa başlandı. Tarixi faktlar deyilənlərin bariz sübutudur: *"İngilislər adada ilk məskən salmağa başladıqda yerli əhalinin sayı 200 minə çatırdı. XIX əsrin 50-ci illərində burada 20-dən az yerli sakin qalmışdı"(8, s. 46).* Təbii ki, bu kimi nüanslar yaradıcılıq və ədəbiyyat sahəsində də öz əksini tapırdı. Yerli koloritli nümunələr artıq avropalılaşaraq fərqli istiqamət almaqda idi. *"Bu ənənə ingilislərin gəlişi ilə dəyişdirildi və müəyyən mənada məhv edilərək Avropa modelinə oxşar ədəbiyyatla əvəz olundu"*.(9)

Avstraliya yerli əhalisinin yaratdığı ilk ədəbiyyat nümunələri şifahi ənənəyə əsaslanır, rəqs və musiqi ilə müşaiət olunurdu. Bu nümunələr həm əyləndirir, həm də istiqamətverici xarakter daşıyırdı. Həmçinin insanların daxili ruhi halını əks etdirir, həyati əhəmiyyət kəsb edən, fiziki-coğrafi şəraitdən qaynaqlanan resurslar haqqında məlumatları özündə ehtiva edirdi. Avstraliya ədəbiyyatında yazılan ilk nümunələr ballada janrında olmuşdur. Bu janrın ilkin örnəklərində həmin dövrün ingilis və irland ənənələrini davam etdirilirdi. Hazırki dövrdə də ballada janrında nümunələr yazılmaqdadır.

Avropa modeli əsasında yaranan sənət nümunələri müasir dövrdə artıq kök salmışdır.

I.Avstraliya ədəbiyyatının tanınmış nümayəndələri.

Avstraliya ədəbiyyatı dedikdə ilk öncə ağıla gələn şəxsiyyət **Patrik Uaytdır.** O, özünü fərqli janrlarda sınamışdır. Yaradıcılığa şeirlə başlayıb və şeirlər toplusunu "Əkinçi və digər şeirlər" ("The Ploughman and other Poems") (1935) adlı topluda nəşr etdirmişdir. Hekayələrdən ibarət "Yanmışlar" ("The Burnt") və "Kakadu" (The Cockatoos) adlı kitablar isə 1964 və 1975-ci illərdə işıq üzü görmüşdür. Uayt özünü dram sahəsində sınamaqdan da çəkinməmişdir. Bütün bunlarla yanaşı Uayta məşhurluq gətirən onun nəsr sahəsində yazdığı əsərlər olmuşdur. "Xalanın hekayəsi" (" The Aunt`s Story"), "Fos" ("Foss"), "Xoşbəxt vadi" ("Happy Valley") və ən əsası ona Nobel mükafatını qazandıran "İnsanlıq ağacı" ("The Tree of Man") P.Uaytın yaradıcılığında önəmli yer tutur.

Tənqidçilər onun haqqında aşağıdakı qənaətə gəlmişlər: *"Uayt təkcə Avstraliya təcrübəsinin yaradıcı yazı sahəsində zənginliyini nümayiş etdirmədi, həm də onu bütün dünyanın diqqətinə çatdırdı"(10)*

Qeyd olunduğu kimi yazıçıya uğur gətirən əsəri "İnsanlıq ağacı" olmuşdur. Bu əsər iki sadə əmək insanına həsr olunub – fermer Sten Parker və onun həyat yoldaşı Emiyə. Romanda daha çox qəhrəmanların daxili dünyası göz önünə gətirilir və

bununla yanaşı insanın varlığının mənası barədə düşünülür. Müəllif əsəri elə bir tərzdə yazmışdır ki, oxucunu istər-istəməz bir sual düşündürür: İnsan niyə var?

Dünya ədəbiyyatı nümunələri sırasında müharibənin, xüsusilə də İkinci dünya müharibəsinin təsirilə yazılmış bir çox əsər vardır. Avstraliya ədəbiyyatından da bu təsir yan keçməmişdir. Qitənin bir sıra nümayəndələri öz əsərlərində bu mövzuya yer ayırmış, insanların həyatına müharibənin təsirini özlərinə xas şəkildə əks etdirməyə çalışmışlar.

Bu qələm sahiblərindən biri də **Devid Malufdur.** O, 1934-cü ildə Brisbendə - Avstraliyada anadan olmuşdur. Livan və ingilis əsilli olsa da uşaqlığı və gənclik dövrü Avstraliyada keçmişdir. 1959-1968-ci illər arasında Avropada işləyib, yaşamışdır. 1977 – ci ilə qədər Sidney Universitetində ingilis dilindən dərs demişdir.

D. Maluf yaradıcılığa şeirlə başlasa da, daha sonralar bir neçə uğurlu nəsr nümunələri də yazmışdır. Onun şeirləri " Velosiped və başqa şeirlər" ("Bicycle and other poems") , "Cəngəllikdəki qonşuluq" ("Neighbours in a thicket"), "Vəhşi limonlar" ("Wild lemons") , "Əsas axırıncıdır" ("First things last") , "Yer saatı" ("Earth hours") kimi kitablarda toplanmışdır.

D.Malufun birinci romanı avtobioqrafik səciyyə daşıyır. "Con" ("Johnno") adlanan bu əsər 1975-ci ildə yazılmışdır. Əsərdə baş verən hadisələr İkinci dünya müharibəsi zamanı Brisbendə cərəyan edir. İkinci dünya müharibəsi mövzusunda yazdığı digər əsər "Böyük Dünya" ("The Great World") (1990) adlı əsərdir. Burada müharibə zamanı əsir düşən insanlardan bəhs olunur. "Böyük Dünya" əsərinə görə Yazıçılar Birliyi mükafatına layiq görülüb. Onun Birinci Dünya müharibəsindən öncə baş verən hadisələrdən bəhs edən "Uç, Piter" ("Fly Away Peter") (1982) adlı əsəri də vardır.

Bunlardan başqa Devid Maluf qədim Roma şairi Ovidiyanın həyatının son illərindən bəhs edən "Xəyali həyat" ("An İmaginary Life") adlı əsər yazmışdır. Yazıçını mənanın ötürülməsində dil və işarələrin əhəmiyyətli olması fikri də düşündürmüşdür. Onu həmçinin mövcud olan məkanın hadisəni mənimsəməyə təsiri olub-olmadığı fikri də maraqlandırmışdır.

Avstraliya ədəbiyyatının əsas nümayəndələrindən biri də **Riçard Fleneqandır.** O, yalnız nəsr nümunələri yazmışdır. Onun ilk romanı " Çay bələdçisinin ölümü" (" Death of a River Guide") (1997) olmuşdur. "Tək əl ilə alqışın səsi" ("The Sound of One Hand Clapping") (1998) əsəri isə ikinci olmuşdur. Fleneqanın maraq doğuran və bir çox mükafatlara layiq görüldüyü əsəri isə 2013-cü ildə yazdığı "Uzaq Şimala gedən yol" ("The Narrow Road to Deep North") əsəridir. Romanda hadisələr İkinci Dünya müharibəsi zamanı Yaponiyaya əsir düşmüş avstraliyalıların dəmiryol çəkməsi zamanı baş verir. Əsərdə təsvir olunan hadisələr o qədər acınacaqlıdır ki, insanı dəhşətə salır. Əsərdə tarixi faktlara əsaslanan bəzi statistik rəqəmlər var . Həmin məlumatlardan məlum olur ki, yaponların əlinə keçən əsirlər arasında həm Avropa, həm də Asiya mənşəli, həmçinin 22000 avstraliyalı hərbi əsir də var. Onlardan 9000 hərbi əsiri isə "Ölüm yolu" adlanan dəmiryolunu

çəkmək üçün aparırlar. Burada nə dəmiryolunu çəkmək üçün lazım olan alətlər, nə də ki, əsirləri yedizdirmək və müalicə etmək üçün yetərincə ərzaq və dərman mövcud deyil. Əsirlərin vəziyyəti gün-gündən pisləşir və ölənlərin sayı çoxalır. Zaman keçdikcə sağlam heç kim qalmır. "*İndi yalnız xəstələlər və ölənlər var". (11).*

Romanın baş qəhrəmanı avstraliyalı Dorriqo Evansdır. O da hərbi əsir düşsə də onun vəziyyəti digərlərinkindən yaxşıdır. Çünki ixtisasca həkimdir və əsirlərin sağlamlığı onun öhdəliyindədir. Ancaq digər tərəfdən işinin çətinliyi də var. Çünki hər gün ölümlə qarşılaşır və sağalmaz xəstəliklərlə dərmansız mübarizə aparmaq məcburiyyətində qalır. Əsirlikdən sağ çıxan Dorriqo sonrakı həyatında da "Ölüm düşərgəsini", oradakı əsirlərin çəkdiyi əzabları və ölümləri unuda bilmir.

Əsərdə Yaponiyanın imperator rejiminin qanunlarından söz açılır, təbliğ olunan xəstə düşüncə göz önünə gətirilir. Mayor Nakamura fikirləşir ki, əsirlərin bəxti onda gətirib ki, dəmiryolunda ölsələr öz namuslarını təmizləyərək imperator üçün ölmüş olacaqlar. *"Mayor Nakamura deyir: dustaqların bəxti gətirib. Onlar imperatorun yolunda ölərək öz namuslarını təmizləyirlər" (11)*

Əsərdə hərbi əsirlərin vəziyyətini dolğun təsvir etmək üçün müəllif bir qədər təfərrüata varır. Onların necə əzab çəkdiyini, normal paltarlarının belə olmamasını, əlacsız qalaraq çılpaq gəzdiklərini, çox az miqdarda yeməyi necə acgözlüklə yediklərini aydın təsvirlərlə verir. Yapon mayorların əsirlərlə insan kimi deyil, əşya kimi davrandıqlarını, başkəsən cani olduqlarını təsvir edir.

Fleneqan əsəri elə bir tərzdə yazmışdır ki, oxucu hər sətirdə müharibəyə, Yaponiya imperatorluğunun apardığı siyasətə qarşı nifrət hissi ilə yaşayır.

II.Markus Zusakın yaradıcılığı

XXI əsr Avstraliya ədəbiyyatında önəmli yerlərdən birini **Markus Zusak** tutur, desək yanılmarıq. Yaratdığı əsərlər arasında uzun bir fasilə olsa da, hər biri öz sujetinin maraqlılığı və bədii gözəlliyi ilə seçilir.

Markus Zusakın ilk romanı "Bəxtsiz" ("The Underdog") olmuşdur. Bu əsər müəllifin 1999-2001-ci illər arasında yazdığı trilogiyanın ilkidir. "Bəxtsiz" əsərində hadisələr əsərin baş qəhrəmanı Kameronun dilindən verilir. Əsərdə Kameron və onun ailəsinin cəmiyyətdə öz yerini müəyyən etmək üçün verdiyi mübarizədən söhbət açılır. Kameron, onun qardaşı və həmçinin ən yaxın dostu Ruben, M.Zusakın və öz qardaşının prototipi kimi düşünülə bilər. Trilogiyanın ikincisi "Ruben Volfla döyüş" ("Fighting Ruben Wolf") əsəridir. Burada iki qardaşın pul qazanmaq üçün rinqə çıxaraq boks döyüşlərinə qatılmağından bəhs olunur. Müəllifin trilogiyanın üçüncü əsərinə verdiyi ad isə "İtlər ağlayanda"dır. ("When Dogs Cry"). Bu əsərdə yenə hadisələr iki qardaş - Kameron Volf və Ruben Volf ətrafında cərəyan edir. Kameron vaxtilə Rubenin sevgilisi olmuş Oktavia adlı qıza aşiq olur. O, əvvəl özünə qarşı inamsız olur. Hətta belə hesab edir ki, Oktavia onunla Rubenin qardaşı olduğuna görə, onun kölgəsinə bənzətdiyinə görə görüşür. Lakin sonradan məlum olur ki, Oktavia da onu həqiqətən sevir. Əsərin yarısına qədər Kameron öz münasibəti barədə qardaşına danışmaq istəsə də, alınmır. Nəhayət, Ruben təsadüfən hər şeyi öyrənir.

Bundan sonra Ruben qardaşını yumruqlayır. Lakin sonradan Rubenin başı darda ikən qardaşı Kameron ona kömək edir. Bu əsərdə iki qardaş arasındakı konfliktdən və heç nəyə baxmayaraq qardaşlıq bağlarının qopmamasından danışılır.

2002 -ci ildə Markus Zusakın "Mən elçiyəm" ("I am The Messenger") adlı əsəri işıq üzü görüb.

2006-cı ildə Avstraliyalı yazıçıya dünya şöhrəti gətirən bir əsər – "Kitab oğrusu" əsəri yayınlanır. Bu əsər müəllifin vizit katrına çevrilir və bir çox mükafatlara layiq görülür.

III. "Kitab oğrusu" əsəri

Tarix boyu xalqlar və ölkələr arasında saysız müharibələr olsa da, insanlığın üz qarası Dünya müharibələri hesab olunur. Birinci və xüsusilə də İkinci Dünya müharibəsi zamanı insanların kütləvi şəkildə qırğını baş vermişdir. Ölən də, öldürən də insan idi. Özündən sonra yaddaşlarda dərin psixoloji uçurum yaradan bu müharibələr bir çox bədii əsər üçün mövzu olmuşdur. Zusakın " Kitab oğrusu" əsərində də hadisələr İkinci Dünya müharibəsi zamanı baş verir. "Kitab oğrusu" əsərini müharibə mövzusunda yazılmış ən yaxşı əsərlərdən hesab etmək olar. Burada hadisələr, əhvalatlar o qədər canlı verilir ki, insan hər şeyi öz gözü ilə görmüş kimi hiss edir. Əsərin təhkiyəçisi bizə *"Mən onu sizə nəql edəcəyəm"(2, s. 22)* və iddialı bir şəkildə: *"Mən onu sizə göstərəcəyəm"(2, s. 22), - deyə* müraciət edir. Baxmayaraq ki, əsərdə təfərrüata çox yol verilmir, oxucunun gözü önündə səhnələr çox aydın şəkildə canlanır.

Əsərdə seçilmiş təhkiyə forması da çox orijinaldır. Belə ki, əsərin ilk cümləsindən sonuna kimi bütün baş verənlər, hətta baş verəcəklər belə mücərrəd personaj olan Ölümün dilindən verilir. Ölümün əslində iki vəzifəsi var. Birinci halda hadisələri nəql edir, ikinci halda isə müharibəni, insanları və müharibəni törədən insanları başa düşməyə çalışır. İmkan düşdükcə Ölüm insanlara heyrətini sətirlər arasında ifadə edir:*"Mən insanların nəyə qadir olduğunu heç zaman öyrənib anlaya bilməyəcəyəm"*(2, s. 30).

Ölüm hər kəsi təsvir etdiyi kimi özünü də təsvir edir və bildirir ki, o, heç də insanların fikirləşdiyi kimi qara çuxalı, əli oraqlı, başı kəllə sümüyünə bənzər biri deyil. O, həm də qəddar biri deyil. İnsanların ölümündən həzz almır və buna görə məsuliyyət daşımır. Bu sadəcə onun işidir. İnsanların ölümündə onların özlərindən başqa heç kim günahkar deyil. "*İnsanların vəfat etmə səbəbləri hərdən məni öldürür"* (2, s. 502). Ölüm insanların necə həm şeytan, həm mələk xislətli olmalarına da çox təəccüblənir. Bu cəhətdən əsər Hüseyn Cavidin "İblis" əsəri ilə səsləşir. Belə ki, "İblis" əsərində baş verən hadisələrin fonunda daim mələk və şeytanın dialoqu verilir. İblisin dili ilə insandakı xislət göstərilir:

"Get, bəllidir insandakı xislət;
Sizlərdəki ülfət; sonu vəhşət,
Sizlərdəki şəfqət; sonu nifrət,
Sizlərdəki rəhmət; sonu lənət!.."(1, s. 30)

Baş qəhrəman Arif daim mələk və şeytan arasında can çəkişir. H.Cavid bununla insan ruhunda həm yaxşı, həm də pis niyyət olduğunu göstərmək istəyir. Şair əsər boyu İblis və Mələyi insandan ayrı varlıqlar kimi təsvir etsə də, sonda İblisin dilindən verilən parçada şeytanın da, mələyin də insanın özü olduğu anlaşılır. Dramaturqun oxucuya vermək istədiyi əsl mesaj da elə budur:

"İblis nədir?

- *Cümlə xəyanətlərə bais...*

Ya hər kəsə xain olan insan nədir?

- *İblis..."(1, s. 104)*

"Kitab oğrusu" əsərində isə insanları müşahidə və əməllərinə görə mühakimə edən Ölüm obrazıdır. Əsərin baş qəhrəmanı Lizel Meminqer onun gözündə mələkdir. Müharibənin səbəbkarı Hitler isə şeytanın özüdür. Baxmayaraq ki, romanda Hitler obraz kimi təsvir olunmayıb, ancaq onun haqqında söhbət açılır. Hər dəfə Hitlerdən danışdıqda Ölümün ona nifrəti hiss olunur. Bu əslində yazıçının Hitlerə, onun qurduğu faşist Almaniyasına qarşı nifrətidir ki, personajın dilindən ifadə edilir.

Ölüm obrazının digər maraqlı xüsusiyyəti ondan ibarətdir ki, o, dünyanı rənglərlə görür. "*Öncə rənglər. Sonra insanlar. Mən, adətən, dünyanı belə görürəm.(2, s. 9),* - deyərək Ölüm oxucuya müraciət edir. Əsər boyu təhkiyəçinin rəng məfhumu ilə bağlı bənzətmələrinə rast gəlinir və bu bənzətmələr onun dilinə unikallıq qatır. *"Soyuq rəngli dəhliz"(2. s. 33), "Sarı işıq büsbütün tozla nəfəs alırdı"(2, s. 73), "Metal rəngli baxışlar"(2, s. 72),"Sarı geyimə bürünmüş sakit bir gün (2, s. 35)* və s. kimi nümunələr deyilənlərə misal ola bilər.

Müəllifin istifadə etdiyi təşbehlər yalnız yuxarıda qeyd olunanlarla bitmir. Bunlar arasında özünəməxsus şəkildə işlənmiş bənzətmələr var. Əsərin bədii gözəliyyini və təsir gücünü artırır. Bunlara nümunə olaraq Lizel Meminqerin övladlıq verildiyi ailədə onun anası olan Roza Huberman təsvir olunarkən üzü "əzilmiş karton"a bənzədilir. Yenə həmin qadından söhbət gedərkən "ütü yumruqlu qadın" ifadəsi işlədilir. "*Qapını hamam xalatı açdı"(2, s. 49)* cümləsi ilə Lizelin gözündə yad qadının necə görünməsi əks olunur.

Yuxarıda qeyd olunduğu kimi, əsərin baş qəhrəmanı 9 yaşlı Lizel Meminqerdir. O, anası və 6 yaşlı qardaşı ilə qatarda övladlıq veriləcək ailənin yanına yollanarkən təsvir olunur. Lakin yolda qardaşı ölür. Bu ölüm həm anasını, həm də Lizeli çox sarsıdır. Lizel hələ uzun müddət bu hadisənin təsirindən çıxa bilmir. Uzun müddət bu hadisə kabusa dönüb onun yuxularını cəhənnəmə çevirir. Qardaşı dəfn olunarkən qarın üstündə gözünə dəyən kitabı oğurlayır. Bu onun oğurladığı ilk kitab olur: "Qəbirqazanın təlimat kitabçası". Oğurlanan ilk kitab məhz belə adlanırdı. İkinci kitabı isə qızcığaz tonqalda yanan kitabların içindən çıxarmışdı. Bu kitab isə "Çiyinin qucaqlanması" adlanırdı. *"Birinci oğurlanmış kitab: 13 yanvar 1939-cu il.İkinci oğurlanmış kitab: 20 aprel 1940-cı il. Oğurlanmış kitablar arasından keçən*

vaxt: 463 gün" (2, s. 94). Əsər boyu Lizelin ümumilikdə on dörd kitabı olur. Sonuncu kitabın müəllifi o, özü idi.

Əsərin qəhrəmanlarından biri də Lizelin atalığı Hans Hubermandır. Peşəsi rəngsazdır. Hans Huberman qızcığazı ilk gündən gözəl qarşılayır və ən əsası ona oxumağı öyrədir. Maraqlısı budur ki, kitab oxumaq sonunda qızcığazın həyatını xilas edir. Əsərdə ata obrazı çox incəqəlbli, insansevər, rəhmli biri kimi təsvir olunub. Görünüşcə kobud görünsə də, ruhən incə biridir. Bu, onun əlində olan son tütünlərini sataraq Lizelə iki ədəd kitab almasında büruzə verir. Halbuki, onların əvəzinə o yaşam üçün daha faydalı ola biləcək nələrsə ala bilərdi. Hans, Lizelin kitabları çox sevdiyini görüb belə bir addım atmışdı. Baxmayaraq ki, o dövr üçün insanları ən az düşündürən şey kitab idi. İnsanlar yalnız həyatda qalmaq barədə düşünürdülər.

Onun üçün ilk növbədə önəmli olan öz mənafeyi deyil, ətrafındakıların xoşbəxt olmasıdır. O, hətta heç kimin eləyə bilməyəcəyi bir şeyi edir. Yəhudini evinin zirzəmisində gizlədir. Hans Huberman yəhudinin onun evində aşkar olunmasının onu və ailəsinin də olmazın əzablarla nəticələnəcəyini bilsə də, qapısına imdad üçün gələn gənci – Maksı geri qaytarmır. Bunu həm də ona görə edir ki, nə vaxtsa Maksın atası ona kömək etmişdi. İndi Maksa kömək etmək onun vicdan borcu idi.

Roza Huberman, əsərdə mərkəzi xarakter daşıyan, Lizelin ən yaxın dostu və sevdiyi biri Rudi Ştayner və digər obrazların hər biri müəllif tərəfindən özünəməxsus şəkildə təkrarsız yaradılmışdır. Qeyd olunduğu kimi əsər müharibə mövzusunda yazılsa da, burada müharibənin real təsvirinə rast gəlmək, demək olar ki, mümkün deyil. Romanda daha çox müharibənin nəticələri və insanların törətdikləri göz önünə gətirilir. Necə dəhşətli bir hadisə olduğu fikri irəli sürülür. Bu dəhşət ən çox da ona görə iztirab doğurur ki, səbəbkar məhz insan özüdür. *"İnsan həyatının dəyəri bir güllənin qiymətinə düşəndən sonra bütün digər dəyərlərin məhv olması labüddür,çünki bütün dəyərlərin başında ilk öncə insan dayanır.(2, s. 1)*

Bütün əsər boyu hadisələri nəql edən Ölüm müharibə, insan haqqında öz fikirlərini yürüdərək sanki insanları özlərinə kənardan baxmağa səsləyir. Müəllif təhkiyəçi qismində Ölümü seçməkdə heç də yanılmayıb. Bu, həm əsərə bədii gözəllik verir, həmçinin də dərin məna kəsb edir. Axı bir insanın digər insanı mühakimə etməsi nə dərəcədə düzgün olardı. Bu missiya mütləq insan olmayan, fövqəlbəşər birinin öhdəsinə düşməli idi. Yalnız bu zaman insan özünə başqa varlığın gözü ilə baxmaq imkanı tapır. **Nəticə:** Son olaraq qeyd edə bilərik ki, istər Avstraliya ədəbiyyatının adları qeyd olunan nümayəndələrinin, istərsə də M.Zusakın yaradıcılığı öz bədii-estetik cəhəti ilə müasirlərindən seçilir. Müraciət olunan mövzular işlənmiş olsa da, bu amil "köhnə" mövzulara ideya-məzmun müstəvisində yeni baxış bucağından baxmaqda mane olmur. İstər reallıq, istərsə də yazıçının fərdi təxəyyül gücünə əsaslanan əsərlərdə bədii düşüncənin kəskin ifadəsini görmək mümkündür. Araşdırmada "Kitab oğrusu" və adları çəkilən digər əsərlərin ideya-estetik planda təhlili aparılmış, müharibələrin insan həyatında rolunun və zərbələrinin bədii ədəbiyyatda necə əks olunduğu göstərilmişdir.

Ədəbiyyat siyahısı

1. H. Cavid. Əsərləri. Bakı: Lider Nəşriyyat, 2005, 304 s.
2. M. Zusak. Kitab oğrusu. Bakı: Qanun Nəşriyyatı, 2018, 592 s.
3. M. Zusak. Hiç kimse sıradan değildir. İstanbul: Martı Yayın Grubu, 2022, 462 s.
4. M. Zusak. İt dalaşı. İstanbul: Martı Yayıncılık, 2016, 176 s.
5. M. Zusak. Kilden köprü. İstanbul: Martı Yayın Grubu, 2018, 607 s.
6. M. Zusak. Köpek düşleri. İstanbul: Martı Yayın Grubu, 2018, 159 s.
7. M. Zusak. Köpekler ağladığında. İstanbul: Martı Yayıncılık, 2017, 222 s.
8. К. В. Малаховский. История Австралийского Союза. Москва: Наука, 1971, 372 с.
9. Cultural Life. (britannica.com./place/Australia/cultural-life)
10. Patrick White. Australian Author. (britannica.com/biography/Patrick-White)
11. Ричард Флэнеган. Узкая дорога на дальний север. (https/bookzip/ru/3229-uzkaja-doroga-na-dalnij-sever.html)

Hamidova Narmin

MODERN AUSTRALIAN PROSE AND THE WORK OF MARKUS ZUSAK

Summary

Australian literature stands out among examples of world literature. This can be connected both with the geographical area of the continent and its history. The geographical region describes the landscape that exists here, and the way of life of the local people in relation to it. It should be emphasized that Bush ballads are a genre that is exclusive to this region. The history of Australia is rich with years of colonialism and freedom struggles.

Modern Australian literature is English-language literature and is divided into 3 historical periods:

1. Colonial period (1788-1880)

2. National period (1880-1920)

3. The modern period (1920- up to the present time)

Each period has its own characteristic features.

Australian literature started to resemble Western and American literature in the early 1920s. Local literary magazines played a major role in the formation of new trends. Examples of these are such media organizations as “Vision”, “Meanjin papers” and “Angry penquins”.

The article will discuss modern Australian literature, especially prose examples and writers belonging to this period, and will study the works of Patrick White, who was awarded the Nobel Prize for Literature in 1973, as well as Richard Flanegan, David Maloof and Markus Zusak, as famous prose writers of this period. The war-

themed works of Flenegan and Zusak will be discussed, especially “The Book Thief”, which occupies an significant role in the works of the latter.

Key words: Australia, period, prose, war, “The Book Thief”

Нармин Гамидова

СОВРЕМЕННАЯ АВСТРАЛИЙСКАЯ ПРОЗА И ТВОРЧЕСТВО МАРКУСА ЗУСАКА

Резюме

Австралийская литература выделяется среди образцов мировой литературы. Это может быть связано как с географическим местоположением континента, так и с его историей. К географическим местоположением относится существующий здесь ландшафт и образ жизни местного населения по отношению к нему. Следует отметить, что только на этом континенте есть жанр - баллады Буша. История Австралии богата годами колониализма и борьбы за свободу.

Современная австралийская литература является англоязычной литературой и делится на 3 исторических периода:

1. Колониальный период (1788-1880 гг.)
2. Национальный период (1880-1920 гг.)
3. Современный период (1920-настоящее время)

Каждая эпоха имеет свои характерные черты.

С начала 1920-х годов австралийская литература стала сближаться с западной и американской литературой. Большую роль в формировании новых течений сыграли местные литературные журналы. Примерами этого являются такие СМИ, как «Угол обзора» (Vision), «Газеты Meanjin» (Meanjin papers) и «Злые пингвины» (Angry Penguins).

В статье будет рассказано о современной австралийской литературе, особенно прозаических примерах и писателях, относящихся к этому периоду, а также будут рассмотрены произведения Патрика Уайта, удостоенного Нобелевской премии по литературе в 1973 году, Ричарда Флэнегана, Дэвида Малуфа и Маркуса Зусака, как известных прозаиков этого периода. Также будут рассмотрены произведения Фленегана и Зусака на военную тематику, особенно «Книжный вор», занимающий важное место в творчестве последнего.

Ключевые слова: Австралия, эпоха, проза, война, «Книжный вор».

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: fil.ü.f.dos., Elmira Məmmədova-Kekeç tərəfindən çapa tövsiyə olunmuşdur

MUXTAROVA TƏBƏSSÜM DADAŞ QIZI
Filologiya üzrə fəlsəfə doktoru
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
Bakı, İstiqlaliyyət küç., 53
tebessum.mukhtarova@gmail.com

İLQAR FƏHMİNİN "AKTRİSA" ƏSƏRİ VƏ RÖVŞƏN İSAXIN EYNİADLI FİLMİ

XÜLASƏ

Məqalədə İlqar Fəhminin "Aktrisa" əsəri və rejissor Rövşən İsaxın ekranlaşdırdığı eyniadlı filmi təhlil edilir. Əsərlə filmin fərqli cəhətləri, müəlliflə rejissorun baxış bucaqları, rəmzlər göstərilmişdir.

Qısa, konkret üslublu, bədii təsvir vasitələri minimum olan psixoloji detektiv janrında yaradılmış və hadisələri iki xətt üzrə cərəyan edən "Aktrisa" əsərində qəhrəmanların mənəvi dünyaları, hisslərin cinayətə sürükləməsi, incəsənətin insan psixikasına təsiri, milli-mənəvi adət-ənənə və yazılmamış qanunlar kimi amillər geniş təhlil olunmuşdur.

Lakonik dilə malik detektiv janrında yazılmış əsərdə ilk baxışdan sadə, adi məfhumların simvol kimi istifadə olunmaları ətraflı açıqlanmışdır. Xəncər, tor qurmuş hörümçək, rəqəmlər, kitabların simvolika kimi istifadəsi aydın təhlil edilmiş və həmin məfhumların rəmzi mənaları göstərilmişdir.

Əsərə bir neçə aspektdən yanaşma vardır ki, birincisi – incəsənətin insan psixikasına ziddiyyətli təsir dairəsidir. Digər baxış bucağı cəmiyyətdəki mənəvi qanunların insanların davranışına dərin sirayətidir. Üçüncü nöqteyi-nəzərdən yanaşılma cəmiyyətdə qadınların mövqeyinin bir daha təhlilidir. Dördüncü aspekt isə incəsənət, ədəbiyyat təmsilçilərinin insanların mənən dar çərçivəyə sığmamaları kimi mənəvi məsələnin incəliklə açılmasıdır.

İnformasiya axınının çox olduğu dövrdə yazıçı İlqar Fəhmi rejissor Rövşən İsax ilə məhdud çərçivəli, qısa, konkret, lakonik dilə malik, bədii təsvir vasitələrindən minimum istifadə edilən detektiv janrında oxucuların və tamaşaçıların yaddaşında qalacaq "Aktrisa" yaratmışlar.

Açar sözlər: İlqar Fəhmi, Rövşən İsax, "Aktrisa", psixologizm, detektiv janrı

İncəsənətin şüura təsiri, insan psixologiyası, qadın gözəlliyi, mənəvi aləmlərin ziddiyyəti, eyni zamanda onlarla yanaşı gedən ölüm, qətl, cinayət mövzusu problemi həmişə ədəbiyyatda və incəsənətdə toxunulan məsələlərdən olmuşdur. Xüsusilə, son əsryarımdan çoxdur ki, 1841-ci ildən – Edqar Allan Ponun ilk detektiv janrında yazdığı "Morq küçəsində qətl" əsəri qələmə alındığı dövrdən – ədəbiyyat tarixinə tam fərqli mövzu gəldi. İlk zamanda əyləncə xarakterli kiçik həcmli detektiv

hekayələr vaxt keçdikcə təkmilləşərək, həm hadisələrin inkişaf arealına, həm toxunulan məsələlərin baxış bucağına görə adi cinayət hadisəsindən qlobal bəşəri problemlər səviyyəsinə qədər genişləndi və həcmcə dilogiya, trilogiya, hətta əsərlər silsiləsinə qədər artdı.

Azərbaycan ədəbiyyatına XX əsrin 50-ci illərində Cəmşid Əmirovin "Sahil əməliyyatı" əsəri ilə gəlmiş detektiv janrı əvvəlcə ayrı-ayrı yazıçıların müxtəlif əsərlərində öz əksini tapdı. Lakin XX əsrin sonundan başlayaraq, bu janra müraciət edənlərin sayında böyük yüksəliş dövrü başlandı. Müasir Azərbaycan ədəbiyyatında C.Əmirovla yanaşı N.Rəsulzadə, Elçin, R.İbrahimbəyov, V.Cüməzadə, S.Əli, başqa yazarlar bu janra müraciət etsələr də, janrın əsas inkişafı Ç.Abdullayev, E.Elatlı, M.Xan və digərlərinin adı ilə bağlandı.

Detektiv janrında yazan, eləcə də onu inkişaf etdirənlərdən biri də İlqar Fəhmidir. 1975-ci ildə Bakının Zirə kəndində anadan olmuşdur. 1996-cı ildə BDU-nun hüquq fakültəsini bitirmişdir. Uzun müddət Abşeronda, gözəl muğam bilicilərinin məskəni Bakı kəndlərində təşkil edilən əruz məclislərinin iştirakçısı olmuşdur. Ən müxtəlif janrlara müraciət etmiş (pyes, detektiv, ssenari, serial, qəzəl, roman, kinoroman və s.), bir-birindən dolğun əsərlər yaratmışdır: "Akvarium", "Çənlibel tülküsü", "Bakı tarixindən kollaj", "Sonuncu qatar və ya itlər", "Kölgə", "Gecələr", "Xəzri", "Yuxum", "Durmuşam sahildə..." və s. Eləcə də "Ölüm növbəsi" (2009, rejissor Fikrət Əliyev), "Dərvişin qeydləri" (2011-2012, rejissor Eldar Quliyev), "Axırıncı dayanacaq" (2013-2014, rejissor Fikrət Əliyev) filmləri onun ssenarisi əsasında çəkilmişdir. "Məclisi-üns" verilişinin aparıcısı, eyni zamanda redaktoru, Yazıçılar Birliyinin Yaradıcılıq məsələləri üzrə katibidir.

İlqar Fəhminin 2003-cü ildə qələmə aldığı "Aktrisa" əsəri detektiv janrının bir növü olan psixoloji detektivdir. Burada hadisələr iki xətt üzrə inkişaf edir: **birinci hissədə** baş vermiş cinayətlər, məkanlar, hadisənin şahidlərinin və qurbanlar barədə məlumatlı şəxslərin dindirilməsi, hüquq-mühafizə orqanlarının fəaliyyəti təsvir edilir. Hündür hasara alınmış, gözəl şəraitli bağ evində maddi cəhətdən təminatlı, təsisatçısı olduğu və 7 il rəhbərlik etdiyi "VEF-Bank"ın başçısı 67 yaşlı bankir Vaqif Eyvaz oğlu Fətəliyev qətlə yetirilir. Güc strukturları cinayət üzrə araşdırmalara başlayar-başlamaz, onun gənc həyat yoldaşı Lalə Fətəliyeva da öldürülür. Çox keçmir ki, qonşu bağda müvəqqəti yaşayan gənc yazıçı Rüfət Hüseynzadənin meyiti aşkarlanır və onun suisidə əl atdığı məlum olur. İki qonşu həyətdə dalbadal baş verən cinayət hadisələrinin açılmasında ilk baxışdan heç bir işıq ucu görünmür. Lakin müstəntiq Eldar Əfəndiyev Rüfət Hüseynzadənin əşyalarının içərisindən noutbuku əşyayi-dəlil kimi götürərək, oradakı materiallara nəzər salır və ilkin təhqiqat zamanı cəlb edən heç nə tapmasa da, parola qoyulmuş bir yazı təcrübəli sistem işçisinin diqqətindən yayınmır. Müstəntiq mümkün variantlara əl atır və faylı açmağa müyəssər olur. O, gündəlik qismində yazılmış materialı oxuduqda, bütün hadisələrin necə və hansı səbəbdən baş verməsi aydınlaşır.

İlk baxışda detektiv janrına münasib mətn kimi görünməyən və əsərin qəhrəmanı olan yazıçı Rüfət Hüseynzadənin qonşu qadına nəzər saldıqda ona qarşı oyanmış hisslərini təsvir edən **ikinci hissədə** hadisələrin mahiyyəti açılır. Rüfət Hüseynzadənin gündəliyi 40 gün ərzində baş vermiş hadisələri əhatə edir və yazıçının Laləyə marağın necə yaranması, duyğularının dəyişməsi, qonşu bağda baş verənlərə laqeyd qalmayaraq, etik normalardan kənara çıxıb, baş verənləri izləməsi, bu müddət ərzində bir-birinə zidd duyğular yaşaması, son nəticədə, hisslərinə qalib gəlməyərək, qətl törətməsi, nəhayət, suisidə əl atması geniş təsvir olunur. Gündəlikdə Rüfət Hüseynzadənin əvvəlcə qonşusu bankiri, sonra onun həyat yoldaşı Laləni öldürməsi və ən nəhayət, sonda intihar etməsi aşkara çıxır.

2011-ci ildə əsər əsasında İlqar Fəhminin özünün və Rövşən İsaxın yazdıqları ssenari üzrə eyniadlı film çəkilmişdir. Filmin rejissoru Rövşən İsax 1970-ci ildə Gəncədə anadan olmuşdur, əslən Gədəbəy bölgəsindəndir. 1992-ci ildə Azərbaycan Dövlət İncəsənət İnstitutunun "dram teatrı və kino aktyoru" fakültəsini bitirmişdir. Sonradan həmin ali təhsil müəssisəsində, Pantomim Teatrında, Dövlət Televiziyasında, "ANS", "Speys" telekanallarında, həmçinin Türkiyənin "Samanyolu" kanalının Azərbaycan filialında icraçı direktor kimi çalışmışdır, "Pozitiv-Media"nın direktorudur. Rejissor kimi üç serialın ("Pərvanələrin rəqsi", "Sonuncu fəsil", "Vicdan haqqı"), "Kiçik leytenant" qısametrajlı filminin rejissorudur, həmçinin, "Yarasa", "Etimad telefonu" və özünün çəkdiyi "Kiçik leytenant", "Sonuncu fəsil" və "Aktrisa" filmlərində aktyor kimi də çıxış etmişdir [1, s.10]. "Aktrisa" filmində baş rolları respublikanın Xalq artisti Fuad Poladov, Əməkdar artistlər İlham Hüseynov, Şövqi Hüseynov, həmçinin, aktyorlar Rövşən İsax, Moskvanın K.S.Stanislavski və B.İ.Nemirov adına Akademik Musiqili Teatrının aktrisası Alesa Kaçer oynamışlar. "Aktrisa" filmi ilk dəfə 2011-ci ildə Kann festivalında Azərbaycan pavilyonunun açılışında nümayiş etdirilmişdir. Filmlə bağlı bir maraqlı fakt da məlumdur ki, milliyyətcə belorus Alesa Kaçer oynadığı rolun inandırıcı alınmasından, səslənmədə təbiilikdən ötrü, asanlıqla olmasa da, qısa müddətdə Azərbaycan dilini öyrənmiş və obrazı özü səsləndirmişdir.

Əsər ilə filmi müqayisə etdikdə, maraqlı vəziyyət alınır, ideya tam olduğu kimi saxlanılsa da, insanda belə təəssürat yaranır ki, sanki əsər iki bərabər hissəyə bölünmüşdür: təsvirlərin, dialoqların bir qismi ssenaridə, digər yarısı isə povestdə qalmışdır və birləşdirildikdə, daha dolğun əsər yaranmış olar. Bu, əsasən, detektiv motivli birinci hissəyə aiddir. Romantik duyğularla zəngin ikinci hissənin ssenari və povest variantı bərabər gedir. Fərqlərin isə, ümumiyyətlə, məzmuna, mahiyyətə qətiyyən xələl gətirmədiyi görünür. Təfavütlər maraqlı və bir-birini tamamlayandır.

Məsələn, bankirin oğlunun filmdəki dialoqu ilə əsərdəki dialoqu arasında fərq var, amma maraqlı cəhət budur ki, hər iki halda qəhrəmanın mənəvi aləmi açılır – ərköyün, özünü əziyyətə verməyən, heç zaman çətinlik çəkməmiş bir övlad olduğu, gənc analığına düşmənçilik mövqeyi və öz doğma anasına bəslədiyi münasibət aydın görünür; eləcə də qətli törətdikdən sonra Rüfətin yuxulayıb, uzun müddət yatması

səhnəsi həm fimldə, həm də əsərdə gərgin stresin nəticəsini bildirir. Bankirin müavininin dindirmə səhnəsi əsərdə iki dəfədir, həbsə alınması, ümumiyyətlə yoxdur, filmdə isə vaxtilə Laləni sevmiş və sonradan Vaqif Fətəliyevi onunla tanış etmiş müavini Orucovun müvəqqəti saxlanılma epizodu hadisələrin gedişatına başqa çalar verir, lakin hər iki halda, cinayətləri törətməyə motivləri kifayət qədər olsa da, istər oxucu, istərsə tamaşaçı onun günahsızlığını hiss edir. Dindirmə səhnələrinin lakonikliyi, müxtəlif şəxslərin nitqlərinin gərəksiz məqamlarının lentə alınmadan ekranda dalbadal gəlməsi, janra uyğun ardıcıllığı filmə əsil detektiv çaları verir. O cümlədən, əsərdəki personajların quru, müxtəsər sadalanmış, konkret xarakterizə edilmiş ad-familiyaları, təhqiqatın, əsasları, aşkara çıxarılıb, qeydə alınmış dəqiq faktlar söylənilir, dindirmələrin və dialoqların ən vacib hissələri təqdim olunur ki, bu, detektiv janrına xasdır.

Filmlə əsər arasında **əsas fərq** povestdə yazılmamış şahmat mövzusudur. Bu, filmə xüsusi sonluq verən və detektiv janrına aidiyyatı olmadığına görə, ilk baxışdan anlaşılmaz hissədir. Detektiv janrında yazılmış əsərlərdə, janrın müvafiq qanunlarına uyğun surətdə, axtarışa, cinayətin açılmasına aidiyyatı olmayan mətn, artıq cümlə, mübaliğəli fikirlər yolverilməzdir. Film əsərdə yazılmamış sonluqla – parkda müstəntiqin övladı ilə gəzməsi, həmçinin, bu gəzinti zamanı atanın öz övladının istəklərinin gerçəkləşməsinə şərait yaratmaq niyyətinin yaranması ilə – bitir. Həmin epizodda, əsərdən fərqli olaraq, uşağa şəxsiyyət kimi hörmət etməyin vacibliyi ideyası önə çəkilir, belə ki, övladın həyatında arzularına zidd gedilməsinin, böyüklərin istəyi ilə həyatlarını kor-koranə qurmaqlarının heç də həmişə müsbət nəticələnməyəcəyi fikri vurğulanır. Bunun mahiyyətini sonuncu təhqiqat işlərindən sonra dərk edən müstəntiq Eldar Əfəndiyev boksla məşğul olmaq istəyən balaca oğlunun istəyinin əleyhinə çıxaraq, onu şahmat dərnəyinə qoymaq fikrindən vaz keçir.

Həmçinin, parkda övladla atanın mehribanlıqla oynamasına ikinci pozisiyadan da yanaşmaq olar: övlad, böyüməkdə olan uşaq, gənc nəsil – həyatda ümid, gələcək deməkdir, dünyada ölüm ilə doğum, inkişaf ilə tənəzzül qoşadır, lakin əgər övlad varsa, demək, həyat davam edir. 98 dəqiqəlik film ərzində 3 ölüm hadisəsi baş versə də, həyat dayanmamışdır və öz axarı ilə getməkdədir.

Bütün sadalananlara nəzər saldıqda, "Mədəniyyət qəzeti"ndəki məqalədən sitat gətirərək, belə nəticəyə gəlmək olar ki, üslubuna görə lakoniklik, konkretlik tələb edən detektiv janrında yazılmış əsərin *"dəqiqliklə işlənmiş dramaturji materialın emosional və səmimi axarı kriminal hadisələri adilikdən çıxarır"* [2, s.10]).

Əsərə bir neçə aspektdən yanaşmaq olar:

Birinci aspekt – incəsənətin insan psixikasına ziddiyyətli təsir dairəsidir. Bunun təsdiqi kimi, ilk növbədə, incəsənətlə məşğul olan aktrisanın rolunun yazıçının psixikasına təsir göstərməsidir. Çünki, səhnədə deyil, həyatda oynadığı rol digərinin düşüncəsinə, qəlbinə, ruhuna o dərəcədə dərindən varır ki, qarşı tərəf ən ağır hərəkətə – cinayətə, başqasını həyatdan məhrum etməyə və səhvinin tam

dərkindən sonra isə öz həyatına qəsdə əl atır. Halbuki, aktrisanın yanaşma tərzi bunun əksini bildirirdi: *"Səhnəyə çıxırdım, həvəslə oynayırdım, hamı da alqışlayırdı. Mən də elə bilirdim ki, öz ifamla onların içində böyük titrəyişlər eləmişəm. Lakin sonralar başa düşdüm ki, teatra gələn tamaşaçı ilə gedən tamaşaçı arasında zərrə qədər də fərq yoxdu. Bunu başa düşmək o qədər də çətin deyil, hər bir sənətkar özünə kənardan baxsa kifayətdir. Yadınıza salın ki, hansı sənət əsəri sizin həyatınızda kardinal dəyişikliklər edə bilib? Yəqin ki, heç biri. Ola bilər ki, siz hansısa əsərin təsiri altından uzun müddət çıxa bilməyəsiniz, əsər sizi xeyli düşündürsün, yaxud gizli qalan sirrləri sizin üçün açsın. Lakin hansısa müsbət dəyişikliklərə qadir deyil. Çünki bayaq dediyim kimi bizim yaratdığımız əsərlər yalnız nəfsimizin məhsuludur... Ruhun yaratdığı əsərlər isə ruhun özü kimi əbədi olaraq gizlində qalır"* [3, 132]. Belə düşünən aktrisanın oynadığı rol isə o dərəcədə inandırıcı olur ki, baş qəhrəmanın duyğularında "titrəyiş edir". O, qadının hər hərəkətinə inanır ("sərxoş olmasına", "əri ilə sözləşməsinə" və s.), halbuki bunlar, aktrisanın bütün ruhu ilə yaratdığı sənət əsəri idi. Qəhrəman duyğularına özü də dəyər verməyə çalışır: *"Mənsə hər şeyə inanırdım, elə bilirdim ki, Onu həqiqətən sevirəm, onun son ümid yeriyəm... Bəlkə doğrudan da sevirdim... Yox, belə eşq ola bilməz. Bu yalnız nəfsin istəyi, bədənlərin cazibəsi idi. Hə, mən Onun zahiri gözəlliyinin, çılpaqlığının cazibəsinə düşmüşdüm. Elə bu cazibə də məni şeytan nökərinə çevirdi... Heyif ki, mən bunu çox gec başa düşdüm. Xirtdəyim şeytanın çənginə keçəndən sonra Allaha tərəf baxmağın nə xeyri..."* [3, s.135-136].

Ədib əsərdə aparıcı xəttin *"insanın sınaq məqamı"* [4] olduğunu bildirmişdir. İlqar Fəhmi qəhrəmanın *"Allaha müraciəti"*ndə [4] o sevgini *"İlahi sınaq"* [4] adlandıraraq, bu nüansı xüsusi qabartmışdır: *"...əslində Rüfət Hüseynzadə üçün o hadisə bir sınaq"dır* [4] və *"...hər şeyin kökündə budur ki, insan üçün bəzən həyatda gözəl hisslər, gözəl duyğular, estetikanın özü, gözəlliyin özü sınaq funksiyasını yerinə yetirir"* [4]. Əsərin qəhrəmanı Tanrıya müraciətində bunu anlayaraq, şeytani əməllər törətdiyini etiraf edir: *"İlahi, bağışla məni. Mən son imtahanından üzüağ çıxa bilmədim. İblis məni düz yolumdan sapdırdı. Bu Onun yox, iblisin tamaşasıydı. Məni imtahana çəkməkçün qurulan tamaşa..."* [3, s.136].

Rejissorun subyektiv fikrinə gəldikdə isə o, incəsənətin insana təsiri haqqında söyləyərək, sənətin müəyyən məqamlarda və müəyyən dövrlərdə incəsənətin insan psixikasına hansısa şəkildə sirayət edə biləcəyini bildirir. Rovşən İsaxın qənaətinə görə, incəsənət barədə əsərdə təsvir olunanlar qeyri-mümkündür: *"Mümkün olacaq şey deyil. Nə ədəbiyyat, nə incəsənət ana bətnində insana verilmiş xisləti dəyişəcək qabiliyyətə malik deyil"* [5]. Hətta rejissorun özünün bu barədə maraqlı rəyi vardır. O öz sənətinə, peşəsinə, əsərdəki aktrisa kimi, özünəməxsus tərzdə "əyləncə" kimi yanaşaraq, onun insan xilqətinə yetərincə güclü izini qoymaq qabiliyyətə malik olmadığını israr edir. Lakin burada çox maraqlı bir nüansa toxunur, rejissor sıravi tamaşaçı ilə yaradıcı tamaşaçının arasında müəyyən fərq olduğunu da qeyd edir...

Yazıçı İlqar Fəhminin bu məsələyə belə münasibəti də vardır. O, Lalənin dili ilə bu cür izahat verir: *"... Xaricdə bəzi kolleksionerlər külli miqdarda pul xərcləyib xoşlarına gələn rəsm əsərini özləriyçün oğurlatdırır. İllər uzunu bu sənət əsəri yalnız onun zövqünü oxşayır. Əvvəl mən belə söhbətlərə inanmırdım. Heç təsəvvür edə bilmirdim ki, insan hansısa sənət əsərinə milyonlarla pul verə, lakin onu heç kimə göstərə bilməyə. Axı, kolleksionerlərin çoxu möhtəşəm auksionlarda sənət əsərlərinə yalnız ona görə pul verir ki, başqalarının yanında malik olduğu şeylə lovğalansın, özü üçün imic yaratsın. Lakin oğurlanmış gözəlliyə sahib olanda lovğalıq, şan-şöhrət barədə heç danışmağa belə dəyməz. Axı, bu sənətin sənə məxsus olduğunu heç kəs bilmir. Beləliklə, onun gözəlliyindən yalnız sən özün həzz alırsan. Məncə əsl sənət sevgisi budur. Əsl sənət əsəri ilə əsl sənətsevər üzbəüz qalanda məncə saf, təmiz, bütün çirkinliklərdən uzaq ilahi bir harmoniya yaranır... Hərçənd ki, bəziləri bunu eqoizm kimi başa düşür, amma mən bununla razı deyiləm... İnanın mənə, incəsənət adamlarının ən böyük riyakarlığı "yalnız öz içimizi ifadə etmək üçün yaradırıq" demələridir. Yalandı, onların hamısı şan-şöhrət, var-dövlət xətrinə iş görür. Axı, hansı rəssam, yaxud hansı şair uğurlu saydığı əsəri dünyadan gizlədə bilər? Heç biri. ... Deməli dünyada əsl incəsənət yoxdur. Daha doğrusu, bizim gördüklərimiz içində beləsi yoxdur. Göz qabağında olanlar yalnız insan nəfsinin, yəni şöhrətpərəstliyin, xudbinliyin, lovğalığın məhsulu olan əsərlərdir. Elə ona görə də nə incəsənət, nə də ədəbiyyat bəşər düşüncəsinə heç bir təsir göstərə bilmədi, yalnız funksiyasını yerinə yetirə bildi. Bəli, Mona Lizadan tutmuş, axmaq teleseriallara qədər bütün incəsənət yalnız əyləncədir...*[3, s.130-131].

"...siz də elitar yazıçı hesab olunursunuz. Və yəqin düşünürsünüz ki, yaratdığınız əsərlər bütün dünyanı dəyişmək iqtidarındadı... illüziyadı... Absurd bir illüziyadı... Bir çox sənətkarlar bu axmaq illüziyanın qurbanı olurlar. Lakin başa düşmürlər ki, elitar adlandırılan sənət də əyləncədən başqa bir şey deyil. Sadəcə, intellektual, elitar insanların əyləncəsidir" [3, s.131].

İlqar Fəhmi müsahibə zamanı da bildirir ki, sənət *"həmişə göyə qaldıran"* [4] deyil, o, *"insan psixikasını dağıdan bir şeyə də çevirə bilər, faciələrə səbəb olan bir şeyə də çevrilə bilər"* [4].

Burada İlqar Fəhmi bir məqamı da – tam səmimiliklə, ürəkdən gələn sənətin tamaşaçıya, seyrçiyə ehtiyacı olmadığını, o duyğuların, o yaşantıların, o hisslərin insanı ilahiləşdirdiyini qeyd edir: *"...gizliliyin, məxfiliyin içində bəlkə də mistik bir cazibə var. Həmin anlarda mən həyatdan əlini üzərək məscidin qaranlıq bir küncünə çəkilib namaz qılan orta əsr sufilərinin niyyətini anlamağa başladım. Onlar da öz tamaşalarını heç kimin yox, yalnız allahın qarşısında oynamağa çalışırdılar. Başa düşdüm ki, dünyada hər şey bu dualizmin üzərində qurulub. Bir ifaçı - bir tamaşaçı, bir mömin – bir allah. Üçüncü varlıq artıq tamaşanın bütün gözəlliyini pozur..."* [3, s.129-130].

Buradan belə nəticəyə gəlmək olur ki, incəsənətin insan şüuruna təsiri vardır və şəxsiyyətin xarakterindən asılı olaraq, həmin təsir müxtəlif səpkilidir.

İkinci aspekt cəmiyyətdə qoyulan mənəvi qanunların insanların psixikasına dərin sirayət etməsi nəticəsində həmin qadağaların pozulmasının, atılacaq hansısa artıq addımın faciə ilə bitməsidir. Cəmiyyət formalaşdığı zamandan millətlərin, xalqların yaşadıqları məkandan, coğrafi mövqedən, mühitdən, ictimai-siyasi hadisələrin yaratdığı tarixi proseslərin yekunlarından, dövrdən asılı olaraq, insanlar arasında müəyyən adətlər, ənənələr, vərdişlər, mənəvi qanunlar, qadağalar, imtiyazlar və digər bu kimi faktorlar yaranmışdır. Bu, insanların şüuruna dərin təsir etmişdir ki, sonda həyatda atılacaq addımlar ənənələrə, vərdişlərə zidd, ictimai qınaq obyekti olmamaq üçün, cəmiyyət naminə yaşamaq və s. amillərinin əmələ gəlməsi ilə nəticələnmişdir. Hər xalqın, millətin öz ənənələri, düşüncə tərzi, dəyərləri vardır.

Azərbaycan cəmiyyətində də özünəməxsus ənənələr, qaydalar, vərdişlər, mənəvi qanunlar mövcuddur ki, zaman keçdikcə formasını dəyişsə də, böyük hissəsi əsas xüsusiyyətlərini saxlamış, xalqın şüuruna təsirini göstərmiş, gündəlik həyata, ümumiyyətlə, insanların talelərinə öz dərin izini buraxmışdır və buraxmaqdadır.

"Aktrisa"da bu məsələ də qaldırılır. Rüfət Hüseynzadə qonşu həyətdə yaşayan gənc qadın Laləyə, hətta sonradan həmin qadının bankirin həyat yoldaşı olduğunu bilsə də, göz qoyur, öz hərəkətləri ilə düzgün davranmadığını dərk edir, əvvəlcə günaha batmaq istəmir, dostunun evindən köçüb getmək fikrinə düşür: *"Hər halda başqasının arvadına gizlincə göz qoymaq namuslu, qeyrətli kişiyə yaraşan hərəkət deyildi"* [3, s.90]. Çünki başqasının ailəsini dağıtmaq, həyat yoldaşına göz qoymaq, namus-qeyrət məsələsi cəmiyyətimiz tərəfindən qəbul edilmir.

Tələtümlə çalxanan daxili aləminin burulğanına düşmüş və günbəgün dəyişən ziddiyyətli emosiyalarının təsiri nəticəsində, tutduğu əmələn düzgün olmadığını anlayan gənc yazıçı hisslərinin qarşısında acizdir. Günaha batdığını anlayır, paradoks isə bundadır ki, eyni zamanda burada qəbahət işlətmədiyini da zənn edir: *"Bəs mən indi niyə beləyəm? Axı, açıq-aydın hiss edirəm ki, yalnız onun üçün darıxıram. Həyat yoldaşım isə heç yadıma düşmür. Məgər bu xəyanət deyil?! İçimdəkiləri hamıdan gizlətsəm də Allahdan ki, gizlədə bilməyəcəyəm. ... Bəlkə bu, elə-belə, adicə bir maraqdı. Sadə, ötəri bir maraq. Yəqin ki, elədir. Hər halda, mən elə bir günah iş görməmişəm... "* [3, s.95]. Hadisələrin sonunda isə öz hərəkətlərinə haqq qazandırmayan, vicdanı qarşısında hesabat verən Rüfətin gündəliyinin girişində yazdığı *"inanmıram ki, Allah məni bağışlasın. Allah bağışlasa da, özüm bağışlamayacağam. Mən cəzalanmalıyam"* [3, s.74]. ölümqabağı sözləri onun axırıncı fikirlərində situasiyanı dərk etdiyini əks etdirir. Bunu çox gec başa düşən və qadının hərəkətlərinin mahiyyətini anlamayan Rüfət Lalənin *"Sizdən kim xahiş etmişdi ki, mənim ərimi öldürəsiniz"* [3, s.134] ittihamını eşitdikdən sonra törətdiyi əmələn müdhiş mahiyyətinə varır: *"Və qəfildən elə bil kimsə mənim tamaşamın adını dedi: "QATİL". Məni üşütmə basdı. İki gün qabaq törətdiyim ağır cinayətin bütün dəhşətini yalnız indi anlamağa başladım. Qulaqlarımda öz səsim cingildədi: "Mən qatiləm, mən qatiləm..."* [3, s.134]. Gənc yazıçının beynində fərqli düşüncələr

yaranır: *"Mən adam öldürmüşəm, adam öldürmüşəm... Axı niyə? Onu sevdiyimə görəmi? Öz kəpənəyimi hörümçəyin cəngindən xilas etmək istədiyimə görəmi?.. Lakin sən demə O, oyun oynayırmış. Sadəcə oyun... vaxt keçirmək üçün... öz axmaq istəklərini, xəstə arzularını həyata keçirmək üçün... Günahsız bir adam isə bu oyunun qurbanı oldu. Məni qatil eləyən Ona yaranan sevgim olub, hə, sevgi, məhəbbət məni cani elədi. Budumu şairlərin vəsf etdiyi qadın məhəbbətinin saflığı, təmizliyi? Qadınla kişi arasında yaranan hisslər kimisə qatilə çevirib, günahsız adamın qanının tökülməsinə səbəb ola bilirsə, bunun harası saf, təmiz, ülvi eşqdir? Yox, bu eşq deyil, şeytan əməlidir. Elə şeytan tərəfindən vəsf olunub ilahiləşdirilən rəzalətdi"* [3, s.140].

Gənc yazar növbəti cinayətə əl atır, hisslərinə qalib gələ bilməməyini, yanıldığını, səhvini, öz günahını qadında görərək, onu iblisə bənzədir: *"Görəsən məndən sonra nə qədər adamı yolundan sapdıracaq.*

Yox, buna yol vermək olmaz, qətiyyən. Həm də mən öz günahımı yumalıyam. Mütləq..." [3, s.136] Günahını yumağı... başqa günah törətməkdə görən gənc yazıçının bu hərəkəti böyük siyasətçi, dünya tarixində öz dərin izini qoymuş, ədəbiyyat üzrə Nobel mükafatı laureatı Çörçilin kəlamını xatırladır: "Qatili öldürməklə, qatillərin sayı azalmır".

Rejissorun bu məsələyə maraqlı baxış bucağı vardır. Rövşən İsaxa görə, *"qadağalar toplusuna "mədəniyyət" deyilir. ... ...qadağalar mədəniyyət formalaşdırır. Qadağalar – millətin düşüncə tərzindən irəli gələn ştrixlərdir, bir millət bunu qadağan edir, biri o birisini qadağan edir, biri digərini. Ona görə də mədəniyyət fərqlidir, çünki qadağalar fərqlidir"* [5] Birbaşa filmlə bağlı isə rejissor bildirir ki, "Aktrisa" filmində – *"bankir çox mədəni insandır, çünki o, qadağalara riayət eləyir. Orada bir dənə mədəniyyətsiz qadın – Lalədi, çünki qadağalara riayət eləmir. Etmədi. O, qadağalara riayət etmədiyi üçün faciə törəndi. ... bizim o pəncərədən baxanda qadağalar toplusu – mədəniyyət adlanır, o qadağaların içindən çıxıb azad olmaq istəyəndə, həmin mədəniyyətsizlik faciəyə səbəb olur"* [5].

Göründüyü kimi, cəmiyyətdə əsrlər ərzində yaranmış qaydalar, dini baxışlar, adət-ənənələr, vərdişlər dövlət tərəfindən qoyulmuş rəsmi qanunlarla bərabər, eyni səviyyədə qüvvədə olur, hətta bəzən onlardan da güclü təsirə malik hökmranlıqları ilə bəşər övladının həyatını nizamlayır.

Üçüncü aspekt Azərbaycan cəmiyyətində qadınların vəziyyətidir. Milli adət-ənənələr, təəssüf ki, hələ də izləri qalmaqda olan, güclü təsir qüvvəsinə malik patriarxal cəmiyyətin mənəvi qanunları, həmin qanun və ənənələrdən kənara çıxa bilməmək (yaxud çıxmaq istəməmək), çıxanda isə gedişatın faciə ilə nəticələnməsi danılmaz faktdır. Cəmiyyətimizdə qız əvvəlcə atasının (yaxud babasının, qardaşının, dayısının, əmisinin) qoyduğu qaydalara, ailə qurduqdan sonra bütünlüklə həyat yoldaşına tabe olaraq, onun dediklərinə əməl edir. XXI əsrin əvvəli də olsa, cəmiyyətdə işləməyən, ictimai fəaliyyətdən uzaq salınan, həyat yoldaşı, yaxud ata (qardaş, əmi, dayı və s.) təkidi ilə təhsildən yarımçıq ayrılan, işdən çıxarılıb evdə

mədəni məhbəsə məhkum edilən qadınların sayı, təəssüf ki, kifayət qədərdir. Burada bir maraqlı məqam da ondan ibarətdir ki, qadınların cüzi hissəsi buna qarşı mübarizə aparmaq istəsələr (yaxud aparsalar da), böyük qismi durumu adət-ənənə ilə bağlayaraq, tabe olur və razılaşırlar. Çünki reallıq göstərir ki, əsərdəki kimi, birincilərin aqibəti heç də həmişə müsbət hal ilə sonlanmır.

Qəlbindən yaşayıb-yaratmaq, rollar oynamaq keçən cavan qadın bu hissini qonşusunun üzərində sınayır. O, taleyində rol ifa etməyə başlayır, həyatı səhnə zənn edir və sonluq barədə düşünmür. Ərinin qoyduğu qadağalara, cəmiyyətdəki digərləri kimi, müqavimətsiz tabe olmuş və dörd divar arasında həyat yaşamağa üstünlük vermiş qadının daxilində əmələ gəlmiş hisslər onda fəaliyyətsizliyə dözümsüzlük yaradır. Yazıçı İlqar Fəhmi qəhrəmanı Rüfətin düşüncələrinin içində əsərin əhəmiyyət kəsb edən məqamına çox qısa toxunur: *"...ərə gedənə qədər aktrisa işləyib. Yəqin sonradan bankir Onu sənətdən ayırıb. ... Məgər bilmir ki, incəsənət adamını öz sənətindən ayırmaq onu öldürmək kimi bir şeydir?"* [3, s.100].

Güzəranı nə qədər gözəl və qayğısız olsa da, qadın evdə tənhadır və bu, Rüfətin dilindən qəhrəmanın elə ilk müşahidə günlərində, onun *"Barbilərə bənzəmədiyini görəndə"* [3, s.90] verilir: *"Amma Onu müşahidə elədiyim bu müddət ərzində mən açıq-aşkar hiss elədim ki, o tamam başqa insandır. Onun obrazını xatırlayanda ilk olaraq fikrimdən tənhalıq məfhumu keçirdi. Cismani təklik yox, məhz ruhani tənhalıq. Onun bütün davranışında, hərəkətində, baxışlarında bu tənhalıq hiss olunurdu, amma qəribə də olsa mənə elə gəlirdi ki, bu tənhalıq onun özünə də xoşdur. Sanki ucsuz-bucaqsız okeanda sağ qalmış yeganə canlı məxluq – yeganə şıltaq bir balıq idi və bu sonsuzluğun yeganə sakini olmaqdan zövq alırdı, çünki bu ucsuz-bucaqsız okean yalnız və yalnız ona məxsus idi"* [3, s.91].

Rejissorun özünün baxışı daha genişdir: *"Mən orada, ümumiyyətlə, qadın, qadın azadlığı, Şərqdə, müsəlman dünyasında qadının sıxılması, azadlığının əlindən alınması deyə bir şey yox, daha böyük yanaşmaya çalışdım"* [5]. Müsahibə zamanı məsələyə Rövşən İsax, demək olar ki, bu barədə nadir hallarda danışılan yanaşma tərzi ilə baxmışdır. Bu, filmlə əsər arasındakı fərqlərdən biri də bankir Vaqif Fətəliyevin sevmədən, valideynlərinə tabe olaraq, ailə qurması və illər sonra həyat yoldaşından boşanaraq, sevgi naminə Lalə ilə evlənməsi barədə dialoqda vurğulanır. Rejissorun cavabı həmin dialoqdadır. Müsahibə zamanı Rövşən İsax cəmiyyətdəki vəziyyətə toxunduqda təkcə qadınların deyil, bir sıra hallarda heç kişilərin də mənəvi cəhətdən azad olmadıqlarını qeyd edir. Başqa bir müsahibəsində Rövşən İsax qəhrəmanlarının *"hər birinin müsbət adam olduğunu"* qeyd edir. Rejissor söyləyir ki: *"Sadəcə, kimsə hardasa nədəsə səhv edib. Belə səhvlərdən sığortalanmaq üçün mentalitetimizə xas olan qadağa vərdişindən azad olmalıyıq. Yaxın adamlarımıza nəyisə diktə etməməliyik, seçimlərinə hörmətlə yanaşmalıyıq. ... Bu filmin qəhrəmanlarının talelərinin o cür alınmağında uşaq vaxtdan salındıqları qadağa, diktə çərçivəsi öz işini gördü..."* [6] Alesa Kaçer filmdə ilk olan mürəkkəb, çoxşaxəli xarakterə malik, güclü şəxsiyyət obrazının asan rol olmadığını, zaman-zaman

analizlərdən keçirdikcə, onun xarakterini dərk etdiyini" söyləyərək, Lalənin yaşantılarını öz şəxsi faciəsi hesab edir.

Bu, kinoşünas Şəhla Bürcəliyevanın "Zərif qatil" adlı məqaləsində belə qeyd edilmişdir: *"Bütün qayğılardan azad olmağın əvəzini Lalə sənətini atmaqla ödəyir. Onun üçün maddi dəyərlər tədricən mənasını itirir. Aktrisanın gözqamaşdıran zəngin həyatı artıq qızıl qəfəsə bənzəyir. O bir daha əmin olur ki, həyatın, insanlığın, mənəvi dəyərlərin sirlərini ona xırdalıqlarına qədər cilalayan sənət dünyası artıq onun əsl "mən"inə çevrilib. Daim səhnədə yaratdığı obrazlarda müxtəlif xarakterli insan talelərini yaşayan, tamaşaçılara çatdıran Lalə artıq səhnəsiz və sənətsizdir"* [2, s.10].

Həmçinin, orada başqa yanaşma da var: *"Bu filmdə müasirlərimizin, yarımçıq qalan tanış talelərin uğursuzluqlarının səbəbini görür, insanları insanlıqdan uzaqlaşdıran, ölümünə yaxınlaşdıran var-dövlət hərisliyinə "yox" deyən kadrları izləyirik. Budur filmin əsas qayəsi"* [2, s.10].

Elnarə Akimova İlqar Fəhminin "Akvalanq" və "Aktrisa" əsərləri barədə məqaləsində yazmışdır ki, *"onun hər iki əsərinin arxasında qadın təkliyi, tənhalığı dayanır, gündəlik, real həyatın bozluğundan yorulan adi məişət tərzinin yaşantılarından bezən hər iki qadının xarakterik cizgiləri, iç dünyaları, mənəvi aləmləri onların romantika axtarışı proseslərində bəsitlikdən, yekrənglikdən qurtulma çabalarında daha qabarıq görünür. Gəl ki, bu çabalar heç də həmişə uğurla nəticələnmir. "Aktrisa"dakı qadına bu oyun sərgüzəştləri ərinin və özünün ölümü bahasına başa gəlir, "Akvalanq"dakı qadının isə bəxti onda gətirir ki, onun oynadığı tamaşanın tərəf müqabili öz əri olur"* [7, s.186]. Tədqiqatçı buna belə yekun vurur ki, *"Aktrisa" əsərində isə edilən cinayətin dərk məqamı sahibinə yazıçıya intihardan başqa çıxış yolu qoymur"* [7, s.186].

Dördüncü aspekt incəsənətlə, ədəbiyyatla bağlı insanların ruhən sərhəd tanımamalarıdır.

Həyatları yaradıcılıqla birbaşa bağlı insanlar bu mənəvi tələbatdan müvəqqəti ayrıla bilərlər. Lakin qəlbində yaratmaq arzusu yaşayanlar müəyyən müddətdən sonra yenidən hansısa yolla yaradıcılığa başlayırlar. Belə insanlarda xüsusi həssaslıq olur və onlar yaradıcılıqla bağlı digər şəxslərə də incəliklə yanaşırlar.

Orucov dindirilmə zamanı ifadə verərkən, qadının rol oynaması barədə söhbətindən *("...həyat onunçün elə bil ki, teatr səhnəsi idi"* [3, 56], *"...indi mənim oynadığım rol ondan qat-qat maraqlıdır"* [3, s.57]), hərəkətlərindəki dəyişikliklərdən danışır. Orucov həmin davranışlara aktyorlara xas sənət tərzi kimi yanaşır və ilk baxışdan bunlara əhəmiyyət verilmir.

Lalənin dili ilə İlqar Fəhmi belə açıqlama verir: *"İçimdəki səhnə ehtirası sönməmişdi, əksinə, fəaliyyətsiz qaldığı müddətdə bir az da güclənmişdi. Və mən bu ehtirasın cilovunu azacıq buraxan kimi hiss elədim ki, içimdə vulkan püskürməyə başladı. Yalnız onda başa düşdüm ki, mən səhnə üçün nə qədər darıxmışam..."* [3, s.128]. Bu hayqırtı yalnız ikicə dəfə qeyd edilir. Maddi cəhətdən tam təminatlılığına

baxmayaraq, mənəvi qanunlara tabe olan qadının tənhalaşması həyatında faciəvi sonluqlara yol açır və qəlbinin dərinliklərindəki, heç özünün özünə etiraf etmək istəmədiyi niyyətlər üzə çıxır: *"...adətən möhtəşəm teatr səhnələrinə əli çatmayan rejissor öz maraqlı ideyalarını kiçik səhnələrdə həyata keçirməklə özünü sakitləşdirir. Diqqət vermisinizsə yəqin görmüsünüz ki, içində despotluq, hakimiyyət yanğısı olan adam cəmiyyətdə istədiyi zirvəyə çata bilməyəndə öz tiraniyasını kiçik miqyasda, yəni öz ailəsində həyata keçirir. ... Sizi görəndən sonra mən də buna oxşar bir fikrə düşdüm. Öz möhtəşəm ideyamı kiçik miqyasda sınaqdan keçirməyi qərara aldım"* [3, s. 126-127]. Və bu ideya sonuncu olur. Laləni öldürən Rüfət qadının hətta bunu da oyuna bənzədiyini görür: *"O elə indi də özünü teatrda hiss edirdi və rol aldığı tamaşada öz ölüm səhnəsini yaradırdı. ... Ö ölmürdü. O yenə də oynayırdı..."* [3, s.139].

Rüfət ilə Lalə görüşəndə, maraqlı dialoq-monoloq gedir ki, o zaman Rüfət bir kəlmə də söyləmir, yalnız Lalə danışır (halbuki, əsərin ikinci hissəsi bütünlüklə birinci şəxsin – Rüfət Hüseynzadənin dili ilə yazılmışdır). Hətta Lalə Rüfətə sual versə də, ona müraciət etsə də, gənc yazıçının nə cavab verəcəyi, yaxud heç cavab verməyəcəyi qadını qətiyyən maraqlandırmır. Ərinin ölümünə təəssüflənən qadının sözlərində onun üçün tam gözlənilməz faciəvi sonluqla bitmiş hadisələrin mahiyyəti söylənilir: *"...öz kiçicik mono pyesimi bəşəriyyətin absurd teatrından qopara bildim. Elə bircə bu da, özümü xoşbəxt hiss etməkçün mənə kifayət edirdi. İllərdən bəri əlçatmaz görünən arzum axır ki, həyata keçirdi..."* [3, s.129]. Burada oyun fəlsəfəsinə toxunulur. *"Sizinlə oynamaq mənimçün çox maraqlı idi, axı siz özünüz də maraqlı adamsınız. Sizin kitablarınız daxili aləminiz barədə mənə hər şeyi danışmışdı... Mən hətta teatr səhnəsində də öz oyunumdan bu qədər həzz ala bilməmişdim. Bu, dillə ifadə olunmayan fantastik bir duyğu idi. Hər şey mənim təsəvvür etdiyimdən də qat-qat gözəl alınırdı... Elə bil ki, müəllifi də, rejissoru da, ifaçısı da özüm olduğum xüsusi bir mono tamaşa oynayırdım. Sizsə mənim yeganə tamaşaçım idiniz. Həm də çox ehtiraslı tamaşaçı idiniz. Bəlkə də sizin yerinizə başqası olsaydı, heç mən belə həvəslə oynamazdım... Lakin bilsəydim ki, bu gözəl oyunun sonu belə olacaq..."* [3, s.124].

Həyatın özünün insan qəlblərində, düşüncələrində nələrin baş verməsi açıqlanmayan oyuna bənzəməsi məsələsi də qaldırılır. *"Hər bir insanın həyatı özünün səhnəyə qoyduğu bir pyesdir. Özümüz qururuq, özümüz də oynayırıq. Uğurun da, uğursuzluğun da məsuliyyəti yalnız öz üstümüzə düşür... Amma təəssüf ki, heç kimin aktyorluq fəaliyyəti yalnız öz pyesi ilə məhdudlaşmır"* [3, s.124].

İlqar Fəhminin fikrinə görə, əsərin qəhrəmanı Lalə hər şeydən əvvəl zərifliyə, hüsnə meylli varlıqdır və qadın kimi, *"...öz oyununu maksimal dərəcədə gözəl eləməyə çalışır"* [4]. Yazıçı müsahibəsində əsərdəki oyun məsələsini belə qabardır: *"Çünki qadın xislətinin kökündə göstərmək var, nümayiş etdirmək var. Onu oxuyan istənilən kişi özünü onun yerində görmək istəyir. Niyə? Çünki hər bir kişinin xislətində müşahidəçilik var"* [4]. İlqar Fəhminin fikrinə görə: *"Qadında göstərmək*

xisləti güclüdür, kişidə müşahidə eləmək xisləti ki, o da oyunun tərəflərini müəyyən eləyir. Bu da əslində oyundur orada, özü də təhlükəli oyundur" [4]. Çünki*"...kainatda yalnız bir rejissor var, o da Allahdı. Biz hamımızsa təhkim olunduğumuz tamaşaya cüzi dəyişiklik belə etməyə ixtiyarı çatmayan aciz aktyorlarıq"* [3, 140].

Aktrisa rolunun ifaçısı, Alesa Kaçer də xoşbəxtlik üçün həmişə seçim azadlığının, istənilən şəxsi öz arzularına çatmaq üçün ilhamlandırmağın zəruriliyini vurğulamış, yaradıcılığından məhrum ediləcək şəxsiyyətlərin isə natamam, kompleksli qalacağını, məhdudiyyət və qadağaların quluna çevriləcəyini bildirmişdir.

Ş.Bürcəliyeva qeyd etmişdir ki: *"Qayğısız yaşayan Lalə üçün artıq həyat əyləncəyə çevrilib. Onun evi bir səhnə, ətrafdakılar isə köməkçi personajlardır. İndi o öz həyatını oynayır. Tərəf-müqabili əri, tamaşaçısı isə ona vurulan, qarşı evdən hər addımını izləyən, axşamları qaranlıqdan yalnız siqaretinin işığı parıldayan, sanki onun kölgəsinə çevrilən romantik bir yazıçıdır"*. Rüfət obrazı barədə isə yazılmışdır: *"Rüfətin incəliklər axtaran düşüncələri əməllərini, yazılarını və mənliyini aliləşdirib. O, intellektinə, insani keyfiyyətlərinə görə artıq həyatın ideal bir obrazına çevrilib. O, həyat rolunu oynamadı, daxilinin əksi kimi yaşadı və uduzdu. Ərköyün zadəgan qadağalarının qurbanına çevrildi"* [2, s.11]. Nəticə kimi isə bu fikir qeyd olunur: *"sivil standartlara dar gələn "qüsursuzluq" istəyi çox vaxt Rüfət kimi minlərlə gənci çaşdırır, məhvə sürükləyir. Zərif zənənlərin gözqamaşdıran cazibəsi bu gün həyatın mənasını məhdudlaşdıran ailə, ocaq anlayışını arxa plana atan aktual mövzuya çevrilib"* [2, s.11].

İlahə Kazımovanın fikrinə görə, əsərdə *"...incəsənət adamının psixoloji durumu, gerçək həyatla səhnə arasında sərhədlərin itməsi, yaradıcılıq ustalığı və mahirlik dərəcəsi, tamaşaçı əhval-ruhiyyəsinə hakim kəsilən istedadı əsər boyu diqqət mərkəzində dayanır. Yazıçı tərəfindən qoyulan digər mərkəzdə duran problemlər potensialı olan incəsənət adamının səhnədən kənar düşərək sənət eşqilə yaşaması məsələsidir"* [8, s.368].

İlqar Fəhmi müsahibə zamanı söyləyir ki, oyunların gözəlliyi artdıqca, onların vasitəsi ilə insan xislətinin mənfi tərəflərini gizlətmək, əslində mümkün deyil – *"Nə qədər gözəlləşdirilirsə, o qədər də təhlükəli olur"* [4].

Əsərdə **dörd simvol** var: birinci rəmz – **xəncər,** ikincisi – **hörümçək toru,** üçüncüsü – **rəqəm**lər, dördüncüsü – **kitabdır**.

Soyuq silah olan **xəncər** qədim zamanlardan milli adət-ənənəni əks etdirən əşyalardan idi. Xüsusilə, Qafqaz xalqlarında hakimiyyət, namus, kişilik rəmzi hesab edilmişdir. Sovet dövrünə qədər Azərbaycanda da xəncər populyar idi. Xəncər həmişə kişilərin belinə taxılarmış və başqasının əlinə verilməzmiş, hətta məğlub olan, yaxud itaətini göstərən şəxsi xəncərin, yaxud qılıncın altından keçirərmişlər.

Cinayətkarların dünyasında xəncər başqa simvol daşıyır. Məhbusların bədənlərinə xəncər şəkli döydürülməsinin mənaları müxtəlifdir. Məsələn, ucundan qan daman xəncər döydürmüş dustaq hər an kimisə öldürəcəyinə hazırlığını bildirir,

kəllə sümüyündən xəncər keçməsi simvolikası isə ən azı bir adam öldürmüş dustaqlara aid edilir. Əgər dustağın bədənindəki xəncər döyməsinin üzərində qızılgül varsa, bu onun həmişə öz sevgilisinə sadiq qalacağını, qolundakı döymənin qandalda, yaxud tikanlı məftildə təsviri həmin məhbusların cəza zonasında yenidən cinayət törətməsini bildirir və belə şəxslər bu sayaq döymələri ilə dustaqları oğru qanunlarına hörmətə təhrik edirlər [9].

Əsərdəki xəncər simvoluna belə şərh vermək olar ki, o, bircə ehtiyatsız hərəkətdən qonşu həyətə düşür. Bununla sanki xəncər öz sahibini, yəni kiməsə mənsubluğunu, nəticə etibarı ilə ona itaətini itirir. Beləliklə, xəncər silahın tiyəsini əlindən buraxmış şəxsin özünə qarşı yönəlir. Ev sahibinin ixtiyarından çıxmış xəncər – hakimiyyət – əvvəlcə qadının əlinə, ondan isə qonşu həyətə düşür və öz sahibinin ölümünə səbəb olur.

İkinci simvol – **hörümçək torudur.** Bir çox dünya xalqlarının həyata baxışlarında hörümçək müxtəlif simvolları özündə əks etdirmişdir. Hörümçək özü xunxarlıq, hörümçək toru isə bihudəlik, əbəslik mənasını bildirir. Keltlərdə əlaqələrin birləşdiricisi, namələrin gətiricisi, yunanlarda və misirlilərdə tale, xristianlarda isə şeytan, eləcə də insanın qanını soran varlıq mənasını daşıyır [10, 385].

Rəssamların yaradıcılığında müxtəlif mənalarda əks edilmişdir (M.Eşer "Hörümçək toru", Ksever Melleri "Eniş", Paul Klee "Əsir" və s.) [11, s.367-370].

Başqa mənbələrdə isə hörümçək insan təbiətində olan qara, dalaşqan, iblisanə, eyni zamanda da yaradan, demiurq qüvvə mənasını bildirir. Amerikalı hindularının inanclarına görə, hörümçək-insanın toru səma ilə torpağı birləşdirir [10, s.385]. Cinayət aləmində, dustaqlar arasında bədəninə hörümçək toru döydürmüş şəxslər oğrular zümrəsinə aiddirlər. Yaxud, əgər tor üstündəki hörümçək üzüyuxarı durmuşdursa, bu, "oğurlamışam, oğurlayacağam", başıaşağı durmuşdursa, "oğurluğu tərgitmişəm" mənasını bildirir. Həmçinin hörümçək toru dustağın narkotik maddə aludəçisi – bəngi olduğuna işarədir [9].

Ümumiyyətlə, hörümçək toruna İlqar Fəhminin yaradıclığında birinci dəfə deyil ki, rast gəlinir. İlqar Fəhminin ssenarisi üzrə 2012-ci ildə çəkilmiş serial da "Hörümçək toru" adlanır. Şantajla məşğul olan qruplaşma haqqındakı bu serialda hörümçək toru – gizli əməllərin rəmzi kimi nəzərdə tutulur. Qruplaşma çirkin məqsəd güdərək, ayrı-ayrı insanların həyatının bəzi məqamlarının lentə alınmış anlarından həmin şəxsləri şantaj üçün istifadə edir.

"Aktrisa"dakı **hörümçək toru** və **hörümçəyin** – izahatını İlqar Fəhmi yazıçı-qəhrəmanının dili ilə verir: Rüfət sənətindən ayrılmış qonşu qadın Laləni ərinin torunda çapalayan kəpənəyə bənzədir: O, hadisələri *"Hörümçək və kəpənək"* [3, s.111] adlandırıb, əməlini *"ilahi missiya"* [3, s.111] kimi dərk edir: *"Xəyalımda qara bir hörümçəyin cəngində çapalayan zərif kəpənək canlandı. Doğrudanmı bu zərif kəpənək ömrünün sonuna qədər iyrənc bir hörümçəyin caynaqları arasında çapalamalı olacaq?.."* [3,s.106]. Lakin İlqar Fəhmi əsərdə hadisələrin axarını elə məcraya salır ki, az sonra xanımın halına acıyan gənc yazıçı özü qadının "kəpənək

toru”na düşür və çapalayaraq, onun gözəlliyinin, eləcə də incəsənətin böyük qurbanına çevrilir. Rüfət Hüseynzadənin rolunu ifa etmiş İlham Hüseynov onu *“...qadının rola girdiyini görməyən”* və *“təxəyyülünün qurbanına çevrilmiş yazıçı”* adlandırmışdır [6]. Nuranə Abbasova isə söyləmişdir ki, Rüfət Hüseynzadə *“...özü o tora düşərək, Lalənin həm qurbanına, həm də qatilinə çevrilir”* [12].

Cəmi 40 gün davam edən hadisələr faciəvi sonluqla bitir. Gündəliyə görə, iyunun 28-i başlanan əhvalatlar avqustun 7-si tamamlanır. Burada da simvolik bir məna vardır. Belə ki, bir çox dünya xalqlarının şüurunda, adətlərində, düşüncə tərzlərində ayrı-ayrı **rəqəmlər** müxtəlif məna daşıyır. Həm dünya xalqlarının folklorunda, həm də Azərbaycan folklorunda 3, 7, 40, 100 rəqəmlərinə aid çoxlu nümunələr var. Məsələn, 40 rəqəmi ruslarda say vahidi kimi istifadə edilirmiş, yaxud, onların inanclarına görə, martın 22-si baharı qarşılamaq üçün 40 quşcuğaz uçub gəlirmiş. Bir maraqlı inanc da var idi ki, guya hörümçəyi öldürənin 40 günahı bağışlanarmış [11, s.468]. Başqa inanclarda da 40 rəqəminin tamlıq, mükəmməllik simvolu olduğu nəzərə çarpır. Məsələn, Müqəddəs Avqustin fərz edirdi ki, 40 rəqəmi İnsan ilə Allah arasında səyahəti əks etdirir. Və ya Musa peyğəmbər öz qövmünü səhrada 40 gün ərzində gəzdiribmiş. İsa peyğəmbərin tutduğu oruc 40 gün davam edirmiş [13, s.217].

Milli folklorumuzda rəqəmlərlə bağlı çoxlu atalar sözü və məsəllər var. Məsələn, “Üç eşşək bir axurdan arpa yeməz”, “Üç tümənlik eşşəyin on beş qranlıq qoduğu olar” [14, s.620], “Yeddi ayda bir qarış, bir ayda yeddi qarış?!”, “Yeddi ayın suyunu bir arxa calayır”, “Yeddi qonşu bir qazana möhtacdır”, “Yeddi qurda bir çarıq neyləsin?”, “Yeddi məhəllədən qovulmuş it kimidir”, “Yeddi məhəlləyə çörək verir”, “Yeddi molla, bir əmmamə!” [14, s.405], “Yeddisində “Gülüstan” oxuyan, yetmişində başa düşər”, “Yeddisində nə idi isə, yetmişində də odur” [14, s.406], “Qırx bacanağı bir it parçaladı”, “Qırx qarğaya bir sapand daşı” [14, s.204], “Qırxında öyrənən, görunda çalar”, “Qırxını qırıb, birini tapıb”, “Qırx gün toyuq olmaqdansa, bir gün xoruz olmaq yaxşıdır”, “Qırx il yağış yağsa, mərmərə su keçməz”, “Qırx dayəsi olan uşaq aciz olar” [14, s.205], “Yüz biliyin olsa da, bir bilənlə danış”, “Yüz birə qoşulmaz, bir yüzə qoşular”, “Yüz “vur” deyəndən, bir vuran yaxşıdır”, “Yüz qayğı bir borcu odəməz”, “Yüz eşitməkdənsə, bir görmək yaxşıdır”, “Yüz il kotanın işləyincə, bir gün bəxtin işləsin”; “Yüz iynə yığsan, bir çuvalduz olmaz”, “Yüz il gərək qanqal otlayasan ki, ağzın dəvə ağzına oxşasın”, “Yüz il sel gəlsə ovmaz, bir gün dərd gəlsə – ovar”, “Yüz soraqdan birinə hay vermir” [14, s.620] və s.

Azərbaycan xalqının folklorunda öz əksini tapmış belə rəqəmlərdən biri də 40 rəqəmidir. İnanclara görə, yeni doğulan körpə 40 gün kənar şəxslərdən qorunur, həmin müddət keçdikdən sonra, “qırxının çıxması” – “qırxtökdü” məclisi qeyd olunur. Yaxud, dünyasını dəyişən şəxsin hüzr mərasiminə 40-cı gün yekun vurulur və mərhumun ən yaxınları toplaşaraq, “qırx ağzı bağlamaq” – “qırxbaşı” mərasimi

qeyd etdirməklə məcazi mənada onları bədlikdən çıxarır, yenidən həyatın axarına salırlar.

"Aktrisa" əsərini təhlil edərkən, oradakı hadisələrin cəmi 40 gün ərzində davam edib, məntiqi faciə ilə sona çatması onu bildirir ki, əsərin qəhrəmanları üçün simvolik sınaq müddəti olan "yalanın ömrü qırx gündür" fikri öz təsdiqini tapmışdır. Yəni, yalan üzərində qurulmuş saxta münasibət iflasa uğrayır.

"Aktrisa" əsərində dördüncü rəmz – **kitabdır.** Kitab – bəşəriyyətin ən böyük kəşfi hesab edilir. Kitab – insanı cahillikdən çıxarır, doğru yola yönəldir, dünyagörüşünü artırır, həyatın keşməkeşlərinə hazırlayır. Siseron kitabsız evi "ruhdan ayrılmış bədən"ə bənzətmişdir.

Rüfət Hüseynzadə qəlbindəki duyğuları əvvəlcə *"nağıl kitabının üz qabığı"*na [3,s.100] oxşadır və belə zənn edir ki, *"kitab açılan kimi maraqlı və füsunkar aləmə düşəcəyəm. Bu mənim nağılım idi. Bəlkə də təkcə mənim yox, İKİMİZİN..."* [3, s.100]. Lalə isə *"Hə, mən oynayırdım... ... Təsəvvür edin ki, ruhunuzu qoyub çox gözəl bir roman yazırsınız və bilirsiniz ki, bu romanı yalnız bircə nəfər oxuyacq. Yalnız bircə nəfər. ... Bir yazıçı və bir oxucu"* söyləyir [3, s.129].

Rüfət Hüseynzadə bankirə avtoqraflı kitab vermək adı ilə qonşu bağa keçir və onu da özünə alibi təmin etmək üçün sonradan ora qoyur. Həmçinin, yazıçının televiziyaya müsahibə verərkən, kitab haqqında danışan zaman onun qatı açılmadan, oxunmamış qalmaqdansa, oxunaraq əllərdə cırılıb-dağılmasına üstünlük verdiyini deyir. Filmdə həmin epizodda Rüfət Hüseynzadənin öz kitabı elə canlı yayım zamanı əlindən düşür. Bir neçə gündən sonra yazıçı qonşu bağda aktrisanın mütaliə etdiyini, ələlxüsus da, onun kitabını oxuduğunu görəndə, yenə də emosiyaları bir-birinə qarışır. Lakin az sonra qonşu qadının onun kitabının səhifələrini cıraraq "quşlar" düzəltməsindən qeyzlənir. Söylənilən simvollarla baş verəcək hadisələrin sonluğu qabaqcadan bəlli olur: yazıçı öz həyat kitabını artıq əlindən "yerə salmış", aktrisa isə onları quş kimi göydə uçurda-uçurda tələf etmişdir. Rüfət Hüseynzadənin kitabının adı isə, onun taleyi kimi, "Son səyahət"dir... [3, s.96].

Fəlsəfədə geniş traktovka edilən bir müddəa – həyatda hər şeyin təsadüf deyil, zərurət olması barədə mülahizə bu günə qədər də mübahisə mövzusu kimi qalır. Filmlə əsərə birgə nəzər saldıqda, bir maraqlı nüans görünür ki, bu da əsərin qəhrəmanı müstəntiq Eldar Əfəndiyev obrazı ilə bağlıdır. Həmin obraz filmin quruluşçu rejissoru Rövşən İsaxın özü tərəfindən canlandırılmışdır. Eləcə də filmin məsləhətçilərindən biri Eldar Əfəndiyev isimli şəxs olmuşdur...

Bütün analizlərlə belə nəticəyə gəlmək olar ki, texnikanın inkişaf etdiyi, informasiya axınının həddən ziyadə bol olduğu dövrdə oxucuların, tamaşaçıların yaddaşında qalacaq əsər yaratmaq asan məsələ deyildir və yazıçı İlqar Fəhmi ilə rejissor Rövşən İsax buna nail olmuş, məhdud çərçivəli detektiv janrında mükəmməl əsər meydana çıxarmışlar.

Ədəbiyyat siyahısı:

1. İsax Rövşən. Neqativi “Pozitiv media” yuyacaq. “Mədəniyyət”, 1 aprel 2009-cu il. № 21 (638).
2. Bürcəliyeva Ş. Zərif qatil. “Mədəniyyət”, 10 iyun 2011-ci il, № 42 (841).
3. Fəhmi İ. Aktrisa. Bakı: XAN, 2017, 144 s.
4. İlqar Fəhmi ilə müsahibə // T.D.Muxtarovanın şəxsi arxivindən.
5. Rövşən İsax ilə müsahibə // T.D.Muxtarovanın şəxsi arxivindən.
6. http://news.milli.az/culture/40012
7. Akimova E. Oyun içində oyun, yaxud içimizdəki aktrisa. “Azərbaycan”. Ədəbi-bədii jurnal. № 5. 2011-ci il.
8. Kazımova İ. İlqar Fəhminin “Aktrisa” romanına bir nəzər. AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu. Filologiya məsələləri. Məqalələr toplusu. № 10. Bakı, Elm və təhsil. 2012, 536 s.
9. www.lent.az/248542
10. Энциклопедия символов, знаков, эмблем. Москва, ЭКСМО.СПб. МИДГАРД. 2008. 608 с.
11. Энциклопедия. Знаки, символы, эмблемы. Москва. Астрель. 2004. 556 (4) с.
12. https://senet.az/aktrisani-oldur%C9%99n-yazici-qatil-yoxsa-qurban/
13. Большая толковая энциклопедия символов. Все знаки и символы. Минск. Харвест. 2011. 400 с.
14. Atalar sözü. Toplayanı Ə.Hüseynzadə. Bakı, Yazıçı, 1985, 690 s.

Т.Д.МУХТАРОВА

ПРОИЗВЕДЕНИЕ ИЛЬГАРА ФАХМИ «АКТРИСА» И ОДНОИМЕННЫЙ ФИЛЬМ РОВШАНА ИСАХА

РЕЗЮМЕ

В статье повествуется о произведении Ильгара Фахми «Актриса» и об одноимённой экранизации режиссёра Ровшана Исаха. Рассказывается о различиях между произведением и фильмом, о точках зрения режиссёра и автора, раскрывается символика.

В этом произведении «Актриса», написанном в кратком, конкретном стиле, с минимальными средствами художественного выражения психологического детективного жанра, события развиваются в двух направлениях, всесторонне анализируются такие факторы, как внутренние миры героев, незаметное вовлечение человека, ведомый чувствами, в преступление, влияние искусства на человеческую психику, морально-духовные ценности и неписанные законы, присущие определённой нации.

Детально разъясняется использование символических понятий в произведении, написанном в лаконичном языке детективного жанра. С первого

взгляда кажущиеся обыденными понятия, как кинжал, паук, заплетавший паутину, цифры и книги тают в себе магию символики. Автор мастерски раскрывает их смысл в понимании различных народов.

Есть несколько вариантов аспектов рассмотрения произведения. Первый из них, противоречивые области влияния искусства на человеческую психику. Другим подходом является глубокое воздействие нравственных законов, существующих в обществе, на сознание людей. Третья точка зрения – повторное рассмотрение положения женщин в обществе. Четвёртый взгляд проявляется в мастерском изложении существования хрупких нравственных границ представителей искусства и литературы, в которые они согнаны и в тесных рамках которых, они не находят раскрытия своей личности.

В наше время стремительного и всеобъемлющего потока информации писатель Ильгар Фахми вместе с режиссёром Ровшаном Исахом создали в детективном жанре с ограниченном форматом, с минимальным использованием средств художественной выразительности, с кратким и лаконичном языком, запоминающуюся в памяти читателей и зрителей «Актрису».

Ключевые слова: Ильгар Фахми, Ровшан Исах, «Актриса», психологизм, детективный жанр

T.D.MUKHTAROVA

THE NOVEL “ACTRESS” BY ILGAR FAHMI AND THE SAME NAME MOVIE BY ROVSHAN ISAKH

SUMMARY

It is analyzed the novel “Actress” by Ilgar Fahmi and the movie of the same name filmed by Rovshan Isakh in the article. It is shown the different reasons of the movie and the novel, different point of view of the producer and the author, unwind symbols.

It is large analyzed the factors as moral worlds of types, emotions involving to crimes, the infulence of arts to human psychology, national moral customs and not writing laws of nations in this novel “Actress” which written is the psychological detective, having the laconic language and short style, minimum methods of artistic expression and where events happen in the two lines.

It is elucidating of using of meaning symbols in the detective genre, which has the laconic language. From the first way of ordinary nothings as a dagger, spider with web, numerals and books have many meanings of symbols. The author skillfully opens their meanings in views of many nations.

There are some variants of aspects of the novel. The first of them is contradiction of influence of arts to human psychology. Another aspect is the profound influence of moral laws of society to consciousness of people. The third

opinion is the position of women in the society again and again. The fourth view about people who were represented as art, literature and could not be in limited situation, because it was impossible to come out their talent.

The writer Ilgar Fahmi and the producer Rovshan Isakh have done for readers and audience in this modern period, when there are a lot of information and the technology is very develops, the memorable "Actress" in the detective genre, which has the short, laconic, without literary descriptions language.

Key words: Ilgar Fahmi, Rovshan Isakh, "The Actress", psychological, the detective genre

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: filologiya elmləri doktoru Kamil Allahyarov tərəfindən çapa tövsiyə olunmuşdur

HÜSEYN HÜSEYNLİ
Azərbaycan Universiteti
Bakı şəhəri, C.Hacıbəyli küç. 71
h.huseynli.1979@gmail.com

HÜSEYN CAVİDİN MƏNSUR DRAMLARINDA LİRİK PARÇALAR

Bədii nümunə oxucu və dinləyici tərəfindən mütəmadi olaraq və müxtəlif zaman daxilində yaşanır. Çünki sənətkar uzun illər öncə öz əsəri vasitəsilə hansısa hadisəni canlandırır, müəyyən informasiyanı ötürür və bir ideya verir; bu əsər müxtəlif onilliklərdən keçir və hər onillikdə bir məziyyəti üzə çıxır. Hətta oxucudan-oxucuya yeni məziyyətlər aşkarlanır. Deməli, bədii nümunə ancaq oxucu vasitəsilə özünü reallaşdırır, hətta oxucu və dinləyici arasında da duyma, anlama və dərketmə fərqləri meydana çıxır. Bu baxımdan dram əsərlərinin dərki prosesinin özünəməxsus dialektikası var. Çünki dram əsərinin ilk baxışdan bir-birilə sıx bağlı olan, amma əslində bədii əsərə münasibətdə aralarında ziddiyyətlər belə olan bir neçə müəllifi mövcud olur: yazar, rejissor, aktyor və tamaşaçı (hətta bura ədəbi tənqidçi ilə teatr tənqidçisini də əlavə edə bilərik). Bu dairədə yazar təbii ki, əsərin əsas müəllifidir: müxtəlif informasiyaları uzlaşdırır, özünə doğma bildiyi ədəbi-estetik prinsiplərə söykənərək müəyyən zaman və məkan kontekstinə daxil edir və öz idealına doğru hərəkət edir. Haqlı olaraq biz sənətkarı əsas ideyaverici qüvvə hesab edirik.

Rejissor isə, nə qədər müstəqil olursa-olsun, ədibin ötürdüyü (və ya ötürmək istədiyi) informasiyadan və yaratdığı (və ya yaratmaq istədiyi) ideyadan kənara çıxa bilmir. Uzağı bədii mətnin onda oyatdığı duyğuları ifadə etməyə çalışar ki, bu da əsərin estetikasına xələl gətirəcəksə tamaşaçı bunu qəbul etməyəcək və rejissor haqlı tənqidlərlə üzləşəcək. Bütün bunlarla yanaşı, rejissor yozumu bədii nümunənin təqdimatında müstəqildir, sərbəstdir, bəzi hallarda dramaturqla yaradıcı konfiliktə gedir və həlledici rol oynayır. Belə ki, əsərin hazırlanması prosesində rejissorun əlində ancaq xam mal var, bu xam malı keyfiyyətli təqdim etmək üçün, onun bütün hissələrini, qatlarını, ideya yükünü, xasiyyətini, xarakterini, zaman və məkan kontekstini və digər məziyyətlərini öyrənmək və istehsal lahiyəsini hazırlamaq kimi çətin və məsuliyyətli iş rejissorun üzərinə düşür. Burada əsərin ikinci yaradıcısı – rejissor yazarın estetikasını, dünyaduyumu və dünyagörüşünü mənimsəsə də, bədii parçanı özününküləşdirməli və öz yaradıcılıq kontekstinə daxil etməlidir.

Bədii nümunənin üçüncü və əsas yaradıcısı aktyor hesab olunmalıdır. Yazar öz yaradıcılıq idealına uyğun ideya verdi, rejissor bu ideyaları özününküləşdirib səhnə tərtibatı yaratdı, aktyorsa həm yazarın, həm də rejissorun ideyalarını, yozumunu özününküləşdirməli, öz dünyaduyumu və dünyagörüşünə uyğun gerçəkləşdirməlidir. Çünki sənət əsərinin ortaya çıxması və öz qiymətini alması

məhz onun oxunması, ifadə olunması, göstərilməsi prosesidir; hər bir sənətkar dilin gücündən istifadə etsə də, bu dil ünsiyyət vasitəsi olmaqdan çıxıb ünsiyyət prosesinə çevrilmədən öz missiyasını yerinə yetirmiş sayıla bilməz. Məhz sözdən yaradılmış ölü strukturu canlı orqanizmə çevirmək, canlandırmaq və kəsb etdiyi mənanı, yazarın çağırışlarını ünvanına çatdırmaq aktyorun üzərinə düşür. Mürəkkəb yaradıcılıq prosesi keçən bədii əsər hər mərhələdə öz əvvəlki kontekstini zənginləşdirir və bəzii hallarda itirir. Bədii nümunələrin məzmununda improvizələr mümkün olsa da, sənətkarın bilərəkdən və ya bilməyərəkdən buraxdığı kodlar, mətnaltı mənalar əbədi olaraq əsərdəki yerini və əhəmiyyətini saxlayır. Kodlar kiçik hissələr olub konteksti təşkil etməklə hansısa məqsədə xidmət edir və təbii ki, onları ifadə etmək üçün uğurlu bir forma tapmaq lazımdır. Forma özü də kod rolunda çıxış etdiyindən mürəkkəb bir sistemin tərkib hissəsidir. Əgər əsərin təqdimatı zamanı həmin kodlar improvizəyə, dəyişikliyə və ya ixtisara uğrayıb zədələnərsə əsər öz kontekstini itirmiş olar.

Hüseyn Cavid Azərbaycan ədəbiyyatı kontekstində bir koddur; əsərləri onun yaradıcılıq kontekstinin kodları, seçdiyi məzmun, forma, üslub, zaman, məkan, hadisələr və obrazlar isə bədii mətnin kodları kimi özünü göstərir. Amma elə kodlar var ki, qan yaddaşından süzülüb gəlir, qədim tarixə söykənir. Bu nəsnələrin bədii əsərə yol tapmasının ən böyük amili dil faktorudur. Çünki dil özündə çox böyük gizlinləri saxlayır; xalqın ruhu, tarixi və mənəvi yaddaşı dil vasitəsi ilə bu günlərə gəlib çıxıb.

H.Cavidin yaradıcılığını qapsayan kodlar üç əsas mənbədən qidalanır: birincisi, xalq yaradıcılığından, ikincisi, klassik yazılı ədəbiyyatdan və nəhayət üçüncüsü, Avropa romantizmindən. Bunlarla yanaşı nisbətən kiçik mənbələr də vardır ki, Cavidin tərzinə öz təsirini göstərib. Məsələn, İstanbulda aldığı təhsil və tərbiyə, "dini-həyat" adlanan dünyagörüşü, özündə türkləşmək, çağdaşlaşmaq və islamlaşmağı birləşdirən millətçilik, Rza Tofiq, Əbdülhaq Hamid, Tofiq Fikrət, Cənab Şəhabəddin, Xalid Ziya Uşaqlıgil, Əli bəy Hüseynzadə, İsmayıl bəy Qaspıralı kimi fikir və söz adamları H.Cavidin formalaşmasına təsir göstərmişdir. Bütün bu sadalanan elementlər hamısı Cavid kontekstinin formalaşmasında mühüm rol oynamış amillərdir. Bizsə üç əsas mənbənin – xalq yaradıcılığının, klassik yazılı ədəbiyyatın və Avropa romantizminin H.Cavidin yaradıcılığına, konkret olaraq, mənsur dramlarındakı lirik parçaların yaranmasına təsirini araşdıracağıq.

Xalq yaradıcılığını bəşəriyyətin uşaqlıq dövrünün məhsulu hesab edirlər. Yəni bu mövqedən belə çıxır ki, insan sivilizasiyası öz körpəlik dövründə yaradıb, istifadə edib, bu günsə həmin nümunələr bəşəriyyətə lazım deyil. Amma fikrimizcə, folklor insanı körpəlikdən formalaşdıran, ömrünün sonuna qədər onu izləyən bədii yaradıcılıq forması kimi xarakterizə edilsə, daha doğru olar. Bütün böyük sənətkarlar bu və ya digər dərəcədə folklor nümunələrindən bəhrələnmiş, mifik dünyagörüşün təsiri altında olmuşlar ki, bunun da çox sadə səbəbi var: əvvəla, insanın dünya ilə ilk təması şifahi xalq nümunələri (laylalar, oxşamalar, yanıtmaclar, tapmacalar, nağıllar

və s.) vasitəsi ilə mümkün olduğu üçün insan şüurunun təməlini, özülünü bu nümunələr təşkil edir; ikincisi, sənətkarın istifadə etdiyi dildir ki, özündə millətin xasiyyətini, xarakterini və ruhunu daşıyır. Sənətkar təsvir etdiyi gerçəkliyi bütün komponentləri ilə canlandırarkən həmin mühitin məişətindən, davranışlarından və xüsusilə, mifik dünyagörüşündən yan keçə bilmir. Əslində yan keçməsi mümkün kimi görünmür, çünki ən vacib daşıyıcı faktor olan dil bütün bunları özündə birləşdirir. Ən müasir bədii nümunələrdə belə şifahi xalq ədəbiyyatı motivləri özünü göstərir. Buna görə də bədii nümunələrdə folklor nümunələrindən bəhrələnmək sənətkarın özündən asılı olmayaraq baş verir.

H.Cavidin bir sənətkar kimi şifahi xalq ədəbiyyatına münasibəti, ondan qidalanması ənənəyə bağlılıqla bərabər, yaratdığı obraza oxucu və tamaşaçının marağını artırmaq və qəhrəmanının onlardan biri olduğuna inandırmaq məqsədi güdür. Bu baxımdan "Maral" əsərində H.Cavidin Aşıq Sultanın dilindən söylədiyi qoşma romantizm prinsipləri ilə yaranmış və kifayət qədər müasir bir əsərin ənənə ilə, xalqın ruhunu oxşayan məzmun və formanın qovuşması kimi xarakterizə olunmalıdır.

Sevgidədir ancaq Allah rizası
Sevgisiz bir gönül şeytan yuvası...
Qardaşım! Bu dünya kimsəyə qalmaz,
Aldanma! Çürükdür əsli əsası...(1. səh. 69)

Bu kiçik parçada biz klassik aşıq poeziyasının bütün çalarlarını görür və Xəstə Qasım yaradıcılığına xas forma və məzmunla üz-üzə qalırıq. Belə priyomdan istifadə edərək Cavid öz əsərinə, personajına rəğbət qazandırmaqla bərabər, təqdim etdiyi mətnin informasiya yükünü və əsas ideyasını rahatlıqla öz ünvanına çatdırmış olur. Faciədə Aşıq Sultan obrazı da öz ənənəvi rolundadır: zadəganları əyləndirir, onların məclisinin hörmətli üzvüdür, amma xalqı təmsil edir və onun sözünü deyir.

Nə buldular İsgəndərlər, Çingizlər!?
Qanlar döküb, canlar yaqıb getdilər!..
Cihanı titrədib alt-üst etdilər,
Qanlı bir iz bıraqdılar ellərdə... (1. səh. 70)

Açıq-aşkar millətçi və insanpərvər (hərçənd bu görüşləri bir-birinə qarşı qoyurlar, amma söhbət türk millətçiliyindən gedirsə insanpərvərliyi ondan ayıra bilmirik), zəhmətkeş və hər şeyin mənasının sevgi yolu ilə açılacağına inanan aşiq obrazı oxucu və ya tamaşaçıya önəmli ismarışlar ötürməkdədir. Həmçinin H.Cavid romantizmin estetik prinsipləri ilə şifahi xalq ədəbiyyatı formasının çox ustalıqla qaynayıb qarışmasını təmin edib.

Göstərdiyimiz nümunə "Maral" faciəsinin kontekstindən çıxarılmış kod olaraq bir çox xüsusiyyətlərə malikdir: əvvəla, bu qoşma folklordan alınmış koddur; ikincisi, şairin İstanbulda mənimsədiyi "dini-həyat" təliminin elementləri ilə zəngindir; üçüncüsü, mətndə Dədə Qorqudsayağı təhkiyənin mövcudluğudur. Ədib milli personaj olan Aşıq Sultanın dilindən həm seçdiyi forma ilə, həm də formanın

tələbi kimi meydana gələn məzmunla əsərin təsiretmə gücünü dəfələrlə çoxaltmış olub. Ümumiyyətlə, H.Cavid yaradıcılıq prosesində çeşidli mənbələrə istinad edir. Onun əsərlərində əfsanə və əsatirlərin süjetindən alınmış motivlər, canlandırmaq istədiyi tarixi şəxsiyyətlər haqqında mənbələrə əsaslanan faktlar, el arasında dolaşan rəvayətlər, lətifələr, qədim türk törələri (ənənələri) özünü bu və ya digər dərəcədə göstərir. Məsələn, "Topal Teymur" əsərində Yıldırım Bəyazidin tütək çalan çoban haqqında dedikləri tarixi fakt olaraq dillərdə dolaşmaqdadır: "Çal!..Çal!.. Əvət, bəxtiyar çoban, çal!.. Nə Sivas kimi şəhrin əlindən getmiş, nə də Ərtoğrul kimi oğlun..." Cavidşünas Azər Turan "Cavidnamə" əsərində qeyd edir: "İbn Kemal (Kamalpaşazadə) "Təvarih-i al-i Osman" əsərində yazır: "Bu eser-i suzi müşir olan söz xalq içində məşhurdur. Mesel-i sayi illərdə zahir və dillərdə məzkurdur ki, şəhər kənarında bir çüban sürüsü yanında düdügünü çalatururmuş, yarın və diyarın anıb nar-i iştiyakı neyistan-ı salatuturmuş. Sultan Yıldırım Han bərk-i təəssüfü tələhhüflə yanayoru darül mülk Burusada yapdurduğu imaretün maslahatın görürkən ol nay kulağına çalmış, guşi-huşinin dərvazəsini almış, eyitmiş: Çal bire, çüban, çal! Nə canun yandı, nə cügərün yakıldı. Ertuğrul gibi oğlun mi öldi, Sivas gibi şəhrin mi yıkıldı?" (2. Səh. 241). Əsərdə tarixi şəxsiyyətin dilindən söylənmək üçün elə tarixi sözlər seçilmiş ki, bu sözlər xalq arasında artıq dillər əzbəridir. Bu üsül yenə də əsərin təbii məna yükünü artırmış olur. Təbii məna yükü deyəndə ilk baxışdan kommunukativ funksiya daşıyan dilin özünün ifadəlilik yaradan təsisatları - vurğuları, məntiqi və psixoloji fasilələri, müxtəlif funksiyalar yerinə yetirən intonasiyası ilə ötürdüyü informasiya və yaratdığı izaholunmaz ruhi təsirni nəzərdə tuturuq. Belə bir ruhi təsir yaradan amillərdən biri də, heç şübhəsiz, bütövlükdə mətni qapsayan ritmdir. Qeyd etdiyimiz təsisatları dilin poetik funksiyası adı altında ümumiləşdirə bilərik. Poetik dilin ən mürəkkəb elementi olan mövzu məhz ritim vasitəsilə reallaşa bilir. Xüsusilə dram əsərinin dil strukturu ritimdən güc alır. Ritm mənanı konkretləşdirməyə və dəqiq ifadə etməyə, dolayısı ilə, düzgün dərk etməyə yardımçı olur. Deməli, bədii nümunənin düzgün təqdimatı və dərk olunması onun ritminin tapılmasından asılıdır.

Biz H.Cavid yaradıcılığını araşdırarkən dilin öz təbii ritmi ilə yanaşı, ritimyaradan elementlərin bolluğunu da görmüş oluruq. H.Cavidin mənsur dramlarında müxtəlif formalı lirik parçalardan istifadə etməsini tamaşaçının zövqünü oxşamaq məqsədi ilə bərabər, əsərin ritmini tutmağa hesablanmış bədii priyom da hesab etmək olar. Bu zaman H.Cavidin öz əsərlərində nə üçün poetik ritm yaradan türkülərdən, marşlardan və müxtəlif janrlı lirik parçalardan istifadə etdiyinin səbəbi üzə çıxır.

"Maral" faciəsi gənclərin məhəbbət dolu arzularından, insanların qarşısında əngəl yaradan adət-ənənələrdən və adi məişət hadisələrindən bəhs etsə də, məzmun etibarı ilə milli kimlik məsələsindən tutmuş, mənəvi azadlıq uğrunda mübarizəyə qədər bir çox məsələləri əhatə edir. Əsərdə türklük və türkçülük bütün tərəfləri ilə özünü göstərir: ən sadə insan, aşağı təbəqənin sadəlöv adamı Bayram qürurla oxuyur:

Bən bir türküm, dinim, cinsim uludur;
Sinəm, özüm atəş ilə doludur.
Doludur, doludur,
Dur! Dur! Dur...

Bu parçada fəxarətlə dolu qətiyyətli bir təhkiyə mövcuddur. Cavid bu sadəlöv personajın dilindən çox vacib və həssas mətləblərdən xəbər verməklə milli əhval-ruhiyəni təsvir etməyə çalışıb. Əslində, faciənin yazıldığı dövrdə Azərbaycan toplumu üçün ümmətçilik hələ də prioritet idi. Millətçilik ümmətçiliyi üstələyə bilmirdi. Amma ziyalılar, xalqın öndə gedən aydınları millətləşmə prosesini yorulmadan, usanmadan inkişaf etdirirdilər. Məhəmməd Əmin Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" əsərində Cavidin "ana düşüncəsinin milliyyət və türkçülük" olduğunu vurğulayır. Amma məsələnin ideoloji tərəfləri ilə yanaşı sözün estetik funksiyası baxımından göstərdiyimiz nümunədə dramaturqun yaratdığı alliterasiya və ritm maraq doğurmaya bilməz. Bütün əsərlərində dilin ritmindən çox məharətlə istifadə edən ədib, qeyd etdiyimiz kimi, bu yolla öz qəhrəmanlarının təsiretmə gücünü artırmış olur. Cavidin əsərlərində belə, marş tipində yazılmış nümunələrə rast gələ bilərik. Türk ordularında daim aşıqlar olmuş, döyüşdən əvvəl "Cəngi" çalınmış və türkülər oxunmuşdur. Belə ənənənin olduğunu biz xalq dastanlarımızdan da görə bilərik. Qeyd etmək istədiyimiz məqam ondan ibarətdir ki, Cavidin marş yazması sırf milli yaddaşdan qidalanır, folklordan gəlir, mifik dünyaduyumunun nəticəsidir. Amma məsələ burasındadır ki, Cavid bu nümunələri yaradarkən romantizmin estetik prinsiplərinin tələblərinə uyğun forma və məzmundan istifadə etmişdir.

Yaş zindanlar yuvamız,
Fəlakət aşinamız;
Ordular yıqan qurşun
Olmuş bizim qidamız. (1. səh. 246)

yaxud

Çoq əzildin yetər haydı doğrul, ər ol!
Həq sənindir bu gün arqadaş! Hazır ol!
Haq sənin, çünki zəhmət sənin...
Güc sənin, sə'yü qeyrət sənin... (1. səh. 272)

Bəzi mənbələrə görə 1912-ci ildə qələmə alınan, amma bəzi tədqiqatçıların fikrincə, fevral burjua inqlabından ilhamlanaraq yazılan "Şeyda" əsərindən gətirdiyimiz bu nümunələr xalqın mübarizə yaddaşından süzülüb gəlib; özünün lekiskası, bədii təsvir və ifadə vasitələri və üslubu baxımından heç də öz sələflərindən seçilmir. Azadlıq və ədalət uğrunda mübarizə aparan və sonda qələbə çaldığını güman edən sinfin marşı nə qədər yüksək əhvali-ruhiyyəli olsa da, əsərin sonundakı faciə ümidsizliyin, anarxiyanın və xaosun davam etdiyi təəssüratını yaradır. Bununla belə H.Cavid personajlarının dilindən cəmiyyəti mübarizəyə səsləməkdən çəkinmir:

Arqadaş, ayıl bir an!
Haqsızca olma qurban!

Yetər, miskinlik yetər,
Qalq! Oyan, oyan, oyan! (1. səh. 255)

Fəhlələrin oxuduğu bu marşın müəllifi Şeydadır: jurnalist, yəni ziyalı təbəqənin nümayəndəsi. H.Cavid əslində burada inqlabın önündə ziyalıların getməli olduğu qənaətini bölüşür.

Bədii gücünə, əhvali-ruhiyyəsinə və ifadə imkanlarına görə, H.Cavidin "türkü" adlandırdığı, əsərə rəngarənglik bəxş edən müsiqi mətnlərinin də sənətkarın yaradıcılığında önəmli mövqeyi vardır. Məsələ burasındadır ki, bu türkülər klassik şeir şəkillərində yazılıb və Azərbaycan folklorunun digər janrı olan muğam müşayiəti tələb edir. Beləliklə, H.Cavid klassik ədəbiyyat ənənələrindən qidalanan bu şeir formalarından məharətlə bəhrələnməklə əsərlərində rəngarəngliyi təmin edən mahnı sözləri də yazmışdır.

Alagöz bir mələk gördüm, vuruldum,
Dərdə düşdüm, ah çəkməkdən yoruldum,
Hənuz cavan ikən sarardım, soldum,
Eşq atəşi hər an yaqıb canımı,
Əlimdən aldı səbrü imkanımı. (1. səh. 78)

Bu lirik parçada həm klassik şərq poeziyasının ənənələri, həm xalq ruhundan və yaradıcılığından gələn təbiilik, həm də romantizm ənənələri vəhdətdədir. Şair ümumi kontekstdə yerləşdirdiyi və əsərin dramatizmini, lirizmini, həmçinin milliliyini artıran bu nümunələrdə öz ideyalarını və səsləniş və çağırışlarını ifadə etmişdir. Bildiyimiz kimi, dram əsərlərində, epik əsərlərdən fərqli olaraq, dramaturqun əl-qolu bağlıdır: uzun-uzadı şərhlər, təfərruatlar, şəxsi münasibət bildirmək burada mümkünsüzdür, lakin sənətkar bəzən qəhrəmanlarının, bəzən də məçhul səsin vasitəsilə öz səslənişlərini çatdırır.

Bir gülən yoq şu qayğılı dünyadə,
Çoqlar nakam olub irməz muradə,
Kimsəni görmədim zevqü səfadə,
Bülbül ağlar, sünbül ağlar, gül ağlar.(1. səh. 261.)

Heç şübhəsiz, güclü psixoloji paralelizm H.Cavidin əsərlərinə xüsusi bir rəng qatmaqdadır: həyatın faciəviliyi, cəmiyyətdəki xaos və anarxiya insanlarda dibsiz bir ümidsizlik yaradıb, bu, azmış kimi günəşin qarşısını kəsən qara buludlar, ətrafa qorxu saçan şimşək, amansızlıqla əsən külək və bir də "şikəstə məqamında" səslənən yuxarıdakı türkü. Bütün bunlar gənc qızını yeni dəfn etmiş və onun məzarını tərk etmək istəməyən, ətrafındakı heç nəyin – xaosun, anarxiyanın, ümidsizliyin, günəşli və ya günəşsiz, isti və ya soyuq havanın fərqində olmayan ananın – "Ah, bənim yeni doğmuş günəşim batdıqdan sonra, başqa günəşlərin batıb çıqmasında nə əhəmiyyət ola bilir!?" (1. səh. 261) – sözlərinin fonunda baş verir. Oxucunu və ya tamaşaçını bu qədər həyəcanlandırmaq və kədərləndirmək onların düşüncəsinə yeni qapı açır, psixoloji cəhətdən həyata hazırlayır, həqiqətə yaxınlaşdırır.

"Səksəninci illərin ortalarında Haşım Kələntərlidən qəribə bir söhbət eşitdim. Danışırdı ki, müharibə illərində radio ilə efirə verilən konsertlər canlı olurdu. Belə konsertlərin birində "Yad eylədikcə vəslini, ey mahi-tələtim" şerini oxudum. Axşam məni Bağırovun qəbuluna gətirdilər. Bağırov oxuduğum sözlərin kimə məxsus olduğunu soruşdu. Bağırovun bu sualından sonra yadıma düşdü ki, qəzəl Cavidindi, anladım ki, bəraət yerim yoxdu. Amma Bağırov qəzəblənmədi, sözlər ona əsər eləmişdi, Cavidin şeri Bağırovu ağlatmışdı." (11. səh. 473.). Hətta cəlladlarını belə kövrəldən həmin şeir "Şeyda" əsrindəki lirik parçadır. Həmin parçanı bütövlükdə misal gətirməyi lazım bilirəm:

Yad eylədikcə vəslini , ey mahi-tələtim!
Ağlar gözümdə qanə dönər əşki-həsrətim,
Sənsiz füzun olur gecə-gündüz fəlakətim,
Səbrim tükəndi, yoq qəmi-hicranə taqətim,
Gəl, gəl! Bənim gözəl məläyim, nazlı afətim.

Rö`yada bən keçən gecə eylərkən ahü-zar,
Sən vermədinmi bir əbədi vəsl için qərar!?
İnsafə gəl, aman! Bəni məhv etdi intizar,
Səbrim tükəndi, yoq qəmi-hicranə taqətim,
Gəl, gəl! Bənim gözəl məläyim, nazlı afətim.

Ruhum! Səadətim sana vabəstə hər zaman,
Sənsiz cihanda bən yaşamaq istəməm, inan!
Artıq bıraq sitəmləri, gəl, bağrım oldu qan,
Səbrim tükəndi, yoq qəmi-hicranə taqətim,
Gəl, gəl! Bənim gözəl məläyim, nazlı afətim. (2. səh. 258)

Bu misralar ilk baxışdan məzmun etibarı ilə aşiqin vüsal həsrəti mənasını verir. Amma gəlin baxaq görək bu sözləri kimlər və hansı zaman aralığında oxuyur: gecə-gündüz durmadan çalışan, hər cür məhrumiyyətlərə dözən, bununla belə çox pis həyat şəraitində yaşayan, bu həyat tərzindən usanmış, hər şeylərini itirmiş və üsyan etməyə hazırlaşan insanlar bir yerə yığışmış – "Gəl, gəl! Bənim gözəl məläyim, nazlı afətim" – deyə, oxuyurlar. Bu zaman biz "gözəl mələk" və "nazlı afət" deyə vəsf olunan nəsnəni ədalət və azadlıq hesab etməklə məzmunu və ideyanı tamamlaya bilərik. Ədalət və azadlıq aşiqləri məhəbbətdən yoğrulmuş bu misraların davamını təkrar edirlər:

Gəl, sevgili yarım, gözəlim, qönçə dəhanım!
Gəl, ruhi-rəvanım!
Vazehdir, əminim, sana hər razi-nihanım,
Ey afəti-canım!
Sən bir güli-xəndan, bən bülbüli-nalan,
Biz hər ikimiz bir çəmənistanə şitaban

Sənsiz bana zindan görünür sanki bu aləm,
Hiç könlüm açılmaz. (2. səh. 258).

Böyük dramaturq özünəməxsus səslənişlə insanın – fərqi yoxdur, istər haqlı olsun, istər haqsız - təbii ehtiyacı olan azadlıq və ədalətin varoluşu üçün mübarizədə əsas silahının ən ülvi, ən kamil hiss olan məhəbbət olduğunu göstərmişdir. Cavidin dünyagörüşünün ana xətti məhəbbətdir: o, millətçi kimi də, islamçı kimi də, çağdaşçı kimi də, Avropaçı kimi də bütün baxışlarını məhəbbət nöqtəsində birləşdirir. Onun qəhrəmanları qarşılıqsız sevir, çünki vətən, millət qarşılıqsız sevilməli, hər şeyin üstündə olmalıdır.

İlahi, biqərarım, biqərarım,
Yanar ruhum, dəmadəm əşkbarım;
Vuruldum bir vəfasız işvəkarə,
Əsirim, bən, əsiri-eşqi-yarım. (1. səh. 270).

Cavid əsərlərində zaman-zaman Allaha müraciəti ilə diqqəti cəlb edir. Bu, kiçik bir fərqlə klassik şərq ədəbiyyatında bir ənənəyə çevrilmiş minacatı xatırladır. Fərq ondadır ki, Cavid, ənənədə olduğu kimi, Allahın fəzilətlərindən və ya ona yalvarışlardan bəhs etmir, o, – "insanları xəlq etmədə var bəlkə də hikmət, iblisə nə hacət?" – məzmunlu səslənişləri ilə baxışlarını ifadə edir. Yəni klassik forma olan minacatın məzmununa romantizm estetikası qatan Cavid klassik forma və məzmuna yeni ezoterik mündəricə vermişdir. Bütün bu xüsusiyyətlər Cavidin mənsur dramlarındakı lirik parçalarda öz əksini tapmaqla bu əsərlərin bədii gücünü əhəmiyyətli şəkildə qüvvətləndirmiş olur.

"Afət" piyesində də öz əksini tapan lirik parçalarla sənətkar əsərdəki lirizmi dərinləşdirmişdir. Bu pyesdə nə qədər vulqarlıq, meşşanlıq, əyyaşlıq kimi keyfiyyətlər və məişət pozğunluqları təsvir edilsə də, ən ali duyğu olan məhəbbət və onun tərənnümü də ifadə olunmuşdur. Məhəbbətə inanan insanların təsvir olunduğu əsərdə biz iki şərqi ilə rastlaşırıq: biri meşşan Qaplanın eqoist Altunsaçın müşayəti ilə oxuduğu şərqi;

Dün sıtmalı ruhum anıyorkən səni, birdən
Xülyalərə, sevdalərə daldım, gözəlim, bən;
Pürnəş'ə könül aləmi-lahutə uçarkən
Gördüm səni rö'yadə ipək tüllər içində...(2. səh. 112)

digəri isə Ərtoğrulun dinlədiyi və məçhul şəxs tərəfindən oxunan şərqi:

Bən aşiqim, bəlalar var başımda,
Durmuş qorqunc uçurumlar qarşımda.
Yaralandım, vuruldum gənc yaşımda,
Sağalmaz yarası coşqun gönlümün. (2. səh. 126)

Hər iki şərqi məzmun etibarı ilə ali duyğuların izharıdır. Amma birinci şərqidə "zövqü səfaya" can atan insanların hisləri ön plandadır. Burada kortəbii, xaotik, heç bir əxlaqi kodeksi qəbul etməyən azadlığa meyl var. Belə insanlar nə qədər özlərini azad hesab etsələr də, bir o qədər də əsirdirlər, quldurlar – nəfslərinin qulu.

Məhəbbət onlar üçün əyləncədir, əgər məhəbbət həsrət, nisgil, acı gətirəcəksə meydandan qaçacaqlar. Dayaz qəhrəmanların ifa etdiyi birinci parça onu ifa edənlər kimi lətifdir, incədir, lakin bəsit ehtirasların doğurduğu misralardır. Cavid bu məqamda bədii cəhətdən nə qədər yüksək səviyyəli şeir yazsa da, məzmun etibarı ilə həmin "kübar" insanların əhvali-ruhiyyəsini çox ustaca əks etdirmişdir.

İkinci şərqi isə tamam başqa ruh halının – məhəbbətin gətirdiyi həsrəti, nisgili, acını mətanətlə yaşayan insanın hali-təsviridir. Maraqlıdır ki, bu şərqini qəhrəmanlardan heç biri səsləndirmir, sanki qeybdən gələn səs aşiq olmuş, başı bəlalar çəkmiş, yaralanmış, vurulmuş Ərtoğrulun yaşantılarını əks etdirir; bu yara sağalmaz yaradır, hətta "Cihan cənnət olsa, insanlar mələk, Dağlar inci saçsa, dənizlər çiçək, Güldürsə həp ağlar gözləri fələk" yenə də sağalmaz. Mükəmməl bir təzad çələngi, həmçinin paradoksallıq diqqətmizi cəlb etməyə bilməz: şairin fikrincə, cahan cənnət ola bilməz, insanlar da mələk; dağlar inci, dənizlər də çiçək becərə bilməz; fələk ağlar gözləri güldürməz. Amma təbii ki, kimsə bütün bunların əksini iddia edə bilər. Cavid əfəndi bu paradoksallıqdan gözəl bir bədii təzad yaratmışdır. Göstərilən mətn ədibin öz münasibətini əks etdirməklə bərabər, həm də onun səslənişi kimi də dəyərləndirməlidir. Bu, mətn içində mətn olmaqla intertekstuallıq yükünə malikdir.

Bütün bunları ümumiləşdirsək aşağıdakı nəticələrə gələ bilərik:

1.Adətən öz pyeslərini mənzum formada qələmə alan Cavid əfəndi yazdığı bir neçə mənsur pyesində lirik parçalardan istifadə etməklə əsərlərinin təsir gücünü bir neçə dəfə çoxaltmış və böyük sənətkarlıq nümunəsi göstərmişdir.

2. Ədib mənsur dramlarında həm folklor nümunələrindən, həm klassik ənənədən, həm də romantizmin estetik prinsiplərindən qidalanan lirik parçalardan istifadə etməklə bu üç deyim tərzinin, üslubun və istiqamətin vəhdətini yaratmışdır.

3. Cavid əfəndinin mənsur dramlarında istifadə etdiyi lirik parçalar əsərin ümumi kontekstini zənginləşdirən kodlar kimi çıxış edir, sanki müxtəlif səhnələri və hadisələri bir-birinə bağlayan, bədii-emosional cəhətdən ustalıqla hazırlanmış bağlardır.

4. Bu lirik parçalar əsərin ümumi simvolikasında vacib rol almaqla mətnaltı mənaları, sənətkar idealını, dünyagörüşünü, əsərin əsas ideyasını ehtiva edir.

5. Nəhayət, Cavid əfəndi lirik parçalar vasitəsilə öz münasibətini və çağırışlarını ifadə etmişdir.

Beləliklə, deyə bilərik ki, Cavidi Azərbaycan ədəbiyyatının simasına çevirən dramaturgiyası özündə hələ çox gizlinləri saxlamaqdadır.

Xülasə

Hüseyn Hüseynli

H.Cavidin mənsur dramlarında lirik parçalar

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Hüseyn Cavid öz əsərləri ilə ədəbiyyat tariximizdə silinməz izlər qoymuşdur. Təbii ki, o, hər şeydən əvvəl böyük drammaturqdur. Bu məqalədə Hüseyn Cavidin mənsur dramlarındakı lirik parçaların bədii-estetik xüsusiyyətləri araşdırılmışdır. Bildiymiz kimi, ədib əsasən mənzum dramlar yazmışdır. Amma mənsur formada yazdığı beş dram əsərində maraqlı dramatizm müşahidə edilməkdədir. Məqalədə həmin məqamların üzə çıxarılması istiqamətində tədqiqat aparılmışdır. Qeyd olunmuşdur ki, Hüseyn Cavid mənsur dramlarında istifadə etdiyi şeirləri qələmə alarkən folklor nümunələrindən, onun janr və formalarından, klassik şərq ədəbiyyatı ənənələrindən yararlanaraq onu üslub və forma baxımından inkişaf etdirmişdir. Həmçinin Avropa romantizminin estetik prinsiplərindən doğan forma, üslub və deyim tərzi də bu şeirlərin əsas məziyyətlərindəndir. Ümumiyyətlə, şeir yaradıcılığı Cavid üçün həmişə prioritet olmuşdur. Həm mənsur, həm də mənzum pyeslərində ədib zaman-zaman lirik parçalara, nəğmələrə, marşlara və türkülərə yer vermişdir. Sanki müəllif hadisə və durum barədə öz mövqeyini bu formalardan istifadə etməklə bildirmişdir. Həmçinin bu lirik parçaların bir semiotik mahiyyəti də vardır ki, əsərin ümumi kontekstini ehtiva edən kodlar kimi, simvollar kimi təqdim oluna bilər və bu lirik nümunələri ədibin xüsusi səslənişləri kimi xarakterizə etmək mümkündür. Bütün bu məsələlər geniş şəkildə təqdim etdiyimiz məqalədə öz əksini tapmışdır.

Açar sözlər: H.Cavid, romantizm, pyes, şeir, personaj, Afət, Şeyda, Topal Teymur, Yıldırım Bəyazid.

Abstract

Huseyn Huseynly

Lyrical pieces in H.Javid's verse plays

This paper argues the artistic-aesthetic characteristics of the lyrical pieces in Huseyn Javid's plays. Huseyn Javid, one of the prominent representatives of Azerbaijani literature, left an indelible mark in our literary history with his works. As a matter of course, he is first and foremost a great playwright. As we know, H.Javid had written mostly verse plays. However, interesting dramatism can be observed in five plays he wrote in prosaic form. In the article, research was conducted to reveal those points. It has been noted that Huseyn Javid, while writing the verses used in his plays, took advantage of folklore traditions of classical oriental literature examples, its genres and forms, and developed them in terms of style and form. Moreover, the form, style and manner of expression born from the aesthetic principles of European romanticism are among the main merits of these poems. In general, poetry has always been a priority for H.Javid. From time to time he wrote lyrical pieces, songs,

marches and folk songs in both verse plays and plays written in prosaic form. It is as if the author expressed his position about the event and situation by using these forms. As well, these lyric pieces have a semiotic essence, which can be presented as codes and symbols containing the general context of the work, and it is possible to characterize these lyrical samples as special sounds of the writer. All these issues are widely reflected in the article that we present.

Key words: H.Javid, romantism, plays, poetry, character, Afat, Sheida, Topal Timur, Ildirim Bayazit.

Гусейн Гусейнли

Резюме

Лирические пьесы в прозаических драмах Г.Джавида

Один из видных представителей азербайджанской литературы Гусейн Джавид своими произведениями оставил неизгладимый след в нашей литературной истории. Он был великим драматургом. В данной статье рассматриваются художественно-эстетические характеристики лирических произведений в прозаических драмах Гусейна Джавида. Как известно, литературовед писал в основном стихотворные драмы, но интересный драматизм можно наблюдать в пяти драмах, написанных им именно в прозаической форме. Для выявления этих моментов, в статье автором было проведено исследование и отмечено, что Гусейн Джавид при написании стихов, которые он использовал в своих прозаических драмах, развивал их с точки зрения стиля и формы, используя образцы фольклора, его жанры и формы, а также традиции классической восточной литературы. Также к основным достоинствам этих стихотворений относятся форма, стиль и манера выражения, рожденные эстетическими принципами европейского романтизма. В общем, поэзия для Г.Джавида всегда являлась приоритетом. Время от времени он писал лирические произведения, музыку, марши и народные песни как в прозаических, так и в стихотворных пьесах. С помощью этих форм он как бы выражал свое отношение к событию и ситуации. Следует отметить, что эти лирические пьесы также имеют семиотическую сущность, которую можно представить как коды и символы, содержащие общий контекст произведения. Эти лирические образцы можно охарактеризовать как особые звучания писателя-прозаика. Все эти вопросы исследованы автором и широко отражены в данной статье.

Ключевые слова: Г. Джавид, романтизм, пьеса, поэма, персонаж, Афат, Шейда, Топал Теймур, Йылдырым Беязид.

Ədəbiyyat siyahısı:

1. Cavid Hüseyn Əsərləri, 5 cilddə, 2-ci cild, Bakı, 2005, 392 s.
2. Cavid Hüseyn Əsərləri, 5 cilddə, 3-cü cild, Bakı, 2005, 376 s.
3. Cəfər Məmməd, Hüseyn Cavid, Bakı, 1960, 368 s.
4. Əlioğlu Məsud, H.Cavidin romantizmi, Bakı, 1975, 214 s
5. Əliyev Kamran, Hüseyn Cavid: həyatı və yaradıcılığı, Bakı, 2008, 322 s.
6. Əliyev Kamran, Azərbaycan romantizminin poetikası, Bakı, 2002, 270 s.
7. Quliyev Q., Rəhimova Ü., XX əsrin görkəmli ədəbiyyatşünas alimləri, Bakı, 2014
8. Məhəmməd Əmin Rəsulzadə, "Əsrimizin Səyəvuşu", Bakı, 1991
9. Turan Azər, Cavid əfəndi, Bakı, 2004, 306 s.
10. Turan Azər, Hüseyn Cavid, Bakı, 2007, 286 s.
11. Turan Azər, Cavidnamə, Bakı, 2010, 576 s.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Filologiya elmlər doktoru, professor Qorxmaz Həsi oğlu Quliyev tərəfindən çapa tövsiyə olunmuşdur

DÜRDANƏ DADAŞOVA TAŞDELEN
Odlar Yurdu Universiteti
Ünvan: Koroğlu Rəhimov küç, 13 AZ1072
E-poçt: durdane.dadash.1991@gmail.com

SİNİF İNTİZAMINDA SƏLAHİYYƏT VƏ AVTOKRATİKA

XÜLASƏ

Səlahiyyət və avtokratiya sinif intizamı ilə əlaqəli iki fərqli anlayışdır. Səlahiyyət müəllimin qərar qəbul etmək və sinif üzərində nəzarəti saxlamaq üçün qanuni səlahiyyətinə aiddir. Bu, müəllimin təcrübəsinə, mövqeyinə və tələbələrin hörmətinə əsaslana bilər. Səlahiyyətli müəllimin olduğu sinifdə şagirdlərin qaydalara əməl etmələri və düzgün davranmaları ehtimalı daha yüksəkdir.

Sinif idarəetmə bacarıqları müəllimlərdə axtarılan əsas ixtisasdır. Sinifdaxili nizam-intizam, sinif idarəetmə bacarıqlarına təsir edən daha çox müdaxilə və qarşısının alınması üsullarını ehtiva edən bir anlayışdır. Bu məqalədə sinif intizamı, müəllimin idarəetmə xüsusiyyətləri və səlahiyyətlərdən istifadə haqqında nəzəri və praktiki məlumatlar veriləcəkdir. İlk növbədə, sinif xüsusiyyətləri və intizam nəzəriyyələri ilə paralel olaraq sinifdaxili intizam anlayışı müzakirə ediləcək, daha sonra intizamsız davranış nümunələri veriləcəkdir. Növbəti bölmədə səlahiyyət anlayışı nəzəri cəhətdən müzakirə olunacaq. Eyni zamanda avtoritar müəllimlərin və intizamsızlığın qarşısının alınması üçün müdaxilə nümunələri veriləcək. Səlahiyyət anlayışına müəllimlərin peşəkar və şəxsi münasibət və davranışlarından nümunələr daxildir.

Müəllimin nüfuzlu perspektivi və təcrübəsi onun öyrətdiyi dərs qədər sinif idarəçiliyinə və şagirdin uğuruna təsir edir. Bu mənada, səlahiyyət və nizam-intizam anlayışlarının araşdırılmasının müəllimlərimizin sinif təcrübələrində də faydalı olacağı düşünülür.

Müəllimin idarəetmə xüsusiyyətləri və səlahiyyətlərdən istifadə haqqında nəzəri və praktiki məlumat verir. Bu, sinif xüsusiyyətləri və intizam nəzəriyyələri ilə əlaqəli sinif intizamı anlayışını müzakirə edir və intizamsız davranış nümunələrini təqdim edir. Məqalədə həmçinin səlahiyyət anlayışı və onun sinif idarəçiliyinə və şagird uğuruna təsiri araşdırılır və avtoritar müəllimlərin və intizamsızlığın qarşısını almaq üçün müdaxilə nümunələri verilir.

Açar sözlər: Müəllim, Səlahiyyət, Sinif İntizamı, İntizam.

Durdane Dadashova Tasdelen

AUTHORITY AND AUTOCRACY IN CLASSROOM DISCIPLINE

SUMMARY

Authority and autocracy are two different concepts related to classroom discipline. Authority refers to a teacher's legitimate power to make decisions and maintain control over the classroom. This can be based on the teacher's expertise, position, and respect from students. In a classroom with a teacher who exercises authority, students are more likely to follow the rules and behave appropriately.

Classroom management skills are a key qualification sought in teachers. Classroom discipline is a concept that includes more intervention and prevention techniques that affect classroom management skills. This article will provide theoretical and practical information about classroom discipline, teacher management characteristics, and the use of authority. First of all, the concept of classroom discipline will be discussed in parallel with classroom characteristics and disciplinary theories, then examples of undisciplined behavior will be given. In the next section, the concept of authority will be discussed theoretically. At the same time, examples of interventions to prevent authoritarian teachers and indiscipline will be given. The concept of authority includes examples of teachers' professional and personal attitudes and behaviors.

A teacher's authoritative perspective and experience influence classroom management and student success as much as the lesson they teach. In this sense, it is thought that examining the concepts of authority and discipline will be useful in the classroom practices of our teachers.

Provides theoretical and practical information about the teacher's management characteristics and the use of powers. It discusses the concept of classroom discipline in relation to classroom characteristics and theories of discipline and presents examples of unruly behaviour. The article also examines the concept of authority and its impact on classroom management and student achievement, and provides examples of interventions to prevent authoritarian teachers and indiscipline. The author suggests that exploring these concepts can be useful for teachers to improve their classroom practices.

Keywords: Teacher, Authority, Classroom Discipline, Discipline.

Дурдане Дадашова Тасделен

АВТОРИТЕТ И САМОДЕРЖАВИЕ В ШКОЛЬНОЙ ДИСЦИПЛИНЕ

РЕЗЮМЕ

Власть и автократия - два разных понятия, связанных с дисциплиной в классе. Власть относится к законной власти учителя принимать решения и поддерживать контроль над классом. Это может быть основано на опыте учителя, его положении и уважении со стороны учеников. В классе с авторитетным учителем учащиеся с большей вероятностью будут следовать правилам и вести себя надлежащим образом.

Навыки управления классом являются ключевой квалификацией, требуемой от учителей. Дисциплина в классе - это концепция, которая включает в себя больше методов вмешательства и предотвращения, влияющих на навыки управления классом. В этой статье будет представлена теоретическая и практическая информация о дисциплине в классе, характеристиках управления учителями и использовании власти. Прежде всего, будет обсуждаться понятие классной дисциплины параллельно с классными характеристиками и дисциплинарными теориями, затем будут приведены примеры недисциплинированного поведения. В следующем разделе концепция авторитета будет рассмотрена теоретически. При этом будут приведены примеры вмешательств по предотвращению авторитарных учителей и недисциплинированности. Концепция авторитета включает в себя примеры профессионального и личного отношения и поведения учителей.

Авторитетная точка зрения и опыт учителя влияют на управление классом и успехи учеников так же, как и на урок, который они преподают. В этом смысле считается, что изучение понятий авторитета и дисциплины будет полезно в учебных занятиях наших учителей.

В этой статье представлена теоретическая и практическая информация о дисциплине в классе, характеристиках управления учителями и использовании власти. В нем обсуждается концепция дисциплины в классе в связи с характеристиками класса и теориями дисциплины, а также приводятся примеры непослушного поведения. В статье также рассматривается понятие авторитета и его влияние на управление классом и успеваемость учащихся, а также приводятся примеры мер по предотвращению авторитарных учителей и недисциплинированности. Автор предполагает, что изучение этих концепций может быть полезно учителям для улучшения их практики в классе.

Ключевые слова: учитель, авторитет, классная дисциплина, дисциплина.

ƏSAS HİSSƏ

Ölkəmizdəki təhsil proqramları indi yeni nəsilləri informasiya saxlamağı deyil, informasiyanı sorğulamağı öyrətməlidir. Bu zərurət fəlsəfi mənada "konstruktivizm" prinsipinin hər bir nümunəsində aydın şəkildə vurğulanır. Konstruktivist anlayış təxmin və təhlil etmək kimi koqnitiv terminologiyadan çox istifadə edir. Müxtəlif mənbələrdə tez-tez xatırlanan bu anlayış müəllimin sinifdaxili təhsil və idarəetmə öhdəliklərində dəyişikliklərə səbəb olmuşdur.

Öyrənmə öyrənilərkən öyrənilən bir prosesdir. Tələbənin xarici dünya ilə əlaqəsi öyrənməyə kömək edən bir faktdır. Hər şey beyində olur. Müəllim həm zehni, həm də əlləri cəlb edən fəaliyyətləri inkişaf etdirməlidir. Bununla belə, öyrənmə fərdin xarici dünya ilə qarşılıqlı əlaqəsi və öz təcrübələrindən nəticə çıxarmasıdır. Bütün bu mənalarla konstruktivist yanaşmanın xarakteri müəllimin idarəçilik xüsusiyyətini, eləcə də tərbiyəvi vəzifəni asanlaşdırır.

Konstruktivist yanaşmanı qəbul edən sinif mühitlərində müəllimlərdən ənənəvi tədris yanaşmasında olduğu kimi nizam-intizamı təmin etmək və məlumat yaymaq rollarını bir kənara qoyaraq məsləhətçi kimi çıxış etmələri gözlənilir. Məsləhət, şagirdin sinifdəki fəaliyyətini qəbul etmək, kömək etmək, əməkdaşlıq və qrup işini təşviq etmək, ünsiyyət və qarşılıqlı əlaqəni canlı saxlayacaq inanclara sahib olmaq kimi izah edilə bilər. Bu fərqli dəyişikliyin sinif nizam-intizamı anlayışı baxımından gözlənilən nəticələrdən çox, illərdir müzakirə etdiyimiz nəticələri verməyə davam etdiyini görürük. Müəllim nizam-intizamı ciddi şəkildə dərk edir və səlahiyyətinə mütləq uyğunluq və mütləq itaət gözləyir. Bu zaman intizam nəzəriyyəsini və sinifdə səlahiyyətdən istifadəni xatırlamaq və onu yeni anlayışa uyğunlaşdırmaq lazımdır [3, s.8].

İntizam sadəcə, tələbənin siniflərdəki təhsil həyatına və müəllim-şagird həyatına sanksiya əlavə edən bir anlayış kimi müəyyən edilə bilər. Bununla belə, nizam-intizam təkcə sinif birliyi üçün deyil, həm də birdən çox şəxsin olduğu bütün qruplar üçün ümumi məqsədə xidmət etmək üçün birlikdə seçilmiş qaydaları özündə birləşdirən bir bütövdür. Yaxud intizam, mənfi davranışların baş verməsinin qarşısını almaq üçün ardıcıl və qətiyyətlə hərəkət etməkdir. Təcrübələri və mənbələri nəzərə alsaq, çox vaxt intizam cəzası anlayışı ilə birləşdirilir. Bununla belə, sanksiya və qayda dəstləri nəticə davranışları ilə eyniləşdirilə bilməz. Cəza qəbuledilməz davranışa reaksiyadır. Cəzaya aparan isə nizam-intizamın yaratdığı qaydalardır.

Sinifdaxili intizam anlayışında ilk növbədə müəllimin idarəetmə xüsusiyyətləri araşdırılmalıdır. Rəhbərliyin tələbi nizam-intizam yaratmaqdır. Digər tərəfdən, müəllimin nizam-intizamla bağlı səyləri bəzən dərs vaxtını üstələyir. Müxtəlif araşdırmalarda, sinifdə nizam-intizamın təmin edilməsinə sərf olunan vaxtın tədris prosesinin təxminən 50%-ni təşkil etdiyi və yeni müəllimlərin ilk növbədə sinif idarəçiliyi problemlərinə işarə etdiyi görülür.

Davranış pozğunluqları geniş diapazonda baş versə də, müəllimlərin sinif təcrübələrindəki müxtəliflik və kurs köçürmələri də bu davranışlar üçün zəmin

hazırlaya bilər. Bəzi müəllimlərin məhəl qoymayacağı davranışlar digər müəllimlər üçün qəti və dərhal müdaxilə tələb edən kontekstdə idarə oluna bilər. Bundan əlavə, müəllim və şagirdin gözləntiləri və məktəb mədəniyyəti müdaxiləni bu kimi mənfi davranışlara yönəldə bilər. Şagirdlərin davranış pozğunluqları müxtəlif səbəblərdən yarana bilər. Misal üçün [1, s.42]:

Distress - Motivasiyanın itirilməsi: Sinifdəki fəaliyyətlər diqqəti və diqqəti cəlb etmir və ya çox uzun müddət davam edir, çox asan olur və ya əhəmiyyətsiz görünür; Bütün bunların nəticəsində şagirdin motivasiyası qırıla bilər.

Uzun müddətli koqnitiv səy: Akademik işlərin çoxu idrak səylərini tələb edir. Əksər tələbələr üçün idrak səyləri fasiləsiz davam etdikdə tapşırıqların çətinliyi artır.

Verilən tapşırığı yerinə yetirməmək: Təlimatlar aydın və başa düşülən olmaqdan uzaq olan kimi, şagirddə nə edəcəyinə dair şübhə yarana bilər. Anlamaqda çətinlik çəkdiyi bir işi görməkdən qaçır və uyğun olmayan davranışlarda məhsuldarlığını göstərməyə başlayır [4, s.24]

Mənfi qərəz: Tələbələrdən bəziləri təhsil həyatına qərəzlə yanaşa bilərlər. Məktəb uğurları onlar üçün dəyərsiz, çətin, əhəmiyyətsizdir. Bu mənada səy göstərməkdən əl çəkərlər. Bu səbəbdən dərslərə gec gedirlər, laqeyd davranırlar.

Akademik etibarsızlıq: Bəzi tələbələrin öyrənmədə özünə inamı aşağıdır. Keçmiş akademik uğursuzluqları onlara öyrənilmiş çarəsizliyi öyrətdi. Eyni uğursuzluqları bir daha yaşamamaq üçün laqeyd davranaraq özlərini öyrənməkdən təcrid edə bilərlər.

Emosional Problemlər və Sosial Münasibətlər: Şagirdlər məktəbdə sosial həyatlarında mürəkkəb bir proses yaşayırlar. Onlar həddindən artıq sevgi və nifrət yaşaya bilər və aralarındakı problemləri sinif və sinif mühitinə gətirə bilərlər. Ancaq emosional problemlərinə görə sinif mühitinə uyğunlaşa bilməyəcək və akademik nizama uyğunlaşa bilməyəcəklər.

İntizamın olmamasının mümkün səbəblərinə uyğun olaraq, həyatda bir çox fəaliyyətdə iştirak etmək üçün seçim etmək azadlığına sahib olan tələbələr, sinif fəaliyyətləri və dərslərə gəldikdə belə bir azadlığa sahib deyillər. Tədris prosesində bütün fəaliyyətlərdə qeyri-müəyyən bir utancaqlıq var. Tələbələr bu fəaliyyətlərdə könüllü olmadıqda, münasibət və davranışları dəyişə bilər.

Sinifdə lider müəllimdir. Müəllim öz lider şəxsiyyətinə uyğun olaraq səlahiyyətlərdən istifadə etmək hüququna malikdir. Səlahiyyətdən istifadə tərzi və istifadədəki fərqlər sinif mühitindən, eləcə də müəllimin şəxsiyyət və xarakter xüsusiyyətlərindən asılıdır. Müəllim vəzifəsinin bəzi hissələrini yerinə yetirərkən

1. Hakimiyyət biliklərinin tətbiqi prosesində müəllimin peşəsi və fərdi xüsusiyyətləri istiqamətləndirici təsir göstərir.

Tələbə davranış pozuntuları ilə effektiv mübarizə aparmaq. Onların hər biri bir-biri ilə əlaqəli olsa da, hamısı ayrı-ayrılıqda müəllimin nüfuzuna töhfə verir.

Tətbiqlərə nəzər saldıqda pedaqoji metodlarda səlahiyyət prinsipləri var. Hakimiyyət fiziki məcburiyyət olmadan itaət etmək gücü kimi müəyyən edilə bilər.

Səlahiyyət sosial və psixoloji anlayış olsa da, istedad, sevgi və hörmət elementləri ilə formalaşan təhsil prosesidir.

Yuxarıda göstərilənlərdən asılı olmayaraq, səlahiyyətdən istifadə müəllimin statusu ilə də bağlıdır. Status sosioloji termin olsa da, ekoloji dəyişənlər konsepsiyanın qavranılmasına direktiv təsir göstərir. Status cəmiyyətin müəllimə baxışı ilə formalaşır və şagirdlərin və onların yaxın ətrafının müəllimə olan hörmət və inam hissləri ilə varlığını ortaya qoyur. Müəssisənin stajında müəllimin statusuna və idarəçilikdə üzərinə götürdüyü vəzifələrə töhfə verir.

Müəllimin indiki statusuna uyğun hərəkət etməsi də onun səlahiyyət sahibi olduğunu göstərir. Vəziyyəti olan müəllim buna uyğun hərəkət edərsə, o, digər insana güclü və hakim bir şəkildə öz nüfuzunu hiss etdirər. Müəllimin sinifdəki səlahiyyətindən əldə etdiyi hüquqlar da buna kömək edir. Misal üçün; Müəllim sinifdə sərbəst hərəkət edə, söhbətləri kəsə, fəaliyyətin və ya digər tətbiqin başlamasını və ya bitməsini tələb edə bilər. Statusdan fərqli olaraq, başqa bir səlahiyyət mənbəyi müəllimin keyfiyyətli kurs uğurudur. Müəllimin dərs zamanı istifadə etdiyi materiallar, müxtəlif üsullar, verdiyi suallarda diqqətlilik onun bilikli və etibarlı şəxsiyyət kimi başa düşülməsinə kömək edir. Bu inam müəllimin nüfuzuna hörməti özü ilə gətirir.

Sinifdə səlahiyyətin təmin edilməsinin ən vacib şərti yaxşı tədrisdir. Pis tədris tələbələr tərəfindən təhqir sayıla bilər. Lakin müəllimin səyi nəticə vermir, qrup dinamizmi qurmaq mümkün olmadığından sinifdə arzuolunmaz davranışlar müşahidə oluna bilər. Bu zaman müəllim öz nüfuzunu göstərmək üçün şifahi təhqirlərə və ya fiziki döyməyə əl atır. Sinif zorakılığı əslində hökmranlıq uğrunda mübarizədir [5, s.62].

Hakimiyyət sosial-psixoloji termin olsa da, idarəetmə elmində öz hakimliyini göstərir. Hakimiyyət fiziki məcburiyyət olmadan itaət kimi izah edilə bilər. Béranger və başqalarının tədqiqatında səlahiyyətlər fərdlər və qurumlar əsasında idarə olunur. Bu vəziyyətdə təzyiq yaradan elementlər var. Fərd bu ünsürlərin təzyiqi nəticəsində öz səlahiyyətlərindən istifadə etmək ehtiyacı hiss edir.

Təlim üçün səlahiyyətdən istifadə etmək lazımdır. Bu tələb dağınıqlığı tənzimləmək və ya yöndəmsiz səs-küy və nizamsızlığı gücləndirmək üçün deyil. Səlahiyyətə yalnız sadə tərbiyəvi davranış nümunəsi kimi yanaşmaq düzgün olmazdı. Bilik və ictimailəşmə səlahiyyətin əsas elementini təşkil edir. Müəllim istifadə etdiyi səlahiyyətlə sosiallaşmağı, yəni həmin cəmiyyətdə yaşamağı, başqalarının və başqalarının azadlıq qaydalarına hörmət etməyi öyrənməyi hədəfləməlidir.

Hakimiyyətin təkamülündə pedaqoji metodlara da ehtiyac ola bilər. Bu halda intizamsızlıq nümunələri çoxluq təşkil edir. Prosta (1992) görə, bu intizamsızlıqlar təhsil üsulları, o cümlədən motivsiz uşaqların böhran anları, eyni vəziyyət müəllimə görə avtoritar strategiya tələb edir, uşaqlar üçün isə bu dəyişikliyin təsiridir. Bu dəyişiklik fiziki, psixoloji, sosioloji və ya öyrənmə ilə bağlı ola bilər. Bu halda zəruri fərqlər məcburi dəyişikliklər tələb edir.

Müəllim sinifdə öz nüfuzunu bərqərar etmək üçün bir və ya bir neçə davranış nümayiş etdirir. Bu davranışlar yerə, zamana və sinif təşkilatına aid ola bilər. Fiziki amillər bu cür davranışı formalaşdırır. Bu, müəllimin dərhal hisslərindən asılı ola bilər. İntizamsızlığa müəllimin müdaxiləsini istiqamətləndirir. Pedaqoji keçmişi olan bu davranış növü müəllimin müdaxilədə etik davranışını başqalarından fərqləndirir. Profilaktik davranışlar kimi təsvir edilən xüsusiyyətlər müəllimin tətbiq etdiyi ənənəvi davranışlara daxildir. Bunlar [7, s.52]:

a) Qadağa: Bunlar tədris ilinin əvvəlində və bütün proses boyu təkrar istifadə edilən davranışlardır. Müəllim sinif və tədris qaydalarını izah etməli və təkrar etməlidir. Qadağanedici davranışlara qoruyucu funksiyalar da daxildir. Bu funksiyalar əslində mövcud nizamı qorumaq üçün nəzərdə tutulub. Şagirdlər qaydanı pozmur, nə etmək lazımdırsa, onu edirlər.

b) Pedaqoji təşkilatlar: Xüsusilə aşağı sinif səviyyələrində çox məhsuldar nəticələr əldə etmək olar. Sinfin tədrisə hazırlığını sinif mühitində asnlıqla elan etmək olar. Müxtəlif kurslarda yaradılacaq seminarlar və qrup işləri səlahiyyət tələb edir. Bununla belə, ərizədəki pedaqoji elementlər müəllimə kömək edir. Xüsusilə nəzəri biliklər, sinifdaxili şifahi xitab variasiyaları, ara fəaliyyətlər, hörmət və qəbul nitqləri, tərif cümlələri bu baxımdan ön plandadır.

c) İzahlar: Məsuliyyət cümlələrini və nə edilə biləcəyinə dair icazələri ehtiva edir. Vahid baxış müəllimin qadağalarını, göstərişlərini və əmrlərini əsaslandırır. Qaydalar üzərində səlahiyyət yoxdursa, müəllimlə sinif arasında dilemma yarana bilər. Sinif müəllimi qəbula dözə bilər, lakin bu deyilənləri yerinə yetirmək demək deyil. Müəllimlər dediklərindən dönməməlidirlər.

d) Zaman: Vaxtdan istifadə ciddi şəkildə məktəb həyatından istifadədir. Müəllim gün ərzində fəaliyyətlərin vaxt çərçivəsində necə bitəcəyini qabaqcadan görə bilməlidir. Müddətlər tələbənin motivasiyasına və iştirakına təsir göstərir. Müəllimlərin bəziləri tələbələrini vaxtdan istifadə etməyə həvəsləndirməyi seçirlər; digərləri isə daim gözləntiləri yüksəltməyi seçirlər. Vaxtdan istifadə və tələbənin düzgün istiqamətləndirilməsi səlahiyyətdən istifadə etməyə kömək edir.

e) Şifahi qarşısının alınması: Dil sadə bir qarşısının alınması üsuludur. Hərəkət etməzdən əvvəl tədbir görə bilər. Söz ehtiyatı, vurğu, yüksək səs şifahi qarşısının alınmasına məna əlavə edir. Yaxşı düşünülmüş, seçilmiş sözlərin istifadəsi vacibdir. Ton və səs dəyişiklikləri təlimatın dərəcəsini müşayiət edir. Səs intensivliyi ani olmamalıdır. Uzunmüddətli perspektivdə bu, müəllimin müxalifətinin göstəricisidir.

Müəllim sinifdə bu cür davranış müxtəlifliyinə uyğunlaşarsa, o, səlahiyyətindən istifadə etmək və təsdiqləmək baxımından üstünlüyə malik ola bilər. Lakin bütün təbəqələrə məlumdur ki, müəllimlər ümumiyyətlə səlahiyyətlərindən istifadə edərkən ağlına gələn ilk müdaxilələri seçirlər və bunlar müxtəlif problemlər yaradır. Səlahiyyətdən istifadədə vacib olan qaçılmaz və vacib çatışmazlıqların tapılmasından asılı olaraq uşağın inkişafını proqnozlaşdırmaqdır.

NƏTİCƏ

Hakimiyyət anlayışı avtokratika əlamətidir. Müəllimlərin sinifdaxili müdaxilə və münasibətinin əsas mənbələri kimi göstərilə bilər. Hakimiyyət qazansa da, verilsə də, bu, müəllimin həmişə yanında daşıdığı bir anlayışdır. Bunu həm də nizam-intizamı qorumağın yollarından biri hesab etmək olar. Lakin səlahiyyəti müəllimlərin yalnız kənar amillərlə əldə edəcəyinə inanmaq düzgün olmazdı. Müəllimin şagirdə yanaşması, sağlam ünsiyyəti, bacarığı, biliyi də ona səlahiyyət verir. Sadəcə hüquqi əsaslardan daha çox, effektiv müəllimlərin öz tələbələrindən aldıqları səlahiyyətdir.

Müəllimlərimiz intizamsız davranışların qarşısını almaq üçün qanuni səlahiyyətlərindən çox sinifin birgə səyləri ilə çıxarılacaq həll yollarına qulaq asmalıdırlar. Müəllim öz sinifini idarə edərkən həddən artıq qanuni səlahiyyətlərdən yapışarsa, proses arzuolunmaz, ruhsuz olur.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

2. Çelik V. (2002). “Sınıf Yönetimi”, Nobel Yayın Dağıtım, Ankara, 1-5.
3. Erdoğan İ. (2008). “Sınıf Yönetimi”, Sistem Yayıncılık, İstanbul, 117-120.
4. Ginott H. (2018). “Teacher and Child”, New York, Macmillan.
5. Glasser W. (2020). “The Quality School: Managing Students Without Coercion”, New York, Macmillan.
6. Gloton R. (2014). “L’autorite a la derive”, Casterman, Paris.
7. Özpolat V., Bayındır N. (2007). “Yeni Müfredatla Birlikte Değişen Sınıf Yönetiminin Öğretmen Davranışlarına Yansıması”, Milli Eğitim Dergisi Sayı174, Ankara.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Dos.U.Ə Nəsirova
tərəfindən çapa tövsiyə olunmuşdur

ŞƏMILOVA DÜNYA MƏRDAN
AMEA M.Füzuli adına Əlyazmalar İnsitutu
E-mail: shemilovadunya@gmail.com

XAQANI ŞIRVANI YARADICILIĞINDA QURAN QISSƏLƏRI İDEYA-BƏDII QAYNAQLARDAN BIRI KIMI

Açar sözlər: *Poeziya, Quran, inikas, maarifçilik;*
Keywords: *Poetry, Quran, reflection, enlightenment;*
Ключевые слова: *Поэзия, Коран, отражение, просветление;*

Azərbaycan və ümumən Şərq İntibah ədəbiyyatının kalifey simalarından biri – Əfzələddin İbrahim Əli oğlu Xaqani Şirvani irsi klassik dövr Azərbaycan poeziyasında özündən əvvəlki və sonrakı yaradıcılıq ənənələri arasında körpü yaradan müstəsna abidədir. XII əsr cəmiyyətinin üzləşdiyi ictimai-siyasi, soial-mədəni və mənəvi problemləri humanizm və maarifçilik prizmasından təhlil edən dahi fenomenin əsas qayəsi insan şəxsiyyətinin tərbiyəsi və cəmiyyətə sağlam fərd olaraq təqdimi olmuşdur. Bu aspektdən yanaşıldığı zaman aydın olur ki, şairin nəsihətamiz və tərbiyəvi fikirlərini aşıladığı dünyaca məşhur əsərlərində cəmiyyətin fərdi olan istənilən təbəqənin nümayəndəsinə xitab olunur.

Gənc nəslin inkişafına xüsusi diqqət ayıran ədib cəsarətli fikir və addımları ilə kamil insan idealını həm nəzəri, həm də təcrübi olaraq əks etdirən örnək ömür yolu sürmüşdür. Özünü xalqın övladı, şairi adlandıran dahi mütəfəkkir, qiymətli söz ustadı eyni zamanda filosof-nasir idi. Onun nəsihətləri ibrətamiz, öyüdləri düşündüründür:

Bu gün yoxdursa da kimsədə vəfa,
Vəsiyyət edirəm: olma bivəfa.
Çalış az dostluq et, etsən də əgər,
Dostluqda möhkəm ol, sözdə mötəbər [1].

Məhz elə buna görə də görkəmli alim Məhəmmədli Tərbiyət onun haqqında yazır: *"Xaqani Şirvani öz dövrünün işlənməkdə olan elmlərinin çoxuna, xüsusən də hikmət, nücum, müsiqi elmlərinə yaxşı bələd idi. Onun əsərlərində bu elmlərdən çox istilahlar var; o, tarixi də yaxşı bilirdi. Xaqani Şirvani qəsidəsinin birində bu haqda yazır: "O hansı elmdir ki, mən onu bilmirəm? – məni sınamaq istəyirsən, əsərlərimə diqqət et". Xaqani bu fikri ərəb dilində yazdığı bir əsərində də təkrar edərək bildirir ki: "Mən elmlə şərafətlənib onun sayəsində şöhrət tapıram"* [6].

Xaqani fəlsəfi düşüncələrinin aliliyindən bəhs edən Bədr Şirvani "Divan"-ında yazırdı: *"Vətəni Məlhan olan Xaqani söz mülkünün ağası idi. Onun nəfəsindən dövran, aləm ətirli olmuşdu"* [3].

Həmid Araslı Xaqani ədəbi məktəbinin töhfələrindən bəhs edir və araşdırmalarından birində belə qənaətə gəlir: *"Camiyə təsir edən ilk qaynaq Xaqani Şirvani yaradıcılığıdır. Xaqani ilk dəfə qəsidələrinə fəlsəfi məzmun aşılayıb,*

"Qəsideyi-şiniyyə" Şərq şairlərinin 40-dan çoxuna təsir edib. Ə. Caminin "Cilair-ruh" qəsidəsi də Xaqani əsərinə cavab olaraq yazılıb" [2].

Elə bu səbəbdəndir ki, üzərindən əsrlər keçsə də, Xaqani yaradıcılığı və həyatı araşdırmaçılar tərəfindən dəfələrlə tətqiqat obyekti kimi seçilib və zamanında olduğu kimi dövrümüz üçün də əhəmiyyətlidir. Xaqani öz təfəkkür toxumlarını oxucularının zehniyyət tarlalarında cücərtməyi bacarmışdır. Onun özünəməxsusluğu ilə fərqlənən irsi Azərbaycan bədii fikir tarixində mədəni-mənəvi sərvət hesab edildiyi kimi, eyni zamanda ümumbəşəri xarakter daşıyır.

Onun əsərlərini ideya-fəlsəfi cəhətdən ümumbəşəri edən əsas mənbə isə xələf və sələflərinin də dəfələrlə məqsədli şəkildə müraciət edərək bəşəriyyətə təbliğ etdikləri Qurani-Kərimdir. İslam dininin müqəddəs kitabı həyatın özündən götürülmüş real faktların izahı üçün unikal mənbədir. Bu kitabda Tanrı qatında yüksək mərtəbəyə və dəyərə laiq görülən nümunəvi şəxslərin həyatı və sərgüzəştlərini əks etdirən bir-birindən maraqlı, ibrətamiz qissələr də toplanıb. Bəşəriyyətə nicat vəd edən Qurani-Kərimdən götürülmüş süjetlər, ona edilən təlmih və iqtibaslar, gətirilmiş sitatlar klassik söz ustalarının sözlərini daha inandırıcı etmiş, əsərlərinə dəyər qatmışdır. Klassik Azərbaycan ədəbiyyatında mənəvi-əxlaqi kamilləşmə ideyasının mayasında xalqımızın nəsildən-nəslə ötürülən fəlsəfi dünyagörüşü, həm də dini maarifləndirmə durur.

Öz dövründə layiq olduğu hörmət və dəyərin verilmədiyi Xaqaninin əsərləri bəzən müasirləri tərəfindən də düzgün anlaşılmamış, o, saray şairi məqamına qalxsa da, hürriyyət aşiqi olduğu üçün asi bir sənətkar kimi tanınmışdır. Vətənpərvər ruhu, haqq və ədalətə bağlılığı, sədaqət və əzmi ilə seçilən şair səbir və dözümlülük göstərərək məqsədi uğrunda çalışmışdır:

Dünyada aqil tək bir ustad varmı?
O, bir qul yanında şagird olarmı?
Nemət üçün tərif yazma nadana,
Elmü hikmət əhli layiqdir buna.
Yalnız hünərinlə sən şöhrət qazan,
Tərifllə həcvdir yerdə qalanlar [1].

Dövrünün tələblərinə uyan bir çox şairdən fərqli olaraq, Xaqani yalnız islam müqəddəslərinin ənənəvi tərifi ilə kifayətlənmir, Qurani-Kərimdə izlənən konsepsiyanı öz yaradıcılığına tətbiq edərək dinimizin nümunəvi şəxslərinin başına gələn hadisələri nəzmə çəkərək daha aydın və başa düşülən şəkildə oxucusuna təqdim edirdi.

Şairin yaradıcılığında gətirilmiş nümunələrlə fikrimizi daha aydın izah edə və əsaslandıra bilərik.

Gecə zülmət, yol uzaq, pusqu qurub yolda rəqib,
Bilmirəm bəs necə ol sərv-xuramana çatım?
Edirəm şükür şikayət yerinə Yusiftək,
İstəyir mən şərəfə, ya da ki, zindanə çatım [9 s. 465].

Şairi vəzifə, rütbə, yüksək təbəqənin diqqəti maraqlandırmır, onların hədələri, zindan və təqiblər də qorxutmur. O, əsərlərində Yusif peyğəmbərlə bağlı qissədən bəhrələnir. Şair Hz.Yusifin zindana salınmasının onun nicatı olduğunu deyir. Belə ki, bu halda imanını daha da möhkəmlədəcək, xalqa daha yaxın olacaq, kasıb zümrəyə dinini daha rahat izah və təbliğ edəcək. Necə ki, Xaqani özü də saraydan uzaqlaşdıqdan sonra xalqa daha da yaxınlaşmış, onlara fikrini və nəsihətlərini daha asan təlqin etmək fürsəti əldə etmişdir. Saray həyatından imtina edən sənətkar xalqın arasında yaşamağı seçmiş, elə bu səbəblə də özünün Xaqani yox, Xəlqani, yəni xalqın şairi olduğunu bildirmişdir.

Şair Yusif peyğəmbərin quyuya, daha sonra zindana düşməsinə baxmayaraq, şükür etməsini, başına gələn bütün böyük çətinlikləri səbir və təmkinliklə qarşılamasını, şikayət etməməsini kamil insanın başlıca xüsusiyyəti hesab edir. Xaqani kəşməkəşli həyat yolunda Yusif peyğəmbəri özünə örnək götürür və başına gələn çətinliklərə rəğmən, şükür edir, Yusif peyğəmbər kimi səbirli olmağa cəhd göstərir. Xəqani Şirvani şükürü kamil insanın ayrılmaz hissəsi olaraq qəbul edir. Naşükürlüyü "kafura" – kəskin qoxulu maddəyə bənzətməklə şair Qurandan gələn "şükür neməti artırır, naşükürlük azaldır" prinsipindən çıxış edir. Deməli, şükür yaradıcı, naşükürlük isə dağıdıcıdır.

Məqsədimiz Qurani-Kərimin şərhi deyil, Qurani-Kərim fonunda Xaqani şeirlərini araşdırmaq, yuxarıda da qeyd etdiyimiz kimi şairin irəli sürdüyü fikirlər və təbliğ etdiyi idealar üçün faktın özünü konstatasiya etməkdir.

Əmirə söylə bilsin ta ki, nəfs-it, civə sərvətdir,
İtə həmkasə olmaqla gedər badə şərəf, şanı.
Ölər bağa çanağında, çıxar əfi qılafından,
İlandan kəm deyilsənsə, soyun bu rəxti-əlvanı.
Süleymanam demə, əvvəl yanından divləri rədd et,
Və ya zəncirlə, ya öldür, ya qov quli-biyabanı [9 s. 10]

Ümdə vəzifəsi insanı tərbiyə, humanizmə çağırış, dövrünün hömdarlarını, vəzifə sahiblərini ədalətli idarə sisteminə dəvət etmək olan filosofun bədii yaradıcılığında da əsas qayəsi "ədalətli hökmdar" konsepsiyasının şərhi və təbliği olmuşdur. Yüksək təfəkkürə malik oxucu şairin şeirlərində sual-cavab metodunu rahatlıqla sezir və ədalətli hökmdar necə olmalıdır sualına cavab verən şairin irəli sürdüyü tələbləri aydın anlayır. Qurani-Kərimin Süleyman peyğəmbərlə bağlı olan qissəsində də qeyd edildiyi kimi, bəşər tarixində ən böyük maddi sərvət yalnız Hz.Süleymana bəxş edilmiş, ondan sonra heç kim bu miqdarda sərvətə nail olmamışdır. Hökmdarın əsas üstünlüyünün onun səltənəti, cahi-cəlalı olmadığını, bununla öyünüb, Süleyman məramına çatmağa çalışmaq yerinə, xalqın halına yanıb, onun qayğılarını həll etmək üçün çalışmağın önəmli olduğunu bildirən şair şeirlərində sosial ədalət, siyasi sabitlik, rəiyyət və hökmdar arasındakı harmoniyanın ilk şərtinin adil idarəçəlik olması fikrini dəstəkləmişdir:

Xaqani çəkildi üzlət evinə,
Bu ev çox yaxşıdır şah sarayından...
Ruziyçün qəm çəkməz bacardıqca o,
Ruzinin qeydinə qalır Yaradan...

Xaqani istəməz ruzi kimsədən,
Allah ruzisini verir firavan.
Süleyman vermədi yem qarıncaya,
Möhtacdır ruziyə çünki Süleyman [9 s. 511].

Sarayda gördüyü haqsızlıq, despotizm və avtoritar idarə rejiminin ədalətsizliyindən çarəni saraydan uzaqlaşmaqda görən ədib onu dolanışıq və maddi sıxıntılarla hədələyənlərə, həmçinin dövrünün mal-dövlətlə lovğalanan hökmdarlarına "Süleyman və qarışqa" qissəsini nümunə gətirir. Onlara əta olunan sərvətin əsl sahibinin məzlum şairi unutmayacağını, əzazil, nadan şəxslərə möhtac etməyəcəyini əminliklə söyləyir:

Ağıl qorxurdu təbimdən, əlacı gördüm heyrətdə,
Necə Musa deyirkən eylədim tabutu zindan.
Necə firondan Musa qaçırdı çarəsiz indi,
Mənim əqlimdə qaçmaqda edir təqlid Musanı [9 s.102].

Xaqani üzləti cəmiyyətin inkişafına mane olan vəzifəpərəst, zalım və özbaşına hakimlərdən üz çevirmək kimi qəbul edir. O, yaşadığı sarayda üzləşdiyi zülmü qınadığına, haqqı təbliğ etdiyi üçün sarayla bağlılığının pozulmasına görə özünü Musa peyğəmbərə bənzədir. Şair illərdir davam edən fikir böhranını Musa peyğəmbərin həyatı fonunda izah etməyə çalışır. Hz.Musanın haqqı təbliğ etdiyi üçün firon və fironun məmurları tərəfindən təqiblərə məruz qalmasını xatırladıb, onun doğma el-obasını tərk etməsini öz məcburi səfəri ilə müqayisə edir:

İnsanların məcazında insanlığı az axtar ki,
Çalağanın yuvasında qanadlanmaz heç vaxt hüma.
Mənə inan, Adəmin ilk toxumundan bu vaxtadək,
Hələ insan yetirməmiş insan toxmu düşən tarla.
Qorxursansa, səhraya get, ünsiyyət et vəhşilərlə,
Könül açan həmdəm yoxdur bu insanlar arasında [9 s.19].

Xaqani dövrünün qayda və qanunlarına, nadanlıq və cəhalətin əlində əsir olan, intibahın qarşısında sədd çəkən insanlara, cəhalətə, sədaqətsizliyə, acgözlüyə etiraz edən bir şair kimi fikrini əsaslandırmaq və əsərinə məcazlarla qüvvət vermək üçün dünyanı tarlaya, insanı toxuma bənzədir. İlk toxumu Adəm olan bu tarlada insan toxumu əkiləndən bu günədək rifah meyvəsinin yetişmədiyini bildirir. Fikrini daha aydın izah etmək üçün Qurani-Kərimdə Bəqərə surəsinin 30-cu ayəsində buyrulan: *"Sənin Rəbbin mələklərə: "Mən yer üzündə bir canişin bərqərar edəcəyəm!"* – dedikdə, onlar: *"Biz Səni həmd-səna ilə tərifləyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada fəsad törədib qan salacaq bir kəsmi yerləşdirəcəksən?"* –

söylədilər” hadisəsini yüksək bədii-fəlsəfi ustalıqla nəzmə çəkir. Ümdə vəzifəsi tutduğu mövqedən, peşəsindən, yaşından və sosial durumundan asılı olmayaraq, bütün insanlığı kamillik, humanizm, inkişaf yolunda irəlilətmək olan filosof-şair toxumun yetişərək fayda verib, ona həyat verəni xatırlatmalı olduğu halda, vəhşilərdən belə aşağı səviyyədə qalmasına acıyır.

Şair misralarında intibahın kəskin düşmənlərinə gülərkən, dostlarına göz yaşı tökür:

Hoqqabazlıqdır işi başdan-başa cahillərin,
İmtahan et, yox bilik onlarda bir şagird qədər.
Harda ki, saf incilər səpdim bu odlu sinədən,
Qüssədən dondu həriflər, bağrı aldı neştər.

Nəzm tufanından onlar mütləqa tapmaz nicat,
Arvadı, oğlu kimi Nuhun, mənə ləc getdilər.
Olsalar da həmzaman, həməsr bu Xaqaniyə
Başqa-başqa fitrətə malik olan həməsrlər [9 s. 120].

Xaqani fikirlərinə, istedadına və yaradıcılıq məharətinə, eləcə də xalq arasındakı nüfuzuna, qazandığı sevgiyə görə ona paxıllıq edənləri, ona qarşı kin-küdurətini gizlətməkdə aciz olanları ümumiləşdirərək son nəfəsinə qədər haqqı görməyə və eşitməyə etiraz edən Nuhun arvadı və oğluna bənzədir. Bu xəbis insanların hesab günü nicat tapmayacağını vurğulayır.

Soruşsan: kimdi son şair? Fələk söylər ki: Xaqani!
Onunla şeir xətm olmuş, onunla bağlanıb divan.

Eşitsə şeirimi , bil, Əhmədi-Muxtar söylər ki:
- Sağ ol, şair, yəqin etdim ki, sənsən dəhrdə Həssan! [9 s. 364].

Yuxarıda nümunə gətirdiyimiz beytlərdə şair özünü islamın ilk dövrlərində yaşamış, şeirlərinin əsas mövzusu İslam, Məhəmməd peyğəmbərin tərif və təbliği, həmçinin onu tənqid edənlərin həcvi təşkil edən, elə bu səbəblə də “peyğəmbərin baş şairi” adlndırılan Xəzrəc qəbiləsinə mənsub şair Həssan ibn Sabitə bənzədir. Onun adını xatırladaraq dövrünün Həssanı səviyyəsinə qalxdığını vurğulayır:

Sözüm bal kimidir, paxıllar, amma,
Bal yeyib, ağzından tökdü zəhrimar.
Arı pətəyindən bal tutan adam
Toxunmaz arıya, arılar sancar.

Odur ki, üzünü palçıqla örtər,
Bal tutmaq istərkən ağlı olanlar.
Musanın əlləri palçığa batmaz,
Xızır xəzinəyə çəkməli divar [9 s.410].

Müəllif burada Musa və Xızır hadisəsinə diqqəti çəkir, Xızır hikmətinə bələd olmadığı üçün təəccüb və etiraz edən Musanın timsalında şeirlərindəki mənanın da yalnız aqil insanlar tərəfindən anlaşılacağını vurğulayır.

Beləliklə, Şərq, xüsusən də türk xalqlarının elmi-mədəni inkişafı üçün yorulmadan çalışan Xaqani Şirvani yaradıcılığı ədəbiyyat tariximizdə mühüm yer tutur. Elə bu səbəblədir ki, ədaləti, sülhü və insanpərvərliyi təbliğ edən Xaqani yaradıcılığı daha çox tətqiq və təbliğ edilməli, xüsusən gənc nəslin tərbiyəsində dahi sənətkarın fikir və görüşləri təlqin olunmalıdır.

Ədəbiyyat

1.Aslanlı M. H. Xaqani Şirvani fiziki kamillik haqqında //Bakı Universitetinin Xəbərləri//Humanitar elmlər seriyası//Ədəbiyyatşünaslıq, 2010, №3, s. 23-28.
2.Azərbaycan Ədəbiyyatı Tarixi: 6 cilddə, II c., Bakı: Elm, 2007, 630 s.
3.Бадр Ширвани. Диван. Москва: Наука, 1985. с.20
4.Bəlağı S. Quran hekayətləri. Bakı: Kitab Klubu, 2020, 440 s.
5.Bünyadov Z., Məmmədəliyev V. Qurani-Kərim. Bakı: 1991, 714 s.
6.Xaqani Şirvani yaradıcılığı monoqrafiya. Bakı: Elm və təhsil, 2020, 396 s.
7.Qaraoğlu F. Tarixdə iz buraxanlar: Xaqani Şirvani //Bakı xəbər, 2017, s.15.
8.Səfərli Ə. Q., Yusifov X. H. Qədim və Orta əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Ozan, 2008, 632 s.
9.Şirvani X. Seçilmiş əsərləri. Bakı: Lider Nəşriyyatı, 2004, 660 s.

İnternet resursları

1. https://www.e-derslik.edu.az/books/88/units/unit-1/page26.xhtml
2. https://edebiyyat-az.com/?p=30320

Şəmilova Dünya Mərdan

QURAN QİSSƏLƏRİ XAQANİ ŞİRVANİ YARADICILIĞINDA İDEYA-BƏDİİ QAYNAQLARDAN BİRİ KİMİ

Xülasə

Məqalədə Xaqani Şirvani yaradıcılığında Quran qissələrinin işlənmə dairəsi araşdırılır. Məqalənin əvvəlində müəllifin şəxsiyyəti haqqında fikirlər səsləndirilir. Daha sonra yaradıcılığından seçilmiş şeirlərlə fikir və ideyaları izah edilir. Məqalədə cəmiyyətin tərbiyəsi və dövrün problemlərinin həlli üçün Quranın mənbə kimi istifadəsi məsələsi tətqiq olunur. Xaqani Şirvanini dövrünün ən məşhur maarifçi, filosof, müəlliflərindən biri olmuşdur. Cəmiyyətin üzləşdiyi mənəvi problemlər onun yaradıcılığının əsas mövzuları olmuşdur. Bu məsələlərin həlli üçün isə o, Quranın qissələrindən nümunə olaraq istifadə etmişdir Xaqani cəmiyyətin ortaq problemləri olan paxıllıq, lovğalıq, ədalətsizlik, qanunsuzluq kimi mövzulardan söz açır. İslam müqəddəslərinin timsalında insanları keçmiş hadisələrdən ibrət almağa çağırır. Bu

dəyərli nümunələrdə əks olunan nəsihətlər yalnız həmin dövrün deyil, həm də müasir dövrün insanına ünvanlanmışdır. Məqalənin əsas istiqaməti Quran qissələri və Xaqani Şirvani yardacılığını birgə araşdırmaqdır. Həmçinin bu yolla müəllifin ideyalarını şərh etmək mümkündür.

Shemilova Dunya Merdan

QUR'ANİC STORİES AS ONE OF THE İDEAS-ARTİSTİC SOURCES İN KHAGANİ SHİRVANİ'S WORK

Summary

İn the article, the scope of use of Quranic stories in Khagani Shirvani's work is investigated. At the beginning of the article, opinions about the personality of the author are voiced. Then his thoughts and ideas are explained with poems selected from his works. The article examines the issue of the use of the Qur'an as a source for the education of society and solving the problems of the time. Khagani Shirvanini was one of the most famous intellectuals, philosophers and authors of his time. The moral problems faced by the society have been the main themes of his creativity. And for the solution of these issues, he used the stories of the Qur'an as an example. Khagani talks about common problems of society such as envy, pride, injustice, lawlessness. In the example of Islamic saints, he calls people to learn from past events. The admonitions reflected in these valuable examples are addressed not only to the people of that era, but also to the people of the modern era. The main direction of the article is to jointly examine the Qur'anic stories and Khagani Shirvani's support. It is also possible to interpret the author's ideas in this way.

Шамилова Дуня Мардан

КОРАНИЧЕСКИЕ СЮЖЕТЫ КАК ОДИН ИЗ ИДЕЙНО-ХУДОЖЕСТВЕННЫХ ИСТОЧНИКОВ В ТВОРЧЕСТВЕ ХАГАНИ ШИРВАНИ

Резюме

В статье исследуется масштаб развития коранических сюжетов в творчестве Хагани Ширвани. В начале статьи озвучиваются мнения о личности автора. Затем его мысли и идеи объясняются стихами, выбранными из его произведений. В статье рассматривается вопрос использования Корана как источника для просвещения общества и решения проблем времени. Хагани Ширванини был одним из самых известных интеллектуалов, философов и писателей своего времени. Нравственные проблемы, с которыми сталкивается общество, были главной темой его творчества. И для решения этих вопросов он использовал в качестве примера сюжеты Корана Хагани говорит о таких общих

проблемах общества, как зависть, гордыня, несправедливость, беззаконие. На примере исламских святых он призывает людей учиться на прошлых событиях. Наставления, отраженные в этих ценных примерах, обращены не только к людям той эпохи, но и к людям современной эпохи. Основное направление статьи - совместное рассмотрение коранических историй и поддержки Хагани Ширвани. Так же можно интерпретировать идеи автора.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Fil.ü.f.d. dos. Nəcəfov Əzizağa Bayram oğlu
tərəfindən çapa tövsiyə olunmuşdur

ZEYNALLI ŞƏBNƏM
Odlar Yurdu Universiteti,
Koroğlu Rəhimov küç, 13 AZ1072
shebnemzeynalli55@gmail.com (+994555017393)
ORCID NO: 0000-0002-1238-2750

MIKAYIL MÜŞFIQIN "ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM" NAĞILININ POETIK XÜSUSIYYƏTLƏRI

Açar sözlər: *folklor, Mikayıl Müşfiq, mənzum nağıl, mənəvi keyfiyyətlər, şifahi xalq ənənələri*
Key words: folklore, Mikayil Mushfig, verse tale, moral qualities, oral folk traditions
Ключевые слова: фольклор, Микаил Мушфиг, стихотворная сказка, нравственные качества, устные народные традиции.

Azərbaycan ədəbiyyatına gözəl sənət inciləri bəxş etmiş etmiş Mikayıl Müşfiqin yaradıcılığı müxtəlif aspektlərdən Azərbaycan gəncliyinə ən böyük örnəkdir.Mikayıl Müşfiqin əsərləri müasir dövrümüzdə gənclərimizin, böyüklərimizin yaddaşına həkk olunmuşdur. Onun yaradıcılığına nəzər yetirsək görərik ki, öz taleyini, həyatını əsərlərinə bağlayıb və onlardan heç vaxt ayrılmamışdır. Sənətkarın "Günün səsləri", "Küləklər", "Vuruşmalar", "Buruqlar arasında" kitabları bir müddət sonra isə "Şeirlər", "Çoban", "Mənim dostum", "Sındırılan saz" əsərləri çap olunmuşdur. Ədibin yaradıcılığında tərcümə fəaliyyətinin də mühüm rolu vardır. Onun tərcümə etdiyi "Şairin ölümünə", Mixail Lermontovun "Demon" poemasını (Rəsul Rza ilə birgə), "Qafqaz" (Mikayıl Rəfili ilə birgə), "Tənha yelkən ağacı" şeirlərini, Samuil Marşakın "Huşsuza bax, huşsuza", Mirzə Fətəli Axundovun "A.S.Puşkinin ölümünə Şərq poeması", Taras Şevçenkonun "Kobzar" (Əhməd Cavadla birgə), A.S.Puşkinin "Yevgeni Onegin" mənzum romanından "Tatyananın Onegenə məktubu"nu (R.Rza ilə birgə), "Qaraçılar" oxucuların xüsusi marağına səbəb olmuşdur. Görkəmli mütəfəkkir öz yaradıcılıq fəaliyyətində uşaqları diqqətdən kənarda qoymamış, onlar üçün də bir-birindən maraqlı, xoşagələn əsərlər qələmə almışdır. "Kəndli və ilan", "Şəngül, Şüngül, Məngül" mənzum nağılları, "Vuruşmalar", "Məktəbli şərqisi", "Coğrafiya" və digər əsərləri uşaqlara həsr etmişdir.

Ümumiyyətlə, Mikayıl Müşfiq yaradıcılıq fəaliyyətində folklor qaynaqlarından bəhrələnərək canlı xalq dilinin imkanlarından istifadə etmiş, əsərlərinə özünəməxsus şirinlik qatmışdır. Mikayıl Müşfiqin poeziyası milli bədii zəminə əsaslanır və burada xalq əfsanələri, nağılları, dastan cizgiləri ön plandadır. Şairin əsərlərində mövcud olan xəlqilik məhz elə buradan gəlir.

Folklor nümunələrindən biri olan nağıllardan Mikayıl Müşfiq də bəhrələnmişdir. Nağılların təsnifinə diqqət etsək, görərik ki, onlardan biri də uşaqlar haqqında olan nağıllardır. Uşaqlar haqqında olan nağıllardan danışarkən onu da bildirməliyik ki, bu janrın əsas xüsusiyyətlərindən biri də uşaqlara əxlaqi-tərbiyəvi cəhətlərin aşılanmasıdır.

Nağıldakı obrazların insanlar kimi canlandırılması uşaqlar üçün maraq doğurduğundan uşaq ədəbiyyatında bu janr olduqca mühümdür. Ona görə ki, müasir dövrümüzdə elm-texnikanın inkişafı uşaqların diqqətini daha çox cəlb etsə də, nağıllar hələ də uşaqlar üçün sehirli aləmdir. Bu səbəbdən də əsrlərin sınağından keçərək ağızdan-ağıza yayılaraq gələn nağıllar uşaqların qəlbinə və düşüncələrinə öz təsirini göstərən əsas vasitələrdən biridir. Uşaqlar haqqında olan nağıllar, əsasən, bizim gələcəyimiz olan uşaqların anlaya biləcəyi formada, onların psixologiyasına və düşüncəsinə uyğun olaraq yazılır. Həmçinin, uşaq ədəbiyyatına xas olan səciyyəvi xüsusiyyətlər həm yazılı ədəbiyyata, həm də şifahi ədəbiyyata aiddir.

Uşaq nağıllarının özünəməxsus bədii estetik və tərbiyəvi əhəmiyyəti vardır. Balaca oxuculara birlik, sadiqlik, vəfalılıq, etibarlılıq kimi müsbət ideyalar maraqlı əhvalatlarla tərənnüm edilir. Bununla yanaşı uşaq nağılları nəsihətamiz fikirləri özündə əks etdirir və uşaqların tərbiyəsinə kömək edir.

Görkəmli sənətkar Mikayıl Müşfiqin qələmə aldığı "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılı da uşaqlar haqqındadır. Mütəfəkkirimiz Müşfiqin yaradıcılığını daha dərindən tədqiq etmiş professor Gülhüseyn Hüseynoğlu "Xalq nağılı əsasında" məqaləsində belə qeyd etmişdir ki, Müşfiq xalq nağıllarının yaxşı xüsusiyyətlərindən yararlanaraq öz əsərlərində istifadə etmiş, təkrarlanan yerlərini buraxmış, nağıla yeni əlavələr etmiş və bunun nəticəsində öz əsərinin zənginləşməsinə səbəb olmuşdur. Buna misal olaraq "Şəngülüm, Şüngülüm, Məngülüm" mənzum nağılındakı təbiət mənzərəsinin təsviri, çəpişlərin, qurdun fərqli cizgilərdə əks olunmasını göstərmək olar. Bizim gələcəyimiz olan uşaqlar üçün qələmə alınan bu mənzum nağıl ən maraqlı əsərlərdən biridir. Bu əsər nəşr olunan zaman uşaqların diqqətini çəkmiş və onlar tərəfindən çox sevilmişdir.

Müşfiqin nağılları poetik formasına, ecazkar ifadə tərzinə görə xalq nağıllarından xeyli dərəcədə fərqlənir. Nəzmlə qələmə alınmış bu parçalarla milli adət-ənənələrimizi əks etdirən xalq nağılları arasındakı fərqi xalq yazıçısı Gülhüseyn Hüseynoğlu da tədqiqat obyektinə çevirmişdir.

Görkəmli sənətkar Mikayıl Müşfiq həmin nağıllarında əməyin, zəhmətkeşliyin təbliğinə geniş yer vermişdir. Bu xüsusiyyətlər onu dahi şairimiz Nizami Gəncəviyə daha da yaxınlaşdırmışdır.

Nizami Gəncəvinin söylədiyi: "Kamil bir palançı olsa da insan, yaxşıdır yarımçıq papaqçılıqdan" misraları Mikayıl Müşfiqin nağıllarının ideyası ilə bilavasitə üst-üstə düşür.

Bu əsərlərin hər birində halal zəhmət, baş ucaldan əməyin təbliği ön plana çıxır. Biz bu xüsusiyyətləri yazıçının "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılında da görə

bilərik. Haqqında danışdığımız nəzmlə qələmə alınmış parçaların əsas qəhrəmanları qurd və keçidir. "Şəngülüm, Şüngülüm, Məngülüm" nağılının əsas qəhrəmanlarından biri olan qurdun əsas olan özəlliklərinə nəzər yetirək. Bizə məlumdur ki, qurd totemi qədim Azərbaycan mifologiyasının əsasını təşkil edir. Bununla yanaşı türk xalqları arasında "Qurddan törədim" adlı əfsanə də geniş şəkildə yayılmışdır. Həmçinin, bu əfsanə türklərin soy-kökü etibarilə hunların törəməsi olduğunu işarə edir. Ümumiyyətlə, türk dastanlarının əsas motivlərindən olan boz qurd nağıllarda qurd kimi ifadə edilir. Türk mifalogiyasının və folklorunun mühüm dəyərlərindən biri olan boz qurd bugünkü anlamda qurddur. Bu motivin ilk dəfə olaraq ortaya çıxması Hun türk dövlətinin mövcud olduğu dövrə təsadüf edir. Oğuz Kağan, Ergenekon və Bozqurd dastanlarında da qurd motivi daha qabarıq şəkildə təsvir olunmuşdur. Buna nümunə olaraq qədim dastanlardan olan Oğuz Kağan dastanında təsvir olunur ki, "Ay xatun bir oqlan doğur, ayağı öküz ayağı, ciyni qurd ciyni, kürəyi samur kürəyi, köksü ayı köksü kimi"(13, s. 249-250).

Qurd totemi qədim Azərbaycan mifologiyasında əsas atributlardan biridir. Hətta türk xalqları arasında "Qurddan törədim" adlı bir əfsanə də mövcud olmuşdur. Bu əfsanə türklərin qədim soy-kökünə, onların hunların törəməsi olduğuna dəlalət edir.

Türk xalqlarının qəhrəmanlıq dastanı olan "Alpamış" dastanında da qurd toteminə təsadüf olunur. Dastanın baş qəhrəmanı Alpamışın atasının adı Bayburidir. Bu söz qədim türk dillərində "qurd" mənasını ifadə edirdi. "Kitabi-Dədə Qorqud" dastanında da Bamsı Beyrəyin atasının adı Qan Börədir. "Qurd" mənasını ifadə edir.

Tədqiqarçı Kamil Vəliyev belə qərara gəlmişdir ki, qurd türk xalqları arasında yenilməz, mərhəmətli, xeyirxah bir varlıq kimi tanınmışdır. Qurd, hətta Məhəmməd Peyğəmbərin İslamı yaymaq üçün göndərdiyi elçilərə bələdçilik edir. Həmçinin, qurd türk xalqları arasında qarabasmaların aradan qaldırılması məqsədi ilə şəfaverici bir varlıq kimi istifadə edilirdi.

Bununla yanaşı türk xalqlarının inancına əsasən qurdu öldürmək günah sayılırdı, çünki qurd Həzrət Əlinin köpəyi hesab olunurdu.Bununla yanaşı,"Qazan xanın evinin yağmalanması" boyunda bir süjet var ki, orada evi yağmalanan Qazan xan qurdu gördükdə deyir ki, qurd üzü mübarək olar, yurdumuzun, evimizin sorağını bu qurddan da soruşum (6,s.192). Ümumiyyətlə, "Kitabi Dədə Qorqud" dastanında mövcud olan Qorqud adına nəzər yetirsək, görərik ki, bu söz qurd sözündən törəyibdir. Tədqiqatçı Hüseyn İsmayılov bu haqda fikirlərində qeyd edir ki, "Qorqut" sözü qurdla əlaqəlidir. Bu mənada isə "Qorqut" "qoru qurt" (qoruyucu qurd) kimi izah olunmuşdur. Bu söz totemizm təsəvvürlərində qoruyucu qurd kimi təsəvvvür olunmuşdur (5,s.3).

Eyni zamanda adın simvolikasına diqqət yetirsək, görərik ki, türk xalqlarının mifologiyasında qurd kimi fərqləndirilən, seçilən bir varlıq, demək olar ki, yoxdur. Qurdla bağlı yaranan inanclar boş səbəbdən yaranmamışdı. Bunların özünəməxsus kökləri mövcuddur. Çox güman ki, bu inanclar türkün törəsi və qurdun bənzərliyi ilə

əlaqədardır. Qurdun leş yeməməsi, sürüyə yük olmamaq üçün sürüdən ayrılması kimi xüsusiyyətlər yalnız türk xarakterinə uyğun gəlir.

Qurd, həmçinin türk xalqları arasında qarabasmaların aradan qaldırılması məqsədilə şəfaverici bir varlıq kimi təsvir olunur. Bu kimi xüsusiyyətlər türklərin təsəvvüründə qurd totemizminin elementləri kimi qəbul edilir.

Bəzi türk, əsasən də Azərbaycan inanclarında qurd daha çox xilaskar, yol göstərən kimi göstərilsə də, bəzən əksinə ola bilir. Buna "Arxalı köpək qurd basar" atalar sözünü misal göstərmək olar.

Azərbaycan şifahi xalq ədəbiyyatında qurdun birbaşa olaraq nəsil yaradıcısı funksiyası olduğu göstərilmir. Müəyyən hallarda bələdçi funksiyasının olduğu kimi qəbul edilir. Bunu da qeyd etmək lazımdır ki, Başqırd xalqının adında qurd ifadəsinin istifadə olunduğunu görsək də, burada qurd totem-nəsil törədən funksiyasında deyil, hamilik funksiyasını icra edən tanrı elçisi kimi nəzərdə tutulmuşdur. Buna nümunə isə qurdun çöllərdə qalan, məhv olmaq təhlükəsi qarşısında qalan türk soyunun münbit şəraitli torpaqlara gətirib çıxarmasını misal göstərmək olar.

Tədqiqatçı Aytək Abdullayeva bizim inanclarımıza görə, müqəddəs varlıq hesab edilən qurdun nağıllarımızda acgöz, ikiüzlü kimi təsvir olunmasına fikir bildirmişdir. O, qeyd etmişdir ki, bunun əsas səbəbi insanlar qədim zamanlarda maldarlıqla məşğul olduqda qurdlar onlara hücum edir və beləliklə qurdlar haqqında olan hami, qoruyucu fikirləri məhv olur (1.s. 33). Mikayıl Müşfiqin bu nağılındakı qurd obrazı bu fikirlə üst-üstə düşür. Burada qurd qaniçən, qəddar, acgöz, axmaq bir varlıq kimi təsvir olunur. Lakin bütün nağıllarda qurd belə təsvir olunmur. Bəzi nağıllarda qurd saf, məzlum kimi göstərilir. Məsələn, "Tülkü ilə canavar" nağılında tülkü canavara hiylə işlədərək onun başını aldadır. "Ac qurd" nağılında qurdun özünün çoxlu tədarük görməsinə baxmayaraq digər heyvanlardan da azuqə istəyir. Heyvanlar bunu başa düşən kimi onu diri-diri basdırırlar. Mikayıl Müşfiqin nağılında mövcud olan qurd obrazı isə bəzi nağılların əksəriyyəti ilə eynilik təşkil edir. Sənətkar qurdun acgözlüyünü, yırtıcılığını, yalançılığını öz əsərində təsvir edir. Qurda kələk gələn dəmirçi olur. Bu nağılda mövcud olan qurdun acgözlüyü ilə "Ac qurd" nağılındakı qurdun kələkləri ilə üst-üstə düşür. Hər iki nağıldakı qurd acgözdür və hiyləgərlik edir. İstedadlı şairimiz Mikayıl Müşfiqin qələmə aldığı qurd obrazı nağıl qəhrəmanlarına uyğun şəkildə qələmə alınmışdır. Həmçinin, bu obraz ictimai məna kəsb etmişdir.

Keçi surəti türk xalqları arasında bolluq-bərəkət rəmzi kimi məşhurdur. Onlara sayaçı sözlər həsr edilmiş, burada keçilərin xalqı südü, yunu, əti ilə dolandırdığı təsvir olunmuşdur.

Keçi dünyanın bir çox qədim xalqlarının mifoloji düşüncəsində özünəməxsus yer tutmuşdur. Qədim Yunan mifologiyasının baş Allahı Zevs körpə olarkən ilahi keçi Amalfeyanın südü ilə böyümüşdür. R. Qrevye belə qeyd etmişdir ki,"Amalfeya, yəqin ki, bakirə ilahə olmuşdur və keçi cildində təsəvvürə gətirilirdi"(14, c.28). İlahi

Amalfeyanın Azərbaycan mifologiyasındakı keçi ilə oxşar cəhətlərinə nəzər salsaq, görərik ki, hər ikisi də yaz fəsli ilə bağlıdır, özündən daha güclü düşmənlə mübarizə aparır və qalib gəlir. Qədim yunanların və misirlilərin mifologiyasında bolluq və bərəkət allahları keçi ilə əlaqələndirilir. Buna görə də, keçi müqəddəs hesab olunur.

Bununla yanaşı Kültigin abidələrində dağ keçisi formalı gerb mövcuddur. Buna görə də bir çox türk boyları tərəfindən keçi müqəddəs sayılırdı. Keçi ilə öz həyatları arasında əlaqə qurur və özlərini Allahın yer üzündəki kölgəsi kimi görən türk xaqanları keçini özlərinə damğa seçmişdilər. Keçinin bu təsviri türklərin mədəniyyətində xüsusi yeri vardır. Onun simvolik təsviri türk xaqanlarının müstəqillik rəmzi hesab olunmuşdur. Həmçinin, türk boyları keçinin dağlarda yaşadığına görə Göy Tanrıya yaxın zənn etmiş və müqəddəs hesab etmişdilər. Buna görə də, türklərin əvvəl yaşadıqları yerdə Azərbaycan, Qazaxıstan, Türkiyə, Qırğızıstanda keçi təsvirlərinə rast gəlmək mümkündür.

Dünya xalqlarının mifik təfəkküründə keçinin qoruyucu funksiyasını həyata keçirməsi ilə bağlı maraqlı məlumatlar mövcuddur. Toxum torpağa əkildikdən sonra ona gələn zərərin qarşısını almaq üçün daha çox keçiyə ehtiyac duyurdular. Bununla yanaşı, məhsulun çox olub olmayacağını zəmilərdə saxlanan "müqəddəs keçilərin" əhval-ruhiyyəsi sayəsində aydınlaşdırırdılar. Əgər ki, onun başına pis bir iş gəlirdisə, bunu məhsulun tələfi kimi anlayırdılar.

Keçinin Azərbaycan mifoloji düşüncəsindəki xüsusiyyətlərini ətraflı şəkildə tədqiq edən folklorşünas Mirəli Seyidov qeyd edirdi ki, "Keçi yazın bəlgəsidir, buna görə də yaz bayramında aparıcıdır. Günəşlə ilişgəlidir. Keçi yaxşılığı təmsil etmiş, insanlara ruzi vermişdir (12,s.92).

Qırğızlarda Çiçan ata adlı övliya keçiləri daima qorumuşdur. Bundan başqa qədim yunan xalqının mifologiyasında keçiləri süd anası hesab etmişlər.

Mikayıl Müşfiqin nağılında qazı, keçiyə mənfi münasibət bəsləyir, onu tərs adlandırır. Şairin təsvir etdiyi qazı xalqın zəhmətkeşlərinin pulunu mənimsəyən, rüşvətxor bir obrazdır. Onun keçiyə mənfi münasibətinin səbəbi keçinin onu əliboş göndərməsi ilə bağlı idi.

Lakin biz xalq arasında yayılmış nağıllarda, atalar sözləri və ifadələrdə keçiləri mənfi surətdə də görə bilirik. Buna "Hiyləgər keçi" nağılını nümunə göstərmək mümkündür.

Tülkü isə türk xalqları arasında hiyləgər bir obraz kimi tanınır. "Tülküylə toyuq", "Tülkü ilə canavar" nağılları da bunun sübutudur. Məsələn, "Tülkü və qurd" nağılında qurd tülküyə uduzur, ağılsızlığı ilə seçilir.

Ümumiyyətlə, mənzum nağıllarının sənətkarlıq xüsusiyyətlərinə xas olan bənzər əlamətlər xalq nağıllarında da mövcuddur. Sənətkar əsəri nağıllarda mövcud olan "biri varmış, biri yoxmuş" formulundan istifadə etmişdir və bu onun fikirlərini ifadə etmək üçün əsas vasitələrdən biri olmuşdur. Bundan başqa nağılda dastanlarımızda, nağıllarımızda mövcud olan daşlaşmış təhkiyə üsulundan istifadə olunmuşdur.

“Az getdilər, uz getdilər,
Dərə-təpə, düz getdilər”(9, s.335).

Həmçinin, bu mənzum nağılda təbiətin ustalıqla insanı valeh edən şəkildə təsvir olunması da diqqəti çəkən əsas ünsürlərdəndir. Əsərin sonluğuna nəzər yetirsək, görərik ki, diqqət çəkən bir sonluqla bitir.

“Keçi güldü qurda biraz,
Dedi: Zülüm yerdə qalmaz..
Balalarım yeməyəydin,
“Vay qursağım” deməyəydin”(9, s.337).

Nağılda mövcud əzab-əziyyəti çox olan məzlumlar, qurdun simasında verilən zülmkar, qəddar istismarçılar və s. cəhətlər dövrün siyasi – ideoloji xüsusiyyətlərini göstərirdi. Otuzuncu illərdə qələmə alınan bu əsər haqsızlığın, zülmün sonununun olacağını çatacağını işarə edirdi. Yaxşılıq, xeyirxahlıq, düzlük kimi keyfiyyətləri keçinin, dəmirçinin simasında verməklə uşaqlarda xeyrin hər zaman qələbə çalacağına inam hissi aşılayırdı.

Bizə məlumdur ki, folklor nümunələri daim görkəmli sənətkarlarımızı ilhamlandırmış, onların öz əsərlərinin zənginləşdirməsi üçün qiymətli mənbə olmuşdur. Həmçinin bu janrdan istifadə etməsinin mühüm səbəblərindən biri də sənətkarın yaşadığı dövrdə baş verən ictimai - siyasi hadisələri xalqa çatdırmaq idi. Bu səbəbdəndə folklorun geniş imkanlarından yararlanaraq uşaqların təfəkküründə xeyrin qələbə çalacağı fikrini folklor mətnlərinə əsaslanmaqla aşılamağa çalışmışlar.Yazılı ədəbiyyatımızda əfsanələr və nağıllardan yararlanaraq yazılan bu əsərlərdə əsas məqsədlərdən biri budur. Mikayıl Müşfiq də öz əsərlərində xalq nağılı ənənələrindən uşaqların dünyagörüşünə, düşüncə tərzinə uyğun olan mövzuları seçərək onların əxlaqi-didaktik yöndə daha da kamilləşməsinə xidmət edən əsərlər ərsəyə gətirmişdir

Mikayıl Müşfiq şifahi xalq ədəbiyyatının ənənələrini öz əsərlərində davam etdirən sənətkarlardan olmuşdur. Zəngin xalq ədəbiyyatına böyük maraq göstərən sənətkarın əsərləri folklor ünsürləri ilə zəngindir. Sənətkar daim şifahi xalq ədəbiyyatı ənənələrindən istifadə etmiş və öz əsərlərini zənginləşdirmişdir. Görkəmli sənətkar təkcə nəzmlə qələmə alınmış nümunələrindən yararlanmamış, həm də nağıllarımızda mövcud olan şifahi poeziyanın imkanlarından ədəbi bir piryom kimi istifadə etmişdir. “Şəngülüm, Şüngülüm, Məngülüm” mənzum nağılı da onun folklorla qırılmaz əlaqədə olduğunu göstərən nümunələrdən biridir. Görkəmli ədib uşaq yazıçısı olmasa da bizim gələcəyimiz olan uşaqlar üçün əsərlər qələmə almağı özünə borc bilmişdir.

XÜLASƏ

MIKAYIL MÜŞFIQIN “ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM” NAĞILININ POETIKASI

Azərbaycan ədəbiyyatının istedadlı şairlərindən biri də Mikayıl Müşfiqdir. İstedadı ilə taleyi arasında böyük uçurum olan ədəbiyyatımızın ölməz sənətkarının yaradıcılığının istinad nöqtəsi onun istedadlı olması və bununla yanaşı xalqımızın ruhundan süzülüb gələn folkloru dərindən bilməsidir. Folkloru dərindən bilməsinin ən böyük göstəricilərindən biri də onun əsərlərində bundan istifadə etməsi və həmin janrlarda əsərlər qələmə almasıdır. Mikayıl Müşfiqi daim bizim qəlbimizdə yaşadan, onun əsərlərini bizə sevdirən əsas amil əsərlərinin yüksək sənətkarlığı, humanizmidir. Məzmun və mövzu cəhətdən rəngarəng əsərlər qələmə almağı bacaran Mikayıl Müşfiqin ideyaları, fikirləri hər zaman gələcək nəslin əxlaqi-mənəvi cəhətdən saflaşmasına, tərbiyələnməsinə xidmət etmişdir. Bu məqalədə onun diqqət çəkən, uşaqların böyük məhəbbətlə oxuduğu mənzum nağıllarından biri olan “Şəngülüm, Şüngülüm, Məngülüm” nağılıdır. Hansı ki, bu nağılda qəhrəmanların simvolik xüsusiyyətləri, həmçinin əsərin bizə aşıladığı mənəvi keyfiyyətləri araşdırılmışdır. Bu nağıllarda əməyə sevgi, zəhmətkeşliyin tərənnümü və s. kimi mənəvi dəyərlərin vacibliyi qeyd edilmişdir.

ZEYNALLI SHABNAM

S UMMARY

POETIC FEATURES OF MIKAYIL MUSHFIG’S FAIRY TALE “SHANGULUM, SHUNGULUM, MANGULUM”

Mikayil Mushfig is one of the talented figures of Azerbaijani literature. A milestone in the creativity of the brilliant artist of our literature, who has a huge gap between talent and destiny, is his talent and at the same time his deep knowledge of folklore, filtered from the soul of our people. The main factor that keeps the life of Mikayil Mushfig in our hearts and makes us love his work is the high artistry and humanism of his work. The ideas and views of Mikayil Mushfig, who knew how to write colorful works in terms of content and subject matter, have always served the moral and spiritual refinement and education of the future generation. One of the biggest indicators of his deep knowledge of folklore is that he uses it in his works and writes works in these genres. In this article, his story "Shangulum, Shungulum, Mangulum", which is one of the poetic tales that children read with great love. This tale explores the symbolic characteristics of the main characters, as well as those spiritual qualities that the work instills in us. In fairy tales, this is love for work, glorification of hard work, etc. e. the importance of moral values such as.

Зейналлы Шабнам

РЕЗЮМЕ

ПОЭТИЧЕСКИЕ ОСОБЕННОСТИ СКАЗКИ МИКАИЛА МУШФИГА «ШАНГУЛУМ, ШУНГУЛУМ, МАНГУЛУМ»

Одним из талантливых деятелей азербайджанской литературы является Микаил Мушфиг. Ориентиром творчества гениального художника нашей литературы, имеющего огромный разрыв между своим талантом и судьбой, является его талант и в то же время его глубокое знание фольклора, отфильтрованного из души нашего народа. Главный фактор, который сохраняет жизнь Микаила Мушфига в наших сердцах и заставляет любить его творчество,-это высокий артистизм и гуманизь его произведений. Идеи и взглятдь Микаила Мушфига, умевшего писать красочные по содержанию и тематике произведения, всегда служли нравственно-духовному утончению и воспитанию будшего поколения. Одним из самых больших показателей его глубоких знаний фольклора является то, что он использует его в своих произведениях и пишет произведения в этих жанрах. В этой статье его рассказ «Шенгулум, Шунгулум, Мангулум», который является одной из стихотворных сказок, которые с большой любовью читают дети. В этой сказке исследуются символические характеристики главных героев, а также душевные качества, которые прививает нам произведение. В сказках это любовь к труду, прославление трудолюбия и т. д. важность моральных ценностей, таких как.

Ədəbiyyat siyahısı

1. Abdullayeva A. “ Məqalələr”. Bakı: Gənclik, 1996.
2. Azərbaycan ədəbiyyatı tarixi. 6 cilddə. I cild (şifahi xalq ədəbiyyatı). Bakı: Elm, 2004.
3. Hacıyeva M. Ədəbi qaynaqlar. Bakı: Elm və təhsil, 2014.
4. Hüseynoğlu G. Müşfiqin uşaqlara məhəbbəti / Gülhüseyn Hüseynoğlu // Azərbaycan müəllimi.- 1968. - 5 may.
5. İsmayılov H. Göyçə dastanları: Türk epik sistemində dastan informasiyasının fasiləsizliyi / Göyçə dastanları və aşıq rəvayətləri, Bakı: Səda, 2001.
6. Kitabi Dədə Qorqud. Əsli və sadələşdirilmiş mətnlər. Bakı: Öndər nəşriyyat, 2004.
7. Qafarlı N. Azərbaycan-türk mifologiyası (qayanqları, təsnifatı, obrazları, genezisi, evolyusiyası və poetikası), Bakı: ADPU-nun nəşri, 2010.
8. Məmmədzadə V. “Mədəni irs və Müşfiq novatorluğu”. Bakı, 2007.
9. Mikayıl Müşfiq. Seçilmiş əsərləri. Bakı: Şərq-Qərb, 2004
10. Nizami Gəncəvi. “Leyli və Məcnun”. Bakı: Lider nəşriyyat”, 2004.

11. Səadət Məmməd. Nağıl mövzu və obrazları bədii ədəbiyyatda. Bakı: Təhsil, 2019.
12. Seyidov M.Azərbaycan mifik görüşlərinin qaynaqları. Bakı: Yazıçı, 1983.
13. Vəliyev V. "Azərbaycan folkloru", Maarif nəşriyyatı, Bakı, 1985.

Rus dilində

14. Грейве Р. Мифы древней Гречии./ Пер.с англ. Под ред. И с послесл. А. А. Тахагоди.-М.,Прогресс, 1992.

İnternet resursları

15. http://az.baku-art.com/az/mikayil-mushfiqin-heyat-ve-yarad-c-l-g-i-qland-r-l-b

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: Rəyçi: fil.f.d.Adışırinov Nizami tərəfindən çapa tövsiyə olunmuşdur

FƏRİDƏ ÇİNGİZ
Avrasiya Universiteti
Həsən Əliyev küç,73
Farida.chingiz.info@gamail.com

HİND SƏBKİ ŞEİRİNDƏ FƏRHAD OBRAZI
(Nizaminin "Xosrov və Şirin"i ilə müqayisəli araşdırma)

Açar sözlər: Nizami Gəncəvi, hind üslubu, Fərhad, Xosrov və Şirin, prototip
Ключевые слова: Низами́ Гянджеви́, Индийский стиль, Фарха, Хосров и Ширин, опытный образец
Key words: Nizami Gancavi, Indian style, Farhad, Khosrow and Shirin, prototype

Giriş

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, mütəfəkkir Nizami Gəncəvi (1141-1209) yaradıcılığı ilə dünya ədəbiyyatında dərin iz qoymuşdur. Qüdrətli sənətkar zəngin bədii təxəyyülü baxımından nadir şəxsiyyətlərdən biridir. Nizaminin məhşur eşq dastanları − "Xosrov və Şirin" və "Leyli və Məcnun", təkcə Azərbaycanın yox, dünya ədəbiyyatşünaslığının diqqət mərkəzində olmuşdur. X.Purqştal, de Erbel, E.Braun, F.Erdman, F.Şarmura, A.Krımski, Y.Marr, E.Bertels və digər şərqşünaslar, tarixçilər, eləcə də görkəmli Azərbaycan alimləri A.Həmid, Q.Mirzağa, A.Əkbər, Ə.Rüstəm, R.Azadə, A.Nüşabə və başqaları Nizami yaradıcılığını dərindən tədqiq və təhlil etmişlər [1, 5 s].

Məlum olduğu kimi "Xosrov və Şirin" "Xəmsə"yə daxil olan ikinci ən böyük əsərdir. Nizamidən sonra örnək olaraq, Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov", Əlişir Nəvainin "Fərhad və Şirin", Arif Ərdəbilinin "Fərhadnamə", Abdullah Hatifinin "Şirin və Xosrov" və Əqil Kövsəri Ərdəbilinin "Şirin və Fərhad" adlarını qeyd edə bilərik. Bu mövzuya çox sayda şair müraciət etmiş, Nizami ənənələrini yüzillər boyu yaşatmışlar. "Xosrov və Şirin" dastanında məhəbbətin böyüklüyü tərənnüm edilərək əsrlərlə unudulmayan bədii surətlər, ədəbi qəhrəmanlar yaradılmışdır. Bu qəhrəmanlar sırasında dünya ədəbiyyatı xəzinəsinin gözəl incisi olan Şirin öndə durur. Böyük mütəfəkkir şair bu poemasında həm də Şərq ədəbiyyatında ilk dəfə olaraq sənət adamını − Fərhad surətini dərin məhəbbətlə qələmə almış, onu həm sənət, həm də eşq fədası kimi şahlara nümunə göstərmişdir. Xosrovla Şirinin məhəbbət yolundakı iztirablar, qarşılaşdıqları maneələr, meydana çıxan əngəllər və s. əsəri daha da maraqlı edir.

1. Hind səbki şeirində Fərhad surəti və prototipi ilə səsləşmələr.

Nizamidə Fərhad Şirinin vüsalına çatması üçün bütün qüdrət və sənətkarlığı ilə çalışan surətdir. Gəncəli şairdə Fərhad ilk öncə sənətkar, mühəndis kimi təqdim edilir. Hind səbki şeirində isə görürük ki, Fərhad qovuşmaq arzusunda olduğu

məşuquna eşqi sənəti vasitəsi ilə ifadə edir və bu xüsusiyyət hind səbki şeirinin ortaq bir özəlliyi kimi nəzərə çarpır. Naili Qədim divanından bir nümunəyə diqqət edək:

Harīf-i meslek-i Ferhāda müzd-i tīşe yeter
Bu kūh-sārda ancak hırāş-ı kār kalur. [7, 39 s]

Beytdən göründüyü kimi, sənət aşiqi olan Fərhad heç bir maddi təmənna güdmədən dağı yarmağı əsas məqsədinə çevirir və onun bu zəhməti müqabilində umacağı yeganə mükafat Şirinin eşqidir. Bu beyt Nizaminin "Xosrov və Şirin" dastanındakı fikirlərlə səsləşir. Şirin qəsri abad etməsi üçün Fərhadın sənətkar kimi baxıldığından istifadə etmək istəyir. Aşağıda Nizamidən yazılan bir nümunəyə nəzər salaq:

Usta biliyinlə, iti əlinlə
Bu qəsri abad et, gəl məni dinlə. [3, 286 s]
Şirin nə istəyir, bilincə Fərhad
Razılıq eləyib oldu xeyli şad.
Bu işi görməкçün çox tələsirdi,
Şirinin işiyçün qəlbi əsirdi.
Fərhad külüng çaldı, daş quma döndü,
Dağlar zərbəsindən bir muma döndü. [3, 287 s]

Məlum olduğu kimi, Nizamidə Fərhad üçüncü əsas surətdir. Dastanda ən fədakar aşiq elə Fərhaddır. Əlyar Səfərli və Xəlil Yusiflinin fikirləri ilə desək, şair "... Fərhadın simasında insanın qüdrət və əzəmətini tərənnüm edir, orta əsrlərin Bisutun da olsa, bu qüdrət qarşısında gec-tez təslim olacağını göstərir" [2, 166 s] Hind üslubunun ustadlarından olan Saib Təbrizi də Fərhad obrazını Nizamidəki kimi eşqi və sənətkarlığı ilə yüksək qiymətləndirmişdir. Bir nümunəyə diqqət edək:

Hümmətli olsa insan, bəxtdən şikayət etməz,
Fərhad külüng vuranda coşub damarda qanı. [4, 65 s]

Şairə görə, Fərhad nə qədər zülm görsə də onun arzusu var və o bəxtindən şikayət etmir. O arzusu, istəyi ilə hər işləyəndə daha da cuşa gəlir. Nizami Fərhad obrazının təsvirini verərkən onu bir sənətkar adlandırır. Nizami dastanda Xosrovun mənfi tərəfləri göstərsə də, Fərhadı eşq yolundan dönmür. Şair onu "bilici usta" adlandırır.

Dedi: "Qulaq as, ey bilici ustad!
İstəyimi doğrult, məni eylə şad.
Bir eşit, gör nədir кönlümdən кeçən,
Bu dərdli qəlbimə şadlıq gətir sən. [3, 286 s]

Saib kimi Qövsi də Nizaminin yaratdığı Fərhad obrazını − sevgisi uğrunda mübarizə aparan, əzmkar bir sənətkar olaraq qiymətləndirmişdir:

Dözmədi bir tişəyə Fərhad, ey bidadgər,
Sineyi-Qövsi sanırsan Bisütunun dağıdır [5, 119 s]

Ey zalım, bir külüngə belə Fərhad dözmədi, Qövsinin sinəsi isə sanki, Bisutun dağıdır. Şair bu beytdə özünü Fərhad ilə müqayisə edir.

Aşağıda qeyd etdiyimiz nümunə isə Şeyx Qalibdəndir. Şair yazır:

Olamaz dest-seng-i elvânı
Nakş-ı Şirin ü tîşe-i Ferhâd [9, 39 s]

Yuxarıdaki beytdən də göründüyü kimi, Fərhad baltası ilə Şirinin şəklini nəqş edərək, şəklini eşqindən nalə edərək öpərdi. Şeyx Qalib bu beytində aşiqin Şirinin şəklini Bisutun dağına nəqş etməsini qeyd edir.

Ümumiyyətlə Saib, Qövsi və Şeyx Qalibdə Fərhad obrazı Nizaminin dastanda yaratdığı əzəmətli, iradəli obraza çox bənzəyir. Səbki-hindi şairləri Fərhad obrazını sanki Nizamidəki Fərhadın zəkası və cəsarəti ilə zirvəyə qaldırırlar. Bəzən şairlər Fərhadı özləri ilə müqayisə edir, bəzən də hind üslubunun yazıldığı dövrün ictimai-siyasi məsələlərini Fərhadın mübarizəsi ilə eyniləşdirirlər. Məhz yuxarıda səbki-hindi şairlərindən qeyd olunan beytlərdə "zülm" ifadəsi dövrün mühacir şairlərin halını da əks etdirir.

Fərhadın Şirinin şəklini Bisütun dağına nəqş etməsi motivinin işlənmə şəklinə nəzər salaq:

Nakşı yer etdi fi'l-hāl hārāda sanma timsāl
Şīrīni Bī-sütūna Ferhād söyleyince [7, 532 s]

Fərhadın fədakar aşiq obrazının ilk nümunəsi Nizaminin "Xosrov və Şirin"də olduğu üçün hər iki beyti gəncəli şairin ədəbi irsi kontekstində öyrənmək doğru olar. Naili və Şeyx Qalibin beytlərində Fərhadın ah-vay edib, külüngü ilə Şirini nəqş etməsi və rəsmini öpməsi motivi Nizami ilə yaxından səsləşir:

O, əvvəlcə dağa göstərdi hörmət.
Daş üstündə yaratdı xeyli surət.
Elə əla yonuldu daşda Şirin,
Çəkibdir Mani "Ərjəng"i deyərdin. [3, 186 s]
Gedib şəklin qabağında durardı,
Haman daşda baxıb gövhər arardı.
Öpər şəklin ayağından o, bərk-bərk. [3, 187 s]

Nailinin beyitində aşağıda adı çəkilən Fərhad Nizaminin yaratdığı Fərhadla əlaqəlidir.

Çarha āh-ı ʿāşık-ı nā-dīde-kāmun etdügin
Bī-sütūna tīşe-i ser-tīz-i Ferhād etmeye [7, 526 s]

Göründüyü kimi, şair Fərhadın külüngü ilə hər dəfə zərbə endirdikdə çıxan səsi nəzərdə tutaraq onu daxili əzabına, arzusuna işarə edir. Nizami ənənəsinə əsaslanan aşağıdaki nümunəyə nəzər salaq:

Bu işi görməkçün çox tələsirdi,
Şirinin işiyçün qəlbi əsirdi.
Fərhad külüng çaldı, daş quma döndü,
Dağlar zərbəsindən bir muma döndü.
Külüngü qart daşı hey yara-yara,
Daşların bağrında açırdı yara.

Otlaqdan başlayıb saraya qədər
Vermişdi baş-başa gözəl mərmərlər. [3, 287 s]

Aşağıdaki beytdə isə Nizamidən qaynaqlanan məqamlar vardır. Lakin nəzərə alaq ki, səbki-hindi şairlərində dərin bir iztirab hiss olunur. Naili öz iztirablarını Fərhadın naləsi ilə Bisütun dağında bütünləşdirir:

Bu ʿālem pāy tā ser kūh kūh-ı mihnet ü gamdur
Eder her tīşe-kār-ı ārzū bir Bī-sütūn peydā [7, 276 s]

Naili Qədimə görə bu dünya hər kəsə bərabər bölünmüş dağdır, dünyanın qəmi dağ boyda imtahandır. Hər dəfə dağa külüngü ilə zərbə vurduğunda sanki bir Bisutun daha yaranırdı. Bu bənzərliyi Nizamidə "Fərhadın dağ çaparaq nalə etməsi" hissəsində daha aydın görürük:

Aşırmaqçün dağı çırmandı candan,
Qırırdı ölçüsüz çox daşlar ondan,
O göstərdikcə qart daşlarda zor-güc,
Qopardırdı hasardan sanki bir bürc.
O Dincəlmirdi ta gəlmirdi axşam,
Yarırdı qart dağı, fikri dilaram.
O almaz kirpiyi yaqut deşirdi,
Qəmindən qart dağ ilə söyləşirdi. [3, 187 s]

Aşağıda Nişati divanından qeyd olunan beytdə Fərhad Bisütun dağını yararaq, parçaladığı hər ayrılmış daşla sevgilisinə özünü daha yaxın hiss edir və bu eşq ilə nalələri daha da artır. Onun çəkdiyi həsrət hissi bu beytdə öz əksini tapmışdır. Çünki Fərhad Bisütun dağına Şirini rəsm edib. Rəsminə vurduğu hər zərbə üçün utanır və ağlayırdı:

Bî-sütûn-ı hecri ben bir eşk ile itdüm tebâh
Bâ'is-i şermendegî-i tîşedür her katresi [8, 205 s]

Aşağıdaki nümunədən də göründüyü kimi, Nişatinin beyti Nizaminin eşq dastanındaki "Fərhadın dağ çaparaq ağlaması" hissəsi ilə yaxından səsləşir:

Təbiltək qəlbindən qalxardı fəğan:
"Rəssamlar gözünün mehrabı sənsən.
Qəlbi dərdlilərə dərman verənsən!
Sən, ey gümüşbədən, daş qəlbli dilbər,
Eşqinin yolunda oldum dərbədər!
Sən gövhərtək daşda ayağı bağlı,
Mən gövhərtək daşdan ürəyi dağlı."
Qarşısında durub ağlayır zar-zar,
Sonra deyərdi ki: "Əfv et, ey nigar!" [3, 304 s]

2. Hind səbkində yaranmış divan şeiri və Nizaminin "Xosrov və Şirin"in digər qəhrəmanları

Nizami Gəncəvidə Xosrovun əsas obraz olduğunu baxmayaraq, qarşı-qarşıya qoyduğu obraz Fərhdaddır. İki aşiq fərqli şəkildə üz-üzə qalırlar. Fərhad Xosrovun rəqibidir. Nəfi divanında yer alan beyti Nizaminin eşq dastanı kontekstində şərh edə bilərik:

Nitekim ola esâs-ı kasr-ı gerdûn pâyidâr

Zîver-i eyvân ola ana nücûm u kehkeşân [6, 192 s]

Şairə görə, həqiqətən Şirinin qəsri Xosrovun əbədi dünyasıdır. Xosrovun ulduzlarla zəngin süd yolu eyvanını bəzəyən bir süs olar. Yəni, Şirinə gedən yol ulduzlarla bəzənər. Nəfinin yuxarıdaki beytində Nizami ilə bənzərliyi çoxluq təşkil edir. Nizamidə də Şirinin qəsrinə gedən yolu gecələr göydə görünən ulduzlar şəklində izah olunur. Nizaminin "Xosrov və Şirin" dastanından qeyd olunan nümunə dediklərimizi təsdiqləyir:

O qəsri-Şirinə gedən süd çayı,

Xosrovun ovlağı, zəngin sarayı. [3, 67 s]

Nəticə

Nizami Gəncəvi Azərbaycan və dünya ədəbiyyatında bütün dövrlərin ən çox tədqiq olunan nadir şəxsiyyətlərindəndir. Xüsusilə də eşq dastanlarından olan "Xosrov və Şirin" mövzusuna çox sayda şair müraciət etmiş, Nizami ənənələrini yüzillər boyu yaşatmışlar. Şairin zəngin yaradıcılığı səbki-hindi şeirlərinin də ideya mövzusu olmuş, yeni məzmunların yaranmasına yol açmışdır. Nizamidə olduğu kimi, səbki-hindi şairlərində də Fərhad əzmli, iradəli obrazdır. Fərhad obrazı səbki-hindi şairlərinin əzablı, iztirab dolu həyatı ilə vəhdət təşkil etmişdir.

Ədəbiyyat

1. Y.Bertels. Böyük Azərbaycan şairi Nizami. Bakı: Təhsil, 2017.

2. Əliyar Səfərli və Xəlil Yusifli. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: Ozan, 2008.

3. Nizami Gəncəvi. Xosrov və Şirin. Bakı: "Lider" nəşriyyatı, 2004.

4. Saib Təbrizi. Seçilmiş əsərləri. Bakı, "Öndər" nəşriyyat, 2004

5. Qövsi Təbrizi. Seçilmiş əsərləri. Bakı: "Lider" nəşriyyatı, 2005.

6. Nefi Ömer Efendi. Nefi divanı. Ankara: Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü, 2018.

7. Naili Kadim. Naili divanı. Ankara: Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü, 2019.

8. Neşati Ahmet Dede. Neşati divanı. Ankara: Kütüphaneler ve Yayımlar Genel Müdürlüğü, 2019.

9. https://ekitap.ktb.gov.tr/Eklenti/10654,metinpdf.pdf?0

Hind səbki şeirində Fərhad obrazı
(Nizaminin “Xosrov və Şirin”i ilə müqayisəli araşdırma)

Xülasə

Nizami Gəncəvi bəşəriyyətin fəlsəfi və bədii fikir salnaməsində yeni səhifə açmış məşhur şəxsiyyətlərdən olmuşdur. Mütəfəkkir yalnız öz dövrünün deyil, bütün dövrlərdə fəlsəfi fikir nümayəndələrinin həyat və yaradıcılığı mövzu istinadgahı olmaqdadır. Səbki-hindi şeirlərində Nizami mövzuları müraciət edilmişdir.

Məqalədə səbki-hindi şairlərindən Saib Təbrizi, Qövsi Təbrizi, Nəfi, Naili, Nişati və Şeyx Qalibin divanları Nizaminin eşq dastanı ilə müqayisə olunur. Səbki-hindi şairlərinin mürəkkəb üslubu və Nizaminin bütün zamanlarda qüvvədə qalan fəlsəfəsi onun obrazlarını yüzillər boyu ədəbiyyatın baş surətlərinə çevirmişdir. Məqalədə Nizami Gəncəvinin eşq dastanlarından birincisi olan “Xosrov və Şirin” qəhrəmanlarından Fərhad Saib Təbrizi, Qövsi Təbrizi, Nəfi, Naili, Neşati və Şeyx Qalibin divanları ilə müqayisəli şəkildə dəyərləndirilmiş, ənənə və yeniliklər təhlil edilmişdir.

Образ Фархада в поэме сабки на хинди
(Сравнительное исследование с "Хосров и Ширин" Низами)

Резюме

Низами Гянджеви был одной из известных личностей, открывших новую страницу в летописи философских и художественных идей человечества. Ориентиром является мыслитель не только своего времени, но жизнь и творчество представителей философских идей всех периодов. Темы Низами затрагиваются в стихах сабки-хинди.

В статье сравниваются диваны сабки-хиндийских поэтов Саиба Тебризи, Говси Тебризи, Нафи, Наили, Нешати и Шейха Галиба с любовным эпосом Низами. Сложный стиль сабки-хиндийских поэтов и оставшаяся актуальной на все времена философия Низами сделали его образы главными образами литературы на века. В статье анализируются диваны, традиции и новации одного из героев романа «Хосров и Ширин», первой из любовных историй Низами Гянджеви, Фархада Саиба Тебризи, Говси Тебризи, Нафи, Наили, Нешати и шейха Галиба.

The image of Farhad in the Hindi sabki poem
(Comparative study with Nizami's "Khosrov and Shirin")

SUMMARY

Nizami Ganjavi was one of the famous personalities who opened a new page in the annals of philosophical and artistic ideas of mankind. The thinker is not only of his time, but the life and creativity of representatives of philosophical ideas in all periods is the reference point. Nizami themes are addressed in Sabki-Hindi poems.

The article compares the divans of Sabki-Hindi poets Saib Tabrizi, Govsi Tabrizi, Nafi, Naili, Neshati and Sheikh Ghalib with Nizami's love epic. The complex style of Sabki-Hindi poets and Nizami's philosophy, which has remained valid for all time, have made his images the main images of literature for centuries. In the article, one of the heroes of "Khosrov and Shirin", the first of Nizami Ganjavi's love stories, Farhad Saib Tabrizi, Govsi Tabrizi, Nafi, Naili, Neshati and Sheikh Ghalib's divans, traditions and innovations are analyzed.

Redaksiyaya daxil olma tarixi: 03.05.2023
Çapa qəbul olunma tarixi: 15.05.2023
Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Səadət Şıxıyeva
tərəfindən çapa tövsiyə olunmuşdur

İÇİNDƏKİLƏR:

HEYDƏR ƏLİYEV – 100

ƏDİBƏ İSMAYILOVA
AZƏRBAYCANDA KİTABXANA QURUCULUĞUNUN
HEYDƏR ƏLİYEV MƏRHƏLƏSİ.....3

MƏMMƏDOVA ELNARƏ Adil q.
HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ.....15

DİLÇİLİK

MƏMMƏDOVA ELNARƏ ADİL qızı
KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNSAN PSİXOLOGİYASINA VƏ DİLİMİZƏ TƏSİRİ.....22

AFATSAFIKHANOVA
VALIDAABIYEVA
AYGUN ALCANOVA
THE IMPORTANCE OF LEARNING ENGLISH LANGUAGE.....29

ARƏSTƏ XUDIYEVA
İNGİLİS VƏ AZƏRBAYCAN DASTANLARINDA QƏHRƏMAN ADLARININ FOLKLOR SEMANTİKASI.....37

LAILA SAHIB GADIMOVA
TEXT AND SEMANTICS OF CONVERSION.....49

SAMİRƏ ADƏM QIZI ƏMRAHOVA
NƏSİRƏDDİN TUSİ ANTROPONİMİ HAQQINDA.....58

RƏFİYEVA ELNARƏ RAUF QIZI
DİL VƏ ONUN CƏMİYYƏTDƏ ROLU.....63

AYTAKIN GULIYEVA
THE SYNTACTIC DIFFERENCE BETWEEN SUBSTRUCTURE
AND SUPERSTRUCTURE AMBIGUITY IN ENGLISH.....68

ŞAHRUN SƏMƏDZADƏ
ALİ MƏKTƏBLƏRDƏ İNGİLİS DİLİNİN TƏDRİSİNDƏ LİNQVİSTİK MATERİALLARDAN İSTİFADƏNİN SƏMƏRƏLİ YOLLARI..... 80

AFATSAFIKHANOVA
VALIDAABIYEVA
IRADA IBRAHIMOVA
THE USE OF INOVATIONS IN FOREIGN LANGUAGES ANR THEIR
AZERBAIJAN EQVIVALENTS.....87

AĞAYEVA NƏRGIZ
MÜRƏKKƏB SÖZLƏR VƏ QOŞA SÖZLƏR.....95

İLKNUR ƏSGƏROVA
KLASSİK AZƏRBAYCAN POEZİYASINDA SAY SİMVOLİZMİ.....103

SƏBINƏ ƏHMƏD QIZI MUXTAROVA
Ə.ABDULLAYEV YARADICILIĞINDA ƏLİFBA MƏSƏLƏSİ.....111

SAMİRƏ ADƏM QIZI ƏMRAHOVA
NƏSIRƏDDIN TUSI ANTROPONIMI HAQQINDA.....123

TAMARA ŞƏRBƏT QIZI ƏLIZADƏ
BƏNZƏRSİZ DİL ABİDƏMİZ.....128

AYSEL HASANOVA NOVRUZ GIZI
LANGUAGE ACCENT AND DIALECT IN NORTHERN IRELAND.....134

RƏHİMOVA GÜLNARA SAHİB QIZI
SPEECH DIFFICULTIES AFTER A TRAUMATIC
BRAIN INJURY.....143

HƏMZƏYEVA TALIYƏ SALEH
İNGİLİS DİLİNDƏN ALINMALARIN
SEMANTİK MƏNİMSƏNİLMƏSİ.....150

İLAHƏ MƏMMƏDOVA
DİL TƏDRİSİNDƏ SOSİOLİNQVİSTİKANIN VACİBLİYİ.....157

İBRAHİMOVA NİGAR FƏRMAN QIZI
DIE VERANSTALTUNG DER INTENSIVIERUNGSSTUNDEN.....165

MƏHƏRRƏMOVA AYSEL HABIL QIZI
XARİCİ DİLİN ÖYRƏNİLMƏSİNDƏ KURİKULUMUN
MƏZMUN XƏTLƏRİNİN ROLU.....172

HÜSEYNOVA AYSU QƏNBƏR QIZI
DİL UNİVERSALİLƏRİNİN NÖVLƏRI.....179

MAHMUDAĞA SARIBALA OĞLU QASIMOV
CƏLİLABAD RAYON ŞİVƏLƏRİNDƏ BƏZİ SÖZLƏRDƏ
SAİT SƏS ARTIMI.....185

NƏRMİN NATİQ QIZI ATAŞOVA
İNGİLİS DİLİNDƏ DANIŞIQ BACARIĞININ İNKİŞAFINDA
DİGƏR DİL BACARIQLARININ ROLU.....190

RƏHİMOVA GÜLNARA SAHİB QIZI
HOW ENGLISH BECAME THE GLOBAL LANGUAGE.....196

GÜNEL YUSİFLİ-MƏMMƏDBƏYLİ
XARİCİ DİLİNİN TƏDRİSİ ZAMANI İSTİFADƏ OLUNAN FƏRQLİ METODLAR....204

FEYZULLAYEVA GÜNEL
İNTONASİYA VƏ ONUN ROLU.....210

YUSUBOVA GÜLNAR VIDADI QIZI
FRAZEOLOGIYAYA DAR VƏ GENİŞ MƏNADA BAXIŞ.....215

ƏZİZƏ ZÜLFÜQAROVA
İNGİLİS DİLİNİN TARİXİ VƏ ONUN DİGƏR DİLLƏRƏ TƏSİRİ.....222

ABBASLI ELMİR ELŞƏN
ƏCNƏBİLƏRİN YAPON DİLİ ÖYRƏNƏRKƏN QARŞILAŞDIQLARI
ƏSAS PROBLEMLƏR.....227

MAHNUR BAYANDUR Q.ŞIRINOVA
THE PECULARITIES OF THE PREPOSITIONAL
PHRASEOLOJICAL UNITS.....234

DÜRDANƏ ƏSƏD QIZI NAĞIYEVA
NİTQ MƏDƏNİYYƏTİNİN İCTİMAİ ƏHƏMİYYƏTİ.....243

MƏRYƏM ƏSƏDOVA NAMİQ QIZI
İTALYAN DİLİNDƏ KEÇMİŞ ZAMANIN LEKSİK ASPEKTİ.....249

ƏDƏBİYYATŞÜNASLIQ

BİLAL HÜSEYNAĞA OĞLU HÜSEYNOV
AZƏRBAYCAN FOLKLORUNDA DEYİMLƏRİN JANR XÜSUSİYYƏTLƏRİ.....257

ABDULLAYEVA KÖNÜL TƏVƏKKÜL QIZI
AZƏRBAYCAN ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏR.....276

ÜLKƏR İMAN QIZI ƏLIYEVA
ŞƏHƏR FOLKLOR MÜHİTİNİN ƏSAS XÜSUSİYYƏTLƏRİ: SALAMLAŞMA VƏ
SALAMATLAŞMA.....283

QULIYEVA GÜNEL RAMIZ QIZI
ŞAKİRLİ GÜNEL İSRAFIL QIZI
SEYID ƏZIM ŞIRVANININ AZƏRBAYCAN MƏTBUATINDA ROLU.....293

RƏNA RZAYEVA
«ƏDALƏT» ANLAYIŞI VƏ ONUN
ƏBUBƏKR İBN XOSROV ƏL-USTADIN «MUNİSNAMƏ»SİNDƏ YERİ 302

ƏFƏNDIYEVA NAİRƏ PÜNHAN QIZI
ALBERTO MORAVİANIN HEKAYƏLƏRİNİN
BƏDİİ XÜSUSİYYƏTLƏRİ 310

GÜNAY SÜLEYMANOVA ŞAKIR
DANİEL KİZ VƏ ONUN ELMİ FANTASTİK ƏSƏRLƏRİ HAQQINDA 317

TAHIRƏ FƏRMAN QIZI YUSIFOVA
N. GƏNCƏVİNİN YARADICILIĞINDAN NÜMUNLƏRİN ÖYRƏDİLMƏSİ
PROSESİNDƏ ŞAGİRDLƏRDƏ MƏNƏVİ TƏRBİYƏNİN FORMALAŞDIRILMASI 324

VERDİYEVA ZÜLFİYYƏ VAHID QIZI
ƏDƏBİYYAT DƏRSLƏRİNDƏ SƏNƏTKARIN HƏYAT VƏ YARADICILIĞININ
ÖYRƏDİLMƏSİ YOLLARI.....334

MAYA AĞAMIRZƏQIZI
(ABDULLAYEVA)
RAMİZ RÖVŞƏN ŞEİRLƏRİNDƏ SÖZÜN MİSTİK OBRAZI.....342

AYDAN RƏSULZADƏ
TƏLƏBƏLƏRİN SƏVİYYƏLƏR ÜZRƏ QİYMƏTLƏNDİRMƏ
STANDARTLARI VƏ EFFEKTİV QİYMƏTLƏNDİRMƏ.....348

ŞƏFİQƏ NƏCƏFOVA
ŞEKSPİR "SONET"LƏRİNDƏ GÖZƏLLİK ANLAYIŞININ FUNKSİONAL
SƏVİYYƏLƏRİ.....358

NƏRMİN ZEYNALOVA
ƏDƏBİYYATIN TƏDRİSİ VƏ ÇAĞDAŞ İŞ ÜSULLARI 367

HƏMİDOVA NƏRMİN
MÜASİR DÖVR AVSTRALİYA NƏSRİ VƏ MARKUS ZUSAK
YARADICILIĞI 373

MUXTAROVA TƏBƏSSÜM DADAŞ QIZI
İLQAR FƏHMİNİN "AKTRİSA" ƏSƏRİ VƏ RÖVŞƏN İSAXIN EYNİADLI FİLMİ 382

HÜSEYN HÜSEYNLİ
HÜSEYN CAVİDİN MƏNSUR DRAMLARINDA
LİRİK PARÇALAR.....400

DÜRDANƏ DADAŞOVA TAŞDELEN
SİNİF İNTİZAMINDA SƏLAHİYYƏT VƏ AVTOKRATİKA 412

ŞƏMILOVA DÜNYA MƏRDAN
XAQANI ŞIRVANI YARADICILIĞINDA QURAN QISSƏLƏRI
İDEYA-BƏDII QAYNAQLARDAN BIRI KIMI 420

ZEYNALLI ŞƏBNƏM
MIKAYIL MÜŞFIQIN "ŞƏNGÜLÜM, ŞÜNGÜLÜM, MƏNGÜLÜM"
NAĞILININ POETIK XÜSUSIYYƏTLƏRI 428

FƏRİDƏ ÇİNGİZ
HİND SƏBKİ ŞEİRİNDƏ FƏRHAD OBRAZI 437

"Elm və təhsil" nəşriyyatının direktoru:
İNAL MƏMMƏDLİ

Dizayner: Kamran İbrahimov
Texniki redaktor: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 08.05.2023
Şərti çap vərəqi 27,5. Sifariş № 156
Kağız formatı 60x84 1/8. Tiraj 300

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində nəşr olunmuşdur.
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4